

*Bu gün biz müstəqil ölkə kimi yaşayırıq,*
*müstəqil siyasət aparırıq, heç kimin işinə qarışmırıq,*
*heç kimə də imkan vermirik ki, bizim işimizə qarışsın.*
*Əminəm ki, biz bundan sonra da*
*bu müstəqillik və inkişaf yolu ilə gedəcəyik.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:

## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2020**
**1 (69)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2020**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Ramiz Mehdiyev, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Etibar Nəcəfov, Ziyafət Həbibova, Elçin Əhmədov, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Rəcəb Rəhimli, Sevil Məmmədova, Fəxrəddin Nağıyev, Firdovsiyyə Əhmədova***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2020, №1(69).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2020, 336s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2020*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2020
1 (69)

ACADEMY OF PUBLIC ADMINISTRATION

BAKU – 2020

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Ramiz Mehdiyev, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Etibar Najafov, Ziyafet Habibova, Elchin Ahmadov, Khatira Huseynova, Gulnara Gurbanova, Rajab Rahimli, Sevil Mammadova, Fakhraddin Naghiyev, Firdovsiyya Ahmadova***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2020, №1(69)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2020, 336p.*

*© Academy of Public Administration, 2020*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

*Yanvar – fevral – mart 2020-ci il*

## Yanvar

**4 yanvar**
- Müqəddəs Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını təbrik etmişdir.

**8 yanvar**
- Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar Anar Quliyevi qəbul etmişdir.
- Tehran şəhəri yaxınlığında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar İran İslam Respublikasının Prezidenti Həsən Ruhaniyə başsağlığı vermişdir.
- Tehran şəhəri yaxınlığında Ukrayna Beynəlxalq Hava Yollarına məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Ukraynanın Prezidenti Vladimir Zelenskiyə başsağlığı vermişdir.

**9 yanvar**
- Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkətinin idarə heyətinin sədri Mohammad Abunayyanı və Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətinin icraçı direktoru Mohammed Jameel Al Ramahini qəbul etmişdir.

**11 yanvar**
- Görkəmli dövlət xadimi, Omanın Sultanı Əlahəzrət Qabus bin Səidin vəfatı ilə əlaqədar Omanın Sultanı Əlahəzrət Heytəm bin Tariq Al Səidə başsağlığı vermişdir.

**13 yanvar**
- 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə iştirak etmişdir. Müşavirədə giriş və yekun nitqi söyləmişdir.
- Ölkəsinin Federal Kansleri kimi fəaliyyətə başlaması münasibətilə Avstriya Respublikasının Federal Kansleri Sebastian Kurtsu təbrik etmişdir.
- Xorvatiya Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Xorvatiya Respublikasının yeni seçilmiş Prezidenti Zoran Milanoviçi təbrik etmişdir.

**14 yanvar**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə görkəmli neftçi-alim və geoloq, SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadənin 90 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak və çıxış etmişdir.

**15 yanvar**
- Omanın yeni Sultanı elan olunması münasibətilə Omanın Sultanı Əlahəzrət Heytəm bin Tariq Al Səidi təbrik etmişdir.

**20 yanvar**
- Qanlı Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar Şəhidlər Xiyabanına gələrək 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad etmiş, “Əbədi məşəl” önünə əklil qoymuşdur.
- Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri başlamışdır.
- Davosda “VTB Bank”ın prezidenti-idarə heyətinin sədri Andrey Kostinlə görüşmüşdür.
- Davosda “Carlyle Group” şirkətinin həmtəsisçisi Devid Rubenşteynlə görüşü olmuşdur.
- Davosda “CISCO” şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramerlə görüşmüşdür.
- Dünya İqtisadi Forumu çərçivəsində Davosda Rusiyanın “Rossiya-24” televiziya kanalına müsahibə vermişdir.

**21 yanvar**
- Davosda “Carlsberg Group” şirkətinin baş icraçı direktoru Cees’t Hart ilə görüşmüşdür.
- Davosda “Signify” şirkətinin baş icraçı direktoru Erik Rondolat ilə görüşü olmuşdur.
- Davosda Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu ilə görüşmüşdür.
- Davosda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşmüşdür.
- Sonra Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə “Dünya İqtisadi Forumunun Azərbaycanda afilə edilmiş regional mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu”nun imzalanması mərasimində iştirak etmiş və niyyət protokolunu imzalamışdır.
- Davosda Xorvatiya Respublikasının Baş Naziri Andrey Plenkoviç ilə görüşmüşdür.
- Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə görüşmüşdür.
- Davosda Rusiyanın “LUKOIL” şirkətinin prezidenti Vahid Ələkbərov ilə görüşmüşdür.
- Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən “Avrasiya üçün yeni baxış - dayanıqlı inkişaf üçün tərəfdaşlıq” mövzusunda iclasda iştirak etmişdir.
- Davosda Pakistan İslam Respublikasının Baş Naziri İmran Xan ilə görüşü olmuşdur.
- Davosda Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşmüşdür.
- 70 illik yubileyi münasibətilə TASS-ın baş direktorunun birinci müavini cənab Mixail Qusmanı təbrik etmişdir.

**22 yanvar**
- Davosda "SUEZ Group"un yeni baş icraçı direktoru Bertran Kamusla görüşmüşdür.
- Davosda Polşa Respublikasının Prezidenti Andjey Duda ilə görüşmüşdür.
- Davosda Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa ilə görüşmüşdür.
- Davosda BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşmüşdür.
- Davosda Gürcüstanın Baş Naziri Giorgi Qaxariya ilə görüşü olmuşdur.
- Davosda İsveçrə Konfederasiyasının Prezidenti xanım Simonetta Sommaruqa ilə görüşü olmuşdur.
- Davos Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirak etmiş və panelin moderatorunun suallarını cavablandırmışdır.

**23 yanvar**
- Davosda "Swiss Re" şirkətinin ictimaiyyətlə əlaqələr üzrə sədri Veronika Skotti ilə görüşmüşdür.
- Davosda "Procter and Gamble Europe" şirkətinin prezidenti Loik Tassel ilə görüşü olmuşdur.
- Ölkəsinin milli bayramı – Avstraliya günü münasibətilə Avstraliya İttifaqının General-Qubernatoru Devid Con Hörlini təbrik etmişdir.

**24 yanvar**
- Davosda "Equinor" şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşmüşdür.
- Davosda İsveçrənin Montrö şəhərinin meri, Azərbaycan-İsveçrə Dostluq Qrupunun həmsədri Loran Verli ilə görüşü olmuşdur.

**29 yanvar**
- Fransa Respublikasının Prezidenti Emmanuel Makron ona telefonla zəng edərək, qarşılıqlı maraq doğuran bir sıra məsələləri, o cümlədən ikitərəfli və regional təhlükəsizlik sahəsində əməkdaşlıq, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesini müzakirə etmişdir.

**30 yanvar**
- ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tseretelini qəbul etmişdir.

**31 yanvar**
- Ölkəsinin milli bayramı – Müstəqillik günü münasibətilə Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti Qotabaya Racapaksanı təbrik etmişdir.

## Fevral

**3 fevral**
- "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda iştirak etmişdir. Konfransda giriş və yekun nitqi söyləmişdir.
- Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətinə görə Polad Bülbüloğluna "Heydər Əliyev" ordenini təqdim etmişdir.

**4 fevral**
- Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul etmişdir. Qəbul zamanı 60 illik yubileyi münasibətilə Vasif Talıbova "Şərəf" ordenini təqdim etmişdir.

**5 fevral**
- Qırğız Respublikasının Xarici İşlər naziri Çingiz Aydarbekovu qəbul etmişdir.
- Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qəbul zamanı Mövlud Çavuşoğluna "Dostluq" ordenini təqdim etmişdir.

**6 fevral**
- NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Rusiya Federasiyasının TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana "Şərəf" ordenini təqdim etmişdir.
- "Stadler Rail AG" şirkətinin Direktorlar Şurasının sədri Peter Şpuleri qəbul etmişdir.
- Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi-Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**7 fevral**
- Ölkəsinin milli bayramı - İslam İnqilabının Qələbəsi Günü münasibətilə İran İslam Respublikasının Prezidenti Həsən Ruhanini təbrik etmişdir.

**9 fevral**
- Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən növbəti seçkilər münasibətilə Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsinə gələrək səs vermişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ona telefonla zəng edərək, Azərbaycanda keçirilən parlament seçkilərində onun rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının qələbə qazanması münasibətilə onu təbrik etmiş və yeni parlamentə fəaliyyətində uğurlar arzulamışdır.

**10 fevral**
- Bakının Pirallahı rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin əsaslı şəkildə yenidən qurulan 110/35/6 kilovoltluq "Dübəndi" yarımstansiyasının açılışında iştirak etmişdir.
- Burada yaradılan şəraitlə tanış olandan sonra "Dübəndi" yarımstansiyasının kollektivi ilə görüşmüşdür.
- Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

- MDB İcraiyyə Komitəsi müşahidə missiyasının rəhbəri, Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- MDB-nin müşahidə missiyasının rəhbəri, MDB İcraiyyə Komitəsi sədrinin birinci müavini Viktor Quminskini qəbul etmişdir.
- Gürcüstanın Baş Naziri Giorgi Qaxaria ona telefonla zəng edərək, rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının parlament seçkilərində inamlı qələbə qazanması münasibətilə ona təbriklərini çatdırmışdır.

**11 fevral**
- Birinci xanım Mehriban Əliyeva və qızı Leyla Əliyeva ilə birlikdə Heydər Əliyev Mərkəzində musiqi mədəniyyətimizin görkəmli nümayəndəsi, Xalq artisti Əlibaba Məmmədovla görüşmüş və ona “Şərəf” ordenini təqdim etmişdir.
- Sonra burada təşkil olunan bir neçə sərgi ilə tanış olmuşdur.

**12 fevral**
- Kürdəmir rayonuna səfərə gəlmişdir.
- Əvvəlcə Kürdəmir şəhərindəki Heydər Əliyev Parkında Ümummilli Liderin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Kürdəmir rayonuna səfəri çərçivəsində Pirili-Muradxan-Sor-Sor avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.
- Kürdəmir rayonunun Karrar qəsəbəsində “Qlobal Aqro” Məhdud Məsuliyyətli Cəmiyyətinin aqroparkının açılışında iştirak etmişdir.
- Kürdəmirdə “ASAN xidmət” mərkəzinin açılışında iştirak etmişdir.
- Sonra ASAN könüllüləri ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- Daha sonra “ASAN Həyat” kompleksinin tərkibindəki “ABAD Food Hall”un fəaliyyəti ilə tanış olmuş, burada nümayiş etdirilən məhsulların nümunələrinə baxmışdır.
- “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Kürdəmir filialının açılışında iştirak etmişdir.
- Sonra müəssisənin kollektivi ilə görüşüb söhbət etmişdir.
- Serbiya Respublikasının milli bayramı münasibətilə Prezident Aleksandr Vuçiçi təbrik etmişdir.

**13 fevral**
- Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Litva Respublikasının Prezidenti Gitanas Nausedanı təbrik etmişdir.

**13 fevral**
- 56-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasına səfəri başlamışdır.
- Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms və assosiasiyanın Cənubi Qafqaz ölkələri üzrə işçi qrupunun rəhbəri, “Veridos GmbH” şirkətinin baş icraçı katibi Andreas Reşmayer ilə görüşmüşdür.

**14 fevral**
- Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Vladimir Norov ilə görüşmüşdür.
- Münxen Təhlükəsizlik Konfransı çərçivəsində “Enerji təhlükəsizliyi” mövzusunda dəyirmi masada iştirak və çıxış etmişdir.
- Münxendə Küveyt Dövlətinin Baş Naziri Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah ilə görüşmüşdür.
- Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Peter Maurer ilə görüşmüşdür.
- Münxendə Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol ilə görüşmüşdür.
- Münxendə “Leonardo” şirkətinin baş icraçı direktoru Alessandro Profumo ilə görüşü olmuşdur.
- Münxendə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşmüşdür.
- Münxendə Moldova Respublikasının Prezidenti İqor Dodon ilə görüşmüşdür.
- Münxendə Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşmüşdür.
- Münxendə Avropa İttifaqının büdcə və administrasiya məsələləri üzrə komissarı Yohannes Han ilə görüşü olmuşdur.

**15 fevral**
- Münxendə Beynəlxalq Böhran Qrupunun prezidenti və baş icraçı direktoru Robert Malley ilə görüşmüşdür.
- Münxendə Dünya Bankının icraçı direktoru Aksel van Trotsenburq ilə görüşü olmuşdur.
- Münxendə Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü keçirilmişdir.
- Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistanın baş naziri Nikol Paşinyan ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair keçirilən panel müzakirələrində iştirak etmişdir.

**18 fevral**
- Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimlini qəbul etmişdir.

**19 fevral**
- İtaliya Respublikasına dövlət səfərinə gəlmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızı Leyla Əliyeva ilə birlikdə Romadakı məşhur “Villa Borghese” parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.

**20 fevral**
- Romanın Kuirinale Sarayında rəsmi qarşılanma mərasimindən sonra İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə təkbətək görüşü olmuşdur.
- Təkbətək görüş başa çatandan sonra İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə hər

iki tərəfin nümayəndə heyətlərinin də iştirak etdiyi geniş tərkibdə görüşü olmuşdur.
- Geniş tərkibdə görüşdən sonra İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə mətbuata bəyanatla çıxış etmişdir.
- Qarşılanma mərasimindən sonra İtaliya Respublikası Nazirlər Şurasının Sədri Cüzeppe Konte ilə təkbətək görüşü olmuşdur.
- Təkbətək görüş başa çatandan sonra İtaliya Respublikası Nazirlər Şurasının Sədri Cüzeppe Konte ilə hər iki tərəfin nümayəndə heyətlərinin də iştirak etdiyi geniş tərkibdə görüşü olmuşdur.
- Geniş tərkibdə görüşü başa çatandan sonra İtaliya Respublikası Nazirlər Şurasının Sədri Cüzeppe Konte ilə Azərbaycan-İtaliya sənədlərinin mübadiləsi mərasimində iştirak etmiş, "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"ni mübadilə etmişdir.
- İtaliya Respublikası Senatının Sədri, senator xanım Maria Elisabetta Alberti Kaselatti ilə görüşmüşdür.
- Romada İtaliyanın ən böyük maliyyə-bank qurumu olan "Cassa Depositi Prestiti SpA"nın və bu ölkənin dünya səviyyəsində məşhur olan 10-dan çox ən iri, aparıcı sənaye və maliyyə qruplarının rəhbərləri ilə birgə işçi nahar etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Romadakı "Altare della Patria" memorial kompleksində naməlum əsgər abidəsini ziyarət etmiş, abidə önünə əklil qoymuşdur.
- İtaliya Respublikası Deputatlar Palatasının sədri Roberto Fiko ilə görüşmüşdür.
- Romadakı Kuirinale Sarayında İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın adından onun şərəfinə verilmiş dövlət ziyafətində iştirak və çıxış etmişdir.
- Birinci xanım Mehriban Əliyeva, İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella ilə birlikdə Romadakı Kuirinale Sarayında "2020-ci il – İtaliyada Azərbaycan Mədəniyyət İli"nin açılışı münasibətilə təqdim olunan konsert proqramını dinləmişdir.

**21 fevral**
- Romada keçirilən Azərbaycan-İtaliya biznes forumunda iştirak iştirak və çıxış etmişdir.
- Romanın Kuirinale Sarayında onun şərəfinə rəsmi yolasalma mərasimi təşkil olunmuşdur.
- Roma şəhərinin meri xanım Vircinia Raggi ilə görüşmüşdür.
- Görüşdən sonra Roma meri xanım Vircinia Raggi ilə şəhərin qədim ərazisinin qalıqlarına baxmışdır.
- Roma meriyasının Xatirə kitabına ürək sözlərini yazmışdır.
- Sonra "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi ilə Roma şəhər meriyası arasında əməkdaşlıq haqqında bəyannamənin imzalanması mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Romada Azərbaycan Mədəniyyət Mərkəzi üçün nəzərdə tutulan bina ilə tanış olmuşdur.

**22 fevral**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Vatikanda olmuşdur.
- Rəsmi qarşılanma mərasimindən sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Katolik Kilsəsinin rəhbəri Papa Fransisk ilə görüşmüşdür.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşü olmuşdur.
- Sonra kardinal Pietro Parolinin mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya Papa Cəngavər Ordeninin ən ali dərəcəsi olan IX Piy Ordeninin Böyük Xaçını (Dama di Gran Croce dell'ordine Piano) təqdimetməsi mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızı Leyla Əliyeva ilə birlikdə Vatikanda Sikstin Kapellası və Müqəddəs Pyotr Kilsəsi ilə tanış olmuşdur.
- İtaliya Respublikasına dövlət səfəri başa çatmışdır.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Estoniya Respublikasının Prezidenti xanım Kersti Kalyulaydı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Təvəllüd Günü münasibətilə Yaponiyanın İmperatoru Əlahəzrət Naruhitonu təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Bruney Darüssalamın Sultanı Əlahəzrət Hacı Həssənal Bolkiahı təbrik etmişdir.

**24 fevral**
- Ölkəsinin milli bayramı münasibətilə Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabahı təbrik etmişdir.

**25 fevral**
- Rəsmi qarşılanma mərasimindən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.
- Təkbətək görüş başa çatandan sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasında iştirak və çıxış etmişdir.
- İclas başa çatdıqdan sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimində iştirak etmiş, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının səkkizinci iclasının Protokolu"nu imzalamışdır.
- Sənədlərin imzalanması mərasimindən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Onun tərəfindən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın şərəfinə verilən ziyafətdə. iştirak etmişdir.
- Ziyafətdən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı yola salmışdır.

**26 fevral**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar Bakının Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önündə keçirilən anım mərasimində iştirak etmişdir.
- Xocalı soyqırımı abidəsinin önünə əklil qoymuş, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildimişdir.
- ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donnellinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, qardaş Türkiyənin firavanlığı naminə ona fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.

**27 fevral**

- Böyük Britaniyanın Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Artur Rasi-zadəyə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenini təqdim etmişdir.

**28 fevral**

- Bakı şəhərində Heydər Əliyev prospekti ilə Zəki Məmmədov küçəsinin kəsişməsindəki yeraltı piyada keçidinin açılışında iştirak etmişdir.
- Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin VI toplantısında iştirak etmiş və nitq söyləmişdir.

## Mart

**2 mart**

- Mərkəzi Neftçilər Xəstəxanasının yanında Şah İsmayıl Xətainin heykəlinin köçürüldüyü yeni salınmış parka gəlmiş, heykəlin önünə gül dəstələri qoymuşdur.
- Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rafal Poborskinin etimadnaməsini qəbul etmişdir.

**3 mart**

- Rusiya Federasiyasının Rostov vilayətinin qubernatoru Vasili Qolubevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Yurgen Riqterinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Goranboy rayonuna səfərə gəlmişdir.
- Goranboy şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Goranboy rayonuna səfəri çərçivəsində Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu avtomobil yolunun yenidənqurmadan və bərpadan sonra açılışında iştirak etmişdir.
- Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak etmişdir.
- Sonra xəstəxananın kollektivi ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Goranboy filialının fəaliyyəti ilə tanış olmuşdur.
- Şəmkir rayonuna səfərə gəlmişdir.
- Əvvəlcə Şəmkir şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Şəmkir-Abbaslı-Nərimanlı avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.
- "Şəmkirçay" Sutəmizləyici Qurğular Kompleksinin açılış mərasimində iştirak etmişdir.
- Sonra kompleksin kollektivi ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qazax filialının fəaliyyəti ilə tanış olmuşdur.
- Qazax Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak etmişdir.
- Qazaxda əhəng zavodunun açılışında iştirak etmişdir.
- Sonra burada rayon ictimaiyyətinin bir qrupu və zavodun kollektivi ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- Daş Salahlı-Ürkməzli-Dəmirçilər avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.
- Qazax rayonunda səfərdə olmuşdur.
- Qazax şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Prezident Rumen Radevi təbrik etmişdir.

**4 mart**

- Ağstafa rayonuna səfərə gəlmişdir.
- Ağstafa şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Ağstafa filialının fəaliyyəti ilə tanış olmuşdur.
- Ağstafa rayonuna səfəri çərçivəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak etmişdir.
- Sonra hərbi hissədə yaradılan şəraitlə tanış olmuşdur.
- Daha sonra Daxili Qoşunların hərbi silah-sursat və texnikasına baxmışdır.
- Ağstafa-Yenigün-Xətai-Qaçaq Kərəm-Poylu-Xılxına avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında iştirak etmişdir.
- Yenidən qurulan 110/35/10 kilovoltluq "Ağstafa" elektrik yarımstansiyasının açılışında iştirak etmişdir.
- Ağstafa Aqrar Sənaye Kompleksinin açılışında iştirak etmişdir.
- Sonra müəssisədə istehsal olunan məhsullara baxmışdır.
- Daha sonra müəssisənin kollektivi ilə görüşmüş və görüşdə çıxış etmişdir.

• Müdafiə Nazirliyinin Ağstafada yeni inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak etmişdir.
• Sonra Hərbi hissədə Müdafiə naziri, Baş qərargah rəisi və birlik komandirinin iştirakı ilə operativ müşavirə keçirmişdir.
• Daha sonra ona ən müasir yeni hərbi texnikalar təqdim olunmuşdur.
• Tovuz rayonunda səfərdə olmuşdur.
• Tovuz şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
• "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Tovuz filialının fəaliyyəti ilə tanış olmuşdur.
• Tovuz rayonuna səfəri çərçivəsində Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyinin açılışında iştirak etmişdir.
• Tovuzda Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak etmişdir.
• Sonra muzeyin eksponatları ilə tanış olmuşdur.
• Burada nümayiş olunan tarixi xəritələrlə bağlı iradlarını bildirmişdir.
• Tovuzda Dövlət Rəmzləri Muzeyinin yeni binasının açılışında iştirak etmişdir.
• Tovuzda "ASAN Həyat" kompleksinin açılışında iştirak etmişdir.
• Sonra kompleksdə təqdim edilən innovativ yeniliklərlə tanış olmuşdur.
• İlk dəfə olaraq bu "ASAN Həyat" kompleksində inşa olunan "ABAD Factory" Bitkilərin Emalı və Qurudulması Fabrikini işə salmışdır.
• Komplekslə tanışlıqdan sonra "ASAN xidmət" əməkdaşları və könüllüləri ilə görüşmüş və görüşdə çıxış etmişdir.
• Tovuzda Qovlar–Əyyublu–Alakol–İbrahimhacılı–Yanıqlı–Ağacqala–Qoçdərə–Çobansığnaq–Yoğunbulaq–Sarıtala avtomobil yolunun yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir.

**5 mart**

• 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik etmişdir.
• Nahid Bağırovu İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı, Mirhəsən Seyidovu Neftçala Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul etmişdir.
• Gürcüstanın Müdafiə naziri İrakli Qaribaşvilini qəbul etmişdir.

**6 mart**

• Təşkilatın 100 illik yubileyi münasibətilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bütün üzvlərini təbrik etmişdir.

**10 mart**

• Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında iştirak etmiş və nitq söyləmişdir.

**11 mart**

• Rəsmi qarşılanma mərasimindən sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olmuşdur.
• Təkbətək görüş başa çatandan sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə hər iki tərəfin nümayəndə heyətlərinin də iştirak etdiyi geniş tərkibdə görüşü olmuşdur.
• Geniş tərkibdə görüşdən sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimində iştirak etmiş, "Birgə Bəyanatı" imzalamışdır.
• Sənədlərin imzalanması mərasimindən sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
• Onun tərəfindən Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun şərəfinə verilən rəsmi ziyafətdə iştirak etmişdir.

**13 mart**

• İrlandiyanın milli bayramı – Müqəddəs Patrik Günü münasibətilə Prezident Maykl Higginsi təbrik etmişdir.

**17 mart**

• Tunis Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident Kays Sayidi təbrik etmişdir.

**18 mart**

• Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonra açılışında iştirak etmişdir.
• Sonra Pirşağı stansiyasından qatarla Görədil dayanacağına yola düşmüşdür.
• Daha sonra Görədil dayanacağından Novxanı dayanacağına yola düşmüşdür.
• Burada dəmiryolçularla görüşmüşdür.
• Ölkəsinin milli bayramı – Pakistan Günü münasibətilə Pakistan İslam Respublikasının Prezidenti Arif Alvini təbrik etmişdir.
• Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə xanım Katerina Sakellaropulunu təbrik etmişdir.
• Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Banqladeş Xalq Respublikasının Prezidenti Md. Əbdül Həmidi təbrik etmişdir.

**19 mart**

• Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.

**24 mart**

• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Mənzil İnşaatı Dövlət Agentliyinin ikinci layihəsi olan Hövsan yaşayış kompleksinin açılışında iştirak etmişdir.
• Hövsan yaşayış kompleksi ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına müsahibə vetmişdir.

**28 mart**

• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakıda "Yeni klinika" tibb müəssisəsinin açılışında iştirak etmişdir.
• "Yeni klinika" tibb müəssisəsində yaradılan şəraitlə tanışlıqdan sonra xəstəxananın kollektivi ilə görüşmüş və görüşdə çıxış etmişdir.

**31 mart**

• İqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

### *Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar Anar Quliyevin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 8-də Anar Quliyevi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edib.

Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

-Mən sizi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə təyin edirəm. Siz hazırda sədrin birinci müavini vəzifəsində çalışırsınız. Bu, sizə göstərilən böyük etimad və sizin üçün böyük məsuliyyətdir. Çünki mənim tapşırığımla Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin funksiyaları genişləndirilib. Hazırda bu Komitənin şəhərsalma və memarlıq prinsiplərini müasir əsaslarla təşkil etmək üçün xüsusi rolu və əhəmiyyəti vardır.

Bakı çar Rusiyası dövründə və sovet dövründə sənaye şəhəri kimi formalaşıb. Təbii ki, sənayenin genişmiqyaslı inkişafı şəhərimizin ekoloji vəziyyətinə çox mənfi təsir göstərmişdir. Bir neçə il bundan əvvəl mənim göstərişimlə Bakıda geniş yenidənqurma və abadlıq işlərinə start verildi. Vəzifə ondan ibarət idi ki, biz Bakını parklar və bağlar şəhərinə çevirək və buna nail oluruq. Bu gün həm Bakı sakinləri bunu görür, həm də xarici qonaqlar bunu qeyd edirlər. Bakının ekologiyasını böyük dərəcədə çirkləndirən yerlər və müəssisələr artıq ləğv olunur. Onların yerində müasir, şəhərsalma qaydalarına uyğun yeni ictimai zonalar yaradılır. Biz, ilk növbədə, Bibiheybət buxtasının yaşıllaşdırılması, neft gölməçələrinin qurudulması və təmizlənməsi məsələsinə diqqət yetirdik. Vaxtilə ekoloji fəlakət mənzərəsini əks etdirən Bibiheybət buxtası indi yaşıllıq, park zonasıdır. Orada idman şəhərciyi, o cümlədən Su İdmanı Sarayı, digər idman və istirahət infrastrukturu yaradılıbdır.

Balaxanı zibilxanası digər tərəfdən şəhərimizin havasını çirkləndirirdi. Onilliklər ərzində biz bu acı reallıqla üz-üzə qalmışdıq. Orada yandırılan zibilin tüstüsü bütün şəhərimizin səmasını zəhər kimi bürüyürdü. Biz oranı da təmizlədik, müasir zibilyandırma zavodu, poliqon tikilibdir. Çoxdandır ki, orada məişət tullantılarının çeşidlənməsi prosesi təşkil edilib və artıq bu zona ekoloji təmiz zonaya çevrilib. O əraziyə bitişik olan Böyükşor gölünün təmizlənməsi layihəsi də çox böyük əhəmiyyət daşıyır. Ora da vaxtilə ekoloji fəlakət zonası idi. Çünki sovet vaxtında oraya həm kanalizasiya, həm də lay suları axıdılırdı, eyni zamanda, oradan açıq səma altında neft anbarı kimi istifadə olunurdu. Böyükşor gölünün birinci hissəsinin təmizlənməsi hesab edirəm ki, şəhər üçün tarixi hadisədir. Hazırda orada bir kilometr uzunluğunda bulvar salınıb və gölə quşlar da qonurlar. Bu da onu göstərir ki, təmizlik tam təmin edilibdir. Mən digər sahələri də sadalaya bilərəm, onlardan biri də Qara şəhərdir. İndi bəzilərinin yadından çıxır ki, biz maşınla o yerdən keçəndə pəncərələri bağlayırdıq. Çünki tüstüdən, iydən dayanmaq mümkün deyildi. Biz Qara şəhəri Ağ şəhərə çevirdik. Hesab edirəm ki, bu da dünya miqyasında ən böyük və ən müasir standartlara cavab verən şəhərsalma layihələrindən biridir. Artıq orada çoxmənzilli evlər tikilir, ictimai zonalar yaradılır. Qara şəhəri ləğv edib onun yerində ekoloji təmiz Ağ şəhər yaratmaq bizim növbəti tarixi xidmətimizdir.

"Sovetski” adlandırılan ərazidə yaşayış çox ağır idi. Yəni, bir-birinin içində olan köhnə daxma tipli tikililər həm ekoloji vəziyyətə çox mənfi təsir göstərirdi, həm də orada yaşayan insanlar və nəqliyyat üçün böyük problem yaradırdı. Yolların eni 2-3 metr idi. Biz böyük işlər görərək oradan da vətəndaşları kompensasiya əsasında köçürdük. Bəzilərinə yeni evlər verildi, bəzilərinə pul təminatı. İndi orada fəaliyyət göstərən Mərkəzi Park dünya miqyasında ən gözəl parklardan biridir. Bütün bunlar görülən işlərin bir hissəsini təşkil edir. Bütün işləri sadalamaq üçün günlərlə vaxt lazımdır. Görülən işlər onu sübut edir ki, Bakı şəhərinin inkişafına, havasının təmizlənməsinə və nəticə etibarilə, vətəndaşların rahat yaşamasına nə qədər böyük diqqət göstərilir. İndi Bakı bulvarı 15 kilometr uzunluğunda gözəl bir milli parkdır. Vaxtilə uzunluğu cəmi 3 kilometr idi. Orada yerləşən sıradan çıxmış və yarıdağılmış tikililər söküldü, insanlar üçün şərait yaradıldı. Ona görə Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətində, ilk növbədə, bu amillər nəzərə alınmalıdır. Vətəndaşların rahatlığı, ekoloji cəhətdən təmiz layihələrin icrası və şəhərsalma qaydalarına tam riayət edilməsi əsas prinsiplər olmalıdır.

Əfsuslar olsun ki, əvvəlki dövrlərdə şəhərsalma qaydaları bəzi hallarda kobudcasına pozulurdu. Bakının müxtəlif yerlərində tarixi keçmişimizə zidd olan, heç bir memarlıq standartına uyğun olmayan yöndəmsiz və eybəcər binalar tikilirdi. O binalar elə tikilirdi ki, həm ümumi mənzərəyə ziyan vururdu, həm də orada heç bir şəhərsalma əmsalı nəzərdə tutulmurdu. Son vaxtlar mənim göstərişimlə, xüsusilə Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyinin dəyişilməsi nəticəsində artıq bu qaydalara riayət edilməyə başlanmışdır. Bunu iş adamları da nəzərə almalıdırlar. Bakı şəhəri bizim tarixi

sərvətimizdir. Biz imkan verə bilmərik ki, hansısa bir təmənnaya, hansısa bir hərisliyə görə şəhərimizin keçmişini məhv edək, yaxud da şəhərimizin gələcəyini şübhə altına qoyaq. Qətiyyən bu, olmayacaqdır. Bütün biznes dairələri, inşaatla məşğul olan bütün şirkətlər bilsinlər ki, bundan sonra harada gəldi bina, ev tikmək praktikasına artıq son qoyulubdur. Bütün evlər, binalar şəhərsalma qaydalarına, Bakının memarlıq obrazına uyğun şəkildə tikilməlidir. Ona görə bu məsələyə çox böyük diqqət yetirmək lazımdır. Bakı şəhəri bundan sonra ancaq Baş Plan əsasında inkişaf etməlidir. Baş Plana uyğun olmayan heç bir bina Bakıda tikilməməlidir. Komitəyə yeni funksiyalar verilib və Komitənin razılığı olmadan heç bir bina tikilə bilməz. Rayon icra hakimiyyəti orqanları Komitədən razılıq almadan heç bir binanın tikilməsinə icazə verə bilməzlər. Siz bu funksiyalardan çox səmərəli şəkildə istifadə etməlisiniz. Sizin nəinki Bakıda və böyük şəhərlərdə, bütün ölkə üzrə monitorinq qruplarınız olmalıdır. Çünki bəzi hallarda torpaqlar zəbt olunur və tələm-tələsik binalar tikilir. Sonra da bu binalar, evlər hansısa qanunsuz yollarla sənədləşdirilir və biz artıq fakt qarşısında qalırıq. Ona görə monitorinq qrupları olmalıdır. Bütün yerli icra orqanlarına bir daha tapşırıq verirəm ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi olmadan qətiyyən bir dənə də bina tikilə bilməz. Biz buna son qoymalıyıq.

Əlbəttə, digər böyük şəhərlərimizdə də buna oxşar proseslər getməlidir, o cümlədən Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərinin və digər şəhərlərimizin Baş Planı tərtib edilməlidir. Çünki əhalimiz artır, iqtisadi fəallıq, sənaye artır və artmalıdır. Ona görə növbəti illərdə çox düşünülmüş addımlar atılmalıdır. Biz son illərdə 3200-dən çox məktəb tikmişik. Ancaq hələ də məktəblər var ki, orada uşaqlar üç növbədə oxuyurlar. Nəyə görə? Çünki əhali artır. Müstəqillik dövründə əhali üç milyon artıb. İndi bəzi yerlərdə yeni məktəb tikintisi üçün yer tapa bilmirlər. Ona görə mən tapşırıq vermişəm və aidiyyəti qurumlar bu işlərlə çox ciddi məşğuldurlar, xüsusilə Abşeron rayonunda - orada böyük problemlər var. Üç növbədə oxuyan uşaqlar var. İndi yeni məktəblər üçün yer axtarırıq və bu da çox ciddi bir prosesdir. Yəni, artan əhali bütün infrastruktura artan yük deməkdir - həm nəqliyyata, həm sosial infrastruktura, həm də ictimai zonaların fəaliyyətinə. Ona görə siz işləri Baş Plan əsasında qurarkən mütləq perspektivi də nəzərdə saxlamalısınız, çünki əhalimiz bundan sonra da artacaq. Artımın da əsas səbəbi iqtisadi inkişafdır. İqtisadi inkişaf olmayan yerlərdə nadir hallarda əhali artır. Amma bizim iqtisadi inkişafımız bundan sonra da dayanıqlı olacaq. Ona görə bütün bu işlər bəri başdan hesablanmalıdır.

Nəqliyyat infrastrukturuna xüsusi diqqət verilməlidir. Son illər ərzində köçürülmələr aparılan bir çox yerlərdə müasir nəqliyyat qovşaqları yaradılır, küçələr genişləndirilir. Yenə də keçmişdə "Sovetski” adlandırılan əraziyə qayıdıram, orada küçələrin eni iki metrdən çox deyildi. İndi geniş xiyabanlar salmışıq. İndi yol hərəkəti nə qədər yüngülləşib. Nəqliyyat infrastrukturu təkcə avtomobil yollarından ibarət deyil. İndi bizim şəhərətrafı dəmir yolu nəqliyyatı yeni mərhələyə qədəm qoyur. Bu il artıq dairəvi hərəkət marşrutu da işə düşəcək. Bu da, əlbəttə, avtomobil yollarına düşən yükü azaldacaq. Ona görə şəhərsalma qaydaları, nəqliyyat infrastrukturu, digər kommunikasiyalar, memarlıq prinsipləri, Bakı şəhərinə uyğun memarlıq üslubunun qorunması, ekoloji vəziyyətin yaxşılaşdırılması və digər amillər daim diqqət mərkəzində olmalıdır.

Bir daha demək istəyirəm ki, Bakı şəhəri bizim milli sərvətimizdir. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Bunun iki səbəbi var. Birincisi, şəhərin quruluşu, şəhərdə mövcud olan gözəl tarixi memarlıq abidələri, o cümlədən İçərişəhər, şəhərimizin Xəzər dənizinin kənarında yerləşməsi. Bu abidələr əsrlərboyu mövcud idi. Ancaq indi bəziləri unudur ki, onların əvvəlki görkəmi necə idi. Qapqara qaralmış, yarıdağılmış, baxımsız, rəngi solmuş binalar və illər boyu o binaların divarlarına hopmuş çöküntülər onların əsl simasını gizlədirdi. Biz bütün təmir işlərini çox böyük ustalıqla, binaların tarixi görünüşünə xələl gətirmədən aparmışıq. Bu, birinci amildir ki, biz Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirmişik və tarixi abidələrimizi bərpa etmişik. İkinci amil müasir binalardır. Bunlar da memarlıq abidələridir. Məsələn, Heydər Əliyev Mərkəzi ən mötəbər mətbu orqanların birində dərc edilən hesabatda dünyanın ən gözəl 10 binasının arasında yer alıb. Mənim fikrimcə, bu, dünyanın ən gözəl binasıdır. Biz təkcə Heydər Əliyev Mərkəzinin timsalında nəinki müasir Bakımızın, Azərbaycanımızın rəmzini görürük. "Alov qüllələri”, "Crystall Hall”, Xalça Muzeyi, ofis binaları - bütün bunlar Bakının müasir memarlığını təcəssüm etdirir. Əsas vəzifəmiz, - mən bu vəzifəni çox ciddi qoymuşdum, - ondan ibarət idi ki, biz keçmişlə müasirliyin vəhdətini təşkil etməliyik.

Bəzi tarixi şəhərlərdə müasir binalar o şəhərlərin simasını korlayır, tarixlə tamamilə uzlaşmır. Amma bizim müasir binalarımız elə gözəl memarlıq üslubunda və elə yerlərdə inşa edilib ki, tarixlə uzlaşır. Məsələn, qədim İçərişəhərdən çıxıb yolu keçərək müasir bulvara qədəm qoyan hər bir insan sanki keçmişdən bu günə səyahət edir. Yenə də deyirəm, bu, nadir bir mənzərədir. Şəhər inkişaf etməlidir, böyüməlidir, ancaq çox ciddi şəhərsalma prinsipləri əsasında. İndi tikintidə mövcud olan əmsallar gözlənilməlidir və bu əmsallar pozulmamalıdır.

Bir müddət bundan öncə ziyalılarla görüşdə Memarlar İttifaqının sədri təklif vermişdi ki, Bakının mərkəzi rayonu formalaşsın. Mən Bakı Şəhər İcra Hakimiyyətinə müvafiq göstərişlər vermişəm. Sizə də

tapşırıram, Bakı Şəhər İcra Hakimiyyəti, Memarlar İttifaqı yığışın birlikdə təklifləri konkretləşdirin. Çünki bunun üstündən artıq uzun müddət keçib, ancaq hələ ki, mənə heç bir təklif verilməyib. Mən prinsip etibarilə bu təklifi dəstəkləyirəm. Çünki belə olan halda mərkəzi rayonda bu rayona uyğun xüsusi mühafizə tədbirləri görülə bilər və memarlıq abidələrimizə diqqət daha da yüksək ola bilər. O ki qaldı, yeni binaların tikintisinə, burada qaydalar daha da sərt olmalıdır.

Bir daha demək istəyirəm ki, Komitənin funksiyaları genişlənir. Mən Komitənin son vaxtlardakı fəaliyyətini yüksək qiymətləndirirəm. Sizin bu vəzifəyə təyin olunmağınızda bu amil əsas rol oynayır. Siz bu məsuliyyəti dərk etməlisiniz. Ölkəmizin hər bir yerində bütün inşaat işləri müasir şəhərsalma qaydalarına uyğun aparılmalıdır.

Anar Quliyev: Möhtərəm cənab Prezident, ilk növbədə, göstərdiyiniz bu yüksək etimada görə dərin təşəkkürümü bildirirəm. Sizin bu qərarınızı Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollektivinin hər bir üzvünün ötən müddət ərzində əməyinə verdiyiniz yüksək qiymət kimi qəbul edirəm. Mənim üçün isə bu, olduqca böyük şərəf və eyni zamanda, daha da böyük məsuliyyətdir.

Sizi əmin edirəm ki, göstərdiyiniz etimadı doğrultmaq üçün əlimdən gələni edəcəyəm. Verəcəyiniz göstərişləri yerinə yetirmək üçün Komitənin bütün potensialını səfərbər etməyə çalışacağam.

Cənab Prezident, son müddət ərzində Sizin təşəbbüsünüz və böyük dəstəyinizlə ölkəmizdə şəhərsalma sahəsində ciddi islahatlar həyata keçirilir. Qəbul etdiyiniz qərarlara, verdiyiniz tapşırıq və göstərişlərə uyğun olaraq, institusional dəyişiklik, quruculuq işləri aparılır. Mütərəqqi beynəlxalq təcrübə öyrənilərək tətbiq edilir, dövlət idarəçiliyinin səmərəliliyi artırılır, yeni şəhərsalma layihələri icra olunur.

Şəhərsalma fəaliyyətinin təşkili Sizin hər zaman xüsusi diqqət mərkəzində saxladığınız məsələlərdən biridir. Şəhərsalma proseslərinin planlı, sistemli, qanunvericiliyin tələblərinə uyğun təşkili Komitə qarşısında qoyduğunuz başlıca vəzifələrdəndir. Həmkarlarımla birgə gündəlik işimizdə bu prinsipləri rəhbər tutmağa çalışırıq.

Mənə göstərdiyiniz bu yüksək etimada görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Öz növbəmdə, rəhbərliyinizlə Azərbaycan Respublikasının şəhərsalma qanunvericiliyinə uyğun olaraq, paytaxt Bakı və digər şəhərlərimizdə rahat, sağlam, təhlükəsiz həyat şəraitinin təmin olunması üçün əlimdən gələni əsirgəməyəcəyimə, Komitənin bu məqsədlə aidiyyəti dövlət qurumları ilə səmərəli əməkdaşlığını davam etdirəcəyinə söz verirəm.

Prezident İlham Əliyev: Əminəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız və dediyim bu prinsiplərə gündəlik işdə əməl edəcəksiniz.

## *Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin idarə heyətinin sədri Mohammad Abunayyanın və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin icraçı direktoru Mohammed Jameel Al Ramahinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin idarə heyətinin sədri Mohammad Abunayyanı və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin icraçı direktoru Mohammed Jameel Al Ramahini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Azərbaycana xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Sizi enerji sektorunda, xüsusilə bərpa olunan enerji resursları sektorunda aparıcı şirkətlər olan "ACWA Power" şirkəti və "Masdar" şirkəti ilə bu gün imzalanmış çox mühüm İcra Müqaviləsi münasibətilə təbrik etmək istərdim. Bu müqavilə Azərbaycanda enerji layihələrinin inkişafında yeni səhifə açacaq. Çünki bərpa olunan enerji bu gün bizim üçün enerji sektorunda prioritetlərdən biridir. Azərbaycan artıq özünün elektrik enerjisi ehtiyaclarını təmin edir və həm də elektrik enerjisi ixrac edir. Lakin bizim hədəfimiz bərpa olunan enerji sektoruna investorlar cəlb etməkdir və bu İcra Müqaviləsinin əhəmiyyəti ondan ibarətdir ki, külək və Günəş elektrik stansiyaları investorların vəsaiti hesabına tikiləcək. Beləliklə, siz Azərbaycanda işləməyə maraq göstərirsiniz. Biz bunu ölkəmizə, gələcəyimizə olan etimad hesab edirik. Çünki bu, çox böyük investisiyadır. Mənə məlumat verildi ki, bu gün İcra Müqaviləsinin imzalanmasından sonra digər müqavilələrin hazırlanması üçün bir qədər vaxt var və ümidvarıq ki, bu il biz Günəş və külək elektrik stansiyalarının təməlqoyma mərasimində iştirak edəcəyik. Bu, bizim üçün çox mühüm layihədir.

Qeyd etdiyim kimi, Azərbaycan elektrik enerjisi sektoruna çoxlu investisiya yatırıb və elektrik xətləri bizi qonşularımızla birləşdirir. Biz elektrik enerjisinin istehsalına çoxlu investisiya yatırmışıq. Bu gün bizim 1000 meqavat əlavə elektrik enerji gücümüz var və biz bunu ixrac edirik, bizim ixrac bazarlarımız var. Həmçinin sizə bildirmək istərdim ki, bizim bu sektordakı investisiyalarımız aparıcı beynəlxalq institutlar tərəfindən, xüsusilə Davos Dünya İqtisadi Forumu tərəfindən qeydə alınır. Onlar elektrik enerjisinin əlçatanlıq indeksinə görə Azərbaycanı dünyada ikinci yerə layiq görüblər. Bütün ölkəmiz elektrik xətləri ilə təmin olunub və qeyd etdiyim kimi, bu gün Azərbaycan ixracatçıya çevrilib. Həmçinin bu yaxınlarda, bir aydan bir qədər çox bundan əvvəl biz tərəfdaşlarımızla birlikdə mühüm qaz kəməri layihəsi olan və artıq Avropa İttifaqının sərhədlərinə çatan TANAP-ı tamamladıq. Biz Günəş və küləkdən nə qədər çox enerji əldə etsək öz

ehtiyaclarımıza və ixrac üçün təbii qaza bir o qədər qənaət edəcəyik. Ona görə də mən bugünkü mərasimə çox böyük əhəmiyyət verirəm. Bu, bizim doğru yolda olduğumuzu göstərir. Bu, həmçinin onu göstərir ki, Azərbaycan investorlar üçün çox yaxşı şərait yaradıb.

Sizin investisiyalarınız yüz milyonlarla dollar məbləğində olacaq. Elektrik enerjisinin ümumi həcmi 440 meqavat olacaq. Bu, həqiqətən Azərbaycanda bərpa olunan enerji baxımından böyük dəyişiklik olacaq. Həmçinin şadam ki, bu layihələrdə sizin şirkətləriniz tərəfdaş olaraq seçiliblər. Hesab edirəm ki, bu, gözlənilməz deyil. Çünki mənə məlumat verilib ki, "ACWA Power"in ümumilikdə 30 min meqavatdan çox elektrik enerjisi var və bərpa olunan enerji sahəsində də 8 min meqavat elektrik enerjisi hasil edir. "Masdar" 4 min meqavat bərpa olunan elektrik enerjisi istehsal edir. Beləliklə, siz bu sahədə çox təcrübəli və aparıcı şirkətlərsiniz. Buna görə də sizi görməkdən çox məmnunam. Əminəm ki, bizim əməkdaşlığımız uzunmüddətli olacaq, bütün layihələr və texniki məsələlər vaxtında həll ediləcək. Biz bu iki iri layihəni başlayacağıq və bu layihələr Azərbaycana gələcəkdə digər investisiyaları, digər investorları da cəlb etmək imkanı verəcək. Çünki bizim ölkə küləklə və Günəşlə zəngindir. Bəzən külək hansısa narahatlıq yaradır, lakin, eyni zamanda, havanı təmizləyir. Ancaq indi külək və Günəş bizim enerji istehsalımıza xidmət edəcək və bunun sayəsində daxili istifadə və ixrac üçün çoxlu təbii qaza qənaət olunacaq. Bir daha xoş gəlmisiniz və bir daha Azərbaycanda investor olmaq qərarınıza görə sizə təşəkkürümü bildirmək istəyirəm.

Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin idarə heyətinin sədri Mohammad Abunayyan dedi:

- Cənab Prezident, icazə verin Sizə təşəkkürümü və hökumətimizin, Kralın, Vəliəhdin salamlarını çatdırım. Səudiyyə Ərəbistanının hökuməti ilə, bizim rəhbərlərlə artıq qurduğunuz bu möhtəşəm münasibətləri örnək göstərmək olar. Səudiyyə Ərəbistanının şirkətinə göstərdiyiniz etimad sayəsində biz indi Azərbaycanda bərpa olunan enerji ilə bağlı Sizin planlarınızı artıq həyata keçirə biləcəyik. Sərmayələrə, iqtisadi və sosial dəyərlərə gəldikdə, bərpa olunan enerjinin bizim layihələrə cəlb edilməsi nöqteyi-nəzərindən Sizin gözləntilərinizi gerçəkləşdirə biləcəyik. Azərbaycanın resurslarını fərqli enerji generasiyasında istifadə etməyə yönəldəcəyik. Azərbaycan üçün ən yaxşı optimallaşdırılmış iqtisadi həll yoluna nail olmaq üçün yanacaq balansını təkmilləşdirəcəyik. Mən çox şadam və Sizə həqiqətən minnətdaram ki, Siz bizi seçdiniz. Çünki bu, Səudiyyə Ərəbistanı ilə münasibətlərə göstərdiyiniz etimadı əks etdirir. Sizin tətbiq etdiyiniz müfəssəl proqramınız bizə həddən çox müsbət təsir bağışlamışdır. Həqiqətən prosesdə - texniki, kommersiya, müqavilə proseslərində də ən yaxşı təcrübədən istifadə edilmişdir. Bizim digər ölkələrlə necə işlədiyimizə dair və bərpa olunan enerji proqramlarını necə başlamağımızla bağlı geniş təcrübəmiz var. Lakin Azərbaycan nadirliyi ilə seçilir. Çünki siz artıq proqrama başlamısınız. Siz ən yaxşı şirkətləri rəqabət aparmaq üçün çox peşəkar və şəffaf şəkildə cəlb etmisiniz. Siz, həmçinin çox nadir rəqabətlilik dəyərləri tətbiq etmisiniz.

Cənab Prezident, bu investisiya bizim yüksək səviyyədə olan siyasi münasibətlərimizə uyğun olacaq. Habelə Vəliəhd Şahzadəmizin həmişə qeyd etdiyi kimi, siyasi münasibətləri dəstəkləyən güclü iqtisadi əlaqələri də görmək istəyirik.

Cənab Prezident, bu, Səudiyyə Ərəbistanı tərəfindən müxtəlif sahələri əhatə edəcək investisiya qoyuluşunun başlanğıcıdır.

Cənab Prezident, bildiyiniz kimi, bizim münasibətlərimiz yüksək səviyyədədir. Sosial sahəyə gəldikdə, ötən il ərzində Azərbaycanda 100 mindən çox turistimiz olub. Hər il turistlərin sayında 20-30 faiz artım müşahidə olunur. Bu, onu göstərir ki, bu gün münasibətlər siyasi, sosial sahələrlə yanaşı, həm də iqtisadi sahəni əhatə edir. Müsbət məqam ondan ibarətdir ki, bunlar artıq Azərbaycanda baş verir.

Cənab Prezident, biz bu layihələri sizin baxışınızı reallaşdırmaq üçün birlikdə həyata keçiririk. İqtisadi, sosial dəyərlərə gəldikdə isə biz buradakı insanlara təlimlər keçəcəyik, "know–how" biliklərini ötürəcəyik. "ACWA Power" şirkətində bizim səhmdarlarımız, idarə heyətimiz tərəfindən belə qərar qəbul edilib ki, Azərbaycanı region üçün platforma olaraq istifadə edək. Bilirsiniz ki, bu, təkcə Azərbaycan üçün deyil. Bizim ofisimizin aprel ayından burada tam fəaliyyətə başlayacağının səbəbi də budur. Biz insan kapitalının inkişafı üçün təlimlərin keçirilməsi ilə məşğul olacağıq. Çünki Sizin rəhbərliyinizlə bu ölkədə çox böyük insan kapitalı yaranıb və biz bundan beynəlxalq səviyyədə istifadə etməyə çalışacağıq. Bəli, bu, bizim Azərbaycanda inkişaf etdirməyə çalışdığımız layihə üçün olacaq. Lakin, eyni zamanda, dünya miqyasında rəqabət qabiliyyətliliyimizi və potensialımızı artırmaq üçün insan kapitalından istifadə edəcəyik. Biz öhdəliklərimizə sadiqik və mən hökumətimizin salamlarını Sizə çatdırıram. Lakin biz, eyni zamanda, bu layihədə sağlamlıq və əməyin təhlükəsizliyi, vaxt, keyfiyyət, etibarlılıq baxımından üzərimizə öhdəlik götürürük. Bu layihə 200 milyon dollar dəyərindədir. Eyni zamanda, biz burada istər bərpa olunan enerji mənbələri ilə, istərsə də yüksək səmərəliliklə qazın, yanacağın istehsalı ilə bağlı uzunmüddətli əməkdaşlığa sadiqik. Biz burada olmaqdan çox şadıq. Bəli, biz səudiyyəliyik, lakin yerli şirkət kimi fəaliyyət göstəririk və göstərəcəyik. Çünki biz Sizin sistemin, Azərbaycandakı və regiondakı inkişafın bir parçası olmaqdan qürur duyuruq. Sizinlə görüşmək mənim üçün həqiqətən şərəfdir. Çox xoşbəxtəm ki, Sizinlə görüşmək üçün bizə böyük imkan yaratmısınız. Mən çox məmnunam. Sizin iş cədvəlinizin gərgin olduğunu

bilirəm. Bu böyük imkanı bizə yaratdığınız üçün Sizə minnətdarıq. Təşəkkür edirəm, cənab Prezident.

Prezident İlham Əliyev dedi:

–Ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə sizə təşəkkür edirəm. Mənim şəxsi salamımı və ən xoş arzularımı Əlahəzrət Kral Salmana, Vəliəhd Şahzadəyə çatdırmağınızı sizdən xahiş edirəm. Qeyd etdiyiniz kimi, Səudiyyə Ərəbistanı və Azərbaycan arasında əlaqələr çox yüksək səviyyədədir və biz çox yaxın dost, tərəfdaş və qardaş ölkələrik. Mən bu əlaqələri qardaşlıq əlaqələri adlandırardım. Biz beynəlxalq institutlarda bir-birimizi dəstəkləyirik. Biz BMT-də, İslam Əməkdaşlıq Təşkilatında birgə fəaliyyət göstəririk. Bildiyiniz kimi, bu yaxınlarda Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi qəbul etdi. Biz bu təşkilata üç il müddətində sədrlik edəcəyik. Sizin və Birləşmiş Ərəb Əmirliklərindən olan dostların dəstəyi ilə bu təşkilatın sədri kimi çox fəal olmaq, təşkilatın üzvlərini və onların maraqlarını dəstəkləmək və bu qurum daxilində daha güclü vəhdət yaratmaq istəyirik. Əlbəttə ki, bunu həmişə dostlarımla, ölkənizin rəhbərləri ilə müzakirə edərkən bildirdiyimiz kimi, Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasındakı əlaqələrə bu gün iqtisadi dəstək lazımdır. Buna görə də biz həmişə iqtisadi əməkdaşlığın siyasi əməkdaşlığın səviyyəsinə necə çatdırılması barədə danışırdıq. Bu, asan deyil, lakin bu gün biz çox vacib bir addım atdıq. Həqiqətən də bu, bir çox digər investorlar üçün yol açır. Onlar "ACWA Power" və "Masdar"ın burada olduqlarını, yüz milyon dollarlıq investisiyalar qoyduqlarını, bizim gələcəyimizə etibar etdiklərini görəcəklər. Buna görə bir çox digər investorlar da sizin arxanızca gələcəklər. Həmçinin tərəfdaşların seçilməsi prosesində biz artıq bu sahəyə marağın olduğunu gördük. Bu maraqları yaradan bir çox amillər var. Birincisi, Azərbaycandakı siyasi sabitlik, proqnozlaşdırma, iqtisadi inkişaf, həmçinin şaxələndirilmiş infrastruktur, ixrac imkanları. Qeyd etdiyim kimi, bu gün biz təkcə neft və qazı yox, həm də elektrik enerjisini ixrac edirik. Böyük potensial var, xüsusilə bərpa olunan enerji sektorunda. Beləliklə, bu layihə bizim üçün çox vacibdir. Sizə bu qərarı verdiyiniz üçün minnətdarlığımı bildirmək istəyirəm. Bilirsiniz ki, bu cür böyük qərarlar hökumətin dəstəyi ilə verilir. Bilirik ki, Səudiyyə Ərəbistanının hökuməti bu qərarı dəstəkləyir və buna görə çox minnətdarıq. Bu, bizim aramızdakı yaxın dostluq əlaqələrimizin daha bir əlamətidir.

Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin icraçı direktoru Mohammed Jameel Al Ramahi dedi:

-Cənab Prezident, icazə verin hökumətim, Birləşmiş Ərəb Əmirlikləri və "Masdar" şirkətinin səhmdarları adından bizə bu imkanı yaratdığınız üçün Sizə təşəkkür edim. Karbonsuzlaşdırma dövrü istiqamətində planlarınızda iştirak etmək, onları dəstəkləmək öhdəliyini üzərimizə götürmüşük. Dünyanın gələcəyi karbonsuzlaşdırma istiqamətində ənənəvi enerji istehsalı üsullarından asılılığı azaldaraq daha təmiz gələcəyə doğru gedir. "Masdar" şirkəti olaraq biz diqqətimizi dayanıqlı şəhər icmalarına, bərpa olunan enerji və gələcək texnologiyalara yönəldirik.

Cənab Prezident, bu prosesdə iştirak etmək və Sizin tərəfinizdən seçilmək böyük şərəfdir. Bilirik ki, Sizin dəstəyiniz, aydın təlimatınız, Sizin baxışınız olmasaydı, biz burada önünüzdə əyləşməyəcəkdik.

Bir daha çox sağ olun, cənab Prezident. Ölkənin və dünyanın qürur duyacağı bir nəticəyə nail olmaq məsələsində bizə etibar edə bilərsiniz, inşallah.

Prezident İlham Əliyev dedi:

-Çox sağ olun. Bu gün Azərbaycandakı enerji layihələrinin inkişafında yeni bir mərhələyə şahidlik edirik. Bu ili – 2020-ci ili belə bir mühüm hadisə ilə başlamaqdan çox məmnunam. Bunun yaxşı gələcəyi olacaq, ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaq. Səudiyyə Ərəbistanından olan turist qonaqları qeyd etdiniz. Zənnimcə, Birləşmiş Ərəb Əmirliklərindən olan turistlərin sayı da buna bərabərdir. Sizin ölkələrinizə səyahət edən azərbaycanlıların da sayı artır. Bu, sadəcə, turistlərə təklif etdiklərimizlə bağlı deyil. Bunun səbəbi insanların burada özünü rahat hiss etməsidir. Azərbaycanlılar sizin ölkələrinizə, sizin vətəndaşlarınız da Azərbaycana səyahət edərkən özlərini öz evlərindəki kimi hiss edirlər. Bu İcra Müqaviləsinin imzalanması mərasimi də ölkələrimiz arasındakı əlaqələri gücləndirəcək.

### *ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tseretelinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tsereteli qəbul edib.

Görüşdə Azərbaycanda qarşıdan gələn növbədənkənar parlament seçkiləri mövzusuna toxunulub, seçkilərin Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisə olduğu bildirilib, bu seçkilərdə xeyli sayda namizədlərin qeydə alınmasının, müşahidəçilərin fəal iştirakının önəmi vurğulanıb, bu proseslər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən genişmiqyaslı islahatların tərkib hissəsi kimi dəyərləndirilib. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan rəhbərliyi seçki prosesinin ədalətli, şəffaf, Azərbaycan qanunvericiliyinə və beynəlxalq standartlara uyğun şəkildə keçirilməsi üçün lazımi şəraitin yaradılması istiqamətində bütün tədbirləri həyata keçirib.

## *«Stadler Rail AG» şirkətinin direktorlar şurasının sədrinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da «Stadler Rail AG» şirkətinin Direktorlar Şurasının sədri Peter Şpuleri qəbul edib.

Görüşdə «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyəti ilə «Stadler Rail AG» şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, bu şirkətin istehsal etdiyi çox müasir, rahat və sürətli qatarların Azərbaycanda istifadəyə verilməsinin ölkəmizin dəmir yolu sistemində böyük dəyişikliklərə səbəb olduğu vurğulandı.

Söhbət zamanı Azərbaycanda dəmir yolu ilə ölkə daxilində səfər edən sərnişinlərin sayının artmasına, yaxın gələcəkdə dəmir yolu vasitəsilə, xüsusilə bu yaxınlarda istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmiryolu xətti ilə qonşu ölkələrə, həmçinin Avropa ölkələrinə səfərlərin həyata keçiriləcəyinə əminlik ifadə edilərək, Azərbaycanın «Stadler Rail AG» şirkətindən bundan sonra daha çox qatarın alınmasında maraqlı olduğu bildirildi.

Görüşdə, həmçinin Azərbaycanın Davos Dünya İqtisadi Forumu ilə fəal əməkdaşlığına toxunuldu, Prezident İlham Əliyevlə Davos Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı üzrə regional mərkəzinin Azərbaycanda yaradılması haqqında niyyət protokolunun imzalanmasının önəmi qeyd edildi. Məhz Azərbaycanın regional mərkəz seçilməsi Forum tərəfindən ölkəmizdə həyata keçirilən inkişaf proseslərinə verilən qiymət kimi dəyərləndirildi. Azərbaycanda nəqliyyat infrastrukturunun inkişafı nəticəsində Davos Dünya İqtisadi Forumunun dəmir yollarının keyfiyyəti ilə bağlı reytinqində dəmir yolu xidmətlərinin səmərəliliyinə görə ölkəmizi dünyada 11-ci yerə layiq gördüyü vurğulandı.

## *Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi-Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev dedi:

-Hörmətli Valeri Vasilyeviç, xoş gəlmisiniz. Sizi yenidən görməyimə şadam. Şadam ki, sizin NATO-dakı həmkarlarınızla mühüm görüşlərin keçirilməsi ilə əlaqədar Azərbaycana gəlişiniz müntəzəm xarakter daşıyır. Həmçinin Bakının Rusiya və NATO-nun ali hərbi komandanlığının ənənəvi görüş yerinə çevrildiyinə görə bir daha Rusiya tərəfinə minnətdarlığımı bildirmək istərdim. Bu proses artıq üç ildir ki, davam edir və əlbəttə, Bakının seçimi bizim üçün çox əhəmiyyətli və dəyərlidir. Biz bunu bizə etimad və hörmət əlaməti kimi qəbul edirik və əlbəttə, həmçinin hesab edirik ki, bu görüşlər həm bizim regionda, həm də dünyada riskləri azaltmağa çox ciddi kömək edir. Buna görə regionda və dünyada gələcək vəziyyət sizin həmkarınızla bugünkü görüşünüzdən asılı olacaq.

Əlbəttə ki, hər belə tədbir bir daha görüşmək və hərbi-texniki sahədə əməkdaşlığın gündəliyinə nəzər salmaq üçün yaxşı imkandır. Yəni, bizim sizinlə ötən dəfə, ötən il də qeyd etdiyimiz kimi, yaxşı nəticələrimiz, münasibətlərin tarixi, həm də gələcək üçün planlarımız var. Əlbəttə, biz bu istiqamətdə, həmçinin hərbi sahədə əməkdaşlığı davam etdirmək niyyətindəyik. Ölkələrimiz arasında ikitərəfli münasibətlərə gəldikdə, qarşılıqlı fəaliyyəti möhkəmləndirmək işində çox uğurlu keçən ilə yekun vurmaq olar. Həm mənim Vladimir Vladimiroviç Putinlə və digər rəhbərlərlə müntəzəm görüşlərim, həm də qarşılıqlı səfərlər ölkələrimizin daha da yaxınlaşmasına təkan verib. Biz indi iqtisadi gündəlik üzrə fəal iş aparırıq. Müxtəlif sahələrdə qarşılıqlı fəaliyyəti nəzərdə tutan beş, indi isə daha artıq - yeddi yol xəritəsi reallaşdırılır və hər bir istiqamət üzrə də yaxşı nəticələr var. Ticari-iqtisadi sahədə də yaxşı nəticələr olub. Ötən il əmtəə dövriyyəsi 20 faizdən çox artıb. Nəqliyyat, turizm sahələrində də. Ötən il rekord sayda – 900 mindən çox rusiyalı turist Azərbaycanı ziyarət edib. Ötən ay – yanvarda isə yenə də artım olub. Buna görə də düşünürəm ki, bu il biz asanlıqla milyon həddinə çatacağıq. Bu, əlbəttə ki, məhz ölkələrimiz arasında münasibətlərin göstəricisidir. Çünki rusiyalılar özlərini rahat və vərdiş etdikləri şəraitdə hiss edirlər. Beləliklə, ötən ilin yekunları uğurlu olub. Bu il də sizinlə mühüm görüşdən başlayır. Düşünürəm ki, bu ili də yaxşı nəticələrlə başa vuracağıq. Sizə həmkarınızla yaxşı görüş arzulayıram.

Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov dedi:

-Hörmətli İlham Heydər oğlu, sağ olun. İcazə verin, NATO-nun hərbi rəhbərliyi ilə görüş üçün növbəti dəfə meydan yaratdığınıza görə Sizə təşəkkürümü bildirim. Əslində, yaranan beynəlxalq vəziyyət və sabitliyin olmadığı və gözlənilmədiyi, xüsusən Rusiyanın sərhədləri yaxınlığında da, Yaxın Şərqdə də beynəlxalq terrorizmlə gərginləşən mübarizə şəraitində olan bütün bu çətinliklər həm hərbi rəhbərliyin görüşünün, həm də bir sıra məsələlərin müzakirəsinin zəruriliyini şərtləndirir. Eyni zamanda, bunun fonunda Rusiya və Azərbaycan münasibətləri sevindiricidir. Belə ki, bizim ortaq tariximiz və Sizin söylədiyiniz iqtisadi inkişafla bağlı həmin layihələrin fonunda mehriban qonşuluq münasibətlərimiz, hərbi qurumlarımız arasında qarşılıqlı fəaliyyət, xüsusən hərbi-texniki əməkdaşlıq və silahlı qüvvələrimiz arasında digər tədbirlər genişlənir. Çox yaxşıdır ki, bir növ biz hamımız, ordularımız bir ordunun - sovet ordusunun yetirməsidir. Hərbi sahədə münasibətlərimizin yaxınlaşması üçün gələcəkdə də hər şeyi edəcəyik.

***Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbərinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Türkiyəli qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

- Sizi yenidən görməyimə şadam. Keçən il bir çox tədbirlərdə, mərasimlərdə bir yerdə olduq. Bu il də görüşürük. Dünən axşam əziz qardaşım hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan mənə telefonla zəng etmiş, seçkilərlə bağlı öz təbriklərini ifadə etmişdir. Bilirsiniz ki, yaxın gələcəkdə Bakıda Türkiyə-Azərbaycan Strateji Əməkdaşlıq Şurasının növbəti toplantısı keçiriləcəkdir. Bu toplantı ənənəvi olaraq hər il keçirilir - bir dəfə Türkiyədə, bir dəfə Azərbaycanda. İndi bu toplantıya da hazırlıq gedir. Əminəm ki, iki dost, qardaş ölkə arasındakı əlaqələr 2020-ci ildə də uğurla inkişaf edəcək. Əgər keçən il biz TANAP-ın Avropa sərhədinə çatdırılmasını birlikdə qeyd etmişiksə, bu il artıq Cənub Qaz Dəhlizinin istismara verilməsini qeyd edəcəyik.

Sizə də təşəkkür edirəm ki, seçkilərdə müşahidəçi kimi iştirak etmisiniz. Böyük səylər göstərmisiniz və bu da çox önəmlidir. Çünki, əlbəttə, həm Türkiyədə, həm də Azərbaycanda keçirilən seçkilərdə bizim millət vəkillərimiz fəal olurlar, öz müşahidələrini aparırlar, fikirlərini bölüşürlər. Bildiyimə görə, artıq dünən siz bizim mətbuata da açıqlamalar vermisiniz. Bir daha sizə təşəkkür edirəm və bir daha «Xoş gəlmisiniz!» deyirəm.

* * *

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım dedi:

-Hörmətli cənab Prezidentim. Əvvəlcə bizi qəbul etdiyiniz üçün Sizə çox təşəkkür edirik. Təbii ki, can Azərbaycanımızın dünən keçirdiyi seçkilərin Azərbaycanımız, bölgəmiz və Türkiyəmiz üçün xeyirli-uğurlu olmasını diləyirəm.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri olaraq mənimlə bərabər, yoldaşlarım da seçkiləri müşahidə etdilər. Çox səmərəli müşahidələrimiz oldu. Seçkilər çox obyektiv keçirildi. Biz hamımız təcrübəli insanlarıq. Mən Azərbaycandakı seçkilərin demək olar ki, hamısında müşahidəçi olmuşam, elə yoldaşlarım da. Azərbaycandan kənarda da seçkiləri izləmişik. Həqiqətən Azərbaycandakı bu seçkilərdə beynəlxalq standartlardan da üstün təşkilatçılıq gördük. Bunu bütün dünya görməlidir. Təəssüf ki, xüsusilə Avropa Şurasının, bir sıra qurumların Azərbaycan və Türkiyə ilə bağlı qərəzli münasibəti bizi çox narahat edir. Türkiyə Respublikasının parlamentində biz dostluq qrupunun tərkibində on nəfərik. Amma səmimiyyətlə söyləyirəm ki, 600 deputatımızın hamısı bu qrupun üzvü olmaq istəyir. Ürəkləri Azərbaycanın uğurları üçün döyünür.

Türkiyə olaraq, bu seçkilərin şəffaf, sakit ab-havada keçməsinə, belə bir mühitin yaradılmasına görə, ilk növbədə, Zati-alinizə çox təşəkkür edirik. İkincisi, Azərbaycan xalqının mütəşəkkilliyini, öz dəyərlərinə sahib çıxmasını təqdir edirik. Üçüncüsü, bir təşəkkürümüz də namizədlərədir. Bu seçkilərdə gənc namizədlər də fəal idi. Onlar seçkilərə hazırlıq dövründə Türkiyədə olduğu kimi, qapı-qapı gəzərək təbliğat işləri apardılar. Mən inanıram ki, bundan sonrakı seçkilərdə Azərbaycan bunun faydasını görəcək. Sizə yoldaşlarım adından bir daha təşəkkür edirəm.

Fürsətdən istifadə edib parlamentimizin sədrinin Sizə ən səmimi salamlarını çatdırmaq istərdim. Sizə bir daha ən səmimi təşəkkürlərimizi çatdırırıq. Var olun, sağ olun.

* * *

Prezident İlham Əliyev dedi:

- Çox sağ olun. Təşəkkür edirəm, hörmətli Şamil bəy, hörmətli dostlar.

Doğrudan da bu seçkilər çox önəmli idi. Çünki bu seçkilər Azərbaycanda aparılan islahatlara dəstək verməlidir və seçkilərin növbədənkənar keçirilməsinin əsas məqsədi də o idi ki, vaxt itirmədən islahatlar davam etdirilsin. Çünki həm struktur islahatları aparıldı, həm hökumət, həm Prezident Administrasiyası yenidən formalaşdırıldı və əlbəttə ki, Milli Məclis bu işlərdən kənarda qala bilməzdi. Ona görə əminəm ki, bu seçkilərin Azərbaycanın gələcək inkişafında çox önəmli rolu olacaq. Çünki bizim qanunvericiliyimiz ölkəmizin artan sürətinə uyğun olmalıdır. Eyni zamanda, bizim beynəlxalq əlaqələrimiz də genişlənir və Azərbaycanın millət vəkilləri ölkəmizi bundan sonra da beynəlxalq təşkilatlarda ləyaqətlə təmsil etməlidirlər.

İndi bütövlükdə ölkəmizdə gəncləşmə siyasəti aparılır. Ancaq bu da çox düşünülmüş formada olmalıdır. Yaşlı nəslin təcrübəsi, gənclərin innovasiyaya meyilli olması, onların bilikləri, müasir proseslərə diqqətin yetirilməsi - bax, biz bu vəhdətin təşkil edilməsi üçün çalışırıq. Hesab edirəm ki, buna nail olmuşuq. Mənə verilən məlumata görə, seçkilər ölkə ərazisində çox sakit keçdi, qanunvericilik çərçivəsində, hər hansı bir narahatedici məqam olmadı. Bu seçkilərə çox böyük maraq var idi. Çünki mən xatırlamıram ki, Azərbaycanda keçirilmiş hansısa parlament seçkisində 1300-dən çox namizəd olsun. Yəni, bu, özlüyündə onu göstərir ki, seçkilər rəqabət şəraitində keçirildi və bütün namizədlərin qeydə alınması prosesində ədalətli mövqe nümayiş etdirildi. Bu qədər namizədin olması seçkilərə inamın təzahürüdür. Çünki əgər inam olmasaydı, bu adamlar bəlkə də seçkilərə qatılmazdılar. Ona görə bu seçkilərin xüsusi rolu var.

O ki qaldı, bəzi beynəlxalq müşahidə missiyalarının rəyinə, biz onların mənfi rəyinə çoxdan öyrəşmişik.

Onların bəzi hallarda rəyi seçkilərdən öncə yazılır, özü də onlar tərəfindən yazılmır, başqa yerlərdə yazılır, onlara ötürülür. Biz bunu dəfələrlə müşahidə etmişik. Siz də Avropa Şurasının bizə qarşı olan mənfi münasibətini qeyd etdiniz. Bunun da son təzahürü qəbul edilmiş, yalan üzərində qurulmuş son qətnamədir. Yəni, bu qətnamənin qəbul edilməsi, əslində, parlament seçkilərinə kobudcasına müdaxilədir. Birincisi, bu qətnamə saxtadır və biz bunu qəbul etmirik. Orada bizə qarşı irəli sürülən ittihamları rədd edirik və bizə qarşı ünvanlanmış dırnaqarası tələblərin heç birini icra etməyəcəyik. Bu, bir. İkincisi, bu qətnamənin qəbul edilmə vaxtı. Parlament seçkilərinə az vaxt qalmış bu qətnamənin qəbul edilməsi Azərbaycana qarşı olan mənfi və ədalətsiz yanaşmanın təzahürüdür.

Mən bu yaxınlarda yaxın dostumuz olan Mövlud Çavuşoğlu ilə görüş əsnasında bu barədə öz fikirlərimi bildirdim. O da eyni mövqedədir və biz yaxşı bilirik ki, Türkiyəyə və Azərbaycana Avropa Şurasında ikili standartlar tətbiq olunur. Bizdə gedən müsbət proseslər qeydə alınmır, bizim artan gücümüz sanki qıcıq, paxıllıq yaradır. Ancaq buna rəğmən, Türkiyə və Azərbaycan iki dost, qardaş ölkə kimi irəli gedir. Biz çox önəmli layihələri icra edirik, öz gücümüzü artırırıq. Hesab edirəm ki, həm beynəlxalq müstəvidə, həm ölkə daxilində gedən işlərdə bizim düzgün siyasətimiz artıq reallıqdır. Ən önəmlisi, bu seçkilərin keçirilməsi Azərbaycan xalqının iradəsidir. Əgər Azərbaycan xalqı bu seçkilərin keçirilməsindən narazı olsa, öz səsini ucaldardı. Bu gün siz də gördünüz, Azərbaycanda tam demokratik ab-hava mövcuddur. Seçki və seçkilərin keçirilməsi demokratiyanın təzahürlərindən biridir. Əgər namizədlər bu seçki kampaniyası ərzində belə fəal, mübariz olublarsa, - bu, əslində, belədir, siz də bunu qeyd etdiniz,- seçicilərə öz fikrini çatdırmaq üçün qapı-qapı gəziblərsə, əlbəttə ki, əgər onlar seçkilərdən narazı olsalar, öz səslərini ucaldardılar. Ancaq indiyə qədər biz belə hallara rast gəlmirik. Bu, bir daha onu göstərir ki, bu seçkilər Azərbaycan xalqının iradəsini əks etdirir və əsas odur.

Bu seçki prosesində müşahidəçi kimi qardaş Türkiyənin nümayəndələrinin iştirakı bizi xüsusilə sevindirir. Bir daha sizə təşəkkürümü bildirirəm. Əminəm ki, Türkiyə Böyük Millət Məclisindəki Azərbaycan-Türkiyə dostluq qrupu bundan sonra da iki ölkə arasındakı əlaqələrin inkişafına xüsusi töhfə verəcək və siz də qeyd etdiyiniz kimi, mən də buna tam əminəm ki, Türkiyə parlamentinin istənilən üzvü Azərbaycanla dostluq qrupunun üzvüdür. Çünki bizdə də eyni yanaşmadır. Biz bundan sonra da birlikdə böyük işləri davam etdirəcəyik.

### *Rusiya Dövlət Dumasının nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da MDB İcraiyyə Komitəsi müşahidə missiyasının rəhbəri, Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Xoş gəlmisiniz. Bu dəfə siz müşahidə missiyası ilə buradasınız. Çox şadam ki, Dövlət Duması geniş tərkibdə təmsil olunub, həmçinin MDB-dən çoxlu müşahidəçi var. Ümumilikdə, bu il seçkiləri 800-dən çox beynəlxalq müşahidəçi izləyir, çoxlu sayda beynəlxalq nümayəndələr var. Düşünürəm ki, sizin həm prosesi, həm də səsvermə gününü izləmək üçün bütün imkanlarınız olub. Bizi müdafiə və bu prosesdə iştirak etdiyinizə görə bir daha sağ olun.

MDB İcraiyyə Komitəsi müşahidə missiyasının rəhbəri Leonid Kalaşnikov dedi:

-İlham Heydər oğlu, sağ olun. Bizə vaxt ayırdığınıza görə Sizə təşəkkürümüzü bildiririk. Sizinlə öz təəssüratlarımızı məmnuniyyətlə bölüşmək istəyirik. Mən və yoldaşlarım dünən onlarla seçki məntəqəsində olduq. Biz gördük ki, seçkilər həm rəqabət şəraitində, həm şəffaf, həm də demokratik keçdi. Biz Mərkəzi Seçki Komissiyasının sədri ilə görüşdük. Dünən MDB-nin bəyanatı qəbul edildi. Böyük missiyadır, orada bir neçə ölkə, İcraiyyə Komitəsi, Parlamentlərarası Assambleya var. Zənnimizcə, hər şey ədalətli, şəffaf və demokratik keçdi. Mən çox gözəl anlayıram ki, bir çox digər beynəlxalq təşkilatlar var. Biz onlarla da görüşdük. Mən AŞPA-dan təzəcə qayıtmışam, orada Sizi tez-tez xatırlayırlar. Biz beynəlxalq parlament təşkilatlarında da işimizi davam etdirəcəyik. Yəqin ki, orada Sizin fəxr edəcəyiniz nəticə var. Bu gün səhər mən bir neçə beynəlxalq müşahidəçinin rəyini gördüm. Hamı obyektiv olaraq seçkilərin çox uğurlu keçdiyini deyir.

Prezident İlham Əliyev: Sağ olun. Gəldiyiniz və bu vacib prosesdə iştirak etdiyiniz üçün sağ olun. Bu, əlbəttə, bizim 2018-ci ildə prezident seçkilərindən sonra elan etdiyimiz islahatların davamıdır və onları ardıcıl olaraq həyata keçiririk. Hər şey Azərbaycanın dayanıqlı inkişafının təmin olunmasına və demokratik proseslərin genişlənməsinə yönəlmiş ümumi inkişaf strategiyası çərçivəsində gedir. Buna görə də həyata keçirilən struktur islahatları, o cümlədən kadr islahatları da bir məqsədə xidmət edir: biz yerimizdə saymayaq. Çünki müvəffəqiyyətlərdən arxayınlaşmaq olmaz.

Ötən illər ərzində böyük nailiyyətlər əldə olunub. Lakin həyat öz şərtlərini diktə edir. Dünyada, bizim regionda, iqtisadi sahədə şərait dəyişir, yeni çağırışlar meydana çıxır. Ona görə biz buna hazır olmalıyıq və vaxt itirməməliyik. Bu səbəbdən hökumətin, Prezident Administrasiyasının, mərkəzi və yerli hakimiyyət

orqanlarının yenilənməsi, kadr islahatları parlamentdən yan keçə bilməzdi. Xüsusən də mahiyyətcə, seçkiləri bir neçə ay irəli çəkməklə biz vaxta qənaət etdik. Çünki onsuz da yay aylarında parlament tətildə olur, sonra qayıtdıqda yenidən seçkilər başlayır. Çalışdıq ki, maksimum açıq seçkilər keçirək və ona görə də müşahidəçiləri, o cümlədən, düzünü desək, obyektiv qiymət gözləmədiyimiz müşahidəçiləri də dəvət etdik.

Azərbaycanda keçirilən seçki kampaniyalarının təcrübəsinə əsasən deyə bilərəm ki, biz həmişə qərəzli münasibət görmüşük. Bununla belə, hesab edirik ki, bizim gizlədəcəyimiz heç nə yoxdur. Biz çoxlu sayda müşahidəçi dəvət etdik, gələnlərin hamısına minnətdarıq. Ona görə də son nəticədə nə yazılacağından və onları hansısa fikirləri səsləndirməyə məcbur edəcəklərindən asılı olmayaraq, hər halda onların hər birində həm ölkəmiz, həm insanlarımız, həm də seçki prosesi haqqında rəy formalaşacaq. Bu baxımdan Dövlət Dumasının nümayəndə heyətinin bu tərkibdə prosesdə iştirak etməsi bizim üçün çox qiymətlidir. Əlbəttə, MDB və digər beynəlxalq təşkilatların nümayəndə heyətləri də var. Ona görə də düşünürəm ki, başlıcası Azərbaycan xalqının nəticələrdən razı qalmasıdır. Çünki bizim üçün əsas məsələ bu idi ki, insanlar kimə səs verəcəklərini və kimə etimad göstərəcəklərini seçə bilsinlər. Bu etimadın səviyyəsi çox yüksəkdir.

Ümumilikdə, 1300-dən çox namizədin olması seçkilərə etimadın göstəricisidir. Bu isə görünməmiş saydır. Əgər onlar seçkilərə inanmasaydılar, öz namizədliklərini verməzdilər və bu qədər vaxt sərf etməzdilər. Mənə həm dünən, həm də bu gün məruzə etdilər ki, proses, ümumilikdə, sakit keçib və heç bir gözlənilməz hal olmayıb. Ona görə də kimsə qalib gəlir, kimsə məğlub olur. Hər kəs reallıqla barışmalıdır. Reallıqlar belədir ki, şərait yaradılıb, maksimum şəffaflıq təmin edilib. Həm də gözlənilməz çətin hava şəraitinə baxmayaraq, Azərbaycan vətəndaşları səs verdilər. Düşünürəm ki, seçki fəallığı da yaxşı olub. Hərçənd başlıca olan bu deyil, əsas odur ki, xalqın seçəcəyi insanlar məsuliyyət hiss etsinlər. Bilsinlər ki, əgər yenə də seçilmək istəyirlərsə, onda dairələrdə iş aparmalıdırlar. Bax bu, keçmiş parlamentdə çatışmırdı. Buna görə də parlamentin bir çox keçmiş üzvü dairələrdə işləmədikləri üçün seçkilərdə iştirak etmədi. Bu, yeni parlamentin qarşısında duran əsas vəzifələrdən biri olacaq. Çünki bütün ölkənin dayanıqlı inkişafının təmin edilməsi üçün deputat korpusu regionların problemlərini dərk etməlidir, onları üzə çıxarmalıdır və hökumətə, ictimaiyyətə çatdırmaqla onların həllinə kömək etməlidir. Bir daha sağ olun. Sizi görməyimə şadam.

### *MDB-nin müşahidə missiyasının rəhbərinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 10-da MDB-nin müşahidə missiyasının rəhbəri, MDB İcraiyyə Komitəsi sədrinin birinci müavini Viktor Quminskini qəbul edib.

Görüşdə Azərbaycanda keçirilən parlament seçkilərində xeyli sayda müşahidəçinin iştirak etməsinin önəmi vurğulandı, MDB-dən olan müşahidəçilərin seçkilərin yüksək səviyyədə təşkil olunduğu, qanun pozuntusunun qeydə alınmadığı, bütövlükdə seçki prosesinin şəffaf, demokratik və rəqabətlilik prinsipi şəraitində, Azərbaycan qanunvericiliyinə tam uyğun şəkildə keçirildiyi bildirildi.

Prezident İlham Əliyev Azərbaycanda keçirilən parlament seçkilərində MDB müşahidəçilərinin iştirakına görə minnətdarlığını ifadə etdi.

Söhbət zamanı ölkəmizdə keçirilən parlament seçkilərinin Azərbaycanda bütün sahələri əhatə edən genişmiqyaslı islahatların tərkib hissəsi olduğu qeyd edildi, Azərbaycan dövləti tərəfindən bu seçkilərin ədalətli və demokratik şəraitdə keçirilməsi üçün hər cür şəraitin yaradıldığı vurğulandı.

### *Avropa İttifaqının xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi müzakirə edildi, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın əhəmiyyətinə toxunuldu, bu yaxınlarda Bakıda keçiriləcək Cənub Qaz Dəhlizi Məşvərət Şurasının növbəti toplantısında Avropa İttifaqının yüksək səviyyədə iştirak etmək niyyətində olmasının önəmi vurğulandı və əlaqələrimizin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

### *Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədrinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimlini qəbul edib.

Son illər şəhər nəqliyyatı ilə bağlı görülmüş işlərdən danışan Prezident İlham Əliyev dedi:

- Bakı Nəqliyyat Agentliyi keçən ili yaxşı nəticələrlə başa vurub, görülən işlərin bir hissəsi ilə mən şəxsən tanış olmuşam. Hesab edirəm ki, Agentlik üçün keçən il uğurlu olubdur. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, hələ görüləsi işlər çoxdur.

Son beş il ərzində şəhərimizə yüzlərlə yeni avtobus gətirilib. Bu avtobusların hamısı dünyanın aparıcı şirkətlərinin istehsalıdır. Bu, bizim şüurlu seçimimizdir. Çünki Bakıda ən müasir texnologiyalar tətbiq edilməlidir, o cümlədən nəqliyyat vasitələrinin dünyanın ən yüksək standartlarına cavab verməsi əsas şərtlərdən biridir. Onu da bildirməliyəm ki, beş il bundan əvvəl Bakıya gətirilmiş ilk xarici istehsal olan avtobuslar, hətta o avtobusların istehsal olunduğu ölkələrdə hələ xətlərə çıxmamışdı. Yəni, ən müasir avtobuslar gətirilir. Əlbəttə ki, bu, şəhər nəqliyyatının böyük dərəcədə yaxşılaşdırılması istiqamətində çox önəmli addımdır. Mənim göstərişimlə hər il dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayrılır və hər il orta hesabla 300 avtobus Bakı Nəqliyyat Agentliyinin xətti ilə şəhərimizə gətirilir. Beləliklə, biz avtobus parkını tədricən müasirləşdiririk. Eyni zamanda, mənim özəl şirkətlərə də tövsiyəm ondan ibarət idi ki, onlar da öz avtobus parklarına yenidən baxsınlar. Görürəm ki, bəzi şirkətlər bu istiqamətdə önəmli addımlar atırlar.

Avtobusların ölkəmizə gətirilməsi, əlbəttə ki, işlərin bir hissəsidir. Bütün yol-nəqliyyat infrastrukturu müasir tələblərə cavab verməlidir və bu istiqamətdə kompleks tədbirlər görülür. Yol infrastrukturuna görə Azərbaycan dünya miqyasında 27-ci yerdədir. Bu da Davos Forumunun hesabatında əksini tapıbdır.

Şəhər nəqliyyatı ilə bağlı digər tədbirlər də görülür və görüləcəkdir. Eşitmək istərdim ki, keçən il görülmüş əsas işlər nədən ibarət idi? Bu il neçə yeni avtobus gətiriləcək və şəhər nəqliyyatında hansı yeniliklər olacaq?

Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli dedi:

-Çox sağ olun, cənab Prezident. Keçən il Bakı şəhərində fəaliyyət göstərən 2200 avtobusla 801 milyon sərnişin daşınıb. Ümumi daşıyıcıların sayı 65-dən 37-yə endirilib. Yəni, iki avtobusu olan şəxslər var idi ki, onlar da fəaliyyət göstərmək istəyirdilər. Aydın məsələdir ki, onlar insanların rahatlığı üçün deyil, öz maraqları naminə fəaliyyət göstərirdilər. Biz onların sayını müəyyən tələblər əsasında 65-dən 37-yə endirdik. Ümumilikdə, beş il ərzində 855 avtobus yenilənib. Bunlardan 600-ü Sizin tapşırığınızla xarici ölkələrdən gətirilib. Daşıyıcılar tərəfindən də Bakı Nəqliyyat Agentliyinin tələbləri əsasında 295 müasir avtobus gətirilib. Ümumilikdə bu günədək avtobus parkı 40 faizə yaxın yenilənib. Sizin tapşırığınıza əsasən hər il 300 avtobus gətirilməklə yaxın üç ildə parkın yenilənməsini 100 faizə çatdırmağı planlaşdırırıq.

Eyni zamanda, məlumat üçün bildirim ki, bizim gətirdiyimiz yeni avtobuslar ətraf mühitə daha az zərər verən sıxılmış təbii qazla (STQ) işləyir. Dünyanın bir sıra böyük şəhərlərində STQ ilə az sayda avtobus işləyir. Məsələn, Vyanada STQ ilə işləyən avtobuslar, ümumiyyətlə, yoxdur. Berlində bu istiqamətdə pilot layihənin tətbiqinə başlanılıb. Moskvada 6475 avtobusdan 319-u, İstanbulda isə 3070 avtobusdan 239-u STQ ilə işləyir. Amma bizdə 2200 avtobusdan 600-ü artıq STQ ilə fəaliyyət göstərir. Daşıyıcılara da göstəriş verilib ki, STQ ilə işləyən avtobuslar gətirsinlər. Çünki benzinlə və dizel yanacağı ilə işləyən avtobuslar şəhərdə orta sürətlə hərəkət etdiyi üçün ətraf mühitə daha çox ziyan vurur.

Bu il üçün daha bir yenilik müxtəlif yerlərdə avtobuslar üçün habların yaradılması olacaq. Siz keçən ilin sentyabr ayında «Koroğlu» habının açılışında bu barədə tapşırıq vermisiniz.

Avtobus sürücüləri ilə bağlı əsas problemlərdən biri onların peşə hazırlığına və iş rejiminə daşıyıcılar tərəfindən ciddi nəzarət olunmamasıdır. Biz bu problemin üzərində işləyirik. Bu məqsədlə Sürücü Təlim Mərkəzi yaradılıb və Siz onun açılışında iştirak etmisiniz. İndiyədək 2800-dən çox avtobus sürücüsü Mərkəzdə təlim keçib.

Yol infrastrukturu üzrə də bir sıra işlər görülüb. Avtobusların, təcili tibbi yardım və yanğınsöndürən maşınların tıxaclarda qalmaması, eyni zamanda, fasiləsiz hərəkətini təmin etmək üçün yollarda xüsusi zolaqlar ayrılıb. Bundan əlavə, 2018-ci ildə taksi xidmətinə dair yeni tələblər müəyyənləşdirilib. Bu tələblərdə şəhərdə və hava limanında hansı növ taksilərin fəaliyyət göstərməsi, tariflər əksini tapıb. Cənab Prezident, biz bu ilin birinci yarısında bütün marşrut xətlərində işləyən avtobuslarda ödənişin kart sistemi ilə aparılmasını təmin edəcəyik. Bu isə Sizin tapşırdığınız kimi, kölgə iqtisadiyyatının, eyni zamanda, qeyri-formal iş rejiminin aradan qaldırılmasına, sürücülərin 8 saatdan artıq işləməsinin qarşısının alınmasına, ictimai nəqliyyatdakı dövriyyənin şəffaflaşmasına imkan yaradacaqdır.

Ümumilikdə bizim əsas məqsədimiz sərnişinlərin daha az vaxt sərf edərək mənzilbaşına rahat, təhlükəsiz çatmasıdır. Bunun üçün nəinki Bakı Nəqliyyat Agentliyi, eyni zamanda, ictimaiyyət də fəal olmalıdır. Çünki şəxsi nəqliyyat vasitəsilə bir nəfər gedir, avtobusda isə 70-80 nəfərə qədər sərnişin olur. O bir nəfər avtomobilini yolda qeyri-qanuni park etdiyinə görə, avtobusun hərəkəti üçün çətinliklər yaradır. Son zamanlar parkinqlə bağlı cərimələrə görə insanların müəyyən narazılıqları olur. Amma Bakı paytaxt şəhərimizdir, bütün ölkələrin paytaxt şəhərlərində olduğu kimi, bizdə də insanlar avtomobillərini istədikləri yerlərdə park edə bilməzlər. Çünki əsas ictimai nəqliyyatdır, biz gün ərzində 2 milyon 200 sərnişin daşıyırıq. Sakinlər, əsasən, ictimai nəqliyyatdan istifadə edirlər. Ona görə, Sizin tapşırığınıza əsasən, biz ictimai nəqliyyatdan istifadə edən sərnişinlərin rahatlığını təmin etməyə çalışırıq.

Prezident İlham Əliyev: Əlbəttə, şəhər nəqliyyatının təkmilləşdirilməsi hər bir böyük şəhər üçün önəmli məsələdir. Şadam ki, son illər ərzində Bakı şəhərində görülmüş işlər kompleks xarakterlidir və bu

işlər nəqliyyatla bağlı bütün sahələri əhatə edir. Çox yaxşı haldır ki, hazırda bütün nəqliyyat növləri arasında koordinasiya işləri də aparılır. Hesab edirəm ki, taksi, metro və avtobus xidmətləri növbəti mərhələdə bir-biri ilə daha da sıx əlaqədə olmalıdır. Əsas məsələ tıxacların azaldılmasıdır. Əlbəttə ki, bunun üçün təkcə yeni yolların çəkilişi, yeni qovşaqların tikintisi ilə işimizi məhdudlaşdıra bilmərik. Amma o da həqiqətdir ki, əgər son 10-12 il ərzində Bakıda böyük yol infrastrukturu layihələri icra edilməsəydi, bu gün şəhər nəqliyyatı tıxacdan tərpənə bilməzdi. Bu, həqiqətdir. Sadəcə, 10 il bundan əvvəl mövcud olan mənzərəyə qayıtmaq lazımdır ki, bunu hər kəs görsün və bilsin. Bizim əsas nəqliyyat damarlarımız demək olar ki, tamamilə iflic vəziyyətdə idi. Şəhəri hava limanı ilə birləşdirən əsas yol, baxmayaraq ki, dördzolaqlı sayılırdı, əslində, ikizolaqlı idi və bu yol boyunca bir neçə dairə mövcud idi. Ancaq bu gün bir dənə də dairə yoxdur, yəni hava limanından şəhərə çox rahat gəlmək üçün bütün imkanlar var. Təkcə bu deyil, hava limanına digər avtomobil yolunun çəkilişi də böyük əhəmiyyət daşıyır. Zığ istiqamətindən hava limanına, ümumiyyətlə, yol yox idi. O vaxt biz təşəbbüs göstərərək onu icra etdik və bu, bir çox məsələləri həll etdi. Eyni zamanda, deyə bilərəm ki, son illərdə Bakı şəhərində görülmüş işlərin, tikilmiş körpülərin, yol qovşaqlarının bəlkə də misli-bərabəri yoxdur.

Ancaq bununla yanaşı, nəqliyyat vasitələrinin sayı artır. Bu da əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasından xəbər verir. Statistika var, hər il ölkəmizə gətirilən və artıq hazırda ölkəmizdə istehsal olunan nəqliyyat vasitələrinin sayı artmaqdadır. Əhalimiz artır, Bakı şəhərinin əhalisi artır. Ona görə, şəhər nəqliyyatımız bu artıma uyğun şəkildə inkişaf etməlidir və bu artımla uzlaşmalıdır. Odur ki, bundan sonra metro tikintisi, yeni qovşaqların inşası, Bakı dairəvi dəmir yolunun çəkilişinin başa çatdırılması, avtobus nəqliyyatının səmərəli fəaliyyəti - bütün bu nəqliyyat seqmentləri vahid bir mexanizm kimi işləməlidir. Əsas məsələ insanların yola sərf edəcəyi vaxtın azaldılmasıdır.

Bununla bərabər, bəlkə də bundan daha vacib məsələ təhlükəsizlikdir, sürücülərin hazırlanmasıdır, onların tibbi müayinəsi və iş qrafikidir. Mən bu yaxınlarda bildirdim ki, heç kim gündə 8 saatdan artıq işləməməlidir. Əgər kimsə işçiləri qanunsuz işlədirsə, istismar edirsə, cəzasını alacaq. Əlbəttə, əminəm ki, Bakı Nəqliyyat Agentliyində çalışan sürücülər bu meyarlara riayət edirlər. İnsanların rahatlığı da vacib məsələdir. İnsanlar müasir avtobuslarda özlərini çox rahat hiss edirlər. Prinsip etibarilə elə bir avtobus xidməti olmalıdır ki, hətta şəxsi nəqliyyat vasitəsi olan insanlar da şəhər nəqliyyatı ilə hərəkət etməyə üstünlük versinlər. Hesab edirəm ki, biz bu hədəfə yaxınlaşırıq. Əlbəttə, növbəti illərdə avtobus parkının təzələnməsi istiqamətində əlavə tədbirlər görüləcək və eyni zamanda, şadam ki, hazırda ölkəmizə gətirilən yeni avtobuslar ekoloji cəhətdən çox təmizdir. Çünki sirr deyil ki, havanı ən çox çirkləndirən nəqliyyat vasitələridir. Sənaye müəssisələri, ticarət obyektləri deyil, - bunun statistikası var, - nəqliyyat vasitələridir. Ona görə həm iki ildən sonra Azərbaycanda istehsal olunacaq «Avro-5» markalı benzinin bazara daxil olması bu sahədə çox böyük irəliləyişə səbəb olacaq, eyni zamanda, sıxılmış qazla və elektrik enerjisi ilə işləyən avtobusların ölkəmizə gətirilməsi, bunun üçün müvafiq infrastrukturun yaradılması zəruridir. Ona görə bu istiqamətdə əlavə addımlar atılmalıdır.

Bir də maraqlanmaq istəyirəm, - indi şəhərin mərkəzi hissələrində avtobus xidməti kifayət qədər səmərəlidir, - qəsəbələrdə vəziyyət necədir? Qəsəbələrdə avtobus nəqliyyatı ilə bağlı hər hansı bir problem varmı? Varsa, onların həlli üçün nə etmək lazımdır?

Vüsal Kərimli: Cənab Prezident, son zamanlar qəsəbələrdə bəzi evlərin yollara yaxın tikilməsi yol infrastrukturunda bir az çətinliklər yaradıb. Biz bu ilin doqquzuncu ayından sonra qəsəbələri onların yol ölçülərinə, dönmə dərəcələrinə görə mərhələli şəkildə avtobuslarla təmin edəcəyik. Çünki 12 metrlik avtobuslar bəzi qəsəbələrin yollarında hərəkət edə bilmir. Sizin tapşırığınıza əsasən bu il alınacaq 415 avtobusdan 115-i artıq sifariş edilib, 300-ü isə tenderə çıxarılacaq. Orada biz 8 və 9 metrlik avtobuslar da nəzərdə tutmuşuq ki, qəsəbələrətrafı və qəsəbələrdaxili hərəkət üçün daha təhlükəsiz, onların yoluna uyğun olsun. Eyni zamanda, mart ayında daşıyıcılar tərəfindən də 50-yə yaxın avtobusun gətiriləcəyi gözlənilir. Bu avtobusların qəsəbələr istiqamətində xətlərə buraxılması nəzərdə tutulur. Qəsəbələrin yol infrastrukturuna dair layihələri biz Avtomobil Yolları Dövlət Agentliyi ilə birgə hazırlayırıq. Bu istiqamətdə də işlər yekunlaşacaq.

Biz qəsəbələrdə əsasən kiçik hablar yaratmaq istəyirik. Bu kiçik habları Siz qeyd etdiyiniz kimi, dairəvi dəmir yolunun ətrafında yaratmaq istəyirik ki, bir-biri ilə əlaqəli olsun. Vətəndaş haba gələndən sonra şəhərə istəsə dəmir yolu ilə, istəsə də avtobusla gedə biləcək.

Prezident İlham Əliyev: Elədir. Bir də ki, siz parkinq ilə bağlı danışdınız. Biz burada da hər şeyə ədalətli yanaşmalıyıq. Parkinq imkanları olmalıdır ki, sonra biz vətəndaşlardan bu qaydalara riayət etmələrini tələb edək. Ona görə, bəzi hallarda sürücülər bu qaydaları kobudcasına pozurlar. Parkinq olan yerdə maşınları münasib olmayan yerlərdə saxlayıb, həm piyadalara maneə törədirlər, həm də nəqliyyata problem yaradırlar. Ancaq kifayət qədər böyük imkanlar, yəni, parkinq yerləri olmalıdır ki, biz sürücülərə bu tələbləri irəli sürək. Burada da heç bir qanun pozuntusu olmamalıdır. Qanun qarşısında hamı bərabərdir. Hamı bilməlidir ki, şəhər nəqliyyatı həm insanların rahatlığıdır, həm bizim sağlamlığımızdır, həm də havanın təmiz olmasıdır. Yenə də deyirəm, havanı ən çox çirkləndirən nəqliyyat

vasitələridir, xüsusilə, tıxac olan yerdə. Tıxacın olmaması isə sizin əsas vəzifənizdir. Siz bundan sonra da aidiyyəti dövlət qurumları ilə bu istiqamətdə fəal olmalısınız. Ona görə, parkinqlə bağlı soruşmaq istəyirəm. Vəziyyət necədir və bu il hansı addımlar gözlənilir?

Vüsal Kərimli: Bu il biz parkinqlə əlaqədar bu istiqamətdə fəaliyyət göstərən beynəlxalq məsləhət xidmətlərini cəlb etmişik ki, Bakı şəhərində parkinq məsələsi nəinki infrastruktur cəhətdən, eyni zamanda, iqtisadi baxımdan analiz olunsun. Çünki şəhər zonalara bölünməlidir. Bunun gecə vaxtları var. Şəhərdə tıxac olan vaxtlarda açıq yolları analiz edib harada neçə yeraltı parkinqmi, küçə parkinqimi, yoxsa, xüsusilə Molların və insanların yaşadığı əsas yerlərdə modul parkinqlər tikilməlidir və onların tarifləri olmalıdır. Şəhər mərkəzinin tarifi fərqli qiymətdə olmalıdır. «B» zonası fərqli qiymətdə olmalıdır. Bununla əlaqədar biz ilin ilk yarısının yekununda görülmüş işlərin nəticələrinə dair digər müvafiq qurumlarla birgə hesabat hazırlayıb Sizə təqdim edəcəyik.

Prezident İlham Əliyev: Yaxşı, bu il görüləsi işlər çoxdur. Əminəm ki, ilin sonunda biz şəhər nəqliyyatını daha da inkişaf etmiş halda görəcəyik. Çünki bir daha demək istəyirəm, bu, insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı üçündür. Onu da bildirməliyəm ki, dövlət xətti ilə böyük məbləğə alınan avtobuslar, əlbəttə, kommersiya baxımından bəlkə də 10 il, 20 ildən sonra özünü doğruldacaq. Biz bunu ona görə edirik ki, insanlar şəhər nəqliyyatından, avtobuslardan təhlükəsizlik şəraitində və rahat şəkildə istifadə etsinlər.

### *ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşavirinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donnellinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

–Xoş gəlmisiniz. Sizi görməyə çox şadam.

Kurt Donnelli: Biz də Sizi görməyə şadıq.

Prezident İlham Əliyev: Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısında iştirakınıza görə sizə təşəkkür edirəm. Bu, həqiqətən də yaxşı ənənəyə çevrilib. Biz hər il nəticələri nəzərdən keçirir və gələcək işləri planlaşdırırıq. Biz artıq yekun mərhələyə yaxınlaşan Cənub Qaz Dəhlizi layihəsinin ildən-ilə çox mühüm icrasını müşahidə edirik. Ümidvaram ki, bu ilin sonunadək bütün işlər tam yekunlaşacaq. Bildiyiniz kimi, biz layihənin açılışını mərhələli şəkildə etmişik. 2018-ci ildə Bakıda təntənəli mərasim təşkil etdik və Cənub Qaz Dəhlizinin istismara verildiyini rəsmi olaraq elan etdik. Sonra əlbəttə ki, TANAP-la bağlı çox mühüm tədbir oldu. Ötən ilin noyabrında TANAP artıq Avropa sərhədinə çatdı. Bu, bizə «Şahdəniz» və digər qaz yataqlarından daha çox təbii qaz ixrac etməyə imkan verəcək. Çünki bizim planımız fəaliyyətimizi genişləndirmək və hələ ki, kəşfiyyat mərhələsində və ya yekun hazırlıq mərhələsində olan digər yataqlardan hasilat səviyyəsini artırmaqdır.

Beləliklə, bütün işlər qrafikə uyğun gedir. Mən bu mühüm layihənin icrasında göstərdiyi davamlı dəstəyə görə ABŞ hökumətinə minnətdarlığımı bildirmək istərdim. Bilirəm ki, Prezident Tramp şəxsən prosesdə iştirak edir. Onun fəal təmasları və iştirakı bizim əvvəllər üzləşdiyimiz müəyyən çətinliklərin öhdəsindən gəlməkdə çox yardımçı oldu. Hazırda biz heç bir başqa maneə görmürük. Qarşıdakı yol çox aydındır. Əminəm ki, səmərəli əməkdaşlığımız gələcəkdə davam edəcək, çünki ABŞ hökuməti bizim istər neft və qaz kəmərləri, istərsə də enerji potensialımızın inkişafı ilə bağlı layihələrimizi hər zaman çox dəstəkləyib. Bir daha xoş gəlmisiniz.

ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donnelli ilk dəfə Bakıya 2004-cü ildə gəldiyini, ötən dövr ərzində paytaxtımızda həyata keçirilən böyük inkişaf proseslərinin şahidi olduğunu vurğuladı. Cənub Qaz Dəhlizinin əhəmiyyətinə toxunan Kurt Donnelli bu layihənin tamamlanma mərhələsinə daxil olması münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Kurt Donnelli Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Bakıda keçiriləcək nazirlərin altıncı toplantısının əhəmiyyətinə toxundu və bu formatda aparılan müzakirələrin önəmini qeyd etdi.

Görüşdə son dövrlərdə Azərbaycanda alternativ enerji mənbələrinin inkişafına dair fikir mübadiləsi aparıldı.

### *Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisinin rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Böyük Britaniyanın Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Baronessa Emma Nikolson bu il futbol üzrə Avropa çempionatının Bakıda keçiriləcək oyunlarında iştirak edəcək Uels milli komandası tərəfindən göndərilən xatirə hədiyyəsini Prezident İlham Əliyevə təqdim etdi.

Prezident İlham Əliyev dedi:

- Çox maraqlı xatirə hədiyyələrinizə görə sizə təşəkkür edirəm. Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində mütəmadi keçirilən nazirlərin toplantısında bizimlə birlikdə olduğunuza görə təşəkkür edirəm. Sizin şəxsən iştirakınız çox mühümdür. Bu, Böyük Britaniya hökumətinin bu mühüm layihənin icrasına davamlı dəstəyini nümayiş etdirir. Bu, həmçinin ölkələrimiz arasındakı uzunmüddətli tərəfdaşlığı nümayiş etdirir.

Bildirmək istərdim ki, ötən görüşümüzdən bəri layihənin gedişatı ilə bağlı mühüm irəliləyiş qeydə alınıb. Biz TANAP-ı Türkiyə-Yunanıstan sərhədinə çatdırdıq. Bu, Cənub Qaz Dəhlizinin icrasında mühüm mərhələ idi. Düşünürəm və ümidvaram ki, növbəti dəfə - gələn ilin fevralında Bakıda görüşəndə biz layihənin tamamlanması barədə məlumat verəcəyik və gələcək addımlarımızı planlaşdıracağıq. Çünki zənnimcə, tikintinin yekunlaşması, əlbəttə ki, mühüm mərhələ olmaqla yanaşı, eyni zamanda, yeni imkanlar açacaq.

Mən, həmçinin sizin şəxsən verdiyiniz töhfəyə görə təşəkkürümü bildirmək istəyirəm. Həmçinin şadam ki, neft-qaz sektorunda böyük şirkətlərin bir qismi indi kiçik və orta sahibkarlıq müəssisələri ilə çox mühüm əməkdaşlıq mərhələsinə qədəm qoyur. Bu da bizim hökumətimiz üçün prioritet təşkil edir. Çünki biz Azərbaycan üçün dayanıqlı inkişafı təmin etmək istəyirik və bizim iqtisadiyyatımızın gələcəyi əhəmiyyətli dərəcədə sahibkarlıqdan, kiçik və orta sahibkarlıq müəssisələrinin fəaliyyətindən və islahatların davam etdirilməsindən asılı olacaq. Ona görə də neft-qaz sektoru yalnız bizim islahatlarımızı lazımi vəsaitlə dəstəkləyən sektor olacaq və biz bu vəsaiti insan kapitalına yönəltməyə, həmçinin özəl sektoru dəstəkləməyə davam edəcəyik. Bir daha xoş gəlmisiniz.

Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Bakıda keçiriləcək nazirlərin altıncı toplantısının əhəmiyyətini vurğuladı.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində uğurla inkişaf etdiyi bildirildi və bu istiqamətdə əlaqələrimizin inkişafında BP-nin rolu xüsusi vurğulandı, əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı Azərbaycanda aparılan islahatların iki ölkə arasında əməkdaşlıq üçün yeni imkanlar yaratdığı bildirildi.

Görüşdə kiçik və orta sahibkarlığın inkişafı, alternativ enerji, innovasiyalar, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

### *Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rafal Poborskinin etimadnaməsini qəbul edib.

Səfir Rafal Poborski fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir Rafal Poborski dedi: Cənab Prezident, məni Azərbaycan Respublikasına fövqəladə və səlahiyyətli səfir olaraq akkreditə edən etimadnaməni və sələfimin geri çağırılması ilə bağlı məktubu Sizə təqdim etməkdən şərəf duyuram. Zati-aliləri, ümid edirəm ki, mənim missiyam Azərbaycan və Polşa xalqları arasındakı dostluq münasibətlərini gücləndirəcək.

Rafal Poborski etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev dedi:

- Xoş gəlmisiniz, cənab səfir, sizi görməyə çox şadam. Azərbaycandakı fəaliyyətinizdə sizə uğurlar arzulayıram. Əminəm ki, sizin görəcəyiniz çox işlər var. Çünki ölkələrimiz arasında münasibətlər inkişaf edir və biz çox güclü siyasi əlaqələr yaratmışıq. Mən məmnunluqla ölkənizə rəsmi səfərimi və Prezident Dudanın Azərbaycana səfərini xatırlayıram. Biz ikitərəfli əməkdaşlığımızla bağlı çoxşaxəli məsələləri müzakirə etmişik. Bu ilin yanvarında biz Davosda görüşümüz zamanı tərəfdaşlığımızın strateji əhəmiyyətini bir daha təsdiqlədik. Bizim üçün Polşa çox vacib tərəfdaş və dost ölkədir. Uzun illər ərzində ölkələrimiz arasında sıx dostluq münasibətləri inkişaf etmişdir. Ötən illər ərzində çoxsaylı təmaslarımız olub. Şadam ki, hazırda biz təkcə siyasi sahədə deyil, iqtisadi sahədə də inkişafı görürük. Bildiyiniz kimi, bizim Mərkəzi Avropa üzrə regional ticarət nümayəndəliyimiz Polşada yerləşir. Bu fakt onu göstərir ki, dünyanın bu regionunda sizin ölkənizi əsas ticarət tərəfdaşımız hesab edirik. Əminəm ki, qarşıdakı illərdə bizim əlaqələrimiz inkişaf edəcək. Prezident Duda ilə birlikdə bu ilin yanvarında gələcək planlarımızı müzakirə etmişik. Mən Sizə uğurlar arzulayıram.

Səfir Rafal Poborski dedi:

- Təşəkkür edirəm, Zati-aliləri. İkitərəfli münasibətlərimiz barədə ətraflı söylədiklərinizdən sonra nəyisə əlavə etmək çətindir. İcazə verin deyim ki, mən dostluq münasibətlərimizi gücləndirmək üçün Prezidentimiz tərəfindən buraya göndərilmişəm. Bilirəm ki, hər iki Zati-alilərinin bir-biri ilə çox yaxşı təmasları var. Siz çox tez-tez görüşürsünüz. Bizim ikitərəfli münasibətlərimizin təməl aspektlərini çox yaxşı vurğulayırsınız. Mən Polşadakı həmkarlarımın köməyi ilə həm ikitərəfli siyasi dialoqumuzun inkişafına töhfə vermək, həm də iqtisadi münasibətləri inkişaf etdirmək üçün əlimdən gələn və mümkün olan hər şeyi etməyə çalışacağam. Hər iki ölkə region üçün çox əhəmiyyətlidir. Biz nəqliyyat qovşaqlarından faydalanmaq üçün çox yaxşı mövqedəyik. Biz çox böyük məmnuniyyətlə Sizin enerji siyasətinizdəki nailiyyətlərin şahidi olmuşuq. Bilirəm ki, bununla bağlı şirkətlərimiz arasında dialoq aparılır. Ümid edirik ki, bu, uğurlu layihələrlə nəticələnəcək, birlikdə hər iki tərəf faydalana biləcək. Əlbəttə, mədəni əlaqələrin və xalqlar arasında təmasların yaradılması sahəsində çox yaxşı perspektivlər mövcuddur. Ümid

edirik ki, paytaxtlarımız arasında birbaşa uçuşlar açılacaq. Bu layihənin həyata keçməsi üçün də əlimdən gələni edəcəyəm.

Görüşdə enerji, nəqliyyat, kənd təsərrüfatı, mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

### *Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidentinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Yurgen Riqterinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

- Xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Ümidvaram ki, səfəriniz çox məhsuldar keçəcək. Bildiyiniz kimi, Davos Forumu zamanı Prezident Çakrabarti ilə görüşmək, gələcək planlarımızı müzakirə etmək və görülən işləri bir qədər nəzərdən keçirmək imkanımız oldu. Əməkdaşlığın səviyyəsi bizi çox qane edir. Azərbaycan üçün portfolio 3,5 milyard dolları ötüb. Mənə verilən məlumata görə, bu, 170-dən çox layihədir. Yaxşı məqam ondadır ki, bunun yarısı özəl sektorun payına düşür. Düşünürəm ki, bu, həm də Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinin çox yaxşı göstəricisidir. Çünki Azərbaycanda özəl sektor bu sahədə cəmləşib. Biz onların rəqabətqabiliyyətli olmasına kömək etmək üçün işləyirik. Şadıq ki, qeyri-enerji ixracatımız artır. Bu, şaxələndirilmənin göstəricisidir. Əlbəttə ki, biz daha çox iş görməliyik. Biz, həmçinin lazım olan zaman infrastruktur layihələrimizə verdiyi güclü dəstəyə görə Avropa Yenidənqurma və İnkişaf Bankına minnətdarıq. Lakin indi onların əksəriyyəti uğurla tamamlanıb. Cənub Qaz Dəhlizinə dəstəyə görə sizə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Biz bu yaxınlarda Məşvərət Şurasının 6-cı toplantısı çərçivəsində il ərzində görülən işləri və gələcək planları nəzərdən keçirdik. Beləliklə, tərəfdaşlıq hər zaman çox müsbət olub və müxtəlif vaxtlarda biz diqqəti Azərbaycan iqtisadiyyatının praktiki ehtiyacları üzərində cəmlədik. Düşünürəm ki, bu, həmçinin çox çevik və yekun nəticəyə istiqamətlənmiş yanaşmanın yaxşı göstəricisidir. Sözsüz ki, əməkdaşlığımız ərzində Azərbaycan bütün sahələrdə, o cümlədən, iqtisadi sahədə çox dəyişib. Ona görə də, indi qarşımızda duran çağırışlar və məsələlər 10 il bundan əvvəl üzləşdiklərimizdən fərqlidir. Beləliklə, bizim əsas istiqamətimiz özəl sektor, qeyri-enerji iqtisadiyyatı, yaşıl iqtisadiyyat, sənaye istehsalının artırılmasıdır. Biz qeyri-enerji sektorunda sənaye istehsalında bəlkə də ən yüksək səviyyəyə nail olmuşuq. Ötən il bu 15 faizə yaxın olub. Bu ilin yanvarında rəqəmlər təxminən eynidir. Beləliklə, bu, onu göstərir ki, infrastruktur layihələri, eləcə də, sahibkarlığa olan dövlət dəstəyi çox müsbət investisiya mühiti yaradıb. Siz "Doing Business" hesabatından bizim islahatlarımız barədə bilirsiniz. Biz 20-yə yaxın ən islahatçı ölkə arasında yer almışıq. Lakin yenə də çox iş görülməlidir. Ona görə də mən düşünürəm ki, qarşıdan gələn dövrdə, - biz 2020-ni yaxşı nəticələrlə başlayırıq, - əvvəllər olduğu kimi yenə də Avropa Yenidənqurma və İnkişaf Bankından eyni dəstəyi almaq üçün qısa və uzunmüddətli addımlarımızı və strategiyamızı müvafiq şəkildə planlaşdırmalıyıq. Əminəm ki, sizin bütün əlaqələriniz bizə bu məqsədə çatmağa imkan verəcək. Bir daha xoş gəlmisiniz.

X X X

Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Yurgen Riqterink təmsil etdiyi bankla Azərbaycan arasında uzun illərdir mövcud olan münasibətlərdən razılığını ifadə etdi. İndiyə kimi Bankın ölkəmizə 3,3 milyard dollardan çox investisiya yatırdığını bildirən Yurgen Riqterink hazırda 1,1 milyard dollar dəyərində investisiya portfelinin olduğunu da söylədi.

Avropa Yenidənqurma və İnkişaf Bankının icraçı direktoru ilə birlikdə Davosda Prezident İlham Əliyev ilə görüşünü xatırlayan qonaq Azərbaycan dövləti başçısının iqlim dəyişikliyi məsələləri və ölkədə xarici borcun azalması ilə bağlı görülən işlər barədə söylədiklərinin maraq doğurduğunu vurğuladı. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan iqtisadi islahatları yüksək qiymətləndirən Yurgen Riqterink ölkəmizdə həyata keçiriləcək birgə layihələrin icrası və əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi.

Söhbət zamanı bərpa olunan enerji, nəqliyyat, özəl sektorun inkişafı, meliorasiya və su təchizatı və digər sahələrdə əməkdaşlığın konkret istiqamətləri ilə bağlı müzakirələrin aparılmasının zəruriliyi qeyd edildi.

Görüşdə Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın genişləndirilməsi və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

### *Rusiya Federasiyasının Rostov vilayətinin qubernatorunun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Rusiya Federasiyasının Rostov vilayətinin qubernatoru Vasili Qolubevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev dedi:

-Xoş gəlmisiniz, sizi görməyə çox şadam. Əminəm ki, səfəriniz məhsuldar və xoş olacaq. Bizi qədim

dostluq telləri bağlayır. Şadam ki, bu gün bizə gəlmisiniz. Əlbəttə, sizin səfərinizin gündəliyi yetərincə zəngindir. Bildiyimə görə, çoxlu görüşləriniz olacaq. Mənim fikrimcə, bu görüşlərin hamısı çox konstruktiv olacaq və onların nəticələrinə əsasən gələcək əməkdaşlıq yollarını planlaşdıracağıq. Ona görə ki, həm əmtəə dövriyyəsinin artırılması, həm də investisiya layihələrinin, mədəni layihələrin həyata keçirilməsi sahəsində böyük potensial var. Ümumiyyətlə, biz qonşuyuq, demək olar ki, eyni regionda yaşayırıq. Buna görə də, kənd təsərrüfatı istiqamətləri ümumiyyətlə oxşardır. Odur ki, kooperasiya üzrə istiqamətlər çoxdur. Bildiyiniz kimi, biz sizin kənd təsərrüfatı texnikasından fəal istifadə edirik və bizim fermerlər razıdırlar. Beləliklə, görüləsi işlər çoxdur, gündəlik zəngindir. Ümidvaram ki, səfəriniz çox səmərəli olacaq. Bir daha xoş gəlmisiniz.

Rostov vilayətinin qubernatoru Vasili Qolubev dedi:

-Sağ olun, İlham Heydər oğlu. Əvvələn, səmimi qəbul üçün Sizə təşəkkür edirik. Biz artıq işə başlamışıq və xeyli görüşlər olub. Biznes nümayəndələri işləyirlər. Bilirəm ki, bu layihələr çox konkretdir, hər iki tərəfin marağına uyğundur. Bu, Sizin dediyiniz kimi, maşınqayıranlara da, "Waterfall PRO" şirkətinə də aiddir. Polimerlər istehsal edən bu şirkət xammalı Azərbaycandan alır. Potensial böyükdür, təqribən 60 min ton məhsuldan söhbət gedir. Ümidvaram ki, həmin şirkətlərlə əldə edilmiş razılaşmalar reallaşacaq. Onlar praktiki olaraq reallaşmağa başlayıb. Rostov vilayəti geniş şaxələndirilmiş regiondur. Son illərdə bizdə sənaye sektorunun, aqrar sənaye sektorunun inkişaf dinamikası yaxşıdır. Turizm potensialının inkişaf etdirilməsi üçün gözəl imkanlarımız var. Bir neçə şirkət elə bu gün əlaqələrin inkişafı barədə sazişlər imzalamağa hazırdır – sabah bu sazişlər imzalanacaq.

Mən humanitar əməkdaşlıq mövzusunu ayrıca qeyd etmək istərdim. Bizim ali məktəblər arasında əməkdaşlıq haqqında bu gün də müqavilələr var. Bilirəm ki, bizim Rostov Dövlət Texniki Universitetinin, Cənub Federal Universitetinin və bir sıra başqa ali məktəblərin konkret əlaqələri reallaşıb. Çox xoşagələn haldır ki, bu tərəfdaşlıq münasibətləri qədim tarixə malikdir.

* * *

Rostov vilayətinin qubernatoru Vasili Qolubev Prezident İlham Əliyevə videoyazı olan xatirə albomunu təqdim etdi.

Videoalbom 1980-ci ildə o vaxt Azərbaycana rəhbərlik edən ulu öndər Heydər Əliyevin Rostov vilayətinə səfərinə həsr olunub. Səfər zamanı Ulu Öndər Böyük Vətən müharibəsi illərində misilsiz şücaət göstərmiş Azərbaycan əsgərlərinin qəhrəmanlığına həsr edilən və Rostov vilayətinin azad olunmasının rəmzi olan "Sambek yüksəklikləri" xatirə abidəsinin açılışında iştirak edib. O zaman alman faşistləri ilə döyüşlərdə böyük hünərlə vuruşan həmvətənlərimizdən ibarət 130-cu və 416-cı atıcı diviziyalar "Taqanroq" fəxri adına layiq görülmüşdü.

* * *

Prezident İlham Əliyev dedi: Bizim ortaq tariximizi xatırlatdığınıza görə çox təşəkkür edirəm. Əlbəttə, 40 il bundan əvvəl Heydər Əlirza oğlu Əliyev Rostov vilayətində bu memorialın açılışında iştirak edib. Bu tarix bizə çox əzizdir. Sağ olun ki, bu xatirəni qoruyursunuz. Riqqət hissi doğuran belə videoçarxa görə sağ olun. Əlbəttə, bu il bizim ümumi Qələbəmizin böyük bayram ilidir. Azərbaycanda Böyük Vətən müharibəsi veteranları dövlət tərəfindən həm mənəvi, həm də maddi baxımdan dəstəklənirlər. Biz onların fədakarlığını, qəhrəmanlığını həmişə xatırlayırıq. Mən hər il mayın 9-nu adətən Bakıda veteranlarla birgə keçirirəm. Lakin, bu il Vladimir Vladimiroviç Putindən dəvət almışam və mayın 9-da Moskvada olmağı planlaşdırıram. Onu da demək istəyirəm ki, bizim ümumi Qələbəmiz şərəfinə Azərbaycan Ordusunun zabitləri Qızıl Meydanda paradda iştirak edəcəklər.

Fürsətdən istifadə edib onu da demək istərdim ki, bu məsələ barədə Rusiyanın və Azərbaycanın mövqeləri tamamilə eynidir. Böyük Vətən Müharibəsi haqqında həqiqətin təhrif edilməsi, tarixi yenidən yazmaq, faşizmi və faşistləri qəhrəmanlaşdırmaq cəhdlərinə qarşı biz də qətiyyətlə mübarizə aparırıq. Buna görə də, bu məsələdə bizim mövqelərimiz tamamilə üst-üstə düşür. Bu mövqelər həm tarixi həqiqətə, ədalətə, həm də ona əsaslanır ki, gələcək nəsillər kimin təcavüzkar, kimin təcavüz qurbanı olmasına, kimin qalib gəlməsinə və bu Qələbənin nəyin bahasına qazanılmasına heç vaxt şübhə etməsinlər.

Biz həlak olmuş bütün sovet vətəndaşlarının xatirəsini, əlbəttə, bizim nümayəndələrin də xatirəsini Azərbaycanda ehtiramla yad edirik. Müharibədə Azərbaycandan iştirak edənlərin yarısı, 300 min nəfərdən çoxu həlak olub. Müharibə illərində Sovet ordusunun sürtkü yağlarına tələbatının 90 faizini, benzinin və tanklar üçün yanacağın 80 faizini Azərbaycan təmin edirdi. Bu, bizim ümumi Qələbəmizdə mühüm rol oynayıb. Bizim zavodlarda zəruri silahlar, o cümlədən məşhur "Katyuşa" raketləri istehsal edilirdi. Ona görə də, biz həmin günü ehtiramla yad edirik və bu xatirə hədiyyəsinə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Sağ olun.

* * *

Rostov vilayətinin qubernatoru Vasili Qolubevin Prezident İlham Əliyevə təqdim etdiyi və ulu öndər Heydər Əliyevin 1980-ci ildə "Sambek yüksəklikləri" abidəsinin açılışında iştirak etmək üçün Rostov vilayətinə səfərinə həsr edilmiş videoyazını diqqətinizə çatdırırıq.

### *Nahid Bağırovun İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı, Mirhəsən Seyidovun Neftçala Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Nahid Bağırovu İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı, Mirhəsən Seyidovu Neftçala Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib.

Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

- Mən sizi - birinizi Neftçala, birinizi də İsmayıllı rayonuna icra başçısı vəzifəsinə təyin edirəm. Əminəm ki, siz bu yüksək etimadımı doğruldacaqsınız və elə işləyəcəksiniz ki, həm vətəndaşlar sizdən razı olsunlar, həm də mən sizin işinizdən razı olum. Buna nail olmaq üçün, sadəcə olaraq, mənim tapşırıqlarımı yerinə yetirmək lazımdır. Bu tapşırıqlar da çox sadədir - vətəndaşlarla bir yerdə olmaq, daim xalq arasında olmaq, xalqın qayğıları ilə yaşamaq, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizə aparmaq, rayonların sosial-iqtisadi inkişafına töhfə vermək. Əgər siz bu tapşırıqlarımı layiqincə yerinə yetirsəniz, həm dövlət sizin işinizdən razı olacaq, həm də vətəndaşlar.

İsmayıllı və Neftçala rayonlarının sosial-iqtisadi inkişafı üçün bir çox layihələr icra edilmişdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarında nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapmışdır. Hazırda dördüncü proqram icra olunmaqdadır və əminəm ki, 2023-cü ilə qədər rayonların infrastruktur və sosial problemləri tamamilə öz həllini tapacaq. Həm qazlaşdırma, həm elektrik enerjisinin təchizatı, həm də kənd yollarının çəkilişi, içməli su layihələrinin həyata keçirilməsi ilə bağlı müvafiq göstərişlər verilmişdir və bir çox layihələr icra edilib. Bildiyiniz kimi, bu layihələr mərkəzi icra orqanları tərəfindən dövlət investisiya proqramı çərçivəsində icra edilir. Eyni zamanda, sosial obyektlərin tikintisi, təmiri də mərkəzi icra orqanları tərəfindən həyata keçirilən layihələrdir.

Sizin isə işiniz əsasən rayonda mövcud olan potensialı səfərbər edib, həm iqtisadi artımı təmin etmək, iş yerlərinin yaradılması ilə bağlı əməli addımlar atmaq və rəhbərlik edəcəyiniz rayonlara sərmayənin gətirilməsinə nail olmaqdır. Həm xarici investorları, həm də yerli investorları cəlb etmək üçün hər bir rayonun başçısı fəal işləməlidir. Bu tapşırıqları mən əvvəllər də vermişəm. Bəzi rayonlarda bu sahədə yaxşı nəticələr var, bəzi rayonlarda investisiya qoyuluşu zəifdir. Bunun obyektiv səbəbləri də ola bilər. Rayonların potensialı eyni deyil, amma buna baxmayaraq, hesab edirəm ki, Azərbaycanın müasir infrastruktur potensialını nəzərə alaraq hər bir rayon investorlar üçün cəlbedici ola bilər. Sadəcə olaraq, yerli icra orqanlarının rəhbərləri oturub bu investisiyaları gözləməməlidirlər. Özləri fəal olmalıdırlar, özləri investorları tapmalıdırlar, onları inandırmalıdırlar və cəlb etməlidirlər. Bəzi hallarda bəzi rayonlarda investor vəsait qoymaq istəyir, amma əfsuslar olsun ki, onun qarşısında süni əngəllər törədilir. Yaxud da ki, yerli icra orqanları ona qarşı əsassız və qanunsuz tələblər irəli sürürlər. Ona görə bu hallara qarşı çox ciddi mübarizə aparılmalıdır. Rayonlarda həm ictimai-siyasi ab-hava sağlam olmalıdır, ictimai münasibətlər sağlam zəmində qurulmalıdır və həm də xalqı narahat edən problemlər həll edilməlidir. O problemləri ki, müəyyən səbəblərə görə siz özünüz həll edə bilmirsiniz, gərək mərkəzi icra orqanlarına, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, müvafiq nazirliklərə təkliflər verəsiniz və fəal olasınız.

Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə Azərbaycanda ən ciddi formada aparılır və bunun təzahürləri göz qabağındadır. Bu siyasət şüurlu siyasətdir və bundan sonra da davam etdiriləcək. Qanun qarşısında hamı bərabərdir, heç kim toxunulmaz deyil, heç kimin heç bir xüsusi imtiyazları yoxdur, heç kimin keçmiş xidmətləri nəzərə alınmayacaq. Hər kəs keçmiş xidmətlərə görə dövlətdən layiqli qiymət alıbdır. Bundan sonra əgər kimsə dövlət işində, xüsusilə icra başçısı vəzifəsində işləmək istəyirsə, bax, bu prinsiplər əsas olmalıdır.

Əfsuslar olsun ki, hələ də bunu dərk etməyən insanlar var. Neftçala rayonunda aparılmış xüsusi əməliyyat onu bir daha göstərdi. Xalqın gözü önündə bu biabırçı mənzərə bir daha göstərdi ki, əfsuslar olsun, bizim bəzi yüksək ranqlı məmurlar nəinki xalqın, dövlətin etimadını doğrultmurlar, onların hərəkətləri ikrah hissi doğurur. Bütün bu sübutlar göz qabağındadır, nümayiş etdirilən videogörüntülər, sadəcə olaraq, bəzi məqamları işıqlandırır. Ancaq Neftçala rayonunda rüşvətxorluq və korrupsiya sistem xarakter daşıyırdı, sistemli əsasda həll olunurdu və demək olar ki, rüşvətxorluq və korrupsiya bütün qurumları sarsıtmışdı.

Təsəvvür edin, rayonun ən zəngin insanlarından biri Mərkəzi Rayon Xəstəxanasının baş həkimidir. Onun varidatı haqqında indi hüquq mühafizə orqanları məlumat əldə ediblər. Bu adam nəyin hesabına varlanıb? Bu, biznesmendir? Yox. Bu, ixtiraçıdır? Yox. Buna böyük miras qalıb? Yox. Nəyin hesabına? Xəstələrin boğazından kəsilən pullar hesabına. Yazıq xəstələr məcbur olub bu tamahkar insanlara pul veriblər ki, öz sağlamlıqlarını təmin etsinlər. Ona görə bu yolla gedən hər bir adam bilməlidir ki, bunun axırı olacaq.

Korrupsiyaya və rüşvətxorluğa qarşı dözümlülük sıfır səviyyəsində olmalıdır. Neftçalanın keçmiş icra başçısının biabırçı hərəkətləri xalqda nifrət hissi oyadır. Kabinetdə müxtəlif adamlardan rüşvətin alınması biabırçı mənzərədir. Bir də ki, o adamın iş otağındakı hərəkətləri, onun əynindəki geyim, cinsdə, ev paltarında adam iş otağında ola bilər? Rəhbər iş otağında bu geyimdə hansı nümunə göstərir bütün məmurlara? Ona

görə bu biabırçı kadrlar, əlbəttə, onu göstərir ki, bu insanın və buna oxşar insanların mənəvi deqradasiyası nə dərəcədədir. İndi operativ məlumat toplanılıb və toplanılır. Əlbəttə ki, mən istintaqa qarışmaq istəmirəm, istintaq hər şeyi özü göstərəcək. Son sözü məhkəmə deyəcək. Ancaq artıq aşkar olunan faktlar onu göstərir ki, Mərkəzi Rayon Xəstəxanasında bütün şöbələr baş həkimə aylıq haqq ödəyir. Məktəblərdə rüşvətxorluq kütləvi xarakter alır. Məktəb direktorlarından haqq tələb olunur, bələdiyyələrdən rüşvət tələb olunur, ictimai əsaslarla ödənişli iş yerlərinə insanlar cəlb edilmir, onların ödəniş kartları götürülür və icra başçısı tərəfindən o pullar çəkilir. Eyni zamanda, dövlətdən maaş alan və ödənişli ictimai yerlərdə işləməli olan həmin vətəndaşlar icra başçısına aid bir çox kommersiya obyektlərində və təsərrüfatlarda qul kimi işlədilir.

Yəni, bir daha demək istəyirəm ki, bu, mənəvi deqradasiyanın pik həddidir və bu, hər kəsə dərs olmalıdır. İstisna olunmur ki, onun kimi icra başçıları və digər mərkəzi və yerli icra orqanlarının rəhbərləri ona oxşar hərəkətlər edir. Onların hər biri araşdırılacaq. Heç kim toxunulmaz deyil və bu hadisələr bir daha onu göstərir.

Siz gənc kadrlarsınız, sizin tərcümeyi-halınız mənə təqdim olunub. Siz bu günə qədər heç bir qanunazidd əmələ əl atmamısınız, gəncsiniz, birinizin 40 yaşı, digərinizin 30 yaşı var, gənc nəslin nümayəndələrisiniz. Sizin təyinatınız bizim kadr siyasətimizi göstərir. Onu göstərir ki, bəyan etdiyimiz prinsiplər həyatda öz əksini tapır. Biz gənclərə yol açmalıyıq, meydan verməliyik, yeni təfəkkürlü insanlar önəmli vəzifələrə təyin edilməlidirlər. Biz köhnə psixologiyanı bu yollarla qıra bilərik. Cəmiyyətimizi sarsıdan xoşagəlməz hallara ancaq bu yollarla son qoya bilərik. Ona görə rəhbərlik edəcəyiniz rayonlarda işlər sizin fəaliyyətinizdən asılı olacaq. Əgər sizə göstərilən böyük etimadı bütövlükdə doğrultmasanız bu, eyni zamanda, cəmiyyətdə də məyusluq yaradacaq. Deyəcəklər ki, yeni insanlar gəldi, gənclərdir, yeni təfəkkürlə, yeni yanaşma ilə, amma eyni yolla gedirlər. Ona görə bir daha sizə ciddi tapşırıram ki, əsas vəzifəniz bütün işləri düzgün qurmaq və xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmaqdır.

Eyni zamanda, ilk növbədə, rayonlarda vəziyyət təhlil edilməlidir. İnsanları narahat edən məsələlər ciddi araşdırılmalıdır və onların həlli yolları ilə bağlı təkliflər hazırlanmalıdır, yaxud da ki, bu məsələlər yerində öz həllini tapmalıdır.

Əgər işlər düzgün qurularsa, rayonların potensialı kifayət qədər böyük ola bilər. Neftçala rayonunda sənaye zonası yaradılıb. Deyə bilərəm ki, rayonların arasında birinci sənaye zonası Sumqayıtdan sonra Neftçala şəhərində yaradılıb və artıq fəaliyyətə başlayıb. Azərbaycanda avtomobillər Neftçalada istehsal olunur və bu sənaye zonasının gələcək inkişafı ilə bağlı konkret təkliflər verilməlidir. Hesab edirəm ki, Neftçalada balıqçılıq sənayesinin çox böyük perspektivləri var. Baxmayaraq biz Xəzər dənizinin sahillərində yerləşirik, əfsuslar olsun ki, özümüzü balıqla təmin edə bilmirik, idxaldan asılıyıq. Eyni zamanda, balıqçılıq təsərrüfatlarının yaradılması geniş vüsət almayıb. Mövcud olan təsərrüfatların böyük hissəsi çox primitiv səviyyədədir. Ona görə balıqçılıq həm bizim qeyri-neft sektorumuzun önəmli sahəsi ola bilər, eyni zamanda, ixracyönümlü sahə ola bilər və olmalıdır. Ona görə investorları bu sahəyə cəlb etmək üçün mütləq işlər aparılmalıdır.

Eyni zamanda, hesab edirəm ki, Neftçala rayonunun turizm potensialı da çox perspektivli ola bilər. Bu günə qədər rayonda turizmlə bağlı demək olar ki, heç bir iş görülməyib. Halbuki Bakıya o qədər də uzaq deyil, yaxşı yollar da çəkilir. Hesab edirəm ki, orada da turizm infrastrukturunun yaradılmasına ehtiyac var. Əlbəttə ki, kənd təsərrüfatı Azərbaycanın hər bir rayonunun önəmli sahəsidir, əməktutumlu sahədir. Bu sahəyə də diqqət yetirilməlidir.

O ki qaldı, İsmayıllı rayonuna, hesab edirəm ki, İsmayıllı rayonunun əsas inkişaf potensialı turizm və kənd təsərrüfatı ilə bağlıdır. İsmayıllı rayonunun çox mənzərəli, səfalı yerləri, zəngin təbiəti vardır. Ona görə bu imkanlardan tam şəkildə istifadə olunmalıdır. Dövlət isə öz tərəfindən bundan sonra da infrastruktur layihələrinin icrası ilə bağlı önəmli addımlar atacaq. Necə ki, bu yaxınlarda Lahıc qəsəbəsinə yeni yolun çəkilişi təmin edilib. Bu da əvvəlki yola nisbətən xeyli təhlükəsiz yoldur və məsafə baxımından Bakıdan daha qısa yoldur və Şamaxı rayonundan düz Lahıc kəndinə gəlir. Yolun açılışını mən şəxsən etmişəm. Özüm sükan arxasında bu yolu getmişəm və artıq turistlər üçün Lahıca gəlmək imkanı daha da genişdir. Eyni zamanda, Lahıc qəsəbəsinin qazlaşdırılması, yeni məktəbin tikintisi həll olunub. Bizim digər tarixi kəndimiz olan Basqalın tarixi irsinin qorunması ilə bağlı mənim tərəfimdən müvafiq Sərəncam imzalanıb. Bu da bu kəndin tarixinə, keçmişinə və zəngin mədəni irsinə Prezident tərəfindən verilən yüksək qiymətdir. Çünki çox nadir hallarda Prezident tərəfindən hansısa kəndin inkişafı ilə bağlı Sərəncam imzalanır. Düzdür, bu məsələlər daim diqqət mərkəzindədir. Hər bir kənd mənim üçün doğmadır və əzizdir, amma Azərbaycanın müxtəlif bölgələrində tarixi yaşayış yerləri vardır ki, onlara dövlət tərəfindən xüsusi qayğı göstərilməlidir. Basqal kəndinin gələcək inkişafı ilə bağlı əsas amillər tarixi keçmişimizi qorumaq və turizm imkanlarımızı genişləndirməkdir.

Bir sözlə, hesab edirəm ki, kənd təsərrüfatı və emal sənayesi sahəsində böyük imkanlar var və siz çalışmalısınız ki, bu rayonlarda gedən işlər yaxın zamanlarda öz nəticəsini versin. Sizin fəaliyyətinizdə bax, bu amillər əsas rol oynayacaq - vətəndaşların məmnunluğu, rayonların inkişafı, iqtisadi-sosial göstəricilər və investisiyaların cəlb edilməsi.

Bir daha demək istəyirəm ki, sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız.

### *Gürcüstanın Müdafiə nazirinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Gürcüstanın Müdafiə naziri İrakli Qaribaşvilini qəbul edib.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə inkişafından məmnunluq ifadə olundu. Ölkələrimizin birgə iştirak etdiyi mühüm enerji layihələrinin əhəmiyyəti vurğulandı, Cənub Qaz Dəhlizinin uğurla reallaşmasının önəmi qeyd edildi.

Söhbət zamanı Azərbaycan ilə Gürcüstan arasında iqtisadi əməkdaşlığın, investisiya qoyuluşunun əlaqələrimizin inkişafına töhfə verdiyi bildirildi.

### *İqtisadiyyat nazirinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də İqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul edib.

Ölkəmizdə koronavirusa qarşı mübarizə sahəsində görülən tədbirlərdən danışan Prezident İlham Əliyev dedi:

-Koronavirusa qarşı mübarizəni daha da səmərəli aparmaq üçün bu gündən etibarən yeni məhdudlaşdırıcı qaydalar qüvvəyə mindi. Əminəm ki, bütün vətəndaşlar bu qaydalara əməl edəcəklər. Yeni məhdudlaşdırıcı tədbirlərin əsas məqsədi bu mübarizədə daha da səmərəli addımların atılmasıdır və yoluxma hallarının dinamikasının azaldılmasıdır. Dövlət tərəfindən qəbul edilmiş bütün qərarlara və atılmış addımlara baxmayaraq, əfsuslar olsun ki, dinamika artır və bunun əsas səbəbi bəzi vətəndaşların məsuliyyətsizliyidir. Çünki Azərbaycan dövləti bu faciə ilə mübarizədə qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində ilkin mərhələdə böyük uğurlar əldə edib və bu gün də digər ölkələrlə müqayisədə Azərbaycanda vəziyyət daha əlverişlidir. Ancaq buna baxmayaraq, artıq daxili yoluxma halları vüsət alır və beləliklə, yoluxan insanların sayı artmaqdadır. Dünən 60-dan çox insan bu xəstəliyə yoluxub və əgər belə gedərsə, onda gələcək günlərdə və gələcək aylarda bu xəstəliyin daha da geniş vüsət alması qaçılmaz olacaqdır.

Bir daha demək istəyirəm ki, Azərbaycan dövləti bütün lazımi tədbirləri görübdür. Biz bəri başdan bütün quru sərhədlərimizi bağladıq, karantin rejimini tətbiq etdik, bütün məktəblər, uşaq bağçaları, ali məktəblər, ictimai iaşə obyektləri bağlandı, aviareyslərimizin sayı kəskin azaldı və hazırda cəmi iki beynəlxalq aviareys təşkil edilir, özü də həftədə bir dəfə. Beləliklə, bu xəstəliyin yayılmasına qarşı çox önəmli tədbirlər görüldü və xaricdən gələn vətəndaşların bu xəstəliyin yayılmasında rolu kəskin azaldı. Onu da bildirməliyəm ki, xaricdən gələn Azərbaycan vətəndaşları karantinə yerləşdirilir və hazırda 4500-ə qədər insan karantindədir. Karantin üçün də ən əlverişli şərtlər təqdim olundu, vətəndaşlar 4-5 ulduzlu otellərdə, Atletlər kəndində, Lənkəran, Lerik, Nabran, Bakı şəhərinin otellərində, istirahət zonalarında yerləşdirilir. Xəstələrə də şərait yaradılır, ölkəmizin müxtəlif yerlərində 10-dan çox xəstəxana koronavirus xəstələrinin sərəncamındadır və bu günlərdə ölkəmizin ən müasir xəstəxanası - “Yeni klinika” koronavirus xəstələrinin ixtiyarına verilibdir. Yəni, bu, dövlət tərəfindən görülmüş önəmli addımlardır. Amma buna baxmayaraq, bəzi vətəndaşların məsuliyyətsizliyi ucbatından bu xəstəlik Azərbaycanda daha geniş vüsət alır. Ona görə bu gündən etibarən qüvvəyə minmiş məhdudlaşdırıcı tədbirlərə hər bir vətəndaş əməl etməlidir. Əminəm ki, əgər insanlar özlərini məsuliyyətli apararlarsa və özünütəcrid qaydalarına əməl edərlərsə, biz bu xəstəliyin geniş yayılmasının qarşısını ala bilərik.

Biz indi yaxşı görürük ki, dünyanın müxtəlif yerlərində nələr baş verir. Dünyanın və Avropanın aparıcı ölkələrində demək olar ki, vəziyyət nəzarətdən çıxır, hər gün minə yaxın insan ən inkişaf etmiş ölkələrdə vəfat edir və tibb personalı artıq lazımi xidmət göstərməkdə çətinlik çəkir. Xəstəxanalar doludur, xəstələri dəhlizlərdə yerləşdirirlər. Bir çox insanlar ona görə vəfat edirlər ki, onlara vaxtında operativ tibbi xidmət göstərilmir, o da buna görədir ki, xəstələrin sayı kəskin artır və heç bir ölkənin səhiyyə sistemi bu artan xəstələrin sayına uyğun xidmət göstərə bilməz. Çünki bütün ölkələrin səhiyyə sistemləri normal şəraitə uyğunlaşdırılıb, o cümlədən Azərbaycanda. Əgər pandemiya Azərbaycanda geniş vüsət alarsa bizdə də çox faciəvi inkişaf dinamikası qaçılmazdır. Ona görə dövlət tərəfindən qəbul edilmiş bütün qərarlar istisnasız, heç bir güzəştsiz tətbiq edilməlidir və vətəndaşları bir daha məsuliyyətə çağırıram. Lazım olmayan vaxtlarda küçələrə çıxmasınlar. Dünən dərc edilmiş və elan olunmuş qaydalara tam əməl etsinlər. Özlərini, öz yaxınlarını, həkimləri qorusunlar. Çünki həkimlər öz həyatlarını risk altına atırlar. Polis işçilərini qorusunlar, necə ki, polis işçiləri onları qoruyur və öz həyatlarını risk altına atır. Ona görə mən vətəndaşlardan bir daha məsuliyyət tələb edirəm və ümid edirəm ki, Azərbaycan vətəndaşları bu məsuliyyət hisslərini nümayiş etdirəcəklər.

Təbii ki, bu pandemiya bütün dünyanın iqtisadi inkişafına böyük zərbə vurub. Artıq dünyanın aparıcı maliyyə qurumları açıq bəyan edirlər ki, pandemiya nəticəsində yaşana biləcək böhran 2008-2009-cu illərin böhranından daha da ağır olacaqdır. Eyni zamanda, dünya bazarlarında neftin qiymətinin kəskin aşağı düşməsi, demək olar ki, 2 dəfədən çox aşağı düşməsi, bizim iqtisadiyyatımıza da böyük problemlər yarada bilər və təbii ki, bizim gəlirlərimiz azalır. Buna baxmayaraq, bu ilin dövlət büdcəsinin icrası ilə bağlı bir daha

deməк istəyirəm ki, heç bir problem olmamalıdır. İlk növbədə, bütün sosial öhdəliklər tam yerinə yetirilməlidir, bütün sosial infrastruktur layihələrinin icrası təmin edilməlidir. Eyni zamanda, bir daha büdcə xərclərinə baxmaq lazımdır və təcili olmayan layihələr təxirə salına bilər. Əlbəttə ki, bu layihələrin həyata keçirilməsi, yaxud da ki, əksinə, təxirə salınması məsələlərinə baxdıqda məşğulluq məsələlərinə də mütləq baxmalıyıq. Çünki dövlət xətti ilə həyata keçirilən investisiya layihələri, eyni zamanda, məşğulluğu təmin edir və əhalisi artan Azərbaycan üçün məşğulluq məsələsi, əlbəttə ki, ön plandadır.

Bizim builki iqtisadi dinamikamız çox müsbət idi. Yanvar-fevral aylarında ümumi daxili məhsul 2,8 faiz artmışdır, qeyri-neft sektorunda 6,7 faiz, qeyri-neft sənaye sahəsində 21,7 faiz artmışdır. İnflyasiya cəmi 2,8 faiz, əhalinin gəlirləri isə 9 faiz olmuşdur, yəni, gəlirlər inflyasiyanı üstələmişdir. Eyni zamanda, vergi və gömrük orqanları 2 ayda dövlət büdcəsinə böyük məbləğdə vəsait daxil etmişdir. Vergi orqanları büdcəyə 170 milyon manat, gömrük orqanları isə 80 milyon manat vəsait daxil etmişdir. Əlbəttə, bizim ümidlərimiz ondan ibarət idi ki, il boyunca bu dinamika özünü saxlayacaq, beləliklə, büdcəmizə əlavə gəlirlər gələcək və bunun hesabına əlavə sosial proqramların icrası mümkün olacaq.

İndi mart ayının yekunları haqqında danışmaq bir qədər tezdir. Adətən Dövlət Statistika Komitəsi birinci rübün başa çatmasından təqribən bir həftə sonra rəqəmləri təqdim edir. Ona görə biz bu rəqəmləri, əlbəttə ki, təhlil edəcəyik. Ancaq təxmin etmək çətin deyil ki, bu pandemiya iqtisadi inkişafımıza, əlbəttə, böyük əngəl törədir və törədəcək.

Bu pandemiyanın iqtisadi və sosial fəsadlarını minimuma endirmək üçün mənim qərarımla Nazirlər Kabinetinə 1 milyard manat vəsait ayrıldı. Mənim qərarımla dörd işçi qrupu yaradıldı. Bu işçi qrupların əsas fəaliyyət dairəsi məşğulluq məsələlərini təhlil edib təklif verməkdir, iqtisadi sabitliyi, iqtisadi inkişafı təmin etməkdir, makroiqtisadi sabitliyi qorumaqdır və bizim maliyyə vəziyyətimizi təhlil edib ilin sonuna qədər bu sahədə də lazımi əlavə tədbirlərin görülməsindən ibarətdir. Əlbəttə ki, biz, ilk növbədə, koronavirusdan ən çox əziyyət çəkən sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərini diqqət mərkəzinə aldıq. Biz, ilk növbədə, bu sahibkarlıq subyektlərində işləyən insanların maliyyə vəziyyətini nəzərə almalıyıq. Çünki indi İqtisadiyyat Nazirliyi tərəfindən mənə təqdim edilən arayışda göstərilir ki, bu vəziyyətdən hansı sahələr daha çox əziyyət çəkib və bu sahələrdə 300 mindən çox insan çalışır. Əlbəttə ki, onların maddi vəziyyəti bizi narahat edir. Biz onlara dəstək göstərməliyik. Xüsusilə nəzərə alsaq ki, mən bütün Azərbaycan sahibkarlarına müraciət edərək çağırış etdim ki, onlar işçiləri ixtisar etməsinlər. Bu xahiş və yaxud tələb qüvvədədir. Onu da bildirməliyəm və hesab edirəm ki, Azərbaycan sahibkarları bu vəziyyətdə öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirirlər. Mənim Fərmanımla yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna bu günə qədər 100 milyon manatdan çox vəsait daxil edilib və bunun cəmi 20 milyonu Prezidentin Ehtiyat Fondundan köçürülüb. Bu, onu göstərir ki, vəsaitin böyük hissəsi sahibkarlar tərəfindən verilmiş ianələrdir və sahibkarlar bu məsələ ilə bağlı həmrəylik göstərirlər. Əminəm ki, işçilərin ixtisar edilməməsi çağırışım da əlbəttə, nəzərə alınacaq və alınmalıdır. Ancaq, eyni zamanda, aydın məsələdir, bir çox sahələr və 40 mindən çox sahibkarlıq subyekti, indi demək olar ki, fəaliyyət göstərmir, yaxud da, məhdud çərçivədə fəaliyyət göstərir. Dövlət onlara kömək göstərməlidir. Ona görə göstəriş verilmişdir ki, həm bu sahibkarlıq subyektlərində muzdla işləyən insanların sosial təminatı, eyni zamanda, fərdi sahibkarların fəaliyyəti nəzərə alınsın. Onların da sayı təqribən 300 minə yaxındır. Bu göstərişlər İqtisadiyyat Nazirliyinə verilibdir. Artıq siz məruzəyə hazırsınız. Xahiş edərdim ki, bu məsələ ilə və digər məsələlərlə bağlı siz öz təkliflərinizi verəsiniz ki, vaxt itirmədən, yəni, bu həftədən başlayaraq artıq bu ödəmələr təşkil edilsin.

İqtisadiyyat naziri Mikayıl Cabbarov dedi:

-Təşəkkür edirəm, möhtərəm cənab Prezident. İlk növbədə, icazə verin, mən də bir vətəndaş kimi Sizə dərin təşəkkürümü bildirim ki, bu mühüm çoxamilli çağırışa Sizin liderliyinizlə belə cavab verilir. Xalqımızın və vətəndaşlarımızın sağlamlığını əsas tutaraq qabaqlayıcı, əhalini qoruyan tədbirlər həyata keçirilir. Siz bu gün xalqımızın sağlamlığını üstün tutaraq bu qərarları verirsiniz. Son günlər, həftələr ərzində Siz, ölkənin Birinci vitse-prezidenti bizə istiqamət verdiniz, bu qeyri-adi vəziyyətdə hər bir qərarın gündəlik və vaxtında verilməsinə imkan yaratdınız.

Sizin tapşırığınıza uyğun olaraq biz işçi qruplarda fəaliyyəti həyata keçirərək dörd işçi qrupunun rəhbərləri ilə müntəzəm məsləhətləşmələr apararkən hökumətin, Baş Nazirin ümumi koordinasiyası ilə, həmçinin nazirliklər, komitələr, özəl sektor, Azərbaycan Banklar Assosiasiyası, Mərkəzi Bank, kiçik və orta biznesin nümayəndələri və İnkişaf Agentliyi, o cümlədən Sahibkarlar Konfederasiyasının nümayəndələrini cəlb edərək tutarlı bir proqram hazırlamağa cəhd etdik və bu gün onu Sizin diqqətinizə məruzə edirəm. Çərçivə müəyyənləşərkən Siz işçi qaydada, həmçinin ictimaiyyətin məlumatlandırılmasını qarşımızda bir hədəf kimi qoydunuz və proqramların yekunlaşması prosesi məhz həmin məsləhətləşmələr çərçivəsində nəzərdə tutulur.

Bu günədək istiqamətlər olaraq Siz qeyd etdiyiniz kimi, pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən 44 min sahibkarlıq subyektində çalışan 304 min muzdlu işçinin əməkhaqlarının ödənilməsi üçün birbaşa maliyyə dəstəyi proqramı diqqətinizə təqdim edilir. Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət

göstərən 292 min fərdi mikrobiznes subyektinə və fərdi sahibkarlara maliyyə dəstəyi proqramı. Hər iki proqramın başlıca şərti və çərçivəsi iş yerlərinin azaldılmamasına yönəldilib. Bu proqramlar fərqli auditoriyalara - işçilərə və sahibkarlara ünvanlansa da, yanaşma olaraq birbaşa maliyyə dəstəyi təmin edir. Bu dövrdə qısamüddətli likvidliyi olmayan sahibkarlara, müəssisələrə öz fəaliyyətini davam etdirməyə, onların bir çox hallarda demək olar ki, əsas xərci olan işçilərin, muzdlu işçilərin əməkhaqqı xərcinin əhəmiyyətli hissəsinin ödənilməsi təklif olunur.

Üçüncü proqram pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri, imtiyazları və tətilləri proqramıdır. Bu, əhatəli proqramdır. Burada əhatə dairəsi, ilk növbədə, mənfi təsir altında olan sektorlara ünvanlansa da, onların bəziləri daha da genişdir.

Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə yeni verilən bank kreditləri üzrə kredit zəmanəti dəstəyi proqramı da tapşırığınızla hazırlanıb. Bu proqramın həcmi 500 milyon manat təşkil edir. Burada Siz bizim qarşımızda hədəf qoymusunuz ki, Azərbaycan iqtisadiyyatının inkişaf trayektoriyasının qorunub saxlanılması məqsədilə yeni layihələrin maliyyələşdirilməsi dayanmasın və bu karantin dövründən sonrakı fəaliyyətdə canlanma baş versin.

Digər tərəfdən, başqa bir proqramı - beşinci proqramı da diqqətinizə məruzə edirəm. Bu, pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin mövcud kredit portfeli üzrə kredit zəmanət dəstəyi proqramıdır. Bu, daha da böyük həcmdə olan - 1 milyard manatlıq bir proqramdır. Burada həm qismən dövlət büdcəsinin, həm də ki, Sahibkarlığın İnkişafı Fondunun vəsaitlərinin cəlb edilməsi nəzərdə tutulur. Burada başlıca hədəf həm biznes subyektlərimizə dəstək verməkdir, eyni zamanda, bizim üçün zəruri, çox vacib və əhəmiyyətli olan maliyyə-bank sektorunun kredit portfelinin sağlamlığının qorunub təmin edilməsidir.

Altıncı istiqamət olaraq əhalinin maddi vəziyyətinin dəstəklənməsi üçün sosial paket Sizə ayrıca təqdim ediləcək. Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsinə dəstək proqramının müzakirəsi gedir. Demək olar ki, bugünkü işlər bu mərhələdədir.

Həmçinin ipoteka və kredit zəmanət mexanizminə maliyyə dəstəyi proqramı səkkizinci istiqamət kimi müəyyənləşdirilib. Bu proqramın həm tikinti sahəsinin fəallığının davam etdirilməsinə, genişləndirilməsinə, həm də əhali üçün hər zaman vacib olan mənzil probleminin həllinə böyük töhfə verəcəyini güman edirik.

Doqquzuncu proqramın istiqaməti əhalinin kommunal ödənişlərə, ilk növbədə, elektrik enerjisinə mövsümü nəzərə alaraq dəstək proqramıdır. Sizin tapşırığınızla biz bunu təhlil etmişik ki, insanlar evdə daha çox vaxt keçirdiyinə görə elektrik enerjisi sərfiyyatı artır. Burada biz limitlərin genişləndirilməsini diqqətinizə təqdim edəcəyik.

Nəhayət, bizim bir sıra həyati vacib sərnişindaşıma fəaliyyəti ilə məşğul olan şirkətlərimiz, dövlət və özəl şirkətlərimiz obyektiv səbəblərə görə, - Siz də artıq bunu qeyd etdiniz, - fəaliyyətini demək olar ki, dayandırıb, yaxud dondurub. Bu müəssisələrlə də bağlı məqsədli proqram hazırlanıb.

Prezident İlham Əliyev: Çox yaxşı. Hesab edirəm ki, bu genişmiqyaslı iqtisadi və sosial paket həm iqtisadi sahədə artan dinamikaya müsbət təsir göstərəcək, eyni zamanda, həssas təbəqəyə aid olan vətəndaşları bu böhrandan qoruyacaqdır. Bizim əsas məqsədimiz, ilk növbədə, vətəndaşların təhlükəsizliyidir, sağlamlığıdır və onların rifahıdır. Əlbəttə ki, pandemiya dövründə Azərbaycan digər məsuliyyətli ölkələr kimi, ilk növbədə, vətəndaşların sağlamlığını nəzərə alır. Bütün qalan məsələlər ikinci dərəcəli məsələlərdir, o cümlədən iqtisadi inkişafla bağlı olan məsələlər. Halbuki biz bu məsələlərə də mütləq lazımi fikir verməliyik. Çünki insanların həm sağlamlığı, həm rifahı, ümumiyyətlə, Azərbaycanda sosial sahədə əsas məsələlərdən biridir. İnsanların sağlamlığına aid olan bütün məsələlər bu gün Azərbaycanda öz həllini tapır və əsas məqsəd, bir daha demək istəyirəm ki, pandemiyanın miqyasını nəzarətdə saxlamaqdır. Biz, ilk növbədə, buna nail olmalıyıq. Bir daha demək istəyirəm ki, burada əsas amil vətəndaşların məsuliyyətidir.

Eyni zamanda, təqdim etdiyiniz təkliflər genişmiqyaslıdır və bu gün pandemiyadan zərər çəkmiş sahələrdə işləyən vətəndaşların maraqlarını nəzərə alır, onlara əməkhaqlarının əhəmiyyətli hissəsi müvəqqəti olaraq dövlət tərəfindən ödəniləcək. Eyni zamanda, sahibkarlar da, əlbəttə, bir daha demək istəyirəm ki, işçilərin ixtisarına yol verməməlidirlər. Eyni zamanda, sosial təminat sahəsində əlavə tədbirlərin görülməsi də hesab edirəm ki, zəruridir, o cümlədən qeyd etdiyiniz sosial sahəyə aid olan məsələlər. Azərbaycan dövləti bir daha öz sosial siyasətini burada göstərməlidir və göstərir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və biz bunu dəfələrlə sübut etmişik.

Bank sektorunun sağlamlaşdırılması istiqamətində bütövlükdə ilin əvvəlindən addımlar atılır və bu məsələ ilə bağlı bir neçə müşavirə də keçirilmişdir. Hesab edirəm ki, hətta pandemiya ilə əlaqəsi olmayan sahələrdə də islahatlar dərinləşməlidir və bunu biz təmin edəcəyik. Bank sektorunun sağlamlaşdırılması və real iqtisadiyyatı maliyyələşdirməsi istiqamətində əlavə tədbirlər görüləcək. Kredit zəmanət təklifi də hesab edirəm ki, çox vaxtında verilmiş təklifdir. Biz bunu mütləq nəzərə alacağıq.

Sosial sahəyə gəldikdə, keçən il Azərbaycan dövləti öz niyyətini və addımlarını nümayiş etdirib. Keçən il misli görünməmiş sosial paket icra edildi, 4,2 milyon insan bu təşəbbüsdən faydalandı. Minimum əməkhaqqı

təxminən 2 dəfə, minimum pensiya 70 faiz, müavinətlər 50 faiz və bəzi müavinətlər 2 dəfə artırılmışdır. Bu, insanların yaşayış səviyyəsinə çox müsbət təsir göstərmişdir. Üstəgəl, vaxtı keçmiş kreditlər məsələsinin həll edilməsi də ən yüksək səviyyədə Azərbaycanda təşkil olundu. Bu il bir daha biz öz sosial məsuliyyətimizi nümayiş etdiririk. Biz vətəndaşların rifah halının düşməməsi istiqamətində əməli addımlar atırıq və hesab edirəm ki, bu sahədə də birincilik göstəririk.

Koronavirusla bağlı ölkələr indi özlərini təcrid ediblər, bu da təbiidir. Biz indi görürük ki, hətta bir-birinə çox yaxın olan ölkələr, təşkilatlar, artıq hərə öz problemlərini həll edir və müxtəlif ölkələrdə bu məsələyə yanaşma da fərqlidir. Hesab edirəm ki, bizim yanaşmamız ən geniş və ən düzgün yanaşmadır. İlk növbədə, qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində xəstəliyin geniş yayılmaması üçün addımların atılması, - baxmayaraq, mən hesab edirəm ki, vətəndaşlar daha məsuliyyətli olmalıdır, - amma dünya miqyasında müqayisə apardıqda görürük ki, Azərbaycanda vəziyyət daha yaxşıdır. Bizdə yoluxma halları əhalinin sayına görə çox aşağı səviyyədədir və ölüm halları da həmçinin. Ancaq bu, yenə də əsas vermir ki, biz əldə edilmiş nəticələrlə kifayətlənək. Azərbaycanda bu sahədə lazımi işlər görülüb və görüləcək.

Bu gündən etibarən qüvvəyə minmiş qaydalar əminəm ki, müsbət dinamikanı gücləndirəcək. Eyni zamanda, çox geniş iqtisadi paket artıq məruzə edildi və yaxın günlərdə bunun icrası nəzərdə tutulur, həmçinin sosial paket. İşləyən vətəndaşların işlərini itirməməsi üçün sahibkarlara çağırış və nəinki çağırış, eyni zamanda, sahibkarlara dəstək. Biz başa düşürük ki, onlar əziyyət çəkirlər, onlar itkilərə məruz qalırlar. Onlara kim dəstək verməlidir? Dövlət. Hər zaman olduğu kimi dövlət bunu edir. Ona görə həm xəstəliyə qarşı mübarizə, həm iqtisadi fəallığın təmin edilməsi, həm sosial məsələlərin həlli, hər bir vətəndaşın problemlərinin dərk edilməsi və kömək göstərmə cəhdlərimiz və niyyətimiz, bax, bizim siyasətimizi əks etdirir, eyni zamanda, Azərbaycan vətəndaşlarına hesab edirəm ki, ən gözəl xidmət olacaqdır. Ona görə hesab edirəm ki, məruzə etdiyiniz məsələlərin formalaşması artıq tam yekunlaşmalıdır və vaxt itirmədən faktiki ödəmələr də başlanmalıdır və təbii ki, siyahılar da tutulubdur.

Eyni zamanda, bizim ümumi iqtisadi inkişafla bağlı nəzərdə tutulan islahatlarımız da dərinləşməlidir. Pandemiya burada bizə maneçilik törətməməlidir, vaxt itirməməliyik. Bizim əsas məqsədimiz, - mən bu vəzifəni İqtisadiyyat Nazirliyi qarşısında qoymuşdum, - kölgə iqtisadiyyatının miqyasının daraldılmasıdır. Hesab edirəm ki, bu istiqamətdə çox ciddi addımlar atılıb. Keçən il vergi və gömrük orqanları xəzinəyə proqnozdan artıq bir milyard manat vəsait daxil etdilər. Nəyin hesabına? Kölgə iqtisadiyyatının kiçilməsi hesabına.

Bu ili çox gözəl başlamışdıq. İki ayda 250 milyon manatdan çox gəlir olmuşdu. Nəyin hesabına? Kölgə iqtisadiyyatına qarşı mübarizə hesabına. Bu proses davam etdiriləcəkdir. Bir daha özəl sektorun nümayəndələrinə müraciət etmək istərdim və artıq mən bunu bir neçə dəfə demişəm ki, biz köklü islahatlar aparırıq. Bu, kölgə iqtisadiyyatının sonu deməkdir. Ancaq biz hər şeyi ardıcıllıqla edirik, yüzlərlə, bəlkə də minlərlə sahibkarlıq subyekti var. Biz onlara vaxt verdik. Eyni zamanda, İqtisadiyyat Nazirliyi onlara həm vaxt verdi, həm də ki, maarifləndirmə işləri apardı. Onlar üçün bu gün dediyim sözlər sürpriz deyil. Bu, siyasətdir və bu, strateji xəttimizdir. Ona görə hesab edirəm, vaxt gəlib çatıb ki, hələ də kölgədə fəaliyyət göstərən sahibkarlıq subyektləri artıq bu işlərə son qoysunlar. Biz səbirli olduq, biz vaxt verdik və hesab edirəm ki, bu vaxt çərçivələri kifayət qədər geniş idi.

Bir çox sahibkarlar artıq kölgə iqtisadiyyatından çıxıb və ağ iqtisadiyyatda fəaliyyət göstərir, dövlətin vergisini ödəyir, qeyri-formal məşğulluğu öz gündəliyindən çıxarıbdır. Amma elə sahibkarlar var ki, hələ də hesab edirlər, köhnə qayda ilə işləyəcəklər. Mən onlara birmənalı demək istəyirəm ki, bu, keçməyəcək və heç kim onlara kömək etməyəcək. Əgər kimsə hansısa tanışlara, qohumlara, yaxud da ki, vəzifədə olan dostlara arxalanırsa səhv yoldadır. Özü də cəzalandırılacaq, ona himayədarlıq edən də cəzalandırılacaq. Heç kimə güzəşt yoxdur. Mən sizə bir daha tapşırıram və bütün Azərbaycan vətəndaşları mənim tapşırığımı eşidir və görür ki, istisnasız bütün sahibkarlıq subyektləri kölgə iqtisadiyyatından çıxmalıdır. Beləliklə hesab edirəm ki, bizim bütövlükdə təmizləmə siyasətimiz öz gözəl nəticələrini verəcək, Azərbaycan iqtisadiyyatı dayanıqlı inkişafını davam etdirəcək.

Mən dəfələrlə demişəm və həyat onu göstərir ki, biz elə işləməliyik, elə yaşamalıyıq, sanki biz postneft dövründə yaşayırıq. İndi neftin qiyməti 21-22 dollar olan zaman, faktiki olaraq bu, bizim üçün postneft dövrüdür. Biz bu dövrə hazırlıq işləri görmüşük və bu hazırlıq işləri hələ ki, davam edir. Ona görə sahibkarlardan da çox şey asılıdır. Biz bütün lazımi qərarları qəbul etdik, qanunvericilikdə lazım olan düzəlişləri etdik və edəcəyik. Ona görə indi sahibkarlar da ümumi işimizə uyğun fəaliyyət göstərməlidirlər və belə olan halda biz bu böhrandan da şərəflə çıxa biləcəyik.

Kölgə iqtisadiyyatı ilə bağlı nə deyə bilərsiniz. İndiyədək görülmüş işlər hansı nəticə verir və əlavə hansı işlər görülməlidir, bu barədə də məruzə edin.

Mikayıl Cabbarov: Təşəkkür edirəm, möhtərəm cənab Prezident. Siz 2020-ci il 19 mart tarixli Sərəncamınızla, həmçinin bizim qarşımızda hədəf qoymuşdunuz ki, biz ortamüddətli iqtisadi proqramı və strategiyanı da hazırlayıb təqdim edək. Diqqətinizə məruzə edirəm ki, onun da konturları müəyyənləşdirilib. İlk növbədə, ağ formal iqtisadiyyatın, rəqabətədavamlı və dayanıqlı iqtisadiyyatın qurulması bütün təklif olunan tədbirlərdə hədəf olaraq qırmızı xətt kimi keçir. İqtisadiyyatımızın ixrac yönümlülüyünü saxlamaqla və

genişləndirməklə daxili istehsal və istehlakın həvəsləndirilməsinə yönəlmiş tədbirlər daha geniş yer alır. Vurğuladığınız kimi, məşğulluğun qorunmasını və genişləndirilməsini başlıca vəzifəmiz kimi görürük.

Neft-qaz gəlirlərinin əvəz edilməsinə yönəlmiş siyasəti həyata keçirmək niyyətindəyik. Spesifik olaraq kölgə iqtisadiyyatı mövzusu da müzakirə edilibdir. Bu gün Sizin diqqətinizə məruzə etmək istərdim ki, bu müzakirələr zamanı istər özəl sektor nümayəndələri, istər bank sektorunun nümayəndələri, Azərbaycan Banklar Assosiasiyasının təmsilçiləri kölgə iqtisadiyyatının azaldılması və aradan qaldırılması prosesində vacib bir alətin, kapital və əmlak amnistiyasının baxılması vəsatətini qaldırıblar. Biz ümumi paketdə onu da hökumətə və Sizin diqqətinizə təqdim edəcəyik.

Həmçinin diqqətinizə məruzə etmək istərdim ki, bu gün birinci rübün son iş günüdür. Bizim operativ məlumata əsasən dövlət vergi xidmətinin xətti ilə proqnoz tam yerinə yetirilibdir və Azərbaycan Respublikasının büdcəsinə təxminən 200 milyon manat ətrafında proqnozdan artıq yığılmış vəsaitin təmin olunması gözlənilir.

Əsas istiqamətlər olaraq biz, həmçinin keçən ildən Dövlət Sosial Müdafiə Fondunun ödənişlərinin yığımını həyata keçiririk. Bu istiqamət üzrə də birinci rüb ərzində ünvanlı dövlət sosial müdafiə fonduna təxminən 120 milyon manat daha çox vəsait yönəldilib. İstiqamətlər olaraq orta müddətdə həm kənd təsərrüfatı emalı sahəsinin genişləndirilməsi vacib prioritet kimi görünür, həm tikinti sektoruna dəstəyin artırılması və bu sahədə fəaliyyətin genişləndirilməsi. Mən bir daha Sizə təşəkkürümü bildirmək istəyirəm ki, bu istiqamətlərdə, həmçinin ticarət, tranzit və logistika sahələrində bizə artıq aydın göstərişlərinizi vermisiniz. Yük və karqonun daşınmasına gəldikdə bugünkü şəraitdə biz hətta keçən ilin martı ilə müqayisədə bu trendlərin artmasını görürük. Bu da Sizin həyata keçirdiyiniz uzaqgörən siyasətin birbaşa nəticəsidir.

Təbii olaraq Azərbaycanın ixrac potensialının artırılmasına, genişlənməsinə, eyni zamanda, bölgələrdə daha çox iş yerlərinin yaradılmasına, onların müasirləşdirilməsinə və sənaye potensialının gücləndirilməsinə xidmət edən dağ-mədən sənayesi istiqamətində də bir sıra layihələr hazırlanır. İnanıram ki, biz onları bu paket çərçivəsində təqdim etmək iqtidarında olacağıq.

Prezident İlham Əliyev: Çox yaxşı. Hesab edirəm ki, qeyd etdiyiniz bütün bu məsələlər ilin sonuna qədər öz həllini tapmalıdır. Qeyd etdiyiniz sahələr bizim üçün həmişə prioritet olub. İndiki şəraitdə bu sahələrin inkişafı, əlbəttə, bizə müəyyən dərəcədə imkan verəcək ki, neftdən əldə ediləcək gəlirləri biz müəyyən dərəcədə qeyri-neft sektoru hesabına əvəzləyə bilək. Halbuki, bu da həqiqətdir ki, neft sektoru bizim iqtisadiyyatımız üçün əsas sektor olaraq qalır. Ancaq digər sektorlar, qeyri-neft iqtisadiyyatımızın inkişafı prioritetdir. Hesab edirəm ki, ixracyönümlü məhsulların istehsalı artırılmalı, sahibkarlıq subyektlərində sertifikatlaşma prosesi davam etdirilməlidir ki, bizim məhsullarımız həm daxili, həm də xarici bazarlarda rəqabətqabiliyyətli olsun. Əlbəttə ki, daxili istehlak daxili istehsal hesabına stimullaşdırılmalıdır. Onu da bilməliyik ki, xarici bazarlara çıxmaq ildən-ilə daha da çətinləşir. Çünki bir çox ölkələr idxalı əvəzləmək siyasətini aparırlar. Ona görə, biz həm yeni bazarlar axtarmalıyıq, həm də məhsullarımızı daha rəqabətqabiliyyətli etməliyik. Eyni zamanda, çalışmalıyıq ki, daxili tələbatı maksimum dərəcədə yerli istehsalla təmin edək. Özümüzü təminetmə əmsalına gəldikdə, bu sahədə daha dəqiq statistika aparılmalıdır. Çünki müxtəlif dövlət qurumlarından mənə fərqli rəqəmlər təqdim edilir. Ona görə bunu da sizə tapşırıram, bütün dövlət qurumlarının rəqəmlərini təhlil edin və real vəziyyəti mənə məruzə edin ki, bizim özümüzü təminetmə əmsalı əsas istehlak malları üzrə nədən ibarətdir və biz öz siyasətimizi daha dəqiq proqnozlaşdıraq. O cümlədən, Sahibkarlara Dəstək Fondu hesabına o sahələrə vəsait, kredit ayıraq ki, o sahələr hələ ki, idxaldan asılıdır. Eyni zamanda, bizim ixracımızı və özümüzü təminetmə imkanlarımızı təhlil edərkən mütləq Azərbaycanda istehsal olunan malların xarici komponentinin faizi də nəzərə alınmalıdır. Çünki bəzi hallarda xarici xammal böyük paya gəlib çıxır. İqtisadiyyat Nazirliyi bu istiqamətlər üzrə fəal işləyir, bu işləri davam etdirin. Hesab edirəm ki, bütün bu işləri düzgün qura bilsək, - mən buna şübhə etmirəm, - biz bu çətin sınaqdan da şərəflə çıxa biləcəyik.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏFƏRLƏRİ

### *İsveçrə Konfederasiyasına səfər*

Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri başlayıb.

Prezident İlham Əliyev yanvarın 20-də Davosda “VTB Bank”ın prezidenti-idarə heyətinin sədri Andrey Kostinlə görüşüb.

Görüşdə “VTB Bank”ın Azərbaycanda uzun müddət uğurlu fəaliyyət göstərdiyi qeyd olundu. Bildirildi ki, Azərbaycan Dövlət Neft Fondu ilə “VTB Bank” arasında səmərəli əməkdaşlıq davam edir. Prezident İlham Əliyev “VTB Bank”ın Azərbaycan iqtisadiyyatının real sektoruna kredit qoyuluşunun artırılmasını təklif etdi.

Andrey Kostin təklifə müsbət yanaşdığını bildirdi və dövlətimizin başçısını əmin etdi ki, “VTB Bank” bu istiqamətdə fəaliyyətini daha da genişləndirəcək.

Söhbət zamanı Azərbaycanla Rusiya arasında bütün sahələrdə olduğu kimi, iqtisadi-ticari sahədə də əlaqələrin uğurla inkişaf etdiyi bildirildi. Ticarət dövriyyəsinin artan istiqamətdə davam etməsinin və daha da sürətləndirilməsinin vacibliyi qeyd olundu.

Görüşdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən “Avrasiya üçün yeni baxış - dayanıqlı inkişaf üçün tərəfdaşlıq” mövzusunda iclasda iştirak edib.

İclasda Avrasiyada ölkələrarası əməkdaşlıq məsələsi müzakirə olundu. Həmçinin ticarət, energetika, nəqliyyat sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, dördüncü sənaye inqilabının region üçün əhəmiyyəti vurğulandı.

İclasda Monqolustanın Prezidenti Xaltmaaqiyn Battulqa, Gürcüstanın Baş Naziri Giorgi Qaxariya, Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti və digər nüfuzlu qonaqlar iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 21-də Davosda Pakistan İslam Respublikasının Baş Naziri İmran Xan ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə Pakistan arasında ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edildi.

Baş Nazir İmran Xan bildirdi ki, Pakistan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin haqlı mövqeyini dəstəkləyir və işğalçı Ermənistanla heç vaxt diplomatik münasibətlər qurmayıb.

Azərbaycanda turizmin sürətlə inkişaf etdiyini, xüsusilə müsəlman ölkələrindən gələn ziyarətçilərin sayında böyük artımın müşahidə edildiyini deyən İmran Xan ölkəmizin bu sahədəki təcrübəsindən yararlanmaq niyyətində olduqlarını bildirdi.

Prezident İlham Əliyev Kəşmir məsələsində Azərbaycanın Pakistana daim dəstək verdiyini qeyd etdi. Dövlətimizin başçısı, həmçinin ölkəmizin Qoşulmama Hərəkatı çərçivəsində Pakistanı dəstəklədiyi vurğulandı.

Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos Dünya İqtisadi Forumu çərçivəsində “Strateji baxış: Avrasiya” mövzusunda keçirilən panel iclasında iştirak edib.

Dövlətimizin başçısı panelin moderatorunun suallarını cavablandırıb.

-Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev. Dediyimiz kimi, Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi Siz birinci növbədə kimə zəng edərsiniz – Moskvaya, yoxsa Pekinə?

Prezident İlham Əliyev: Bakıya.

Moderator: Bakıya…

Prezident İlham Əliyev: Bəli, bizim qonşularımıza münasibətdə siyasətimiz mehribandır, lakin, eyni zamanda, milli maraqlarımız həmişə birinci yerdədir. Buna görə də müstəqillik illəri ərzində əldə etdiyimiz bütün nailiyyətlər xalqımızın müstəqilliyimizə sadiq olmasına, siyasi və iqtisadi sahələrdə çox ciddi islahatları həyata keçirdiyimizə görə əldə olunmuşdur. Bizim nailiyyətlər Davos Dünya İqtisadi Forumunun illik qiymətləndirmələrində də öz əksini tapmışdır. İnfrastruktur sahəsi çox yüksək səviyyədə inkişaf edib. Yolların inşası və keyfiyyətinə gəldikdə, biz dünyada iyirmi yeddinci yerdə qərarlaşmışıq.

Moderator: Çox gözəl. Hökuməti yeniləməyinizi müşahidə etmək mənim üçün maraqlı idi. Siz gənc texnokratları sıralarınıza cəlb etmisiniz.

Prezident İlham Əliyev: Bəli, tamamilə doğrudur, hökumət dəyişdi. Hökumətə yaxşı təhsil almış, müasir baxışlı yeni insanlar dəvət olunmuşdur. Çünki dəfələrlə ictimaiyyətə açıqlamalarımda dediyim kimi, iyirmi birinci əsrdə iyirminci əsrin baxışı ilə uğur qazanmaq olmaz. Buna görə də yeni insanlar nəinki təkcə hökumətə, eyni zamanda, çox böyük dəyişikliklərə məruz qalmış Prezident Administrasiyasına da gətirilmişdir. Gələn ay bizdə erkən parlament seçkiləri keçiriləcək. Bu seçkilərin məqsədi insanlara etimad göstərdikləri namizədləri seçmək üçün imkan vermək idi. Əminəm ki, seçkilərdən sonra parlament də islahatların davamının mühüm hissəsi olacaqdır.

Moderator: Həyatlarının yaxşılaşdırılmasını istəyən azərbaycanlılar üçün Siz yeni hökumətin onlara nələr verəcəyinə ümid edirsiniz, onlar növbəti bir və ya iki ildə hansı fərqləri müşahidə edəcəklər?

Prezident İlham Əliyev: Hesab edirəm ki, əvvəllər biz əsasən infrastruktur layihələrinə sərmayə yatırmışıq. Buna görə yenə də Davos Forumuna əsasən Azərbaycan bu gün elektrik enerjisinə çıxış imkanına görə ikinci yerdədir. Azərbaycanda qazlaşdırma səviyyəsi 96 faiz təşkil edir. Biz 16 min kilometr yol, 3 mindən çox məktəb və 700 xəstəxana inşa etmişik. Lakin bunlar dövlət sərmayəsinin bir hissəsi idi. İndi bizə nə lazımdır? Bizdən yaxşı idarəçilikdə, şəffaflıqda, hesabatlılıqda, həyat və yaşayış standartları ilə bağlı meyarların Avropa İttifaqının standartlarına daha da yaxınlaşması üçün yeni yanaşma tələb olunur. Hesab edirəm ki, bu, mümkündür. Buna nail olmaq olar, çünki bizim güclü siyasi dəstəyimiz var. Yenə də mən Azərbaycan hökumətinin strateji baxışını 10-cu yerə, hökumətin sabitlik təmin etmək bacarığını isə dünyada 11-ci yerə layiq görən Davos Forumunun qiymətləndirməsinə toxunmaq istəyirəm. Beləliklə, yeni hökumət əsas diqqətini artan əhalidən ibarət olan böyük çağırış üzərinə yönəldəcək. Buna görə də bizim iqtisadi artımımız əhalinin artımına uyğun gəlməlidir. Müstəqillik illərində əhalimizin sayı 7 milyondan 10 milyona qədər artdı. Beləliklə, əhaliyə əlavə infrastruktur, əlavə ərzaq təminatı tələb olunur. Bizim əhalimiz hər il 100 mindən çox artır. Bu isə o deməkdir ki, bizə ən azından ildə 100 min iş yeri lazımdır. Bu, asan deyil. Buna görə də hökumət bu məsələ ilə məşğul olacaq. Biz yoxsulluğu bugünkü səviyyədə - 5 faizdən aşağı səviyyədə saxlamağa çalışacağıq. Həmçinin bizim birbaşa xarici borcun azaldılması ilə bağlı uzunmüddətli strategiyamız var. Bu gün bu borc çox aşağıdır, ümumi daxili məhsulun 17 faizini təşkil edir. Lakin bizim hədəfimiz onu ümumi daxili məhsulun 10 faizinə qədər endirməkdir. Əlbəttə ki, inflyasiyanın keçən il olduğu kimi 2,5 faiz səviyyəsində, aşağı səviyyədə saxlanılması məsələsi üzərində də işləyəcəyik. İnsanların gəliri həmişə inflyasiyanı üstələməlidir, habelə iş yerlərinin yaradılması da demoqrafik artımdan daha çox olmalıdır.

Moderator: Mən oxumuşam ki, indi Mərkəzi Asiya əhalisinin üçdəbir hissəsinin yaşı 15-dən aşağıdır. Yəni, əhalinin üçdəbir hissəsinin 15 yaşı tamam olmayıb. Dünyanın digər hər bir qitəsində gənclərə nəzər salsaq, biz onları küçələrdə görmüş olarıq, onlar öz səslərinin daha çox eşidilməsini tələb edirlər, onlar daha çox səsə malik olduqlarına öyrəşiblər. Siz də indi qeyd etdiniz ki, ölkənizdə gənclərin sayı çoxdur. Bəs onlar küçəyə çıxsa və daha çox səs tələb etsə, Siz onlara nə deyərdiniz?

Prezident İlham Əliyev: Biz onların nə istədiklərini dinləyərdik. Lakin fakt ondan ibarətdir ki, Azərbaycan gəncləri küçələrdə deyil, gənclər universitetlərdə, məktəblərdədir, gənclər startup biznesindədir, gənclər hökumət məsələlərinə fəal cəlb olunublar. Biz çox nəhəng könüllülər hərəkatına başlamışıq və on minlərlə insan ictimai xidmətlər sektorunda könüllülər qismində təlimlərdə iştirak edib. Sonra da biz yaxşı nəticələr göstərənləri hökumət təşkilatlarına işə götürürük. Səmimi danışsaq, dünyanın müxtəlif yerlərində gənclərin küçələrdə olması onları nəyinsə qane etmədiyinə görə baş verir. Onları həyat qane etmir, onların hökumətə olan etimadı itib. Hökumət hakimiyyətə gəlmək üçün populist şuarlardan istifadə etmiş, lakin sonra vəd etdiklərini yerinə yetirə bilməmişdir. Əslində onlar yalan danışıblar. Bunun əsas səbəbi isə siyasətçilərin məsuliyyətsizliyidir. Çünki biz təkcə Avropada yox, bir çox ölkələrdə onu müşahidə edirik ki, hökumət hakimiyyətə gəlir və dərhal hökumətin rəhbəri təzyiq altında olur. İnsanlar onu seçir, lakin bir ildən sonra o, ona göstərilən etimadı itirir. Çünki yerinə yetirilməsi mümkün olmayan vədlər verilmişdir. Azərbaycanda biz həmişə sözümüzə əməl edirik. Biz heç vaxt yerinə yetirə bilməyəcəyimiz məsələləri dilimizə gətirmirik və insanlarımızın həyat standartları ildən-ilə daha da yaxşılaşır.

Moderator: Təşəkkür edirəm, Prezident Əliyev. Siz necə düşünürsünüz, Azərbaycandakı gənclər bu baxışı, regional təşkilatın bir hissəsi olmaq və həmin regional təşkilata suverenliyi həvalə etmək istəyini bölüşürlərmi? Azərbaycanda bu ideya yerli səviyyədə dəstəklənirmi?

Prezident İlham Əliyev: Xeyr, mən belə düşünmürəm. Düşünürəm ki, Azərbaycanın, o cümlədən gənc nəslin əsas ideyası və ideologiyası suverenlik, müstəqillik və öz ehtiyatlarımıza güvənməkdir. Prezident olaraq mənim hədəflərimdən biri Azərbaycanı özü-özünü təmin edən, heç kimdən asılı olmayan ölkəyə çevirmək idi. Başqa sözlə, iqtisadi müstəqillik əsas prioritet idi, çünki bu, siyasi müstəqillik üçün bünövrədir. Sözsüz ki, müxtəlif ölkələrin müxtəlif gündəmləri var. Müxtəlif ölkələrin iqtisadiyyatları digərlərininkindən daha həssasdır. Azərbaycana gəldikdə, bir daha qeyd edirəm ki, bizim coğrafi mövqeyimiz çox əlverişlidir. Bundan əlavə, biz müasir infrastrukturun yaradılmasına çoxlu investisiya yatırmışıq. İkincisi, qeyd etdiyiniz kimi, bizim nəsil çox gəncdir. Bizim əlavə və çox kreativ əmək ehtiyatlarımız var. Əlbəttə ki, biz təbii ehtiyatlarla – neft və qazla zənginik, bu da bizim üçün enerji təhlükəsizliyi yaradır. Ona görə də bizim qonşu ölkələr və çox sayda tərəfdaşlarımızla münasibətlərimiz qarşılıqlı maraqlara əsaslanır. Bundan əlavə, biz bu və ya digər beynəlxalq qurumda təmsilçiliyimizlə bağlı hər bir məsələyə praqmatik yanaşırıq. Bu, bizə nə verəcək? Əgər, bu, bizə daha çox iqtisadi stimul, biznes üçün daha çox imkanlar, daha çox sabitlik və daha çox təhlükəsizlik verəcəksə, əlbəttə ki, biz bunu nəzərə alırıq. Biz bir sıra beynəlxalq institutların üzvüyük. Onlardan biri Qoşulmama Hərəkatıdır.

Moderator: Sizin region üçün ən parlaq ümidiniz və ən pis kabusunuz nədir? Prezident Əliyev, buyurun.

Prezident İlham Əliyev: Mən düşünürəm ki, xüsusən regional vəziyyəti və yeni yaranmaqda olan münaqişə zonalarını nəzərə alaraq hazırda ən vacib olan məsələ regional sabitlikdir. Ölkədə bizim daxili risklərimiz yoxdur, istər siyasi risklər olsun, istər iqtisadi. Ölkə sabitdir, inkişaf davamlıdır. Bizim həyata keçirilməkdə olan və xalqımız üçün böyük imkanlar yaradan çox geniş islahatlar gündəliyimiz var. Ən böyük narahatlıq və əsas potensial kabus sərhədlərimizin xaricində gərginliyin artması olardı. Bunun üçün biz məsuliyyət daşımırıq. Təəssüf ki, biz bu prosesə tam olaraq təsir edə bilmərik. Məsuliyyəti bu kövrək sabitliyin daha da sarsılmaması üçün öz aralarında müəyyən məsələlərlə bağlı razılığa gəlməli olan super qüvvələr, super güclər daşıyacaq.

Moderator: Paneldə regionu yaxşı tanımayanlar üçün. Baş qaldırmasından daha çox narahat olduğunuz gərginliklər hansılardır?

Prezident İlham Əliyev: Bilirsiniz, biz bu gərginlikləri sərhədlərimizin yaxınlığında görürük. Biz Əfqanıstanda gərginlikləri görürük, biz orada həll edilməmiş vəziyyəti görürük. Biz özümüz Ermənistan tərəfindən işğala məruz qalmışıq və bu daimi təhdid mənbəyidir. Ərazilərimizin dəmək olar ki, 20 faizi beynəlxalq hüquq normaları və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə zidd olaraq Ermənistanın işğalı altındadır. Biz ABŞ-İran münasibətlərində gərginliyin kəskinləşməsinin şahidi oluruq. Regionda artıq baş qaldırmaqda olan bir çox qaynar nöqtələr potensial təhdidlərdir. Ona görə də biz sərhədlərimizin xaricində təhlükəsizliyin və müəyyənliyin olmasında çox maraqlıyıq. Çünki hətta Azərbaycandan kənarda olan iqtisadi çətinliklər bizim iqtisadi və sosial vəziyyətimizə təsir edə bilər. Buna görə də düşünürəm ki, regionda sabitliklə bağlı vəziyyət bizi narahat edən əsas məsələdir və belə deyə bilərəmsə, regionda qeyri-sabitlik əsas kabusdur.

Moderator: Təşəkkür edirəm, cənab Prezident.

Panel iclasında Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa, "Astana" Beynəlxalq Maliyyə Mərkəzinin rəhbəri Kayrat Kelimbetov, "VTB Bank"ın prezidenti-idarə heyətinin sədri Andrey Kostin, BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovaya iştirak ediblər.

## *Kürdəmir rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Kürdəmir rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı əvvəlcə Kürdəmir şəhərindəki Heydər Əliyev Parkında Ümummilli Liderin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov rayonda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Kürdəmir rayonuna səfəri çərçivəsində Pirili-Muradxan-Sor-Sor avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib.

Görülən işlər barədə dövlət başçısına məlumat verən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dedi:

- Cənab Prezident, Sizin sərəncamlarınıza əsasən son dövrlərdə Kürdəmir rayonunda investisiya xərcləri hesabına 3 yol layihəsi icra olunub. Həmin layihələrdən birincisi, Pirili-Muradxan-Sor-Sor yoludur ki, 33 kilometrdir. Öz başlanğıcını 2 nömrəli Bakı-Kürdəmir-Yevlax avtomobil yolundan götürür və respublika əhəmiyyətli Ağsu–Kürdəmir-İmişli yoluna birləşir. İmişli yolunun 184-cü kilometrindən başlayır və 29 kilometr davam edir, 4 kilometr isə Muradxanlı kəndinə gedən qoldur. Yol 4-cü texniki dərəcəyə aiddir. Əvvəllər ona heç yol demək olmazdı, torpaq yol idi. İndi 12 santimetr qalınlığında gözəl asfalt örtüklü yoldur. Bu, 6 yaşayış məntəqəsinin 7 min əhalisinin yol şəraitinin yaxşılaşması deməkdir. Bu fotoşəkillərdə yolun əvvəlki vəziyyəti əks olunub. Bu yol şumlu tarlalardan keçirdi. Bu da eynilə həmin yerlərdə çəkilmiş bugünkü yoldur.

İkinci yol layihəmiz 37 kilometr uzunluğunda Karrar-Böyük Kəngərli yolu olub. Bu yol 7 yaşayış məntəqəsinin 6 min əhalisinə xidmət edir. Bu da 70-80 il torpaq yol olub, nə asfalt, nə də çınqıl örtüyü olmayıb. Ötən əsrin 60-cı illərində tikilmiş körpünü də bərpa etmişik.

Üçüncü yol isə Kürdəmiri Ağsu yolu ilə birləşdirir. Bu yol 8 min nəfərin yaşadığı 7 yaşayış məntəqəsinə xidmət göstərir.

Növbəti yol isə başlanğıcını Bakı-Ələt magistralının 197-ci kilometrliyindən götürən Qarasu-Şilyan yoludur. Uzunluğu 14 kilometr olan bu yol da Sizin 2019-cu ildə imzaladığınız Sərəncam əsasında tikilib. Bu yolun cəmi 2 kilometrlik hissəsi soyuq asfalt örtüklü olub. İndi asfalt örtüyünün qalınlığı 12 santimetr olan yol çəkilib və 8 min əhaliyə xidmət edir.

Prezident İlham Əliyev: Kürdəmir rayonunda yolların təmiri ilə bağlı işlər aparılıb, amma hələ də təqribən yolların 50 faizinin vəziyyəti yaxşı deyil. Biz gərək onları da düzəldək. Qalan yarısını da gərək yaxın bir neçə il ərzində başa çatdıraq.

Saleh Məmmədov: Bu il də Sərəncamınız var, cənab Prezident. Kürdəmirdə 18 kilometr uzunluğunda yolun tikintisinə artıq başlanılıb. Sərəncamlarda həmin yolların tikintisinin 2023-cü ilə qədər başa çatdırılması nəzərdə tutulub.

Prezident İlham Əliyev: Bu rayonda, ümumiyyətlə, yol infrastrukturu çox bərbad vəziyyətdədir. Çünki indi Azərbaycanda belə torpaq yollara nadir hallarda rast gəlinir.

Rayon icra hakimiyyətinin başçısı Ceyhun Cəfərov: Cənab Prezident, təkcə 2019-cu ildə 88,2 kilometr kənd yolları asfaltlanıb.

Saleh Məmmədov: Onun 80 kilometri investisiya xərcləri hesabına, 8 kilometri isə məqsədli büdcə vəsaiti hesabına.

Prezident İlham Əliyev: Regional inkişaf proqramında da bu, nəzərdə tutulub. Ona görə dördüncü proqram başa çatanda bir dənə də təmirsiz yol qalmamalıdır.

Sonra dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, yeni yol üzərində yol nişanları və göstərici lövhələr, siqnal dirəkləri və avtobus dayanacaqları quraşdırılıb, yol-cizgi xətləri çəkilib. Avtomobil yolunun tikintisi 3 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında mühüm rol oynayacaq.

Fevralın 12-də Kürdəmir rayonunun Karrar qəsəbəsində “Qlobal Aqro” Məhdud Məsuliyyətli Cəmiyyətinin aqroparkının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Qeyd edək ki, Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, icra olunan dövlət proqramları ölkəmizin sosial-iqtisadi inkişafının dinamikliyini göstərən amillərdəndir. Bu gün Azərbaycanda sahibkarlar dövlət tərəfindən həm mənəvi, həm siyasi, həm də iqtisadi dəstək alırlar. Bölgələrdə yeni zavod, fabrik və digər istehsal müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan səmərəli istifadə mexanizmlərini də üzə çıxarır. Hazırda respublikanın 33 rayonu üzrə 262 min hektar ərazidə ümumi dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatının yaradılması üzrə işlər sürətlə davam etdirilir. 153 min hektar ərazidə ümumi dəyəri 1,1 milyard manat dövlət dəstəyi göstərilmiş 33 aqropark və iri fermer təsərrüfatı birinci mərhələ üzrə fəaliyyətə başlayıb və 109 min hektar ərazidə ümumi dəyəri 1,3 milyard manat dövlət dəstəyi göstərilmiş 18 aqropark və iri fermer təsərrüfatında layihələndirmə və ya tikinti-quraşdırma işləri aparılır. Bu aqropark və iri fermer təsərrüfatlarından 16-sı 2019-cu ildə fəaliyyətə başlayıb.

Aqropark və iri fermer təsərrüfatlarına dövlət dəstəyi tədbirləri çərçivəsində 535 milyon manat, o cümlədən zəruri infrastruktur işlərinə 339 milyon manat dövlət əsaslı vəsaiti qoyulub və ümumi dəyəri 780 milyon manat olan 27 aqropark və iri fermer təsərrüfatının yaradılmasına 196 milyon manat dövlətin güzəştli kreditləri ayrılıb. Bununla yanaşı, 23 aqropark və iri fermer təsərrüfatı üzrə ümumi dəyəri 759 milyon manat olan 45 layihəyə investisiya təşviqi sənədi verilib, 25 milyon manatdan çox vəsaitə qənaət olunub. Ölkəmizdə yeni yaradılan aqroparklardan biri də “Qlobal Aqro” MMC-nin aqroparkıdır.

Müəssisənin rəhbəri Ramazan Mirzəyev dövlətimizin başçısına aqroparkın fəaliyyət istiqamətləri barədə məlumat verdi.

Prezident İlham Əliyev müəssisəni işə saldı.

Dövlətimizin başçısına istehsal olunacaq məhsulların nümunələri təqdim edildi. Məlumat verildi ki, “Qlobal Aqro” MMC-nin rayonun Karrar qəsəbəsi və Pirili kəndi ərazisində yerləşən aqroparkı iki min hektar sahəni əhatə edir. Ümumi dəyəri 30 milyon manat olan müəssisənin yaradılmasına 1 milyon manat güzəştli kredit verilib, 8,1 milyon manat dövlət əsaslı vəsaiti qoyulub. O cümlədən ərazidə aparılan meliorasiya işlərinə 7,9 milyon manat, elektrik və qaz təminatının hər birinə 100 min manat vəsait sərf olunub, 600 min manat vəsaitə qənaət edilib. Müəssisədə ölkəmizlə yanaşı, Türkiyə və Belçika şirkətlərinin istehsalı olan ən müasir avadanlıqlar quraşdırılıb. İndiyədək 60 hektar sahənin suvarılması üçün tamburlu suvarma qurğusu, 27 ədəd texnika və aqreqat alınıb. Aqroparkda 18 min tonluq saxlama anbarı və gücü saatda 10 ton olan toxum çeşidləmə - qablaşdırma sahəsi, ofis və laboratoriya binaları, texnika üçün talvar tikilib. Keçən il 942 hektarda arpa, 128 hektarda buğda, 30 hektarda bostan bitkiləri əkilib. Hələlik burada 17 nəfər işlə təmin olunub və yaxın vaxtlarda 60-dan çox iş yerinin yaradılması nəzərdə tutulur.

Prezident İlham Əliyev müəssisənin imkanlarından səmərəli istifadə edilməsi ilə bağlı tapşırıqlarını verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Kürdəmirdə “ASAN xidmət” mərkəzinin açılışında iştirak edib.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəz barədə dövlətimizin başçısına məlumat verdilər.

Bildirildi ki, Kürdəmir “ASAN Həyat” kompleksinin tikintisinə 2018-ci ilin iyun ayında başlanılıb. 2020-ci ilin fevral ayında tikinti başa çatıb. “ASAN Həyat” kompleksi üçün ayrılan 2,055 hektar ərazidə inzibati bina, uşaq meydançası, fəvvarə və oturacaqlar, istirahət meydançası, avtodayanacaq, 124 yerlik çay evi, 80 və 108 yerlik yay kafeləri, 64 yerlik yığılıb-sökülən yay kafesi, 12 yerlik kinoteatr, 191 yerlik restoran və “ABAD Food Hall” yaradılıb.

Fasadların tərtibatında ən müasir alman texnologiyasından istifadə edilib.

Kürdəmir “ASAN Həyat” kompleksində videomüşahidə, elektron növbə sistemləri, 4 eskalator, inzibati və kinoteatr binalarının hər birində 1 lift, yanğınsöndürmə, mərkəzləşdirilmiş havalandırma sistemləri, generator, UPS quraşdırılıb.

“ASAN Həyat” kompleksi Kürdəmir rayonunun Atakişili kəndinin cənub-şərq hissəsində inşa edilib. Kompleksin ərazisində 100 avtomobil üçün parklama

yeri yaradılıb. Vətəndaşların istirahəti üçün geniş park, uşaq əyləncə meydançası, həmçinin qapalı istirahət zonaları, o cümlədən kinoteatr və kafe istifadəyə verilib.

Diqqətə çatdırıldı ki, mərkəzdə əməkdaşların sayı 259, könüllülərin sayı isə 45 nəfər nəzərdə tutulur. Kompleksdəki regional "ASAN xidmət" mərkəzində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 320 xidmət həyata keçiriləcək. Bu mərkəzdə Kürdəmir, Hacıqabul, Ağsu, Göyçay, Ucar və Zərdab rayonlarında qeydiyyatda olan 540 min 400-dən çox sakinlə yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstəriləcək.

"ASAN Həyat" kompleksinin tərkibində sayca 4-cü "ABAD Food Hall"un fəaliyyətə başlaması nəzərdə tutulur. Burada ABAD-çılar tərəfindən qeyri-sənaye üsulu ilə hazırlanmış məhsulların satış-sərgisi təşkil ediləcək.

Dövlətimizin başçısı mərkəzin açılışını etdi.

Bildirildi ki, fəaliyyətə başladığı vaxtdan "ASAN xidmət" mərkəzlərinə müraciətlər çoxalıb və onun vətəndaşlar tərəfindən bəyənilmə əmsalı daha da yüksəlir. Bu, 2019-cu ildə 99.3 faiz təşkil edib. Həmçinin qeyd edildi ki, indiyədək xarici ölkə vətəndaşlarına elektron qaydada 1 milyon 964 min viza verilib. Təhlillər göstərir ki, Azərbaycana gələn turistlər əvvəlki dövrlərlə müqayisədə ölkəmizdə daha çox qalırlar.

Prezident İlham Əliyev kompleksdə təqdim edilən innovativ yeniliklərlə tanış oldu.

Məlumat verildi ki, Ağıllı sürücülük imtahanı sistemi sürücülük vəsiqəsi almaq üçün müraciət etmiş şəxslərin sürücülük qabiliyyətlərinin qiymətləndirilməsinə dair praktiki test imtahanının avtomatlaşdırılmış şəkildə həyata keçirilməsinə imkan verir. Sürücülük vəsiqəsinin alınması üzrə nəzəri test imtahanında uğur qazanmış şəxslər bu sistemdə qeydiyyatdan keçməklə praktiki test imtahanına yazılır, xüsusi qurğu və avadanlıqlarla təchiz edilmiş avtomobildə əvvəlcədən müəyyən olunmuş marşrut üzrə hərəkət edir. Avtomobil və yol infrastrukturu xüsusi sensor və peyk-müşahidə cihazları ilə təchiz edildiyi üçün imtahan verən şəxs tərəfindən törədilən bütün qayda pozuntuları avtomatik olaraq qeydə alınır və mərkəzi imtahan sisteminə ötürülür. Avtomatlaşdırılmış imtahan sistemi şəxsin praktiki imtahandan uğurla keçib-keçmədiyinə dair real vaxt rejimində arayış hazırlayır.

Diqqətə çatdırıldı ki, "ASAN xidmət" mərkəzlərində vətəndaş müraciətlərinin səmərəliliyinin artırılması və hər bir vətəndaşa fərdi yanaşmanın təmin edilməsi məqsədilə "ASAN rəqəmsal sinir sistemi" platforması hazırlanıb. Platforma hər bir vətəndaşın fiziki və ya elektron dövlət xidmətlərindən istifadəsinə, şikayət və təkliflərinə dair məlumatları vahid bazada toplayır və vətəndaşın dövlət xidmətlərindən istifadə vərdişləri barədə ətraflı məlumatları real vaxt rejimində əks etdirir. Eyni zamanda, bu platforma "ASAN xidmət" əməkdaşları barədə də bütün məlumatları bir yerə cəmləməklə, onların performanslarını qiymətləndirməyə, analitik təhlillər aparmağa və vətəndaş-dövlət xidməti–dövlət qulluqçusu münasibətlərini vizuallaşdırmağa imkan verir.

Prezident İlham Əliyevə dövlət satınalmalarının vahid internet portalı barədə də məlumat verildi. Qeyd edildi ki, bu portal dövlət satınalmalarının vahid platforma üzərindən elektron mühitdə həyata keçirilməsinə imkan verən platformadır. Portalın əsas məqsədi satınalma prosesinin təkmilləşdirilməsi və operativliyin artırılması, eyni zamanda, prosesin təşkili zamanı dövlət–özəl sektoru əməkdaşlığının təmin edilməsidir. Satınalma prosesinin bütün mərhələləri - tenderin elan edilməsi, təkliflərin qəbulu və qiymətləndirilməsi, müqavilələr və hesab-fakturaların formalaşması tamamilə elektron mühitdə həyata keçirilir. Həmçinin satınalma prosesinin sürətlə aparılması üçün müvafiq dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiya həyata keçirilib. Platformanın yaradılması satın alan və podratçı tərəfindən xərclərin azalması ilə bərabər, beynəlxalq reytinqlərdə də ölkəmizin mövqeyinin yaxşılaşmasına təsir edəcəkdir.

Tanışlıq zamanı dövlətimizin başçısına "ASAN Tranzit" Sistemi barədə də ətraflı məlumat verildi. Bildirildi ki, bu sistem ölkəyə daxil olan tranzit yük avtomobillərinin qanunvericilikdə mövcud olan ödənişləri (vergi, rüsum və s.) əvvəlcədən ödəməsinə imkan verən və məlumatları real vaxtda müvafiq informasiya sistemlərinə ötürən platformadır. Dövlət sərhədinə yaxınlaşmadan öncə avtomobilin sürücüsü və ya avtomobilin qeydiyyatda olduğu şirkət sürücü və avtomobil barədə məlumatları sistemə daxil etməklə müvafiq ödənişləri həyata keçirir və ödəmənin təsdiqinə dair elektron sənəd əldə edir. Bu sistem yük avtomobillərinin ölkəyə daxil olduğu zaman əlavə dayanmaların qarşısını almaqla, ödənişlərin bir nöqtədə toplanmasına imkan verir. Sistemin imkanları, həmçinin ölkəmizin beynəlxalq tranzit yükdaşımaları zamanı üstünlük verilən marşruta çevrilməsinə və proseslərin səmərəliliyinin artmasına şərait yaradır.

Sonra ASAN könüllüləri reallaşdırdıqları layihələr barədə məlumat verdilər.

ASAN könüllüsü Emiliya Bayramova dedi:

-Möhtərəm cənab Prezident, Kürdəmir regional "ASAN xidmət" mərkəzinə xoş gəlmisiniz. Mən artıq 3 ildən çoxdur ki, "ASAN Könüllüləri" Təşkilatında fəaliyyət göstərirəm. Cənab Prezident, əvvəlcə 2020-ci ili bizim ilimiz elan etdiyiniz üçün bütün ASAN könüllüləri adından Sizə dərin təşəkkürümüzü bildiririk.

Bu gün biz Sizə ASAN könüllülərinin fəaliyyəti haqqında məlumat verəcəyik. Cənab Prezident, Sizin dəstəyiniz və xeyir-duanızla 15 nəfərlə fəaliyyətə başlayan ASAN könüllülər hərəkatının artıq 22 mindən

çox məzun könüllüsü var. "ASAN xidmət" mərkəzlərində könüllülük fəaliyyəti iki mərhələdən ibarətdir. Birinci mərhələdə könüllülər müxtəlif sənədləşmə prosedurlarında, dövri rəy sorğularında, xidmətyönümlü təlimlərdə və mərkəzlərin ümumi fəaliyyətində yaxından iştirak edirlər. Növbəti mərhələdə isə onlar artıq öz ixtisaslarına uyğun olaraq müxtəlif təcrübələrə cəlb olunurlar.

Cənab Prezident, təbii ki, fəaliyyətimiz bununla yekunlaşmır. ASAN könüllülərinin işlə təmin olunmasına dəstək məqsədilə "ASAN kadr" karyera mərkəzini yaratmışıq. Karyera mərkəzi daxilində asankadr.az veb-portalı mövcuddur ki, könüllülər və işəgötürənlər arasında körpü rolunu oynayır. Bu günədək portal vasitəsilə 1400 ASAN könüllüsü işlə təmin olunub, onlardan 446-sı isə "ASAN xidmət" mərkəzlərinin əməkdaşlarıdır.

Cənab Prezident, xüsusilə qeyd edim ki, asankadr.az veb-portalı artıq BMT-nin Könüllülər Proqramına uğurlu layihə kimi daxil edilib.

Sonda mən vurğulamaq istərdim ki, Sizin bizə daimi dəstəyinizə cavab olaraq dövlətimizin dayanıqlı inkişafı üçün daha səylə çalışacağımıza söz veririk. Diqqətiniz üçün təşəkkür edirəm, könüllülərin könlü daim Sizinlədir.

Prezident İlham Əliyev: Çox sağ ol, təşəkkür edirəm.

ASAN könüllüsü Rza Əliyev dedi:

-Möhtərəm cənab Prezident, Ali Baş Komandan, əvvəla Sizi salamlayıram. Mən "ASAN Könüllüləri" Təşkilatının əməkdaşıyam. "ASAN Könüllüləri" Təşkilatı fəaliyyətə başladığı ilk dövrdən vətənpərvərlik mövzusunda layihələrin həyata keçirilməsinə xüsusi önəm vermişdir. Sizin bizimlə görüşlərinizdə daim vurğuladığınız kimi, Azərbaycan gəncliyi milli, vətənpərvər ruhda, ənənəvi dəyərlər əsasında tərbiyə olunmalıdır. Biz də Sizin bu fikirlərinizi rəhbər tutaraq, dövlətimizin bu sahədə gördüyü işlərə dəstək olmaq məqsədilə 92 layihə, 5 hərbi vətənpərvərlik düşərgəsi həyata keçirmişik. Bu layihələrdə, ümumilikdə, 9 minə qədər gənc iştirak edib. Genişmiqyaslı layihələrdən "Hərbiyyə" hərbi-vətənpərvərlik düşərgəsi və "Əsgərə məktub" layihələrini misal göstərmək olar. "Hərbiyyə" düşərgəsi, ümumilikdə, 5 dəfə keçirilib və 500-ə qədər gənc bu layihələrdə iştirak edib. Marağın həddən artıq çox olması 2019-cu ildə bu layihəni 3 dəfə keçirməyimizə səbəb oldu. Diqqətinizə çatdırmaq istəyirəm ki, bu düşərgədə gənclər ilkin hərbi təcrübəyə cəlb olunur, hərbi hazırlıqlar keçirlər.

Şanlı Aprel zəfəri zamanı bizim təşəbbüsümüzlə yaranan "Əsgərə məktub" layihəsi isə dövlətimiz tərəfindən hər bir maddi, hərbi resursla təmin olunan əsgərlərimizə mənəvi dəstək göstərmək məqsədilə yaranıb və hazırda da davam etməkdədir. Cəbhə bölgəsində xidmət edən əsgərlərimizə vətəndaşlarımız tərəfindən yazılmış 80 minə qədər məktub çatdırılıb.

Cənab Prezident, Sizin tapşırığınızla 2018-ci ildən "ASAN xidmət" mərkəzləri yerləşən regionlardakı Heydər Əliyev mərkəzlərində ASAN könüllüləri öz fəallığı ilə seçilirlər. Belə ki, 8 mindən çox ASAN könüllüsü 5 mindən çox layihədə iştirak edib. O layihələrin əsas məqsədi Azərbaycançılıq ideologiyasının, Ulu Öndərin siyasi kursunun öyrədilməsi və öyrənilməsidir. Bundan başqa, mərkəzlərdə könüllülərimiz vaxtlarını səmərəli keçirmək üçün digər təlimlərdə iştirak edirlər. Bizə göstərdiyiniz diqqət və qayğı üçün Sizə xüsusi təşəkkürümüzü bildiririk.

Prezident İlham Əliyev: Çox sağ olun, təşəkkür edirəm.

ASAN könüllüsü Nicat Rəşidov dedi:

-Möhtərəm cənab Prezident. Mən "ASAN Könüllüləri" Təşkilatının əməkdaşıyam. Diqqətinizə çatdırmaq istəyirəm ki, ASAN könüllüləri mərkəzlərdəki fəaliyyətlərini bitirdikdən sonra təşkilat tərəfindən icra olunan layihələrdə fəal iştirak edirlər. İlk olaraq qeyd edim ki, şəxsi inkişaf haqqında 220-dən artıq layihə icra edilib. Bu layihələrdə 45 mindən çox gənc əhatə olunub. Misal üçün, təhsil sahəsində olan bacarıqların artırılması məqsədilə "ASAN akademiya" layihəsi, regionlarda könüllülüyün geniş təşviqi üçün "Könüllülər Yurdu - Azərbaycan", gənclərin siyasi biliklərinin artırılması məqsədilə "Könüllülər Parlamenti - Azərbaycan", həmçinin onların dünyagörüşünün və natiqlik bacarıqlarının inkişafı üçün "SMM Business Breakfast", "TÜRKSOY-un I Beynəlxalq simulyasiyası", "AVO MUN", "Natiqlik çempionatı" layihələri həyata keçirilib. Bildiyiniz kimi, 2019-cu ildə Azərbaycan BMT-nin Dövlət Xidmətləri Forumuna ev sahibliyi edib. Məhz bu tədbirdə də biz ASAN könüllüləri olaraq təşkilatçılıqda yaxından iştirak etmişik.

Cənab Prezident, diqqətinizə çatdırmaq istəyirəm ki, ekoloji məsuliyyət sahəsində də ASAN könüllüləri IDEA İctimai Birliyi ilə birlikdə 400-dən çox ekoloji tədbir və maarifləndirmə aksiyası həyata keçirib. Bu aksiyalarda minlərlə gənc iştirak edərək, cəmiyyətimizə töhfələrini əsirgəməyiblər. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, "Yaşıl ASAN" proqramı çərçivəsində 1500 ton kağız təkrar emala verilib və 17 mindən çox ağacın kəsilməsinin qarşısı alınıb. Həmçinin bizim təşəbbüsümüzlə reallaşdırılan "Əcnəbi könüllülər" layihəsi çərçivəsində Niderland, Böyük Britaniya, Çin və Hindistan kimi 17 fərqli ölkədən onlarla gənc Azərbaycanda ASAN könüllüsü adını qazanıb. Diqqətiniz üçün təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun. Çox sağ olun.

ASAN könüllüsü Roza Qocayeva dedi:

-Möhtərəm cənab Prezident, Sizi salamlayıram. Mən "ASAN Könüllüləri" Təşkilatının əməkdaşıyam. Sizə "ASAN Məktub" sosial proqramı haqqında məlumat vermək istərdim. Bu proqram 2015-ci ildən bu günədək sosial qayğıya ehtiyacı olan uşaqların arzularını gerçəkləşdirmək üçün nəzərdə tutulub. Dördillik

fəaliyyətimiz dövründə 30-dan çox bölgədə olmuş və 4 minədək uşağın arzusunu reallaşdırmışıq. Onu da qeyd etmək istərdim ki, "ASAN Məktub" uğurlu layihə kimi, BMT-nin Könüllülük Proqramına daxil edilib. Bununla yanaşı, ASAN könüllüləri sosial işlərlə yanaşı, mədəniyyət sahəsində də öz bacarıqlarını nümayiş etdirirlər. Bu sahədə bizim "Mədəniyyət carçısı" proqramını xüsusi vurğulamaq istərdim. İkiillik fəaliyyəti dövründə 50-dən çox teatr tamaşası səhnələşdirilib. Bu tamaşalarımız beş mindən artıq gənci əhatə edib.

Çox təşəkkür edirəm, cənab Prezident.

Prezident İlham Əliyev: Çox sağ olun, təşəkkür edirəm.

Daha sonra Prezident İlham Əliyev ASAN könüllüləri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- "ASAN xidmət" mərkəzinin əziz əməkdaşları, əziz könüllülər. Mən sizi ürəkdən salamlayıram, sizi Kürdəmir "ASAN xidmət" mərkəzinin açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Bildiyiniz kimi, mənim sərəncamımla bu il Azərbaycanda "Könüllülər ili" elan olunmuşdur. Bu onu göstərir ki, Azərbaycan dövləti Könüllülər hərəkatına çox böyük önəm verir. İndicə mənə stendlər üzrə edilən təqdimat bir daha onu göstərir ki, Azərbaycan könüllülərinin fəaliyyəti çoxşaxəlidir.

Könüllülər hərəkatı, əslində, ölkəmizdə "ASAN xidmət" mərkəzlərində başlamışdır. Əsas vəzifə ondan ibarət idi ki, ölkəmizin gənc istedadlı sakinləri bu işlərə qoşularaq vətəndaşlara kömək göstərsinlər, Azərbaycanda Könüllülər hərəkatı başlasın və bu sahədə ciddi irəliləyiş olsun. Çünki "ASAN xidmət" mərkəzlərinin fəaliyyətə başlaması, əslində, Könüllülər hərəkatına da təkan vermişdir. Ancaq ondan sonra Könüllülər hərəkatı və könüllülərin fəaliyyəti çox geniş vüsət almışdır. Ölkəmizdə keçirilmiş mötəbər beynəlxalq yarışlarda, o cümlədən birinci Avropa Oyunlarında, İslam Həmrəyliyi Oyunlarında könüllülər çox fəal rol oynamışlar və bu oyunların uğurla keçirilməsində böyük dərəcədə öz xidmətlərini göstərmişlər. Mən görürəm ki, indi Könüllülər hərəkatı və könüllülərin fəaliyyəti daha genişmiqyaslıdır. Həm vətənpərvərlik, ekoloji tarazlıq mövzularında keçirilən tədbirlərdə, həm də incəsənət, mədəniyyət və digər sahələrdə könüllülər çox fəaldırlar. Eyni zamanda, ölkəmizin beynəlxalq əlaqələrinin möhkəmlənməsində də könüllülərin fəaliyyəti çox önəmlidir. Təsadüfi deyil ki, dünyanın mötəbər beynəlxalq təşkilatları, o cümlədən BMT və digər təşkilatlar həm "ASAN xidmət" mərkəzlərinin fəaliyyətini yüksək qiymətləndirir, həm də Azərbaycanda yaranmış və inkişaf edən Könüllülər hərəkatına yüksək qiymət verirlər.

Bir çox ölkələrdə gəncləri birləşdirən təşkilatlar, qurumlar, ictimai birliklər var, o cümlədən Azərbaycanda da. Amma hesab edirəm ki, Könüllülər hərəkatı bu ictimai təşkilatlar arasında xüsusi yer tutur. Çünki Azərbaycan könüllüləri həm vətənpərvərdirlər, həm biliklidirlər, həm istedadlıdırlar, həm də Azərbaycan gəncliyini və gənclərin istedadını təcəssüm etdirirlər. Çünki könüllü olmaq, əslində, bizim milli xarakterimizə uyğundur. Mərhəmət, xeyirxahlıq, bir-birinə kömək göstərmək, mədəni davranış – bütün bunlar bizim genetik kodumuzda yazılmış sarsılmaz dəyərlərdir. Sadəcə olaraq, könüllülər xalqımıza xas olan bütün bu müsbət amilləri, əlamətləri özündə cəmləşdirərək, bu gün bir hərəkat kimi fəaliyyət göstərirlər. Təsadüfi deyil ki, könüllülər Azərbaycan cəmiyyətində çox böyük rəğbətlə qarşılanırlar, o cümlədən "ASAN xidmət" mərkəzlərində. Siz - könüllülər və "ASAN xidmət" mərkəzlərinin əməkdaşları bunu görürsünüz, bilirsiniz. Əslində, "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti və bu mərkəzlərdə hökm sürən nizam-intizam, mədəniyyət, dürüstlük həm Azərbaycan cəmiyyətində böyük yenilik və ictimai xidmətlər sahəsində bir inqilab idi, eyni zamanda, bu, mərkəzlərə müraciət edən vətəndaşlar üçün də gözlənilməz bir hal idi. Çünki ictimai xidmətlər əfsuslar olsun ki, ölkəmizdə həmişə problemli bir sahə idi. İnsanlar məcbur olub günləri, həftələri itirərkən, bu və ya digər dövlət qurumuna müraciət edərkən öz haqlı tələbini təmin etmək üçün əziyyət çəkirdilər. Süründürməçilik, rüşvətxorluq, korrupsiya, mədəniyyətsizlik əfsuslar ki, ictimai xidmətlər sektoruna xas olan əlamətlər idi. İndi isə "ASAN xidmət" mərkəzlərində bunların biri də yoxdur. Eyni zamanda, "ASAN xidmət" mərkəzlərində yaranmış bu gözəl ab-hava ölkəmizin digər sahələrinə də müsbət təsir göstərir. Ona görə mən həm Könüllülər hərəkatının, həm də "ASAN xidmət" mərkəzlərinin fəaliyyətini xüsusilə qiymətləndirirəm. Bu, sadəcə olaraq bir binada yüzlərlə xidmətin göstərilməsi deyil, bu, əslində, yeniləşən Azərbaycanın yeni simasıdır. Bu, müasir dövlətin növbəti uğurudur.

Bir daha demək istəyirəm ki, xalqımıza xas olan bütün müsbət əlamətlər, eyni zamanda, müasirlik, texnologiyalar, innovasiyalar "ASAN xidmət"də özünü büruzə verir. Bax, bu istiqamətdə inkişaf edən ölkəmiz uğur qazana bilər. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm, xüsusilə gənclərə müraciətim odur ki, biz bundan sonra da həm dövlət quruculuğu işində, həm ictimai proseslərdə, həm də islahatların aparılmasında əsas dəyərlərimizi hər şeydən üstün tutmalıyıq. Müstəqil Azərbaycan dövləti çox dərin milli-mənəvi dəyərlər üzərində qurulub və eyni zamanda, bizim dövlətimiz müasirdir, dünyəvidir, gələcəyə uğurla getmək üçün hazırdır və beynəlxalq əməkdaşlığa açıqdır. Bax, bütün bu amillərin sintezi bizim uğurlarımızı şərtləndirir. Xüsusilə gənclər milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alanda onlar gələcəkdə də ölkə maraqlarını ləyaqətlə müdafiə edə biləcəklər.

Ölkə maraqlarını müdafiə etmək üçün bir neçə önəmli amil lazımdır. İlk növbədə, Vətən sevgisi, Vətənə və milli köklərə bağlılıq olmalıdır. Bu gün bu,

cəmiyyətimizdə var və siz gənclərdən asılıdır ki, bu, həmişə olsun. Çünki ölkəmizin gələcək taleyi sizin kimi müasir, bilikli, istedadlı gənclərin əlində olacaq. Əlli ildən, yüz ildən sonra Azərbaycanın necə inkişaf edəcəyi sizin kimi gənclərin və sizdən sonra gələn nəsillərin fəaliyyətindən və dünya görüşündən asılı olacaq. Ona görə biz xalqımıza xas olan dəyərləri nəsildən-nəslə ötürməliyik, onları itirməməliyik, qorumalıyıq. İndiki şəraitdə bunu etmək o qədər də asan deyil. Çünki indi dünya qloballaşır, informasiya heç bir sərhəd tanımır, - bu da müsbət haldır, - amma bununla bərabər dezinformasiya da heç bir sərhəd tanımır, feyk xəbər anlayışı 5-6 il bundan əvvəl mövcud deyildi. İndi bu, həqiqətdir və bunu etiraf edənlər dünyanın aparıcı ölkələrinin dövlət başçılarıdır. Onlar da bundan əziyyət çəkirlər. Media bir tərəfdən artıq bütün sərhədləri aşaraq hər bir ölkəyə qədəm qoyur və bu, müsbət haldır. Bildiyiniz kimi, Azərbaycanda da media azadlığı var, internet azaddır, heç bir senzura yoxdur. Digər tərəfdən, informasiya təxribatları, yalan məlumat, şər-böhtanla dolu məlumat da sərhədləri aşır. Biz buna hazır olmalıyıq, xüsusilə gənclər. Ona görə bilməliyik ki, bizim uğurlu inkişafımızı bizdən çox istəyən yoxdur və taleyimiz öz əlimizdədir. Artıq 30 ilə yaxındır ki, müstəqil ölkə kimi yaşayırıq və müstəqillik hər şeydən dəyərlidir. Ona görə milli dəyərlər, müstəqillik və müasirlik gələcək inkişafımız üçün çox önəmli amillərdir. Çünki biz doqmatizmdən uzaq olmalıyıq. Doqmatizm hər bir cəmiyyətin inkişafına əsas əngəldir.

Bizim strateji inkişaf yolumuz var - milli dəyərlərin qorunması, müstəqilliyin möhkəmləndirilməsi, bundan sonra da heç kimdən asılı olmamaq, heç vaxt kiminsə iradəsi ilə idarə olunmamaq və uğurlu iqtisadi-sosial inkişaf, təhlükəsizlik, sabitlik, dünyaya açıq olmaq və milli maraqlarımızın qorunması. Bu, bizim strateji xəttimizdir. Bu, dəyişməz olaraq qalır, qalacaq və qalmalıdır.

Ancaq bununla bərabər, biz qapalı şəraitdə yaşaya bilmərik. Dünyada, regionumuzda gedən proseslər əlbəttə ki, bizə də təsir göstərir. Əfsuslar olsun ki, bu gün regionumuzda proseslər mənfi istiqamətdə gedir, biz bunu görürük. Yeni münaqişə, yeni qarşıdurma ocaqları, müharibələr, vətəndaş müharibələri – bütün bu mənfi meyillər, o cümlədən iqtisadi sahədə dünyada yaşanan böhran bizə də təsir göstərə bilər və göstərir. Ona görə biz dünyada gedən prosesləri yaxından izləyərək öz addımlarımızı, o cümlədən taktiki addımlarımızı buna uyğun atmalıyıq. Nəzərə alsaq ki, ölkə daxilində risklər yoxdur, - nə siyasi risklər, nə sosial, nə iqtisadi, nə fiziki risklər, - bütün mümkün olan problemlər kənardan gələ bilər. Həm ideoloji təxribat, - bu barədə mən artıq öz sözümü dedim, - həm də ki, başqa təxribatlar. Ona görə biz ölkəmizi, sərhədlərimizi qorumalıyıq, informasiya sərhədlərimizi, mənəvi sərhədlərimizi elə möhkəm inşa etməliyik ki, heç bir kənar qüvvə bizim nə milli-mənəvi dəyərlərimizə, nə müstəqilliyimizə, nə də gələcək uğurlu inkişafımıza mane ola bilməsin. Nə qədər ki, mən bu vəzifədəyəm Azərbaycan müstəqillik, azadlıq və inkişaf yolu ilə gedəcək. Elə etməliyik ki, bizdən sonra gələn nəsillər, gənclər öz fəaliyyətlərini bu istiqamətdə qursunlar və təxribatlara uymasınlar, bəzi beynəlxalq təşkilatların yalan məruzələrinə inanmasınlar. Onların arxasında çox ciddi siyasi maraqlar dayanır. Nə üçün Azərbaycan bəzi hallarda beynəlxalq müstəvidə təzyiqlərlə üzləşir? Çünki heç kimin qarşısında baş əymir və əyməyəcək. Heç kimin sözü ilə oturub-durmur və düz də edirik. Ona görə ölkəmizdə sabitlik, inkişaf, əmin-amanlıq var.

Baxın, başqa ölkələrə, onlar böyük dövlətlərin təsiri altına düşmüşlər. Onların gününə baxın, orada vətəndaş müharibələri, kütləvi itaətsizlik baş alıb gedir, siyasi və iqtisadi böhran davam edir. O ölkələr faktiki olaraq xarici idarəetmə altındadırlar və öz müstəqilliyini kiminsə sərəncamına vermişlər. Amma biz ləyaqətli siyasət aparırıq. Mən həmişə demişəm ki, Azərbaycan dövlətinin taleyi xalqımızın əlindədir. Biz, nəhayət ki, müstəqil dövlət kimi yaşayırıq və heç kimdən asılı deyilik. Amma tariximizi də yaxşı bilirik. Hətta Azərbaycan Xalq Cümhuriyyətinin tarixi də birmənalı deyildi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixi hadisə idi və bizim qürur mənbəyimizdir. Çünki müsəlman aləmində ilk dəfə məhz Azərbaycan xalqı demokratik respublika yaratmışdır, qəbul edilmiş qanunlar və planlar, onların niyyəti ölkəmizin uğurlu inkişafını şərtləndirə bilərdi. Ancaq o da həqiqətdir ki, iki il ərzində Azərbaycan hökuməti öz ərazisinə tam nəzarət edə bilmirdi. O da həqiqətdir ki, o vaxt xarici ekspedisiya korpusu Bakıda hökmranlıq edirdi, Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətini tanımırdı. Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərləri məcbur olub o ekspedisiya korpusunun generalları ilə müzakirələr aparıblar ki, müstəqil siyasət yürüdə bilsinlər. Bu proses də böyük çətinliklərlə baş verirdi.

Ona görə indiki müstəqil Azərbaycanı heç bir dövrlə müqayisə etmək olmaz, heç bir dövrlə. Bu gün bu qədər müstəqil, bu qədər azad dövlət Azərbaycan tarixində olmamışdır. Tarixçilər bunu yaxşı bilirlər. Biz də bunu qiymətləndirməliyik.

Tale 1991-ci ildə bizə yeni bir şans verdi. Biz bu şansı itirə bilərdik və əslində, itirirdik. Çünki 1990-cı illərin əvvəllərində gedən proseslər ölkəmizi məhvə aparırdı. Ancaq 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycan bütün o bəlalardan canını qurtardı və inkişaf yoluna qədəm qoydu, müstəqillik yoluna qədəm qoydu. Bu gün biz bu yolla gedirik və gedəcəyik.

Bu gün "ASAN xidmət" mərkəzinin açılışında sizinlə görüş əsnasında, sadəcə olaraq, bu fikirlərimi bölüşmək istədim. Çünki istəyirəm ki, siz də biləsiniz mənim fikirlərimi, Azərbaycan xalqı da bir daha eşitsin bizim niyyətimiz nədir, siyasətimiz nədir və yolumuz nədir. Bir daha demək istəyirəm ki, "ASAN xidmət"

mərkəzləri ölkəmizdə çox ciddi müsbət dəyişikliklərə yol açdı. Bu, bizim niyyətimizin, siyasətimizin təzahürü idi. Amma birinci mərkəzlər açılan zaman insanlara elə gəlirdi ki, bu, vətəndaşların rahatlığı üçün sadəcə, bir layihədir, xidmət layihəsidir. O vaxt bir çoxları bəlkə də dərk etmirdilər ki, bu, bir layihə deyil, bu, siyasətdir, hərəkatdır, bu, niyyətdir. Baxın, bu gün Azərbaycanın hər bir sahəsində islahatlar aparılır - siyasi sahədə, iqtisadi sahədə, struktur islahatları, kadr islahatları. Nazirlər Kabineti yenidən formalaşdı, Prezident Administrasiyası da həmçinin. Parlament yenidən formalaşır. Bir neçə gün bundan əvvəl parlament seçkiləri keçirildi. İqtisadi sahədə şəffaflıq təmin edilir. Bu şəffaflıq hesabına təkcə keçən il bir milyard manatdan çox vəsait dövlət xəzinəsinə daxil edildi və bu vəsait son qəpiyinə qədər vətəndaşların pensiyalarının, maaşlarının artırılmasına getmişdir. Bu ilin yanvar ayında xəzinəyə proqnozdan əlavə 160 milyon manat daxil edildi. Biz bunu da sosial layihələrə xərcləyəcəyik. Bir ayda 160 milyon manat o deməkdir ki, təqribən indi bunu 12 aya vursaq, - düzdür, burada çox da sadə yanaşmaq olmaz, - amma hər halda bu, bir meyildir.

Bütün bu işlər ölkəmizi gücləndirir. Parlament seçkiləri bir daha onu göstərdi ki, bizim niyyətimiz demokratik inkişafın təmin edilməsidir. Çünki hətta bizə həmişə ən tənqidi mövqedən yanaşan təşkilatlar da seçkilərlə bağlı məruzəsində müsbət meyilləri qəbul etməyə məcbur olmuşlar. Pozuntulara gəldikdə, qeyd etmişlər ki, bu prosedur xarakterli pozuntular idi. Yəni, bu, hər bir ölkədə var. Heç bir ölkədə tam kamil seçkilər keçirilmir. Amma bu seçkilərdə nə saxtakarlıq, nə ciddi pozuntular olub, nə də ki, seçkilərin legitimliyini, yaxud da nəticələrini şübhə altına alan hər hansı bir pozuntu.

Müşahidəçilərin mütləq əksəriyyəti seçkiləri çox müsbət qiymətləndirdi. Bəziləri qeyd etdi ki, bu, bir çox ölkələr üçün nümunə ola bilər. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, - hansı ki, bizə həmişə qərəzli yanaşır, - hesabatı da hesab edirəm ki, tarazlı idi, əvvəlki dövrlərə nisbətən daha obyektiv idi. Əlbəttə ki, bəzi məsələlərlə biz razılaşa bilmərik. Amma məruzənin ümumi nəticəsi, hesab edirəm ki, obyektivliyə daha yaxın idi. Biz də bəyan etmişik ki, mövcud olan pozuntular ciddi araşdırılacaq, pozuntulara yol vermiş şəxslər cəzalandırılacaq və bundan sonra da biz bütün beynəlxalq təşkilatlarla bu istiqamətdə fəaliyyətimizi və əməkdaşlığımızı davam etdirəcəyik.

Bu dəfə 1300-dən çox namizəd olub. Bu, rekord göstəricidir. Bu, onu göstərir ki, seçkilər rəqabət şəraitində keçib. Əgər bir dairədən orta hesabla on nəfər iştirak edirsə, bu, rəqabət deyilmi? Ona görə o yekun məruzədə yazılmışdı ki, rəqabət olmayıb. Bəs, onda rəqabət nədir? Hər bir namizəd öz dairəsində açıq görüşlər keçirirdi, istədiyi sözləri deyirdi, bəziləri hakimiyyəti tənqid edirdilər. Heç kim buna görə heç kimə maneçilik törətmirdi. Bəs, onda açıq rəqabət nədir? Nəyə görə həmişə bizə qarşı "sərbəst toplaşmaq azadlığı təmin olunmayıb" ifadəsini işlədirlər, yalandır, olunub. Çünki indi hər kəs sərbəst toplaşmaq haqqını müvafiq yerlərdə icra edə bilər, amma qanun çərçivəsində. Necə ki, başqa ölkələrdə.

Ona görə seçki prosesi bütün demokratik meyarlara cavab vermişdir. Heç kim deyə bilməz ki, seçki prosesində hər hansı pozuntular olub. Hesab edirəm ki, səsvermə günü də seçkilər çox müsbət şəkildə keçirildi və əgər pozuntular olubsa, bir daha demək istəyirəm ki, bu pozuntular araşdırılacaq. Bilirəm ki, Mərkəzi Seçki Komissiyası artıq fəal işə başlayıb, yerlərdən məlumat toplayırıq. Biz istəmirik ki, pozuntular olsun. Pozuntulara yol verən şəxslər öz cəzasını almalıdırlar ki, gələcəkdə belə hallara yol verilməsin. Buna qətiyyən ehtiyac yoxdur. Çünki bu gün, tam səmimiyyətlə deyirəm, bizim siyasətimizə Azərbaycanda alternativ yoxdur. Elə bir siyasi qüvvə yoxdur ki, o, müəyyən dərəcədə xalqın rəğbətini qazansın və bu seçkilər onu bir daha göstərdi. Bizim apardığımız siyasət xalqımızın mütləq əksəriyyətinin maraqlarına cavab verir və gördüyümüz işlər də göz qabağındadır. Ona görə bütün bu sahələrdə aparılan islahatlar səmərə verir. İslahatların növbəti mərhələsi 2018-ci ildə başlamışdır. Prezident seçkilərindən sonra mənim tərəfimdən elan edilmişdi ki, biz yeni dövrə qədəm qoyuruq. Bu istiqamətdə ardıcıl olaraq fəaliyyətimiz davam etdirildi və qeyd etdiyim məsələlər də bunun sübutudur.

Mənim gənclərlə görüşlərim müntəzəm olaraq keçirilir. Hər dəfə gənclərlə görüşəndə çox sevinirəm ki, Azərbaycan gəncləri həm vətənpərvərdirlər, həm biliklidirlər, savadlıdırlar, zahirən gözəldirlər. Sizə uğurlar arzulayıram. Sizin fəaliyyətiniz "ASAN xidmət"də başlayır və davam edir. Bu, çox gözəl məktəbdir. Əminəm ki, burada topladığınız biliklər gələcəkdə sizə kömək göstərəcək və siz ölkəmizin gələcək inkişafında öz sözünüzü deyəcəksiniz. Bir daha sizi təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

Könüllü Ülkər Şirinova: Cənab Prezident, Sizin dəstəyiniz və təşəbbüsünüzlə Azərbaycanda könüllülük fəaliyyəti geniş şəkildə yayılıb. Biz region gəncləri də ASAN könüllülərinin sosial, ictimai, mədəni, ekoloji tədbirlərini, layihələrini hər zaman yaxından izləmişik. Biz region gənclərinin də arzusu olub ki, könüllülük fəaliyyətinə qoşulaq və bir könüllü kimi xalqımıza, millətimizə heç bir maddi maraq güdmədən xidmət edə və xeyirxah əməllərimizi vətəndaşlarımıza çatdıra bilək.

Siz bu gün rayonumuzda "ASAN xidmət" mərkəzini açaraq mən və mənimlə yanaşı, neçə gəncimizi arzumuza çatdırmış oldunuz. Biz bu gün Sizin qarşınızda könüllü kimi çıxış edirik, könüllü kimi dayanmışıq. Cənab Prezident, biz buna görə bütün könüllülərimiz adından Sizə təşəkkürümüzü bildiririk. Həmçinin 2020-ci il "Könüllülər ili"dir. "Könüllülər ili"ndə Sizin qarşınızda könüllü kimi çıxış etmək biz könüllülərə ayrı bir stimul verir və bizim üçün ikiqat bayramdır.

Cənab Prezident, bütün könüllülərimiz adından Sizi əmin edirəm ki, biz üzərimizə düşən vəzifənin, məsuliyyətin fərqindəyik və regionumuzun sosial, ictimai, mədəni, ekoloji tədbirlərində daha yaxından iştirak edəcəyik, region gənclərinin fərdi inkişafında böyük rol oynayacağıq və Sizin görəcəyiniz bütün işlərin fəal iştirakçısı olacağıq. Bunun üçün biz bütün könüllülər adından Sizə söz veririk.

Prezident İlham Əliyev: Çox sağ ol, təşəkkür edirəm.

Mərkəzin əməkdaşı Xəyalə Babayeva: Möhtərəm cənab Prezident, Sizi bütün Kürdəmir gəncləri adından salamlayıram. Rayonumuza xoş gəlmisiniz. Mən Kürdəmir rayonunda anadan olmuşam. Bakıda təhsil alarkən "ASAN xidmət" mərkəzində könüllü olmuşam. Könüllü olduğum müddətdə orada yaratdığınız şəraiti, imkanları, vətəndaşlara münasibəti və xidməti fəaliyyətin bu qədər yüksək olduğunu görüb həmişə arzu etmişəm ki, rayonumuzda da "ASAN xidmət" mərkəzi açılsın. Nə xoş haldır ki, bu gün rayonumuzda Sizin təşəbbüsünüzlə "ASAN xidmət" mərkəzi açılıb və biz də gənclər olaraq burada iştirak edirik.

Cənab Prezident, 2020-ci ili "Könüllülər ili" elan etmisiniz. Mən də hesab edirəm ki, bu il mənim ilimdir. Çünki həm könüllü olmuşam, həm də Sizin sayənizdə işçi kimi qarşınızda çıxış edirəm. Bu, mənim üçün çox qürurverici haldır.

Mərkəzimizdə 259 əməkdaş fəaliyyət göstərir. Xidmət fəaliyyətimiz təkcə Kürdəmiri deyil, Ağsu, Ucar, Zərdab, Göyçay və Hacıqabul rayonlarını da əhatə edir.

Cənab Prezident, hər zaman qeyd etdiyiniz kimi, dövlət qulluqçuları vətəndaşlara xidmətdə daim onların qulluğunda olmalıdırlar. Bizim mərkəzimizdə yaratdığınız bu imkanlardan, bu şəraitdən yararlanaraq demək istəyirik ki, biz də öz fəaliyyətimizi layiqincə yerinə yetirəcəyimizə söz veririk. Rayonumuzda belə gözəl şərait yaratdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Sağ olun.

"ASAN Könüllüləri" Təşkilatının sədri Səbinə Cabarova: Möhtərəm cənab Prezident, bu gün burada bir Azərbaycan gənci kimi, eləcə də ASAN könüllüləri adından çıxış etmək mənim üçün qürurvericidir. Bu gün Azərbaycan Sizin rəhbərliyinizlə qüdrətli, öz gücünə güvənən, müstəqil siyasət yürüdən bir ölkədir. Bu gün dünyanın müxtəlif yerlərində, müxtəlif ölkələrdə insanlar cinayətlərin, bomba səslərinin qorxusu ilə yaşadığı bir vaxtda Azərbaycan gənci xurafatdan, radikalizmdən, cəhalətdən uzaq, Vətənə, təhsilə bağlı şəkildə, dünyagörüşlü, savadlı, müasir gənc olaraq yetişdirilir. Sizin də qeyd etdiyiniz kimi, Azərbaycan gənci küçələrdə deyil, Azərbaycan gənci təhsil müəssisələrindədir, Azərbaycan gənci startap biznesindədir və eləcə də könüllü kimi fəaliyyət göstərir. 2012-ci ildə ilk "ASAN xidmət" mərkəzi fəaliyyətə başladığı gündən etibarən biz daim Sizin dəstəyinizi öz üzərimizdə hiss etmişik. Biz gənc könüllülər "Əsgərə məktub" layihəsi ilə cəbhədə əsgərimizin yanında, "ASAN məktub"la uşaqların qəlbində, dərin mədəni irsə malik Vətənimizdə mədəniyyət carçıları olaraq vətəndaşların önündə, "Yaşıl ASAN"la təbiətin keşiyindəyik. Həmçinin onu qeyd edim ki, bu gün ölkəmizdə "Könüllülüyün yaşı yoxdur" şüarı da heç kəsi təəccübləndirmir. Bu gün artıq ASAN könüllülərinin sırasına pensiya yaşına çatmış şəxslər də qoşulur və bununla da yaşından, sosial statusundan asılı olmayaraq, hər bir vətəndaş xalqımıza ən uğurlu şəkildə xidmət etməyi, cəmiyyətimizin inkişafı üçün könüllü olmağı özünə borc bilir.

Möhtərəm cənab Prezident, çox şadıq ki, bizim fəaliyyətimiz dövlətimiz tərəfindən də çox yüksək qiymətləndirilir. Həm Siz, həm də hörmətli Mehriban xanım sosial fəal gənclərə nəinki dəstək olursunuz, həmçinin müxtəlif tədbirlərdə birbaşa olaraq özünüz də iştirak edirsiniz. Bunun biz gənclərə verdiyi yüksək motivasiyanı heç nə ilə əvəz etmək mümkün deyil. Bu ilin də məhz könüllülərə həsr edilməsi Sizin və Mehriban xanımın biz gənclərə ayırdığı diqqət və qayğının bariz nümunəsidir. Könüllülərə verdiyiniz dəyər gənclərin və ümumilikdə, cəmiyyətimizin, dövlətimizin inkişafında böyük rol oynayır. Bildirmək istərdik ki, bundan sonra da fəaliyyətimiz boyunca apardığınız gənclər siyasətinin bir parçası olaraq hər zaman etimadınızı doğruldacaq, cəmiyyətimizin, gənclərimizin fərdi inkişafına təkan verəcək, gənclərin potensiallarından ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə edəcək, öyrəndikcə öyrədəcək, inkişaf etdikcə digərlərinin də inkişafı üçün çalışacaq, Vətənə və vətəndaşlara olan sevgimizi yüksək tutacaq, azərbaycanlı adını layiqincə daşımağa çalışacağıq, Vətənə olan sevgimizi hər zaman yüksək intellekt, sülhsevərlik, bilik, eləcə də birlik və bərabərliyimizlə ifadə edəcəyik. Diqqətinizə görə minnətdaram.

Prezident İlham Əliyev: Çox sağ olun, təşəkkür edirəm. Bildirməliyəm ki, bu, sayca 17-ci "ASAN xidmət" mərkəzidir. Şadam ki, bu mərkəz Kürdəmirdə açılır və kürdəmirli gənclər burada fəaliyyət göstərirlər. "ASAN xidmət" mərkəzlərinin açılışı, eyni zamanda, yüzlərlə iş yerinin yaradılması deməkdir. Mənə verilən məlumata görə, hazırda bütün mərkəzlərdə 4 mindən çox əməkdaş var. Bu mərkəzdə 250-dən çox əməkdaş və 45 könüllü fəaliyyət göstərir. Növbəti mərkəzin məhz Kürdəmirdə fəaliyyətə başlaması da təsadüfi deyil. Kürdəmir çox önəmli və böyük potensiala malik olan rayondur, əhalisi də çoxdur, ölkəmizin demək olar ki, mərkəzində yerləşir. Ona görə regional mərkəz kimi məhz Kürdəmirin seçilməsi hesab edirəm ki, düzgün qərar idi. Bu mərkəz 6 rayonun vətəndaşlarına xidmət göstərəcək. Ancaq Siz də yaxşı bilirsiniz ki, indi istənilən rayon sakini istənilən mərkəzdə istənilən xidməti ala bilər.

Kürdəmir rayonunun inkişafına bundan sonra da diqqət göstəriləcək. Bu gün rayonda bir neçə obyektin açılışında iştirak edirəm, o cümlədən yolun açılışı olub. Kənd yollarının vəziyyəti çox acınacaqlı idi. Son vaxtlar bu sahəyə böyük diqqət göstərildi və yolların 50 faizi yenidən quruldu. Mənə bu gün göstərilən təqdimatdan da məlum oldu ki, yolların əvvəlki vəziyyəti dözülməz idi. Orada heç asfalt da, çınqıl da yox idi, torpaq idi. Yağış yağanda o yollar keçilməz olurdu. İndi biz yolların 50 faizinin təmirinə nail olmuşuq. Ancaq hesab edirəm ki, dördüncü regional inkişaf proqramının 2023-cü ildə başa çatması nəticəsində Kürdəmir rayonunda bir dənə də təmirsiz yol qalmayacaq.

Mən Prezident kimi 15 il bundan əvvəl birinci dəfə Kürdəmirə gələndə rayonda qazlaşdırma demək olar ki, yox idi. Gənclər yəqin ki, bunu xatırlamır. Ancaq bu gün Kürdəmir rayonunda qazlaşdırma 98 faizə çatıb. Yəni, bir neçə kənd qalıb ki, orada hələ qaz xətləri çəkilməyib, biz onu da edəcəyik. Elektrik enerjisi ilə bağlı çox böyük problemlər var idi, həm fasilələr olurdu, həm də enerji çatmırdı. İndi isə bu problem yoxdur. 2013-cü ildə mənim iştirakımla Kürdəmir şəhərində içməli su layihəsinin açılışı oldu və Kürdəmir şəhəri təmiz, dünya standartlarına cavab verən su ilə təmin edildi. Bununla bərabər, 43 modul tipli təmizləyici qurğu inşa edilmişdi ki, çay boyunca yerləşən kəndlərin camaatı da təmiz içməli su ilə təmin edilsin. Hazırda Kürdəmir şəhərində kanalizasiya layihəsi icra edilir. Mənə verilən məlumata görə, icra 20 faizdir və yəqin ki, yaxın 1-2 il ərzində bu problem də öz həllini tapacaq.

“Azərxalça”nın fabriki bu gün açılır. Bir neçə aqropark fəaliyyət göstərir. Əsaslı təmirdən çıxmış Mərkəzi Rayon Xəstəxanasının da mənim iştirakımla açılışını etmişik. Olimpiya idman mərkəzi, Gənclər evi inşa edilib. Yəni, belə obyektlərin sayı çoxdur. Otuzdan çox məktəb əsaslı təmir edilib. Amma görüləsi işlər də çoxdur. Ona görə dördüncü regional inkişaf proqramının uğurlu icrası nəticəsində hesab edirəm ki, bir dənə də olsun infrastruktur problemi qalmamalıdır.

İş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görülməlidir və görüləcək, xüsusilə özəl sektorda və dövlət sektorunda. Hələ ki, dövlət sektorunda da yeni iş yerlərinin yaradılması zəruridir. Çünki istəmirəm ki, işsiz adam olsun. İşsizliklə bağlı problemlər daim diqqət mərkəzindədir, çünki əhalimiz artır. Cənubi Qafqazda yeganə ölkə Azərbaycandır ki, əhali artır və müstəqillik dövründə 3 milyon artıb. Təsəvvür edin, bizim əsas infrastruktur layihələrimiz sovet dövründə icra edilmişdir və onlar təqribən 6-7 milyon əhaliyə hesablanmışdır. Əgər biz son illərdə böyük infrastruktur layihələrini icra etməsəydik, bu gün işıqsız, susuz, qazsız qalacaqdıq. Çünki biz artan əhalini həm işlə, həm ərzaqla, həm də məktəblərlə təmin etməliyik. Hər il əhali 100 min artır. İqtisadi inkişaf buna uyğun olmalıdır. Ona görə bölgələrdə və böyük şəhərlərdə iş yerlərinin yaradılması daim diqqət mərkəzindədir. Amma mən tam əminəm ki, biz bütün çağırışlarla bağlı öz siyasətimizi bundan sonra da uğurla aparacağıq. Artan əhali bizim gücümüzdür və eyni zamanda, elə bir amildir ki, bizi daim daha fəal olmağa sövq etməlidir. Artan əhali artan tələbat deməkdir.

Əminəm ki, bundan sonra da Kürdəmir rayonunun inkişafında önəmli addımlar atılacaq və burada proseslər uğurla gedəcək, vətəndaşlar işlə təmin olunacaqlar, həm onların sosial rifahı yaxşılaşacaq və belə gözəl mərkəzlər yaradılacaq. Sizi bir daha təbrik edirəm, sizə xoşbəxtlik, cansağlığı arzulayıram. Həmişə belə gözəl, enerjili, fəal olasınız. Sağ olun.

Sonra xatirə şəkli çəkdirildi.

Daha sonra Prezident İlham Əliyev “ASAN Həyat” kompleksinin tərkibindəki “ABAD Food Hall”un fəaliyyəti ilə tanış oldu, burada nümayiş etdirilən məhsulların nümunələrinə baxdı.

Fevralın 12-də “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Kürdəmir filialı istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev filialın açılışında iştirak edib.

“Azərxalça” ASC-nin İdarə Heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısına müəssisədə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, müəssisədə 150 nəfər toxucunun və 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və s. kimi bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Ağdaş, Ağsu, Göyçay, Hacıqabul, İsmayıllı, Kürdəmir, Qax, Qəbələ, Qobustan, Oğuz, Salyan, Şamaxı, Şəki, Ucar, Zaqatala və Zərdab rayonlarının yaşayış məntəqələrində toxunan orijinal xalça çeşnilərinin istehsalına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında “Azərxalça”nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib. Toxucular Kürdəmir şəhərinin və rayonun digər yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində “Azərxalça”nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları “Azərxalça” ASC-nin sertifikatını alacaqlar. Xalça-satış salonunda “Azərxalça” ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgilənməsi və satışı həyata keçiriləcək.

Dövlətimizin başçısı xalçaçılarla görüşdü.

Müəssisənin kollektivini salamlayan Prezident İlham Əliyev dedi:

-Sizi xalça fabrikinin açılışı münasibətilə təbrik edirəm, sizə uğurlar arzulayıram. Şadam ki, Kürdəmir rayonunda da xalça fabriki açılır. Son vaxtlar bu istiqamətdə çox böyük işlər görülür. Planımızda 32 fabrikin açılışıdır, onlardan 11-i artıq fəaliyyətdədir. Biri də bu gün Kürdəmir rayonunda rəsmən açılır. Mənə verilən məlumata görə, burada qadınlar üçün 100-ə yaxın iş yeri yaradılıb. Bu, çox müsbət haldır. Bir tərəfdən, vətəndaşları iş yerləri ilə təmin edirik, xüsusilə qadınları. Digər tərəfdən, bizim qədim sənətimiz, xalçaçılıq sənəti inkişaf edəcək. Siz də bu sənəti yaşadırsınız və öz təcrübənizi, biliklərinizi gənc nəsil ilə bölüşürsünüz. Beləliklə, həm özünüz üçün yeni imkanlar əldə edirsiniz, eyni zamanda, ölkəmizin gələcək uğurlu inkişafı istiqamətində də mühüm töhfə verirsiniz. Çünki xalçaçılıq həm qədim sənətimizdir, həm də xalça ixracyönümlü məhsuldur. İndi bizim əsas vəzifəmiz qeyri-neft sektorunun ixracının artırılmasıdır.

Azərbaycan xalçalarına dünyada çox böyük tələbat var. Ölkəmizə gələn xarici qonaqlar xalçalarla çox maraqlanırlar. Nəzərə alsaq ki, keçən il ölkəmizə 3 milyon 170 min xarici qonaq gəlib və bu il daha da artacaq, ona görə bizim xalçalarımıza tələbat çoxalacaq. Sizin işiniz daha da çox olacaq. Burada yaxşı əməkhaqqı ilə təmin olunursunuz, iş şəraiti gözəldir. Son dövrdə "Azərxalça"nın xətti ilə açılmış fabriklərdə demək olar ki, işçilərin hamısı razıdır.

Xalçaçılar: Biz də razıyıq. Çox sağ olun, minnətdarıq. Allah Sizə ömür versin. Allah Sizi qorusun.

Xalçaçı Yemən Abdurəhmanova: Cənab Prezident, rayonumuza, müəssisəmizə xoş gəlmisiniz. Biz böyük şərəf hissi ilə, böyük qürurla Sizi gözləyirdik. Biz sevinirik ki, bizimlə görüşə gəlmisiniz. Mən Kürdəmir rayonunun bütün ziyalı qadınlarının, ağbirçək anaların, toxucularımızın adından Sizə dərin minnətdarlıq hissimi bildirirəm. Sizi, ailənizi, övladlarınızı, nəvələrinizi öpürəm, cənab Prezident. Allah Sizə uzun ömür, cansağlığı versin. Ümummilli liderimiz Heydər Əliyevin irsini axıra qədər davam etdirəsiniz.

Hörmətli Prezident, gün o gün olsun ki, Siz Qələbə günü haqqında Sərəncam imzalayasınız, biz qurbanlarımızı kəsək.

Cənab Prezident, üzr istəyirəm, bəlkə çox danışıram. Kürdəmirdə xalça fabriki keçən əsrin 30-cu illərindən fəaliyyətə başlayıb. Bizim analarımız, nənələrimiz bu işi davam etdirdilər, biz də davam etdirmişik. 1989-cu ildə Kürdəmirdə xalça fabriki açılıb. Bütün qızları yığmışıq. Əvvəllər təkcə Kürdəmirin Şilyan kəndində var idi. Kürdəmir şəhərinin özündə xalça fabriki açılandan sonra Yenikənd, Köhnəbazar, Köhünlü, Şilyan kəndlərində sexlər yaratmışdıq. Ancaq o sexlərlə bu sexlər arasında yerlə göy qədər fərq var. Texniki avadanlıqlarımızda da, çeşnilərimizdə də, mallarımızın satılmağında da yeni sexlərin çox böyük rolu var. Mən toxucu qızlarla gəlib görüşəndə deyirəm, yadınızdadır o işlədiyiniz vəziyyət? Bizim indiki gözəl emalatxanamız bütün Avropa standartlarına uyğun qurulub. Allah Prezidentimizin də, Mehriban xanımın da canını sağ etsin. Siz biz qadınların sənətinə qiymət verir, bu sənəti yaşadırsınız. 2001-ci ildən sonra fabrik dayandı. Mən bir xalça mütəxəssisi kimi qadınların arasına çıxanda sual veriləndə ki, Yemən müəllimə, xalça fabriki niyə işləmir? Mən utanırdım cavab verməyə. İndi böyük qürur hissi duyuram.

Cənab Prezident, təkcə xalçaçıların yox, Kürdəmirin bütün ağbirçəkləri adından Sizə təşəkkürümü bildirirəm. Şəhərlə kənd arasında fərqi götürmüsünüz. Kəndlilər də qaz yandırır, kəndlilər də fasiləsiz elektrik enerjisi ilə, su ilə təmin olunub.

Cənab Prezident, 2017-ci ilin may ayında "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin ildönümü ilə əlaqədar Siz məni qabaqcıl xalça mütəxəssisi kimi "Tərəqqi" medalı ilə təltif etdiniz. Mən konfransda da dedim ki, bütün toxucular, bütün Kürdəmir toxucuları eşitsin. Bu medal tək mənə aid deyil, bu medal bütün toxuculara aiddir.

Bu gün şəhərimizdə "ASAN xidmət" mərkəzi açılıb. Bütün inzibati binalar tikilib. Hansı inzibati idarəyə, hansı təşkilata gediriksə, xoş üzlə qarşılanırıq, yaxşı yola salınırıq. Bunların hamısı Sizin sayənizdədir. Bunu heç kim unuda bilməz.

Cənab Prezident, biz şəhərə gəlmək üçün Şilyan kəndindən saat yarıma çıxa bilmirdik. İndi beş dəqiqəyə Şilyan kəndinin ən ucqar yerinə çata bilirik. Mən Sizi bütün ağbirçək analar adından öpürəm, Sizə təşəkkür edirəm, Sizə minnətdarlıq edirəm. Allah atanızı, ananızı cənnətlik etsin, ruhları şad olsun. Onların ruhları Sizə həmişə dayaq olsun. Mən bütün ağbirçək analar adından Sizi öpürəm, övladlarınızı öpürəm, Mehriban xanımı öpürəm. Çox sağ olun.

Prezident İlham Əliyev: Xoş sözlərə görə təşəkkür edirəm.

Yemən Abdurəhmanova: Çox sağ olun. Ürəkdən gələn sözlərdir, səmimi sözlərdir.

Prezident İlham Əliyev: Bilirəm. Tamamilə haqlısınız. Kürdəmir rayonunda son vaxtlar çox böyük dəyişikliklər oldu. Mən bu gün "ASAN xidmət" mərkəzinin açılışında dedim ki, Prezident kimi Kürdəmirə ilk dəfə 2005-ci ildə gəlmişdim. O vaxt işıqla bağlı problem var idi. Yollar demək olar ki, yox idi, qazlaşdırma yox idi, su da yox idi, iş yerləri də yox idi. Ona görə kompleks tədbirlərin görülməsi nəticəsində biz bütün bu məsələləri tədricən həll etdik. İlk növbədə, elektrik enerjisi ilə təminat, ondan sonra Kürdəmirin bütün kəndlərində qaz olmalıdır. Cəmi iki kənd hələ ki, qazlaşdırılmayıb. O da bu il və ya gələn il olacaq. Beləliklə, 100 faiz qazlaşdırma olacaq. Yolların da yarısı, 50 faizi təmirlidir. Qalan 50 faizini isə biz 2023-cü ilə qədər tam təmir edəcəyik. Kürdəmir şəhərində içməli su ilə bağlı problem 2013-cü ildə həll olunmuşdur. Kəndlərdə də

modul tipli sutəmizləyici qurğular quraşdırılıb, 40-dan çox yeni qurğu da quraşdırılacaq. İş yerlərinin yaradılması ilə bağlı belə gözəl fabrik açıldı. İndi gedib baxarsınız, "ASAN Həyat" kompleksi, "ASAN xidmət" mərkəzi necə gözəldir. Orada həm 320 növ xidmət göstəriləcək. Eyni zamanda, orada gözəl kafelər, ictimai yerlər, kinoteatr, uşaq əyləncə yerləri fəaliyyət göstərəcək. Yəni, ictimai bir mərkəz kimi formalaşıb. Bu mərkəzin məhz Kürdəmirdə yaradılması rayona xüsusi münasibətin təzahürüdür. Çünki bu mərkəz altı rayona xidmət göstərəcək.

Xalça fabriklərinin yaradılması xüsusi əhəmiyyət daşıyır. Çünki siz də qeyd etdiyiniz kimi, biz demək olar ki, bu sənəti bölgələrdə itirirdik. Bölgələrdə ancaq evlərdə köhnədən qalan dəzgahlar var idi. Toxucular fərdi qaydada işləyirdilər. Sifarişlər də demək olar ki, yox idi, xalçanı toxuyub sata bilmirdilər. Siz yaxşı bilirsiniz ki, xalçanı toxumaq üçün ləvazimat, vasitələr, maddi imkan lazımdır.

Yemən Abdurəhmanova: Hər şey var, şükür Allaha.

Prezident İlham Əliyev: İndi bunlar olmayanda necə toxusunlar? Sonra toxuyub hara satsınlar? Ona görə bizim xalçaçılıq sənətimiz demək olar ki, yalnız Bakı şəhərində qalmışdı. Ancaq bizim hər bir bölgəmizdə özünəməxsus xalçaçılıq məktəbi var. Ona görə ölkə üzrə 32 fabrikin yaradılmasının məqsədi bu idi ki, bölgələrdə bu sənət yaşasın, qadınlar cəlb olunsun, gözəl şərait yaradılsın, yaxşı pul qazansınlar, vətəndaşlara və dövlətə xeyir gətirsin. Biz buna da nail oluruq. Əminəm ki, burada toxunan bütün xalçalar ən yüksək qiymətə layiq olacaq və siz bu sənəti bu fabriklər vasitəsilə gənclərə ötürəcəksiniz. Mən görürəm, sizin aranızda gənc qızlar da var, onlar da təcrübə toplayacaq, sonra uşaqlar cəlb olunacaq. Beləliklə, qədim xalçaçılıq sənətimiz daim yaşayacaq. Sizi bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

Xalçaçılar: Çox sağ olun, Sizə minnətdarıq.

Sonra dövlətimizin başçısı müəssisədə toxunan xalçanı kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

## *Almaniya Federativ Respublikasına səfər*

Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 56-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasına səfəri başlayıb.

Bu gün Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms və assosiasiyanın Cənubi Qafqaz ölkələri üzrə işçi qrupunun rəhbəri, "Veridos GmbH" şirkətinin baş icraçı katibi Andreas Reşmayer ilə görüşüb.

Prezident İlham Əliyev: - Sabahınız xeyir.

Mixael Harms: Cənab Prezident, Sizinlə burada - Münxen Təhlükəsizlik Konfransında görüşmək bizim üçün böyük şərəfdir. Mən son beş-altı ildə konfransda iştirak etmişəm və hər dəfə Sizin çıxışlarınız, baxışlarınız mənə çox müsbət təsir bağışlayıb.

Prezident İlham Əliyev: Təşəkkür edirəm.

Mixael Harms: Yəni, ikitərəfli münasibətlərlə yanaşı, region və beynəlxalq düzənlə bağlı baxışlarınızı nəzərdə tuturam. Bizim assosiasiyanın nümayəndələri ilə görüşməyinizi çox yüksək qiymətləndiririk. Cənab Reşmayer bizim assosiasiyada Cənubi Qafqaz üzrə sözçüdür, mən baş icraçı direktoram.

Prezident İlham Əliyev: Xoş sözlərinizə görə çox sağ olun. Mənim üçün də konfransda iştirak etmək mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə mən Münxenə neçə ildir ki, səfər edirəm. Bu, auditoriya qarşısında çıxış etmək üçün hər zaman yaxşı fürsətdir. Çünki dünyada, regionumuzda vəziyyət dəyişir. Biz indi Azərbaycanda yeni inkişaf mərhələsinə qədəm qoyuruq. Buna görə də bu mühüm məsələlərin müzakirəsi çox önəmlidir. Xüsusilə səfərimin ikitərəfli formatı da çox əhəmiyyətlidir. Çoxsaylı görüşlər var. Xatırlayıram ki, əksər hallarda bəzi ilkin fikir mübadilələri bir sıra çox nəzərəçarpan nəticələrə gətirib çıxarıb. Buradakı təmaslar nəticəsində çoxlu sayda ticarət müqavilələri imzalanıb. Həmçinin zəruri olan regional təhlükəsizlik, regional əməkdaşlıq, enerji siyasəti dünya üçün daha çox əhəmiyyət kəsb edir. Mən də sizi görməyə çox şadam. Çünki bildiyiniz kimi, bizim alman şirkətləri ilə çox dərin əməkdaşlığımız var. Onlar uzun illərdir Azərbaycanda fəaliyyət göstərir və ölkəmiz üçün çox mühüm olan müxtəlif infrastruktur, enerji istehsalı və tikinti ilə bağlı layihələr həyata keçiriblər. Düşünürəm ki, qarşıdakı illərdə daha çox imkanlar olacaq, çünki daha böyük potensiala malik Azərbaycanın imkanları artır.

Mixael Harms: Biz bilirik ki, Siz iqtisadiyyatın şaxələndirilməsi strategiyasını təqdim etmisiniz. Mən Azərbaycanın gücünü nəzərdə tuturam və biz bunu ikitərəfli ticarətdə, əsasən də neft və qaz sahəsində müşahidə edirik. Bu, çox böyük əhəmiyyət kəsb edir. Düşünürəm ki, bu, Sizin ölkənizin rəqabətliliyini təmin edən üstünlükdür, eləcə də infrastruktur sahəsində gördüyünüz işlər. Məsələn, mən Bakı limanına baş çəkdim, bu, çox dərin təəssürat yaradan layihədir. Bir neçə həftə əvvəl "Yaşıl həftə" sərgisində sizin Kənd Təsərrüfatı nazirinizlə görüş keçirdik. Bu da böyük maraq kəsb edir. Rəqəmsallaşma "Giesecke+Devrient" şirkətinin fəaliyyətinin əsas sahəsidir. Siz də "Bir kəmər, bir yol" təşəbbüsünə qoşulmusunuz və İpək Yolunun qovşağındasınız.

Prezident İlham Əliyev: Bəli, doğrudur.

Görüşdə Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı və şaxələndirilməsi istiqamətində görülən işlər barədə məlumat verildi. İqtisadiyyatın rəqəmsallaşdırılmasının və Davos Forumu ilə Azərbaycan arasında əldə edilmiş razılaşmaya əsasən Dördüncü Sənaye İnqilabı üzrə Bakıda regional mərkəzin yaradılmasının əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı Azərbaycanın 2020-2024-cü illəri əhatə edən regionların inkişafı planından, ölkəmizdə sənayenin inkişafı istiqamətində görülən işlərdən bəhs edildi, bu prosesdə alman şirkətlərinin daha da fəal iştirak etməsinin əhəmiyyəti vurğulandı.

Həmçinin ölkəmizdə xarici investorlar üçün cəlbedici sərmayə mühitinin olduğu diqqətə çatdırıldı. Eyni zamanda, Azərbaycanın Şimal-Qərb, Şimal-Cənub və Şərq-Qərb istiqamətləri üzrə nəqliyyat dəhlizlərindəki əsas rolundan bəhs olundu, Azərbaycanın öz coğrafi yerləşmə potensialını fürsətlərə çevirdiyi bildirildi.

Görüşdə Azərbaycan və Almaniya biznes dairələrini bir araya gətirən biznes forumların keçirilməsinin vacibliyi vurğulandı. Azərbaycanda peşə təhsili sahəsində Almaniya ilə birlikdə əməkdaşlığın önəmi qeyd olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Vladimir Norov ilə görüşüb.

Baş katibi salamlayan Prezident İlham Əliyev dedi:

-Sabahınız xeyir, xoş gördük.

Baş katib Vladimir Norov: Sabahınız xeyir. Qrafikinizin sıxlığına baxmayaraq, görüşmək üçün imkan tapdığınıza görə bir daha Sizə minnətdarlığımı bildirmək istərdim.

Prezident İlham Əliyev: Sizi görməyə şadam. Mənə görüş haqqında dedilər. Görüşməyə həmişə şadıq, üstəlik, artıq Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatında dialoq üzrə tərəfdaş statusuna malikdir. Təşkilata dialoq üzrə tərəfdaş qismində qoşulmağımız da əməkdaşlığa verdiyimiz əhəmiyyəti təsdiqləyir. Şanxay Əməkdaşlıq Təşkilatının bütün üzv ölkələri ilə yaxşı, yaxın, mehriban qonşuluq münasibətlərimiz var. Biz birlikdə ikitərəfli, bəzən üçtərəfli formatda nəqliyyat, energetika, infrastrukturla bağlı çoxlu mühüm layihələri reallaşdırırıq.

Baş katib Vladimir Norov: İlham Heydər oğlu, deyə bilərəm ki, bu gün Azərbaycan müşahidəçi ölkələr üçün nümunə olaraq dialoq üzrə ən fəal tərəfdaşlardan biridir. Qeyd edim ki, aprelin 21-də Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin inkişafı məsələləri üzrə konfransının keçirilməsi ilə bağlı Sizin təşəbbüsünüz, Azərbaycanın təşəbbüsü çox vaxtında atılmış mühüm addımdır. Üzv ölkələrin əksəriyyəti artıq bu təşəbbüsü dəstəkləyir. Düşünürəm ki, bu konfrans nəqliyyat sahəsində müvafiq qurumlar arasında sıx əlaqələrin qurulması və əməkdaşlıq məsələlərinin müzakirəsi üçün vacib meydança olacaq.

Görüşdə Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatındakı fəal tərəfdaşlıq üzrə dialoq statusunda rolu xüsusi qeyd olundu. Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlıq çərçivəsində bu il nəqliyyat məsələlərinə həsr olunacaq konfransın keçiriləcəyi bildirildi.

Söhbət zamanı Azərbaycanda keçirilən seçkilərdə müşahidəçi qismində iştirak etmək üçün Şanxay Əməkdaşlıq Təşkilatına göndərilən dəvət yüksək qiymətləndirildi və təşkilatın da geniş tərkibli nümayəndə heyəti ilə bu seçkilərdə iştirak etdiyi, seçkilərin azad, ədalətli, demokratik şəkildə keçirildiyi diqqətə çatdırıldı. Həmçinin Azərbaycanda əhatəli islahatların həyata keçirildiyi qeyd edildi.

Görüşdə Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığa mühüm əhəmiyyət verdiyi, təşkilatın bütün üzv ölkələri ilə yaxşı münasibətlərə malik olduğu vurğulandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Küveyt Dövlətinin Baş Naziri Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah ilə görüşüb.

Görüşdə Azərbaycanın Qoşulmama Hərəkatındakı sədrliyi yüksək qiymətləndirildi və bu çərçivədə ölkələrimiz arasında əməkdaşlıq üçün geniş imkanların olduğu bildirildi.

Söhbət zamanı Azərbaycan ilə Küveyt arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinin və hökumətlərarası komissiyanın daha da fəallaşdırılmasının vacibliyi qeyd edildi.

Görüşdə ölkələrimiz arasında turizm sahəsində əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu. Küveytdən Azərbaycana gələn turistlərin sayında əsaslı artımın müşahidə olunduğu vurğulandı, tezliklə Küveyt Hava Yollarının Azərbaycana uçuşlar həyata keçirəcəyi diqqətə çatdırıldı.

Söhbət zamanı, həmçinin ölkələrimizin OPEC+ çərçivəsində səmərəli əməkdaşlıq etdikləri bildirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masada iştirak edib.

Dövlətimizin başçısı dəyirmi masada çıxış edib.

Prezident İlham Əliyevin çıxışı

-Ötən il ölkəmiz və düşünürəm ki, Avropanın enerji təhlükəsizliyi üçün əlamətdar olub. Çünki biz tərəfdaşlarımızla birlikdə artıq Türkiyə-Yunanıstan sərhədinə çatan, əsas qaz kəməri olan TANAP-ı uğurla başa çatdırdıq. Bu, o deməkdir ki, Cənub Qaz Dəhlizinin dörd seqmentindən üçü artıq uğurla tamamlanıb. Sonuncu seqmentə gəlincə, TAP layihəsi bu ilin sonunda tamamlanacaq. Beləliklə, 3,5 min kilometr uzunluğunda inteqrasiya olunmuş kəmər sistemi artıq istismara veriləcək. Bu, regionumuzda əsas infrastruktur layihələ-

rindən biridir. Bu, əlbəttə ki, bizim üçün, tərəfdaşlarımız üçün, Avropanın enerji təhlükəsizliyi üçün çox vacibdir.

Bu ayın sonunda biz görülən işləri nəzərdən keçirmək və növbəti dövr üçün görüləcək işləri planlaşdırmaq məqsədilə hər il Bakıda keçirdiyimiz ənənəvi Cənub Qaz Dəhlizi Məşvərət Şurasına ev sahibliyi edəcəyik. Ümidvaram ki, iştirakçıların sayı çox olacaq. Bu gün biz gələcək layihələrimizlə bağlı yeni ölkələrlə işləyirik. Çünki Cənub Qaz Dəhlizi yeddi ölkəni - Azərbaycan, Türkiyə, Gürcüstan, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliyanı birləşdirir. Üç Balkan ölkəsi isə - Bosniya və Herseqovina, Monteneqro və Xorvatiya - bu üç ölkənin ərazisindən keçən, xüsusilə İonik-Adriatik kəmərinin tikintisini nəzərdə tutan ikinci fazada layihəyə qoşulmaqla bağlı artıq bizimlə Anlaşma Memorandumu imzalayıblar. Texniki nöqteyi-nəzərdən bu, mümkündür, qaz ehtiyatları baxımından da. Biz hasilatı artırmışıq və əlbəttə ki, Avropa Komissiyası tərəfindən daha yüksək dəstəyə ehtiyac olacaq. Çünki əgər bu layihə də Avropa İttifaqının ümumi maraqlarına uyğun layihələr siyahısına daxil edilsə, onun həyata keçirilməsi daha sürətli olacaq. Bizimlə Cənub Qaz Dəhlizi üzərində işləyən bəzi ölkələrin tarixdə ilk dəfə alternativ təchizat mənbələrinə malik olmaq imkanı olacaq. Alternativ mənbə təkcə marşrut deyil. Çünki təhlükəsizlikdən danışanda biz mənbədən danışmalıyıq. Bizim timsalımızda Azərbaycan qazının Avropa bazarına, Türkiyə bazarına nəqli yeni mənbə və yeni marşrutdur. Düşünürəm ki, bu, bizim layihəmizin üstünlüyüdür və buna görə də Avropa İttifaqı ona güclü dəstək verir. Bu səbəbdən də yekun tamamlanma işlərinin bu ilin sonunadək olacağına baxmayaraq, biz Cənub Qaz Dəhlizini artıq tamamlanmış layihə hesab edə bilərik.

Bu arada, Azərbaycan çox sabit neft təchizatçısı olaraq qalır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan kəmərinin açılışından bəri heç bir fasilə, fors-major və ya problem baş verməyib. Geosiyasi və texniki nöqteyi-nəzərdən onu da həyata keçirmək çox çətin idi, çünki ilk dəfə olaraq o, Xəzər və Aralıq dənizlərini birləşdirirdi.

Bəzi ölkələr üçün, o cümlədən Avropa ölkələri üçün Azərbaycan nefti onların istehlakının təxminən 40 faizini təşkil edir. Ona görə də biz neft təchizatçısı kimi etibarlı tərəfdaş olmağa davam edəcəyik. Bu yaxınlarda biz BP şirkəti ilə müqaviləni uzatmışıq. 2050-ci ilədək bizim nisbətən sabit istehsal profilimiz olacaq. Ona görə də yeni layihələrin kəşfiyyat işləri aparılır. Hazırda biz, belə demək mümkündürsə, neft bumunun ikinci fazasını yaşayırıq, bir çox şirkətlər, böyük şirkətlər geri qayıdaraq yeni layihələrə cəlb olunur və bu da bizə istehsal profilini saxlamaqla yanaşı, həm də onu artırmaq imkanını verəcək.

Biz "OPEC+"un fəal üzvüyük. Onların görüşlərindən biri bizim dəvətimizlə Bakıda keçirilib. Həmçinin 2016-cı ildə Davosda "Neftin qiyməti ilə bağlı nə etmək olar" sualı veriləndə mən dedim, yaxşı olar ki, əsas qeyri-OPEC ölkələri və OPEC ölkələri bir araya gələrək razılaşsınlar. Mən şadam ki, bu, baş verdi. Düşünürəm ki, bu, davam etməlidir. Xüsusilə indi bu koronavirus vəziyyəti ilə bağlı, - cənab Birol çox maraqlı məlumat verdi, - neft istehsal edən ölkələrdə bütün çətinliklərə baxmayaraq, neftin qiymətinin nəyə görə aşağı olması və bundan da aşağı səviyyəyə düşə bilməsini nəzərə alaraq düşünürəm ki, "OPEC+" əməkdaşlığının davam etdirilməsi çox vacibdir. Çünki bu gün bizdə vəziyyət elədir ki, OPEC və qeyri-OPEC ölkələri bir təşkilatda fəaliyyət göstərir. Bizim bundan başqa belə təşkilatımız və əməkdaşlığımız yoxdur. Bəzən bir təşkilat daxilində razılığa gələ bilmirlər. Bizdə isə bu nadir format var və biz bunu əldən buraxmamalıyıq.

Son olaraq bərpaolunan enerji ilə bağlı. Azərbaycanda da buna böyük diqqət yetirilir. Bizim planımız 2030-cu ilə qədər elektrik enerjisinin 30 faizini bərpaolunan enerji hesabına ödəməkdir. Bu ilin yanvarında biz külək və günəş enerjisi ilə işləyən 440 meqavatlıq stansiyaların tikintisi ilə bağlı bərpaolunan enerji üzrə ixtisaslaşmış aparıcı şirkətlərlə iki müqavilə imzalamışıq. Bu işlər tamamilə xarici investisiyalar hesabına görüləcək və bizim bununla bağlı azı əlavə 5 təklifimiz var. Bizim ölkə neft, qaz, günəş, küləklə zəngindir. Külək enerjisi stansiyalarından bir neçəsi Xəzər dənizində qurula bilər. Bunun üçün böyük imkan var. Lakin mən tamamilə əminəm ki, biz bunu ehtiyatla etməliyik. Çünki bu 440 meqavatlıq enerji stansiyası bizim sistemimizə dərindən inteqrasiya olunmalıdır ki, küləkli və günəşli hava olmayanda elektrik enerjisinin təchizatında heç bir fasilə yaranmasın və elektrik təchizatı kəsilməsin. Bu məsələni diqqətə çatdırmaq üçün yaratdığınız imkana görə təşəkkür edirəm.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Peter Maurer ilə görüşüb.

Görüşdə dövlətimizin başçısı Ermənistan tərəfindən girovluqda saxlanılan azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad olunmasının, bu istiqamətdə səylərin artırılmasının vacibliyini qeyd etdi. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kontekstində humanitar əsaslarda "hamının hamıya" prinsipi ilə bütün əsir və girovların dəyişdirilməsinin vacibliyini vurğuladı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol ilə görüşüb.

Görüşdə Fatih Birol Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən "Enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masadakı çıxışını çox yüksək qiymətləndirdi. İcraçı direktor qeyd etdi ki, Azərbaycan dünya enerji bazarında çox etibarlı tərəfdaş kimi tanınır, bu da bilavasitə Prezident İlham Əliyevin yürütdüyü siyasətin nəticəsidir.

Görüşdə "OPEC+" formatında Azərbaycanın təşəbbüsləri yüksək qiymətləndirildi. Son dövrlərdə Azərbaycanın alternativ enerji resurslarının inkişafı istiqamətində atdığı addımların önəmi vurğulandı, eyni zamanda, dünya enerji bazarındakı mövcud vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 14-də Münxendə "Leonardo" şirkətinin baş icraçı direktoru Alessandro Profumo ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə İtaliya arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Qeyd olundu ki, ölkələrimiz siyasi, iqtisadi-ticari və digər sahələrdə yaxşı əməkdaşlıq edirlər, hökumətlərarası komissiya səmərəli fəaliyyət göstərir.

Görüşdə vurğulandı ki, İtaliya şirkətləri Azərbaycanda icra olunan layihələrin həyata keçirilməsində yaxından iştirak edirlər.

Söhbət zamanı əməkdaşlığın perspektivləri barədə ətraflı fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşüb.

Qazaxıstan Prezidentini salamlayan Prezident İlham Əliyev dedi:

-Kasım-Jomart Kemeleviç, Sizinlə yenidən görüşməyimə çox şadam. Burada görüşmək, münasibətlərimizin gündəliyini bir daha nəzərdən keçirmək üçün yaxşı imkandır. Hər şey çox uğurla gedir. Bizim birgə layihələrimiz çoxdur, onlar fəal həyata keçirilir. Buna görə də ümidvarıq ki, 2020-ci il də ölkələrimiz arasında münasibətlər üçün uğurlu olacaq. Biz əmtəə dövriyyəsini artırmağa çox ümid bəsləyirik. Düşünürəm ki, nəqliyyat, energetika, turizm sahələrində yaxşı imkanlar var. Ölkələrimizin vətəndaşları arasında fəal gediş-gəliş var. Bu, ölkələrimizdə turizmin inkişafı üçün çox yaxşı perspektivlər də yaradır.

Əlbəttə, bizim tərəfimizdən ratifikasiya edilmiş Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üzrə Konvensiyanın imzalanması son dövrün ən vacib hadisəsi olub. İnanıram ki, Xəzərdə gələcək əməkdaşlığımız bütün Xəzəryanı ölkələrə daha çox dividend gətirəcək.

Kommunikasiya sahəsində fəal qarşılıqlı fəaliyyəti də qeyd etmək istərdim. Ötən il Xəzərin dibi ilə kabelin çəkilməsinə başlanılıb. Bu, ölkələrimizi daha sıx birləşdirəcək bir layihədir. Yəni, biz ikitərəfli münasibətlərin davamlı inkişafı yolu ilə gedirik. Əminəm ki, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri gələcəkdə də möhkəmlənəcək.

Prezident Kasım-Jomart Tokayev dedi:

-Hörmətli İlham Heydər oğlu. Sizi burada, Münxendə görməyimə şadam. Elə bu yaxınlarda biz Soçidə görüşmüşük. Bizim çox yaxşı görüşümüz oldu. Sonra biz Aşqabadda MDB Sammitində görüşdük. Dövlətlərimiz arasında münasibətlərə gəldikdə isə həqiqətən də çox böyük yol qət edilib. Əslində elə sıfırdan başladıq və indi, demək olar, bütün sahələrdə qarşılıqlı münasibətlərin çox yüksək səviyyəsinə nail olmuşuq. Bu əməkdaşlığın əsasını bizim böyük sələflərimiz Nursultan Abişeviç Nazarbayev və Heydər Əlirza oğlu Əliyev qoyublar. Mən özüm Xarici İşlər naziri olanda müəyyən mənada bu əməkdaşlığın qurulmasında iştirak etmişəm. Fəxr ediləsi uğurlarımız var. Şəksiz ki, Qazaxıstan Azərbaycanla əməkdaşlığı qiymətləndirir və onu qoruyur. Siz düzgün qeyd etdiniz ki, bizdə istər nəqliyyat, istər kommunikasiyalar, istərsə də ticarət olsun, strateji xarakter daşıyan sahələr var. Biz, mahiyyətcə, Xəzər dənizi vasitəsilə qonşu dövlətlərik. Xəzər dənizinin statusu haqqında müvafiq Konvensiya da Aktau şəhərində imzalanıb. Bu, Xəzərdə irimiqyaslı əməkdaşlığın təməlini qoyur və əlbəttə, bu əməkdaşlıq, mahiyyət etibarilə, strateji əməkdaşlıqdır. Biz fürsətdən istifadə edərək, indicə səfərlərin qrafikinə, o cümlədən istər Sizin Qazaxıstana səfərlərinizin, istərsə də bizim birinci Prezidentimizin Bakıya səfərlərinin qrafikinə baxdıq. Sizin üçün hər hansı münasib vaxtda Sizi ölkəmizə səfərə dəvət etməyi vacib sayıram. Bizim həqiqətən də müzakirə olunası və həll ediləsi bir çox məsələlərimiz var. Çünki həyat yerində saymır, qarşılıqlı münasibətlərimizin yüksək səviyyədə olmasına baxmayaraq, yeni hüdudlar yaranır ki, onları da biz birgə səylərimizlə aşmalıyıq.

Prezident İlham Əliyev: Çox sağ olun.

Söhbət zamanı Qazaxıstan Prezidenti dövlətimizin başçısını ölkəmizdə parlament seçkilərinin uğurla keçirilməsi və Yeni Azərbaycan Partiyasının qələbəsi münasibətilə təbrik etdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Moldova Respublikasının Prezidenti İqor Dodon ilə görüşüb.

Moldova Prezidentini salamlayan Prezident İlham Əliyev dedi:

-İqor Nikolayeviç, Sizi bir daha görməyimə şadam. Biz beynəlxalq tədbirlərdə müntəzəm görüşürük və bir daha görüşmək, gündəliyə nəzər salmaq, əməkdaşlığın inkişafının gələcək yollarını müəyyən etmək üçün hər hansı platformadan istifadə etmək ənənəsini davam etdiririk. İl yeni başlayıb. Ona görə də düşünürəm ki, bu il bizim münasibətlərimiz üçün məhsuldar olmalıdır. Nəzərdə tutduqlarımız prinsipcə yerinə yetirilir. Mövcud əlaqələr münasibətlərimizin fəal inkişaf etdiyini göstərir. Biz Sizinlə münasibətləri konkret iqtisadi amillərlə zənginləşdirmək haqqında fikir mübadiləsi aparmışıq. Düşünürəm ki, bu il daha fəal iqtisadi əməkdaşlıq olacaq. Əlbəttə, bizim əlaqələrimiz davam etdiriləcək. Ona görə də düşünürəm ki, bu il də münasibətlərimiz üçün müsbət olacaq. Bizim münasibətlərimiz dostluq münasibətləridir. Biz həmişə bir-birimizi dəstəkləməyə çalışırıq. Əlbəttə, ölkəmizə

Sizin səfərinizi xatırlayıram. Bu cür fəal siyasi dialoqun davam etməsi üçün Sizi bu il planlaşdırılan beynəlxalq tədbirlərdə yenidən səbirsizliklə gözləyirik.

Prezident İqor Dodon dedi:

-Hörmətli cənab Prezident, əvvəla Sizinlə Münxendə mühüm beynəlxalq tədbirdə görüşməyimə çox şadam. Bizim ikitərəfli münasibətlərimizin çox yaxşı dinamikasını qeyd etmək istəyirəm. İmzaladığımız sazişlər faktiki olaraq əlaqələrimizin bütün spektrini əhatə edir. Sizi parlament seçkilərinin keçirilməsi, partiyanızın əldə etdiyi nəticələr münasibətilə təbrik edirəm. Bilirəm, seçkiləri bizim də müşahidəçilərimiz, həmçinin Prezident tərəfdarı olan Sosialistlər Partiyasının nümayəndələri də izləyiblər. Onlar təşkilati işlərin çox yaxşı səviyyəsini qeyd ediblər, demokratik seçkilər keçirilib. Sizi bu münasibətlə təbrik edirik.

Bu il bizim ikitərəfli münasibətlərimiz üçün çox vacib ildir. Biz hələ 2017-ci ildə Sizinlə Moldovada, Qaqauzda bir sosial layihəyə başladıq. Sizi bir daha rəsmi olaraq Moldova Respublikasına dəvət etmək istəyirəm. Bu il biz artıq onun açılışını etməliyik. Ümidvaram ki, bu il Sizin rəsmi səfəriniz olacaq. Biz bir neçə mühüm tədbir keçirəcəyik. Hökumətlərarası Komissiyanın iclasını keçirmək lazımdır. Bilirsiniz, indi Moldovada mənim keçmiş müşavirim cənab Kiku İon Vasilyeviçin başçılıq etdiyi yeni hökumət fəaliyyət göstərir. Biz artıq öz tərəfimizdən Hökumətlərarası Komissiyanın yeni heyətini təsdiq etmişik. Ümidvaram ki, yaxın vaxtlarda həmsədrlərin Hökumətlərarası Komissiyanın iclasına hazırlıq üçün görüşü olacaq. O, bizdə də, Sizdə də keçirilə bilər. Bu, bizim Sizinlə razılaşmamızdan asılıdır. Lakin çox ümidvarıq ki, yaxın aylarda Siz rəsmi səfərlə bizim ölkəmizə gələcəksiniz.

Prezident İlham Əliyev: Dəvətə görə sağ olun. Gözəl Moldovaya səfər etmək imkanından məmnuniyyətlə istifadə edəcəyəm. Mənim çox yaxşı xatirələrim var.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşüb.

Görüşdə Bakının mötəbər tədbirlərin keçirildiyi məkan olduğu bildirildi. Ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğu qeyd edildi. Artıq Əfqanıstan yüklərinin Lapis-Lazuli marşrutu ilə Azərbaycan ərazisindən daşınıldığı qeyd edildi, gələcəkdə bu istiqamətdə səylərin daha da artırılmasının vacibliyi vurğulandı.

Həmçinin görüşdə Azərbaycan-Əfqanıstan iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün hər iki ölkənin müvafiq qurumları arasında əlaqələrin daha da möhkəmləndirilməsinin vacibliyi vurğulandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 14-də Münxendə Avropa İttifaqının büdcə və administrasiya məsələləri üzrə komissarı Yohannes Han ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında gündəlikdə duran cari məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində uğurlu əməkdaşlıq etdiyi vurğulandı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Münxendə Beynəlxalq Böhran Qrupunun prezidenti və baş icraçı direktoru Robert Malley ilə görüşüb.

Görüşdə dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı ölkəmizin mövqeyini bir daha qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, münaqişə yalnız beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Söhbət zamanı Beynəlxalq Böhran Qrupu tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müxtəlif hesabatların hazırlandığı qeyd olundu. Hazırlanmış son hesabatlarda Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni fəaliyyətlər, eyni zamanda, Ermənistanın apardığı qeyri-qanuni məskunlaşma siyasəti ilə əlaqədar məsələlərin əks olunmasının vacibliyi vurğulandı.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 15-də Münxendə Dünya Bankının icraçı direktoru Aksel van Trotsenburq ilə görüşü olub.

Dünya Bankının icraçı direktorunu salamlayan Prezident İlham Əliyev dedi:

-Bu görüş gələcək əməkdaşlığımız haqqında danışmaq üçün yaxşı fürsətdir. İndiyədək tərəfdaşlığımız çox uğurlu olmuşdur. Uzun illərdir ki, bizə göstərdiyiniz dəstəyə görə sizə minnətdarıq. Bildiyiniz kimi, iqtisadiyyatımız indi transformasiya dövrünü yaşayır və əsas prioritet iqtisadiyyatın şaxələndirilməsidir. Buna görə də biz indi sizinlə çox önəmli özünüməşğulluq layihəsi üzərində və digər layihələr üzərində işləyirik. Ümidvarıq ki, bu məhsuldar əməkdaşlıq gələcəkdə də uğurla davam edəcək.

İcraçı direktor Aksel van Trotsenburq:

-Çox sağ olun, cənab Prezident. Əvvəlcə, Azərbaycanın Beynəlxalq İnkişaf Assosiasiyasının donor ölkəsi olduğu üçün Sizə təşəkkürümü bildirmək istəyirəm. Siz də bildiyiniz kimi, əvvəllər Azərbaycan bizim güzəştli maliyyələşmə pəncərəsindən faydalanmışdır. Hesab edirəm ki, bir ölkənin burada aparıcı rol oynaması, sonra isə yoxsul ölkələrlə həmrəy olan ölkələr klubuna qoşulması bir uğur hekayəsidir. Sizin 5

milyon dollar məbləğində töhfəniz çox yüksək qiymətləndirilmişdir. Çünki hesab edirəm ki, bununla biz sonda bəzi ölkələrin hələ də uzun yol qət etmək məcburiyyətində olduqlarına işarə etməsini unutmamalıyıq. Lakin ölkənizin timsalında siz artıq bu fazanı geridə qoymusunuz və ölkəniz yeni çağırışlarla üz-üzədir. Biz çox məmnunuq ki, Sizinlə bu məsələlər üzərində işləmək imkanına malikik. Hesab edirik ki, gələcək əməkdaşlıq üçün xüsusilə Mərkəzi Asiya önəmli bir bölgədir.

Prezident İlham Əliyev: Çox sağ olun. Hesab edirəm ki, müstəqilliyin ilk illərində Dünya Bankından və başqa beynəlxalq maliyyə təşkilatlarından çoxlu maliyyə dəstəyi əldə etmiş Azərbaycanın indi donor ölkəyə çevrilməsi çox rəmzi xarakter daşıyır. Hesab edirik ki, bu, indi bizim öhdəliyimizdir, çünki biz də hazırda dəstəyə ehtiyacı olanların vəziyyətində olmuşuq. Biz pul, resurs olmadıqda, təqribən 50 faiz ətrafında yoxsulluq olduqda bunun nə qədər çətin olduğunu bilirik. Buna görə də həyata keçirdiyimiz islahatların əsas hədəfi iqtisadi inkişaf vasitəsilə əhalinin sosial rifah halını artırmaqdan ibarətdir. İndi isə əhalimiz arasında yoxsulluq həddində yaşayanların sayının 5 faizdən aşağı olması, düşünürəm ki, bəzi digər ölkələr üçün də yaxşı nümunədir. Bu, onu göstərir ki, yoxsulluq bununla barışaraq ömürlük yaşayacağınız bir şey deyil. Əgər siz xarici investisiyalar üçün açıqsınızsa, əgər siz maliyyə institutları ilə konstruktiv şəkildə işləyirsinizsə, əgər sizin inkişafa dair aydın baxışınız varsa bir gün siz bunun öhdəsindən gələcək və donor ölkəyə, iqtisadi və sosial vəziyyəti sabit olan bir ölkəyə çevriləcəksiniz. Buna görə bir daha sizə davamlı dəstəyinizə, nəinki Azərbaycan, eyni zamanda, Avropanın enerji təhlükəsizliyi üçün önəmli olan “Cənub Qaz Dəhlizi” layihəsinin icrasına göstərdiyiniz dəstəyə görə minnətdarlığımı ifadə etmək istəyirəm. Biz ümidvarıq ki, gələcəkdə bir çox digər sahələrdə məhsuldar əməkdaşlığımız davam edəcək.

Söhbət zamanı qeyd olundu ki, Azərbaycan yoxsulluğun əsaslı şəkildə azaldılmasına görə dünyada aparıcı ölkələrdən biridir.

Fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilib.

Tədbirdə birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva da iştirak ediblər.

Moderator: Sessiyaya, Dağlıq Qarabağla bağlı müzakirələrə xoş gəlmisiniz. Mənim adım Selest Volenderdir. Bu paneldə moderator olmaq şərəfi mənə nəsib olub. Auditoriyaya da mənə vəzifələrimlə bağlı kömək etdiyi üçün təşəkkür edirəm. Mən hörmətli qonaqlarımızı Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün hər iki tərəfin gördüyü çağırışlar və imkanlarla bağlı öz ilkin fikirlərini söyləmək üçün dəvət etmək istərdim. Daha sonra suallar və növbəti müzakirələr üçün vaxtımız olacaq. Bugünkü qonaqlarımız Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyandır. Hər iki lider Münxen Təhlükəsizlik Konfransının hər zaman diqqətdə saxladığı və irəliləməsi üçün çalışdığı bir mövzu, beynəlxalq sistemdəki mübahisələrin sülh yolu ilə həllinə dair məsələlərdən danışacaqlar. Mən sədr İşingerə bu məsələni gündəmdə və Münxen Təhlükəsizlik Konfransının diqqətində qalmasını təmin etdiyi üçün minnətdarlığımı bildirirəm. Bununla mən Prezident İlham Əliyevə müraciət edərək onu çağırışlar və imkanlarla bağlı fikirlərini bölüşməsini dəvət edirəm.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. İlk növbədə, cənab İşingerə bu tədbiri təşkil etdiyinə görə minnətdarlığımı bildirmək istərdim. Mən elə indicə cənab İşingerə dedim ki, bir neçə il əvvəl Davosda Ermənistan və Azərbaycan rəhbərliyi tərəfindən mesajlar ötürülməsi üçün imkan var idi. Cənab Paşinyanın sələfi də iştirak etməli idi, lakin son anda o, iştirakını təxirə saldı. Beləliklə, mən şadam ki, nəhayət, həmin an gəldi və biz mesajları çatdıra biləcəyik. Düşünürəm ki, bu gün yetərli suallara cavab verə biləcəyik, ilk növbədə, münaqişənin həlli ilə bağlı. Münaqişənin necə həll edilməsi haqqında danışmaq üçün hər şeydən öncə biz geriyə qayıtmalı və məsələnin tarixinə baxmalıyıq. Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Bu, tarixi həqiqətdir və beynəlxalq hüququn normalarına əsaslanır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Dağlıq Qarabağ bizim ölkənin ayrılmaz tərkib hissəsidir. Tarixi nöqteyi-nəzərdən, 1805-ci ildə Qarabağ xanı İbrahim xan Rusiya imperiyasının generalı Sisianovla saziş imzalayır. Bu sazişə əsasən, Azərbaycanın Qarabağ xanlığı müstəqil ölkə kimi Rusiya imperiyasının tabeçiliyinə keçir. Kürəkçay adlandırılan həmin sazişdə, - sazişin mətni internetdədir, - Qarabağın erməni əhalisi barədə heç nə deyilmir. 1813-cü və 1828-ci illərdə imzalanmış digər müqavilələr - Gülüstan və Türkmənçay müqavilələrinə əsasən Azərbaycanın qalan hissələri Rusiya imperiyasının tərkibinə keçir. Dağıstan, Gürcüstan və Ermənistan da həmçinin. Beləliklə, bu, məsələnin tarixi tərəfidir. Daha sonra Rusiya imperiyasının süquta uğradığı, Gürcüstan və Azərbaycan Demokratik respublikaları yaradıldığı zamanlarda Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə verdiyi ilk fərmanlardan biri Yerevanın Azərbaycandan Ermənistana verilməsi və onun Ermənistanın paytaxtı elan edilməsi ilə bağlı idi. Bu da, həmçinin tarixi faktdır. Əgər siz kiməsə nəsə verirsinizsə, bu, o deməkdir ki, həmin o nə isə sizə məxsus olub. 1921-ci ildə Bolşevik partiyasının Qafqaz Bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması barədə qərar qəbul etdi. Saxlanılması barədə qərar, bəzi erməni tarixçilərinin yazdığı kimi

verilməsi barədə yox. Bu da, həmçinin tarixi faktdır. Digər tarixi fakt ondan ibarətdir ki, 1923-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması barədə fərman qəbul etdi. Beləliklə, bu, tarixdir. Sonralar, 1980-ci illərin sonunda Ermənistan Azərbaycana qarşı təcavüzə başladı, 300 min azərbaycanlı Ermənistan ərazisindən deportasiya olundu. Sonra Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində 1990-cı illərin əvvəlində bizim ərazilərimizin təxminən 20 faizi işğal altına düşdü və 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi. Xalqımız etnik təmizləməyə məruz qalıb. 1992-ci ildə Ermənistanın əvvəlki rejimi müharibə cinayəti - Xocalı soyqırımını törətdi. Nəticədə aralarında 106 qadın, 63 uşaq olmaqla, 613 günahsız mülki şəxs vəhşicəsinə öldürüldü. Xocalı soyqırımını 10-dan artıq ölkə tanıyır.

Beynəlxalq hüquq məsələsinə gəlincə, yenə deməliyəm ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələrin tələbləri hələ də yerinə yetirilməyib. Ona görə də sülh danışıqları nəticəsində əldə ediləcək istənilən həll yolu Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün saxlanılmasını təmin etməlidir. Mən planlaşdırılan vaxtdan daha çox istifadə etməmək üçün hələlik çıxışımı tamamlayıram. Təşəkkür edirəm.

Moderator: Təşəkkür edirəm, cənab Prezident. Xülasəyə görə təşəkkür edirəm. Cənab baş nazir, düşünürəm ki, biz bu məsələ ilə bağlı sizin fikirlərinizi eşitməyə hazırıq.

Nikol Paşinyan: Təşəkkür edirəm. Bilirsiniz, mən Prezident İlham Əliyevdən tarixin çox dərinliklərinə getməməyini xahiş edəcəyəm. Çünki erməni kralı Böyük Tiqran romalı hərbi lider Pompeylə danışıqlar aparan zaman bütün Cənubi Qafqazda və bütün dünyada Azərbaycan adlı ölkə olmayıb. Düşünürəm ki, çox uzağa getmək o qədər də düzgün deyil. Çünki mən daha uzağa gedə bilərdim və misal üçün, eramızdan əvvəlki 400-cü ildən başlaya bilərdim. Lakin mən bunu etməyəcəyəm. Çünki bunun düzgün yol olduğunu düşünmürəm. Dağlıq Qarabağın ölkə kimi hesab olunmasına gəlincə, deməliyəm ki, mən Prezident Əliyevlə razı deyiləm. Çünki Qafqaz Bürosu Dağlıq Qarabağın Azərbaycanın ... yox üzr istəyirəm, Ermənistanın tərkib hissəsi olmasına qərar verdi. Bu, tamamilə qanuni qərar idi və budan sonra İosif Stalinin şəxsi təşəbbüsü əsasında bu qərar Moskvada dəyişdirildi. Bu, bir nov Stalin, Lenin və Atatürkün gizli sövdələşməsi idi. Qarabağ heç vaxt müstəqil Azərbaycan dövlətinin tərkib hissəsi olmayıb. Qarabağ Sovet İttifaqının formalaşması prosesi zamanı Azərbaycana verilib. Biz ərazi bütövlüyündən danışan zaman qərar verməliyik ki, biz hansı ölkənin ərazi bütövlüyü barədə danışırıq. Mənim sualım bundan ibarətdir. Azərbaycan müstəqil ölkə olaraq Sovet İttifaqının ərazi bütövlüyünə hörmət etmişdimi? Azərbaycanın Sovet İttifaqını tərk etdiyi kimi, eyni yolla Dağlıq Qarabağ da Sovet İttifaqını tərk edib. Siz indi deyə bilərsiniz ki, mən hazırda mövcud olmayan ölkə - Sovet İttifaqı barədə danışıram. Lakin Dağlıq Qarabağın da tərkibində olduğu Sovet Respublikası da mövcud deyil. Azərbaycan Sovet Sosialist Respublikası da mövcud deyil. Bu, həqiqətdir. Azərbaycanın Sovet İttifaqından müstəqillik əldə etdiyi kimi, eyni yolla Qarabağ həm Sovet İttifaqından, həm də Sovet Azərbaycanından müstəqilliyini əldə edib. Xocalıya gəlincə isə, 1990-cı illərin ortasında Azərbaycanın sabiq prezidenti Ayaz Mütəllibov Rusiyanın "Arqumentı i Faktı" qəzetinə müsahibə verib. Həmin müsahibədə deyir ki, Xocalıdakı təxribat Azərbaycan müxalifəti tərəfindən onu hakimiyyətdən devirmək üçün təşkil olunub. Əslində, bu, baş verib. Çünki bu hadisə nəticəsində Ayaz Mütəllibov Azərbaycan prezidenti vəzifəsindən devrildi.

BMT Təhlükəsizlik Şurasının qətnamələrinə gəlincə. Bu sənədlərin ümumi mənası nə olub? Bu sənədlərin ümumi mənası hər cür zorakılığın qarşısını almaq və hərbi əməliyyatların dayandırılması məqsədilə qeyd-şərtsiz və dərhal atəşkəs elan edilməsindən ibarət olub. Biz BMT Təhlükəsizlik Şurasının 884 saylı qətnaməsinə baxdıqda görərik ki, orada yazılıb ki, Azərbaycan atəşkəsi pozub və nəticədə torpaqlarını itirib. Hər şeydən öncə Təhlükəsizlik Şurası qətnaməsinin şərtlərinə əməl etməyən Azərbaycan özü idi. Bunu bəyan etmək çox vacibdir. Lakin bilirsiniz, mən Azərbaycan və Ermənistan liderləri üçün hər dəfə eyni şeyləri təkrar etməyin yaxşı yol olduğunu düşünmürəm. Lakin təəssüf ki, son 25, hətta 30 il ərzində biz hər dəfə eyni şeyləri təkrar edirik. Qorxuram ki, beynəlxalq ictimaiyyət müəyyən mənada eyni şeyləri eşitməkdən artıq yorula. Düşünürəm ki, biz yeni ideyalar gətirməliyik. Demək istəyirəm ki, mən qeyri-zorakı "Məxməri xalq inqilabı" vasitəsilə Ermənistanın baş naziri olanda anladım ki, 30 ildir davam edən münaqişəni bir və ya iki addımla həll etmək mümkün deyil. Mən düşündüm ki, bu problemin həlli üçün bizim inqilablara ehtiyacımız var. Mən mikroinqilab proseslərinə başladım və növbəti çıxışım zamanı siz mənə söz verdikdə mən sizə mənim təşəbbüskarı olduğum Dağlıq Qarabağ danışıqları prosesində mikroinqilabların rolu barədə danışacağam. Təşəkkür edirəm.

Moderator: Təşəkkür edirəm, cənab baş nazir. Bu, giriş nitqləri idi. Düşünürəm ki, hər ikinizin auditoriyaya təqdim etdiyiniz tarixi qeydlərin məntiqi ardıcıllığı olaraq və bir siyasi alim kimi mən həll yoluna keçmək istəyirəm.

Düşünürəm ki, tarixçilər bizə anlamaqda kömək edə bilər. Lakin onlar həmişə bizə prosesi necə irəli apara bilməklə bağlı kömək edə bilmirlər. Əgər auditoriyada

tarixçilər varsa, onlardan üzr istəyirəm. Mən sizin fikirlərinizlə başlamaq istərdim, cənab baş nazir. Siz beynəlxalq ictimaiyyətdən müəyyən fikirlər eşidirsiniz, çox sayda təcrübəli danışıq aparanlardan, bu çağırış üzərində təqribən 30 il işləmiş və münaqişənin sülh yolu ilə həllini dəstəkləməyə çalışmış bir çox insanlardan, beynəlxalq ictimaiyyətdən Dağlıq Qarabağ problemi ilə bağlı görmək istədiyiniz və bu münaqişənin həllini irəli aparmaq üçün sizə kömək edəcək və sizi qane edəcək bir məqam nə olardı? Cavab vermək üçün iki dəqiqəniz var.

Nikol Paşinyan: Beynəlxalq ictimaiyyətin edə biləcəyi çox konkret bir məqam var. Bir məsələ aydındır ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli yoxdur. Hərbi yolla həll yoxdur. Beynəlxalq ictimaiyyət bunu güclü və aydın şəkildə bəyan etməlidir. Əgər kimsə əksini düşünürsə, deyirsə ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli mümkündür, güman edirəm ki, Dağlıq Qarabağ münaqişəsi tərəflərinin xalqları cavab verərdi. Bu halda, biz deyə bilərik ki, münaqişə artıq həll edilib.

Lakin mən düşünürəm ki, bizim davamlı sülhə ehtiyacımız var. Ermənistan Dağlıq Qarabağı danışıqlar prosesində təmsil etmir. Lakin mən bilirəm ki, Ermənistan və Dağlıq Qarabağ regionumuzda davamlı sülh yaratmaq üçün real cəhdlər ortaya qoymağa hazırdır. Ermənistanın baş naziri kimi mən bu vəziyyəti anlayıram. Bu, nəinki təkcə ölkəmin təhlükəsizliyi üçün mənim məsuliyyətimdir, eyni zamanda, mən regional təhlükəsizlik və qlobal təhlükəsizlik üçün öz məsuliyyətimi anlayıram. Mən Prezident Əliyevi bu vəziyyəti davamlı sülh, sabitlik yaratmaq üçün bizim qarşılıqlı vəzifəmiz olaraq anlamağa və bu vəziyyəti təkcə milli gündəlik kimi deyil, həm də qlobal, regional təhlükəsizlik gündəliyi kimi və qlobal təhlükəsizlik üçün səylər göstərmək və töhfə vermək kimi vəzifə nöqteyi-nəzərindən anlamağa dəvət edirəm. Sizi əmin edirəm ki, Ermənistan və Dağlıq Qarabağ buna hazırdır.

Moderator: Təşəkkür edirəm, cənab baş nazir. Məlumatınız çox faydalı idi. Prioritetlərinizi bizimlə bölüşdüyünüz üçün sizə təşəkkür edirəm.

Prezident Əliyev, eyni sualı sizə verə bilərəm? Siz danışıqlar prosesində çox təcrübəlisiniz. Siz bu məsələ ilə bağlı bu otaqdakıların çoxları ilə təmasda olmusunuz. Lakin bizə anlamağa kömək edin. Hazırkı tarixi məqamda daha vacib olan nədir? Beynəlxalq ictimaiyyət prosesi irəliyə doğru aparmaq və münaqişənin sizin üçün ən məqbul və sülh yolu ilə həlli üçün sizcə nə edə bilər?

Prezident İlham Əliyev: İlk növbədə, mən bir şərh vermək istərdim. Mən tamamilə əminəm ki, biz hər ikimiz buraya həqiqəti demək üçün gəlmişik. Mənim giriş nitqimdə dediklərim 100 faiz həqiqətdir. Hansılar ki, elə indi yoxlanıla bilər. Sadəcə, internetə daxil olub istinad etdiyim həmin sənədləri taparaq siz kimin həqiqəti deyib-demədiyini anlaya bilərsiniz. İkinci şərhim budur. Mən, təəssüf ki, ermənilərin Xocalıda törətdiklərinə bəraət qazandırmaq cəhdinə çevrilmiş bu vəziyyətə aydınlıq gətirmək istərdim. Prezident Ayaz Mütəllibovun səhhəti çox yaxşıdır və Bakıda yaşayır. Ola bilsin ki, Ermənistan tərəfi bunu bilmir. O, bu yaxınlarda və bir neçə dəfə deyib ki, o, heç vaxt Xocalı soyqırımının azərbaycanlılar tərəfindən təşkil edildiyini deməyib. Günümüzdə deyildiyi kimi, bu, "feyk" xəbərdir. Rusiyadakı bəzi erməni jurnalistlər tərəfindən icad olunub və Rusiya mətbuatında dövriyyəyə buraxılıb. Lakin o, heç vaxt bunu deməyib. Bu, tamamilə bir həqiqətdir. Xocalıda soyqırımı törədənlərin adları hamıya məlumdur. Onlar yerli ermənilər idi, Ermənistandan olan ermənilər və diaspordan olan ermənilər idi. Bu şəxslərin adları hamıya məlumdur. Bu barədə çoxlu kitablar və beynəlxalq məqalələr çap olunub. Ona görə azərbaycanlıların özlərinin 63 uşağı, 100 qadını vəhşicəsinə öldürdüyünü demək, eyni zamanda, 1000 nəfərin itkin düşdüyünü söyləmək, bu, sinizmin zirvəsidir.

Beynəlxalq ictimaiyyətin nə etməli olduğu məsələsinə gəlincə, düşünürəm ki, ən vacib olan odur ki, beynəlxalq ictimaiyyət, - biz beynəlxalq ictimaiyyətdən danışan zaman əsasən ATƏT-in Minsk qrupu həmsədrlərinin səylərini nəzərdə tuturuq, - onlar, nəhayət, Ermənistan tərəfinə çox aydın şəkildə izah etməlidirlər ki, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ müstəqil ölkə deyil! Heç kim bu qeyri-qanuni qurumu tanımır. Bu, birincisidir. İkincisi, düşünürəm ki, Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməklə bağlı beynəlxalq təzyiq daha çox Ermənistana göstərilməlidir. Çünki BMT Təhlükəsizlik Şurasından daha yuxarı olan beynəlxalq orqan yoxdur. Onlar 4 qətnamə qəbul ediblər. Onları yoxlamaq çox asandır. Mütəxəssislərə onların nömrələri məlumdur. Onlar nə deyir: Erməni qoşunları işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Təkcə Dağlıq Qarabağ işğal edilməyib. Həmçinin onun ətrafındakı 7 rayon da işğal olunub. Ermənistan bunu gizlətmək istəyir. Bu, o 7 rayondur ki, ermənilər heç vaxt orada yaşamayıb. 1989-cu ilin son sovet əhali siyahıyaalınmasında Dağlıq Qarabağın əhalisi 189 min nəfər olaraq qeydə alınıb. Onlardan 139 mini ermənilər, 48 mini azərbaycanlılar və digər xalqların nümayəndələri idi. Beləliklə, Dağlıq Qarabağ və qədim şəhərimiz olan Şuşadan bütün azərbaycanlılar etnik təmizləməyə məruz qalıb. Sonra bütün azərbaycanlılar 7 rayonda etnik təmizləməyə məruz qalıb. Ermənilər bizim xalqımıza, mədəniyyətimizə qarşı soyqırımı törədiblər, məscidlərimizi, məzarlarımızı dağıdıblar, şəhərlərimizin adlarını dəyişdiriblər. Onlar hazırda bütün işğal edilmiş ərazilərdən ibarət olan Dağlıq Qarabağın xəritəsini çap ediblər. Sonra onlar deyirlər ki, biz bu reallıqlarla razılaşmalıyıq. Ona görə də beynəlxalq ictimaiyyət izah etməlidir ki, Dağlıq Qarabağ Azərbaycandır. İkincisi, təcavüzkara ciddi

təzyiq göstərməlidir ki, dayansın. Baş nazir... bir dəqiqə gözləyin... Baş nazir indicə sülhdən danışdı. Yaxşı mən razılaşıram. Lakin onda bu, bu gün baş verənlə, təmas xəttində azərbaycanlı əsgərin erməni snayperi ilə öldürülməsi ilə necə uzlaşır?

Moderator: Hesab edirəm ki, çağırışın elementləri hər kəsə aydındır. Mürəkkəb tarix var, müxtəlif siyasi rejimlərin tərkibinə daxil olan ərazilər var, məcburi köçkünlərin və hər iki tərəfdən ölənlərin faciəsi, etimad və siyasi danışıqların irəliləməsi üçün zəmin yaratmaq məqsədilə kifayət qədər zaman kəsiyində tələblərinə əməl olunmayan atəşkəs var. Buna görə mən bu məsələlərin bəziləri ilə bağlı sizi sual verməyə dəvət edirəm.

Nikol Paşinyan: Mən bir neçə qeyd edə bilərəm?

Moderator: Mən suallara keçmək istəyirəm və güman edirəm ki, veriləcək suallar əsnasında bu məsələlərin bəziləri ilə bağlı fikirlərinizin davamını bildirmək imkanınız olacaq. Mənin rəhbərim burada əyləşib və mən qaydaları pozmaq istəmirəm, ona görə də suallara keçmək istəyirəm. Təşəkkür edirəm cənab. Bəli, buyurun, birinci sual, zənnimcə, auditoriyada mikrofon var. Buyurun. Sual vermək üçün şərait yaradıram, amma siz məni məyus edirsiniz. Bu, belədir? Cənab baş nazir, sizə qayıdıram. Cənab baş nazır, siz fikrinizin davamını bildirə bilərsiniz. Biz o suala qayıdacağıq. Buyurun.

Nikol Paşinyan: Bilirsiniz, mən bir neçə qeyd etmək istərdim. İlk növbədə, BMT Təhlükəsizlik Şurasının qətnaməsi ilə bağlı. Orada Ermənistan qoşunları sözü yoxdur. Orada "yerli erməni qüvvələri" yazılıb. Bu, o deməkdir ki, Dağlıq Qarabağ əhalisi özünümüdafiə üçün qüvvələr yaradıb, orada Ermənistan qoşunları yazılmayıb. Qurbanlara gəlincə. Bəli, bu, faciədir, bu, münaqişədir və bu münaqişə nəticəsində minlərlə adam, həm erməni, həm də azərbaycanlı həlak olub. Bu, faktdır. Lakin şəxsən mən "Arqumentı i Faktı" qəzetində Azərbaycanın sabiq prezidentinin müsahibəsini oxumuşam. Düşünürəm ki, biz onu internetdə asanlıqla tapa bilərik. Tarixi faktlara gəlincə, "Dağlıq Qarabağ qanuni aspekt" kitabı var. Siz mənim dediklərimi orada tapa bilərsiniz və siz bunu tarix kitablarından tapa bilərsiniz. Şəhərin adları və etnik təmizləmə barədə. Dağlıq Qarabağda Şaumyan adlı rayon var idi.

Prezident İlham Əliyev: Xeyr. O, Dağlıq Qarabağda deyildi. O, Dağlıq Qarabağda deyildi. Xeyr, xeyr...

Moderator: Mən Sizə söz verəcəyəm.

Nikol Paşinyan: Yaxşı, yaxşı. Şaumyan var. Mənim fikrimcə Dağlıq Qarabağda. Yaxşı.

Prezident İlham Əliyev: Görürsünüz, yalan danışır.

Moderator: Mən Sizə söz verəcəyəm.

Nikol Paşinyan: Şaumyan rayonu var idi və 1988-ci ildə oranın əhalisi 100 faiz ermənilərdən ibarət idi. İndi isə orada bir erməni yoxdur və Şaumyan adı azərbaycanca adla əvəz olunub. Bu, mənim üçün çətin sözdür. Prezident Əliyev dedi ki, bu gün Azərbaycan əsgəri öldürülüb və mən deyə bilərəm ki, bu gün Qazaxda Ermənistan və Azərbaycan sərhədində erməni əsgər Azərbaycan snayperləri tərəfindən yaralanıb. Bu prosesi dayandırmaq üçün nə etmək bizim qarşılıqlı vəzifəmizdir?

Moderator: Çox sağ olun. Bu, sözü sizə vermək üçün yaxşı məqamdır. Cənab prezident, mən Sizə razı olmadığınız spesifik məqamlarla bağlı cavab vermək imkanı verəcəyəm. Sonra bizim sualımız var və mən bu fürsəti qaçırmaq istəmirəm.

Prezident İlham Əliyev: Sadəcə, şərhlərimi bildirmək istəyirəm. Çünki bir daha qeyd edirəm, mən buraya həqiqəti söyləməyə gəlmişəm. Bir daha deyirəm. Mən "Arqumentı i Faktı"da nə yazıldığını bilmirəm. "Arqumentı i Faktı" çox sayda ermənin in çalışdığı bir qəzet, müstəqil qəzetdir. Rusiyanın aparıcı mətbuat orqanlarına rəhbərlik edən ermənilərin sayı bizə Azərbaycanda məlumdur. Beləliklə, onlar istədiklərini yaza bilərlər. Ona görə də mən Azərbaycanın sabiq prezidenti Ayaz Mütəllibovun rəsmi bəyanatına istinad edirəm. O deyib ki, heç vaxt belə deməyib. İndi isə baxın. Prezident, sabiq prezident, onun sözləri və bir ermənipərəst və ya erməni jurnalistin sözləri. Hansının dəyəri daha çoxdur? Bu, birincisi. Şaumyana gəlincə. Cənab baş nazir indicə qeyd etdi ki, Dağlıq Qarabağı Azərbaycana vermək qərarını Stalin verib. Bu, səhvdir. Bir daha Qafqaz Bürosunun qərarına baxın, 1921-ci il iyul, orada deyilir ki, Dağlıq Qarabağı Azərbaycanda saxlamaq, Azərbaycana vermək yox. Əgər o Stalini belə çox bəyənmirsə, qəribədir ki, niyə Şaumyanı belə çox bəyənir? Çünki Şaumyan bolşeviklərdən biri idi. O, günahsız azərbaycanlıları qətlə yetirmiş şəxs idi. Bugünkü Dağlıq Qarabağın qondarma paytaxtı onun adı ilə adlandırılıb. Sual olunur: əgər Dağlıq Qarabağ qədim Ermənistan ərazisidirsə, niyə paytaxtın adı qədim erməni adı ilə adlandırılmayıb. Çünki paytaxtın qədim adı Xankəndidir - Xanın kəndi. Stepanakert, çünki Şaumyanın adı Stepan idi, kert Ermənistanda şəhər deməkdir, elə deyilmi? Stepanakert həmin bolşevikin adı ilə adlandırılıb. Bu, bir daha onu sübut edir ki, həmin ərazilərdə heç bir erməni tarixi irsi yoxdur və mənim başladığım məqama gəldikdə bu tarixi məsələ münaqişənin necə həll olunmalı olduğunu başa düşmək üçün mühümdür.

Moderator: Çox sağ olun cənab. Ümid edirəm ki, hər kəs qeydlər aparır, çünki bizə burada müxtəlif məqamlardan ibarət olan tarix dərsi verilir. Sualımız var. Buyurun. Xahiş edirəm özünüzü təqdim edin ki, biz kiminlə danışdığımızı bilək.

Auditoriyadan sual: Çox sağ olun. Mənim adım Forin Krinadır. Mən beynəlxalq hüquq üzrə Maks Plank İnstitutunun tədqiqatçısıyam. Prezident Əliyev artıq beynəlxalq hüququn rolunu qeyd etdi. Mənim sualım hər iki tərəfə aiddir. Siz bu mübahisəni xüsusi razılaşma vasitəsilə Beynəlxalq Ədalət Məhkəməsinə təqdim edərdinizmi?

Moderator: Cənab Prezident, Sizdən suala birinci cavab verməyinizi xahiş edə bilərəmmi?

Prezident İlham Əliyev: Azərbaycan danışıqlar prosesinə sadiqdir, ona görə də biz ərazi bütövlüyümüzü danışıqlar yolu ilə bərpa edə biləcəyimizlə bağlı ümidlərimizi itirməmişik. Bu səbəbdən də hələ də bu ümidləri bəsləyərkən ola bilsin ki, bu, ən yaxşı seçim olmayacaq. Lakin əgər Ermənistan tərəfdən yeni yanaşma nəticəsində danışıqlar tamamilə pozulsa, onda əlbəttə ki, bu seçim nəzərdən keçirilə bilər...

Moderator: Təşəkkür edirəm, cənab Prezident. Cənab baş nazir.

Nikol Paşinyan: Dediyim kimi, biz də danışıqlar prosesinə, sülh prosesinə sadiqik. Düşünürəm ki, danışıqlar ATƏT-in Minsk qrupunun həmsədrliyi formatında aparılmalıdır. Biz çox intensiv şəkildə işləyirik. Qeyd etdiyim kimi, biz real dəyişiklik etmək və münaqişənin həllinə çatmaq üçün real səylər göstərməyə hazırıq. Lakin heç kim məndən danışıqlar prosesində etdiyim mini inqilablar barədə heç nə soruşmadı. Ümidvaram ki, imkanım olacaq.

Moderator: Xahiş edirəm, buyurun izah edin. Mən sizdən bizə bunu izah etməyinizi xahiş edirəm.

Prezident İlham Əliyev: Bəlkə gələn dəfə? Mən inqilablar haqqında eşitmək istəmirəm.

Moderator: Mini inqilablar, xahiş edirəm izah edin.

Nikol Paşinyan: Bilirsiniz, mənim konseptual qavrayışım ondan ibarətdir ki, artıq qeyd etdiyim kimi, uzunmüddətli münaqişəni bir-iki addımda həll etmək mümkün deyil. Niyə mən bizim mikroinqilaba ehtiyacımız olduğunu deyirəm. Çünki düşünürəm ki, şərti olaraq bizim mikroinqilaba ehtiyacımız var ki, onu mini inqilaba çevirək və ondan sonra danışıqlar prosesində real irəliləyişə nail olaq. Mikroinqilab nədən ibarət idi? 2018-ci ilin sentyabrında mən elan etdim ki, Dağlıq Qarabağ münaqişəsinin istənilən həlli Ermənistan xalqı üçün, Qarabağ əhalisi üçün və Azərbaycan xalqı üçün məqbul olmalıdır. Niyə bu, mikroinqilabdır? Çünki mən istənilən həllin həm də Azərbaycan xalqı üçün məqbul olmalı olduğunu deyən ilk Ermənistan lideriyəm. İndi isə həmin inqilabdan bir ildən çox müddət ötəndən sonra mən istənilən həllin bütün tərəflər üçün məqbul olmalı olduğunu deyən təkcə Ermənistan lideri deyil, həm də Azərbaycan və Ermənistan liderləri arasında bunu deyən yeganə liderəm. Bu, çox mühüm mikroinqilabdır. Başqa bir inqilab, mətbuat konfranslarımdan birində mən azərbaycanlı və erməni sosial şəbəkə istifadəçilərini sosial şəbəkədən bir-birini incitmək, bir-birini hədələmək və bir-birini təhqir etmək üçün istifadə etməməyə, sosial şəbəkədən, yeni texnologiyalardan bir-birini daha yaxşı başa düşməyə çalışmaq üçün istifadə etməyə çağırdım. Bu, başqa bir yoldur. Mən birbaşa Azərbaycan xalqına müraciət etməyə çalışdım və əgər Prezident Əliyev etiraz etmirsə, mən Prezident Əliyevin Ermənistan xalqı ilə danışmağına da etiraz etmirəm. Lakin bizdə çox qəribə bir fakt var. Prezident Əliyev Dağlıq Qarabağın nümayəndələri ilə danışmaqdan imtina edir. Bu, çox qəribə faktdır. Dağlıq Qarabağın nümayəndələri ilə danışmadan Dağlıq Qarabağ münaqişəsini necə həll etmək mümkündür? Yeri gəlmişkən, Dağlıq Qarabağ ATƏT tərəfindən münaqişə tərəfi, danışıqlar tərəfi kimi tanınıb. Bu, iki dəfə - 1992-ci il martın 24-də və 1994-cü il ATƏT-in Budapeştdəki sammitində baş verib.

Moderator: Çox sağ olun.

Nikol Paşinyan: Çox sağ olun.

Moderator: Prezident Əliyev, icazə verin, sizdən soruşum. Müharibədən əziyyət çəkmiş Azərbaycan vətəndaşlarının, Ermənistan vətəndaşlarının, Dağlıq Qarabağ sakinlərinin və həmin işğal olunmuş ərazilərdən məcburi köçkünlərin təklif olunan üç mikroinqilab barədə fikirlərini öyrənmək və sosial mediadan düşmənçilik yaratmaq üçün vəziyyəti daha kəskinləşdirən bir qüvvə kimi deyil, insanların bir-biri ilə səmimi danışmaq üçün bir vasitə kimi istifadə edilməsi ilə bağlı nə düşünürsünüz?

Prezident İlham Əliyev: Bilirsiniz, mənim Ermənistan rəhbərləri ilə danışıqlar təcrübəmdən çıxış edərək, deyə bilərəm ki, mənim cənab Paşinyanın iki sələfi ilə də danışıqları aparmaq imkanım olub. Hər zaman danışıqların ən həlledici məqamında söhbəti davam etdirməmək üçün müəyyən bəhanə tapıblar. Digər sözlə desək, onların hamısı status-kvonun dəyişməz olaraq qalmasını istəyiblər. Lakin elə onların da hamısı buna fərqli tərzdə nail olmağa çalışıblar. İndi isə baş nazir Paşinyanın öz təklifi haqqında danışanda və söyləyəndə ki, həll variantı Azərbaycan xalqı tərəfindən qəbul edilən olmalıdır, mən buna cavab vermişəm və Azərbaycan xalqı üçün nəyin qəbul edilən olduğunu söyləmişəm. Erməni təcavüzündən əziyyət çəkmiş Azərbaycan vətəndaşları öz evlərinə qayıtmaq istəyirlər. Bu, onların fundamental hüququdur. Onlar Ermənistan rəhbərliyinə görə demək olar ki, otuz ildir bu hüquqdan məhrum ediliblər. Söhbət Dağlıq Qarabağdan getmir. Baş nazir Dağlıq Qarabağın dırnaqarası özünümüdafiə qüvvələrindən danışanda, o, bir daha həqiqətə uyğun olmayan sözlər söyləyir. O, çox yaxşı bilir və mən də bilirəm ki, dırnaqarası Dağlıq Qarabağ ordusunun 80 faizini Ermənistan vətəndaşları təşkil edir. Bu, həqiqətdir. Bəlkə, 80 faizdən də artıqdır. Buna görə, “Dağlıq Qarabağ ordusu” anlayışı yoxdur. “Dağlıq Qarabağ respublikası” anlayışı yoxdur. Münaqişənin yalnız iki tərəfi var: Ermənistan və Azərbaycan. ATƏT-in Minsk qrupunun həmsədrlərindən soruşun: münaqişə tərəfləri kimlərdir? Onlar da eyni sözləri söyləyəcəklər: Ermənistan və Azərbaycan. Dağlıq Qarabağ deyil. Nəyə görə yox? Bu, başqa sualdır. Lakin o, tərəf deyil və biz onlarla danışmayacağıq. Biz təcavüzkarla danışıqlar aparırıq. Biz Dağlıq Qarabağla danışmağa hazır olarıq ki, Ermənistan həmin qeyri-qanuni rejimi maliyyələşdir-

məsini dayandırsın, bütün hərbi qoşunları Dağlıq Qarabağdan çıxarsın və bizim əraziləri tamamilə tərk etsin. Sonra isə bizim həmin insanlarla danışıq aparmağa arqumentimiz olacaq. Lakin nə qədər ki, onlar oradadır, bu, baş verməyəcək. Onlar status-kvonu dəyişməz olaraq saxlamaq istəyirlər. Hesab edirlər ki, həmin əraziləri daim işğal altında saxlaya bilərlər. Əminəm ki, bu, belə qalmayacaq. Ərazi bütövlüyümüz bərpa edilməlidir.

İkinci hissəyə gəlincə, bu yaxınlarda biz jurnalistlərin qarşılıqlı səfərlərini təşkil etdik. Fikrimcə, bu, elə bir təcrübədir ki, biz onu qiymətləndirməliyik. Onun mənfi və müsbət tərəflərini qiymətləndirməliyik, çünki həm Ermənistan, həm Azərbaycandakı cəmiyyətin bir hissəsi bu formatı o qədər dəstəkləmədi. Lakin bu, hər iki liderin qərarı idi ki, buna bir cəhd edilsin. Biz sülh yolu ilə məsələnin həlli üçün hər bir imkanı sınaqdan keçirmək istəyirik. Erməni xalqını inandırmaq istəyirik ki, onlar daim bu cür yaşaya bilməz. Onlar bizimlə çözüm tapmalıdırlar və gələcəkdə qonşu kimi sülh şəraitində yaşamalıdırlar.

Moderator: Sizin burada konstruktiv cəhdləriniz haqqında söylədiklərinizi yüksək qiymətləndiririk, çünki biz bu yanaşmanı dəstəkləyirik. Bəlkə əlavə bir suala və yekun fikirlərə vaxtımız qalır. Auditoriyadan bir sual var. Buyurun.

Sual: Çox sağ olun. Adım Yelena Çernenkodur. Mən "Kommersant" qəzetinin rus jurnalistiyəm və "Münxen gənc liderləri 2015" təşkilatının üzvüyəm. Rusiya ATƏT prosesi çərçivəsində məsələnin həllinə çalışan ölkələrdən biridir. Belə başa düşdüm ki, təkliflərdən biri status məsələsinin sonraya saxlanması və tərəflərin daha həvəslə razılaşa biləcəyi məsələlərə diqqət yetirmək idi. Məsələn, Dağlıq Qarabağın ətrafında olan rayonlar, dəhlizin yaradılması və digər addımları nəzərdə tuturam. Beləliklə, siz status məsələsini sonraya saxlayaraq, bəlkə başqa addımlarla nəticələnə biləcək keçid həll variantı üçün hər hansı şans görürsünüzmü? Sağ olun.

Moderator: Prezident Əliyev, şərhiniz varmı?

Prezident İlham Əliyev: Bəli, düşünürəm ki, bu, mümkündür. Bu təklif Azərbaycan tərəfindən ciddi şəkildə nəzərdən keçirilmişdir və bütövlükdə, biz buna razılıq vermişdik. Bu, atıla biləcək ən məntiqli addımdır. Aydındır ki, biz bu münaqişəni mərhələlərlə həll etməliyik. Münaqişəni tam şəkildə bir gündə həll edə bilmərik. O, mərhələli olmalıdır və birinci mərhələdə jurnalistin söylədiyi və Rusiyanın təklif etdiyi kimi, işğal olunmuş ərazilərin bir qisminin azad edilməsi baş verməlidir, Azərbaycan məcburi köçkünləri həmin ərazilərə qayıtmalıdır, həmin ərazilərdə yenidən köçürülmə olmalıdır və eyni zamanda, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi getməlidir. Bu halda, Dağlıq Qarabağın statusu hər iki tərəf hazır olanda sonrakı müzakirəyə qala bilər, çünki yerlərdə proses getməsə, ərazilərin azad edilməsi başlamasa, status üzərində razılığa gəlmək mümkün olmayacaq. Bizim mövqeyimiz ondan ibarətdir ki, status məsələsi Azərbaycanın ərazi bütövlüyünə müdaxilə etməməlidir. Eyni zamanda, biz həmişə söyləyirik ki, Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkədir. Azərbaycanda sülh və rahat şəkildə yaşayan çox sayda etnik azlıqlar var. Ərazi bütövlüyümüz tam bərpa olunarsa, ermənilər milli azlıq kimi, ölkəmizdə istənilən digər millətin nümayəndəsi kimi, bütün hüquqlara və imtiyazlara malik olacaqlar.

Moderator: Sağ olun Prezident Əliyev. Addımbaaddım kiçik inqilabları irəli doğru aparırıq. Bu mövzunu bəyənirəm.

Nikol Paşinyan: Yeri gəlmişkən, bizim bir kiçik və qarşılıqlı inqilabımız var. Ümid edirəm ki, bunu söyləməyə imkanım olacaq.

Moderator: Buyurun, söz sizindir.

Nikol Paşinyan: Bəli. İlk dəfə Tacikistanın paytaxtı Düşənbə şəhərində görüşəndən sonra biz Prezident Əliyevlə kiçik inqilab etdik, çünki həmin görüş nəticəsində gərginlik, ümumilikdə, görünməmiş dərəcədə azaldı. Biz təmas və informasiya məqsədli birbaşa xətti yarada bildik. Etiraf etməliyəm ki, bu halda, Prezident Əliyev və mən bu təşəbbüsün birgə müəllifləriyik. Prezident Əliyevin söylədiyi ərazilərə gəldikdə, Azərbaycanın nöqteyi-nəzərindən bunlar ərazidir. Lakin Qarabağın nöqteyi-nəzərindən, bu, təhlükəsizlikdir. Çünki biz anlamalıyıq ki, hazırkı status-kvo nə səbəbə görə yaranıb. Dağlıq Qarabağ öz müqəddəratını təyinetmə hüququndan yararlanmaq istədiyi zaman Dağlıq Qarabağın ermənilərinə qarşı hərbi əməliyyatlar başladı. Dağlıq Qarabağ erməniləri öz müdafiəsini təşkil etməyə məcbur oldular. Prezident Əliyev Şuşa haqqında danışdı. Dağlıq Qarabağın paytaxtı Stepanakert illər ərzində Şuşadan bombardman edilirdi. Dinc vətəndaşlar isə çox uzun müddət ərzində zirzəmilərdə yaşamalı idilər. Bu, həqiqətdir. Bilirsiniz, heç kəsin təhlükəsizliyi kənarda qala bilməz. Bu, Qarabağa da aiddir. Prezident Əliyev Azərbaycanın hərbi qüvvələri haqqında danışdı. Mənim oğlum hərbi qulluğu Dağlıq Qarabağda keçir. Lakin o, oraya həmvətənlərini müdafiə etmək üçün könüllü qaydada gedib, çünki o, tarixi, 1998-ci ildən nəyin baş verdiyini bilir. Mən Şaumyan rayonu haqqında artıq söylədim. Oranın əhalisi 100 faiz erməni idi. İndi orada heç bir erməni yaşamır. Biz çox böyük erməni əhalisi olan Naxçıvan məsələsini də bilirik. O, Azərbaycanın muxtar respublikasıdır. Hazırda orada heç bir erməni yoxdur. Bir cümləni də söyləyim. Prezident Əliyev deyir ki, Dağlıq Qarabağ danışıqların və münaqişənin tərəfi deyil. Lakin Azərbaycan iki dəfə Dağlıq Qarabağla razılaşma imzalayıb. Birincisi, 1994-cü ildə oldu. Bu, Ermənistan, Dağlıq Qarabağ və Azərbaycan arasında atəşkəs sazişi idi. Müdafiə nazirləri onu imzaladılar. Üç aydan sonra, 1994-cü ilin iyulunda onlar təsdiqlədilər ki, atəşkəs münaqişənin siyasi həllinə qədər qorunub saxlanılacaq.

Moderator: Bir sözlə, bizim sessiyamız başa çatır. Mən Prezident Əliyevə və baş nazir Paşinyana çox gözəl biliklərinə, bu söhbətə xüsusi bağlılıqlarına görə təşəkkürümü bildirmək istəyirəm. Fikrimcə, aydındır ki, hər iki lider münaqişənin həllinə və həmçinin onun necə həllinə də biganə deyillər. Biz bundan azını onlardan gözləyə bilmərik. Əlavə olaraq, hesab edirəm ki, bu çətin məsələni, onun dinamikasını, elementlərini tam həcmdə nəzərdən keçirdik. Mən hər ikinizə təşəkkür edirəm ki, biz, eyni zamanda, münaqişənin təsir göstərdiyi insanların həyatını yaxşılaşdırmaq üçün irəliyə getmək imkanların mümkün elementləri barədə də eşitdik. Kim bilir, bəlkə də mikroaddımlarla, mikro-inqilablarla dinc yolla həllin tapılmasında konstruktiv proses başlaya bilər. Beləliklə, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində belə bir tarixi fürsət bizə nəsib olduğu üçün biz çox xoşbəxtik. Fikirlərini bizimlə bölüşdüklərinə görə Prezident Əliyevə və baş nazir Paşinyana təşəkkürümüzü bildirək. Buyurun.

Prezident İlham Əliyev: Sadəcə, bir qeyd edim.

Moderator: Konstruktiv olsun.

Prezident İlham Əliyev: Konstruktiv, bəli. Öz müqəddəratı haqqında danışacağam. Yalnız bu haqda. Yerevanda əhalinin XIX əsrin əvvəlində 70 faizinin azərbaycanlı olması faktını bir yana qoyuram. Bunu bir yana qoyuram...

Moderator: Bu, konstruktiv deyil.

Prezident İlham Əliyev: Bunun haqqında danışmayacağam. Öz müqəddəratına gəldikdə, onlar hər zaman bu haqda danışırlar.

Moderator: 30 saniyə.

Prezident İlham Əliyev: Erməni xalqı öz müqəddəratını artıq təyin edib. Onların erməni dövləti var. Mənim məsləhətim belə olacaq ki, onlar ikinci dəfə öz müqəddəratını təyin etmək üçün Yer kürəsində başqa yer tapsınlar, Azərbaycanda yox!

Moderator: 30 saniyə

Nikol Paşinyan: Cənab Prezident, bu, o qədər də konstruktiv olmadı. Lakin mən deyərdim ki, Böyük Tiqranın dövründə bizim regionda yalnız iki millət var idi: ermənilər və gürcülər.

Prezident İlham Əliyev: Ermənilər və ermənilər.

Nikol Paşinyan: Nəinki Böyük Tiqranın dövründə, o cümlədən Baqratunilər, Arşakunilər dövründə də belə olub. Bunu istənilən tarix kitabında tapa bilərsiniz. Mən bu müzakirəyə görə çox minnətdaram və bir daha, vurğulamaq istərdim ki, Ermənistan və Dağlıq Qarabağ bu münaqişənin həllində real səyləri göstərməyə hazırdırlar. Təşəkkür edirəm.

Moderator: Hər kəsə təşəkkür edirəm.

## *İtaliya Respublikasına dövlət səfəri*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da İtaliya Respublikasına dövlət səfərinə gəlib.

Romanın "Fiumicino" Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliya Respublikası Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi Manlio di Stefano, İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari, Xarici İşlər Nazirliyinin Diplomatik Protokol İdarəsinin rəis müavini Klaudio Miscia və digər rəsmi şəxslər qarşıladılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Romadakı məşhur “Villa Borghese” parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət edib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Qeyd edək ki, bu abidə “Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 dekabr tarixli Sərəncamına əsasən ucaldılıb. Həmin Sərəncama əsasən Nizami Gəncəvinin yubileyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə 2012-ci ilin aprelində abidənin açılışı olub. Abidənin müəllifləri Xalq rəssamları Salxab Məmmədov və Əli İbadullayevdir.

İtaliya Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 20-də Romada rəsmi qarşılanma mərasimi keçirilib.

Prezident İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə Romanın Kuirinale Sarayına gəldi.

Azərbaycan dövləti başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliya Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella qarşıladılar.

Azərbaycanın və İtaliyanın dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Azərbaycan və İtaliya prezidentləri fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, İtaliya Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella birgə foto çəkdirdilər.

Azərbaycan nümayəndə heyəti İtaliya Prezidentinə, İtaliya nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İtaliya Respublikası Nazirlər Şurasının Sədri Cüzeppe Kontenin geniş tərkibdə görüşü başa çatandan sonra Azərbaycan-İtaliya sənədlərinin mübadiləsi mərasimi oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikası Nazirlər Şurasının Sədri Cüzeppe Konte "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"ni imzaladılar və mübadilə etdilər.

"Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə İtaliya Respublikasının İqtisadi İnkişaf Nazirliyi arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Energetika naziri Pərviz Şahbazov və İtaliyanın İqtisadi İnkişaf naziri Stefano Patuanelli mübadilə etdilər.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İtaliya Respublikasının Mədəni İrs, Fəaliyyətlər və Turizm Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev və İtaliyanın Mədəni İrs, Fəaliyyətlər və Turizm naziri Dario Frančeskini mübadilə etdilər.

"Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə İtaliya Respublikasının Mədəni İrs, Fəaliyyətlər və Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və İtaliyanın Mədəni İrs, Fəaliyyətlər və Turizm naziri Dario Frančeskini mübadilə etdilər.

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq nazirinin birinci müavini Emanuela Del Re mübadilə etdilər.

"Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə İtaliya Respublikasının Kənd Təsərrüfatı, Qida və Meşə Təsərrüfatı Nazirliyi arasında bitki karantini və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Energetika naziri Pərviz Şahbazov və İtaliyanın Kənd Təsərrüfatı, Qida və Meşə Təsərrüfatı nazirinin müavini Giuseppe L'Abbate mübadilə etdilər.

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə "Leonardo S.p.A" arasında "M-346" təyyarələri inteqrasiya sisteminin alınması ilə bağlı Sazişə dair Bəyannamə"ni Azərbaycanın Müdafiə naziri Zakir Həsənov və "Leonardo S.p.A"nın icraçı direktoru Alessandro Profumo mübadilə etdilər.

"Azərbaycan Milli Olimpiya Komitəsi ilə İtaliya Milli Olimpiya Komitəsi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və İtaliya Milli Olimpiya Komitəsinin prezidenti Giovanni Malaqo mübadilə etdilər.

"Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti ilə İtaliya Aerokosmik Agentliyi arasında sülh məqsədilə kosmos fəaliyyətləri sahəsində Anlaşma Memorandumu"nu "Azərkosmos" ASC-nin sədri Rəşad Nəbiyev və İtaliya Aerokosmik Agentliyinin prezidenti Giorgio Sakkoçça mübadilə etdilər.

"Azərbaycan İnvestisiya Şirkəti" ASC ilə CDP, SACE, "Simest" şirkətləri arasında Anlaşma Memorandumu"nu "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin baş icraçı direktoru Allahverdi Paşayev və CDP şirkətinin baş icraçı direktoru Fabrizio Palermo, SACE şirkətinin baş icraçı direktoru Pierfrançesko Latini, "Simest" şirkətinin baş icraçı direktoru Mauro Alfonso mübadilə etdilər.

"Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ilə İtaliya Ticarət Agentliyi (ICE) arasında Anlaşma Memorandumu"nu AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev və ICE-nin prezidenti Maria Ferro mübadilə etdilər.

"SOCAR ilə SNAM arasında əməkdaşlıq sazişi"ni SOCAR-ın vitse-prezidenti Elşad Nəsirov və "SNAM S.p.A"nın baş icraçı direktoru Marko Alvera mübadilə etdilər.

"AZPROMO ilə "Simest" arasında Tərəfdaşlıq Sazişi"ni AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev və "SIMEST S.p.A"nın prezidenti Pasquale Salzano mübadilə etdilər.

"Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "Ansaldo Energia" arasında Anlaşma Memorandumu"nu Azərbaycanın Energetika naziri Pərviz Şahbazov və "Ansaldo Energia"nın baş icraçı direktoru Cüzeppe Zampini mübadilə etdilər.

"Azərenerji" ASC ilə "Ansaldo Energia" arasında Anlaşma Memorandumu"nu Azərbaycanın Energetika naziri Pərviz Şahbazov və "Ansaldo Energia"nın baş icraçı direktoru Cüzeppe Zampini mübadilə etdilər.

"Azərbaycan Dəmir Yolları" QSC ilə "I.M.A. Project Financing S.R.L." şirkəti arasında dəmir yolu maşınlarının (drezinlərin) və iş avadanlıqlarının satınalınması barədə müqavilə"ni "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov və "I.M.A. Project Financing" şirkətinin baş icraçı direktoru Rikkardo Paoncelli mübadilə etdilər.

"ADA Universiteti ilə Luiss Universiteti arasında Anlaşma Memorandumu"nu ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev və Luiss Universitetinin vitse-prezidenti Paola Severino mübadilə etdilər.

Fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Romada İtaliyanın ən böyük maliyyə-bank qurumu olan "Cassa Depositi Prestiti SpA"nın və bu ölkənin dünya səviyyəsində məşhur olan 10-dan çox ən iri, aparıcı sənaye və maliyyə qruplarının rəhbərləri ilə birgə işçi nahar edib.

Dövlətimizin başçısını salamlayan "Cassa Depositi Prestiti SpA"nın prezidenti Covanni Qorno Tempini dedi:

-Hər vaxtınız xeyir, Zati-aliləri Prezident Əliyev.

Hörmətli nazirlər, hörmətli dövlət katibi Di Stefano, hörmətli səfirlər, hörmətli SOCAR-ın vitse prezidenti, hörmətli qonaqlar, hər vaxtınız xeyir. Bu gün sizi burada salamlamaq məndə məmnunluq hissi doğurur.

Cənab Prezident, bizim dəvətimizi qəbul etdiyiniz üçün Sizə ən dərin minnətdarlığımı bildirirəm. İcazə verin, bu görüşün məqsədilə Sizi tanış etmək üçün bir neçə söz deyim.

İtaliya İqtisadiyyatının Milli Təşviqi Təşkilatı, 170 yaşı olan bir təşkilat kimi və missiyası İtaliyanın iqtisadiyyatını inkişaf etdirməkdən ibarət olan "Cassa Depositi Prestiti SpA"nın prezidenti kimi və bu işçi naharı təşkil etmək şərəfi nəsib olmuş bir şəxs olaraq biz ikitərəfli iqtisadi əlaqələrimizin gücləndirilməsinə töhfə vermək məqsədilə burada İtaliyanın bəzi ən yaxşı sənaye liderləri olan şirkətlərinin irəli sürdüyü təşəbbüsləri Sizin diqqətinizə çatdırmaq üçün əyləşmişik. İtaliya Azərbaycanın birinci qlobal ticarət tərəfdaşıdır. Sizin ölkəniz bizim aparıcı üç enerji təchizatçımızdan biridir. Trans-Adriatik boru kəməri layihəsi ilə bizim tərəfdaşlığımız daha da yüksək səviyyəyə çatacaq. Ticarət dövriyyəmiz keçən il, demək olar ki, 6 milyard avroya çatdırılmışdır, lakin burada çox böyük qeyri-tarazlıq var idi. Bizim Azərbaycana ixracımız ümumilikdə yarım milyarddan az olmuşdur. Bizim vəzifəmiz də bu qeyri-tarazlığın aradan qaldırılmasına çalışmaqdır və belə demək olar ki, bumeranq investisiyalarını həyata keçirməkdir.

Azərbaycan inkişaf etməkdə olan iqtisadiyyatını şaxələndirməkdə qətiyyətlidir və əsas diqqəti kənd təsərrüfatı, ətraf mühitə ziyan vurmayan nəqliyyat və enerji sektorunun müasirləşdirilməsinə yetirir. İtaliya ölkənizdə biznesini genişləndirməyə hazır olan öz milli lider şirkətləri, kiçik və orta həcmli müəssisələrinin geniş şəbəkəsi vasitəsilə bu məqsədlərə töhfə verə bilər. "Cassa Depositi Prestiti"nin (CDP) biznes planının mərkəzində italyan şirkətlərinin beynəlxalq inkişafına dəstəyin göstərilməsi dayanır. Buna görə də CDP Azərbaycan ilə biznes qurmaq istəyən bütün italyan iş adamlarının arxasında durur. Bundan əlavə, burada təmsil olunan şirkətlərin demək olar ki, yarısına CDP tərəfindən sərmayə yatırılıb və onun 500-dən çox İtaliya şirkətində payı var. Sonuncu, lakin əhəmiyyətinə görə sonuncu olmayan məsələ isə CDP İtaliyanın suveren investisiya fondu kimi potensial olaraq Azərbaycana marağı olan şirkətlər üçün çoxlu müştərək investisiya imkanlarını təklif edir. Bir daha Sizə təşəkkür edirəm. Buyurun cənab Prezident, söz Sizindir.

Prezident İlham ƏLİYEV: Çox təşəkkür edirəm. CDP-nin sədrliyi ilə işçi naharda bir araya gəlmək təşəbbüsünə görə CDP-yə minnətdarlığımı bildirmək istərdim. Sabah 100-dən çox şirkətin iştirakı ilə İtaliya-Azərbaycan biznes forumu keçiriləcək. Lakin bu gün mən İtaliyanın ən böyük şirkətləri - İtaliya iqtisadiyyatının aparıcı şirkətləri ilə görüşürəm. Onlardan bəziləri ilə bizim uzun illərdir çox sıx əməkdaşlığımız var. Onlardan bəziləri bizimlə işləməyi planlaşdırır və bu, tamamilə bizim məqsədlərimizə uyğundur.

Mənim İtaliyaya dövlət səfərimin çox böyük əhəmiyyəti var. Prezident, Baş Nazir və Senatın rəhbəri ilə görüşdən sonra deyə bilərəm ki, artıq səfərim uğurlu hesab oluna bilər. Bu, iki il əvvəl Prezident Mattarellanın səfərindən sonra güclənmiş fəal dialoqun davamıdır. O vaxt əldə etdiyimiz razılaşmalar və müzakirə etdiyimiz məsələlər hazırda həyata keçirilmə mərhələsindədir. Mənim səfərim zamanı 20-dən çox sənədin bəziləri artıq imzalanıb və sabah da imzalanacaq. Onlar siyasi, iqtisadi, ticarət, nəqliyyat, mədəni və digər sahələr olmaqla, çoxşaxəli məsələləri əhatə edir. Onların arasında mən xüsusilə Azərbaycan və İtaliya arasında strateji tərəfdaşlığın inkişafı və gücləndirilməsi üzrə Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu, həqiqətən də qarşıdakı uzun illər ərzində bizim sıx əməkdaşlığımızı müəyyən edən çox vacib siyasi sənəddir. Bizim üçün İtaliya, cənab sədrin dediyi kimi, təkcə bir nömrəli ticarət tərəfdaşı deyil, həmçinin Avropada ən yaxın tərəfdaşlarımızdan biridir. Bu vacib tarixi sənədi imzaladıqdan sonra düşünürəm ki, bizim münasibətlərimiz yeni mərhələyə qədəm qoymalıdır.

Layihələrin praktiki olaraq həyata keçirilməsi ilə bağlı deyə bilərəm ki, yalnız Azərbaycanın enerji sektoru və Azərbaycanın sərhədlərindən kənarda maliyyələşdirdiyi enerji layihələri ilə bağlı İtaliya şirkətləri dəyəri 10 milyard ABŞ dollarına yaxın olan müqavilələr imzalayıblar. Qeyri-enerji sektorunda bu rəqəm təqribən 700 milyon dollardır. Bəli, mən razıyam ki, bizim ticarət dövriyyəmizdə böyük qeyri-tarazlıq var. Lakin biz, həmçinin bilməliyik ki, bu, əsasən bizim İtaliyaya neft ixracımızla bağlıdır. Ona görə də biz ixracımızın şaxələndirilməsində maraqlıyıq. Əlbəttə ki, biz Azərbaycana İtaliya ixracını artırmaq üçün əlavə tədbirlər görməliyik. Bizim şaxələndirmə və sənayeləşmə siyasətimizi nəzərə alaraq mən sizə deyə bilərəm ki, ötən il bizim enerjiyə aid olmayan sənayemiz 14 faiz artmışdır və bu ilin yanvarında artıq əlavə 16 faiz həcmində də artmışdır. Bunun səbəbi sənaye sektorunda dövlət və özəl sektor tərəfindən maliyyələşən layihələrlə bağlıdır. Çünki İtaliya istehsalçıları yüksək səviyyəli fəaliyyəti olan çox peşəkar şirkətlərdir. Ona görə də Azərbaycanın texnoloji cəhətdən yenilənməsi bizim prioritetimizdir. Əminəm ki, mənim səfərimdən sonra ortaq maraqları təmsil edən daha çox layihələr görəcəyik. Səfər ərzində burada iştirak edən şirkətlərdən biri ilə çox vacib Anlaşma Memorandumu imzalandı. Bu, "Leonardo" tərəfindən həyata keçiriləcək çox böyük müqavilə olacaq. Bu gün mənim və Baş Nazirin iştirakı ilə bizim Müdafiə nazirliklərimiz arasında sənəd imzalandı. Bu, bizim əməkdaşlığımızda yeni səhifənin açılışı olacaq və bu,

çox ümidverici layihədir. Çünki biz müdafiə infrastrukturumuzun müasirləşdirilməsi mərhələsindəyik. Azərbaycanın iqtisadi göstəriciləri müsbətdir. Ölkənin iqtisadiyyatı sabitdir. Xarici borc çox aşağıdır – ümumi daxili məhsulun 17 faizini təşkil edir. Sərbəst konvertasiya olunan valyuta ehtiyatları xarici borcdan 6 dəfə böyükdür. Biz istədiyimiz qədər borc götürə bilərik. Bizim əsas məqsədimiz şaxələndirmədir. TAP tamamlanandan sonra, - ümid edək ki, bu, çox tezliklə olacaq, - düşünürəm ki, biz enerji sektorunda bütün planlaşdırdıqlarımızı tamamlayacağıq. Çünki qeyd etdiyiniz kimi, bu gün biz İtaliyaya əsas neft ixracatçılarından biriyik. Düşünürəm ki, biz birinciyik. Təbii qazın nəqli ilə biz aparıcı ölkələr arasında olacağıq. Ona görə də əsas diqqət qeyri-enerji sektoruna yetirilməlidir. Burada biz kənd təsərrüfatı, ağır sənaye, kiçik və orta müəssisələrin qarşılıqlı əlaqəsi məsələlərinə gəlirik. Əlbəttə, biz İtaliyadan böyük investisiyaları alqışlayırıq və İtaliya iqtisadiyyatına investisiya yatırmağa hazırıq. Bu gün Azərbaycanın İtaliya şirkətlərində və daşınmaz əmlaklarında investisiyaları təqribən 1,5 milyard dollar təşkil edir və bizim inkişaf etmək üçün potensialımız mövcuddur.

Kosmik sənaye sahəsində əməkdaşlığın inkişafı da iqtisadiyyatımızın ümidverici sektorlarından biridir, həmçinin turizm. Azərbaycana gələn İtaliya vətəndaşlarının sayı artmaqdadır. Bir çox digər sektorlar da var. Başqa sözlə, güclü siyasi münasibətlər işgüzar dairələr üçün çox möhkəm zəmin yaradır. Bu güclü siyasi münasibətlər mənim uğurlu səfərim zamanı yenidən gücləndirildi. Ona görə də əminəm ki, qarşıdan gələn illərdə İtaliya şirkətləri Azərbaycanda ən fəal olan şirkətlər olacaqlar. Onların bəziləri ilə, - bu şirkətlərin nümayəndələri buradadır, - bizim artıq uzunmüddətli əməkdaşlığımız mövcuddur. Bəziləri ilə biz əməkdaşlığa başlamağı planlaşdırırıq. Əminəm ki, bugünkü işçi nahar çox məhsuldar olacaq və biz çox yaxşı nəticələri görəcəyik. Bir daha dəvət üçün təşəkkür edirəm. Əminəm ki, bizim müzakirələr zamanı hər iki tərəf üçün faydalı gələcəyimizi planlaşdıracağıq.

İtaliya Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi Manlio di STEFANO: Zati-aliləri Prezident Əliyev, CDP-nin sədri cənab Covanni Qorno Tempini, hörmətli qonaqlar. Bu toplantıda İtaliya hökumətini təmsil etmək mənim üçün həqiqətən də böyük şərəfdir və məndə səmimi məmnunluq hissi doğurur. Əvvəla, mən bu işçi naharı və tədbiri təşkil etdiyinə görə CDP-yə minnətdarlığımı bildirmək istəyirəm. Hesab edirəm ki, bu tədbir Zati-aliləri Prezident İlham Əliyevin dövlət səfərinin mühüm bir hissəsidir.

CDP qrupu İtaliyanın maliyyə qoludur və şirkətlərə beynəlxalq səviyyəyə çıxmaları üçün maliyyə həlləri təklif edir. Mən İtaliyanın iş adamlarının bu gün azərbaycanlı həmkarları ilə birlikdə çalışdığını görməkdən fəxr duyuram. Mən şəxsən bu dövlət səfərinin təşkili üçün, xüsusilə Azərbaycanla ikitərəfli əlaqələrə yardımçı olmaq məqsədilə çox səy göstərmişəm. Keçən ay mən Energetika naziri cənab Pərviz Şahbazovla birlikdə ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmaq üçün böyük nəticələr vermiş iqtisadi əməkdaşlıq üzrə beşinci İtaliya-Azərbaycan Birgə Komissiyasına həmsədrlik etdim. Bizim qarşılıqlı ticarət mübadiləmiz ölkələrimizin iqtisadiyyatının bir-birini tamamlamasını nümayiş etdirir. Bizim demək olar ki, altı milyard avro məbləğində ticarət dövriyyəmiz olmuşdur. Mən prezident Tempininin artıq dedikləri bütün rəqəmləri və yaxşı əməkdaşlığı bir daha qeyd etməyəcəyəm. Lakin onu demək istəyirəm ki, Trans-Adriatik, Trans-Anadolu və Cənubi Qafqaz boru kəmərləri ilə artıq gerçəkləşən ən böyük imkanlar həqiqətən münasibətlərimizə təkan verəcək. Bu, “Şahdəniz” qaz yatağı ilə bağlantı sayəsində mümkün olacaq. Bu, bizə 2 milyard avro dəyərində, - bu rəqəm qeyd edilməmişdir, - əlavə ticarət dövriyyəsini gətirəcək. Bu rəqəm və layihələr hökumətlərimiz tərəfindən edilmiş spesifik, dəqiq siyasi seçimlərdir. Buna görə də düşünürəm ki, bizi bir-birimizə bağlayan dostluq münasibətlərində bu seçimlər qarşılıqlılıq prinsipi ilə bağlı gözləntiləri daha da yüksəldir.

Mən çox şadam ki, cənab Prezident, Siz bunu çox aydın qeyd etdiniz. Qarşılıqlılıq prinsipi dedikdə iki ölkə arasında, həmçinin qaz sənayesindən kənarda olan sahələrdə qarşılıqlı əməkdaşlığı daha da artırmaq üçün imkanları nəzərdə tuturam. Fakt etibarilə, italyan şirkətləri infrastrukturun inşası, maşınqayırma sənayesi sahələri ilə yanaşı, eyni zamanda, təyyarələr, helikopterlər, hava məkanı, kibertəhlükəsizlik və bir çox digər sahələrdə fəaliyyəti ilə seçilirlər. Onların bir çoxunu bu gün bu masanın ətrafında əyləşənlər arasında görürəm. Bizim İtaliyadakı bütün bu aparıcı lider şirkətləri ilə müntəzəm əlaqələrimiz var. Mən əminəm ki, siz son bir neçə ildə onların fəaliyyətindən faydalanmısınız və gələcəkdə də faydalanacaqsınız. Buna görə də burada olduqlarına görə onlara təşəkkürümü bildirirəm.

Biz sizə nə nümayiş etdirmək istəyirik. Məlumdur ki, İtaliya şirkətləri bütün dünyada yüksək reytinqə malikdirlər. Lakin onları fərqləndirən cəhət odur ki, onlar həqiqətən komanda şəklində çalışa bilir və bizim şirkətlər xaricdə fəaliyyət göstərdikdə biz onlarla birlikdə italyan sistemini tətbiq edirik. Buna görə bugünkü tədbirə görə mən şəxsən azərbaycanlı dostlara minnətdarlığımı bildirirəm. Əminəm ki, imzalanmış anlaşma memorandumları və qarşımızdakı imkanlar sayəsində biz gələcəkdə daha da böyük əməkdaşlığa nail ola biləcəyik. Nümayiş etdirmək üçün daha da böyük potensial mövcuddur. Mən əminəm ki, bu səfər və sabah keçiriləcək biznes forum bu imkanlara təkan verəcək. Beləliklə, bir daha Sizə və CDP-yə təşəkkür edirəm.

* * *

İşçi naharda iştirak edən şirkət rəhbərləri Azərbaycanda həyata keçirdikləri fəaliyyətləri barədə

məlumat verdilər, həmçinin ölkəmizlə əməkdaşlıq imkanlarının genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

İtaliya Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 20-də Romadakı "Altare della Patria" memorial kompleksində naməlum əsgər abidəsini ziyarət ediblər.

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycanın və İtaliyanın dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı İlham Əliyev naməlum əsgər abidəsinin önünə əklil qoydu.

Fevralın 20-də Romadakı Kuirinale Sarayında İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə dövlət ziyafəti verilib.

Ziyafətdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak ediblər.

Ziyafətdən əvvəl qarşılıqlı hədiyyələr təqdim olundu.

Azərbaycan və İtaliya rəsmi nümayəndə heyətlərinin üzvləri dövlət başçıları İlham Əliyevə və Sercio Mattarellaya, Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya və İtaliya Prezidentinin qızı Laura Mattarellaya təqdim olundular.

Dövlət başçıları ziyafətdə çıxış etdilər.

Prezident Sercio Mattarellanın çıxışı

-Cənab Prezident.

Xanım Birinci vitse-prezident.

Hökumət nümayəndələri.

Xanımlar və cənablar.

Dərin hörmət hissi ilə Sizə və xanımınıza İtaliyaya "Xoş gəlmisiniz!" demək istərdim. Azərbaycan Prezidentinin İtaliyaya ilk dövlət səfəri münasibətilə Sizi müşayiət edən nümayəndə heyəti ilə birlikdə qəbul etməkdən çox məmnunam. Xüsusilə də mənə Azərbaycanda göstərdiyiniz səmimi qonaqpərvərliyə görə minnətdaram. Parlaq xatırladığım Azərbaycan səfərimdən iki il sonra Sizin burada Prezident Sarayında olmağınız ölkələrimizi birləşdirən yüksək səviyyəli əlaqələrin əhəmiyyətli göstəricisidir. Sürətlə möhkəmlənən və şaxələnən bu münasibətlər mütəmadi və məhsuldar əlaqələrə təkan verərək yalnız qurumlar, hökumətlər və müəssisələr arasında deyil, həmçinin mədəni və akademik reallıqlar arasında da inkişafa səbəb olmuşdur.

Sizin səfəriniz Sovet İttifaqından tam ayrılma prosesinin başlanğıcını qoyan və yaddaşlardan heç zaman silinməyən, tarixin acı səhifəsi olan Qara Yanvar faciəvi hadisələrinin baş verdiyi tarixdən 30 il sonraya təsadüf edir. Müstəqilliyini bərpa etdikdən sonra üçüncü onillik ərəfəsində Azərbaycan regionun ən inkişaf edən ölkələrindən biri və mədəniyyətlər, etnik qruplar və fərqli dinlərin birgəyaşayış modeli kimi özünü təsdiq etmişdir. Burada kökləri keçən əsrin əvvəlində dünyada qadınlara seçki hüququ verən ilk ölkələrdən biri olan Azərbaycan Xalq Cümhuriyyətinin qısa, lakin çox əhəmiyyətli tarixi təcrübəsinə dayanan tolerantlıq nümunəsi və fərqlilik içində sülh şəraitində birgəyaşayışdan söhbət gedir.

Cənab Prezident, 25 ildən çoxdur ki, mövcud olan diplomatik əlaqələr çərçivəsində İtaliya və Azərbaycan arasındakı münasibətlər müstəsna inkişafa nail olmuşdur. Bu, həmçinin öz baxışlarını Avro-Aralıq dənizi məkanına yönəldən və balanslaşdırılmış geosiyasi mövqeyinə görə güclü olan Bakının seçimi sayəsində mümkün olmuşdur.

Azərbaycanın Xəzər dənizi və Aralıq dənizi arasında körpü rolu oynaması digər tərəfdən də bu gün Cənub Qaz Dəhlizinin tamamlanmasına güclü təsir edir. Belə ki, TAP layihəsinin yekunlaşması ilə Azərbaycan qazı İtaliyaya nəql ediləcək. Bu da Avropa İttifaqının enerji siyasətinin əsası olan marşrutların və mənbələrin şaxələndirilməsi üçün önəmli bir göstəricidir. Bu siyasəti xarakterizə edən seçimləri hər zaman dəstəkləyən İtaliya Brüssel ilə yeni tərəfdaşlıq sazişinin imzalanması vasitəsilə Azərbaycan və Avropa İttifaqı arasında əlaqələrin daha da möhkəmlənməsinə müsbət baxır. Eyni istiqamətdə Bakı və Atlantik Tərəfdaşlıq Şurası arasındakı Aralıq dənizi sahəsində bütün maraqlı ölkələr üçün həyati əhəmiyyətə malik olan və sabitləşməyə töhfə verən sərfəli əməkdaşlıq davam edir. Azərbaycan və Avropa arasında əlaqələrin möhkəmlənməsi fərqli mədəniyyətlər və dinlərin daha ahəngdar birgəyaşayışı üçün əlverişli şəraitin yaranmasına imkan verə bilər.

Cənab Prezident, Azərbaycan öz enerji ehtiyatları ilə keçən əsrdə dünyada gedən əhəmiyyətli modernləşmə prosesinin baş qəhrəmanı oldu. Bu gün İtaliya Respublikası Sizin rəhbərliyinizlə Azərbaycanın iqtisadi, mədəni və sosial inkişaf yolunda addımlamasına dərin hörmət hissi ilə baxır. Qlobal səviyyədə birinci ticari tərəfdaş kimi Roma Sizin idarəetməniz sayəsində başladılan iqtisadiyyatın şaxələndirilməsi prosesində Azərbaycan Respublikasının yanında olmaq niyyətindədir və ətraf mühitin qorunmasına yönəldilmiş texnoloji innovasiyalara açıq elmi və sənaye yenilikləri ilə töhfə verməyə hazırdır.

Bundan əlavə, illərdir ki, ölkələrimiz çoxtərəfli sahələrdə, xüsusən də ikitərəfli əməkdaşlığımızda əhəmiyyətli şəkildə seçilən energetika və sənaye sektorlarında, həmçinin mədəni və sosial əhəmiyyətli təşəbbüslər daxil olmaqla, bir sıra uğurlu əməkdaşlıqlara imza atmışdır.

Xüsusi məmnunluq hissi ilə qeyd etmək istərdim ki, italyan dili və mədəniyyəti artan marağa səbəb olur.

Mən inanıram ki, elm, texnologiya və təhsil sahələrində bağlanmış sazişlər bizim xalqlarımız arasında mövcud olan qarşılıqlı anlaşmanı və dostluğu daha da gücləndirəcək.

Bu axşamkı konsert yalnız Azərbaycan yaradıcılığının qeyri-adiliyini deyil, həmçinin Azərbaycan və İtaliya arasında mövcud dərin mədəni oxşarlıqları bir daha sübut edir. Təsadüfi deyil ki, proqram İslam dünyasında ilk opera olan, keçən əsrin əvvəllərində Bakıda səhnələşdirilən və elə o dövrdən etibarən bizim mədəniyyətlərin yüksək sintezini ifadə edən, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” əsərinin məşhur bir parçası ilə başlayacaq.

Cənab Prezident, ölkələrimiz arasında əlaqələrin inkişaf perspektivləri geniş və dərin panoramaya malikdir. Sizin tarixi əhəmiyyətli dövlət səfəriniz də əminəm ki, bunu daha da gücləndirməklə strateji sektorlarda əməkdaşlığı inkişaf etdirərək Bakı və Roma arasında dostluğun təşviqinə töhfə verəcək.

Sizə, xanımınıza və Sizi müşayiət edən nümayəndə heyətinə bir daha “Xoş gəlmisiniz!” deyirəm.

Prezident İlham Əliyevin çıxışı

-Hörmətli cənab Prezident.

Hörmətli xanım Laura Mattarella.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, məni İtaliyaya dövlət səfərinə dəvət etdiyinizə, eləcə də mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə, cənab Prezident, Sizə minnətdarlığımı bildirirəm.

Azərbaycan və İtaliya arasında əlaqələrin zəngin tarixi vardır. Ən azı 30 min ildən artıq yaşı olan petroqliflərin yerləşdiyi və UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olunmuş Qobustan Dövlət Tarixi Qoruğu ərazisindəki qayalar üzərində Roma İmperiyası legionlarının bizim eradan əvvəl I əsrə aid latınca yazıları vardır. Bu yazılar Roma İmperiyası legionlarının Azərbaycan ərazisində olduğunu sübut edir. İtalyan səyyahı Marko Polo öz əsərlərində Azərbaycandan bəhs etmişdir. XV əsrdə Azərbaycan Ağqoyunlu dövləti ilə Venesiya Respublikası arasında siyasi, diplomatik əlaqələr qurulmuşdur. 1469-1478-ci illərdə Venesiya Respublikasının Azərbaycanda səfirliyi fəaliyyət göstərmişdir. Həmin dövrdə Azərbaycan ilə Neapol Krallığı arasında təmaslar mövcud olmuşdur. Müsəlman aləmində ilk parlament respublikası olan, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövründə də Azərbaycan və İtaliya arasında diplomatik münasibətlər yaradılmışdır. İtaliyanın Bakıda diplomatik təmsilçiliyi fəaliyyət göstərmişdir. 1972-ci ildə Azərbaycanın paytaxtı Bakı və İtaliyanın Neapol şəhərləri qardaşlaşmış elan edilmişlər. Hazırda Azərbaycan və İtaliya arasında əməkdaşlıq bütün sahələrdə uğurla inkişaf edir.

Cənab Prezident Sercio Mattarellanın 2018-ci ildə Azərbaycana rəsmi səfəri əlaqələrimizin inkişafına mühüm töhfə vermişdir. Səfər zamanı Mehriban Əliyevanı və məni İtaliyanın yüksək dövlət ordenləri ilə təltif etməyinizi Azərbaycan və İtaliya arasında dostluğun inkişafına verdiyimiz töhfənin təzahürü kimi qiymətləndiririk.

Cənab Prezident, bu gün biz Sizinlə olduqca səmərəli görüş keçirdik. Bu görüşümüz zamanı müzakirə olunan məsələlər iki ölkə arasındakı münasibətlərin strateji mahiyyətini təsdiqləyir. Dövlət səfəri çərçivəsində 20-dən çox sənədin imzalanması nəzərdə tutulur. Onların sırasında Azərbaycan və İtaliya arasında "Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"ni xüsusi olaraq qeyd etmək istərdim. Bu sənəd münasibətlərimizi daha yüksək səviyyəyə qaldıracaqdır. "Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"də Azərbaycan və İtaliya bir-birinin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstəyi bir daha təsdiqləyirlər. Sənəddə, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin bu prinsiplər əsasında həlli ilə əlaqədar birmənalı mövqe əks olunub. Bu prinsiplər BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi və təcavüzkar Ermənistanın qoşunlarının Azərbaycanın işğal olunmuş bütün torpaqlarından çıxarılmasını tələb edən qətnamələri ilə uzlaşır. Uzun illərdir ki, Ermənistan Azərbaycanın ərazilərini işğal etmiş, etnik təmizləmə aparmış, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

İqtisadi sahədə qarşılıqlı faydalı əməkdaşlığımız davamlı olaraq genişlənir, ticarət dövriyyəmiz yüksək səviyyədədir, İtaliya Azərbaycanın birinci ticarət və ixracat tərəfdaşıdır. 2019-cu ildə İtaliya ilə ümumi ticarət dövriyyəmiz 6 milyard dollardan artıq olmuşdur. İtaliyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 92 faizi Azərbaycanın payına düşür. Uzun illərdir ki, Azərbaycan İtaliya istehlakçılarını xam neftlə təchiz edir. İtaliyada istehlak olunan neftin 17 faizi ölkəmizin payına düşür. Keçən il Azərbaycan İtaliyanın ən böyük xam neft təchizatçısı olub. Azərbaycanın təşəbbüsü ilə reallaşan və Avropanın ən böyük infrastruktur layihələrindən olan Cənub Qaz Dəhlizinin həyata keçirilməsində Azərbaycan İtaliya ilə sıx əməkdaşlıq edir. Cənub Qaz Dəhlizinin son seqmenti olan TAP yekunlaşmaq üzrədir.

Mədəniyyət sahəsində münasibətlərimiz uğurla inkişaf edir. 2012-ci ildə Romanın görkəmli Villa Borgeze parkında dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışı olmuşdur. Hazırda Azərbaycan Dillər Universitetində italyan dili tərcüməsi ixtisası və italyan dili mərkəzi fəaliyyət göstərir. İtaliya Avropada azərbaycanlı tələbələrin ali təhsil aldığı əsas ölkələrdən biridir.

İtaliya qədim sivilizasiyanın beşiyidir. İtalyan mədəniyyəti, incəsənəti, kino sənəti Azərbaycanda çox sevilir. Çoxlu sayda Azərbaycan vətəndaşı hər il İtaliyaya turistik səfərlər edir. Son üç il ərzində İtaliyadan ölkəmizə gələn qonaqların səfər dinamikasında 40 faizdən çox artım qeydə alınmışdır.

Hörmətli cənab Prezident və hörmətli xanım Laura Mattarella, ölkənizə və dost İtaliya xalqına əmin-amanlıq, inkişaf və tərəqqi arzulayıram.

İtaliyada Azərbaycan Mədəniyyət İlinin açılışı münasibətilə konsert proqramı təqdim olunub

Fevralın 20-də Romadakı Kuirinale Sarayında "2020-ci il - İtaliyada Azərbaycan Mədəniyyət İli"nin açılışı münasibətilə konsert proqramı təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella konserti izləyiblər.

Konsertdə Azərbaycan Dövlət Kamera Orkestri görkəmli Azərbaycan və İtaliya bəstəkarlarının əsərlərini ifa edib.

İlham Əliyevin Romada rəsmi yolasalma mərasimi olub

İtaliya Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 21-də Romada rəsmi yolasalma mərasimi olub.

Romanın Kuirinale Sarayında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycanın və İtaliyanın dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Azərbaycan və İtaliya prezidentləri fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan Prezidenti İlham Əliyevə dövlət səfərindən çəkilmiş fotolardan ibarət albom təqdim olundu.

İtaliya Respublikasının Prezidenti Sercio Mattarella və qızı Laura Mattarella Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı yola saldılar.

Romada Azərbaycan-İtaliya biznes forumu keçirilib

Fevralın 21-də Romada Azərbaycan-İtaliya biznes forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev biznes forumda iştirak edib.

Tədbirin aparıcısı: Hamınızı salamlayıram. Bu gün burada bu qədər çox olduğunuza görə sizə təşəkkür edirəm. Bu gün biznes forumu açıq elan edirik. Mən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi burada gördüyümə çox şadam və şərəf hissi keçirirəm. İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq nazirini burada görməkdən çox məmnunam. Vaxt itirmədən sözü Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq nazirinə verirəm.

İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri biznes forumda çıxış etdi.

Nazir Luici Di Mayonun çıxışı

- Azərbaycan Respublikasının hörmətli Prezidenti cənab İlham Əliyev.

Əziz həmkarım Xarici İşlər naziri, hörmətli iş adamları, xanımlar və cənablar.

Bu gün sizi Xarici İşlər Nazirliyində görməkdən, xüsusilə də hörmətli Prezident cənab Əliyevlə birlikdə forumda iştirakdan çox böyük məmnunluq hissi duyuram. Bu gün burada olan nazirləri, eləcə də həm İtaliya, həm də Azərbaycan tərəfdən forumda iştirak edən iş adamlarını, dövlət qurumlarının nümayəndələrini salamlayıram.

Biz qeyd etmək istəyirik ki, İtaliya Aralıq dənizi və Avropa, Afrika və Asiya ilə bir yerdə böyük bir körpü təşkil edir. Bu körpü Avropa ilə Asiya arasında strateji tərəfdaşlığa malikdir. Azərbaycan və İtaliya istər tarixi, istərsə də coğrafi cəhətdən qədim ölkələrdir. Məşhur italyan səyyahı Marko Polo öz əsərlərində Azərbaycan haqqında, Yanardağ haqqında danışmışdır. O, hələ XIII əsrdə iş adamlarına, yəni, o vaxtın tacirlərinə Azərbaycan haqqında məlumat vermişdir.

Azərbaycan ilə İtaliya arasında münasibətlər həm dostluq əlaqələrinə əsaslanır, həm də mədəni, etnik, dini və müxtəlif dilləri birləşdirən dialoq üzərində qurulmuşdur. Sizin bu gün İtaliyaya səfəriniz ilk dövlət səfərinizdir. Bu, bizim əlaqələrimizin yüksək səviyyədə olduğunu göstərir.

Roma ilə Bakı arasındakı dostluğu və yaxınlığı Sizin İtaliyaya bu səfəriniz bir daha təsdiqləyir. Son illərdə İtaliya ilə Azərbaycan arasında ticari əlaqələr möhkəmlənib. Bu, bizim əlaqələrimizin dinamik şəkildə inkişafına böyük dəstək verib.

Dünən Çoxtərəfli Strateji Əməkdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması bizim əlaqələrimizə növbəti dəstək verəcək. Biz bilirik ki, bu əlaqələr təkcə energetika sahəsində deyil, eləcə də Roma ilə Bakı arasında olan körpünü özündə birləşdirir və münasibətlərimizin daha geniş şəkildə inkişafına kömək edəcək.

İtaliya Azərbaycanın birinci ticari tərəfdaşı hesab olunur. On ildən az müddətdə bizim ticari əlaqələrimiz 70 faizə qədər artıb. Son on ildə İtaliyanın Azərbaycandan olan idxalı 55,5 milyard avro təşkil edib. Bu gün burada iştirak edən italyan şirkətləri müxtəlif sahələr - nəinki neft və qaz sahəsi, eləcə də digər sahələr üzrə fəaliyyət göstərirlər. Bu şirkətlərin əlaqələrimizin inkişafına öz dəstəyini verməsi gözlənilir. Son 15 ildə İtaliya şirkətləri tərəfindən Azərbaycanda qazanılmış tenderlərin dəyəri 7 milyard avro təşkil edir.

Bizim münasibətlərimiz mühüm strateji əməkdaşlığımızı bir daha təsdiq edir. Həqiqətən də Azərbaycan hökumətinin iqtisadiyyat sahəsində, eləcə də iş adamları ilə münasibətləri möhkəmlətmək istiqamətində göstərdiyi səylərə görə çox böyük minnətdarlığımızı bildiririk. Hökumət biznes mühitinin, eləcə də KOB-ların və digər iş adamlarının hüquqi sistem baxımından qorunmasına böyük dəstək göstərir. Biz buna görə də təşəkkürümüzü bildiririk.

Bizim 100-dən çox şirkətimiz hazırda Azərbaycanda fəaliyyət göstərir. İstər dizayndan turizmə, istər aqrar sənayedən yaşıl texnologiyaya və istərsə də nəqliyyatdan logistikaya qədər hər bir sahədə biz Azərbaycanda fəaliyyət göstəririk. Təbii ki, bu, şirkətlərimizə Azərbaycanda göstərilən böyük dəstəyin nəticəsidir.

Cənab Prezident, mən bilirəm ki, bizim sənaye sahəsində əməkdaşlığımızı gücləndirmək üçün lazımi şərtlərimizin hamısı var. Biz bu fürsətləri, eləcə də imkanları bir yerdə dəyərləndirməliyik.

Mən bu gün biznes forumun əsas sektorlarını düşünəndə demək istəyirəm ki, İtaliya bütün bu sahələr üzrə dünya səviyyəsində böyük təcrübəyə malikdir. Məsələn, infrastruktur və nəqliyyat sahəsində İtaliya dünya səviyyəsində özünün əvəzolunmaz rolunu oynamışdır. Xüsusən də bu, şirkətlərin beynəlmiləlləşdirilməsi və KOB-lara dəstək verilməsində böyük rol oynayır. Biz əminik ki, italyan şirkətlərinin bacarıqları sizə kömək edəcək. Bu sahədə göstərdiyi dəstəklə, yeni İpək Yolunun yaradılması ilə Azərbaycan əsas nəqliyyat habına çevrilib. Məsələn, yeni Ələt Limanında xüsusi iqtisadi zonanın yaradılması buna misaldır.

Aqrar sənayedə bizim şirkətlərimiz texnologiya və istehsal səviyyəsi baxımından dünyada birincidir. İtaliya şirkətləri xüsusən də kənd təsərrüfatı avadanlığının təkmilləşdirilməsi üzrə ixtisaslaşmışdır. Həmin avadanlıqlar əsasən ətraf mühitin qorunmasında xüsusi rol oynayır. Bunun hesabına bizim kənd təsərrüfatımız istixana qazını 50 faiz azaldıb. Təbii ki, bu, Avropa İttifaqındakı digər ölkələrə nisbətən ən yaxşı göstəricidir.

Bərpaolunan energetika və ekodayanıqlı texnologiya sahəsində İtaliyanın uzunmüddətli təcrübəsi var. Günəş, külək və geotermik sahələrdə bərpaolunan enerji mənbələrinin istifadəsində zəngin təcrübəyə malikik. İtaliyanın 432 minə yaxın şirkəti son 15 ildə biotexnologiyaların inkişafına öz dəstəyini göstərmişdir. Xüsusilə biotexnologiyalar sahəsində şirkətlərin sayı 31,2 faiz təşkil edir, emal sahəsində isə 35,8 faiz.

Mən əminəm ki, Abşeron ərazilərinin münbitləşdirilməsində italyan şirkətləri böyük rol oynaya biləcəklər. Eləcə də demək istəyirəm ki, italyan şirkətləri infrastruktur, maşınqayırma, aqrar sənaye, rəqəmsallaşdırma, əczaçılıq və tekstil sahələrində fəaliyyət göstərməkdə çox maraqlıdırlar. İtaliya hökuməti də buna böyük dəstək göstərir. Çünki bildiyiniz kimi, ticari siyasətin strategiyası və beynəlmiləlləşdirilməsinin genişlənməsi ilə bağlı İtaliya hökuməti şirkətlərə öz dəstəyini göstərir. Burada əsas məqsəd şirkətləri xarici bazarlarda təqdim etmək və bu şirkətlərin sayını daha da artırmaqdır. Bu şirkətlərin, assosiasiyaların, eləcə də digər şirkətlərin bunu etməkdə əsas məqsədi onların həqiqətən güclü “nou-hau”ya malik olmasıdır. İtaliya hökumətinin məhz iş adamlarına dəstək verməsi onların Azərbaycanda fəaliyyət göstərməsinə kömək olacaq.

Cənab Prezident, mən bir daha Sizə təşəkkürümü bildirirəm. Çünki bu gün Sizin və eləcə də iş adamlarının burada iştirakı ölkələrimiz arasında qarşılıqlı əlaqələri daha da dərinləşdirəcək. Əminəm ki, bu, bizim əlaqələrimizdə yeni bir addım atmağa kömək edəcək. Hamınıza təşəkkür edirəm.

* * *

Sonra biznes forumda Azərbaycan Prezidenti çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

-Hörmətli cənab nazir.

-Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Mən çox şadam ki, İtaliyaya dövlət səfərim çərçivəsində İtaliya-Azərbaycan biznes forumu keçirilir. Əminəm ki, forum çox məhsuldar olacaq və forumun işi nəticəsində iki ölkə arasındakı iqtisadi və ticari əlaqələr yeni pilləyə qalxacaqdır. Mən buna əminəm. Bunu deməyə əsas verən bir çox amillər var. Bildiyiniz kimi, bu gün mənim İtaliyaya dövlət səfərimin sonuncu günüdür. Prezident Mattarellanın dəvəti ilə mən gözəl ölkənizdə dövlət səfərindəyəm və bu, münasibətlərimizin çox yüksək səviyyədə olmasının təzahürüdür. 2018-ci ildə Prezident Mattarella Azərbaycanda rəsmi səfərdə idi və deyə bilərəm ki, o səfərdən sonra iki dövlət arasındakı əlaqələrə çox güclü təkan verilmişdir. Dünən və bu gün 25-dən çox sənədin imzalanması bunun əyani sübutudur. Çünki yalnız bir-birinə çox yaxın olan ölkələr arasında bu qədər sənədlərin imzalanması mümkündür. Bu sənədlər bir çox sahələri əhatə edir. Siyasi, iqtisadi, mədəni, humanitar, təhsil, energetika, kosmik sənaye, hərbi sənaye və digər sahələri əhatə edən bu sənədlər gələcək əməkdaşlığımız üçün gözəl baza yaradır. Bu sənədlərin arasında çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannaməni xüsusilə qeyd etmək istərdim. Bu, çox ciddi siyasi sənəddir və əslində, bizim gələcək ikitərəfli əməkdaşlığımızın əsas prioritetlərini müəyyən edən bir sənəddir. Bu sənəddə çox önəmli müddəalar var. Bu müddəalar onu göstərir ki, bizim əlaqələrimiz hətta müttəfiqlik əlaqələrinə yaxındır. Çünki oradakı maddələrdən birində göstərilir ki, biz beynəlxalq təşkilatlarda maraqlarımızı nəzərə alaraq bir-birimizi dəstəkləyəcəyik.

O ki qaldı, iqtisadi sahəyə, cənab nazirin dediyi kimi, İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Ancaq biz onu bilməliyik ki, bu, ilk növbədə, Azərbaycandan İtaliyaya xam neftin ixrac edilməsinə görə mümkün olmuşdur. Bizim əsas vəzifəmiz ticarət əlaqələrimizin şaxələndirilməsidir. Neft-qaz sektorundan başqa layihələrin həyata keçirilməsi, hesab edirəm ki, belə imkanlar yaradacaqdır.

Azərbaycan uzun illərdir ki, İtaliyanı xam neftlə təchiz edir. Azərbaycandan gələn xam neft İtaliyanın istehlakının 18 faizini təşkil edir və Azərbaycan birinci yerdədir. TAP layihəsinin uğurla başa çatması nəticəsində Azərbaycan və İtaliya bundan sonra

onilliklər ərzində qaz sahəsində çox etibarlı tərəfdaşlar kimi birgə fəaliyyət göstərəcəklər. TAP layihəsi başa çatmaq üzrədir. Layihənin icrası 92 faiz təşkil edir və bildiyiniz kimi, TAP Cənub Qaz Dəhlizinin 4-cü seqmentidir. Bu günə qədər digər 3 seqmentdə işlər tamamilə başa çatıb. Əminəm ki, bu ilin sonunda biz layihənin tam istismara verilməsini qeyd edəcəyik. Dünən Nazirlər Şurasının Sədri cənab Konte ilə görüş zamanı mən onu Azərbaycanda keçiriləcək təntənəli rəsmi mərasimə dəvət etdim. O da bu dəvəti qəbul etdi.

Azərbaycan və İtaliya Cənub Qaz Dəhlizinin iki məntəqəsində yerləşir. Bizim aramızda daha 5 ölkə var. Bu nadir infrastruktur layihəsinə həm texniki, həm maliyyə, eyni zamanda, beynəlxalq əməkdaşlıq baxımından doğrudan da analoq tapmaq çox çətindir. Yeddi ölkəni birləşdirən, aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən maliyyələşdirilən və bir çox qabaqcıl şirkətlərin iştirakı ilə reallaşan bu layihə İtaliya-Azərbaycan dostluğunun təzahürüdür. Biz bu layihəni yalnız dostluq şəraitində icra edə bilmişik. Demək olar ki, biz layihənin artıq son mərhələsindəyik.

Eyni zamanda, indi bizim əsas vəzifəmiz TAP-dan sonrakı iqtisadi əməkdaşlığı dərinləşdirməkdir. Dünən mən işçi nahar əsnasında İtaliyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşmüşəm. Onların bir çoxu Azərbaycanda artıq uzun illərdir ki, fəaliyyət göstərirlər, bir çoxları isə fəaliyyətə başlamaq istəyirlər. Biz də bunu istəyirik və imzalanmış kontraktlar cənab nazirin qeyd etdiyi kimi, milyardlarla avro həcmindədir. Əminəm ki, gələcək əməkdaşlıq daha da genişmiqyaslı olacaq. Çünki strateji tərəfdaşlar kimi biz ticarət və biznes sahələrində də bir-birimizi dəstəkləməliyik.

Hesab edirəm ki, gələcək əməkdaşlıq üçün bir çox sahələr seçilə bilər. Əslində, bu sahələr dünən və bu gün imzalanmış və imzalanacaq sazişlərdə öz əksini tapıb. Mən nəqliyyat sahəsini xüsusilə qeyd etmək istərdim. Azərbaycan öz ərazisində nəqliyyat infrastrukturunu tamamilə yeniləşdirib. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında nəqliyyat infrastrukturu baxımından Azərbaycan dünyada 34-cü yerdədir. Dəmir yollarının səmərəliliyinə görə 12-ci, hava yollarının səmərəliliyinə görə isə 11-ci yerdədir. Azərbaycan - açıq dənizlərə çıxışı olmayan ölkə artıq beynəlxalq nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Şərq-Qərb nəqliyyat dəhlizi Azərbaycanın ərazisindən keçir. Bu, Azərbaycanın təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsindən sonra mümkün olmuşdur. Eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizi də Azərbaycanın ərazisindən keçir. Azərbaycan yeganə ölkədir ki, hər iki önəmli nəqliyyat dəhlizinin iştirakçısıdır və bu dəhlizlər, əslində, genişmiqyaslı beynəlxalq əməkdaşlığa da yol açıb. Hazırda biz Şimal-Qərb və Cənub-Qərb nəqliyyat dəhlizləri ilə bağlı işlərlə məşğuluq. Yüklər artıq bu dəhlizlər üzərindən dünya bazarlarına çıxarılır. Dünən imzalanmış memorandumun birində Azərbaycan Dəmir Yolları ilə İtaliyanın müvafiq qurumları arasında məsələ öz həllini tapıbdır. Biz İtaliyadan dəmir yolu texnikası alacağıq.

Kosmik sənaye də çox perspektivli sahədir. Azərbaycanın artıq 3 peyki vardır. İtaliyanın bu sahədə əldə etdiyi təcrübə bizim üçün çox maraqlıdır. Bu günə qədər iki ölkə arasında kosmik sənaye sahəsində əlaqələr olmayıb. Ancaq dünən imzalanmış sənədə görə biz artıq bu sahədə də əməkdaşlığı davam etdirəcəyik.

Sənaye istehsalının artması və Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi işində İtaliya şirkətləri bizə kömək göstərirlər. Cənab Mattarellanın səfəri çərçivəsində biz böyük neft-kimya müəssisəsinin açılışında bərabər iştirak etmişik. İtaliyanın aparıcı şirkətlərindən biri Azərbaycanda təqribən 1 milyard dollara yaxın dəyəri olan iki böyük sənaye müəssisəsi istifadəyə vermişdir. Yəni podratçı kimi işləmişdi. Hazırda həmin şirkət Azərbaycanda neftayırma zavodunun yenidən qurulmasında fəal iştirak edir. İmzalanmış kontraktların məbləği 800 milyon avrodan çoxdur. Bu, hələ başlanğıcdır və əminəm ki, Azərbaycanın gələcək sənaye inkişafında İtaliya şirkətləri öz rolunu oynayacaq.

Bildirməliyəm ki, keçən il Azərbaycanın qeyri-neft sənayesi 16 faiz, bu ilin yanvar ayında isə təqribən 14-15 faiz artmışdır. Bu, onu göstərir ki, sənaye istehsalına çox böyük diqqət göstərilir və özəl sektor bu sahəyə böyük investisiyalar qoymaqdadır. Əminəm ki, bundan sonra da bu istiqamətdə işlər aparılacaq.

Mən dünən imzalanmış sənədlər arasında birini də xüsusi qeyd etmək istərdim. Bu, hərbi sənaye kompleksinə aiddir. Bu da bir başlanğıcdır. Bu günə qədər İtaliya ilə Azərbaycan arasında hərbi sənaye sahəsində əməkdaşlıq olmayıb. Ancaq imzalanmış memorandum əsasında bu əməkdaşlığa start verilir. Əminəm ki, bu ilin sonuna qədər bütün lazımi texniki və kommersiya şərtləri razılaşdırılacaq və beləliklə, biz hərbi sənaye sahəsində uğurla əməkdaşlıq edəcəyik.

Cənab nazirin dediyi kimi, İtaliya şirkətlərinin kənd təsərrüfatı sahəsində çox böyük təcrübəsi var. Şirkətlərin bəziləri Azərbaycanda fəaliyyət göstərir. Hətta bir İtaliya şirkəti Azərbaycanda şərabçılığın inkişafı ilə məşğul olur və çox uğurla məşğul olur. O şirkətin istehsal etdiyi məhsul xarici bazarlara da ixrac edilir. Biz bu sahəyə də xüsusi əhəmiyyət veririk. Keçən il Azərbaycanda rekord səviyyədə-təqribən 200 min ton üzüm tədarük edilmişdir. Həmin üzümün əsas hissəsi texniki sortlardır. Ona görə hesab edirəm ki, şərabçılığın inkişafı çox perspektivli sahədir. İtaliyanın bu sahədə zəngin təcrübəsi var. Azərbaycanın da təcrübəsi var və müvafiq bazarlara çıxış üçün bizim heç bir problemimiz yoxdur.

Kənd təsərrüfatının digər sahələrini də qeyd etmək istərdim. İtaliyanın zeytunçuluq sahəsində böyük təcrübəsi var. Azərbaycan artıq zeytun yağlarını ixrac etməyə başlamışdır. Biz İtaliya şirkətlərini bu sahəyə məsləhətçi və podratçı kimi dəvət edirik. Fındıqçılıqda

Azərbaycan və İtaliya dünya miqyasında aparıcı istehsalçılardır. Biz deyəsən, üçüncü-dördüncü yerləri bölüşürük və bu sahənin də çox böyük perspektivi var. O cümlədən Azərbaycan İtaliyaya fındığın ixracı ilə məşğuldur və bilirəm ki, İtaliya şirkətlərinin bu sahəyə böyük marağı var. Biz onları dəvət edirik ki, Azərbaycanda bu və digər sahələri bizimlə bərabər inkişaf etdirsinlər. Çünki indi Azərbaycanda yeni texnologiyaların tətbiqi nəticəsində məhsuldarlıq kəskin şəkildə artır. İtaliyanın bu sahədə böyük təcrübəsinin olması, əlbəttə ki, bu əməkdaşlığı şərtləndirir.

Hesab edirəm ki, İtaliyanın turizm sahəsində nadir təcrübəsi var. İtaliya turistlərin sayına görə zənnimcə, dünyada birinci, ya ikinci yerdədir. Azərbaycanda da bu sahə inkişaf edir. Keçən il turistlərin sayı təqribən 20 faizə yaxın artıbdır. Şadam ki, son üç il ərzində İtaliyadan Azərbaycana gələnlərin sayı təxminən 40 faiz artmışdır. Bu, insanlar arasındakı əlaqələrə də çox müsbət təsir göstərir.

Azərbaycan ilə İtaliya arasında mədəniyyət sahəsindəki əməkdaşlığı xüsusilə qeyd etmək istərdim. Artıq səkkiz ildir ki, Villa Borgeze parkında dahi Azərbaycan şairi Nizaminin abidəsi ucalıb. Azərbaycanın Romada Mədəniyyət Mərkəzinin fəaliyyət göstərməsi ilə bağlı müvafiq addımlar atılıbdır. Şəhərin mərkəzində gözəl bina alınıbdır və əminəm ki, yaxın zamanlarda Azərbaycan Mədəniyyət Mərkəzi Romada fəaliyyətə başlayacaq.

Biz bütün başqa sahələrdə də əməkdaşlığa açığıq. Azərbaycanın gələcək planlarına gəldikdə, infrastruktur layihələri prioritet təşkil edəcək və biz İtaliya şirkətlərini dəvət edirik. Əminəm ki, biznes forum çərçivəsində Azərbaycanda görüləcək işlər haqqında təqdimat ediləcək və İtaliya şirkətləri məlumatlandırılacaqlar. Xüsusilə, içməli su layihələri, meliorativ tədbirlərin görülməsi və Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılması bu gün gündəlikdə duran məsələlərin arasındadır. Çünki Bakının da yerləşdiyi Abşeron yarımadasının neft hasilatına görə ekoloji vəziyyətinin yaxşılaşdırılmasına böyük ehtiyac var. Azərbaycan dövləti bu məqsədlərə böyük vəsait ayırır. Bildiyimə görə, İtaliya şirkətləri bu sahədə hələ ki, fəal işləmirlər. Digər Avropa şirkətləri, demək olar ki, bu sahəni əhatə edirlər. Ona görə mən İtaliya şirkətlərini bu sahəyə dəvət edirəm. Əminəm ki, Azərbaycan hökumətinin üzvləri bu məsələ ilə bağlı lazımi məlumatı təmin edəcəklər.

Əminəm ki, elektroenergetika sahəsində imzalanmış memorandum icra ediləcək. Yenə də qayıdıram Davos Ümumdünya İqtisadi Forumunun hesabatına. Orada göstərilir ki, elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Bizim bütün yaşayış məntəqələrimiz elektrik enerjisi ilə təchiz edilib. Biz elektrik enerjisini ixrac edirik. Bu ilin yanvar ayında iki böyük şirkətlə 440 meqavat gücündə külək və günəş elektrik stansiyalarının tikintisi ilə bağlı müvafiq sənədlər imzalanıb. İtaliya şirkətlərini də bu sahəyə dəvət edirik. Bizim bərpaolunan enerji ilə bağlı çox böyük potensialımız var. Azərbaycanda İtaliyadakı kimi, günəşli günlər kifayət qədər çoxdur. Ancaq İtaliyadan fərqli olaraq küləkli günlər də çoxdur. Bəzən bu, problem yaradır. Ancaq bərpaolunan enerjinin istehsalı üçün, hesab edirəm ki, bu, əlverişli amildir. Ona görə bu sahəyə də İtaliya şirkətlərini dəvət edirik.

O ki qaldı, Azərbaycanın ümumi iqtisadi inkişafına, ölkəmizin iqtisadi vəziyyəti çox sabitdir. Bizim çox aşağı səviyyəli xarici dövlət borcumuz var, ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Mənim tərəfimdən təsdiq edilmiş strategiyaya görə, bir neçə il ərzində bu, 10 faizə düşməlidir. Bizim valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan altı dəfə çoxdur. Ona görə biz istənilən vaxtda xarici borcu sıfırlaya bilərik. Yəni, bu, imkan verir ki, biz önəmli layihələrə beynəlxalq maliyyə bazarlarından da vəsait cəlb edək, baxmayaraq ki, Beynəlxalq Maliyyə Korporasiyası – IFC-nin hesabatında Azərbaycan artıq donor ölkə kimi tanınır və bu imkanlar gələcəkdə artacaqdır.

Onu da bildirməliyəm ki, Azərbaycan ölkədən kənarda böyük investisiyalar qoyur, böyük layihələr icra edir. Bu günə qədər ölkəmizin hüdudlarından kənarda təqribən 17 milyard dollar həcmində sərmayə qoyulubdur. İtaliya şirkətləri də bu layihələrdə iştirak edirlər. Dünən biz bu barədə söhbət etdik. Biz gələcəkdə Azərbaycanın maliyyə təminatı ilə xarici ölkələrdə reallaşan layihələrə İtaliya şirkətlərini də dəvət edirik.

Bütövlükdə son 16 il ərzində Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artıb. Bu, dünya miqyasında rekord göstəricidir. Eyni zamanda, əldə edilmiş gəlirlər ədalətli şəkildə bölünüb. Bunu deməyə əsas verən mühüm amil odur ki, 16 il bundan əvvəl Azərbaycan əhalisinin təxminən 50 faizi yoxsulluq şəraitində yaşayıb. Bu gün isə yoxsulluq şəraitində yaşayanların sayı 4,8 faizdir. Bir sözlə, ölkə qarşısında ciddi iqtisadi problemlər yoxdur. Əsas məsələ biznes iqliminin yaxşılaşdırılmasıdır və bu sahədə də islahatlar aparılıb və bu gün yəqin ki, bu barədə danışılacaq. Bir məsələni qeyd etmək istəyirəm ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan biznes mühitinin sağlamlaşdırılması istiqamətində atılmış addımlara görə 20 ən islahatçı ölkə sırasındadır.

Mən vaxtınızı çox almaq istəmirəm. Bilirəm ki, biznes forumun çox böyük gündəliyi var və İtaliya şirkətlərini maraqlandıran bütün suallara cavablar veriləcək. Çıxışımın sonunda bir məsələni qeyd etməliyəm. Artıq hökumət üzvlərinə bu barədə mənim tərəfimdən müvafiq göstəriş verilib ki, Azərbaycan və İtaliya dünəndən strateji tərəfdaşlar kimi əlaqələrimizin tarixində yeni səhifə açıblar. Avropa məkanında İtaliya bizim üçün bir nömrəli tərəfdaş ölkədir və tam əminəm ki, eyni tərəfdaşlıq biznes sahəsində də olmalıdır. İtaliya şirkətləri Azərbaycanda dövlət xətti ilə həyata keçirilən və keçiriləcək layihələrdə ön sıralarda olmalıdırlar. Biz

bunu arzulayırıq. Əminəm ki, İtaliya şirkətlərinin də marağı bizim marağımızla üst-üstə düşür. İnanıram ki, biznes forum bu istiqamətdə önəmli addım olacaqdır.

Göstərilən qonaqpərvərliyə görə bir daha həm Prezident Mattarellaya, həm Baş Nazir Konteyə, nazir Di Mayoya dərin təşəkkürümü bildirirəm. İtaliya xalqına daimi firavanlıq və xoşbəxtlik arzulayıram. Sağ olun.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 21-də Romada Azərbaycan Mədəniyyət Mərkəzi üçün nəzərdə tutulan bina ilə tanış olublar.

Bina ilə tanışlıq zamanı dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, burada Azərbaycan Mədəniyyət Mərkəzinin, həmçinin səfirliyimizin fəaliyyəti üçün hərtərəfli şəraitin yaradılması nəzərdə tutulur.

Binada yüksək səviyyədə təmir-bərpa işlərinin aparılması planlaşdırılır.

Prezident İlham Əliyev binanın əsaslı təmir layihəsi və görüləcək işlərlə bağlı tapşırıq və tövsiyələrini verdi.

Fevralın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Vatikanda Sikstin Kapellası və Müqəddəs Pyotr Kilsəsi ilə tanış olublar.

Heydər Əliyev Fondu tərəfindən hazırda Vatikanda bir neçə layihə həyata keçirilir. 2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Pyotr Kilsəsi arasında imzalanmış müqaviləyə əsasən, Müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefi və Vatikan Bazilikasındakı katakombalarda yerləşən "Tullius Zethus" məqbərəsi Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bərpa edilir və artıq işlər başa çatmaq üzrədir. Bu işlərin bu ilin may ayında başa çatması planlaşdırılır. 2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tacın Arxeologiya Şurası arasında imzalanmış müqaviləyə əsasən hazırda "Müqəddəs Komodiliya" katakombalarındakı mavzoleyin bərpası işləri aparılır və layihənin 2020-ci ildə başa çatması nəzərdə tutulur. 2016-cı ildə icrasına başlanan və 2018-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Müqəddəs Taxt-Tacın Mədəniyyət üzrə Pontifik Şurasının sədri kardinal Canfranko Ravazinin iştirakı ilə açılışı olan "Müqəddəs San Sebastian kilsə-muzey kompleksində katakombaların bərpası" layihəsi çərçivəsində son tamamlama işləri yekunlaşıb.

Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr müqəddəs Taxt-Tacda çox yüksək qiymətləndirilir. Bu işlər Fondun ümumbəşəri dəyərlərə verdiyi töhfələri bütün dünyaya nümayiş etdirir. Bununla yanaşı, bu layihələr həm də ölkəmizin müxtəlif dinlərin abidələrinə və müqəddəs yerlərinə verdiyi önəmi göstərir. Bütün bunlar isə multikultural dəyərlərə sadiq və bu dəyərləri təşviq edən ölkə kimi Azərbaycanın dünyadakı mövqeyini və yerini, həmçinin dinlərarası dialoqun qurulmasındakı rolunu möhkəmləndirir.

Qeyd edək ki, Sikstin Kapellasının yerləşdiyi bina Vatikanda Renessans dövrü italyan incəsənətinin ən görkəmli abidələrindən biridir. Qeyd olundu ki, 1481-1483-cü illərdə kapellanın divarlarına Musanın və İsanın həyatlarından səhnələr təsvir olunan freskalar çəkilib. XV əsrdə dünya şöhrətli italiyalı heykəltəraş Mikelancelo kapellanın tavanının və mehrab divarının rəsmlərini yaradıb. Bura həm də muzey kimi fəaliyyət göstərir.

Vatikandakı Müqəddəs Pyotr Kilsəsi italyan intibah memarlığının ən məşhur nümunələrindən və dünyanın ən böyük kilsələrindən biridir. Kilsədə ilk Roma Papası hesab edilən Müqəddəs Pyotr dəfn edilib. Bura həm də məşhur ziyarətgah və dini mərasimlər yeridir. Buna görə də erkən xristianlıq dövründən etibarən əksər Roma papaları burada dəfn olunub.

Diqqətə çatdırıldı ki, Müqəddəs Pyotr Bazilikası həm də məşhur ziyarətgah və mərasim yeridir. Roma Papası il ərzində bazilika və ya onun qarşısındakı Müqəddəs Pyotr meydanında bir neçə dini mərasim keçirir.

Fevralın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasına dövlət səfəri başa çatıb.

Romanın "Fiumicino" Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliya Respublikası Nazirlər Şurasının dövlət katibi Mario Turko və digər rəsmi şəxslər yola saldılar.

## *Goranboy rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Goranboy rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı Goranboy şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev Prezident İlham Əliyevə rayonda görülən işlər barədə məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Goranboy rayonuna səfəri çərçivəsində Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu avtomobil yolunun yenidənqurmadan və bərpadan sonra açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, uzunluğu 40 kilometr olan yol üçüncü və dördüncü texniki dərəcəlidir. Hərəkət hissəsinin eni 7-8 metr arasında dəyişən yolda iki hərəkət zolağı var. Bu yolun tikintisi dövlətimizin başçısının ötən ilin fevralında imzaladığı Sərəncama əsasən həyata keçirilib. Ümumilikdə 32 min əhalini əhatə edən 15 yaşayış məntəqəsini birləşdirən Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu avtomobil yolunun tikintisinə dövlət büdcəsinin investisiya xərclərindən 21 milyon manatdan çox vəsait ayrılıb. Bu yol həmin yaşayış məntəqələrinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında mühüm əhəmiyyət kəsb edəcək.

Ağcakənd yolunun vəziyyəti ilə maraqlanan Prezident İlham Əliyev dedi:

-Ağcakənd strateji məntəqədir. Bizim köçkünlər üçün tikilmiş birinci şəhərcik də orada yerləşir. O vaxt Ulu Öndərin iştirakı ilə açılışı olub.

Mən də orada idim. Orada erməni işğalı nəticəsində öz torpaqlarından didərgin düşmüş köçkünlər məskunlaşıblar. Ona görə o yol daim diqqət mərkəzində olmalıdır. Əgər təmirə ehtiyac varsa, mənə məruzə edərsiniz.

Qeyd edək ki, regionların inkişafı Dövlət proqramlarına uyğun olaraq son illərdə yol infrastrukturunun inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələr uğurla icra olunur.

Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə uyğun olaraq indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən yolların, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Bu tədbirlər, ilk növbədə, vətəndaşların həyatının yaxşılaşdırılmasına yönələn layihələrin davamlı olmasını nümayiş etdirir. Belə layihələrdən biri də Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu avtomobil yolunun tikintisidir.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak edib.

Dövlətimizin başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev xəstəxanada yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, 130 çarpayılıq Goranboy Rayon Mərkəzi Xəstəxanasının ərazisi 4 hektardır. Tikintinin ümumi sahəsi isə 21 min kvadratmetrdən çoxdur. Cərrahiyyə, terapiya, pediatriya, fizioterapiya, funksional diaqnostika, poliklinika, hemodializ şöbələrinin fəaliyyət göstərdiyi xəstəxanada xaricdə istehsal olunan ən müasir tibbi avadanlıq quraşdırılıb. Bu tibb müəssisəsində şüa-diaqnostika, reanimasiya, qəbul, laboratoriya, təcili tibbi yardım və digər şöbələr də fəaliyyət göstərir. Xəstəxanada əsas korpusla yanaşı, yoluxucu xəstəliklər korpusu, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Goranboy rayon şöbəsi yerləşir.

Sonra Prezident İlham Əliyev xəstəxananın kollektivi ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

- Goranboy Mərkəzi Rayon Xəstəxanasının açılışı münasibətilə sizi təbrik edirəm. Çox şadam ki, qısa müddət ərzində Goranboy şəhərində gözəl tibb mərkəzi yaradılıb. Mənim sərəncamımla iki il yarım bundan əvvəl tikinti başlamışdı və bu gün biz birlikdə bu xəstəxananı açırıq. Özünüz görürsünüz ki, burada bütün şərait ən yüksək standartlara cavab verir. Həm binanın özü çox müasirdir, yaraşıqlıdır, həm də burada quraşdırılan avadanlıq aparıcı şirkətlərin məhsuludur. Bu avadanlıq dünyanın aparıcı xəstəxanalarında olan avadanlıqlardan fərqlənmir. Belə də olmalıdır. Çünki mən demişəm ki, Azərbaycanda səhiyyə sahəsinin maddi-texniki bazası ən yüksək səviyyədə olmalıdır və biz buna nail oluruq.

Son 16 ildə Azərbaycanın ancaq bölgələrində 22 yeni xəstəxana, 15 diaqnostika müalicə mərkəzi inşa edilib, 28 mərkəzi rayon xəstəxanası əsaslı təmir olunub. Beş xəstəxananın tikintisi isə davam edir. Beləliklə, ancaq bölgələrdə 70 müasir tibb ocağı istifadəyə verilib. Əlbəttə ki, bu tibb ocaqları insanların sağlamlığına xidmət göstərir. Bakı şəhərində də bir çox xəstəxanaların tikintisi, təmiri artıq yekunlaşıb. Bütövlükdə, son 16 ildə ölkəmizdə 700-dən çox tibb müəssisəsi tikilib və əsaslı təmir olunub.

Əlbəttə ki, buna böyük vəsait lazımdır və dövlət büdcəsinin xətti ilə bu vəsait ayrılır. O cümlədən bu xəstəxana da dövlət investisiya proqramı çərçivəsində, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının əsasında inşa edilib. Bunun əsas məqsədi vətəndaşlara keyfiyyətli tibbi xidmətin göstərilməsidir.

Bu gün demək olar ki, bütün şəhərlərimizdə müasir tibb müəssisələri fəaliyyət göstərir. Bu tibb müəssisələrində həm müalicə, həm də diaqnostika aparmaq üçün bütün imkanlar var. Təsadüfi deyil ki, ildən-ilə müayinədən keçən vətəndaşların sayı artır və keçən il 5 milyona çatıb. Beş milyondan çox insan tibbi müayinədən keçib. Mən 10 il bundan əvvəl vətəndaşlara belə bir tövsiyə etmişdim ki, ildə bir dəfə hər bir vətəndaş müayinədən keçsin, öz sağlamlığı haqqında onda da, həkimlərdə də məlumat olsun, lazım olan halda müalicə alsın, cərrahiyyə əməliyyatından keçsin. Ancaq o vaxt lazımi şərait yox idi, bu gün isə bu şərait var. Ona görə belə gözəl tibb mərkəzinin yaradılması bizim siyasətimizin göstəricisidir. Baxmayaraq ki, buradan o

qədər də uzaqda olmayan Naftalan şəhərinin müasir tibb ocağı var və kiməsə belə gələ bilərdi ki, o xəstəxana Goranboy sakinləri üçün də xidmət göstərə bilər. Ancaq mən dedim ki, yox, Goranboyda xüsusi olaraq mərkəzi rayon xəstəxanası tikilməlidir. Çünki əvvəlki xəstəxananın binası artıq heç bir standartlara cavab vermirdi.

Bu, bir daha onu göstərir ki, bu istiqamətdə məqsədyönlü dövlət siyasəti aparılır. Belə gözəl şəraitdə həkimlər, əlbəttə ki, xəstələrə keyfiyyətli tibbi xidmət göstərməlidirlər. Xəstəxana, eyni zamanda, həkimlərin iş yeridir. Mənə verilən məlumata görə, burada 125 həkim və çox sayda tibb işçisi fəaliyyət göstərir. Ona görə belə gözəl şəraitin yaradılması həkimlərin məsuliyyətini də artırmalıdır. Xəstələrə həm diqqət və qayğı, həm də keyfiyyətli tibbi xidmət göstərilməlidir. Əminəm ki, bu xəstəxananın həkimləri vətəndaşlara keyfiyyətli tibbi xidmət göstərəcəklər.

Hazırda dünya gündəliyini zəbt edən koronavirus məsələsidir və demək olar ki, bütün ölkələrdə bu məsələ müzakirə olunur. Azərbaycana gəldikdə, deyə bilərəm ki, vəziyyət nəzarət altındadır və mənim göstərişimlə Nazirlər Kabinetinin yanında xüsusi operativ qərargah yaradılıb. Eyni zamanda, göstəriş vermişəm, əlavə 10 milyon manat vəsait ayrılsın ki, lazımi tədbirlərin görülməsi daha sürətlə aparılsın. İranda qalan Azərbaycan vətəndaşlarının təxliyə edilməsi üçün xüsusi tədbirlər həyata keçirilir. Onların həm quru sərhəddən, həm də hava nəqliyyatı vasitəsilə Azərbaycana gətirilməsi təmin ediləcək. Ancaq hər kəs anlamalıdır, onlar lazım olan müddət ərzində karantində qalmalıdırlar ki, Azərbaycanda xəstəlik yayılmasın.

Eyni zamanda, məktəblərin, ali məktəblərin, uşaq bağçalarının müvəqqəti olaraq bağlanması haqqında müvafiq göstərişlər verilibdir. Bunun da məqsədi uşaqları, yeniyetmələri o xəstəlikdən qorumaqdır. Yəni, bütün lazımi tədbirlər görülür. Azərbaycanda bu xəstəliyin bu günə olan məlumata görə, yayılması ehtimalı o qədər də yüksək deyil. Ancaq deyə bilərəm ki, gündə bir neçə dəfə bu məsələ ilə bağlı ölkə ərazisində monitorinqlər aparılır, bütün sərhəd-keçid məntəqələrində xüsusi cihazlar quraşdırılıbdır.

Onu da deyim ki, heç bir ölkə bu günə qədər yükdaşımalarının həyata keçirilməsinə məhdudiyyət qoymayıbdır, o cümlədən Azərbaycan da. Bildiyiniz kimi, Azərbaycan tranzit ölkədir və biz uzun illər çalışırdıq ki, öz tranzit potensialımızı genişləndirək, buna nail ola bilmişik. Heç bir tranzit yüklər üçün məhdudiyyət qoyulmur. Ancaq bu sahəyə də xüsusi diqqət göstərərək tranzit yüklərin, xüsusilə Cənub istiqamətindən ölkəmizə daxil olan, həm Azərbaycan istehlakçıları, həm də qonşu ölkələrin istehlakçıları üçün lazımi yüklərin çatdırılması ilə bağlı mütəşəkkil qaydada işlər aparılır, müvafiq yük maşınlarından ibarət xüsusi kolonlar formalaşdırılır, polis müşayiəti təmin edilib. Eyni zamanda, göstəriş vermişəm, xarici sürücülərə yemək təqdim edilsin ki, onlar idarə etdikləri maşınlardan tez-tez çıxıb ictimai yerlərə getməsinlər. Yəni, hər bir xırdalığa qədər düşünülmüş addımlar atılır, bunun da məqsədi Azərbaycan vətəndaşlarını bu xəstəlikdən qorumaqdır. Bu günə qədər bizim bütün addımlarımız uğurla nəticələnib. Biz daim Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasdayıq və xəstəliyi aşkar etmək üçün testlərin ölkəmizə gətirilməsi ilə bağlı işlər aparılır, bu məsələ öz həllini tapır.

Mənə verilən məlumata görə, son vaxtlar apteklərdə maskaların çatışmazlığı müşahidə olunur. Buna heç cür izahat tapmaq mümkün deyil. Çünki bizim kifayət qədər maska ehtiyatlarımız var. Görünür ki, hansısa möhtəkirlər bu vəziyyətdən istifadə edərək öz qanunsuz gəlirlərini artırmaq istəyirlər. Bütün hüquq mühafizə orqanlarına tapşırıq verilib ki, əgər belə hallar aşkar olunarsa, bu hallara yol verən vətəndaşlara qarşı ən ciddi cəza tədbirləri tətbiq ediləcəkdir. Çünki indiki şəraitdən istifadə edərək, öz tamahını təmin etmək üçün bəd əməllərə üz tutan ünsürlərə qarşı ancaq çox ciddi cəza tədbirləri tətbiq edilməlidir.

Ona görə bir daha Azərbaycan ictimaiyyətini əmin etmək istəyirəm ki, Azərbaycan hökuməti bütün lazımi tədbirləri görür. Bu günə olan mənzərəyə görə, narahatlığa heç bir ciddi əsas yoxdur. Karantində qalan vətəndaşların mütləq əksəriyyətində hələ ki, heç bir xəstəlik əlaməti aşkarlanmayıb. Əgər onların sağlamlığı normal olarsa, lazımi müddətdən sonra evlərinə buraxılacaqlar. Hesab edirəm ki, bu günə qədər bu məlumat kifayətdir. Eyni zamanda, göstəriş verilib ki, bu məsələ ilə bilavasitə məşğul olan bütün səhiyyə orqanlarının nümayəndələri - Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta Agentliyi müntəzəm olaraq vətəndaşları məlumatlandırsınlar.

Bir daha demək istəyirəm ki, bizim səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi, eyni zamanda, gözlənilməz hadisələrə də hesablanıb. Əlbəttə, biz belə gözəl xəstəxanaları ona görə inşa edirik ki, vətəndaşlar bundan istifadə etsinlər. Həmçinin hansısa bir fors-major vəziyyətdə, əlbəttə ki, belə tibb ocaqlarının mövcudluğu bizim imkanlarımızı genişləndirir. Şadam ki, Goranboy rayonunda belə gözəl tibb müəssisəsi artıq fəaliyyət göstərir.

Goranboy rayonunda dövlət xətti ilə bir çox infrastruktur layihələri icra edilib. Mənim göstərişimlə burada qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb. İndi qalan kəndlərin qazlaşdırılması nəzərdə tutulur. Bir neçə önəmli yol layihəsi icra edilib. Onlardan birini biz bu gün açmışıq. Yenə də vətəndaşların təklifləri var ki, yeni yolların, kənd yollarının çəkilişi təmin edilsin. Müvafiq göstərişlər veriləcək, sərəncam imzalanacaq. Təmirli yollar 65 faizə çatıb. Şəhərin içməli su ilə bağlı problemi 2014-cü ildə öz həllini tapdı. Mənim iştirakımla burada bu böyük layihənin açılışı həyata keçirilmişdir. Müasir Olimpiya İdman Kompleksi tikilir. Bu da idmançılar və ümumiyyətlə, vətəndaşlar üçün çox lazımlı bir obyektdir. Çünki mən demişəm və bir daha demək

istəyirəm ki, hər bir insan müntəzəm surətdə idmanla məşğul olmalıdır. Vaxtilə demişdim ki, hər bir insan müayinədən keçməlidir və biz buna demək olar ki, nail oluruq, əminəm ki, buna da nail olacağıq. Əgər hər bir insan müntəzəm olaraq idmanla məşğul olsa, onun sağlamlığı da yerində olacaq, immuniteti də yüksək olacaq və o, çox keyfiyyətli həyat tərzi sürərək həm çox yaşayacaq, həm də ki, həyatdan zövq alacaq.

Bundan sonra da Goranboy rayonunun inkişafı, iş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görüləcək. Goranboyda xalça fabriki açılıb. Bir sözlə, həm infrastruktur layihələri, həm sosial obyektlər, iş yerlərinin yaradılması ilə bağlı olan layihələr icra edilir və ediləcək. Bir daha sizi bu gözəl xəstəxananın açılışı münasibətilə təbrik edirəm, sizə uğurlar arzulayıram, qarşıdan gələn bayramlar münasibətilə, Novruz bayramı münasibətilə təbrik edirəm.

Xəstəxananın həkimi Gülnarə Aslanova: Möhtərəm cənab Prezident, icazə verin, Sizi Goranboy sakinləri adından salamlayım və rayonumuza "Xoş gəlmisiniz!" deyim. Bu gün bizim üçün əlamətdar bir gündür. 2017-ci ildə Sizin Sərəncamınızla Goranboy Rayon Mərkəzi Xəstəxanasının tikintisinə start verilmişdi. Heç ağlımıza gəlməzdi ki, bir neçə ildən sonra Goranboyda belə bir möhtəşəm xəstəxananın açılış mərasiminə yığışacağıq. Ona görə də, bu gün Sizə Goranboy sakinləri adından dərin minnətdarlığımı bildirirəm. Tibb kollektivi olaraq, Azərbaycan səhiyyəsinin qarşımıza qoyduğu vəzifələri layiqincə yerinə yetirəcəyimizə söz verirəm.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Çox sağ olun.

Həkim İlqar Musayev: Cənab Prezident, Goranboy camaatı, respublikamızın əhalisi, bütün dünya azərbaycanlıları bayram əhval-ruhiyyəsi içərisindədir. Milli bayramımız Novruz gəlir. Bu bayram bizim üçün əzizdir. Eyni zamanda, Sizin Goranboy rayonuna səfəriniz bu bayram əhval-ruhiyyəsini ikiqat artırır. Artıq neçə ildir ki, Goranboy əhalisi belə bir möhtəşəm binanın tikilib istifadəyə verilməsini arzulayırdı. Hər dəfə Sizin gəlişinizi gözləyirdik, Siz gələsiniz, bu xəstəxana açılsın. Allaha çox şükür, gəldiniz, bu xəstəxananın açılışında iştirak etdiniz, mübarək qədəmlərinizlə xeyir-duasını verdiniz. Allah Sizə cansağlığı versin. Goranboy camaatı adından təşəkkür edirik.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə səhiyyə sisteminin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülüb. Son illərdə ölkəmizdə yüzlərlə tibb müəssisəsi tikilib və ya əsaslı təmir edilib. Bu sahədə aparılan ardıcıl islahatlar səhiyyə sisteminin yeni, müasir mərhələyə qədəm qoymasına hərtərəfli zəmin yaradıb. Təqdirəlayiq haldır ki, səhiyyə sahəsinin inkişafı ilə bağlı icra olunan layihələr respublikanın bütün bölgələrini əhatə edib. Goranboy Rayon Mərkəzi Xəstəxanasının inşası da bu qəbildən olan tədbirlərdəndir. Bu cür müasir xəstəxana və tibb ocaqlarının inşası, ilk növbədə, vətəndaşların sağlamlığının qorunması, onların müayinə-müalicə işini yüksək səviyyədə qurmaq üçün atılan addımlardandır. Bu xəstəxanaların müasir, son texnoloji yeniliklərə əsaslanan avadanlıq və qurğularla təchiz olunması ölkəmizin ümumi inkişafının göstəricisidir. Bütün bunlar sübut edir ki, səhiyyə sisteminin təkmilləşdirilməsi Azərbaycanda həyata keçirilən dövlət siyasətində prioritet məsələ kimi daim diqqət mərkəzindədir və sosial siyasətdə mühüm yer tutan səhiyyə islahatları uğurla, həm də məqsədyönlü şəkildə davam etdirilir.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Goranboy filialının fəaliyyəti ilə tanış olub.

"Azərxalça" ASC-nin İdarə Heyətinin sədri Vidadi Muradov Prezident İlham Əliyevə müəssisədə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 1200 kvadratmetrdən çox olan filialın binasının tikintisi dövlətimizin başçısının 2018-ci ilin mayında imzaladığı Sərəncama əsasən həyata keçirilib. Bina toxuculuq emalatxanası, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu, konfrans zalı və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Gəncə şəhərində, Daşkəsən, Goranboy, Gədəbəy, Samux və Şəmkir rayonlarının kəndlərində toxunan orijinal xalça çeşnilərinə üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikanın bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı və bıçaqla təmin edilib. Burada 150 nəfər toxucunun və 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. Toxucular Goranboy yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində "Azərxalça"nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər.

Qeyd edək ki, Azərbaycan xalçaları bütün dövrlərdə dünyanı heyran qoyub, milli naxışlarımızın şöhrəti dünyanı qarış-qarış gəzib, ətrafında böyük diqqət toplayıb. Azərbaycan xalçalarının ta qədimlərdən başlayan şöhrəti bu gün yeni layihələrlə zənginləşir. Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması da məhz bu amildən qaynaqlanıb. Cəmiyyətin əsas məqsədi xalça və xalça məmulatlarının istehsalı, ixracı, onların ölkə daxilində və xaricdə satışının təşkili, xalça istehsalında yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadədir. "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti fəaliyyətə başlayandan artıq onun bir çox regionlarda filialları yaradılıb. Goranboy filialı da xalçaçılığın bu regionda inkişafına ciddi töhfə verəcək.

## *Şəmkir rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Şəmkir rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı əvvəlcə Şəmkir şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov rayonda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Şəmkir-Abbaslı-Nərimanlı avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verdi.

Bildirildi ki, ümumi uzunluğu 15 kilometr olan bu yol 2018-ci ilin investisiya xərclərindən ayrılmış vəsait hesabına inşa olunub. Yolun tikintisi 71 min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini rayon mərkəzi ilə birləşdirməklə yanaşı, sakinlərin respublika əhəmiyyətli Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yoluna çıxışını təmin edir.

Saleh Məmmədov Goranboy və Şəmkir rayonlarının ərazisindəki yolların yenidən qurulması ilə bağlı görülən işlər barədə də dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyev işlərin keyfiyyətlə görülməsi barədə tapşırıq və tövsiyələrini verdi.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Martın 3-də "Şəmkirçay" Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Şəmkirçay su anbarının ehtiyatlarının daxili mənbələr hesabına formalaşması ölkəmizin su təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyır. 2014-cü ildə istismara verilən və ümumi tutumu 164 milyon kubmetr olan anbar əkin sahələrinin suvarılması ilə yanaşı, respublikanın qərb bölgəsində yaşayan əhalinin içməli su təminatına da töhfələr verməkdədir. Burada toplanan suyun içməli su standartlarına uyğun olması, eyni zamanda, təbii durulmadan keçməsi nəzərə alınaraq anbardan həm də içməli su mənbəyi kimi istifadəyə qərar verilib. Anbarın relyef baxımından Gəncə, Şəmkir, Samux şəhərlərindən yüksəklikdə yerləşməsi yaşayış məntəqələrinin özüaxımlı rejimdə dayanıqlı su təchizatına imkan yaradır. Bütün bunlar nəzərə alınaraq "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sifarişi ilə su anbarının yaxınlığında məhsuldarlığı gündə 140 min kubmetr və ya saniyədə 1,6 kubmetr olan sutəmizləyici qurğular kompleksi inşa edilib. Bu kompleks məhsuldarlığına görə Azərbaycanın regionlarında tikilmiş ən böyük içməli sutəmizləyici qurğudur.

Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov rayonun aqrar sənaye kompleksində görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Sonra Prezident İlham Əliyev Şəmkirçay Sutəmizləyici Qurğular Kompleksinin açılışında iştirak etdi.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov kompleksin texniki-iqtisadi göstəriciləri barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, kompleksin tikintisinə 2016-cı ildə başlanılıb. Bu məqsədlə Şəmkir rayonunun Aşağı Seyfəli kəndinin cənub hissəsində, Şəmkirçay su anbarının yaxınlığında 3,3 hektar ərazi ayrılıb. Ərazidə qazıntı və kipləşdirmə işləri aparıldıqdan sonra bina və qurğuların tikintisinə başlanılıb. Kompleksin əsas hissəsini təşkil edən süzgəclər binası, ümumi tutumu 7500 kubmetr olan 3 su anbarı, 2 idarəetmə və 6 siyirtmə kamerası, inzibati və yardımçı binalar inşa edilib.

Sutka ərzində qurğuda emal olunacaq 140 min kubmetr suyun 100 min kubmetri Gəncə, 16 min kubmetri Şəmkir, 8 min kubmetri Samux şəhərinin, qalan hissəsi isə magistral kəmərlərin marşrutu boyu yerləşən kəndlərin tələbatının ödənilməsinə yönəldiləcək. Ümumilikdə, kompleksin imkanlarından istifadə olunmaqla perspektivdə 450 mindən artıq insan keyfiyyətli və fasiləsiz içməli su ilə təmin ediləcək.

Qeyd olundu ki, Şəmkirdə su layihələri tam başa çatıb, ilin sonunadək kanalizasiya xətlərinin inşası da yekunlaşacaq. Ağstafa, Göygöl və Goranboy, Tovuz şəhərləri də tamamilə layihələndirilib, Daşkəsən və Gədəbəydə şəbəkə işləri bitib, hazırda təmizləyici qurğuların inşası gedir.

Dövlətimizin başçısı kompleksi işə saldı.

Sonra Prezident İlham Əliyev kompleksin kollektivi ilə görüşdü və çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

-Bu gün açılışını etdiyimiz Şəmkirçay Sutəmizləyici Qurğular Kompleksinin ərsəyə gəlməsində Şəmkirçay su anbarının müstəsna rolu vardır. Çünki əgər vaxtilə biz böyük vəsait sərf edərək bu nəhəng layihəni icra etməsəydik, bu gün bu bölgənin insanlarının su ilə təchizatı işində və suvarma işlərinin yüksək səviyyədə təşkilində böyük problemlər olardı. Çünki keçən il quraqlıq geniş vüsət aldı. Əfsuslar olsun ki, bu ilin proqnozları da o qədər ürəkaçan deyil. Ona görə bu böyük layihələrin həyata keçirilməsi bizi böyük problemlərdən sığortaladı.

Eyni zamanda, Şəmkirçay su anbarı ilə bərabər, Taxtakörpü su anbarı da tikilib. Əgər Taxtakörpü su anbarı bir neçə il bundan əvvəl tikilməsə idi, keçən ilin yay aylarında Bakı şəhərində su qıtlığı yaranacaqdı. Çünki bizim əsas içməli su mənbəyimiz olan

Ceyranbatan su anbarını qidalandıran Taxtakörpü su anbarıdır. Orada sular yığılır və eyni zamanda, təbii yollarla təmizlənir, sonra Ceyranbatana axıdılır. Ona görə bu böyük infrastruktur layihələrinin çox böyük əhəmiyyəti, faydası var. Bu gün biz əkin sahələrimizi genişləndiririk, insanları içməli su ilə təmin edirik. Şəmkirçay su anbarından götürülən və burada təmizlənən su Gəncə, Samux və Şəmkir şəhərlərinin böyük hissəsini təmin edəcək. Bu gün Gəncə şəhərinin su təminatı, əsasən, Göygöl gölündən təmin edilir. Ancaq 2022-ci ildə Gəncə şəhərinin böyük su təchizatı layihəsi başa çatandan sonra bu şəhər Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun 24 saat fasiləsiz təmiz içməli su ilə məhz Şəmkirçay anbarından götürülən su ilə təmin ediləcək.

Bu layihələr bir daha onu göstərir ki, bizim bütün addımlarımız nəticəyə hesablanıb. Bütün addımlarımız vaxtında atılır. Hər iki böyük su anbarı Azərbaycanda tarixi layihələrdir. Çünki böyük əməktutumlu, maliyyətutumlu layihələrdir. Texniki cəhətdən çox mürəkkəb layihələrdir. Hər iki layihənin də təşəbbüskarı mən olmuşam, layihələrin icrası müddətində dəfələrlə bu işlərlə maraqlanmışam, müvafiq göstərişlər vermişəm, hər iki böyük layihənin açılışında iştirak etmişəm.

Biz bu gün insanları içməli su ilə təmin edirik və edəcəyik. Ölkəmizin əksər şəhərlərinin içməli su problemləri həll olunub, o cümlədən Şəmkir şəhərinin. Verilən məlumata görə, şəhərin kanalizasiya məsələsi də bu ilin sonuna qədər başa çatacaq. Samux şəhərinin də su problemi bu il həll olunacaq. Beləliklə, hələ də təmiz içməli su ilə təmin edilməyən şəhərlərin sayı təqribən 3-5 ətrafındadır. Onlar da maksimum iki il ərzində içməli su ilə təmin ediləcəkdir.

Eyni zamanda, müxtəlif qurumlarla kəndlərin su təminatı təşkil edilir - həm “Azərsu”, həm də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə təmizləyici qurğular hesabına. Bakı şəhərinin su problemləri həllini tapır. Mənə verilən məlumata görə, Bakı əhalisinin 80 faizi bu gün təmiz içməli su ilə davamlı təmin edilir. Bu proses hələ davam etdiriləcək. Ona görə bu layihələrin çox böyük tarixi əhəmiyyəti var. Su həyatdır, təmizlikdir, sağlamlıqdır, inkişafdır. Eyni zamanda, kənd təsərrüfatının inkişafı üçün əsas rol oynayır.

Şəmkir maşın su kanalının ikinci növbəsi tamamlanır və bundan sonra təkcə Goranboy rayonunda bu günə qədər suvarılmayan 40 min hektar torpağa su veriləcək. Bu, özlüyündə yeni iş yerlərinin yaradılmasına gətirib çıxaracaq, insanlar daha yaxşı yaşayacaqlar, kənd təsərrüfatı inkişaf edəcək, məhsuldarlıq artacaq, ixrac imkanlarımız genişlənəcək. Bütün bunlar regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarında nəzərdə tutulan layihələrdir. Onların da hər biri uğurla icra edilir.

Şəmkir rayonunun inkişafı ilə bağlı müvafiq addımlar atılır. Mənim tərəfimdən bir çox göstərişlər verilmiş, sərəncamlar imzalanmışdır. Şəmkir rayonunun infrastruktur layihələri uğurla icra edilir, qazlaşdırma 98 faizdir. İçməli su məsələsi həll olunub. Yolların çəkilişi davam etdirilir. Bu gün mənə məruzə edilən yeni layihələr həyata keçiriləndən sonra əsaslı təmirli keyfiyyətli yolların faiz dərəcəsi təqribən 80-ə çatacaq. Bu gün hələ ki, 40 faiz səviyyəsindədir. Ona görə hələ bir çox layihələr icra edilməlidir.

Bu yaxınlarda Mərkəzi Rayon Xəstəxanası açılmışdır. Çox gözəl, yeni binadır. Bütün lazımi avadanlıqla təchiz edilib, 190 çarpayılıq gözəl tibb müəssisəsidir. Digər sosial obyektlər inşa edilir, 37 məktəb tikilib və təmir edilib. Yəni, biz buna kompleks şəklində yanaşırıq. O cümlədən iş yerlərinin yaradılması ilə bağlı addımlar atılır. Böyük aqroparklar salınıbdır. Minlərlə hektar torpağı əhatə edən bu aqroparklar Şəmkir rayonunun kənd təsərrüfatı və ixrac potensialını böyük dərəcədə gücləndirir. Təsadüfi deyil ki, Şəmkir rayonundan xarici ölkələrə ixrac 10 milyonlarla dollar həcmindədir və bu, daha da artacaq. Potensial böyükdür, torpaq münbitdir, su var, insanlar zəhmətkeşdir, infrastruktur təmin edilir. İlyarımdan sonra Gürcüstan sərhədinə qədər dördzolaqlı yol çəkiləcək. Bundan sonra həm rayon, həm də ölkəmiz ancaq inkişaf yolu ilə gedəcək. Bu cür maliyyə tutumlu sosial layihələrə çox böyük vəsait tələb olunur. Əlbəttə ki, aşağı səviyyədə olan su tarifləri ilə biz bu vəsaiti heç vaxt dövlətə qaytara bilməyəcəyik. Qarşıya belə məqsəd də qoyulmayıb. Məqsəd insanları təmiz su ilə təmin etməkdir ki, onlar sağlam olsunlar. Kənd təsərrüfatını da meliorativ tədbirlərlə dəstəkləməkdir. Biz bu məqsədə də çatırıq. Əminəm ki, həm rayon, həm ölkəmiz bundan sonra da uğurla inkişaf edəcək. “Azərsu” əməkdaşlarına isə gördükləri işlərə görə təşəkkürümü bildirirəm və yeni uğurlar arzulayıram.

Sonda xatirə şəkli çəkdirildi.

## *Qazax rayonuna səfər*

Martın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazax rayonunda səfərdə olub.

Dövlətimizin başçısı Qazax şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov rayonda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Daş Salahlı-Ürkməzli-Dəmirçilər avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun texniki-iqtisadi göstəriciləri barədə məlumat verdi.

Bildirildi ki, yolun uzunluğu 16 kilometrdir. İki hərəkət zolaqlı yolun tikintisi dövlətimizin başçısının ötən ilin aprelində imzaladığı Sərəncama əsasən həyata keçirilib və onun inşası üçün investisiya xərclərindən 6,8 milyon manat vəsait ayrılıb. Avtomobil yolunun tikintisi 3 yaşayış məntəqəsinin və orada yaşayan 13 mindən çox əhalinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında mühüm rol oynayacaq.

Qeyd edək ki, ölkəmizdə yol infrastrukturunun yenilənməsi və müasirləşdirilməsi istiqamətində aparılan işlərin ardıcıl və keyfiyyətlə davam etdirilməsi Azərbaycanın iqtisadi inkişafının göstəricilərindən biridir. Bu işlər, eyni zamanda, davamlı tərəqqinin əsas amillərindən hesab olunur. Son illərdə respublika əhəmiyyətli yolların müasir səviyyədə yenilənməsinə xüsusi diqqət göstərilir. Mühüm məqamlardan biri də odur ki, bu layihələr qısa müddətə və yüksək keyfiyyətlə icra olunur. Qazaxın Daş Salahlı-Ürkməzli-Dəmirçilər avtomobil yolunun əsaslı təmiri də bunu bir daha təsdiqləyir.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramlarında bu sahəyə xüsusi yerin ayrılması dövlətin yeni yolların salınması məsələsinə nə qədər əhəmiyyət verdiyini aydın şəkildə göstərir. Çünki bu cür layihələrin icrası yolboyu yerləşən yaşayış məntəqələrinin sosial-iqtisadi tərəqqisinə böyük töhfə verir, turizmin, kənd təsərrüfatının inkişafında mühüm rol oynayır.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Qazaxda əhəng zavodunun açılışında iştirak edib.

Qazax rayonunda yeni fəaliyyətə başlayan və "Mətanət A" şirkətinə məxsus "Azerlime" əhəng zavodu regionda yerləşən tikinti-quruculuq işlərində mühüm rol oynayacaq. Rayonun Daş Salahlı kəndində yaradılan bu müəssisə yeni iş yerlərinin açılması, əhalinin məşğulluğunun təmin edilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.

"Mətanət A" şirkətinin rəhbəri Elxan Bəşirov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 2000-ci ildə əsası qoyulan şirkət inşaat materiallarının istehsalı sektorunda 20 ildir uğurla fəaliyyət göstərir. Şirkətin tərkibinə quru inşaat qarışıqları, gips əsaslı məhsulların buraxılışı, boya, beton qatqıları, avadanlıq və dəzgahların istehsalı, açar təhvili sahəsində ixtisaslaşmış zavodlar daxildir.

Prezident İlham Əliyevə şirkətin hazırda icra edilməkdə olan və perspektiv layihələri barədə məlumat verildi. Bildirildi ki, daş yunu zavodu və gips lövhə zavodu artıq icra olunma mərhələsindədir. Perspektiv layihələrdə isə illik istehsal gücü 300 min ton olan zənginləşdirilmiş kvars qum zavodunun və illik istehsal gücü 200 min kubmetr olan yüngül bloklar zavodunun tikilməsi nəzərdə tutulur. Bu zavodların yaradılmasına ümumilikdə 90 milyon manat investisiya qoyulacaq və dövlətin güzəştli kreditlərindən də istifadə olunacaq. Zavodların yaradılması nəticəsində 1000-ə yaxın daimi iş yeri açılacaq.

Dövlətimizin başçısı "Azerlime" əhəng zavodunu işə saldı.

Prezident İlham Əliyev "Azerlime" əhəng zavodunda istehsal edilən məhsullara baxdı. Bu məhsullar müasir standartlara cavab verməklə yanaşı, həm də Azərbaycan brendi kimi ölkəmizin iqtisadi potensialını dünyaya nümayiş etdirəcək. Müəssisədə quraşdırılan müasir avadanlıqlar hesabına məhsullar yüksək keyfiyyəti ilə seçiləcək. Zavodda əsasən yerli xammaldan istifadə olunacaq. Hazırlanan məhsulların 60 faizi daxili bazarın tələbatının ödənilməsi, 40 faizi isə ixracat üçün nəzərdə tutulur. Bu zavodda istehsal olunan keyfiyyətli əhəng məhsulundan metallurgiya, qida, əczaçılıq, su təmizlənməsi, kənd təsərrüfatı, səhiyyə, kimya, plastik məmulat, şüşə və mədən sənayeləri kimi vacib sektorlarda istifadə edilir.

Zavodda istehsal olunan yeni növ "Azerlime" suvaq üçün əhəng məhsulu inşaat sektorunda inqilabi yenilikdir. Müəssisənin istehsal prosesində ekoloji təmiz məhsul əldə etməyə və enerjiyə qənaətə xüsusi diqqət yetirilir. Bu isə öz növbəsində, məhsulun maya dəyərini aşağı salır.

Sonra Prezident İlham Əliyev rayon ictimaiyyətinin bir qrupu və zavodun kollektivi ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

- İlk növbədə, sizi zavodun açılışı münasibətilə təbrik edirəm. Çox şadam ki, şirkətiniz yeni zavodun ərsəyə gəlməsində fəallıq göstərib və beləliklə, ölkəmiz, xalqımız üçün çox önəmli bir töhfə verib.

Artıq bir neçə zavod fəaliyyətdədir. Mənim də tövsiyəm o idi ki, bütün sərmayələr Azərbaycana qoyulsun, sizin başqa planlarınız var idi. Mən sizin fəaliyyətinizlə mütəmadi surətdə tanış oluram. Çünki yeni açılan sənaye müəssisələrinin hər biri çox önəmlidir, xüsusilə o müəssisələr ki, daxili tələbatı ödəyir və eyni zamanda, ixracyönümlü məhsullar buraxır. Ona görə mən eşidəndə ki, sizin xarici ölkələrə investisiya planlarınız var, dedim ki, buna etiraz etmirəm. Çünki indi Azərbaycanın həm özəl, həm dövlət şirkətləri xaricə də sərmayə qoyur. Ancaq, ilk növbədə, Azərbaycanda müəssisələrin yaradılması məqsədəuyğundur ki, iş yerləri açılsın, yerli istehsal inkişaf etsin, idxaldan asılılıq azalsın, ixracyönümlü məhsullar ortaya çıxsın və bu da ölkəmizə valyuta gətirsin. Bu gün mənə burada stendlərdə göstərilən təqdimatda görürəm ki, doğrudan da şirkətin fəaliyyəti çox genişmiqyaslıdır və yüzlərlə iş yerinin yaradılmasına gətirib çıxarıb, xüsusilə bölgələrdə. Təkcə bu yeni əhəng zavodunda 150, ondan sonrakı

mərhələdə 250 nəfərin işlərə cəlb edilməsi nəzərdə tutulur və beləliklə, vətəndaşları işlə təmin etmək üçün yaxşı imkanlar var.

O ki qaldı, sizin gələcək planlarınıza, əminəm ki, dövlətin dəstəyi ilə bu planlar həyata keçəcək. Çünki bu zavodların və sizin səmərəli fəaliyyətiniz üçün dövlət öz tərəfindən maliyyə dəstəyi göstərib, güzəştli şərtlərlə kreditlər ayırıb. Amma, əlbəttə ki, əsas yükü siz öz üzərinizə götürmüsünüz və bu da təbiidir. Dövlət isə hər zaman sahibkarların yanında olacaq, sahibkarlığın inkişafına bundan sonra da böyük təkan verəcək.

Bu gün ölkəmizdə sərmayə iqlimi çox müsbətdir. Təsadüfi deyil ki, keçən il ölkə iqtisadiyyatına 13,5 milyard dollar sərmayə qoyulub. Bu il də bu proses davam etdirilir və sərmayənin böyük hissəsi yerli sərmayədir. Bu, onu göstərir ki, yerli şirkətlər artıq ayaqda möhkəm dayana bilir və dövlətin dəstəyi ilə bu işlər davam etdiriləcək. Təkcə Sahibkarlığın İnkişafı Fondunun xətti ilə sahibkarlara 2 milyard manat məbləğində güzəştli kreditlər verilib və bu kreditlərin hesabına on minlərlə yeni iş yeri yaradılmışdır.

Bizim investisiya iqlimimizin müsbət olmasını Dünya Bankı da qeyd edir və biz bu reytinqlərdə 20 ən islahatçı ölkə sırasındayıq. Əlbəttə ki, buna nail olmaq üçün çox düşünülmüş siyasət aparılmalıdır. Əminəm ki, təkcə Dünya Bankı yox, eyni zamanda, yerli sahibkarlar da aparılan islahatları görürlər və bəyənirlər. Çünki sahibkarlar üçün əsas məsələ düzgün qaydaların tətbiq edilməsidir. Bu istiqamətdə dövlət siyasəti birmənalıdır, bütün sahələrdə, o cümlədən maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir. Bu şəffaflıq hesabına təkcə keçən il vergi və gömrük orqanları proqnozdan əlavə büdcəyə 1 milyard manat daxil ediblər.

Baxmayaraq ki, bu ilin büdcəsi rekord həddə çatıb, Azərbaycan tarixində bu ölçüdə, bu böyüklükdə büdcə xərcləri olmayıb. Büdcə hazırlanarkən çox geniş təhlil işləri aparılıb ki, proqnozlar nədən ibarət olacaq. Proqnozlar keçən ilə görə artırılıb. Buna baxmayaraq, yanvar-fevral aylarında vergi orqanları büdcəyə proqnozdan əlavə 180, gömrük orqanları isə 70 milyon manat vəsait daxil ediblər. Bütövlükdə 250 milyon manat, cəmi iki ay ərzində. Nəyin hesabına? Şəffaflıq, dürüstlük, təmizlik və vergi bazasının genişləndirilməsi hesabına. Ona görə sahibkarlar da bu işlərə tam dəstək verərək, həm öz maliyyə imkanlarını genişləndirəcəklər, onlarda əlavə vəsait toplanacaq. Bu vəsaiti də, ilk növbədə, Azərbaycana yatırmaq lazımdır. Eyni zamanda, bu müsbət tendensiyalar kölgə iqtisadiyyatına da böyük zərbədir. Kölgə iqtisadiyyatının həcmi kəskin daralır, daha da daralmalıdır və proqnozdan əlavə yığılan vəsait bunun bariz nümunəsidir.

Qeyri-rəsmi məşğulluq olmamalıdır. Əminəm ki, sizin müəssisədə bu, yoxdur. Bütün işçilərlə əmək müqavilələri bağlanmalıdır. Yenə də bütün işçilərə üz tutub deyirəm ki, əgər hansısa sahibkar sizi qanunsuz işə cəlb etmək istəyirsə, buna razı olmayın. Çünki siz pensiya almayacaqsınız və icbari tibbi sığorta ilə təmin olunmayacaqsınız. İcbari tibbi sığorta isə bu ildən başlayaraq mərhələli şəkildə ölkəmizi tam əhatə edəcək. Ancaq qeyri-rəsmi işləyən hər bir vətəndaş bundan məhrum olacaq və gedib tibbi xidməti almaq üçün pul verməli olacaq. İcbari tibbi sığorta artıq pulvermə praktikasına da tamamilə son qoyacaq. Çünki əfsuslar olsun ki, bu gün bizim hələ də bu sahədə ciddi problemlərimiz var, pozuntular var. İcbari tibbi sığorta bunun qarşısını alacaq. Eyni zamanda, qeyri-formal məşğulluğa qarşı da ciddi mübarizə üsulu olacaq.

Bu gün bu zavodun açılışı bir daha onu göstərir ki, ölkəmizdə düzgün iqtisadi siyasət aparılır. Biz sahibkarlıqla bağlı görülən tədbirlərin real nəticəsini görürük. Çünki bizim iqtisadiyyatımız özəl sektor hesabına inkişaf etməlidir. Dövlət, sadəcə olaraq, şərait yaratmalıdır, infrastruktur layihələri həyata keçirməlidir ki, sahibkarlar da bu işlə həvəslə məşğul olsunlar.

Qazax rayonunda elektrik enerjisi ilə bağlı problem yoxdur, 100 faiz təmin olunub. Qazlaşdırma ilə bağlı da problem yoxdur. Qazax rayonu qazla 100 faiz təmin edilib. Bu gün Qazaxda yolların 85 faizi təmirlidir. Əgər bu sahələrdə problem olsaydı, heç bir sahibkar buraya gəlib pul qoymazdı, o cümlədən də siz. Başqa yer tapardınız, gedərdiniz başqa ölkələrə, harada ki, bu infrastruktur var. Ona görə bunu biz yaratmışıq ki, insanlar yaxşı, rahat yaşasınlar və sahibkarlar vəsait qoysunlar. İcra başçısı mənə deyir ki, Daş Salahlı kəndində üç böyük müəssisə var. Bu müəssisələrdə 1300 adam işləyir. Kəndin əhalisinin sayı 10 mindir, 1300-ü burada işləyir. Bax, budur bizim gördüyümüz işlər və sahibkarların gördüyü işlər. Ona görə sahibkarlara mərkəzi dövlət orqanları, yerli icra orqanları daim dəstək göstərməlidirlər. Onların problemləri həll olunmalıdır. Mənə indi məlumat verilir ki, biz yeni yol çəkmişik, amma bu yük maşınları o yolu dağıda bilər. Yük maşınları üçün alternativ yol çəkilməlidir. İndi mən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə tapşırıq verəcəyəm, məni eşidirlər. İki kilometr uzunluğunda yeni yolun çəkilişi təmin edilməlidir ki, kənd yolu belə normal qalsın və deformasiyaya uğramasın.

Sizi bir daha təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Belə müəssisələri yaradın ki, mən gəlim sizinlə birlikdə bunların açılışında iştirak edim.

“Azerlime” əhəng zavodunun icraçı direktoru Fuad Bəşirov dedi:

-Təşəkkür edirəm, cənab Prezident. Qazax rayonuna və zavodumuza xoş gəlmisiniz. İcazə verin, kənd camaatı adından və kollektivimiz adından Sizə səmimi salamlarımızı çatdıraq. Bu, çox sevindirici bir haldır ki, artıq üçüncü dəfədir Siz Daş Salahlı kəndində böyük bir müəssisənin açılışında iştirak edirsiniz. Bu gün ölkəmizin bütün regionlarının, bölgələrinin siması dəyişir. Bunu hər birimiz öz gündəlik güzəranımızda da hiss edirik.

Cənab Prezident, bu gün təkcə şəhər mərkəzlərində, rayon mərkəzlərində deyil, hətta ucqar kəndlərdə belə hər bir problem Sizin diqqət mərkəzinizdədir və daim nəzarətinizdədir. Təsadüfi deyil ki, düşmənlə üz-üzə olan bir yerdə, dağ kəndi olan Daş Salahlıda belə bir açılışı biz həyata keçiririk. Onu da qeyd edim ki, bu zavoda 15 milyon dollar sərmayə qoyulub. Bunun 9 milyonu dövlətimizin dəstəyi hesabına başa gəlib. Eyni zamanda, İqtisadiyyat Nazirliyinin dəstəyi ilə də biz bu layihə üçün təşviq sənədi almışıq. Bu gün 250 iş yerinin açılmasını nəzərdə tuturuq. Orta aylıq əməkhaqqı da 500 manat olacaq. Mütəxəssislər arasında isə 1000 manat, 800 manat əməkhaqqı alanlar da var. Bu işçilərin əksəriyyəti Daş Salahlı kəndindəndir. Burada maraqlı bir məqam var, bu gün elə ailələr var ki, Daş Salahlı kəndində hər iki valideyn müasir zavodda işləyir, övladını da bağçaya qoymaq imkanı yaranıb. Bu, nədən irəli gəlir? Bu, yüksək infrastrukturun, müasir bağça və məktəblərin yaradılmasından irəli gəlir. Bu, eyni zamanda, bir mədəni inqilabdır. Bu gün artıq mədəni yanaşma da dəyişir. Bütün bunlar Sizin gecə-gündüz bilmədən böyük əzmlə hər bir vətəndaşınızı düşünməyinizin nəticəsidir.

Bir məsələni də qeyd edim ki, bu gün bu zavodun tikilməsində biz Almaniya, İsveçrə mütəxəssislərinin biliklərindən də istifadə etmişik. Ancaq bu gün əminliklə deyə bilərik ki, o mütəxəssislər gedib, onların dəstəyi olmadan yetişən yerli kadrlar bu işi öz gücləri ilə həyata keçirirlər. Bundan əlavə, onların da əksəriyyətini gənclər təşkil edir. Mən özüm dövlətimizin dəstəyi ilə Almaniyada və İngiltərədə təhsil almışam. İqtisad üzrə fəlsəfə doktoruyam və bu gün idarəetmədə iştirak edirəm. Mən tək nümunə deyiləm. Mənim kimi bu gün bu müəssisədə fəhləlikdən başlayıb mütəxəssis səviyyəsinə qalxan çoxsaylı insanlar var. Ona görə gənclərlə bağlı dövlət siyasətinə və gənclərə göstərilən bu qayğıya görə Sizə dərin minnətdarlığımızı bildiririk. Bir daha bütün kollektivin adından Sizə cansağlığı və təşəkkürümüzü bildiririk. Sizi əmin edirik ki, öz uğurlarımızla Sizin siyasətinizə dəstək verəcəyik və etimadınızı doğruldacağıq. Allah Sizi qorusun, çox sağ olun.

Prezident İlham Əliyev: Çox sağ ol. Sizə də cansağlığı arzulayıram.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Qazax Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak edib.

Dövlətimizin başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi. Səhiyyə islahatlarının mühüm istiqaməti olan tibb müəssisələri şəbəkəsinin və strukturunun təkmilləşdirilməsi sahəsində son illərdə görülən işlər göz qabağındadır. Əhalinin sağlamlığının qorunmasında və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında səhiyyənin prioritet sahələri üzrə qəbul olunan Dövlət proqramları müstəsna rol oynayıb. Bu proqramlar dövlət tərəfindən maliyyələşdirilib və ölkə üzrə bütün tibb müəssisələrinin yenidən qurulmasını əhatə edib. Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşdırılan sosialyönümlü siyasətin mühüm tərkib hissəsi kimi ölkədəki tibb ocaqlarında xidmətin pulsuz həyata keçirilməsi, əhalinin icbari tibbi sığortasının təşkil olunması və icrası uğurla davam edir. Ölkədəki səhiyyə islahatlarının əsas qayəsi həm də aztəminatlı və ağır xəstəliklərdən əziyyət çəkən insanların pulsuz dərmanlarla təmin olunmasına və müalicəsinə yönəlib.

Dövlətimizin başçısına məlumat verildi ki, Qazax Rayon Mərkəzi Xəstəxanasının binası 1969-cu ildə yataqxana kimi istifadəyə verilmişdi və uzun illər təmir işlərinin aparılmaması səbəbindən bina yararsız vəziyyətə düşmüşdü. Yeni xəstəxana binası üçün 2013-cü ildən başlayan tikinti işləri ötən ilin sentyabrında yekunlaşıb. Üç hektarlıq ərazidə 145 çarpayılıq müasir tibb müəssisəsi inşa olunub. Xaricdə istehsal olunan avadanlıqla təchiz edilən xəstəxana binasının ümumi sahəsi 22 min kvadratmetrdir. Burada doğum, terapiya, cərrahiyyə, uşaq xəstəlikləri, anesteziologiya-reanimasiya, poliklinika, şüa-diaqnostika, hemodializ və digər şöbələr fəaliyyət göstərəcək. Xəstəxana binasında qəbul, laboratoriya, təcili tibbi yardım şöbələri və Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi ilə yanaşı, yoluxucu xəstəliklər korpusu, Gigiyena və Epidemiologiya Mərkəzi də fəaliyyət göstərəcək.

Prezident İlham Əliyevə icbari tibbi sığortanın tətbiqi ilə bağlı dövlət xəstəxanalarında tibbi fəaliyyətin təşkilindəki əsas dəyişikliklər barədə məlumat verildi. Bildirildi ki, təcili və təxirəsalınmaz tibbi yardım bölməsi həftənin 7 günü 24 saat fəaliyyət göstərərək müraciət edən xəstələrin çeşidlənməsini, stasionar şöbələrə yerləşdirilməmişdən əvvəl həkim nəzarəti altında müayinə və müalicələrinin həyata keçirilməsini təmin edir. Xəstələr bu bölmənin fəaliyyəti nəticəsində müşahidə altında saxlanılır, hər şey qaydasında olarsa, ambulator müalicə üçün evə yazılır, nəticədə stasionar şöbələrə düşən yükün həcmi kəskin azalır. Steril şəraitin təmin edilməsi üçün laboratoriya şöbələri xəstələrin birbaşa daxil ola biləcəyi ərazilərdən kənarda yerləşdirilib, qan və digər nümunələrin alınması üçün xüsusi otaqlar yaradılıb, zəruri avadanlıqla təmin edilib. Ambulator tibbi xidmətin göstərilməsi üçün xəstəxana binalarının birinci mərtəbələrində poliklinikalar yaradılıb. Bütün həkimlər ambulator xəstə qəbulunu poliklinikalarda həyata keçirirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qazax filialının fəaliyyəti ilə tanış olub.

"Azərxalça" ASC-nin İdarə Heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısına müəssisədə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 1200 kvadratmetrdən çox olan filialın binasında 150 toxucu işləyəcək və onların hamısı yerli sakinlərdir. Onlar bir neçə ay

ərzində "Azərxalça"nın burada təşkil olunmuş tədris-hazırlıq kurslarında iştirak edib, bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları "Azərxalça" ASC-nin sertifikatını alacaqlar.

Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 40-dan çox dəzgahda Azərbaycan xalçaları toxunacaq. Emalatxana zəruri xammal və ləvazimatlarla təmin edilib. Xalça-satış salonunda "Azərxalça" ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgilənməsi və satışı həyata keçiriləcək.

Qeyd edək ki, qədim el sənətlərindən olan xalçaçılığın inkişafı ilə bağlı Qazax rayonunda icra olunan layihə də öz əhəmiyyəti ilə fərqlənir. Bu sahənin inkişafına xüsusi önəm verən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində artıq bir çox bölgələrdə xalça fabrikləri istifadəyə verilib və bəzi regionlarda yeni fabriklərin açılması istiqamətində işlər gedir. Hazırda dövlət səviyyəsində bu fabriklərin yerli istehsal hesabına xammalla təmin olunması diqqət mərkəzindədir. Prezident İlham Əliyev həmişə vurğulayır ki, bu fabriklərin açılması xüsusilə qadınların işlə təmin olunmasında müstəsna əhəmiyyətə malikdir. Bu baxımdan Qazaxdakı xalça fabriki də fərqlənir. Müəssisədə əsasən Ağstafa, Qazax və Tovuz rayonlarının yaşayış məntəqələrindəki orijinal xalça çeşnilərinin toxunmasına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb.

## *Ağstafa rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Ağstafa rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı Ağstafa şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Hazırda dünyada böyük narahatlıq yaradan koronavirus infeksiyasına yoluxmaq təhlükəsi olsa da, Azərbaycan Prezidenti bölgələrə səfərini təxirə salmadı. Baxmayaraq ki, koronavirusun yayıldığı ölkələrin heç birində dövlət başçıları regionlara səfər etmir, insanlarla görüşmür. Amma Azərbaycan Prezidenti bu addımı ilə bir daha göstərdi ki, ölkənin regionlarında vəziyyət, insanların problemlərinin həlli dövlətimizin başçısı üçün prioritet məsələdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Ağstafa filialının fəaliyyəti ilə tanış olub.

"Azərxalça" ASC-nin İdarə Heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısına müəssisədə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 1200 kvadratmetrdən çox olan filial binasında 150 toxucunun çalışması nəzərdə tutulub. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və digər bölmələrdən ibarətdir. Emalatxanadakı 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Ağstafa, Qazax və Tovuz rayonlarının yaşayış məntəqələrindəki orijinal xalça çeşnilərinin toxunmasına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla təmin edilib. Toxucular Ağstafa şəhərinin və rayonun digər yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində "Azərxalça"nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Hazırlıq-tədris kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları "Azərxalça" ASC-nin tədris sertifikatını alacaqlar. Xalça-satış salonunda "Azərxalça" ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgilənməsi və satışı həyata keçiriləcək.

Qeyd edək ki, Azərbaycan xalçaları bütün dövrlərdə dünyanı heyran qoyub, milli naxışlarımızın şöhrəti dünyanı heyran qoyub. Milli xalçalarımızın ta qədimlərdən başlayan şöhrəti bu gün yeni layihələrlə zənginləşir. Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması da məhz bu amildən qaynaqlanırdı. Cəmiyyətin əsas məqsədi xalça və xalça məmulatlarının istehsalı, ixracı, onların ölkə daxilində və xaricdə satışının təşkili, xalça istehsalında yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadədir. Amma bu layihənin icrasında əsas məqsədlərdən biri də yeni iş yerlərinin yaradılması, ən çox da qadınların işlə təmin olunması idi və artıq bu məqsədə nail olunub. "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti fəaliyyətə başlayandan sonra artıq onun bir çox regionlarda filialları yaradılıb. Ağstafa filialı da bu regionda xalçaçılığın inkişafına böyük töhfə verəcək.

Ağstafa rayonuna səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 4-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.

Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı hərbi hissədə yaradılan şəraitlə tanış oldu.

Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov bildirdi ki, bu hərbi hissənin inşasına 2018-ci ilin iyun ayında başlanılıb. Ötən il isə tikinti işləri başa çatdırılıb. Hərbi hissənin ümumi ərazisi 5 hektardır. Burada əsgər yataqxanası, qərargah-kazarma binası, 150 yerlik yeməkxana inşa olunub.

Son illərdə Daxili Qoşunların maddi-texniki bazasının gücləndirilməsi prosesində şəxsi heyətin xidmət şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Bu məqsədlə həyata keçirilən tədbirlər nəticəsində bütün hərbi hissələrdə yüksək şəraitin yaradılması istiqamətində xeyli iş görülüb və bu proses indi də davam edir.

Bu hərbi hissədə yaradılan şərait bir daha göstərir ki, Azərbaycanda ordu quruculuğu sahəsində həyata keçirilən mühüm işlər çərçivəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının maddi-texniki bazası, kadr potensialı da əhəmiyyətli dərəcədə möhkəmlənib.

Prezident İlham Əliyev Daxili Qoşunların hərbi silah-sursat və texnikasına baxdı.

Bu gün əminliklə demək olar ki, Daxili Qoşunlar qarşıya qoyulan vəzifəni yüksək peşəkarlıqla yerinə yetiriblər. Ali Baş Komandanın diqqəti sayəsində Daxili Qoşunların maddi-texniki bazası, kazarma-yaşayış fondunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, hərbi hissələr ən yüksək beynəlxalq standartlara uyğun olan texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edilib. Bu gün Daxili Qoşunlara göstərilən dövlət qayğısı özünü istər peşəkar kadr hazırlığının və döyüş qabiliyyətinin yüksəldilməsində, istər maddi-texniki bazanın möhkəmləndirilməsində, istərsə də yeni hərbi hissələrin açılışında daha qabarıq şəkildə göstərir.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkənin ictimai-siyasi, iqtisadi həyatında, ordu quruculuğunda böyük uğurlar qazanılıb, daxili işlər orqanlarının maddi-texniki bazası daha da möhkəmlənib, hərbi qulluqçuların sosial-məişət şəraiti yaxşılaşıb. Son illərdə Daxili Qoşunlar üçün də müxtəlif təyinatlı onlarla obyekt, hərbi şəhərcik, o cümlədən hərbi qulluqçular üçün yeni yaşayış kompleksləri, əsgər kazarmaları, müasir avadanlıqlarla təchiz edilmiş tibb məntəqələri tikilərək istifadəyə verilib. Ümumiyyətlə, ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olan Daxili Qoşunların şəxsi heyəti ictimai asayişin və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakı ilə seçilir, yüksək peşəkarlıq, döyüş və mənəvi-psixoloji hazırlığa malik olduğunu nümayiş etdirir. Ölkəmizə qarşı elan olunmamış müharibənin ilk günlərindən Daxili Qoşunlar cəbhə xəttində şərəfli döyüş yolu keçib, bu yolda yüzlərlə şəhid verib. Qüdrətli Azərbaycan Ordusu ilə yanaşı, Daxili Qoşunların şəxsi heyəti də öz üzərinə düşən xidməti vəzifələri ilə bərabər, torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpası üçün Ali Baş Komandanın verəcəyi əmrin icrasına hər an hazırdır və döyüş hazırlığını hər zaman yüksək səviyyədə saxlayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Ağstafa-Yenigün-Xətai-Qaçaq Kərəm-Poylu-Xılxına avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, uzunluğu 9,3 kilometr olan yol 4-cü, 5-ci texniki dərəcəlidir, hərəkət hissəsinin eni 5-6 metr, hərəkət zolaqlarının sayı isə 2-dir. Dövlətimizin başçısının ötən ilin mayında imzaladığı Sərəncama əsasən yenidən qurulan bu yol 19 min nəfərin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirir. Avtomobil yolunun tikintisi 7 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında mühüm əhəmiyyət kəsb edəcək.

Prezident İlham Əliyevə Ağstafa rayonunun Kolayır-Düzqışlaq-Mollacəfərli-Xılxına-Qarahəsənli avtomobil yolunun tikintisi layihəsi barədə də məlumat verildi. Dörd min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən bu yolun uzunluğu 10 kilometrdir. Dövlətimizin başçısının 2018-ci ildə imzaladığı Sərəncama əsasən bu yolun əsaslı təmiri həmin ərazidə yaşayan sakinlərin rayon mərkəzi ilə gediş-gəlişini asanlaşdıracaq, yük və sərnişin daşınmasına töhfə verəcək.

Qeyd edək ki, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarına uyğun olaraq son illərdə yol infrastrukturunun inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Bu tədbirlər, ilk növbədə, vətəndaşların həyatının yaxşılaşdırılmasına yönələn layihələrin davamlı olmasını nümayiş etdirir. Belə layihələrdən biri də Ağstafa-Yenigün-Xətai-Poylu-Xılxına avtomobil yolunun tikintisidir.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Yenidən qurulan 110/35/10 kilovoltluq “Ağstafa” elektrik yarımstansiyası martın 4-də istismara verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

“Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlətimizin başçısına yarımstansiya haqqında məlumat verdi.

Bildirildi ki, Ağstafa və Qazax rayonlarının böyük bir hissəsinin, xüsusən də Qazax rayonunun cəbhəyanı ərazilərinin elektrik təchizatında olan problemlərin aradan qaldırılması və hər iki rayonda elektrik enerjisinə artan tələbatın qarşılanması məqsədilə 1967-ci ildə istismara verilmiş, köhnələrək öz texniki parametrlərini itirmiş 110/35/10 kilovoltluq "Ağstafa" yarımstansiyasında 25 meqavatamper gücündə 2 yeni transformator quraşdırılıb. Nəticədə yarımstansiyanın gücü 10 meqavatamper artırılaraq 50 meqavatamperə çatdırılıb. Yarımstansiyada 110, 35 və 10 kilovoltluq yeni paylayıcı qurğular inşa olunub, müasir standartlara cavab verən elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatika sistemləri, məsafədən dispetçer idarəetmə SCADA sistemi quraşdırılıb. Ağstafa və Qazax rayonlarında yerləşən 110 kilovoltluq 3 yarımstansiya arasında yaradılmış 35 kilovoltluq dairəvi elektrik təchizat sxeminin dayanıqlılığının artırılması 110 kilovoltluq "Ağstafa" yarımstansiyasının yenidən qurulması ilə tamamlanıb. Bu da həmin rayonların elektrik təchizatının fasiləsizliyini və etibarlılığını təmin edəcək.

Diqqətə çatdırıldı ki, Ağstafa rayonu üzrə istehlakçıların hamısı, Qazax rayonu üzrə isə 61,9 faizi, ümumilikdə, hər iki rayon üzrə 34 min 590 abonent bu yarımstansiyadan elektrik enerjisi alır.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığı ilə son illərdə elektroenergetika sahəsində mühüm işlər görülüb, bu sahədə mövcud çatışmazlıqların aradan qaldırılması, yeni yarımstansiyaların tikintisi diqqət mərkəzində saxlanılıb. Bu sırada Ağstafa rayonunda energetika sisteminin yenidən qurulması, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchiz olunması prioritet məsələlərdən olub. Bu ərazidə son illərdə aparılan geniş tikinti, yenidənqurma və bərpa işləri nəticəsində rayonun kəndlərinin və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, həmçinin kənd təsərrüfatı obyektlərinin artan elektrik tələbatının qarşılanması üçün geniş imkanlar yaradılıb. Son illərdə rayonda xeyli hava xətləri çəkilib, kəndlərin elektrik şəbəkəsi özünüdaşıyan izolyasiyalı naqillərlə əvəzlənib və hazırda bu işlər digər kəndlərdə davam etdirilir. Bunların sayəsində mövcud elektrik şəbəkəsinin qoyuluş gücü artıb, texniki itkilər kəskin şəkildə azalıb.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Ağstafa Aqrar Sənaye Kompleksinin açılışında iştirak edib.

"Ağstafa Aqrar Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Müşahidə Şurasının sədri Rəsul Orucov dövlətimizin başçısına burada həyata keçirilən işlər və yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, layihənin ikinci mərhələsində kompleksdə saatda 5 ton emal gücü olan paxlalı bitkilərin toxumu istehsalı zavodu, saatda 25 ton emal gücü olan dənli bitkilərin toxumu istehsalı zavodu, saatda 200 ton təmizləmə və 50 ton qurutma avadanlığı ilə təchiz olunmuş, ümumi həcmi 36 min ton saxlama gücü olan rezervuarlar quraşdırılıb. Bundan başqa, kompleksdə sutkada 120 ton emal gücü olan dəyirman, çörək və yarımfabrikatlar istehsalı zavodu, müasir avadanlıqlarla təchiz edilmiş fast-food iaşə xidmətləri obyekti, aqromarket, yeraltı avtomobil dayanacağı inşa edilərək istifadəyə verilib.

Dövlətimizin başçısı müəssisəni işə saldı.

Məlumat verildi ki, müəssisə toxum istehsalından başlayaraq taxılın becərilməsini, emalını son istehlak məhsuluna gətirərək əhaliyə təqdim edir. Məhsullar həm keyfiyyət göstəricilərinə, həm də beynəlxalq bio standartlarına tam cavab verir. İstehsal sahələrində istifadə olunan bütün texnoloji xətlər Almaniya və İsveçrə avadanlıqlarıdır. Müəssisə beynəlxalq bio sertifikat alınması məqsədilə müvafiq sertifikatlaşma proseslərini həyata keçirərək, istehsal edəcəyi toxum və digər yarımfabrikat məhsulları ixrac etmək istiqamətində müvafiq iş aparır.

Kompleksdə, eyni zamanda, 300 yerlik multifunksional mədəniyyət mərkəzi də yaradılıb. Burada müxtəlif səpkili tədbirləri yüksək səviyyədə keçirmək mümkündür.

Prezident İlham Əliyev müəssisədə istehsal olunan məhsullara baxdı.

Qeyd edək ki, layihənin 3-cü mərhələsi çərçivəsində Qazax rayonunda logistika-nəqliyyat mərkəzinin tikintisi və Ağstafa Aqroparkının nəzdində 25 min kubmetrlik meyvə-tərəvəz saxlanması üçün soyuducu anbarın inşası, həmçinin regionda aqrar turizm sahəsinin inkişafı məqsədilə otel kompleksinin inşasına start verilib.

Ağstafa Aqroparkın ümumi ərazisi 20 hektar təşkil edir ki, onun da 10 hektarında artıq inşaat işləri başa çatdırılıb, növbəti 6 hektarda isə tikintiyə başlanıb. Ağstafa Aqroparkının Qazax rayonunun Çaylı kəndində inşa etdiyi nəqliyyat-logistika mərkəzi 4,2 hektar ərazini əhatə edir. Bu cür layihələrin inşası ölkədə iş yerlərinin yaradılması istiqamətində həyata keçirilən tədbirlərə də böyük töhfə verir. Ümumilikdə, Ağstafa Aqroparkında və onun törəmə müəssisələrində çalışanların ümumi sayı 360 nəfər təşkil edir ki, bu da regionda məşğulluğun təmin olunması sahəsində önəmli yer tutur. Layihənin əsas konsepsiyalarından biri də "Tarladan süfrəyə" prinsipinin həyata keçirilməsidir.

Sonra Prezident İlham Əliyev müəssisənin kollektivi ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

-Sizi salamlayıram, mən artıq üçüncü dəfədir ki, Ağstafa aqrar parkının işi ilə tanış oluram. Hər dəfə burada olanda yeniliklər görürəm, inkişaf görürəm. Şadam ki, aqroparkın bu illər ərzində inkişafı çox sürətlidir və o cümlədən mənim də tövsiyələrim nəzərə

alınıbdır. Beləliklə, Ağstafa rayonunda çox müasir istehsal, kommersiya, ticarət kompleksi yaradılıb.

Mən birinci dəfə burada 2012-ci ildə olmuşam. O vaxt biz aqroparkın yaradılmasının birinci mərhələsini qeyd edirdik. Ondan sonra 2016-cı ildə bu gün burada tanış olduğum müəssisənin təməl daşı qoyulmuşdur və bu gün - 2020-ci ildə yenə də buradayam. Şadam ki, bu aqropark bu gün Azərbaycanın kənd təsərrüfatı və emal sahəsində çox önəmli rol oynayan böyük bir müəssisədir. Bu da təbiidir. Çünki Azərbaycanda sahibkarlar, investorlar üçün çox gözəl şərait yaradılıb. Onlar bilirlər ki, dövlət onların arxasındadır. Bilirlər ki, Azərbaycan bundan sonra da sabitlik yolu ilə gedəcək və investorlar üçün əsas məsələlər bunlardır. Hər bir investor - istər xarici olsun, istər daxili olsun, öz investisiyalarını planlaşdıranda mütləq bu amilləri nəzərə alır. Bir çox xarici investorlarla görüşlər əsnasında onların mənə bildirdikləri əsas fikir o idi ki, Azərbaycanda sabitlik var. Bu sabitliyin artıq 27 yaşı var və bundan sonra da ölkənin uğurlu inkişafı heç kimdə şübhə doğurmur.

Bundan əlavə, mövcud olan infrastruktur. Əgər indiyədək dövlət tərəfindən bölgələrdə infrastruktur layihələri icra edilməsəydi, yəqin ki, investorlar da investisiyaları üçün başqa yerlər axtaracaqdılar. Ağstafa rayonunda bu sahədə çox böyük işlər görülüb. Bu gün yeni yarımstansiyanın açılışında mənə məlumat verildi ki, indi Ağstafa rayonunun enerji təchizatı 20 meqavat ətrafındadır, ancaq potensial iki dəfə bundan böyükdür. Yəni, iki dəfə bundan artıq sənaye müəssisələrinin, digər obyektlərin yaradılması artıq mövcud enerji gücləri ilə təmin ediləcək. Əlbəttə ki, enerji təminatının yaxşı səviyyədə olması biznes üçün vacib şərtlərdən biridir. Bildirməliyəm ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Qazlaşdırma səviyyəsi Ağstafa rayonunda 90 faizdir. Təmirli yolların səviyyəsi 90 faizə yaxındır. İçməli su layihəsi 2013-cü ildə başa çatmışdır, istismara verilmişdir. Yəni, investorlar üçün bütün şərait yaradılıb. Şadam ki, Ağstafa Aqroparkının investorları bütün bu imkanlardan istifadə edib, böyük vəsait qoyublar. Mənə verilən məlumata görə 80 milyon manat ətrafında vəsait qoyulub və qoyulan vəsait göz qabağındadır. Çünki bir daha demək istəyirəm, üçüncü dəfədir ki, buradayam və bu aqroparkın inkişafının tarixçəsi də mənim gözümün önündə olub.

Bu aqroparkın kənd təsərrüfatının inkişafına da çox böyük dəstəyi olacaq. Mən maraqlandım, məhsuldarlıq orta məhsuldarlıqdan çoxdur. Ölkə üzrə taxılçılıqda orta məhsuldarlıq 32 sentnerdir, sizdə isə 40-50 sentner məhsul əldə edilir. Bu da çox vacibdir. Çünki bizim əkin sahələrimiz bir qədər məhdud olduğu üçün məhsuldarlığın artırılmasına xüsusi diqqət göstərilməlidir.

Sahibkarlar dövlət tərəfindən qayğı ilə əhatə olunub, dövlət öz dəstəyini göstərir. Bu aqroparkın yaradılmasına da dövlət öz maliyyə dəstəyini göstəribdir, ancaq investorların qoyduğu vəsait ondan qat-qat artıqdır. Amma dövlət öz dəstəyini göstərməklə, eyni zamanda, öz siyasi dəstəyini də göstərir. Sahibkarlığın inkişafı bundan sonra ölkəmizin inkişafının əsas şərti olacaq. Çünki dövlət xətti ilə icra edilən əsas infrastruktur layihələri başa çatmaq üzrədir. Ona görə biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması - bütün bunlar dövlət siyasətimizin tərkib hissəsidir. İnvestorlar da belə gözəl müəssisələrin yaradılması ilə digər sahibkarlara da yol göstərirlər ki, gəlin, siz də vəsait qoyun. Azərbaycanlı investorlar, ilk növbədə, Azərbaycana vəsait qoymalıdırlar ki, bizdə işlər daha yaxşı getsin. Çünki bizim əhalimiz artır. Biz hər il 100 min artan əhalini gələcəkdə iş yerləri ilə təmin etməliyik. Ona görə iqtisadi inkişaf, sərmayə qoyuluşu demoqrafik inkişafı üstələməlidir. Bu, əsas vəzifədir. Əlbəttə ki, işlə təmin edilən vətəndaşlar yaxşı maaşla təmin olunmalıdırlar, onların iş şəraiti yaxşı olmalıdır. Mən demişəm ki, 8 saatlıq iş günü vardır və heç bir işçini ondan artıq işlətmək olmaz. Eyni zamanda, bütün işçilər gərək rəsmi qaydada maaş alsınlar, kölgə iqtisadiyyatına yol vermək olmaz. Qeyri-rəsmi məşğulluğa yol vermək olmaz. Sizin kimi müəssisələrdə bu faktlar yoxdur və ümumiyyətlə ola da bilməz. Çünki sizin yanaşmanız beynəlxalq yanaşmadır və mən istəyirəm ki, bütün Azərbaycan müəssisələri bu prinsiplər əsasında işləsinlər.

Mən bunu artıq bir neçə dəfə demişəm, bir daha işçilərə demək istəyirəm. Xüsusilə nəzərə alsaq ki, bu bölgədə aprelin əvvəlindən səhiyyə sistemimiz icbari tibbi sığorta sisteminə keçir, pulsuz tibbi xidmət almaq üçün vətəndaşlar gərək mütləq rəsmi qaydada işləsinlər. Ona görə qeyri-rəsmi məşğulluğa qarşı mübarizə üsullarından biri də icbari tibbi sığorta olacaq. Əlbəttə ki, əgər kimsə qeyri-rəsmi işləyirsə, gələcəkdə pensiyadan da məhrum olacaq.

Bir sözlə, belə gözəl müəssisələrin yaradılması və inkişafı məni çox sevindirir. Xüsusilə mən bu aqroparkın timsalında ardıcıl siyasəti görürəm. Çünki bəzi hallarda müəssisə yaradılır, hətta elə hallar olub ki, mən o müəssisələrin açılışında iştirak etmişəm, ondan bir müddət sonra o bağlanır. Deməli, iş prosesi düzgün qurulmayıb. Amma sizdə nəinki bağlanmayıb, hətta mənim bura gəldiyim bu 8 il ərzində hər dəfə inkişaf, yenilik görürəm. Görürəm ki, burada insanlara yüksək qayğı göstərilir. Bu şərait böyük zövqlə yaradılıb, eyni zamanda, market, kafe. Hər şey insanlar üçündür ki, Azərbaycan vətəndaşları daha yaxşı, rahat yaşasınlar. Bunları təmin etmək üçün Azərbaycan dövlətinin kifayət qədər iradəsi, imkanları var və Ağstafa rayonunda görülən işlər buna əyani sübutdur.

Sizi bir daha təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Mən maraqlandım və məlumat verildi ki, bu üçüncü mərhələ sonuncu mərhələdir. Amma sizin

başqa planlarınız da var və ümid edirəm ki, növbəti dəfə sizinlə burada görüşəndə yeni layihələr haqqında mənə məruzə edəcəksiniz. Sağ olun.

Kompleksin əməkdaşı Şahlar Məhərrəmov onların fəaliyyətinə verdiyi dəstəyə görə dövlətimizin başçısına təşəkkür edərək dedi:

-Cənab Prezident, Ağstafaya gəlməyiniz münasibətilə Sizə "Çox sağ olun!" deyirəm.

Cənab Prezident, inanın səmimiyyətimizə, biz ağstafalılar əvvəllər Bakı şəhərinə gedəndə paytaxtda o cür gözəl şəraitin yaradıldığını görəndə bizə yuxu kimi gəlirdi ki, görəsən, bizim Ağstafamızda da bu cür şərait qurula bilərmi, bu cür şərait ola bilərmi. Çox şükür bugünkü günə. Bu gün açılışında iştirak etdiyimiz bu gözəl şəraiti bizə bəxş etdiyinizə görə cənab Prezident, Sizə bütün ağstafalılar adından "Çox sağ olun!" deyirəm. Allah Sizi var eləsin, Allah Sizi qorusun cənab Prezident.

Prezident İlham Əliyev: Çox sağ olun.

Sonra xatirə şəkli çəkdirildi.

Dövlətimizin başçısına minnətdarlığını bildirən kompleksin Müşahidə Şurasının sədri Rəsul Orucov dedi:

-Cənab Prezident, bizim mədəniyyət mərkəzinin özünün musiqi kollektivi də var. Bizim Sahil adlı bir işçimiz var, əlildir, bütövlükdə gözü görmür. Onun üçün xüsusi olaraq Almaniyadan İtaliya istehsallı zərb aləti gətirmişəm. Zərb alətində çox gözəl ifa edir. Biz bayram tədbirlərinə hazırlaşırıq.

- Skripka ifaçısı Ceyhun: Cənab Prezident, bölgələrdə o qədər gözəl şərait yaratmısınız ki, böyük məmnuniyyətlə gəlirəm, burada bu cavan uşaqlarla kollektiv düzəltmişik, silsilə tədbirlər keçiririk.

Prezident İlham Əliyev: Keçirin, vətəndaşlar da, sənət adamları da razı olsunlar. Belə çox müasir, gözəl konsert zalı harada var? Belə də davam edin. Sağ olun.

Qeyd edək ki, dövlətimizin başçısının rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafı, ixracyönümlü məhsullar istehsal edən müəssisələrin yaradılması və ümumilikdə, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox mühüm layihələr icra olunub. Bu baxımdan həyata keçirilən işlər arasında aqrar sənaye komplekslərinin yaradılması müstəsna əhəmiyyət kəsb edir. Aqrar sektorun inkişafında, regionlarda iqtisadi potensialın artırılmasında, ərzaq təhlükəsizliyinin təmin olunmasında yeni metod və üsulların tətbiqi, qabaqcıl texnologiyalara əsaslanan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması bir neçə mühüm amili özündə birləşdirir. Ağstafa Aqrar Sənaye Kompleksi ölkədə bu cür layihələrin icrası ilə bağlı görülən işlərin ardıcıl xarakter aldığını göstərir. Bu kompleks 2010-cu ildə dövlət qeydiyyatından keçərək 2010-2012-ci illər ərzində bitkiçilik bölməsinin yaradılması məqsədilə qurulub. O zaman bu aqroservis 15 min hektar sahədə xidmət göstərmək üçün lazım olan bütün texnika və avadanlıqlarla təchiz edilib. 2012-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə layihənin birinci mərhələsinin açılışı olub. 2016-cı ildə isə müəssisə öz inkişaf planına uyğun olaraq bitkiçilik bölməsini, anbar sahələrini inşa edərək layihənin ikinci mərhələsində nəzərdə tutulmuş işlərə start verib. Belə komplekslər aqrar sahədə sahibkarlığın inkişafını daha geniş şəkildə təşviq edərək, sosial-iqtisadi inkişafın sürətləndirilməsində, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalında, ixrac potensialının və məşğulluğun artırılmasında böyük əhəmiyyətə malikdir. Aqroparkların, bu cür komplekslərin yaradılması ölkənin ixrac coğrafiyasının genişləndirilməsində, milli brendlərin yaradılmasında, kənd təsərrüfatı sahəsində əlaqələndirilmiş vahid sistemin, eləcə də istehsalçı-emalçı-istehlakçı münasibətlərinin formalaşmasında, aqrar sahədə ixtisaslı kadrların hazırlanmasında və yeni iş yerlərinin açılmasında mühüm rol oynayacaq.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 4-də Müdafiə Nazirliyinin Ağstafada yeni inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı hərbi hissədə yaradılan şəraitlə tanış oldu.

Bildirdi ki, bu hərbi hissənin tikintisinə 2017-ci ilin noyabr ayında başlanıb və 2019-cu ilin sentyabrında inşaat işləri başa çatdırılıb. Ümumi sahəsi 10 hektar olan hərbi hissənin ərazisində bütün zəruri sosial infrastruktur yaradılıb. Hərbi hissənin idarə heyəti üçün burada qərargah binası - ideoloji otaq, brifinq, akt zalları və digər xidməti iş otaqları var.

Hərbi hissədə Prezident, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri, Baş qərargah rəisi və birlik komandirinin iştirakı ilə operativ müşavirə keçirildi.

Qeyd edək ki, yeni hərbi hissənin ərazisində yataqxana binaları, stomatoloq, fizioterapiya, funksional diaqnostika bölmələrinin olduğu tibb məntəqəsi var. Burada döyüş hazırlığı qabiliyyətini təkmilləşdirmək məqsədilə daxilində döyüş hazırlığı üçün təlim meydançaları olan qarovul şəhərciyi də inşa edilib. Ərazidə geniş abadlıq və yaşıllıq işləri görülüb.

Bu hərbi hissədə yaradılan şərait bir daha sübut edir ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illərdə maddi-texniki bazası daha da gücləndirilən Azərbaycan Silahlı Qüvvələri haqlı olaraq dünyanın ən qüdrətli ordularından biri kimi tanınır. Ordumuzun son dövrlərdə qazandığı qələbələr aydın şəkildə göstərir ki, Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandanın əmri ilə istənilən anda düşmənə sarsıdıcı zərbə vurmaqla torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Yenilməz və güclü Ordumuzda xidmətləri ilə fəxr edən Azərbaycan əsgəri vətənpərvərdir, mübarizdir, qorxmazdır, cəsarətlidir, yüksək hazırlıqlıdır. Azərbaycan əsgəri Vətəninə, xalqına, dövlətinə, Ali Baş

Komandanına həmişə sadiqdir. Hərbi qulluqçular üçün bu cür müasir şəraitin yaradılması Azərbaycan dövlətinin əsgər və zabitlərə diqqətini aydın şəkildə göstərir. Bu cür hərbi hissələrin yaradılması xidməti yüksək səviyyədə aparmağa və hərbin sirlərinə daha dərindən yiyələnməyə geniş imkanlar açır.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyevə ən müasir yeni hərbi texnikalar təqdim olundu.

Bildirildi ki, tank əleyhinə idarə olunan raket kompleksi "SPİKE-ER" qurğusu döyüş maşını üzərində quraşdırılan, müxtəlif relyef şəraitinə uyğunlaşdırılan, 400 metrdən 8000 metrə qədər gündüz, gecə və məhdud görmə şəraitində düşmən tanklarını, piyadaların döyüş maşınlarını və zirehli texnikalarını məhv etmək üçün təyin olunmuş raketburaxıcı sistemdir. 122 millimetrlik "HAUBİTSA 2A18 D-30", 122 millimetrlik "ÖAQ 2S1" və 122 millimetrlik "YARS BM-21 V" qurğuları düşmənin açıq və qapalı yerlərdə yerləşən canlı qüvvəsini, atəş vasitələrini, uzunmüddətli örtülü açıq tipli müdafiə qurğularını məhv etmək, minalanmış sahələrdən keçid açmaq, düşmənin artilleriyasını və tank bölmələrini atəşə tutmaq üçün təyin olunub. "RM-70 döyüş maşını m-21OФ" qəlpələnən-fuqas mərmisi ilə atış apararkən toplanma rayonlarında düşmənin canlı qüvvəsini və döyüş texnikasını, artilleriya və minaatan batareyalarını məhv etmək və susdurmaq, düşmənin istehkam, dayaq məntəqəsi və müqavimət mərkəzlərini dağıtmaq tapşırıqlarını yerinə yetirir. Özüyeriyən top, haubitsa qurğusu 152 millimetrlik "DANA M1M" avtomatik doldurmaya malik olan yeni artilleriya qurğusu olub, düşmənin artilleriya qurğularını, atəş vasitələrini, komanda və idarəetmə məntəqələrini, istehkam qurğularını, tank və zirehli texnikalarını məhv etmək üçün təyin olunub. 306 millimetrlik "Ekstra" taktiki raket sistemidir. İqlim şəraitindən asılı olmayaraq, 30-150 kilometr məsafəyə raket buraxmaqla cəmləşmə rayonlarında, marşda və döyüş düzülüşündə raket bölmələrini, ordu komanda məntəqələrini, mövqelərdə hava raket hücumundan müdafiə bölmələrini məhv etmək üçün təyin olunub. Əməliyyat-taktiki raket kompleksləri "POLONEZ" və "LORA" düşmənin əməliyyat düzülüşünün bütün dərinliyində onun nüvə və kimyəvi hücum vasitələrinə, kəşfiyyat-zərbə sistemlərinin yerüstü elementlərinə, qoşunlarının əsas qruplaşmalarına, bazalarda yerləşən aviasiyasına, hava hücumundan müdafiə vasitələrinə və obyektlərinə, idarəetmə məntəqələrinə, radioelektron vasitələrinə, arxa cəbhə və digər obyektlərinə zərbə vurmaq, dənizsahili istiqamətlərdə isə bundan əlavə, düşmən donanmasının yerləşmə məntəqələrini dağıtmaq və onun döyüş gəmilərini məhv etmək üçün təyin olunub. "MKAP-19" səhra komanda və idarəetmə məntəqələrinin daxilində və bir-biriləri arasında, həmçinin stasionar idarəetmə məntəqələri ilə İP texnologiyaları əsasında səs, data və video məlumat mübadiləsini təmin edən kompleksdir.

Dövlətimizin başçısına hərəkətli mobil kommunikasiya avadanlıqları barədə də məlumat verildi.

Azərbaycan Ordusunun ən müasir silah, döyüş texnikası və avadanlıqlarla təchizatı və təminatı davam edir.

Ali Baş Komandan qoşunların strateji və əməliyyat idarəetmə orqanlarının istifadəsinə yeni verilmiş informasiya və kommunikasiya texnologiyaları ilə tanış olaraq operativ, gizli və yüksək səviyyəli qorunan idarəetmə sistemli videobağlantıda iştirak edib.

Ali Baş Komandan mərkəzi, ehtiyat, səhra şəraitində yaradılmış Ön, Hərbi Hava, Hərbi Dəniz və Xüsusi Təyinatlı Qüvvələrin, eləcə də digər qoşun növlərinin idarəetmə məntəqələri ilə birbaşa əlaqə saxlayaraq məruzələri qəbul edib və irimiqyaslı komanda-qərargah təlimlərində iştirak edən qoşunlara müvafiq tapşırıqlar verib.

Qeyd edək ki, ölkəmizdə yeni hərbi hissələrin yaradılması, mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür. Məqsədyönlü tədbirlər nəticəsində bu gün hərbi hissələrin komplektləşdirilmə faizi və keyfiyyəti yüksək səviyyədədir, əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan, mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə təmin edilməsi ardıcıl şəkildə həyata keçirilir. Bununla yanaşı, birinci əməliyyat eşelonu birliklərində dayanıqlı müdafiənin təmin olunması istiqamətində əməli tədbirlər görülüb, müdafiə sistemi təkmilləşdirilib, qoşunların döyüş qabiliyyəti yüksək səviyyədə saxlanılıb. Ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub və həmin təlimlərdə ən müasir tələblərə cavab verən simulyator və kompüter şəbəkələrindən istifadə edilib. Son illərdə ordunun müasir silah və texnika ilə təchiz olunması istiqamətində də əməli tədbirlər görülüb. Dövlətimizin başçısının təşəbbüsü ilə 2005-ci ildən fəaliyyət göstərən Müdafiə Sənayesi Nazirliyinin yenidən qurulan müəssisələrində istehsal olunan silah və texnika hazırda ordumuzun maddi-texniki təchizatında aparıcı rol oynayır.

## *Tovuz rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Tovuz rayonunda səfərdə olub.

Dövlətimizin başçısı Tovuz şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov rayonda görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Tovuz filialının fəaliyyəti ilə tanış olub.

"Azərxalça" ASC-nin İdarə Heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısına müəssisədə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, filialda müxtəlif ölçülü 43 dəzgahda əsasən Ağstafa, Qazax və Tovuz rayonlarının yaşayış məntəqələrində toxunan orijinal xalçaların çeşniləri əsasında xalçaların istehsalına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal, ləvazimat və alətlərlə təmin edilib. Burada 150 toxucunun və 14 nəfər inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub.

Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və sair bölmələrdən ibarətdir. Toxucular Tovuz şəhərinin və rayonun digər yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində "Azərxalça"nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Hazırlıq-tədris-kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları "Azərxalça" ASC-nin tədris sertifikatını alacaqlar.

Diqqətə çatdırıldı ki, filialın xalça-satış salonunda "Azərxalça" ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgilənməsi və satışı həyata keçiriləcək.

Qeyd edək ki, dünya mədəniyyətində xüsusi yeri olan Azərbaycan xalçası özünün məxsusi ornamentləri ilə fərqlənən sənət nümunəsidir. Azərbaycan xalq tətbiqi sənətinin bir qolu olan xalçaçılıq milli mədəniyyət tariximizdə özünəməxsus yer tutur. Əsrlərdən bəri müxtəlif naxış elementləri və təsvirlərlə bəzədilən xovlu və xovsuz xalçalar dəyələrin, çadırların, alaçıqların, habelə evlərin və digər binaların divar bəzəklərində, döşənməsində istifadə edilir, eyni zamanda, yüksək estetik əhəmiyyət daşıyır.

Milli-mənəvi dəyərlərimizə həssas münasibət bəsləyən Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində xalçaçılıq sənəti bu gün özünün yeni inkişaf dövrünü yaşayır. Dövlətimizin başçısının müvafiq sərəncamları ilə bölgələrdə yaradılan xalçaçılıq müəssisələri bunun əyani sübutudur.

Martın 4-də Tovuzda Tarix-Diyarşünaslıq Muzeyinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev muzeyin eksponatları ilə tanış oldu.

Burada nümayiş olunan tarixi xəritələrlə bağlı iradlarını bildirən Prezident İlham Əliyev dedi:

-Bu, neçənci əsrin xəritəsidir? Gərək yazılsın. Hər bir xəritədə yazılmalıdır neçənci əsrə aiddir, çünki dövlətlər dəyişib, sərhədlər dəyişib. Bu xəritəni siz haradan götürmüsünüz?

Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov: Mədəniyyət Nazirliyindən.

Prezident İlham Əliyev: Mədəniyyət Nazirliyindən? Qədim adlar, məsələn, Sisian yazılıbdır. O vaxt Sisian adı yox idi, sonra kimsə bunu uydurub. Xəritədə indiki Azərbaycan ərazisində Mingəçevirdən başqa heç bir tarixi ad yazılmayıb. Halbuki, Bərdə, Qəbələ, Naxçıvan - bütün bunlar qədim şəhərlərimiz olub. Ona görə soruşuram, bu, hansı əsrə aiddir? Çünki bu xəritədən heç nə başa düşmək mümkün deyil. Qafqaz Albaniyası dövləti də burada göstərilmir. Amma baxın, bu Urartu hansı hərflərlə yazılıb. Ona görə buna baxmaq lazımdır. Mədəniyyət Nazirliyi ilə əlaqə saxlayın, xəritələr həm dəqiq olmalıdır, həm də bunun tarixi göstərilməlidir.

Bu xəritə də bilinmir hansı tarixə aiddir. İndiki Azərbaycan ərazisində heç bir şəhərin adı yoxdur. Var buna cavab? Xəritə asmısınız, hesab edirsiniz ki, bununla iş düzəlir? Bu xəritə bizim tariximizdir. Uşaqlar gəlib bu xəritədən bu tarix haqqında nə başa düşəcəklər? Heç bilinmir nədir bu. Özü də haradan götürmüsünüz Allah bilir. Buna belə yanaşmaq olmaz. Eksponatları doldurursunuz, hesab edirsiniz ki, bununla iş bitir? Özü də uşaq otağıdır. Uşaq gəlib soruşacaq ki, bu, nədir, mənim məmləkətim nədir? Haradadır mənim qədim şəhərlərim? Onun əvəzinə orada Urartu görürük. Prezident İlham Əliyev muzeyin digər bölmələrindəki eksponatlarla da tanış oldu.

Martın 4-də Tovuzda Tarix-Diyarşünaslıq Muzeyinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev muzeyin eksponatları ilə tanış oldu.

Burada nümayiş olunan tarixi xəritələrlə bağlı iradlarını bildirən Prezident İlham Əliyev dedi:

-Bu, neçənci əsrin xəritəsidir? Gərək yazılsın. Hər bir xəritədə yazılmalıdır neçənci əsrə aiddir, çünki dövlətlər dəyişib, sərhədlər dəyişib. Bu xəritəni siz haradan götürmüsünüz?

Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov: Mədəniyyət Nazirliyindən.

Prezident İlham Əliyev: Mədəniyyət Nazirliyindən? Qədim adlar, məsələn, Sisian yazılıbdır. O vaxt Sisian adı yox idi, sonra kimsə bunu uydurub. Xəritədə indiki Azərbaycan ərazisində Mingəçevirdən başqa heç bir tarixi ad yazılmayıb. Halbuki, Bərdə, Qəbələ, Naxçıvan - bütün bunlar qədim şəhərlərimiz olub. Ona görə soruşuram, bu, hansı əsrə aiddir? Çünki bu xəritədən heç nə başa düşmək mümkün deyil. Qafqaz Albaniyası dövləti də burada göstərilmir. Amma baxın, bu Urartu hansı hərflərlə yazılıb. Ona görə buna baxmaq lazımdır. Mədəniyyət Nazirliyi ilə əlaqə saxlayın, xəritələr həm dəqiq olmalıdır, həm də bunun tarixi göstərilməlidir.

Bu xəritə də bilinmir hansı tarixə aiddir. İndiki Azərbaycan ərazisində heç bir şəhərin adı yoxdur. Var buna cavab? Xəritə asmısınız, hesab edirsiniz ki, bununla iş düzəlir? Bu xəritə bizim tariximizdir. Uşaqlar gəlib bu xəritədən bu tarix haqqında nə başa düşəcəklər? Heç bilinmir nədir bu. Özü də haradan götürmüsünüz Allah bilir. Buna belə yanaşmaq olmaz. Eksponatları doldurursunuz, hesab edirsiniz ki, bununla iş bitir? Özü də uşaq otağıdır. Uşaq gəlib soruşacaq ki, bu, nədir, mənim məmləkətim nədir? Haradadır mənim qədim şəhərlərim? Onun əvəzinə orada Urartu görürük. Prezident İlham Əliyev muzeyin digər bölmələrindəki eksponatlarla da tanış oldu.

Martın 4-də Tovuzda Dövlət Rəmzləri Muzeyinin yeni binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyevə muzeydə nümayiş etdirilən eksponatlar barədə məlumat verildi.

Bildirildi ki, muzey binası 1 sərgi və 22 yerlik konfrans zallarından, inzibati və yardımçı otaqlardan ibarətdir. Muzeyin sərgi zalında 3 bölmə yaradılıb. Bölmələrdə Azərbaycan xanlıqlar dövrünün xəritəsi, xanlıqların bayraqları, Orta Əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti dövrünü, Azərbaycan SSR dövrünü və Azərbaycanın müstəqillik dövrünü əks etdirən konstitusiyalar, gerblər, bayraqlar, poçt markaları, orden və medallar nümayiş olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Tovuzda “ASAN Həyat” kompleksinin açılışında iştirak edib.

Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev kompleks barədə dövlətimizin başçısına ətraflı məlumat verdilər.

Bildirildi ki, bu kompleks Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sayca 18-ci mərkəzidir. Kompleksin tikintisinə 2018-ci ilin aprel ayında başlanılıb. Tovuz rayonunun Aşağı Quşçu kəndinin ərazisində yerləşən, öz möhtəşəmliyi ilə seçilən kompleksin inşaat işləri bu ilin martında başa çatdırılıb.

Dövlətimizin başçısı kompleksi işə saldı.

Məlumat verildi ki, bu kompleks Tovuz, Qazax, Ağstafa, Şəmkir, Gədəbəy və Samux rayonlarında qeydiyyatda olan 737 minə yaxın vətəndaşla yanaşı, ölkə üzrə ərazi məhdudiyyəti olmadan bütün vətəndaşlara xidmət göstərəcək. “ASAN xidmət” mərkəzində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 320-dən çox xidmət həyata keçiriləcək. Kompleksdə çalışacaq əməkdaşların sayı 205, könüllülərin sayı isə 50 nəfərdir.

Tovuz “ASAN Həyat” kompleksində “ASAN xidmət” mərkəzi ilə yanaşı, ictimai iaşə obyektlərinin istifadəyə verilməsi də nəzərdə tutulur. Belə ki, vətəndaşlar operativ və gülərüz xidmətlə yanaşı, bu konseptin istirahət və əyləncə imkanlarından da istifadə edə biləcəklər. Kompleks vətəndaş rahatlığı üçün həyat standartlarının yaxşılaşdırılmasına xidmət edən müxtəlif həlləri əhatə edir.

Prezident İlham Əliyev kompleksdə təqdim edilən innovativ yeniliklərlə tanış oldu.

Qeyd edildi ki, “ASAN Müraciət” ictimai-nəzarət platforması kommunal məsələlər, yol-nəqliyyat problemləri, infrastrukturun təmiri, abadlaşdırılması, təmizliyi və digər məsələlər ilə bağlı şikayətlərin elektron xəritə üzərində qeyd edilməklə aidiyyəti dövlət qurumlarına təqdim olunması üçün elektron sistemdir. Sistem vətəndaşlara problem barədə foto-video görüntülər qeyd edilməklə məlumat göndərilməsi və problemin həlli ilə bağlı görülən işlər barədə məlumat əldə edilməsi üçün imkan yaradacaq.

Dövlətimizin başçısına məlumat verildi ki, vətəndaş mobil tətbiq üzərindən problemi bildirir, müraciət Situasiya Mərkəzinə daxil olur və sistem üzərindən aidiyyəti quruma ötürülür. Qurum tərəfindən müraciət araşdırılır, problem həll edildikdən sonra nəticəsi barədə vətəndaşa tətbiq üzərindən bildiriş göndərilir və vətəndaş nəticəni sistem üzərindən qiymətləndirir. Sistem problemlərin həllində vaxta və resurslara qənaət etməklə yanaşı, problemli sahələrlə bağlı məlumatların toplanması və təhlili üçün imkanlar yaradır.

Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi - “eAgro” isə şəffaf və səmərəli idarəetmə, innovasiyanın tətbiqi, daxili və xarici sistemlərlə inteqrasiya imkanlarını əhatə etməklə ölkədə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən çoxsaylı subyektlərin həm xidmət göstərdiyi, həm də xidmət aldığı vahid platformadır. Sistem aqrar sektorun dövlət tərəfindən dəstəklənməsində şəffaflığı və hesabatlılığı təmin etmək üçün müxtəlif analizlərin aparılmasına, müasir texniki

həllərin tətbiqinə, peyk yoxlamalarına, dəqiq məlumatlara əsaslanan proqnozların verilməsinə imkan yaradır. Aqrar sahənin iştirakçıları Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə heyvan və bitki sağlamlığına, subsidiyaların verilməsinə dair müraciətlərin qəbulu, kənd təsərrüfatı istehsal vasitələrinin - torpaq, gübrə, toxum, pestisid, texnika və sair, həmçinin kənd təsərrüfatı məhsullarının qeydiyyatı, tanıdılması və onlayn satışı kimi xidmətlərlə təmin edilirlər.

Prezident İlham Əliyevə məlumat verildi ki, hazırda sistem üzərindən 473 mindən çox fermer, 400-dən çox təchizatçı və tədarükçü, 1000-dən çox baytar mütəxəssis qeydiyyatdan keçib, sənədləşmənin tam elektronlaşması nəticəsində fermerlərdən bir neçə dəfə toplanan 1 milyondan çox kağız sənəd aradan qaldırılıb, 2 milyon 222 min 101 hektar ərazi üzrə 596 min 479 torpaq sənədi sistemdə yerləşdirilib. Sistem kənd təsərrüfatı ilə bağlı bütün proseslərin məntiqi əlaqəliliyinin qurulmasına və tamamlanmasına, analizlərin aparılmasına, müasir texniki həllərin tətbiqinə, peyk yoxlamalarına, dəqiq məlumatlara əsaslanan proqnozların verilməsinə imkan yaradır.

Digər bir innovativ yenilik isə ekspertizasının keçirilməsi tələb olunmayan tikinti obyektlərinin inşasına və istismarına icazələrin verilməsi sistemidir. Bu sistem “bir pəncərə” prinsipi əsasında bəzi tikinti obyektlərinin inşasına və istismarına icazələrin verilməsinə, eləcə də tikinti prosedurlarının sürətləndirilməsinə şərait yaradan elektron müraciət sistemidir. Belə ki, sifarişçi qeyd olunan sistemə elektron qaydada müraciət edərək 15 iş günü müddətində tikintiyə icazəni, 10 gün müddətində isə istismara icazəni əldə edə bilər.

Bildirildi ki, sistem bütün iştirakçı tərəflərin və müvafiq dövlət qurumlarının informasiya sistemləri ilə inteqrasiya edilib, nəticədə tikintiyə icazə alınması prosedurlarının sayı 18-dən 7-yə, prosesin müddəti isə 118 gündən 38 günə qədər azalıb.

Prezident İlham Əliyevə Virtual reallıq texnologiyası və onun tətbiqi ilə bağlı da məlumat verildi.

Bildirildi ki, bu texnologiya xüsusi avadanlıqlar və proqram təminatı vasitəsilə istifadəçini real olmayan mühitin içərisində hiss etdirən vizual görüntülərdən və səs effektlərindən ibarətdir. Virtual reallıq eynəkləri və onlara qoşulmuş idarəetmə qurğuları vasitəsilə istifadəçi virtual aləmdə səyahət edərək oradakı cisimlərə toxuna və onlar barədə məlumat ala, eyni zamanda, baş verən hadisələrə müdaxilə edə bilər. Virtual reallıq texnologiyası səhiyyə, təhsil, tikinti, turizm, psixologiya, elmi tədqiqat, oyun sənayesi və s. sahələrdə tətbiq edilməklə, istifadəçi üçün daha rahat öyrənmə və tətbiqetmə imkanları yaradır.

Hazırda ölkəmizdə 17 “ASAN xidmət” mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxtda, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı və Kürdəmirdədir. Həmçinin Bakıda əhaliyə kommunal sahədə xidmətlər göstərən 2 “ASAN Kommunal” mərkəzi fəaliyyətdədir. Bu il Ağcabədi və Balakəndə “ASAN xidmət” mərkəzlərinin istifadəyə verilməsi nəzərdə tutulub. Onların hər biri regional xarakter daşıyır. Bununla yanaşı, Bakıda “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzlərinin açılışı da planlaşdırılır. Həmçinin Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk “ASAN xidmət” mərkəzləri tikiləcək. Bu günədək “ASAN xidmət” mərkəzlərinə daxil olan müraciətlərin sayı 37 milyona yaxındır. Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 100 faizə yaxındır.

Tovuz “ASAN Həyat” kompleksinə daxil olan infrastruktur obyektlərindən biri də “ABAD” publik hüquqi şəxsin növbəti, sayca 6-cı “ABAD” mərkəzidir. Digər mərkəzlərdə olduğu kimi, bu mərkəzin də əsas təyinatı region üzrə vətəndaşların ölkəmizin sosial-iqtisadi fəaliyyətində fəal iştirakını təmin etmək və rəqabətədavamlı ailə bizneslərinin, mikro və kiçik sahibkarların formalaşdırılmasına əlavə töhfə verməkdir.

İlk dəfə olaraq bu “ASAN Həyat” kompleksində “ABAD Factory” Bitkilərin Emalı və Qurudulması Fabriki inşa olunub.

Dövlətimizin başçısı fabriki işə saldı.

Azərbaycan Prezidenti İlham Əliyevin Fərmanı ilə yaradılan “ABAD” publik hüquqi şəxsin Tovuz “ABAD Factory” fabriki 2019-cu ildə inşa edilib. Müasir standartlara cavab verən və Azərbaycanda ilk dəfə tətbiq ediləcək avadanlıqlarla təchiz olunan bu fabrikin fəaliyyəti ölkəmizə həm sosial, həm də iqtisadi faydalar gətirəcək. Belə ki, fabrikdə rəqabətqabiliyyətli, ixracyönümlü 80 adda məhsulun istehsalı nəzərdə tutulur. Mövsümdən asılı olaraq fabrikdə 30-100 yerli vətəndaş çalışacaq ki, bu da öz növbəsində regionda məşğulluğun təmin edilməsinə əlavə töhfə verəcək.

Kompleksdəki Hərbi Vətənpərvərlik Mərkəzi isə gənclərin hərbi vətənpərvərlik ruhunda böyümələrinə imkan verəcək. Burada gənclər hərb tariximiz, ordu quruculuğu barədə geniş məlumatlar almaqla yanaşı, ibtidai hərbi hazırlıq təmrinlərində iştirak edə biləcəklər. Bu mərkəzin “ASAN xidmət”də yerləşdirilməsi isə yeniyetmələrin və gənclərin günün istənilən vaxtı rahat və maneəsiz buraya gəlmələrinə əlverişli imkan yaradacaq.

Tovuz “ASAN Həyat” kompleksinə daxil olan infrastruktur obyektlərindən biri də “ABAD” publik hüquqi şəxsin növbəti, sayca 4-cü “ABAD” Məktəbidir. Bu məkanda region gənclərinin tikiş, rəssamlıq, turizm, saz musiqi alətinin hazırlanması, informasiya texnologiyaları və aqrar-texniki peşələrə yiyələnmələri üçün lazımi şəraitə malik sinif otaqları mövcuddur.

Komplekslə tanışlıqdan sonra dövlətimizin başçısı "ASAN xidmət" əməkdaşları və könüllüləri ilə görüşdü.

Prezident İlham Əliyev onun üçün qoyulmuş xüsusi kresloya görə iradını bildirərək dedi:

-Mənə belə xüsusi kreslo qoymusunuz, adi stuldan yoxdur? Götürün. Belə şeylərə yol vermək olmaz. Qətiyyən.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

-Əziz gənclər, mən sizi ürəkdən salamlayıram. Bu gün Tovuz "ASAN Həyat" mərkəzinin açılışıdır. Bu münasibətlə sizi təbrik edirəm. Bu mərkəzlə tanış olarkən çox sevinirəm. Çünki bu mərkəzdə bizim siyasətimizin bir çox əlaməti öz əksini tapır. "ASAN xidmət" bizim intellektual məhsulumuzdur. Artıq 18-ci mərkəz işə düşür və mən bütün mərkəzlərin açılışında şəxsən iştirak etmişəm. Hər dəfə yeni planlar, yeni proqramlar, yeni layihələr haqqında mənə məruzə edilir, o cümlədən bu gün.

"ASAN xidmət" öz fəaliyyətini genişləndirir, həm coğrafi əhatə, həm də xidmətlərin sayı artır. Biz birinci mərkəzi açarkən o vaxt xidmətlərin sayı demək olar ki, məhdud idi. Ancaq bu gün burada, Tovuz "ASAN Həyat" mərkəzində 320 xidmət göstərilir və müraciətlərin sayı getdikcə artır. Mən fevral ayında Kürdəmirdə "ASAN Həyat" mərkəzinin açılışında idim və o vaxt 36 milyon müraciət olmuşdu. Amma bu gün martın əvvəlidir və müraciətlərin sayı 37 milyona çatıb. Yəni, bir ay da keçməyib, amma müraciətlər bir milyon artıb. Siz də yaxşı bilirsiniz ki, məmnunluq əmsalı 99,4 faizdir. Hesab edirəm ki, bu, maksimum nəticədir və heç bir başqa xidmət bu qədər məmnunluq doğurmur. Nəyə görə? Çünki yenə də deyirəm, "ASAN xidmət"də bizim siyasətimiz öz əksini tapır. Vaxtilə mənim tərəfimdən verilmiş göstərişlər dəqiqliklə icra edilir.

"ASAN xidmət"də işləyənlərin mütləq əksəriyyəti gənclərdir, yeni nəslin nümayəndələridir. Burada onlar yeni baxışlarla, yeni təfəkkürlə, yeni mədəniyyətlə xidmət göstərirlər. Ona görə "ASAN xidmət" çox uğurlu layihədir və bu uğurun təməlində həm düşünülmüş siyasət, həm də bu işi təşkil edənlərin səmərəli fəaliyyəti dayanır. Biz qısa müddət ərzində ictimai xidmətlər sahəsində inqilab edə bildik. İctimai xidmətlər sahəsi həmişə çox problemli sahədir. Hələ sovet dövründə bu sahə ilə bağlı çoxlu şikayətlər var idi. O cümlədən müstəqillik illərində də ictimai xidmətlər sahəsində bürokratiya, korrupsiya, rüşvətxorluq adi hal kimi qəbul olunurdu və əfsuslar olsun ki, vətəndaşların bir çoxu buna öyrəşmişdi. Ona görə "ASAN xidmət"in fəaliyyətə başlaması həm böyük ümidlər yaratdı, həm də müəyyən dərəcədə təəccüb doğurdu. Çünki bu, doğrudan da yenilik idi. Amma bu gün artıq 18-ci mərkəz işə düşəndə hesab edirəm, hər kəs görür ki, bu, hansısa bir fərdi layihə deyil. Bu, yanaşma tərzidir, bu, düşüncə tərzidir, bu, bizim siyasətimizdir. "ASAN"da olan şəffaflıq, mədəniyyət hər yerdə tətbiq edilməlidir. Yəni, "ASAN xidmət" bir çox sahələr üçün nümunə olub. Təsadüfi deyil ki, indi sosial təminat sahəsində də buna oxşar layihə həyata keçirilir – DOST mərkəzləri fəaliyyətə başlayır və "ASAN xidmət" kimi, DOST mərkəzləri də bütün ölkəmizi əhatə edəcək.

"ASAN xidmət" mərkəzlərinin yaradılması ilə bağlı kifayət qədər geniş proqramımız var. Dediyim kimi, bu, sayca 18-ci mərkəzdir, ancaq yaxın gələcəkdə mərkəzlərin sayı 27-yə çatacaq. Ağcabədi, Balakən, Naxçıvan, Sumqayıt, Gəncə, Lənkəran və Salyan şəhərlərində mərkəzlər, Bakıda isə daha iki mərkəz tikiləcək. Əlbəttə ki, bu proses sonra da davam etdiriləcək. Beləliklə, insanlara daha da keyfiyyətli xidmətin göstərilməsi təmin olunacaq. Bu mərkəz bir neçə rayonu əhatə edir. Bu rayonlarda 700 min əhali yaşayır. Bu, qərb zonasında sayca 2-ci mərkəzdir, birincisi dediyim kimi, Gəncə şəhərində açılıb. Üçüncü mərkəz də Gəncə şəhərində açılacaq. Çünki buna tələbat var. "ASAN xidmət"in üstünlüklərinin biri də odur ki, burada növbələr müşahidə olunmur. Ancaq Bakıda tələbat o qədər böyükdür ki, biz iki yeni mərkəzin açılışına qərar verdik. O cümlədən Gəncə və Sumqayıt şəhərlərində də ikinci mərkəzin fəaliyyətinə ehtiyac var.

Onu da bildirməliyəm ki, bizim təcrübəmiz digər ölkələrdə öyrənilir. Artıq "ASAN xidmət" "ASAN" adı altında başqa ölkələrdə də fəaliyyət göstərməyə başlayıb. Bu, bizim şərtimiz idi, çünki bu, bizim brendimiz, bizim intellektual məhsulumuzdur. Əlbəttə, biz öz təcrübəmizi istənilən ölkə ilə bölüşməyə hazırıq və bunu edirik. Əlbəttə, sevinirik ki, digər ölkələr də bizim təcrübəmizdən istifadə edirlər.

Beynəlxalq təşkilatlar "ASAN"ın fəaliyyətini yüksək qiymətləndirirlər. BMT "ASAN"ı fərqləndirib, mükafat verib. Bu da əlbəttə ki, görülən işlərin nəticəsidir.

Bu mərkəzdə təkcə "ASAN xidmət" sahəsində 200-dən çox, könüllülər üçün isə 50 iş yeri yaradılıb. Eyni zamanda, ABAD fabrikində birinci mərhələdə 50 iş yeri yaradılıb. "ASAN" fəaliyyətini genişləndirdikcə öz funksiyalarını da genişləndirir. Bu mərkəzlər bölgələrdə artıq ictimai mərkəzlər kimi fəaliyyət göstərirlər - kafelər, diskotekalar, açıq səhnələr, kinoteatr. Məsələn, Tovuz şəhərində bu günə qədər, yəni, müasir dövrdə kinoteatr olmayıb. Amma indi iki kinoteatr var. Gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün bütün imkanlar var.

Əlbəttə ki, Azərbaycanda könüllülər hərəkatı "ASAN xidmət"dən başlamışdır. İndi könüllülər hərəkatı digər sahələri də əhatə edir. Mən göstəriş vermişəm ki, dövlət qurumlarında könüllülər dəstələri, qrupları yaradılsın. Artıq bəzi nazirliklərdə könüllülər qrupları yaradılıb. Bizim beynəlxalq tədbirlərdə - Avropa və İslam oyunlarının keçirilməsində könüllülər çox böyük xidmət göstərmişlər. Amma başlanğıc "ASAN"dan start alıb. Bu gün minlərlə könüllü artıq bu təlimdən keçib və həyatda öz layiqli yerini tutub.

Əminəm ki, "ASAN xidmət"də çalışan, eyni zamanda, könüllülər kimi fəaliyyət göstərən gənclərin çox parlaq gələcəyi olacaq. Çünki onlar artıq çox xeyirxah bir işlə təmin olunublar. Bu iş çoxşaxəlidir, insanlarla birbaşa ünsiyyətdir, insanlara göstərilən yardımdır, xidmətdir, köməkdir. Eyni zamanda, mərkəzlər innovasiya baxımından çox mütərəqqi təcrübəyə malikdir. Ona görə gənclərin gələcəkdə həyatlarını daha da yüksək səviyyədə təmin etmələri üçün bu təcrübə, hesab edirəm ki, əvəzolunmazdır.

"ASAN xidmət", eyni zamanda, bizim xalqımıza xas olan xüsusiyyətləri də özündə ehtiva edir. Çünki xalqımız həmişə qonaqpərvər olub. Buraya müraciət edən vətəndaş da buranın qonağıdır. Biz həmişə qonaqlara böyük hörmət göstərmişik. Gənc nəsil də bu milli dəyərlər əsasında tərbiyə almalıdır. Mədəni davranış, mədəni rəftar qaydaları, mədəni xidmət - bütün bunların Azərbaycanda dərin kökləri var. Sadəcə olaraq, bu gün bu, mütəşəkkil formada "ASAN xidmət"də öz əksini tapır. Bu, ümumiyyətlə, ictimai münasibətlərə də müsbət təsir göstərir. Mən tam əminəm ki, bu mərkəzə qədəm qoyan hər bir insan buradan məmnunluqla ayrılacaq. Çünki birincisi, binanın gözəlliyi, ikincisi, mövcud olan şərait, işçilərin təbəssümləri, göstərilən xidmətlər, operativlik, vaxtın itirilməməsi, "ASAN xidmət"də korrupsiya və rüşvətxorluğa sıfır dözümlülük var. Hər yerdə belə olmalıdır. Azərbaycanda rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizədə "ASAN xidmət"in xüsusi rolu var. Çünki bu mərkəzlərdə göstərilən xidmətlər artıq korrupsiya, rüşvətxorluq üçün yer qoymur. Ona görə biz bu bəla ilə bir çox alətlərlə mübarizə aparmalıyıq. Əlbəttə ki, inzibati tədbirlər, cəza tədbirləri.

Son vaxtlar bütün vətəndaşların diqqətinə çatdırılan operativ tədbirlər, rüşvətxor məmurların ifşa olunması, onların bədnam əməllərinin ifşa edilməsi – bütün bunlar onu göstərir ki, korrupsiya və rüşvətxorluqla bağlı tədbirlər sistem xarakteri daşıyır. Əgər kimsə bunu bu günə qədər başa düşməyibsə, o, gərək başa düşsün və bu mübarizə davam etdiriləcək. Cəza tədbirləri cinayətkarlara qarşı tətbiq olunmalıdır. Eyni zamanda, sistem xarakterli tədbirlər də olmalıdır. Onlardan biri və bəlkə də birincisi "ASAN xidmət"də yaradılmış qaydalardır. Çünki burada imkan da yoxdur. Gənclər artıq bu ruhda tərbiyə olunur. Dürüst olmaq, xeyirxah olmaq, həmişə kömək etməyə hazır olmaq - bütün bunlar insanların formalaşması üçün çox önəmli amillərdir. Ona görə "ASAN xidmət" haqqında danışanda biz, sadəcə olaraq, vətəndaşlara göstərilən xidmətlərlə məhdudlaşmamalıyıq. Bu, daha dərin, daha geniş məna daşıyan çox ciddi bir hərəkatdır və bizim siyasətimizi əks etdirən hərəkatdır.

Mən bir dəfə demişəm, bir daha demək istəyirəm, birinci mərkəzlər açılan zaman kimsə düşünə bilərdi ki, bu, sadəcə olaraq, ictimai xidmət mərkəzləridir. Elə deyil. Bizim niyyətimiz tam başqa idi. Bu, cəmiyyətimizə müsbət yenilik gətirən təşəbbüs idi və artıq həyatda öz əksini tapıb. Azərbaycan bu sahədə də liderdir. İntellektual məhsulun yaradılması və bu gün ixracı artıq reallıqdır.

Əlbəttə, bir daha demək istəyirəm, gənclər burada çox gözəl məktəb keçərək həyatda layiqli yer tutacaqlar ki, gələcəkdə ölkəmizin inkişafı üçün səylərini əsirgəməsinlər. Buna nail olmaq üçün ilk növbədə, bilikli, savadlı və vətənpərvər olmalısınız. Hesab edirəm ki, bu üç əsas amil gələcəkdə də Azərbaycanı bütün bəlalardan qoruyacaq, necə ki, bu gün qoruyur. Bu gün dünyada gedən proseslər gözümüzün qabağında baş verir. Yeni münaqişə ocaqları, yeni müharibə ocaqları, yeni köçkün dalğası, ziddiyyətlər, kütləvi etirazlar, polis zorakılığı, dinc nümayişçilərə qarşı amansız zorakılıq göstərilməsi, minlərlə nümayişçinin həbs edilməsi, onların öldürülməsi - bunlar inkişaf etmiş ölkələrdə bizim gözümüzün qabağında baş verir, hansısa geridə qalmış ölkədə deyil. Bunun səbəbləri var. Səbəblər də kütləvi narazılıqdır. Bunun da səbəbləri var. Bu, təkcə maddi amillərlə məhdudlaşmır. Ədalətsizlik, hakimiyyətlə xalq arasındakı uçurum, təbəqələşmə, sosial problemlərin həll edilməməsi, bir çox amillər var, mən hamısını sadalamaq istəməzdim. Ancaq fakt budur ki, bu, bu gün reallıqdır. Belə bir mənzərə fonunda Azərbaycanda mövcud olan əmin-amanlıq, sabitlik, inkişaf, əlbəttə ki, bizim böyük sərvətimizdir və bunu biz özümüz qazanmışıq, heç kim bizə kömək etməyib. Ən ağır günlərdə heç kim bizə kömək etməyib. Mən istəyirəm ki, gənclər bunu bilsinlər. Nəyi əldə etmişiksə, öz gücümüz, cəsarətimiz, istedadımız hesabına əldə etmişik. Bizim elə günümüz var idi ki, pulumuz yox idi. O vaxt - 1990-cı illərin əvvəllərində Azərbaycan əhalisi 8 milyon idi, bunlardan 1 milyonu qaçqın, köçkün. Pul yox, iqtisadiyyat dağılmış, sənaye iflic vəziyyətdə. Çadır şəhərcikləri, köçkünlər vaqonların içində, vaqonların altında yaşayırdılar. Bütün bunları biz yaşamışıq. Amma görün, bu gün düşünülmüş siyasət, sabitlik nəticəsində Azərbaycan dünya miqyasında inkişaf baxımından aparıcı yerlərdədir. Sabitlik, əmin-amanlıq, cəmiyyətdəki müsbət ovqat - bütün bunlar Azərbaycan reallıqlarıdır. Bölgələrin inkişafı. Tovuz şəhəri Bakıdan uzaqda yerləşir. Amma Tovuz şəhərinin timsalında biz bu inkişafı görürük. Baxın, indi qazlaşdırmanın səviyyəsi 90 faizdir. Təmirli yolların səviyyəsi 90 faizdir. İçməli su həmişə böyük problem olub. Artıq bir neçə ildir ki, Tovuz şəhərinin içməli su problemi öz həllini tapıb. Müasir xəstəxana, müasir dializ və diaqnostika mərkəzləri, idman kompleksi, parklar, sənaye müəssisələri. Bu gün mən Aşıq Sənəti Dövlət Muzeyinin və xalça fabrikinin açılışlarında iştirak etmişəm. Bütün bunlar onu göstərir ki, ölkəmizin hər bir bölgəsi inkişaf edir. Gənclər gələcəkdə elə işləməlidirlər ki, bu inkişaf dayanıqlı olsun, müstəqilliyimiz əbədi olsun. Ona görə bir daha demək istəyirəm, - bunu nə qədər çox təkrarlasaq ziyanı yoxdur, - bilik, savad,

vətənpərvərlik, Vətənə bağlılıq və milli dəyərlər hər şeydən üstün olmalıdır. Bizi xalq kimi, millət kimi əsrlərboyu qoruyan, assimilyasiyadan qoruyan bizim dəyərlərimiz olub. Ana dilimiz, ədəbiyyatımız, incəsənətimiz və milli şüurumuz. Bunu biz heç vaxt itirə bilmərik, heç vaxt! Nə qədər ki, mən prezidentəm, var gücümlə çalışacağam ki, bu dəyərlər tam bərqərar olsun, o cümlədən gənclər arasında. Çünki indi gənclər yaşlı nəsildən təbii ki, fərqlənir. Onların maraqları da fərqlidir. Onların informasiya əldə etmək üsulları da fərqlidir. Gənclərin bir çoxu televiziyaya baxmır. Onların əlində telefon var, bütün informasiyanı oradan alırlar. Gənclər bəzi hallarda virtual məkanda yaşayırlar, real həyatdan bir qədər kənarda qalırlar. Bütün bunlar, təbiidir, bu, dövranın, necə deyərlər, mənzərəsidir. Amma bütün bunlara baxmayaraq, bizim gənclər milli ruhda tərbiyə almalıdırlar. Bilməlidirlər ki, Azərbaycanın bundan sonra da müstəqil ölkə kimi yaşaması üçün onların hər biri vətənpərvər olmalıdır. Hər biri öz bayrağını həmişə uca tutmalıdır, öz milli atributlarına hörmətlə yanaşmalıdır və heç kimin təsiri altına düşməməlidir.

Xalqımız uzun əsrlərboyu başqa ölkələrin, imperiyaların tərkibində yaşayıb. Müstəqillikdən, azadlıqdan məhrum olub, başqalarının diktəsi ilə yaşayıb. Biz artıq 30 ilə yaxındır ki, müstəqil ölkə kimi yaşayırıq və əbədi yaşamalıyıq. Bundan sonra heç vaxt müstəmləkə olmamalıyıq. Buna nail olmaq üçün iqtisadi, hərbi, mənəvi gücümüz, dəyərlərimiz olmalıdır, var və hər şeydən üstün olmalıdır. Ona görə indi müxtəlif yollarla, müxtəlif adlar altında gah qloballaşma deyirdilər, indi bu söz də artıq lüğətdən silinib. Bəlkə də 10 il bundan əvvəl qloballaşma deyilən bir meyil var idi və belə bir fikir aşılanırdı ki, qloballaşma sərhədləri aşacaq, sərhədləri, millətləri aradan götürəcək, hamı bir dildə danışacaq, hamı bir təfəkkürdə olacaq. Milli xüsusiyyətlərin sarsıdılması və məhvi üçün ziyanlı bir siyasət aparılırdı, bu gün də aparılır, amma bu gün başqa adlarla. Bu gün bəzi hallarda demokratiya adı ilə ölkələri öz təsirləri altına almaq istəyirlər. O ölkələr ki, özləri demokratiyanı kobudcasına pozurlar, insan haqlarını pozurlar, jurnalistləri əsassız ittihamlarla həbs edirlər, nümayişçiləri əzirlər, öldürürlər, itləri, atları onların üstünə salırlar, rezin güllələrlə vururlar, gözlərini çıxarırlar, qazlardan istifadə edirlər, hamısı göz qabağındadır. Bizə demokratiyadan dərs vermək istəyənlərin özləri bunu edirlər. Ona görə demokratiyanı şüar edib xalqları, dövlətləri özlərinə tabe etmək istəyirlər, o cümlədən bizi. Ona görə də təzyiqlərlə, iftiralarla, çirkin kampaniyalarla üzləşirik. Ona görə ki, heç kimin qabağında baş əymirik və heç vaxt əyməyəcəyik. Bizim milli qürurumuz, ləyaqətimiz hər şeydən üstündür. Ona görə müxtəlif vasitələrlə gəncləri yoldan çıxarmaq istəyirlər. Çünki bilirlər ki, gənclər hələ yetişməyiblər, formalaşmayıblar, onlar daha çox tələbkardırlar, pozuntulara daha çox dözümsüzdürlər. Bu da təbiidir, bu da olmalıdır, amma xalq naminə, dövlət naminə, hansısa başqa paytaxtda oturanın maraqlarını təmin etmək üçün yox. Ona görə bütün bunları gənclər bilməlidirlər və düzgün təhlil aparmalıdırlar. Bilməlidirlər ki, bizim hamımızın birinci vəzifəsi müstəqilliyimizi möhkəmləndirmək, Azərbaycan dövlətinin qüdrətini artırmaq və öz milli xüsusiyyətlərimizi qorumaqdır. "ASAN xidmət" mərkəzlərində, o cümlədən burada işləyənlər və könüllülər bax, bu ruhda tərbiyə alırlar. Buna görə bir daha qayıdıram "ASAN xidmət" mərkəzlərinin fəaliyyətinə ki, xalq tərəfindən belə yüksək qiymət verilir. Mən sizi mərkəzin açılışı münasibətilə bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

ASAN könüllüsü Ummahanı Abdullayeva: Möhtərəm cənab Prezident, Sizi salamlayıram. Mən Beyləqanda keçirilmiş "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsinin iştirakçısı olmuşam. Mən bir hərbçi qızı olaraq demək istəyirəm ki, atam mənə həmişə hərbçi həyatı barədə danışanda mən bunu, sadəcə, onun dedikləri və televizorda gördüklərim qədər təsəvvür edirdim. Layihəyə müraciət barədə elanı gördükdən sonra isə qərara gəldim ki, mən də bu layihədə iştirak edim. Layihə sayəsində mən əsgərlərimizlə çiyin-çiyinə olarkən onların bizim rahat və təhlükəsiz yaşamağımız üçün necə çalışdıqlarını və hansı çətinliklərin öhdəsindən gəldiklərini gördüm. Atamın danışdıqlarının həqiqətən də canlı şahidi oldum. Xanım olsaq da, biz layihə iştirakçıları bütün gücümüzlə hərbi təlimlərdə, taktiki hazırlıq, topoqrafiya, atəş və digər hərbi hazırlıqlarda iştirak etdik. Bir həftə boyunca özümüzü əsl əsgər olaraq hiss etdik.

Ölkəmiz tarixboyu öz qəhrəman oğulları ilə yanaşı, mərd xanımları ilə də tanınıb. Biz Sara xatunun, Həcərin, Nigarın yetirmələriyik. Vətənpərvərlik hissi, mərdlik damarlarımızdan axan qanımızda var.

Cənab Prezident, Siz Sərəncamınızla elan etdiyiniz bu "Könüllülər ili"ndə hərbi vətənpərvərlik düşərgəsində sevərək iştirak edəcəyəm. Demək istəyirəm ki, Azərbaycan xanımları olaraq biz də Sizin göstərişinizlə bir an belə düşünmədən torpaqlarımızı işğaldan azad etməyə hazırıq.

Prezident İlham Əliyev: Sağ olun.

ASAN könüllüsü Bəxtiyar Rzayev: Möhtərəm Prezident, cənab Ali Baş Komandan, mən də Sizi salamlayıram. Mən "ASAN xidmət" tərəfindən Gədəbəydə və Beyləqanda təşkil edilən "Hərbiyyə" vətənpərvərlik düşərgəsinin iştirakçısı olmuşam. Onu qeyd edim ki, bu layihə beş dəfə həyata keçirilib və 500 gənc bu düşərgənin iştirakçısı olub. Baxmayaraq hərbi xidmətə yollanmağıma azı 2 il var, mən yenə də hərbi düşərgəyə qatılmağı və o mühiti vaxtından əvvəl görməyi özümə borc bildim. Hər iki düşərgədə yaşadığımız əsgər həyatı bizə sabit bir dövlətin mövcudluğu üçün möhkəm sütunların olduğunu göstərdi. Biz əsgərlərimizlə, komandirlərimizlə və qazilərimizlə eyni mühitdə peşəkar orduya sahib

olduğumuzu gördük. Mən və komanda yoldaşlarım orada olarkən bizə sual verdilər: Əmr gəlsə, kimlər düşmən qarşısına çıxmağa, şəhid olmağa hazırdır. İştirakçıların hər biri "mən" deyərək cavab verdi. Bu, ani bir refleks deyildi, çünki bizim hər birimiz bu ruhda yetişmişik və bu ruhda da tərbiyə alırıq.

Cənab Prezident, Sizin Münxendəki paneldə aşkar üstünlüyünüz, düşməni əminliklə susdurmağınız bizi daha da ruhlandırdı. Həmin çıxışla bir daha sübut olundu ki, Azərbaycan öz torpaqlarını işğaldan azad etmək üçün təkcə hərbi gücə malik deyil. O, öz həqiqətlərini sülh və danışıqlar yolu ilə də hər kəsə sübut edə bilib. Demək istəyirəm ki, istər sülh yolu ilə, istərsə də müharibə yolu ilə Vətənimiz uğrunda hər şeyə hazırıq. Cənab Ali Baş Komandan, biz hər birimiz Sizin sadiq əsgərinizik.

Prezident İlham Əliyev: Sağ ol.

ASAN könüllüsü Leyla Sarıyeva: Möhtərəm cənab Prezident, Sizi Tovuz elində xoş gördük. Bu an mənim və könüllü yoldaşlarım üçün həqiqətən də unudulmaz tarixi andır. Sizin sərəncamlarınızla regionlarda "ASAN xidmət" mərkəzlərinin yaradılmasına dair xəbərləri eşitdikcə rayonumuzla bağlı da bu xəbəri eşidəcəyimiz günü səbirsizliklə gözləyirdik. Bu gün mən ikiqat xoşbəxtəm. Bu xəbəri eşitməklə, arzuma çatmaqla yanaşı, eyni zamanda, mən burada region gənclərini təmsil edirəm.

Cənab Prezident, Siz Kürdəmir "ASAN xidmət" mərkəzinin açılışında da qeyd etdiyiniz kimi, ASAN təkcə bir layihə deyil, bu, bir siyasətdir, hərəkatdır, niyyətdir. Biz də bu siyasətin davamçıları olaraq çox xoşbəxtik və qürur duyuruq. Bura mən və mənim kimi gənclər üçün yeni ideyalar, təşəbbüslər və təcrübə mərkəzidir. Biz burada faydalı işlər görə biləcəyimiz peşəkar kadrlarla zəngin bir mühit əldə etmişik. Bununla da insanların, cəmiyyətin, dövlətin həyatında iştirak hüququ qazanmışıq. Biz bu gün şadıq ki, sülh və sabitliyin mövcud olduğu ölkədə yaşayırıq. Bu sabitliyi qorumaq üçün əlimizdən gələni edəcəyik. Mən də bu il təşkil olunacaq "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsində iştirak edəcəyəm.

Cənab Ali Baş Komandan, əminik ki, Sizin rəhbərliyinizlə tezliklə Qarabağ problemi həll olunacaq. Hər zaman bizi dinlədiyiniz, bizə dəstək olduğunuz və yaratdığınız bu imkanlar üçün təşəkkür edirik.

Prezident İlham Əliyev: Çox sağ olun.

Tovuz regional "ASAN xidmət" mərkəzinin əməkdaşı Aygün Cabbarlı: Möhtərəm cənab Prezident, rayonumuza xoş gəlmisiniz. Sizi doğma yurdumuzda görməyə çox şadıq. Mənim üçün bu gün çox qürurvericidir. Çünki mən ASAN könüllüsü kimi başladığım bu yolda Tovuz regional "ASAN xidmət" mərkəzinin əməkdaşı kimi qarşınızda çıxış edirəm. Sizin təşəbbüsünüzlə yaradılan bu mərkəz rayonumuzu daha da gözəlləşdirib. Gözəlləşdirməklə yanaşı, burada olan istər əyləncə sahələri, istərsə də sakinlərin inkişafına dəstək olan mərkəzlər Sizin sosial-iqtisadi siyasətinizin bütün komponentlərini özündə birləşdirir. Belə ki, "ASAN xidmət" mərkəzi sayəsində həm vətəndaşlarımız rahat xidmət alacaqlar, həm də Tovuz və ətraf rayonlardan 200-dən çox gənc işlə təmin olunacaq. Bu gənclər elə biz könüllülərik. Mərkəzimizə daxil olan ABAD məktəb təlim mərkəzi 6 sahə üzrə - saz musiqi alətlərinin hazırlanmasından tutmuş turizmə kimi müxtəlif peşələri özündə birləşdirir. Bu da yeni peşələrə yiyələnmək üçün əvəzolunmaz fürsətdir.

Cənab Prezident, bildiyiniz kimi, burada əhalinin çox hissəsi kənd təsərrüfatı ilə məşğul olur. Düşünürəm ki, ABAD fabrikin açılması həm onların əməyini dəyərləndirəcək, həm də rayonumuzda məşğulluq səviyyəsini daha da artıracaq. Ən əsası isə ASAN hərbi vətənpərvərlik mərkəzidir. Çünki bu mərkəz təkcə biz gənclərin deyil, həm də uşaqdan böyüyə hər kəsin vətənpərvər dəyərlərə sadiq, milli ruhda yetişməsinə təkan verəcək.

Sonda qeyd etmək istəyirəm, biz gənclər inanırıq və əminik ki, bu gün doğma Tovuzda açılan bu mərkəz sabah Qarabağ torpaqlarında açılacaq və bizim şanlı Azərbaycan bayrağımız orada yüksələcək. Diqqətinizə görə təşəkkür edirəm.

Sonda xatirə şəkli çəkdirildi.

Qeyd edək ki, 8 il bundan əvvəl - 2012-ci il iyulun 13-də Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradıldı və onun tabeliyində "ASAN xidmət" mərkəzləri fəaliyyətə başladı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək "ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Həmin ildən başlayaraq Bakının bir neçə rayonunda "ASAN xidmət" mərkəzləri sakinlərin istifadəsinə verildi. Daha sonra bu proses regionları da əhatə etməyə başladı. Hazırda bu mərkəzlərə daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olanlar üstünlük təşkil edir. Bütün bunlar dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir.

Dövlət Agentliyi beynəlxalq əlaqələrə də üstünlük verir. Bu gün "ASAN xidmət"in fəaliyyəti Avropa İttifaqında, Avropa Parlamentində, Böyük Britaniya parlamentində, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunur. Artıq Azərbaycanın "ASAN xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb.

Bu illər ərzində xidmət bir neçə beynəlxalq dərəcəli sertifikata layiq görülüb, həmçinin Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. "ASAN xidmət" 2015-ci il BMT-nin "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında birinci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif edilib. Bundan başqa, ötən il oktyabrın 25-də Dövlət Agentliyi ilə ISESCO arasında imzalanan Birgə Əməkdaşlıq Proqramına əsasən qabaqcıl idarəetmə üzrə "ISESCO-nun ASAN mükafatı" təsis olunub. Həmçinin "ASAN xidmət" və ISESCO tərəfdaşlığını əks etdirən İnkişaf Naminə İdarəetmə beynəlxalq təşəbbüsünün irəli sürülməsi, şirkətlərin biznes inkişafının və idarə edilməsinin yüksəldilməsi məqsədilə xüsusi "ASAN xidmət" məhsullarının formalaşdırılması əməkdaşlıq proqramında nəzərdə tutulur. Bundan başqa, ISESCO-nun 2019-2021-ci illər üzrə üçillik Fəaliyyət Planında üzv ölkələrdə sektoral idarəçilik mexanizminin inkişaf etdirilməsi məqsədilə "ASAN xidmət" modelindən faydalanmaq tövsiyə olunub.

2019-cu il iyunun 24-26-da Bakıda Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Birləşmiş Millətlər Təşkilatı ilə birgə BMT-nin Dövlət Xidmətləri Forumunu keçirib. Foruma dünyanın 100-dən çox ölkəsindən 800-dən çox nümayəndə qatılıb. Forum çərçivəsində ölkəmiz rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində BMT-nin xüsusi mükafatına layiq görülüb. Forumun Azərbaycanda keçirilməsinə zəmin yaradan ən önəmli amillər ölkəmizdə dövlət xidmətləri sahəsində qazanılmış nailiyyətlər, "ASAN xidmət"in uğurlu fəaliyyəti və 2015-ci ildə BMT-nin Dövlət Xidmətləri mükafatına layiq görülməsidir. Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan "ASAN xidmət"ə dünyada böyük maraq var.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Tovuzda Qovlar–Əyyublu–Alakol–İbrahimhacılı–Yanıqlı–Ağacqala–Qoçdərə–Çobansığnaq–Yoğunbulaq–Sarıtala avtomobil yolunun yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun texniki göstəriciləri barədə məlumat verərək dedi:

-Cənab Prezident, bu yol 16 yaşayış məntəqəsini əhatə etməklə 50 min əhaliyə xidmət edir. Siz bu yolu çəkdirməklə təkcə Tovuz camaatı üçün deyil, çox insan üçün savab iş görmüsünüz. Belə ki, burada - Haçaqaya deyilən yerdə bu zonada yaşayan insanların bir inanc yeri, piri var. Buraya heç vaxt yol olmayıb. Siz buraya yol çəkdirmisiniz, artıq Balakəndən, Azərbaycanın çox yerindən sakinlər, eləcə də Gürcüstan azərbaycanlıları buraya gəlirlər.

Prezident İlham Əliyev: Orada yaşayış məntəqəsi var, ya ancaq pirdir?

Saleh Məmmədov: Yaxınlıqda yoxdur, ancaq pirdir. Cənab Prezident, onu qeyd edim ki, Ağacqala kəndinin 400 sakini yüz illər idi Tovuz rayonunun mərkəzinə Gədəbəy və Şəmkir vasitəsilə gəlirdilər. Yol olmayıb. Bu yolun çəkilməsi ilə həmin 400 sakin Tovuz rayonunun mərkəzinə birbaşa gedə biləcək. Bu, çox əhəmiyyətli yoldur.

Prezident İlham Əliyev: Qovlardan Haçaqayaya qədər məsafə nə qədərdir?

Saleh Məmmədov: 24 kilometrdir. Bu yolun çəkilməsi nəticəsində insanlar maşınlarla Haçaqayaya qalxa bilirlər. Biz yolun 2 kilometrlik hissəsini dağı partlatmaq üsulu ilə çəkdik.

Prezident İlham Əliyev: Mənzərəli yerlərdir. Orada turizm inkişaf etdirilməlidir.

Saleh Məmmədov: Bəli, həmin hissə Tovuzun ən dağlıq əraziləridir. Əvvəllər torpaq və çınqıl əsaslı yol olub, indi asfalt-beton örtüklü yoldur. Cənab Prezident, Siz sərəncamlarınızla kənd yollarını şəhər yollarına çevirmisiniz.

Prezident İlham Əliyev: İndi kənd yolları elə bil magistral yollardır.

Saleh Məmmədov: Bəli, əhali də bunu görür və alqışlayır.

Prezident İlham Əliyev: Burada yolların böyük əksəriyyəti təmirlidir.

Saleh Məmmədov: 2020-ci il üçün Əyyublu yolu ilə bağlı Sərəncamınız var, cənab Prezident. Sizin sayəsində bu ərazilərdə çox gözəl yollar çəkilib. 2018-ci ildə imzaladığınız Sərəncama əsasən çəkilmiş 32 kilometrlik yol da tam təhvil verilib. Bu yol boyunca 8 min insan yaşayır. Baqqallı deyilən bir kənd var, orada şəfalı bulaq suları var. Bundan başqa, bizim qızıl mədəninə də yollar çəkilib, bu yollarla oraya xammal daşınır.

Prezident İlham Əliyev: Qızıl mədənləri indi istismar olunur?

İcra başçısı Məmməd Məmmədov: Bəli işləyir, orada çalışan insanlar çox yaxşı əməkhaqqı alırlar.

Prezident İlham Əliyev: Kənd camaatı işləyir? Hansı kəndlərdən?

İcra başçısı Məmməd Məmmədov: Qoşa kəndi. Ətraf kəndlərdən də gəlib işləyirlər. Bu da bizə çox böyük gəlir gətirir.

Saleh Məmmədov: Cənab Prezident, bu yollar çəkilənə qədər insanlar 50-100 il torpaq yollarla hərəkət ediblər. Bu gün isə Sizin sayənizdə belə abad yollar çəkilib.

Sonra Prezident İlham Əliyev Qovlar–Əyyublu–Alakol–İbrahimhacılı–Yanıqlı–Ağacqala–Qoçdərə–Çobansığnaq–Yoğunbulaq–Sarıtala yolunun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQLƏRİ, ÇIXIŞLARI VƏ MÜSAHİBƏLƏRİ

## *2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə İlham Əliyevin giriş nitqi*

Bu gün biz ötən ilin yekunları haqqında danışacağıq, görüləcək işlər barədə fikir mübadiləsi aparılacaqdır.

Deyə bilərəm ki, bütövlükdə 2019-cu il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, ölkəmizin dayanıqlı inkişafı təmin olundu. Beləliklə, həm siyasi, həm iqtisadi, həm də sosial sahələrdə böyük uğurlar əldə edilmişdir. Azərbaycan sabitlik şəraitində yaşamışdır. Sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir.

Biz il ərzində müxtəlif yerlərdə gərginliyin artmasını görürdük. Qanlı toqquşmalar, müharibələr, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının kobudcasına pozulması, demokratik dəyərlərin tapdalanması – bütün bunlar dünyanın demək olar ki, bütün yerlərində müşahidə olunurdu. Avropada, Asiyada, Latın Amerikasında, postsovet məkanında, bizim bölgəmizdə, Yaxın Şərqdə, dünyada gərginlik artır. Azərbaycan isə sabitlik məkanı kimi inkişaf edir. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Azərbaycan xalqının iradəsi Azərbaycanda sabitliyin əsas təminatçısıdır. Xalq tərəfindən bizə göstərilən dəstək, bizim siyasətimizə verilən yüksək qiymət həm bizi daha da ruhlandırır və eyni zamanda, ölkəmizdə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir. Sabitlik pozulanda ölkələrdə böhran, xaotik proseslər baş verir, ölkələr böyük zərər görürlər. Biz bunu 1990-cı illərin əvvəllərində öz tariximizdə görmüşük. Azərbaycanda sabitlik pozulmuşdu, ölkə böhran içində idi, bizim böyük itkilərimiz olmuşdur. Amma artıq 26 ildir ki, Azərbaycan sabitlik şəraitində yaşayır və bu illər ərzində ölkəmiz çox böyük inkişaf yolu keçmişdir. Deyə bilərəm ki, ölkəmiz əsrə bərabər inkişaf yolu keçmişdir və bu gün Azərbaycan dünya miqyasında güclü ölkələr sırasındadır.

Keçən il bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi. Azərbaycanda bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Bu təbirlər ölkəmizin dünyadakı mövqeyini həm əks etdirir, həm də möhkəmləndirir. Azərbaycan dünya müstəvisində çox etibarlı tərəfdaş kimi tanınır və bizim beynəlxalq gücümüz də ildən-ilə artır. İl ərzində ölkəmizə 40-dan çox dövlət və hökumət başçısı səfər etmişdir, həm ikitərəfli formatda, həm də beynəlxalq tədbirlərdə iştirak üçün. Eyni zamanda, bizim qonşu dövlətlərin dövlət və hökumət başçıları ilə çoxsaylı görüşlərim olubdur və bu görüşlər çox önəmlidir. Çünki qonşularla münasibətlərin qurulması hesab edirəm ki, hər bir ölkə üçün prioritet olmalıdır. Azərbaycanın öz qonşuları ilə çox möhkəm və qarşılıqlı maraqlar əsasında formalaşmış əlaqələri mövcuddur. Bu əlaqələr keçən il daha da möhkəmləndi. Eyni zamanda, keçən il Azərbaycana Avropa İttifaqı Şurasının prezidentinin səfəri Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri də əks etdirir. Bu səfər bu əlaqələrə böyük töhfə vermişdir. Bildiyiniz kimi, hazırda Avropa İttifaqı ilə biz yeni saziş üzərində işləyirik və ümid edirəm ki, bu işlər nəticə verəcəkdir.

Ölkəmizdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü keçirilmişdir və Azərbaycan bu təşkilata sədrliyi öz üzərinə götürmüşdür. Eyni zamanda, ölkəmizdə Qoşulmama Hərəkatının Zirvə Görüşü keçirilmişdir. Bu Zirvə Görüşü çərçivəsində 120 üzv ölkənin yekdil qərarı ilə Azərbaycan BMT-dən sonra bu ikinci böyük beynəlxalq təsisata sədrliyi öz üzərinə götürmüşdür. Bu faktı xüsusilə qeyd etmək istəyirəm. Çünki Qoşulmama Hərəkatında birləşən bəzi ölkələr, belə demək mümkündürsə, bir-biri ilə yola getmirlər, ölkələr arasında münaqişələr, ixtilaflar var. Buna baxmayaraq, bütün ölkələr Azərbaycanın namizədliyini dəstəklədi. Bu, bir daha onu göstərir ki, beynəlxalq arenada bizə olan hörmət və etimad yüksək səviyyədədir.

Dünya dini liderlərinin II Zirvə Görüşü ölkəmizdə keçirilmişdir. Azərbaycana 70 ölkənin dini liderləri gəlmiş, bizim reallıqlarımızla tanış olmuş və ölkəmizdə dinlərarası, mədəniyyətlərarası istiqamətdə görülmüş işlərə yüksək qiymət vermişlər.

Azərbaycanda UNESKO-nun Dünya İrs Komitəsinin sessiyası keçirilmişdir. Bu da dünya miqyasında çox mötəbər tədbirdir. Bu sessiya çərçivəsində Şəki Xan Sarayı, Şəkinin mərkəzi hissəsi UNESKO-nun Dünya İrs Siyahısına daxil edilmişdir. Hesab edirəm ki, bu, çox böyük hadisədir. Çünki bu günə qədər Qobustan və İçərişəhər, Şirvanşahlar sarayı bu mötəbər siyahıya daxil edilmişdir. Hesab edirəm ki, Şəki Xan Sarayının bu siyahıda olması həm ədalətlidir, həm də bizim növbəti böyük uğurumuzdur.

Mən bir beynəlxalq tədbirə də diqqət yetirmək istərdim. Bu da keçən il Vaşinqtonda keçirilmiş Dünya Astronavtika Konqresidir. Bu, astronavtika sahəsində ən mötəbər tədbirdir. Bu konqres çərçivəsində Dünya Astronavtika Konqresinin 2022-ci ildə Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Bu da çox önəmli hadisədir - həm konqresin keçirilməsi böyük hadisədir, eyni zamanda, Bakı ilə bərabər, daha üç böyük şəhər bu yarışda iştirak edirdi – Rio-de-Janeyro,

Sinqapur və Dehli şəhərləri. Bu çətin yarışda Azərbaycan qalib gəldi. Yəni, bu, bizim gördüyümüz işlərə böyük diqqətdir və bütövlükdə Azərbaycana göstərilən növbəti etimaddır. Onu da bildirməliyəm ki, təxminən 50 il bundan əvvəl - 1973-cü ildə Sovet İttifaqında cəmi bir dəfə Dünya Astronavtika Konqresi keçirilmişdir, özü də Bakı şəhərində. O vaxt Heydər Əliyevin səyləri nəticəsində sovet məkanında məhz Bakı bu konqresin keçirilməsi üçün seçilmişdir. Təxminən 50 ildən sonra növbəti dəfə Bakıda bu konqres keçiriləcək, artıq müstəqil Azərbaycanın paytaxtı Bakı şəhərində.

Beynəlxalq müstəvidə bir çox önəmli hadisələr baş verdi. Sadəcə olaraq, mən əsas məsələlərə diqqət yetirirəm. Artıq dediyim faktlar əyani şəkildə göstərir ki, beynəlxalq mövqelərimiz kifayət qədər möhkəmdir və keçən il bu mövqelər daha da möhkəmlənmişdir.

Bizim hərbi potensialımız da möhkəmləndi. Keçən il bir çox silahlar, sursatlar, hərbi texnika alınmışdır və Azərbaycanda istehsal olunmuşdur. Təsadüfi deyil ki, Azərbaycan Ordusu hərbi potensialına, maddi-texniki təchizatına və döyüş qabiliyyətinə görə dünyada 52-ci yerdədir. Keçən il əldə edilmiş nəticələr, o cümlədən hərbi şəhərciklərin tikilməsi, təmiri, yeni müasir texnika ilə təchizat məsələlərinin həlli bizim hərbi gücümüzü daha da artırmışdır.

Keçən il iqtisadi sahədə böyük müsbət nəticələr əldə edilmişdir. Bu nəticələr göstərir ki, bizim siyasətimiz düşünülmüş siyasətdir. Hesab edirəm ki, Azərbaycan 2019-cu ildə iqtisadi sahədə qarşıda duran bütün vəzifələri uğurla icra etmişdir. Təkcə rəqəmlərə baxanda demək kifayətdir ki, 2019-cu il iqtisadi inkişaf baxımından ölkəmiz üçün uğurlu olmuşdur. Dünya Bankı Azərbaycanı 20 ən islahatçı ölkə siyahısına salmışdır, bu, böyük nailiyyətdir. Bu, onu göstərir ki, ölkəmizdə aparılan köklü islahatlar aparıcı beynəlxalq qurumlar tərəfindən də təqdirlə qəbul edilir. Deyə bilərəm ki, bütövlükdə 2019-cu il dərin islahatlar ili olmuşdur - həm siyasi, iqtisadi, sosial sahələrdə, həm də kadr və struktur islahatları sahələrində. Bu islahatlar inkişafımızın bundan sonra daha da uğurlu olacağına imkan verəcək, o cümlədən iqtisadi artım daha da böyük rəqəmlərlə ölçüləcəkdir.

Hesab edirəm ki, keçən il iqtisadi sahədə əldə edilmiş nəticələr qənaətbəxşdir. Beləliklə, ümumi daxili məhsul 2,2 faiz artmışdır, bu, yaxşı nəticədir, xüsusilə nəzərə alsaq ki, qeyri-neft sektorunda bu artım 3,5 faizdir. Sənaye istehsalı 1,5 faiz artmışdır, ancaq qeyri-neft sektorunda sənaye istehsalı 14 faiz artmışdır. Bu da son illər ərzində sənaye sahəsində görülmüş işlərin təzahürüdür. Azərbaycanda sənaye istehsalı həm dövlət vəsaiti hesabına, həm də özəl sektorun fəaliyyəti nəticəsində artmışdır. Əminəm ki, bu artım bundan sonra da dayanıqlı olacaqdır.

Kənd təsərrüfatı təxminən 7 faiz artmışdır. Xüsusilə bitkiçilikdə bu artım daha böyük olmuşdur - 10 faizdən çox. Bu da görülmüş işlərin nəticəsidir. İnflyasiya cəmi 2,6 faiz, əhalinin pul gəlirləri isə 7,4 faiz olmuşdur. Yəni, bu, onu göstərir ki, əhalinin pul gəlirləri inflyasiyanı üstələyib. Beləliklə, əhalinin real gəlirləri artmışdır. Hesab edirəm ki, bu, hər bir ölkə üçün əsas məsələlərdən biridir. Bizim qeyri-neft ixracımız 14 faiz artmışdır. Bu da çox yaxşı nəticədir. Son illərdə özəl sektorun fəaliyyətinə göstərilən diqqət, güzəştli kreditlərin verilməsi, subsidiyalarla bağlı aparılan islahatlar və digər tədbirlər bu artımı şərtləndirdi.

Valyuta ehtiyatlarımız isə 6,4 milyard dollar artmışdır və rekord həddə - 51 milyard dollara çatmışdır. Bildirməliyəm ki, adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan MDB məkanında birinci yerdədir. Xarici ticarət dövriyyəsinin müsbət saldosu isə 6 milyard dollar təşkil edir və bu, çox gözəl göstəricidir. Deyə bilərəm ki, dünya ölkələrinin mütləq əksəriyyətində xarici ticarət dövriyyəsində mənfi saldo müşahidə olunur, bizdə isə müsbət saldodur. Bu, sözsüz, həm manatın məzənnəsinin sabit vəziyyətdə saxlanmasına, həm də bütövlükdə makroiqtisadi vəziyyətin sabit olmasına xidmət göstərəcəkdir. Beləliklə, iqtisadi sahədə əldə edilmiş nəticələr və rəqəmlər artıq bir daha təsdiqləyir ki, bizim siyasətimiz düşünülmüş və nəticəyə hesablanmış siyasətdir.

Vergi və gömrük orqanlarında aparılmış islahatlar nəticəsində xəzinəyə plandan əlavə 1 milyard manat vəsait daxil edilmişdir. Bu, öz növbəsində imkan verdi ki, biz çox geniş sosial paketi əhaliyə təqdim edək və bunu etdik. Hesab edirəm ki, həm müasir Azərbaycanın tarixində, həm də MDB məkanında bu dərəcədə böyük sosial paket bu günə qədər reallaşmamışdır. Bu, bizim bu sahədə birinci təşəbbüsümüz deyil. Yaxşı xatırlayırıq ki, sovet vaxtından qalmış və bir növ dondurulmuş əmanətlərin qaytarılmasında da biz bu əmanətləri vətəndaşlar üçün ən məqbul prinsip əsasında, ən məqbul əmsalla qaytardıq və bu sahədə də MDB məkanında birinci olduq. Ötən il həyata keçirilən sosial paket 4,2 milyon insanı əhatə etdi və vətəndaşların maddi vəziyyəti yaxşılaşdı. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faiz, bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırılmışdır. Bir sözlə, keçən il aparılmış islahatlar nəticəsində biz əldə edilmiş əlavə gəlirləri, ilk növbədə, məhz sosial sahəyə yönəltdik. Mən keçən ilin əvvəlində bunu bəyan etmişdim. Demişdim ki, yığılacaq bütün əlavə vəsait sosial sahəyə yönəldiləcəkdir və bunu da etdik. Hər zaman olduğu kimi, sözümüzün üstündə dururuq. Sosial sahədə gedən müsbət proseslər və vətəndaşların rifah halının yaxşılaşdırılması bizim üçün prioritet məsələ olaraq qalır.

Əlbəttə, uğurlu iqtisadi siyasət nəticəsində sosial infrastrukturla bağlı böyük işlər görülmüşdür, 60 tibb müəssisəsi, 84 məktəb tikilmiş və təmir edilmişdir. Məktəblərdən 50-si modul tiplidir. Bu məktəblər kiçik və ucqar kəndlərdə inşa edilib. Bu, onu göstərir ki,

ölkəmizin hər bir yerində gedən proseslər ümumi inkişafımızın potensialından bəhrələnir.

İnfrastruktur layihələri icra edildi, elektrik enerjisi sahəsində "Şimal-2" elektrik stansiyası istismara verildi. Bu stansiyanın istehsal gücü 400 meqavatdır. Bununla paralel olaraq Mingəçevir İstilik Elektrik Stansiyasında və digər mövcud stansiyalarda aparılmış təmir-bərpa işləri nəticəsində biz təxminən 400 meqavat itirilmiş generasiya gücünü bərpa etdik. Beləliklə, keçən il 800 meqavat əlavə generasiya gücü əldə etdik. Əlbəttə ki, bu, həm bizim tələbatımızı tam ödəyir, həm də böyük ixrac imkanımız yaranmışdır. Hazırda bizim tələbatımızdan artıq 1000 meqavat generasiya güclərimiz var. Elektrik təsərrüfatının yenilənməsi istiqamətində görülən tədbirləri nəzərə alsaq, demək kifayətdir ki, bu istiqamətdə çox ciddi iş aparılıbdır.

Ölkəmizdə qazlaşdırma 96 faizə çatmışdır. Qazılmış 345 subartezian quyusu yüzlərlə kəndin su ilə təminatını yaxşılaşdıracaq. Onu da bildirməliyəm ki, bu il 400-dən çox subartezian quyusu qazılacaq. Artıq bütün rayonların kəndlərinin adları siyahıda var və biz il ərzində investisiya proqramı çərçivəsində bunu edəcəyik.

Yol tikintisinə gəldikdə, bu il həm magistral, həm də şəhərlərarası, kəndlərarası və qəsəbədaxili yollarla bağlı böyük layihələr icra ediləcək. Bakı-Sumqayıt-Rusiya sərhədi yeni yolunun, Gəncə-Gürcüstan sərhədi yolunun, Astara-İran sərhədi yolunun tikintisi nəzərdə tutulubdur. Keçən il 1300 kilometr yol çəkilmişdir. Biz təqribən min kilometr planlaşdırırdıq, ancaq il ərzində Prezidentin ehtiyat fondundan və dövlət büdcəsindən yaranmış əlavə gəlirlər hesabına 1300 kilometr uzunluğunda yol çəkdik.

İnfrastruktur layihələri keçən ilin əvvəlində qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı dördüncü Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Bu, beşillik proqramdır. Bundan əvvəlki üç proqram müvəffəqiyyətlə icra edildi. Əminəm ki, dördüncü proqramın icrasında da heç bir problem olmayacaq. Beləliklə, hesab edirəm ki, proqram başa çatanda artıq bizim bütün infrastruktur layihələrimiz, o cümlədən sosial infrastrukturla bağlı layihələr öz həllini tapacaqdır.

Keçən ilin əvvəlində Şamaxı, Ağsu, İsmayıllı rayonlarında böyük zəlzələ baş vermişdi. Xoşbəxtlikdən heç bir insan itkisi olmamışdır. Ancaq minlərlə ev dağıntıya məruz qaldı. Zəlzələdən dərhal sonra bölgədə olarkən vətəndaşlara söz verdim ki, qış gələnə qədər bütün evlər yenidən tikiləcək, təmir olunacaq, bərpa ediləcək. Həmişə olduğu kimi, yenə də sözümüzün üstündə durduq və artıq zəlzələnin bütün əsas fəsadları aradan qaldırıldı, minlərlə yeni ev tikildi, təmir olundu, bərpa edildi. Bu, bir daha onu göstərir ki, vətəndaşların problemlərinin həlli diqqət mərkəzindədir.

Mən bunu əvvəllər də demişəm, bir daha demək istəyirəm ki, Azərbaycanda mülkiyyətin sığortalanması prosesi ilə bağlı çox böyük maarifləndirmə işləri aparılmalıdır. Vətəndaşlar bilməlidirlər ki, evlər, əmlak sığortalanmalıdır. Nəzərə alsaq ki, Azərbaycanda bu sahədə böyük boşluqlar var, dövlət bütün maliyyə yükünü öz üzərinə götürübdür. Əlbəttə, bu, böyük vəsait tələb edirdi, ancaq yenə də deyirəm, vətəndaşların rahatlığı, onların rifahı, normal yaşayışı bizim üçün əsas məsələdir. Ancaq hesab edirəm ki, bu il və bundan sonrakı illərdə əmlakın sığortalanması, o cümlədən maarifləndirmə ilə bağlı çox ciddi addımlar atılmalıdır. Bu məsələ ilə bağlı müxtəlif tədbirlər keçirilməlidir, atılacaq addımlar haqqında vətəndaşlara ətraflı məlumat verilməlidir. Hökumətə tapşırıram ki, bu məsələyə diqqət yetirsin. Eyni zamanda, bu, ölkəmizin sığorta sektorunun inkişafına müsbət təsir göstərəcəkdir.

Keçən il TANAP qaz kəməri istismara verildi. Hesab edirəm ki, bu, tarixi nailiyyətdir. Çünki TANAP Cənub Qaz Dəhlizinin əsas hissəsidir. Məhz 2012-ci ildə TANAP üzrə imzalanmış sazişdən sonra "Şahdəniz-2" qaz-kondensat yatağının işlənilməsi üçün sanksiya verilmişdir. Əgər TANAP imzalanmasaydı, "Şahdəniz-2"nin işlənilməsi başlamayacaqdı və bu gün biz bu əlavə qaz həcmini əldə edə bilməyəcəkdik. Bu, böyük problemlər yarada bilərdi. Ona görə həm TANAP üzrə sazişin imzalanması, həm də bu qaz kəmərinin vaxtından əvvəl istismara verilməsi və nəzərdə tutulmuş vəsaitə çox böyük qənaət edilməsi doğrudan da böyük tarixi nailiyyətimizdir. Cənub Qaz Dəhlizinin qalan dördüncü layihəsi də uğurla icra edilir. TAP layihəsinin icra səviyyəsi 90 faizi keçibdir. Əminəm ki, biz bu il TAP-ın istismara verilməsini də nəzərdə tutulmuş vaxtda qeyd edəcəyik.

Bir məsələni də diqqətə çatdırmaq istəyirəm. Bu da o məsələdir ki, görülmüş bütün işlər, o cümlədən beynəlxalq arenadakı mövqelərimiz, bir çox ölkələrlə dostluq münasibətlərimizin qurulması, ölkəmizdə hökm sürən sabitlik və əmin-amanlıq - bütün bunlar turizmin inkişafına böyük təkan vermişdir. Çünki mən dəfələrlə demişəm ki, turizmin inkişafı yalnız tarixi abidələrlə, yaxud da hansısa diqqəti, marağı cəlb edən məsələlərlə məhdudlaşmır. Bugünkü dünyada elə bir bölgə yoxdur ki, orada problem olmasın, özü də çox ciddi problem. Qeyd etdiyim kimi, müharibələr, qarşıdurmalar, çevrilişlər, kütləvi etirazlar, polis zorakılığı, insan haqlarının tapdalanması - əlbəttə, o ölkələrdə ki, dediyim bütün bu mənzərə mövcuddur, orada turist axını da tənəzzülə uğrayır.

Azərbaycanda mövcud olan sabitlik, beynəlxalq mövqelərimizin möhkəmlənməsi, ölkəmizdə keçirilmiş beynəlxalq tədbirlər turizmin inkişafına xidmət göstərir. Ötən il turistlərin səfərləri rekord həddə çatıb – 3 milyon 170 min xarici qonaq ölkəmizə gəlmişdir. Mənə verilən məlumata görə, təkcə bank kartları ilə xarici turistlər Azərbaycanda 1 milyard 260 milyon manat pul xərcləmişlər. Ancaq bütövlükdə nəzərə almalıyıq ki, gələn turistlər əsasən qonşu ölkələrdəndir və bizdə

olduğu kimi, orada da hələ ki, nağd hesablaşmalar üstünlük təşkil edir. Ümumi hesablama göstərir ki, xarici turistlər Azərbaycanda bütövlükdə 4,3 milyard manat pul xərcləyiblər. Mən bunu manatla deyirəm, amma, əslində, bu, valyutadır. Bu valyuta, eyni zamanda, bir növ ixrac növüdür. Bizim makroiqtisadi vəziyyətimizin sabit olmasında da bunun çox böyük rolu var. Əlbəttə, biz əsas valyutanı neft-qaz satışından qazanırıq. Halbuki qeyri-neft sektorunda ixracın 14 faiz artması indi bu sektordan da valyuta axınını təmin edir. Turizmin inkişafı bundan sonra da diqqət mərkəzində olacaqdır.

Beləliklə, əlbəttə ki, 2019-cu ildə əldə edilmiş uğurlar haqqında saatlarla danışmaq olar. Mən, sadəcə olaraq, Azərbaycan vətəndaşlarına əsas hesab etdiyim məsələləri çatdırdım. Bir daha demək istəyirəm ki, biz 2020-ci ildə bu uğurlar yolu ilə gedəcəyik. Əminəm ki, 2020-ci il də ölkəmiz üçün uğurlu olacaqdır.

## *2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə İlham Əliyevin yekun nitqi*

Bir sözlə, artıq bu gün aparılan müzakirələr həm keçən il görülmüş işlərə yekun vurur, eyni zamanda, bu il görüləcək işlərlə bağlı açıq-aydın mənzərə formalaşır. Əminəm ki, bu il də uğurlu olacaqdır.

Bir məsələyə də münasibət bildirmək istərdim. Son vaxtlar siz də bunu görürsünüz, Ermənistanın baş naziri öz ölkəsinin dırnaqarası uğurları haqqında danışarkən Ermənistanı Azərbaycanla müqayisə edir. Onun gəldiyi qənaətə görə, Ermənistan Azərbaycanı bir çox parametrlər üzrə qabaqlayır. Bəri başdan bildirirəm və bunu heç sübut etməyə ehtiyac yoxdur ki, belə bir fərziyyənin heç bir əsası yoxdur. Azərbaycan Ermənistanı bütün əsas parametrlər üzrə böyük fərqlə qabaqlayır. Bunu təsdiqləmək üçün, sadəcə olaraq, bir neçə hadisəni və bir neçə rəqəmi səsləndirmək istərdim.

Bildiyiniz kimi, Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Yəni, bu, özlüyündə böyük bir göstəricidir. Birinci növbədə, ona görə ki, biz ilk dəfə bu böyük, şərəfli missiyaya nail olduq və o vaxt müstəqilliyimizin cəmi 20 yaşı tamam olmuşdu. Digər tərəfdən, bu, Azərbaycanın beynəlxalq nüfuzuna bilavasitə dəlalət edən amillərdən biri idi. Çünki dünya birliyinin mütləq əksəriyyəti bizə inandı, bizə etimad göstərdi və bizə öz səsini vermişdi. Bu hadisə ilə bağlı mən əvvəlki dövrlərdə kifayət qədər geniş məlumat vermişdim. Amma bir məsələ həmişə diqqətdən kənarda qalır, bir çoxları bunu bilmir. Həqiqət isə ondan ibarətdir ki, 2011-ci ildə bizdən əvvəl Ermənistan da öz namizədliyini vermişdi. Ancaq biz namizədliyi verəndən sonra onlar götür-qoy etdilər və gördülər ki, bizimlə rəqabətdə onlar 100 faiz uduzacaqlar, çox sakitcə, qorxaqcasına öz namizədliyini geri götürdülər. Çünki bilirdilər ki, BMT-də biz onlara böyük fərqlə qalib gələcəyik və beləliklə, onlar rüsvay olacaqlar. Yəni, bu, 9 il bundan əvvəl baş vermiş hadisədir və onu göstərir ki, beynəlxalq müstəvidə Ermənistanın və Azərbaycanın hörməti və çəkisi nə dərəcədə fərqlənir. BMT Təhlükəsizlik Şurasına seçilməyimiz bizim böyük siyasi və diplomatik qələbəmizdir və eyni zamanda, Ermənistan üzərində böyük qələbə idi.

2016-cı ildə Ermənistan dinc Azərbaycan əhalisinə qarşı hərbi təxribat törədib və bu təxribat nəticəsində bir neçə dinc vətəndaş həlak olub. Onların arasında uşaqlar da olub. Azərbaycan buna cavab olaraq uğurlu əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini, minlərlə hektar torpağı işğalçılardan azad etdi və o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu, bizim hərbi qələbəmiz idi. Növbəti hərbi qələbə 2018-ci ildə təmin edilmişdir. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində 10 mindən çox hektar ərazi işğalçılardan, erməni silahlı qüvvələrindən təmizləndi və bir neçə önəmli strateji yüksəklik azad edildi. Bu yüksəkliklər imkan verir ki, biz Ermənistanın strateji kommunikasiyalarına tam nəzarət edə bilək. Bu, bizim ikinci hərbi qələbəmiz idi.

Dünyanın ən güclü orduları reytinqində Azərbaycan 52-ci, Ermənistan isə 96-cı yerdədir. O cümlədən hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yerdədir. Dəniz gücü üzrə Azərbaycan 67-ci yerdədir, Ermənistanda dəniz yoxdur. Tank gücü üzrə Azərbaycan 32-ci, Ermənistan 78-ci yerdədir. Mənbə "Global Firepower 2019" hesabatıdır.

İndi əsas makroiqtisadi göstəricilərə diqqət yetirirəm. Beləliklə, 2019-cu ildə Azərbaycanın ümumi daxili məhsulu dollar ekvivalentində 47,6 milyard dollardır, Ermənistanda isə cəmi 13 milyard dollar. Alıcılıq qabiliyyətinə görə Azərbaycan 187 milyard dollar daxili məhsula sahibdir, Ermənistan 33 milyard, fərq 5,6 dəfədir. Adambaşına düşən ümumi daxili məhsul Azərbaycanda 4800 dollar, Ermənistanda 4500 dollardır. Alıcılıq qabiliyyətinə görə adambaşına düşən ümumi daxili məhsul Azərbaycanda 18 min 600 dollar, Ermənistanda 11 min dollardır. Valyuta ehtiyatları Azərbaycanda 51 milyard dollar, Ermənistanda 2 milyard dollardır, fərq 25 dəfədir. Xarici ticarət dövriyyəsi Azərbaycanda 33,6 milyard, Ermənistanda 7,4 milyard dollardır, fərq 4,5 dəfədir. İxrac - Azərbaycan 19,6 milyard, Ermənistan 2,4 milyard, fərq 8,1 dəfədir. Müsbət saldo Azərbaycanda 6 milyard dollar, Ermənistanda mənfi saldo 2,6 milyard dollardır. Sərmayə qoyuluşu - keçən il Azərbaycana 13,5 milyard dollar qoyulubdur, Ermənistana 900 milyon, fərq 15 dəfədir. Xarici dövlət borcu - Azərbaycanın xarici dövlət borcu 7,9 milyard dollar, Ermənistanın 6 milyard dollardır. Azərbaycanda xarici dövlət borcu ümumi daxili məhsulun 17 faizini təşkil edir, Ermənistanda 40 faizdən çoxdur. Valyuta ehtiyatları Azərbaycanda xarici

dövlət borcundan 6,4 dəfə çoxdur, Ermənistanda xarici dövlət borcu valyuta ehtiyatlarından 2,3 dəfə çoxdur. Adambaşına düşən xarici borc Azərbaycanda 799 dollar, Ermənistanda 1900 dollardır.

Əməkhaqları və pensiyalara dair məlumatı təqdim edirəm. Beləliklə, 2019-cu ilin dekabr ayında Azərbaycanda orta əməkhaqqı 723 manat - bu, 425 dollar təşkil edir, Ermənistanda 369 dollar. Alıcılıq qabiliyyətinə görə orta əməkhaqqı üzrə Azərbaycan MDB-də ikinci, Ermənistan doqquzuncu yerdədir. Minimum pensiya Azərbaycanda 200 manat, yəni 118 dollar, Ermənistanda 55 dollardır. Minimum pensiyaya görə Azərbaycan MDB-də ikinci, Ermənistan doqquzuncu yerdədir. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB-də birinci, Ermənistan onuncu, yəni axırıncı yerdədir. Orta pensiya Azərbaycanda 262 manat, yəni 154 dollar, Ermənistanda 84 dollardır. MDB-də orta pensiyaya görə Azərbaycan dördüncü, Ermənistan səkkizinci yerdədir. Orta pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB-də ikinci, Ermənistan axırıncı – onuncu yerdədir. Yoxsulluq səviyyəsi Azərbaycanda 4,8 faiz, Ermənistanda 24 faizdir, fərq beş dəfədir. Şəhid ailələrinə və müharibə əlillərinə 2019-cu ildə Azərbaycanda 934 mənzil verilibdir, Ermənistanda sıfır. Bütövlükdə Azərbaycanda bu kateqoriyadan olan insanlara 7590 mənzil verilib, Ermənistanda, bildiyimə görə, belə proqram mövcud deyil. Təkcə keçən il bu kateqoriyadan olan insanlara 600 avtomobil verilib, Ermənistanda sıfır. Bütövlükdə bu kateqoriyadan olan insanlara 6750 avtomobil verilib, Ermənistanda sıfır.

Keçirik Davos Ümumdünya İqtisadi Forumunun qlobal rəqabətlilik hesabatına. Beləliklə, 2019-cu ildəki bəzi rəqəmləri təqdim etmək istərdim. İqtidarın uzunmüddətli strategiyasına görə Azərbaycan dünyada onuncu, Ermənistan 59-cu yerdədir. İqtidarın siyasi sabitliyi təmin etməsi - Azərbaycan 11-ci, Ermənistan 58-ci yerdədir. Məhkəmə azadlığı - Azərbaycan 39-cu, Ermənistan 67-ci yerdədir. Polis orqanlarına etimad - Azərbaycan 30-cu, Ermənistan 44-cü yerdədir. Yolların keyfiyyəti - Azərbaycan 27-ci, Ermənistan 91-ci yerdədir. Dəmir yolu xidmətlərinin səmərəliliyi - Azərbaycan dünya miqyasında 11-ci, Ermənistan 67-ci yerdədir. Hava yolları xidmətlərinin səmərəliliyi - Azərbaycan 12-ci, Ermənistan 67-ci yerdədir. İnternet istifadəçilərinin sayına, yəni əhali üzrə payına görə faizlə Azərbaycan 43-cü, Ermənistan 77-ci yerdədir. Əhali arasında rəqəmsal biliklər üzrə Azərbaycan 19-cu, Ermənistan 50-ci yerdədir. Ümumi daxili məhsul, alıcılıq qabiliyyəti pariteti üzrə Azərbaycan 69-cu, Ermənistan 120-ci yerdədir.

İndi keçirik idman sahəsinə. Azərbaycan 2019-cu ildə dünya və Avropa çempionatlarında 775 medal qazanıb, onlardan 271-i qızıl medaldır. Ermənistan cəmi 222 medal qazanıb, onlardan 61-i qızıldır. 2019-cu ildə II Avropa Oyunlarında Azərbaycan 28 medal qazanıb, Ermənistan 11 medal. 2019-cu ildə keçirilmiş güləş üzrə Avropa çempionatında Azərbaycan 13 medal qazanıb, o cümlədən 4 qızıl, Ermənistan 3 medal qazanıb, bir qızıl.

Keçirik intellektual idman növü olan şahmatda əldə edilən nəticələrə. 2019-cu ildə Avropa çempionatında səkkiz yaşlı şahmatçılar arasında Dinarə Hüseynova qızıl medal qazanaraq Avropa çempionu olmuşdur, Səadət Bəşirli və Yusif Kərimli bürünc medal qazanmışlar. On dörd yaşlı şahmatçılar arasında Ayan Allahverdiyeva Avropa çempionu olmuşdur. Qadınlardan ibarət milli komandamız Avropa çempionatında Ermənistana qalib gələrək bürünc medal qazanmışdır. Gənclərin dünya çempionatında on dörd yaşlılar arasında Aydın Süleymanlı dünya çempionu olmuşdur. Teymur Rəcəbov isə dünya kubokunun sahibi olmuşdur. 2016-cı il Rio Olimpiya Oyunlarında Azərbaycan 18 medal qazanıb, Ermənistan cəmi 4 medal. Medalların sayına görə Azərbaycan 14-cü yeri tutubdur.

Digər önəmli bir məsələ ondan ibarətdir ki, Azərbaycan faşizmin qəhrəmanlaşdırılmasına qarşı ardıcıl mübarizə aparır, Ermənistan isə faşistləri qəhrəmanlaşdırır. Faşist cəlladı olan Njdeyə İrəvanın mərkəzində 6 metrlik abidə ucaldılıb. Bu qanlı cinayətkar SMERŞ tərəfindən həbs edilib, 25 il məhkum edilib, həbsxanada ölüb və reabilitasiya olunmayıb. Belə bir adamın şərəfinə İrəvanda abidə qoyulur və Ermənistanın baş naziri bu cəlladı Soljenitsın və Molotovla eyniləşdirir. Njdenin məşhur kəlamı var: Almaniya uğrunda ölən Ermənistan uğrunda ölür və o, bunu İkinci Dünya müharibəsi zamanı demişdi. Bu, artıq onun mənfur xislətini əks etdirən ifadədir. Ona görə bu sahədə də Azərbaycan həqiqətin tərəfindədir, Ermənistan isə şər qüvvələrin tərəfindədir.

Nüfuzlu "News & World Report" mətbu orqanı tərəfindən aparılmış təhlilə əsasən dünyanın ən güclü ölkələrinin siyahısı müəyyən edilmişdir. Siyahıda cəmi 80 ölkənin adı var və Azərbaycan bu siyahıda güclü ölkələr arasında 45-ci yerdədir. Ermənistanın isə ümumiyyətlə, adı belə yoxdur. İqtisadi inkişafın templərinə görə isə bizim yerimiz dünya miqyasında 35-cidir.

Azərbaycan dünya əhəmiyyətli nəhəng layihələr icra edir. Onların arasında Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum, TANAP qaz kəmərləri var. Cənub Qaz Dəhlizi bu il istismara veriləcək. Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib və bu yol vasitəsilə yükdaşımaların həcmi ildən-ilə artır. Bakı-Tbilisi-Qars Şərq-Qərb nəqliyyat dəhlizinin tərkib hissəsidir. Biz bu layihəni qonşu ölkələrlə - Türkiyə və Gürcüstan ilə uğurla icra etdik. Digər qonşularımızla - Rusiya və İran ilə Şimal-Cənub nəqliyyat dəhlizi üzrə işlər uğurla gedir və demək olar ki, bu dəhliz fəaliyyət göstərir. Sadəcə olaraq, bu dəhlizi daha da səmərəli etmək üçün növbəti addımlar atılır. Bu nəhəng enerji və nəqliyyat layihələri

Ermənistandan yan keçib. Bu, bizim qonşularımızdır, eyni zamanda, Rusiya istisna olmaqla, Ermənistanın da qonşularıdır. Yəni, biz qonşularla dostluq, əməkdaşlıq, səmimiyyət əsasında münasibətləri qurmuşuq və məhz buna görə bu layihələrə nail olmuşuq. Ermənistan isə əsrlərboyu qonşulara xor gözlə baxır, qonşulardan nəsə qoparmaq istəyir, onların torpağına iddia edir, tarixi saxtalaşdırır, tarixi abidələri saxtalaşdırır və özününküləşdirməyə cəhd edir. Fərq bundan ibarətdir.

Ermənistanı bu enerji və nəqliyyat layihələrindən biz təcrid etmişik və bunu heç vaxt gizlətməmişik. Mən hələ bir neçə il bundan əvvəl demişdim ki, biz Ermənistanı regionda bizim iştirakımızla reallaşdırılan bütün önəmli layihələrdən təcrid edəcəyik və biz buna nail olduq, həmişə olduğu kimi sözümüzə sadiq qaldıq. Ermənistan bu gün bizim səylərimiz nəticəsində siyasi, iqtisadi, investisiya, enerji və nəqliyyat dalanıdır. Torpaqlarımızdan çıxmayana qədər bu vəziyyət belə də qalacaq. Beləliklə, Ermənistan rəhbərliyi növbəti dəfə saxta məlumat əsasında Ermənistanı Azərbaycanla müqayisə etmək istəsə, yaxşı fikirləşsin. Çünki idman dili ilə desək, Azərbaycan ali liqada, Ermənistan isə üçüncü liqadadır və getdikcə bu fərq daha da böyüyəcək.

Bilirsiniz, əvvəllər mən Azərbaycanı heç bir ölkə ilə heç vaxt müqayisə etməmişəm. Biz işimizi kimisə qabaqlamaq üçün görmürük. Biz işimizi Azərbaycan xalqı, dövləti naminə görürük, sadəcə olaraq, Ermənistanın növbəti yalanlarını ifşa etmək üçün məcbur olub, bu müqayisəli təhlili sizə və Azərbaycan xalqına təqdim etdim. Özü də mənim gətirdiyim rəqəmlər həqiqəti əks etdirir, Ermənistanın gətirdiyi rəqəmlər növbəti əfsanədir, növbəti yalandır.

İndi 2020-ci il başlayıb, uğurla başlayıb. Deyə bilərəm ki, bir neçə gün bundan əvvəl Bakıda iki böyük investorla iki layihə imzalanıb, İcra Müqaviləsi imzalanıb. Bu, bərpa olunan enerji növlərinin yaradılması istiqamətində çox önəmli addımdır. İki böyük elektrik stansiyası tikiləcək - biri külək, biri Günəş. Bu hadisənin önəmi ondadır ki, vəsaiti investorlar qoyacaqlar. Yəni, bu, bizə göstərilən inamdır, Azərbaycanın uzunmüddətli inkişafına göstərilən dəstəkdir. İki stansiyanın istehsal gücü 440 meqavat olacaqdır. Bu, çox böyük stansiyalardır, regionda ən böyük Günəş və külək elektrik stansiyalarıdır. Biz özümüz də bərpa olunan enerji növlərini yaradırıq, 50 meqavatlıq stansiya inşa edildi. İndi 84 meqavatlıq stansiyanın layihələndirmə işləri tamamlanır, bunu da biz edəcəyik. Bizim enerji balansımızda bərpa olunan enerjinin payı hazırda təqribən 17-18 faizdir. Bizim uzunmüddətli strategiyamıza görə, biz bunu ən azı 30 faizə çatdırmalıyıq. Onu da bildirməliyəm ki, müsabiqədə 9 şirkət iştirak etmişdir. Yəni, özü də 9 ən böyük şirkət Azərbaycana bərpa olunan enerjini istehsal etmək üçün vəsait qoymağa hazırdır. Sadəcə olaraq, iki şirkət seçildi, hansıların ki, şərtləri daha yaxşı idi. Ancaq o demək deyil ki, qalan şirkətlər kənarda qaldılar, biz onları da dəvət edirik. Qoy, onlar öz təkliflərinə bir daha baxsınlar, şərtləri bizim üçün, ölkəmiz üçün daha məqbul etsinlər və buyursunlar, onlar üçün Azərbaycanda kifayət qədər yer var. Allaha şükür, Azərbaycan həm Günəşlə, həm küləklə zəngin ölkədir, müasir enerji infrastrukturu var. Yenə də Davosun hesabatında enerjinin əlçatanlığına görə Azərbaycan dünyada ikinci yerdədir. İxracımız da var, keçən il 60 milyon dollardan çox ixrac etmişik. Ona görə əminəm ki, bərpa olunan enerji növlərinin yaradılması bizim üçün növbəti prioritet sahə olacaq. Nazirlər Kabinetinə tapşırıram ki, müsabiqədə iştirak etmiş şirkətlərin təkliflərinə baxılsın, onlar dəvət olunsun, onlarla fərdi qaydada danışıqlar aparılsın və onlar da oxşar layihəni Azərbaycanda icra etsin.

Bir sözlə, əminəm ki, bu il Azərbaycan uğurla inkişaf edəcək. 2020-ci ildə Azərbaycan daha güclü dövlətə çevriləcək. Sağ olun.

## *İlham Əliyev Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibə verib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Dünya İqtisadi Forumu çərçivəsində Davosda Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibə verib. "Rossiya-1" və "Rossiya-24" kanalları dövlətimizin başçısının müsahibəsini yayımlayıb.

"Rossiya-24" televiziya kanalında yayımlanan müsahibəni təqdim edir.

Aparıcı: "OPEC+" bu gün neftin ədalətli qiymətini müəyyənləşdirməyə kömək edən çoxtərəfli əməkdaşlığın uğurlu formatıdır. Neft bazarının iştirakçıları arasındakı sövdələşmə öz səmərəsini göstərdi. Onu uzatmaq gərəkdir. Bu fikirləri kanalımıza müsahibədə Davos Forumunun kuluarlarında Azərbaycan Prezidenti İlham Əliyev söyləyib.

-Yaxın Şərqdə müşahidə olunan gərginlik nəzərə alınmaqla bu il neftin qiymətinin hansı dinamikasını gözləmək olar?

-Proqnoz vermək çətindir. Düşünürəm ki, qiymətlərin bugünkü səviyyəsi həm istehsalçıları, həm də istehlakçıları qane edir. Azərbaycana gəldikdə, bu il bizim büdcəmizdə neftin bir barrelinin qiyməti 55 dollar nəzərdə tutulub. Lakin indi qiymət xeyli yüksəkdir. Buna görə də düşünürəm ki, əgər hər hansı forsmajor vəziyyət yaranmasa, qiymət 55-65 dollar diapazonunda qalacaq. Üstəlik, "OPEC+" formatı çox səmərəlidir və Azərbaycan bu formatın işində fəal iştirak edir. Biz öz üzərimizə götürdüyümüz öhdəliklərlə əlaqədar hasilatı azaldırıq və mahiyyət etibarilə bu gün OPEC-ə daxil olmayan

ölkələr də özlərini OPEC üzvləri kimi aparırlar. Buna görə də "OPEC+" çoxtərəfli əməkdaşlığın olduqca uğurlu formatıdır və bizim fikrimizcə, mahiyyət etibarilə, bu gün neftin qiymətinin ədalətli olduğunu müəyyənləşdirib.

-Sizin fikrinizcə, "OPEC+" sazişinin müddətini uzatmaq lazımdırmı?

-Əlbəttə, bu məsələ ən yaxın vaxtlarda müzakirə ediləcək. Lakin hesab edirəm ki, konkret nəticələr gördüyümüzü nəzərə alaraq bunun müddətinin uzadılması, əlbəttə, məqsədəuyğundur. Çünki müddət uzadılmasa, bazarın necə reaksiya verəcəyini bilmirik, yenidən müxtəlif spekulyativ meyillər yarana bilər. Buna görə hesab edirəm ki, müddətin uzadılmasının əhəmiyyəti var.

-Sizcə, bu gün dünyada çoxqütblülük əlamətləri varmı?

-Şübhəsiz, bu gün dünya məhz çoxqütblü dünya kimi inkişaf edir. Bir neçə güc mərkəzi var. Əlbəttə, bizi narahat edən məsələlər var - regionumuzda gərginliyin artması. Lakin biz müsbət dinamikanı da görürük, əvvəllər bu cür sıx qarşılıqlı fəaliyyəti olmayan ölkələr bu gün demək olar ki, müttəfiqlər kimi hərəkət edir və regional sabitliyə böyük töhfə verirlər. Buna görə də çoxqütblü dünya artıq reallıqdır. Düşünürəm ki, bu meyillər getdikcə daha da möhkəmlənəcək. Bu, müsbət haldır, çünki bu, dünyada sabitliyə zəmanətdir.

-Hər halda, dünyada ölkələrdən birinin daha çox birqütblü dünyaya meyil etməsi əlaməti yoxdurmu?

-Bilirsiniz, iri ölkələrin həmişə öz hüdudlarından kənarda maraqları olur və hər ölkə özü üçün daha yaxşı şəraitə nail olmaq, öz təsir dairəsini genişləndirmək istəyir. Burada təzə heç nə yoxdur. Biz bunu əsrlərboyu müşahidə edirik, sadəcə, müxtəlif intensivlik dərəcəsi ilə. Buna görə məsələ bunda deyil, bugünkü dünya nizamının konstruksiyası, o cümlədən beynəlxalq münasibətlərin konstruksiyası çoxqütblülüyü nəzərdə tutur. BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin tərkibinə baxsaq, bu, artıq dünyanın çoxqütblülüyünün əksidir. Daimi üzvlərdən birinin razılığı olmadan heç bir qərar qəbul edilə bilməz. Buna görə də düşünürəm ki, ölkələr özləri üçün birqütblülüyü təmin etməyə çalışmamalı, əksinə, hamı üçün sərfəli olan əməkdaşlıq elementləri tapmalıdırlar.

-Azərbaycan Belarus Respublikasını neftlə təchiz edəcəkmi?

-Bilmirəm. Bu sual mənə deyil, yəqin ki, Neft Şirkətinə aiddir. Bir neçə il bundan əvvəl biz Belarusu neftlə təchiz edirdik və sonradan Belarus tərəfinin təşəbbüsü ilə bu proses dayandırılmışdır. Əgər yenidən belə ehtiyac yaransa, Azərbaycan Dövlət Neft Şirkəti bu məsələni nəzərdən keçirəcək. Bu gün "SOCAR Traiding" şirkəti ən iri treydinq şirkətlərindən biridir və onun satdığı neftin çox hissəsi Azərbaycanda hasil edilməyən neftdir. Buna görə, sırf texniki baxımdan Azərbaycan şirkəti nefti istənilən yerə tədarük edə bilər. Lakin qiymət məsələsi, logistika məsələsi, kontrakt öhdəlikləri ilə bağlı məsələ - bütün bunlar müvafiq şirkətlər arasında müzakirə edilməlidir.

-Çox sağ olun.

-Sağ olun.

## *Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda İlham Əliyevin giriş nitqi*

Bu gün biz Azərbaycan regionlarının dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarını müzakirə edəcəyik, bu il görüləcək işlər haqqında danışacağıq. Proqram bir il bundan əvvəl qəbul edildi. Dördüncü proqram əvvəlki dövrlərdə qəbul edilmiş proqramların məntiqi davamıdır. Üç proqram çərçivəsində böyük işlər görülmüşdür. Ancaq hələ də görüləsi işlər çoxdur. Hesab edirəm ki, dördüncü proqram çərçivəsində ölkə qarşısında duran əsas infrastruktur vəzifələri icra olunacaq və beləliklə, ölkəmizin gələcək inkişafı üçün daha gözəl imkanlar yaranacaqdır.

Keçən il ərzində proqramın icrası ilə bağlı bütün lazımi tədbirlər görülüb. Deyə bilərəm ki, proqram artıqlaması ilə icra edilib. Proqramda nəzərdə tutulmuş məsələlər həll olunub. Ancaq bəzi məsələlərdə müəyyən ləngimələr var. Ona görə bu məsələlərin həllinə xüsusi diqqət göstərilməlidir. Hesab edirəm ki, proqramın bu il icra ediləcək bütün tədbirləri həyatda öz əksini tapacaq.

Bütövlükdə keçən il ölkəmiz uğurla inkişaf edibdir. Azərbaycan inkişaf, sabitlik yolu ilə getmişdir. Dünyada gedən proseslər isə əlbəttə ki, bizi də narahat edir. Dünyada yeni münaqişə ocaqları, yeni gərginlik yerləri yaranır. Mövcud problemlər öz həllini tapmır, əksinə, yeni problemlər əlavə olunur. Demək olar ki, dünyanın bütün yerlərində - Avropada, Afrikada, Asiyada, Latın Amerikasında, bizim bölgəmizdə, postsovet məkanında müəyyən gərginlik müşahidə olunur. Bəzi hallarda bu gərginlik daha şiddətli formalar alır. Ancaq Azərbaycan uzun illər ərzində sabitlik yolu ilə gedir. Ölkəmizdə mövcud olan sabitlik Azərbaycan xalqının iradəsi ilə təmin edilir. Bizim apardığımız siyasət xalq tərəfindən dəstəklənir. Siyasət konkret işlərlə ölçülür. Bizim siyasətimizin təməlində konkret işlər, real inkişaf, söz yox, əməl dayanır və verilən hər bir söz həyatda öz əksini tapır. Ona görə də xalq tərəfindən bizə göstərilən etimad yüksək səviyyədədir və sabitliyin, əmin-amanlığın əsas şərtləri məhz budur.

Hesab edirəm ki, keçən il iqtisadi sahədə yaxşı nəticələr əldə edilib. Azərbaycan indi iqtisadi inkişaf, ciddi islahatlar yolundadır. İslahatlar cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Çünki bu islahatlar insanların həyat səviyyəsini yaxşılaşdırır, ölkəmizin iqtisadiyyatını sürətləndirir, ölkəmizdə mövcud olan xoşagəlməz problemlərin həllində isə çox önəmli rol oynayır. Adətən çox köklü iqtisadi və siyasi islahatlar böyük problemlər də gətirir. Yəni, bu islahatlar bəzi hallarda, daha doğrusu, bir çox hallarda insanların həyat tərzinə mənfi təsir göstərir. Azərbaycanda isə islahatlar ardıcıl şəkildə aparılır. Bu, düşünülmüş siyasətdir. Sadəcə olaraq, biz indi islahatların yeni mərhələsinə qədəm qoymuşuq. Ona görə həm iqtisadi sahədə, həm siyasi sahədə aparılan islahatlar xalqımızın, dövlətimizin maraqlarına xidmət edir. Eyni zamanda, çox ciddi struktur və kadr islahatları aparılmışdır.

Bütün bunlar bir daha onu göstərir ki, bizim siyasətimizdə əsas məqsəd dövlətimizin möhkəmlənməsi, xalqımızın daha yaxşı yaşaması, sabitliyin təmin edilməsidir. Biz bütün bu məqsədlərə çatırıq. Keçən il əldə edilmiş iqtisadi və sosial nailiyyətlər bunu bir daha təsdiqləyir. İqtisadiyyatımız 2,2 faiz artmışdır. Hesab edirəm ki, bu, yaxşı nəticədir. Neftin qiyməti sabitdir, ancaq Azərbaycanda neft hasilatı bir qədər aşağı düşüb. Ümumi daxili məhsulun 2,2 faiz artması, hesab edirəm ki, yaxşı nəticədir. Xüsusilə nəzərə alsaq ki, qeyri-neft sektorunda artım 3,5 faizdir. Sənaye istehsalı 1,5 faiz artıb. Bunun da səbəbi məhz neftin hasilatı ilə bağlıdır. Ancaq bizim əsas prioritetimiz olan qeyri-neft sektoru 14 faizdən çox artıb. Burada, əlbəttə ki, keçən il istismara verilmiş nəhəng sənaye müəssisələrinin fəaliyyətə başlaması, eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması xüsusi rol oynayıb. Biznes mühitinin yaxşılaşdırılmasını Dünya Bankı da qeyd edir. “Doing Business” hesabatında Azərbaycan keçən il 20 ən islahatçı ölkə sırasına daxil edilibdir. Əlbəttə ki, bütün biznes qurumları bunu görür, hiss edirlər. Vergi və gömrük inzibatçılığı, biznes dairələrinə göstərilən dövlət dəstəyi, əlbəttə ki, qeyri-neft sənayesində də özünü büruzə verir.

Beləliklə, 14 faizdən çox artan qeyri-neft sənayemiz yeni iş yerlərinin yaradılması deməkdir. Qeyd etməliyəm ki, keçən il 98 min yeni iş yeri yaradılmışdır. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bu, daimi proses olmalıdır. Çünki Azərbaycanda əhali yüksək templərlə artır və iqtisadiyyat, iqtisadi inkişaf, o cümlədən iş yerlərinin yaradılması demoqrafik inkişafı daim üstələməlidir. Buna görə biz daim bu məsələyə xüsusi diqqət verməliyik. Ancaq o da həqiqətdir ki, hər bir iş yerinin yaradılması üçün həm dövlət, həm də özəl sektor tərəfindən böyük vəsait tələb olunur. Çünki iş yerlərinin yaradılması elə boş yerə olmur, gərək infrastruktur, şərait, imkanlar olsun. Özəl sektor, əlbəttə ki, iş yerlərini yaradan əsas sektor olaraq öz sözünü deyir və deməlidir.

Beləliklə, əsas iqtisadi göstəricilər bunlardır. Əgər buraya ölkəmizə qoyulan sərmayəni əlavə etsək, mənzərə daha gözəl olacaqdır. Keçən il ölkəmizə 13,5 milyard dollar sərmayə qoyulubdur. Azərbaycan həm xarici, həm daxili investorlar üçün çox cəlbedici məkandır. Bu sərmayələrin bir hissəsi dövlət investisiyalarıdır. Bu da təbiidir. Çünki hələ ki, iqtisadi artımda dövlət investisiyaları önəmli rol oynayır. Xüsusilə nəzərə alsaq ki, hələ də infrastruktur layihələri ilə bağlı görüləsi işlər vardır. Ona görə həm dövlət, həm yerli, həm də xarici şirkətlər ölkəmizə 13,5 milyard dollar həcmində vəsait qoyublar. Hesab edirəm ki, bu, çox yüksək nəticədir.

Makroiqtisadi vəziyyət tam sabitdir. İnflyasiya cəmi 2,5 faiz təşkil etmişdir, əhalinin gəlirləri isə 7,4 faiz. Yəni, həmişə olduğu kimi, əhalinin gəlirləri inflyasiyanı üstələmişdir. Valyuta ehtiyatlarımız 6,4 milyard dollar artmışdır. Bu, deyə bilərəm ki, son illər ərzində rekord göstəricidir. Baxmayaraq ki, büdcəmiz rekord həddə çatmışdır, biz yenə də valyuta ehtiyatlarımızı artırmışıq. Bu, daim belə olubdur. Hətta bizim üçün ən ağır, böhranlı illərdə, - o vaxt ki, dünya bazarlarında neftin qiyməti dörd dəfə düşmüşdü, - yenə də biz valyuta ehtiyatlarımızı artırmışdıq. Ancaq keçən il 6,4 milyard dollar həcmində artım, əlbəttə ki, düşünülmüş siyasəti əks etdirir. Biz vəsaitimizə qənaət edirik. Ancaq strateji əhəmiyyət daşıyan layihələrə dövlət investisiyaları qoyuruq. Eyni zamanda, valyuta ehtiyatlarımızın idarə edilməsindən də daha böyük vəsait əldə edirik. Burada bir çox amillər özünü göstərir. Çünki bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik bir ölkədir, həm siyasi müstəvidə, həm iqtisadi sahədə, biznesin inkişafı baxımından. Mənim bu yaxınlarda 14-cü dəfə Davos Ümumdünya İqtisadi Forumunda iştirakım və Forum çərçivəsində apardığım danışıqlar və iştirak etdiyim tədbirlər bir daha göstərir ki, Azərbaycana həm böyük maraq, həm də böyük rəğbət var. İyirmidən çox görüş keçirildi. Onu deyə bilərəm ki, bütün görüşlər qarşı tərəfin təşəbbüsü ilə həyata keçirildi. Yəni, bunu ona görə deyirəm ki, ölkəmizin inkişafına maraq doğrudan da böyükdür. Azərbaycanda iş görmək istəyən şirkətlərin sayı artır. Bilirsiniz ki, Davos Forumunda iştirak edən şirkətlər dünya miqyasında ən böyük şirkətlərdir. Yəni, oraya – Foruma daxil olmaq üçün bir çox meyarlar olmalıdır. Onlardan biri də əlbəttə ki, şirkətlərin kapitallaşdırılmasıdır.

Beləliklə, bu böyük sərmayə qoyuluşu və valyuta ehtiyatlarımızın artımı bir daha göstərir ki, biz düzgün yoldayıq və bu yolla gedəcəyik. Yanvar ayını nəzərə alsaq, bizim valyuta ehtiyatlarımız artıq 52 milyard dollara çatıbdır, təkcə keçən ay ərzində 1 milyard dollar artmışdır. Bu, bizim strateji ehtiyatımızdır. Bu, bizim iqtisadi müstəqilliyimizi və böyük dərəcədə siyasi müstəqilliyimizi təmin edir. Azərbaycan bu gün dünyada sayı o qədər də çox olmayan o ölkələrdəndir ki, tam müstəqil siyasət aparır. Müstəqil siyasət aparmaq üçün

bir çox amillər olmalıdır - ölkələrin ərazisi, onların potensialı, ümumi daxili məhsulu, hərbi qüdrəti və s. Biz bilirik ki, dünyada güc mərkəzləri hansı ölkələrdir. Əlbəttə, Azərbaycan öz həcminə və coğrafi ərazisinə görə böyük ölkələrlə rəqabət apara bilməz, belə fikri də yoxdur. Ancaq buna baxmayaraq, müstəqil siyasət aparmaq üçün bizdə kifayət qədər imkanlar var. Bunların başlıcası xalqın dəstəyidir, bizim siyasətimizə göstərilən dəstək və etimaddır. Əlbəttə ki, iqtisadi göstəricilərimiz, siyasi arenadakı fəaliyyətimiz bizim gücümüzü artırır və Azərbaycan ildən-ilə daha da güclənir və güclənəcəkdir.

Bizim ixracımız da, xüsusilə qeyri-neft sektorunda artıbdır, xarici ticarət dövriyyəsi də artıbdır. Bir sözlə, iqtisadi sahəyə aid olan bütün məsələlər öz həllini tapıb.

Eyni zamanda, keçən il sosial sahədə çox böyük təşəbbüslər irəli sürülmüşdür. Daha doğrusu, 2018-ci ilin ikinci yarısından artıq bu proqramlar hazırlanırdı və 2019-cu ilin əvvəlindən bu proqramların icrası başlanmışdır. Şəhid ailələrinə böyük məbləğdə vəsait təmin edilmişdir. Ümumiyyətlə, 4,2 milyon insanın sosial və maddi vəziyyəti yaxşılaşdırıldı. Çünki çox böyük sosial paket 4,2 milyon insanı əhatə edib. Minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faizdən çox artmışdır. Hazırda minimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB məkanında birinci yerdədir. Bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırılıb, tələbələrin təqaüdləri artırılıb, şəhid ailələrinə birdəfəlik maddi yardım göstərilib, bundan əlavə, şəhid ailələrinin və məcburi köçkünlərin aylıq müavinətləri artırılıb. Yəni, bütün bunlar böyük vəsait tələb edən məsələlərdir və bir neçə milyard manata başa gəlir. Ancaq biz bunu edirik. İlk növbədə, ona görə ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. İkincisi, ona görə ki, buna imkanımız var. Əgər istəyimiz olsaydı, imkanımız olmasaydı, bunu necə etmək olardı? Bax, iqtisadi gücümüzü toplayaraq bugünkü reallığı təmin etdik ki, biz bunu edə bilirik. Deyə bilərəm ki, yaxın ətrafda bu cür sosial təşəbbüs göstərən ikinci ölkə yoxdur. Əgər varsa, qoy mənə desinlər, yoxdur. Biz bunu ona görə edirik və hesab edirik ki, bu, düzgündür. Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Bizim artan iqtisadi gücümüz ölkəmizin güclənməsinə, ilk növbədə, xalqımızın rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu edirik. Ona görə sosial sahədə görülmüş bu işlər bir daha bizim siyasətimizi əks etdirir, bizim gücümüzü göstərir və bundan sonra da bu sahə daim diqqət mərkəzində olacaqdır.

Eyni zamanda, keçən il sosial infrastrukturun yaradılması ilə bağlı önəmli addımlar atıldı - 84 məktəb, 60 tibb müəssisəsi tikildi və təmir edildi. Ona görə bu proses də daim gedir. Biz məktəblərin böyük hissəsinin təmirini başa çatdırmışıq. Amma hələ də qəzalı vəziyyətdə olan məktəblər var və onların da təmiri ilə bağlı gələcək illərdə konkret addımlar atılacaqdır.

İnfrastruktur layihələrinin icrası ilə ciddi məşğul olmuşuq, xüsusilə elektrik enerjisi sahəsində. Bu sahədə də ciddi irəliləyiş olubdur. Deyə bilərəm ki, keçən il biz əlavə 800 meqavat elektrik enerjisi ala bilmişik. Bunun 400 meqavatı yeni tikilmiş “Şimal 2” stansiyasının hesabına, 400 meqavatı isə itirilmiş güclərin bərpası nəticəsində əldə olunub. Çünki vaxtilə stansiyaların düzgün istismar olunmaması səbəbindən bu güclər itirilmişdi. Ancaq hazırda bu işlər aparılır və 400 meqavat gücün daha çox hissəsi Mingəçevir İstilik-Elektrik Stansiyasında aparılan təmir-bərpa işlərinin hesabına əldə edilmişdir. Əlbəttə, digər stansiyaların da itirilmiş gücləri bərpa edilib və biz 400 meqavatı məhz buradan əldə etdik. Bu proses davam edir. Bu il də təqribən həmin rəqəm səviyyəsində generasiya gücü bərpa olunacaq. Biz indi elektrik enerjisini ixrac edən ölkəyə çevrilmişik.

Qazlaşdırma prosesi də davam etdirilib. Bu gün ölkəmizin demək olar ki, bütün yerlərində qazlaşdırma təmin edilibdir. Qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb. Bu da dünya miqyasında ən yüksək göstəricilərdən biridir. 1300 kilometr avtomobil yolu salınıb. Min kilometr nəzərdə tutulmuşdu. Ancaq il ərzində rayonlara səfərlərim zamanı mənə edilən müraciətlər, sonra vətəndaşlar tərəfindən ünvanlanan məktublar əsasında biz əlavə 300 kilometr yolun çəkilişinə nail olduq. Avtomobil yollarının keyfiyyətinə görə bu gün Azərbaycan dünyada 27-ci yerdədir, bir çox inkişaf etmiş ölkələri qabaqlayır. Əminəm ki, görüləcək işlər nəticəsində daha da irəli gedəcəyik.

O cümlədən meliorativ tədbirlər infrastruktur layihələri arasında önəmli yer tutur. Təqribən 80 min hektar torpağa suyun verilməsi təmin edilmişdir, 300-dən çox subartezian quyusu qazılmışdır. Bu proses bu il də davam etdiriləcək.

Bu infrastruktur layihələri dövlət investisiya proqramı hesabına icra edilmişdir. Bu, bir daha onu göstərir ki, ölkəmizin dayanıqlı inkişafı üçün gözəl zəmin yaradılır. Təbii ki, bütün bu işlər və eyni zamanda, aparılan islahatlar kənd təsərrüfatının inkişafına da güclü təkan verdi. Kənd təsərrüfatı istehsalı son illərlə müqayisədə rekord həddə çatdı. Yəni, artım tempi 7 faizdən çox olmuşdur, xüsusilə bitkiçilikdə artım 10 faizdən çoxdur. Bizim kənd təsərrüfatı məhsullarının ixracı artır. Daxili tələbat yerli məhsullar hesabına təmin edilir. Çünki bütün bu işlər bir-biri ilə sıx bağlı olan məsələlərdir.

Keçən il, eyni zamanda, nəqliyyat sahəsində bizim böyük layihələrimiz icra edilibdir. Onların arasında Bakıətrafı dəmir yolu xəttinin çəkilişini xüsusilə qeyd etmək istərdim. Biz vaxtilə “elektriçka” adlandırılan dəmir yolu nəqliyyatını ən müasir səviyyədə bərpa etmişik, ən aparıcı şirkətin istehsal etdiyi qatarları gətizdirmişik. Qəsəbələrdə dəmir yolu stansiyaları tikilibdir və bu proses davam etdiriləcək. Bu il artıq Bakıətrafı dəmir yolunun çəkilişinin əsas mərhələsi başa

çatacaq, yəni, dairə birləşəcəkdir. Ondan sonra hələ ki, dəmir yolu olmayan qəsəbələrə dəmir yolunun çəkilişi nəzərdə tutulur. Eyni zamanda, qonşularla bizi birləşdirən dəmir yollarında bərpa işləri aparılır ki, sürət daha da artsın. Buna böyük dərəcədə nail olmuşuq, xüsusilə qərb istiqamətində. Şimal və cənub istiqamətində görüləcək işlər üçün hazırlıq aparılır və bu il bu proses daha sürətlə gedəcəkdir.

Əlbəttə ki, biz keçən ilin uğurlarını qeyd edərkən TANAP layihəsinin Avropa sərhədinə çatdırılmasını mütləq qeyd etməliyik. Bu, tarixi hadisədir, bu, tarixi layihədir. Cənub Qaz Dəhlizinin əsas hissəsi olan TANAP demək olar ki, tam istifadəyə verilmişdir. Keçən ilin noyabr ayında biz Türkiyə-Yunanıstan sərhədindəki mərasimdə bu layihənin tam istismara verilməsini qeyd etmişdik. Ondan əvvəl TANAP-ın Türkiyəyə çatdırılmasını qeyd etmişik. Bu, doğrudan da tarixi layihədir. Bu layihə artıq Cənub Qaz Dəhlizinin dördüncü seqmenti olan TAP layihəsinin uğurlu inkişafını və başa çatmasını şərtləndirir. Əminəm ki, bu il bu nəhəng infrastruktur layihəsi - uzunluğu 3500 kilometr olan, bir neçə ölkəni birləşdirən Cənub Qaz Dəhlizi tam istismara veriləcəkdir. Bu, bizim növbəti böyük tarixi qələbəmiz olacaqdır.

Keçən il bir çox başqa hadisələr də baş vermişdir. İndi onların hamısını burada qeyd etmək mümkün deyil. Hesab edirəm ki, dediyim məsələlər və gətirdiyim rəqəmlər ölkəmizdə gedən proseslər haqqında kifayət qədər məlumat verir və bunlar bizim uğurlarımızdır. Biz bu uğurları deməliyik, onları təbliğ etməliyik, eyni zamanda, bu uğurlarla kifayətlənmək olmaz. Biz həmişə gərək həll olunmamış məsələlər ətrafında səylərimizi gücləndirək və bunu edirik. Ona görə bu ənənəvi konfransın əsas məqsədi görülmüş işlərə yekun vurmaq və il ərzində görüləcək işlərə təkan verməkdir. Ona görə də 2004-cü ildən başlayaraq biz bu yolla gedirik. 2004-cü ildə qəbul edilmiş birinci proqram tarixi hadisə idi. O vaxt o proqram mənim seçkiqabağı proqramımın tərkib hissəsi idi. O vaxt ilk dəfə prezident vəzifəsinə seçilən zaman vətəndaşlara demişdim ki, əgər mənə etimad göstərilərsə, o cümlədən regionların inkişafı ilə ciddi məşğul olacağam. Çünki bilirdim ki, Azərbaycanın regionlarında vəziyyət o qədər də yaxşı deyil. Bunun da əlbəttə ki, təbii səbəbləri var idi - infrastruktur köhnəlmişdi, demək olar ki, sıradan çıxmışdı, bir çox müəssisələr fəaliyyətini dayandırmışdı, kənd təsərrüfatında durğunluq yaşanırdı. Ona görə hesab edirdim ki, Regional İnkişaf Proqramı bizim üçün əsas təkanverici proqram olacaq. Eyni zamanda, Azərbaycan əhalisinin böyük əksəriyyəti bölgələrdə yaşayır, rayonlarda, kəndlərdə yaşayır. Onların yaşayışı yaxşılaşmalı idi. Ona görə bu proqramın qəbul edilməsi bir daha demək istəyirəm ki, tarixi hadisə idi. O vaxtdan bu günə qədər hər il biz proqramın icrasını müzakirə edirik. Dediyim kimi, üç proqram qəbul edildi və icra olundu, dördüncü proqram indi icra edilir.

Deyə bilərəm ki, 2003-cü ildən bu günə qədər bütövlükdə Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artmışdır. Bu, dünyada rekord göstəricidir. Bütün statistik məlumatlar araşdırıla bilər, inanmıram ki, buna bənzər artım tempi olsun. Bu 16 il ərzində sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə artmışdır. Bizim valyuta ehtiyatlarımız 27 dəfə artmışdır. 2003-cü ildə valyuta ehtiyatlarımız 1,8 milyard dollar idi, keçən ilin yekunlarına görə 51, indi isə 52 milyard dollara çatmışdır. Yəni, bu, özlüyündə böyük bir göstəricidir. Yoxsulluq təxminən 50 faizdən 4,8 faizə düşmüşdür. Bu da onu göstərir ki, neftdən əldə edilmiş gəlirlər düşünülmüş şəkildə və ədalətli bölünmüşdür. Biz bu gəlirlərdən istifadə edərək ölkəmizin bütün əsas infrastruktur problemlərinin böyük hissəsini həll etdik, eyni zamanda, vətəndaşların rifah halını yaxşılaşdırdıq. Son 16 ildə orta əməkhaqqı 11 dəfə, orta pensiya 8 dəfə artmışdır, 300 mindən çox məcburi köçkünə, 6700 şəhid ailəsinə evlər, mənzillər verilmişdir. Yəni, bu böyük sosial proqramlar böyük vəsait tələb edir. Təsəvvür edin, 300 min insan üçün evlər, mənzillər tikilib. Biz bu illər ərzində təxminən Sumqayıt, yaxud Gəncə boyda şəhər tikmişik. Bunu etmək üçün həm siyasi iradə, düşünülmüş siyasət, eyni zamanda, imkanlar olmalı idi.

İnfrastruktur layihələrinə gəldikdə, bu illər ərzində 33 elektrik stansiyası tikildi, onların generasiya gücü 3 min meqavatdır. Əgər bu stansiyalar tikilməsəydi, bu gün ölkəmizin yarısını qaranlıq bürüyərdi, biz elektrik enerjisini yenə də idxal edərdik və buna böyük pullar verərdik. Amma biz bu stansiyaları tikməklə, 3 min meqavat generasiya gücünü əldə etməklə bu gün elektrik enerjisini ixrac edirik. Keçən il bu ixracdan ölkəmizə təqribən 60-65 milyon dollar vəsait daxil olubdur.

2003-cü ildə Azərbaycanda qazlaşdırmanın səviyyəsi 51 faiz idi, rayonlarda ümumiyyətlə qaz yox idi. Hazırda bu rəqəm 96 faizə çatıbdır. Elə rayon yoxdur ki, orada qaz olmasın. Elə rayon yoxdur ki, orada qazlaşdırma təqribən 70 faizdən aşağı olsun. Rayonlarda 100 faiz, 95 faizdir. 16 min 700 kilometr avtomobil yolu tikilmişdir. Bizi bütün qonşu ölkələrlə müasir avtomobil magistralları birləşdirir. Yüzlərlə (bəlkə də mindən çox) kəndin yolu abadlaşdırılıb.

Meliorativ tədbirlər. İki böyük su anbarı - Taxtakörpü və Şəmkirçay tikilib. Bunlar olmasaydı, orada yerləşən rayonlarda su qıtlığı yaranacaqdı. Əgər Taxtakörpü su anbarı tikilməsəydi, keçən il Bakı şəhərini su ilə təmin etmək mümkün olmazdı. Çünki keçənilki quraqlıq bəlkə də tarixdə olmayıb. Biz məhz Taxtakörpüdə yığılan suları Ceyranbatana ötürməklə Bakını fasiləsiz su ilə təmin etdik. Bakıda heç kim hiss etmədi ki, belə ciddi quraqlıq olub.

Bütün bu işləri biz ona görə görürük ki, insanlar daha yaxşı yaşasınlar. Hər bir böyük layihənin arxasında

düşünülmüş siyasət dayanır. Kəndlərdə su təminatını yaxşılaşdırmaq üçün bu illərdə 1500-dən çox artezian quyusu qazılmışdır və bu proses davam etdirilir. Yüzlərlə kənddə modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır. Ona görə bizim proqramımızın icrasında infrastruktur layihələri xüsusi yer tuturdu. Biz sosial təşəbbüslərlə paralel olaraq, bu layihələri həyata keçirməklə bugünkü reallığı əldə etdik.

Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilib. Bizim üç peykimiz var, 16 il bundan əvvəl bu, bəlkə də bizim yuxumuza da gəlməzdi. Amma bu gün bu, reallıqdır. Nəinki üç peykimiz var, hətta iki ildən sonra dünyanın aparıcı tədbiri - Dünya Astronavtika Konqresi də Bakıda keçiriləcək, təxminən 50 ildən sonra. Çünki birinci dəfə Sovet İttifaqında da yeganə konqres 1973-cü ildə Bakıda keçirilmişdir. İndi 49 ildən sonra bu tədbir yenə də Bakıda, amma müstəqil Azərbaycan dövlətinin paytaxtı olan Bakıda keçiriləcək.

Nəqliyyat sahəsində. Yeddi aeroport tikildi. Onların altısı beynəlxalq aeroportdur. Davosun hesabatında Azərbaycan hava xidmətlərinə görə 11-ci yerdədir. Heydər Əliyev Beynəlxalq Aeroportu artıq beşulduzlu aeroport kimi tanınır. Dünyada belə aeroportların sayı təqribən 10-na yaxındır. Onlardan biri də Heydər Əliyev Aeroportudur.

Bakı-Tbilisi-Qars dəmir yolu tikildi. Bu, bizim tarixi qələbəmizdir. Təkcə ona görə yox ki, Ermənistan əbədi dalanda qaldı. Halbuki bu da vacib məsələdir. Ona görə ki, indi bu yol həm böyük gəlir gətirir, həm də beynəlxalq əməkdaşlığı genişləndirir. İndi bu yol ilə onu tikməyə başlayanda nəzərdə tutulmayan yerlərdən də yüklər daşınır. Yəni, bu yol beynəlxalq əməkdaşlıq üçün çox önəmli infrastruktur layihəsinə çevrilib və Azərbaycan burada aparıcı ölkədir. Şərq-Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında biz xüsusi rol oynamışıq. Biz o ölkəyik ki, hər iki layihədə iştirak edirik. Ələt Beynəlxalq Dəniz Limanı Xəzərdə ən böyük dəniz limanıdır. Gəmiqayırma zavodu bizim üçün tankerlər, yük gəmiləri və istənilən gəmini istehsal edə bilər. İndi pulumuz Azərbaycanda qalır, xaricə getmir. Biz indi tankerləri, yük gəmilərini özümüz istehsal edirik. Mən ancaq 16 il ərzində görülmüş işlərin əsas məqamlarını qeyd edirəm.

Energetika, neft-qaz sahəsində - 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verildi. Bunlar tikilməsəydi, kim gəlib Azərbaycanın neft sənayesinə, özü də dənizdən çıxarılacaq neftə pul qoyardı? Heç kim. Sıfır investisiya olacaqdı. Nə edəcəkdik? Xaricdən neft alacaqdıq. Biz bu kəmərləri mürəkkəb geosiyasi vəziyyətdə inşa etdik, minimum risklərlə. Sonra Bakı-Tbilisi-Qars dəmir yolu tikildi. Çünki o kəmərlər tikilməsəydi, o dəhliz açılmasaydı, dəmir yolu dəhlizi də heç vaxt olmazdı. Bu yolu tikməyə bizim pulumuz da olmazdı. Gürcüstana 800 milyon dollara yaxın kredit verməyə də gücümüz olmazdı. Ondan sonra Cənub Qaz Dəhlizi. Bu da Avropanın ən böyük infrastruktur layihələrindən biridir, bunun təxminən 40 milyard dollar maliyyəsi vardır. Bir neçə ölkəni birləşdirir, 3500 kilometr uzunluğunda dörd seqmentdən ibarət nəhəng layihədir. Burada həm siyasi məharət, həm diplomatik addımlar, həm iqtisadi gücümüz, həm də beynəlxalq banklarla əlaqələrimiz, bu yolboyu yerləşən ölkələrlə səmərəli əməkdaşlığımız, bütün bunlar rol oynayıb. Bu layihəni həyata keçirmək üçün nə qədər çətinliklər olub. Bu barədə danışmaq üçün ayrıca bir tədbir lazımdır. Amma biz bunu da başa çatdırmışıq. Təşəbbüskar da Azərbaycandır. Artıq bir neçə ildir ki, Azərbaycanda ənənəvi olaraq Cənub Qaz Dəhlizi Məşvərət Şurası keçirilir. Növbəti Şuranın toplantısı bu ayın sonunda keçiriləcək.

Yəni, qəbul edilmiş faktdır ki, bu layihələrin aparıcı qüvvəsi, təşəbbüskarı, təşkilatçısı, əsas maliyyə yükünü öz üzərinə götürən ölkə bizik - Azərbaycandır və bunu etmişik. Bu layihələrin hər biri tarixi əhəmiyyət daşıyır. Bu layihələrin, ümumiyyətlə, görülən işlərin hamısı Azərbaycan xalqı qarşısında böyük xidmətlərdir. Çıxışımın əvvəlində dediyim kimi, uğurlu inkişafımızı, sabitliyi şərtləndirən, cəmiyyətdə xoş əhval-ruhiyyəni formalaşdıran bizim siyasətimiz və addımlarımızdır. Nəyi demişiksə, onu da etmişik. Bir dənə də icra edilməmiş vəd yoxdur. Heç kim bunu tapa bilməz. 2003-cü ildə və ondan sonrakı illərdə nəyi demişəmsə, onu da etmişəm. Ona görə bizim sözümüzə də, işimizə də xalq tərəfindən böyük inam var. Mən həmişə demişəm ki, bizim sözümüzün qüvvəti imzamız qədər olmalıdır və bu gün bu, belədir.

Əlbəttə ki, son 16 il ərzində görülmüş bütün işlər haqqında danışmaq mümkün deyil və buna ehtiyac yoxdur. Hesab edirəm ki, mən sizə və Azərbaycan ictimaiyyətinə əsas məqamları çatdırdım.

İndi isə keçək müzakirələrə.

## *Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda İlham Əliyevin yekun nitqi*

Konfransın ikinci hissəsində dörd panel təşkil olunacaq və bütün sahələri əhatə edən məsələlər, o cümlədən iqtisadiyyat, kənd təsərrüfatı, infrastruktur, bank-kredit məsələləri və digər məsələlər müzakirə ediləcək. Həm yerli icra orqanları, həm sahibkarlar mərkəzi icra orqanlarının nümayəndələri ilə birlikdə bu məsələləri müzakirə edəcəklər, mövcud problemlər haqqında danışacaqlar və əlbəttə ki, bu il görüləcək işlər haqqında da söhbət gedəcək. Elə etməliyik ki, proqramda nəzərdə tutulan bütün məsələlər öz həllini tapsın. 2020-ci ildə bəzi məsələlər bu yaxınlarda ortalığa çıxıb, onların da həlli üçün imkanlar olmalıdır. Dövlət İnvestisiya Proqramı təsdiq edilmişdir, kifayət qədər böyük proqramdır. Eyni zamanda, müəyyən dərəcədə ehtiyatlar da vardır. Çünki il ərzində bəzi məsələlər ortalığa çıxır ki, onların da həlli vacibdir.

İndi isə görüləcək əsas işlər, layihələr haqqında demək istərdim ki, bu il də proqramın icrası və ümumiyyətlə, ölkəmizin inkişafı təmin edilsin. İlk növbədə, infrastruktur layihələrindən başlamaq istərdim. Baxmayaraq ki, bu sahədə böyük uğurlar əldə edildi, məsələlərin böyük hissəsi öz həllini tapdı. Ancaq həyat yerində durmur. Ölkəmizin tələbatı, əhalisi, sənaye potensialı artır, yeni müəssisələr istifadəyə verilir. Ona görə infrastruktur layihələrinin icrası bundan sonra da təmin edilməlidir.

Mən elektrik enerjisinin istehsalı ilə bağlı giriş sözümdə bəzi məlumatları verdim. Əlavə etmək istəyirəm ki, bu ilin yanvar ayında önəmli hadisə baş vermişdir. İki böyük xarici investor Azərbaycan ilə bərpaolunan enerji növlərinin istehsalı üzrə niyyət protokolu imzalamışdır. Əslində, bu, icra müqaviləsi adlandırılır və il ərzində, bir neçə ay ərzində bu müqavilələr üzərində daha müfəssəl iş aparılacaqdır. Əminəm ki, bu ilin sonunda müvafiq kontraktlar da imzalanacaq. Bu məsələnin çox böyük əhəmiyyəti var. Çünki bu, sırf xarici sərmayə hesabına istehsal ediləcək bərpaolunan enerji növləridir. Əlbəttə ki, - mən bunu giriş sözümdə də demişəm, - əgər bizim kredit reytinqimiz yüksək olmasa idi, biznes mühitinə görə Azərbaycan 20 ən islahatçı ölkə kimi tanınmasaydı, xarici investorlar vəsait qoymazdılar.

Mən o böyük şirkətlərin rəhbərləri ilə görüşərkən onu da yəqin etdim ki, bu qərarın əsas səbəbi ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq və Azərbaycanın uzunmüddətli inkişafına investorların inamıdır. Bunlar çox böyük layihələrdir. İki elektrik stansiyası tikiləcək - biri külək, biri Günəş. Bu iki stansiyanın ümumi generasiya gücü 440 meqavat səviyyəsindədir, çox böyük stansiyalardır. Təqribən, 400 milyon dollara qədər xarici sərmayə qoyuluşu nəzərdə tutulur. Ona görə əminəm ki, bundan sonra digər investorlar da maraq göstərəcəklər. Deyə bilərəm ki, bu layihəni icra etmək üçün bizə dünyanın 9 aparıcı şirkətindən müraciətlər daxil olmuşdur. Artıq, əgər belə demək mümkündürsə, kənarda qalmış şirkətlərlə də fərdi qaydada iş aparılır, onlar üçün yeni təkliflər hazırlanır. Əminəm ki, bərpaolunan enerji növlərinin ümumi generasiya gücümüzdəki payı getdikcə artacaq və artmalıdır.

Bununla paralel olaraq, "Azərenerji"nin xətti ilə bu il yeni böyük elektrik stansiyasının tikintisinə başlanılacaq. Bu stansiyanın generasiya gücü təqribən 350-400 meqavat ətrafındadır. Buna ehtiyac var, tələbat var. Çünki qeyd etdiyim kimi, bizim ixrac imkanlarımız genişlənir, daxili tələbat getdikcə artacaq və daxili istehlak daim nəzərə alınmalıdır. Bizim hazırda 1000 meqavata yaxın generasiya gücümüz var ki, daxildə istifadə edilmir. Onun da böyük hissəsi ixrac olunur.

"Azərenerji"nin xətti ilə yeni külək elektrik stansiyasının tikintisinə də başlanılmalıdır. Bu yaxınlarda 50 meqavat gücündə bir stansiya istifadəyə verilmişdir. İkinci stansiyanın generasiya gücü 84 meqavatdır. Bu da Azərbaycanda bərpaolunan enerji növünün növbəti təzahürüdür. İndi dünyanın bir neçə ölkəsində buna oxşar layihələr icra edilir, xüsusilə təbii resurslarla zəngin olmayan ölkələrdə. Bizim isə siyasətimiz bundan ibarətdir, - baxmayaraq ki, neftimiz də, qazımız da var, - neftdən, qazdan qənaətlə istifadə etmək və daha çox ixraca yönəltmək üçün bərpaolunan enerji növlərindən istifadə etməliyik. Xüsusilə, nəzərə alsaq ki, Günəşimiz də, küləyimiz də boldur.

Eyni zamanda, Mingəçevir İstilik Elektrik Stansiyasının qalan üç blokunda bərpa-tikinti işləri aparılacaq. Beş blok təmir olunub və bu da əlavə təqribən 400 meqavata yaxın generasiya gücü deməkdir. Ona görə biz yaxın iki-üç il ərzində böyük dərəcədə enerji gücümüzü artıracağıq. Bununla paralel olaraq, əlbəttə ki, transformatorların quraşdırılması, yeni yarımstansiyaların fəaliyyətə başlaması, elektrik xətlərinin təzələnməsi gündəlikdə duran məsələlərdir.

Qazlaşdırmaya gəldikdə, baxmayaraq ki, artıq qeyd etdiyim kimi, biz 96 faizə çatmışıq, yenə də dövlət investisiya proqramında Azərbaycan Dövlət Neft Şirkətinə dövlət büdcəsindən qazlaşdırmaya 130 milyon manat vəsait nəzərdə tutulur. Bu vəsaitdən istifadə edərək bir çox kəndlər - bu gün hələ qaz almayan kəndlər qazlaşdırılacaq.

Avtomobil yollarının çəkilişi ilə bağlı bir neçə önəmli layihə həyata keçirilir. Onlardan biri Gəncə-Gürcüstan sərhədi avtomobil yolunun dörd zolağa genişləndirilməsidir. İşlər gedir və əminəm ki, başa çatacaq. Sumqayıtdan Rusiya sərhədinə gedən yeni dördzolaqlı yolun tikintisi aparılır və hesab edirəm ki, ilin sonuna qədər bu yol da istifadəyə veriləcək. Astara-

İran sərhədi avtomobil yolunun tikintisi də gündəlikdədir. İndi magistral yol tam yeni məcra ilə cənub istiqamətinə gedir. Ancaq Astara şəhərinin içərisindən keçir. Ona görə həm vətəndaşlar üçün narahatlıq yaradır, həm də ki, yükburaxma qabiliyyəti aşağı düşür. Ona görə Astara şəhərinə girmədən rayonun ərazisindən İran sərhədinə qədər yeni magistral yolun çəkilişi, o cümlədən avtomobil körpüsünün tikintisi nəzərdə tutulur. Bu layihə də bu ilin sonuna qədər başa çatmalıdır.

Eyni zamanda, Şamaxı-İsmayıllı-Qəbələ yolunun bərpası və genişləndirilməsi nəzərdə tutulur. Bu yol sürüşmə zonasından keçir, ona görə yolun bərpası uzun illər ərzində mümkün olmamışdır. Ancaq yeni texnologiyalar əsasında və yeni məcranın tapılması istiqamətində aparılmış işlər nəticəsində bu yolun da genişləndirilməsi və keyfiyyətinin yaxşılaşdırılması nəzərdə tutulur.

Bu il Bakı qəsəbələrində yeni yolların çəkilişi xüsusi əhəmiyyət daşıyacaq. Keçən il biz bu işlərlə daha geniş miqyasda məşğul olmağa başlamışıq. Əlbəttə ki, bəzi qəsəbələrdə yollar bərbad vəziyyətdədir və bu, dözülməzdir. Biz ən ucqar dağ kəndlərinə gözəl yollar çəkirik. Amma burada - Bakının ətrafında bəzi yerlərdə yollar pis gündədir. Ona görə müvafiq göstərişlər verilib. Keçən il bu sahəyə daha böyük diqqət ayrılıb və bu il də yol çəkilişi proqramları arasında bu sahə prioritet təşkil edəcək.

Bütövlükdə bu il min kilometr avtomobil yolunun çəkilişi nəzərdə tutulur. Keçən il də min kilometr nəzərdə tutulurdu. Ancaq dediyim kimi, keçən il 1300 kilometr çəkildi. İstisna olunmur ki, bu il də çəkiləcək yolların uzunluğu daha böyük olacaqdır.

Dəmir yolunun bərpası və çəkilişi ilə bağlı. Gəncə-Gürcüstan sərhədi dəmir yolunun sürətinin artırılması nəzərdə tutulur. Bakı-Gəncə dəmir yolunun çəkilişi tamamilə başa çatıb. Mən o vaxt Gəncədə olarkən söz vermişdim ki, bu, təmin ediləcək. Elə də oldu. İndi çox rahat, sürətli qatarla Bakıdan Gəncə şəhərinə getmək olar. İndi sərhədə qədər bu dəmir yolunun bərpası başa çatdırılmalıdır. Eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı-Yalama dəmir yolunun yenidən qurulması gündəlikdədir. Bununla yanaşı, Xudatdan Şahdağa dəmir yolunun çəkilişi nəzərdə tutulur. Şahdağ dağ-xizək kurortu indi nəinki MDB məkanında, dünyada tanınır. Bunun ikinci mərhələsi işə düşəndən sonra maraq daha da artıbdır. Ona görə mütləq bu kurorta dəmir yolu çəkilməlidir. Bu, həm bölgədə yaşayan vətəndaşlara, xarici qonaqlara və Bakı sakinlərinə rahatlıq gətirəcəkdir. Artıq müvafiq Sərəncam da verilib və vəsait də ayrılıb.

Ələt-Astara dəmir yolunun yenidən qurulması və yolun marşrutunun dəyişdirilməsi, sahildən kənarlaşdırılması üzərində iş aparılır. Bu il vəsait də nəzərdə tutulur. Bu il şəhərlərarası dəmir yolları arasında Ləki-Qəbələ dəmir yolunun fəaliyyətə başlaması nəzərdə tutulur. Giriş sözümdə dediyim kimi, Bakıətrafı, Bakı qəsəbələrinə gedən dəmir yolunun davam etdirilməsi nəzərdə tutulur.

İçməli su layihələri ilə əlaqədar bildirməliyəm ki, bu günə qədər ölkəmizin cəmi beş şəhərində içməli su və kanalizasiya layihələri başlamamışdır. Yəni, bütün qalan şəhərlərdə bu işlər ya tamamlanıb, ya da ki, icradadır. Ona görə bu beş şəhərin içməli su problemi nəzərə alınmalıdır. Bu ildən bu layihələrin icrasına start verilməlidir. Əminəm ki, yaxın gələcəkdə ölkəmizdə bir dənə də şəhər olmayacaq ki, 24 saat ərzində Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə təmin edilməsin. Eyni zamanda, biz bu il suvarma üçün 400-dən çox subartezian quyusunun qazılmasını təmin etməliyik. Bu quyuların sayı ildən-ilə artır, tələbat var və biz bunu edəcəyik. Bu, dövlət investisiya proqramında nəzərdə tutulub.

Ekoloji vəziyyətin yaxşılaşdırılması daim diqqət mərkəzindədir. Bu istiqamətdə bir çox önəmli tədbirlər görülür. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə çaylar boyu yerləşən bir çox kənddə modul tipli təmizləyici qurğular quraşdırılmışdır. Ancaq mənə bəzi yerlərdən gələn məlumata görə, bu qurğuların bir neçəsi sıradan çıxmışdır. Ona görə birinci növbədə bu qurğuların fəaliyyəti ilə bağlı monitorinq keçirilməlidir, geniş təhlil aparılmalıdır, mənə məruzə edilməlidir ki, onların vəziyyəti nə yerdədir. İkincisi, bu qurğuların istismarı ilə bağlı gərək təkliflər verilsin. Əfsuslar olsun ki, bu günə qədər bu qurğular başlı-başına buraxılıb. Yerli icra orqanları, bələdiyyələr, əslində, bu qurğuların istismarı ilə məşğul olmalıdırlar. Bir çox yerlərdə belə deyil. Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu qurğuları quraşdırıb və sanki işini yekunlaşdırıb. Ona görə həm monitorinq aparılmalıdır, həm də lazımdırsa, yeni kəndlərdə bu cür qurğular quraşdırılmalıdır və onların istismarı ilə bağlı konkret bir məsul qurum müəyyən edilməlidir.

Ağacəkmə prosesi davam etdiriləcək. Keçən il Nəsiminin 650 illiyi ilə bağlı bir gündə 650 min ağac əkildi. Son illərdə isə əkilən ağacların sayı bəlkə də 10-20 milyonu ötüb. Bu, çox müsbət haldır. Xüsusilə təbiəti ağacla o qədər də zəngin olmayan bölgələrdə bu proses geniş vüsət alıbdır və almalıdır. Bununla paralel olaraq, çirklənmiş yerlərin təmizlənməsi, torpaqların rekultivasiyası prosesi davam etdirilir. Abşeron yarımadasında bu işlər aparılır, aparılacaqdır. Bizim mövcud göllərin təmizlənməsi prosesi daha geniş vüsət almalıdır. Biz hələlik yalnız Böyükşor gölünün bir hissəsini təmizləmişik. Bu da çox böyük layihədir. İndi digər hissənin və həmçinin digər göllərin təmizlənməsi gündəlikdədir.

Son illərdə bu istiqamətdə çox böyük işlər görülüb. Bakı sakinləri və qonaqlar bunu hiss edirlər ki, havanın keyfiyyəti böyük dərəcədə yaxşılaşıb. Nəyin hesabına? Çünki biz havanı çirkləndirən bir çox mənbələri ləğv etdik. Onlardan biri Bibiheybət zonası idi, hansı ki, o, ekoloji fəlakət mənzərəsi idi. İndi orada park salınıb, idman qurğuları, xiyabanlar yaradılıb, bulvar o zonaya qədər uzadılıb. İkincisi, havanı, ekologiyanı böyük dərəcədə çirkləndirən "Qara şəhər" idi. İndi onun

yerində "Ağ şəhər" yerləşir. Bu da böyük şəhərsalma layihəsidir. Yaxın gələcəkdə neftayırma zavodunun o ərazidən köçürülməsi nəticəsində həm bulvarın uzunluğu artacaq, həm də o zonada ekoloji vəziyyət daha da yaxşılaşacaq. Əlbəttə, Balaxanı zibilxanası havanı demək olar ki, zəhərləyirdi. Çünki orada yanan məişət tullantılarının söndürülməsi mümkün deyildi. Hazırda orada böyük zibilyandırma zavodu və çeşidləmə poliqonu fəaliyyət göstərir. Bu ərazi ekoloji təmiz zonaya çevrilib.

Yəni, bütün bunları biz edirik ki, Bakının ekoloji vəziyyəti yaxşılaşsın və insanların sağlamlığına ziyan vurmasın. Eyni zamanda, vaxtilə ekoloji vəziyyəti ağır olan Sumqayıt da indi ekoloji cəhətdən təmiz şəhərdir. Mən orada olarkən sumqayıtlılara deyirəm ki, Sumqayıtın havası Bakının havasından daha təmizdir. Ancaq Bakının havası da böyük dərəcədə təmizlənib. Bizim əsas diqqət mərkəzimiz məhz böyük şəhərlərdir, xüsusilə Abşeron yarımadası və sənaye müəssisələri olan şəhərlər. Azərbaycanın qalan yerlərində təbiət toxunulmazdır, biz bunu qorumalıyıq və bütün bölgələrdə təbiət qorunmalıdır. Çünki bu, bizim sərvətimizdir. Bəzi hallarda ağaclar qırılır, onların yerində binalar tikilir. Buna qətiyyən yol vermək olmaz. Müvafiq göstərişlər verilib. Təbiətin qorunması hər bir vətəndaşın işi olmalıdır, çünki bu, bizim ölkəmizdir, bizim həyatımızdır.

Bu il tarixi abidələrin bərpası üçün dövlət investisiya proqramında vəsait ayrılıb, biz buna da diqqət yetirməliyik. Bizim əsas tarixi abidələrimizin hamısı bərpa olunubdur, konservasiya edilibdir. Ancaq Azərbaycanda bir çox tarixi abidələr var və onların hər biri bizim üçün əzizdir. Ona görə bu tarixi abidələrin bərpası, onların əsl vəziyyətinə çatdırılması və bəzi hallarda konservasiyası xüsusi əhəmiyyət daşıyır. Bu məsələlərə maksimum diqqət göstərilməlidir.

Bakı şəhərinin nəqliyyatı yaxşılaşdırılır, indi həm dövlət, həm özəl sektor xətti ilə daha səmərəli fəaliyyət göstərir. Xüsusilə mən özəl sektoru qeyd etmək istəyirəm. Çünki onlar da görürlər ki, dövlət xətti ilə gətirilən avtobuslar bütün standartlara cavab verir. Onların isə istifadə etdikləri avtobuslar artıq çoxdandır yararsız vəziyyətə düşüb. Ona görə məsuliyyətli sahibkarlar dərhal bu işlərlə məşğul olmağa başlayıblar. Əminəm ki, bundan sonra da həm özəl qurumlar, həm dövlət sektoru bu işdə fəal olacaqdır. Ancaq Sumqayıtdan fərqli olaraq bizim başqa şəhərlərdə vəziyyət acınacaqlıdır. Şəhər nəqliyyatı bərbad vəziyyətdədir. İstifadə olunan avtobuslar heç bir meyarlara cavab vermir. Ona görə mən həm yerli icra orqanlarına, həm də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə müvafiq göstəriş vermişəm ki, mənə geniş məlumat versinlər, mövcud avtobus parkı nə vəziyyətdədir? Biz bu məsələni də həll etməliyik. Hər bir şəhərdə nəqliyyat yaxşı olmalıdır. Yollar yaxşıdır, nəqliyyat da yaxşı olmalıdır ki, vətəndaşlar mənzil başına, iş yerinə rahat çata bilsinlər.

Bu il sosial infrastrukturla bağlı önəmli addımlar atılacaq. Onlarla məktəb, tibb müəssisəsi tikiləcək, təmir ediləcəkdir. İki Olimpiya İdman Kompleksinin açılışı nəzərdə tutulur. Bu il beş "ASAN xidmət" mərkəzi istifadəyə veriləcək və beləliklə, "ASAN xidmət" mərkəzlərinin sayı 21-ə çatacaq. Ancaq, əlbəttə, bu proses davam etdirilir. Bildirməliyəm ki, beş mərkəz bu il istifadəyə veriləcək, bundan əlavə daha altı mərkəzin açılışı da gündəlikdədir. Onlardan ikisi Bakıda tikiləcək və beləliklə, Bakıda mərkəzlərin sayı yeddiyə çatacaq. Çünki indi bəzi mərkəzlərdə növbələr yaranır. Biri Gəncədə. Gəncədə ikincisi olacaqdır. Biri Sumqayıtda, orada da ikincisi olacaqdır. Biri Lənkəran, biri isə Salyanda. Beləliklə, bu proqram maksimum 2021-ci ilin sonuna qədər başa çatmalıdır, bəlkə ondan da tez. Beləliklə, "ASAN xidmət" mərkəzlərinin sayı 27-yə çatacaq.

"DOST" mərkəzlərinin yaradılması daha geniş vüsət alacaq. Artıq iki mərkəz keçən il istifadəyə verilib və ümumiyyətlə, 30-dan çox "DOST" mərkəzinin yaradılması nəzərdə tutulur.

Digər sosial layihə şəhid ailələri üçün tikiləcək və təmin ediləcək mənzillərdir. Keçən il 934 şəhid ailəsinə mənzil verilmişdir. Bu il göstəriş vermişəm ki, bu rəqəm artırılsın və ən azı 1500 şəhid ailəsi dövlət tərəfindən gözəl evlərlə, mənzillərlə təmin ediləcək.

Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına gəldikdə isə, bu il yenə bu sahədə də rekord il olacaq. Çünki bu il 7 min köçkün ailəsi üçün mənzillərin, evlərin verilməsi nəzərdə tutulur. Keçən il bu rəqəm 5 min idi. Beləliklə, təqribən 30-40 min köçkün yeni evlərlə təmin ediləcəkdir.

Sosial layihələr arasında ödənişli ictimai iş yerlərinin yaradılması da var. Bu da mənim təşəbbüsümlə irəli sürülmüş məsələdir, o vaxt ki, ölkəmizdə işsizlik bir qədər artmışdı. Onun da səbəbi o idi ki, neftin qiyməti 4 dəfə aşağı düşdü, biz məcbur olub investisiya xərclərimizi ixtisar etdik. Mən giriş sözümdə dedim, valyuta ehtiyatlarımızı, hətta bizim üçün ən ağır illərdə artıra bilmişik. Amma investisiya xərclərini azaltdıq və beləliklə, bu layihələrdə iştirakı nəzərdə tutulan insanlar işsiz qaldılar. Ona görə mənim göstərişimlə ödənişli ictimai iş yerləri yaradıldı. Ancaq əfsuslar olsun ki, bu sahədə bölgələrdə pozuntulara yol verildi və bu pozuntulara yol verən şəxslər cəzalandırıldı. Əgər bu biabırçı faktlar təkrarlanarsa, heç kim cəzadan yaxa qurtara bilməyəcək. Çünki kasıb təbəqə üçün nəzərdə tutulan iş yerlərinin pulunu mənimsəmək böyük vicdansızlıqdır. Ona görə çox ciddi nəzarət var. Əminəm ki, belə hallar təkrarlanmayacaq. Amma yenə də ciddi nəzarət olmalıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırıq verilib ki, bütün iş yerləri qeydiyyatdan keçsin və nəzarət güclü olsun. Baxmayaraq ki, işsizliklə bağlı vəziyyət ötən il yenə də böyük dərəcədə yaxşılaşdı, amma əhali artır. Biz bunu nəzərə almalıyıq. Ona görə bu il də dövlət xətti ilə təxminən 40 minə yaxın iş yeri yaradılacaq.

Digər önəmli proqram özünüməşğulluq proqramıdır. Buna da biz bir neçə il əvvəl start verdik və böyük tələbat var. Bu, onu göstərir ki, biz düzgün addım atmışıq və bu proqramı genişləndiririk. Tələbat təqribən 40-50 min ətrafındadır. Ancaq biz keçən il 7-8 min insanı bu proqrama cəlb etdik. Bu il ən azı 10 min insan cəlb olunacaq. Onlara lazımi vasitələr, avadanlıq, mal-qara veriləcək. Bizim təşəbbüsümüzlə bu proqramı Dünya Bankı ilə birgə icra edirik. Yəni, yaradılacaq bu 10 min iş yeri üçün Dünya Bankının xətti ilə də vəsait nəzərdə tutulur. Bizə onların vəsaitindən çox təcrübəsi, ekspertizası lazımdır. Çünki Dünya Bankı dünyanın bir çox ölkələrində belə layihələr icra edib. Ona görə həm ekspertiza, həm əlavə maliyyə vəsaiti cəlb olunacaq. Mən Azərbaycanda fəaliyyət göstərən özəl banklara da demək istərdim ki, onlar da baxsınlar, bu proqrama qoşulsunlar və proqram daha geniş vüsət alsın. Çünki qeyd etdiyim kimi, maraq böyükdür, tələbat da artır.

Bank sektorunda sağlamlaşdırma prosesi davam etdirilir və davam etdirilməlidir. Biz banklara çox böyük dəstək vermişik. Bütün əmanətlər sığortalanıb və bu prosesi uzatmışıq. Hesab edirəm və tam əminəm ki, artıq böhranlı dövr arxada qalıbdır. Ancaq əhalinin banklara inamının artırılması üçün dövlət bu məsələni yenə də öz üzərinə götürür. Azərbaycan nadir ölkələrdəndir ki, bütün bank əmanətləri dövlət tərəfindən sığortalanır. Bu, banklara verilən böyük dəstəkdir, edilən güzəştdir, eyni zamanda, onların məsuliyyətini artırır. Əgər banklar tərəfindən, özəl banklar tərəfindən hər hansı bir sürpriz olarsa, onlar özlərindən küssünlər. Mərkəzi Banka verilən yeni səlahiyyətlər çərçivəsində nəzarət daha güclü olmalıdır ki, sağlamlaşma prosesi uğurla başa çatsın.

İqtisadiyyat artdıqca, iqtisadi vəziyyət yaxşılaşdıqca, uçot dərəcəsi də aşağı düşür. Bu il də aşağı düşübdür, təqribən 7 faizdən bir qədər çoxdur. Əlbəttə ki, özəl banklar da faiz dərəcələrini aşağı salmalıdırlar. Çünki Mərkəzi Bank tərəfindən artıq qərar qəbul edildi, keçən il və bu il uçot dərəcəsi müntəzəm olaraq aşağı düşür. Bu proses davam etdirilir.

Bütövlükdə özəl banklar iqtisadi inkişafımıza təkan verməlidir. Onların işi ancaq oturub pul qazanmaq olmamalıdır. Onlar öz məsuliyyətini dərk etməlidirlər. Dövlət onlara fəaliyyət göstərmək üçün imkan yaradıb, lisenziya verib. Əgər o banklarda hansısa problemlər olarsa, bu lisenziya ləğv ediləcəkdir. Son vaxtlar bir çox bankların lisenziyası ləğv olundu. Onlar bu imkanlardan məhrum olacaqlar. Ona görə məsuliyyətli yanaşmalıdırlar. Heç bir sürpriz olmamalıdır. Onlar biznes-kreditlərə üstünlük verməlidirlər. Mən bunu ilin yekunlarına həsr edilmiş müşavirədə qeyd etdim. Yenə də bu meyil görünməkdədir. İstehlak kreditlərinə üstünlük verilir. Əlbəttə, bu, çox asandır. İstehlak kreditini verir, sonra da faizini alır. Amma bank krediti ölkə iqtisadiyyatı üçün, real sektor üçün, iş yerlərinin yaradılması üçün lazımdır. Ona görə burada mən bir daha göstəriş verirəm, Mərkəzi Bank və aidiyyəti nazirliklər, o cümlədən Nazirlər Kabineti bunu nəzarətə götürsün və mənə müntəzəm olaraq məlumat verilsin ki, biznes-kreditlərinin pay faizi nə qədərdir. İstehlak kreditləri və monitorinq daimi olmalıdır.

Mən bir məsələyə də toxunmaq istəyirəm. Rayon və kənd yerlərində təklif olunan girov əmlaklar bir çox hallarda banklar tərəfindən girov kimi qəbul edilmir. Onlar Bakıda girov əmlak istəyirlər. Buna son qoyulmalıdır. Burada heç bir ayrı-seçkiliyə yol vermək olmaz. Ona görə aidiyyəti qurumlar bu məsələ ilə də ciddi məşğul olsunlar.

Sahibkarlığın inkişafı üçün dövlət bu il də kifayət qədər böyük vəsait nəzərdə tutur. Bu, artıq verilmiş və qaytarılmış kreditlərin hesabına baş verir. Güzəştli şərtlərlə 200 milyon manata yaxın kreditlər veriləcək. Deyə bilərəm ki, son illər ərzində sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox vəsait verilmişdir. Ancaq verilən bu kreditlərə həm nəzarət gücləndirilməlidir, həm də biznes layihələrinə yenidən baxmaq lazımdır. Çünki aparılan təhlil göstərir ki, hər bir iş yerinin yaradılması üçün kifayət qədər böyük vəsait xərclənir. Əvvəlki illərdə üstünlük daha çox iri layihələrə verilirdi, bu da təbii idi. Çünki bu aqroparkların və digər iri sənaye müəssisələrinin yaradılması hesab edirəm ki, zəruri idi. Ancaq hazırda daha çox güzəştli kreditlər portfelində kiçik və orta sahibkarlığa üstünlük verilməlidir. Çünki biz yaxşı bilirik ki, inkişaf etmiş ölkələrin ümumi daxili məhsulu böyük dərəcədə kiçik və orta sahibkarlıq tərəfindən formalaşır. Biz də bu yolla getməliyik. Xüsusilə nəzərə alsaq ki, bizim iqtisadiyyatımızın aparıcı hissəsi neft-qaz sənayesidir. Ona görə bu il güzəştli biznes-kreditlərinin tərkibində kiçik və orta sahibkarlığa üstünlük verilməlidir.

O ki qaldı, iri layihələrin icrasına, qeyd etdiyim kimi, onların arasında aqroparklar xüsusi yer tutur. Aqroparkların da yaradılması ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır. Biz indi aqroparkların timsalında görürük ki, burada məhsuldarlıq daha yüksəkdir. Çünki yeni texnologiyalar tətbiq olunur, texnika gətirilir, dövlət tərəfindən dəstək göstərilir. Misal üçün keçən il taxılçılıqda bizim orta məhsuldarlığımız kifayət qədər yüksək olub - hektardan 32 sentner, böyük irəliləyişdir. Ancaq iri fermer təsərrüfatlarında bu, 50 sentner, bəzi yerlərdə 60 sentnerdir. Bu, onu göstərir ki, aqroparkların yaradılması çox düzgün qərar idi. Ancaq mənə məlumat verildi ki, bir neçə yerdə nəzərdə tutulmuş aqroparkların yaradılması yubanır, yaxud da ki, işlər ümumiyyətlə getmir. Ona görə mən İqtisadiyyat Nazirliyinə, Kənd Təsərrüfatı Nazirliyinə tapşırıram ki, bu məsələ araşdırılsın. Təqribən 50-dən çox aqroparkın yaradılması nəzərdə tutulurdu. Araşdırılsın, təhlil aparılsın və mənə məlumat verilsin, əgər o yerlər, sadəcə olaraq, sahibkarlar tərəfindən götürülüb və istifadə olunmur, o yerlər geri qaytarılmalıdır və iş görən sahibkara verilməlidir.

Sahibkarlara çox böyük hərtərəfli dəstək göstərilir. Birincisi, Prezidentin dəstəyi. Mən dəfələrlə demişəm ki, Azərbaycan iqtisadiyyatının gələcəyi sahibkarlığın inkişafından asılıdır. Digər tərəfdən, icra edilmiş bütün infrastruktur layihələri. İndi təsəvvür edin, əgər rayonlarda işıq, yol olmasaydı, hansı sahibkar orada iş görə bilərdi. Qaz olmasaydı, hansı istixananı işlədə bilərdi. Ona görə bunlar dövlət tərəfindən edilibdir - yol da, elektrik də, qaz da, su da. Bundan əlavə, güzəştli kreditlər – dediyim kimi, aşağı faizlə 2 milyard manatdan çox vəsait ayrıldı. Fermerlərə subsidiyalar verilir, onlar torpaq vergisi istisna olmaqla, - o da cüzi rəqəmdir, - vergilərdən azaddırlar. Dövlət tərəfindən sənaye zonalarının, sənaye parklarının, infrastrukturun yaradılması. Təşviq mexanizmi təşkil edilib və digər stimulverici amillər tətbiq olunubdur. Yəni, sahibkarlara çox böyük imkanlar yaradılıb. Ona görə sahibkarlardan da tələbimiz var, onlar dürüst olsunlar, təmiz işləsinlər, əyri yola getməsinlər, vergiləri gizlətməsinlər. Vergiləri tam ödəsinlər, vergilərdən başqa heç kimə, heç bir quruma, heç bir şəxsə bir manat pul verməsinlər. Çünki rüşvətxorluğun iki tərəfi var: alan və verən. İndi mən potensial rüşvət verənlərə deyirəm ki, dayandırın bunu. Əgər kimsə sizdən əsassız nəsə tələb edirsə, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, mərkəzi icra orqanlarına dərhal məlumat verin. Bu, qətiyyən yolverilməzdir. Çünki sahibkarlığın inkişafının qabağını alan bir çox hallarda məmur özbaşınalığıdır. Məmurlar görən kimi haradasa iş başlayır, bəzi hallarda dərhal cumurlar ora, öz payını tələb edirlər, yaxud da ki, nəsə qoparmaq istəyirlər. Buna son qoyulmalıdır. Ona görə sahibkarlar vergini tam verməlidirlər. Çünki onların vergisi ölkəmizin yaşamasıdır, xalqımızın yaşamasıdır. Əlbəttə ki, vergi orqanlarında aparılan islahatlar da sahibkarlara böyük kömək göstərir. Çünki sahibkarlar indi bilirlər qaydalar nədən ibarətdir. Qaydalar da çox sadədir. Fəaliyyətini qanunvericiliyə uyğun qurmalıdırlar, əmək müqavilələri bağlamalıdırlar, işçiləri istismar etməməlidirlər. Çünki mənə verilən məlumata görə, bəzi hallarda işçiləri vaxtından çox işlədirlər. Bizim 8 saatlıq iş günümüz var. Heç kim ondan artıq işləməməlidir. Amma daha çox pula qənaət etmək üçün 10 saat, 12 saat, ondan da çox işlədirlər. Buna son qoyulmalıdır və Nazirlər Kabineti buna nəzarət etməlidir. Xüsusi müşavirə keçirilsin ki, bu məsələlər müzakirə olunsun və əgər belə hallara yol verilirsə, o sahibkar cəzalandırılacaq. İşçilərə də müraciət edirəm. Siz də əmək müqaviləsi olmadan işləməyin. Mən bilirəm ki, bəzi hallarda sizi məcbur edirlər. Amma bilin ki, əgər əmək müqaviləsi olmasa, sabah pensiya, tibbi sığorta ala bilməyəcəksiniz. Ona görə sahibkarlar vergisini ödəməli, bütün qanuni tələblərə riayət etməli və məsuliyyətli olmalıdırlar. İmkanlı sahibkarlar, əlbəttə ki, öz sosial məsuliyyətini də dərk etməlidirlər. Eyni zamanda, əsassız olaraq işçiləri ixtisar etməməlidirlər. Çünki ixtisar edilən hər bir iş yeri bir ailəni çörəksiz qoyur. Buna getmək olmaz. Baxın, dövlət ünvanlı sosial yardım alanların sayını artırır. Baxmayaraq ki, yoxsulluq 4,8 faizdir və bəzi şəhərlərdə olduğu kimi, Azərbaycanda küçələrdə yoxsullar dolaşmır. İndi inkişaf etmiş ölkələrin şəhərlərinə baxın, ən böyük ölkələrin paytaxtlarında minlərlə evsiz-eşiksiz adam var. Onlar ya qutuda, ya skamyalarda, ya da ki, özləri üçün balaca çadır qurub yatırlar. Bunu biz televizordan görürük. Bizdə belə şey varmı? Yoxdur! Nəyə görə? Ona görə ki, vətəndaşlara qayğını dövlət öz üzərinə götürübdür. Baxmayaraq ki, işsizlərin, yoxsulların sayı azalır, mən göstəriş vermişəm, ünvanlı sosial yardımı alanların sayı artırılsın. Bunu etmək üçün yeni meyarlar tətbiq olunmalıdır, ona görə ki, ölkəmizdə kasıb adam olmasın. Əgər bir sahibkar 5 manat çox qazanmaq istəyirsə, adamı işdən çıxarır. Bu, dözülməzdir. Faktlar varsa, mənə deyin, biz o sahibkarlarla lazımi qaydada danışacağıq. Ona görə dövlət, xalq və qanun qarşısında məsuliyyət olmalıdır. O cümlədən kölgə iqtisadiyyatına qarşı mübarizə bundan sonra da aparılacaq. Burada da iki tərəf var. Bu işlərə göz yuman dövlət məmuru və bu işləri görən sahibkar. Bu sövdələşmə də tamamilə pozulmalıdır və pozulur. Dövlət indi göz yummur, sahibkar da gərək öz biznesini kölgədən 100 faiz çıxarsın. Dövlət, mərkəzi icra orqanlarımız xüsusi anlayış göstərərək bu prosesi tədricən edirlər. Çünki bu işi görənlər onilliklər ərzində, sovet dövründə də, müstəqillik dövründə də belə işləyiblər, öyrəşiblər. Ona görə buna son qoyulmalıdır. Kölgə iqtisadiyyatı olmamalıdır, vəssalam, çox sadə. Düzdür, hər yerdə var, hər ölkədə var. Bizdə bu, dözülməz dərəcəyə gəlib çıxmışdır. O təhlil mənə veriləndə, sözün düzü, çox dəhşətə gəldim. Ona görə buna son qoyulur. Vergi və gömrük orqanları keçən il proqnozdan əlavə 1 milyard manatdan çox vəsaiti nəyin hesabına toplayıblar? Onun hesabına ki, bu pullar kiminsə cibinə gedirdi və bu pullardan Azərbaycan vətəndaşı məhrum idi. Biz bu şəffaflığı təmin edərkən, mən qeyd etdiyim sosial təşəbbüsü reallaşdıra bildik. O pul qəpiyinə qədər insanların maaşına, pensiyasına, təqaüdünə, müavinətinə getdi. İndi biz kölgə iqtisadiyyatına göz yuma bilərikmi? Qətiyyən yox! Yenə də deyirəm, kölgə iqtisadiyyatına son qoyulmalıdır və dövlət orqanları bir keçid dövrü də müəyyən edib. Çünki bəri başdan çox sərt tədbirlər görmək düzgün olmaz. İnsanlar buna gərək yavaş-yavaş öyrəşsinlər. Amma biz bu güzəşt müddətini də çox uzada bilmərik. Ona görə bu il bütün iqtisadiyyat kölgədən çıxmalıdır, bütün sahibkarlar vergisini ödəməlidir. Əgər kimsə mənim bu sözlərimdən sonra yenə də köhnə qayda ilə işləmək, kiməsə arxalanmaq istəyəcəksə, bilsin ki, bu, alınmayacaq. Heç kimə güzəşt yoxdur. Bunu indi hamı bilir. Hər kəs bərabərdir. Heç bir toxunulmaz sahibkar da yoxdur, heç bir toxunulmaz məmur da yoxdur. Hər kəs qiymətini də, mükafatını da, cəzasını da öz əməlinə görə alacaq. Bunu bilməlisiniz.

Onu da bildirməliyəm ki, bu müsbət proses bu il də gedir. Hələ yanvar ayının sosial-iqtisadi yekunları mənə

məruzə edilməyib. Bu, bir qədər vaxt tələb edir. Amma bir neçə rəqəm artıq mənə deyilib, o cümlədən yenə də vergi və gömrük orqanlarının yanvar ayındakı fəaliyyəti. Beləliklə, bu ilin yanvar ayında vergi orqanları proqnozdan əlavə 120 milyon manat, gömrük orqanları isə 40 milyon manat vəsait yığıblar. Yəni, bir ayda ancaq kölgə iqtisadiyyatı ilə mübarizə sayəsində 160 milyon manat əldə olunub.

Qeyd etdiyim kimi, sənaye istehsalı ilə bağlı qeyri-neft sektoruna üstünlük veriləcək. Keçən il bu sektor 14 faizdən çox artıb, bu il də artmalıdır. Burada mən bir neçə məsələyə toxunmaq istərdim. Hesab edirəm ki, emal sənayesinə daha çox üstünlük verilməlidir. Dövlət orqanları da bu sahəyə diqqət yetirməlidirlər. Güzəştli kreditlər də bu sahəyə istiqamətləndirilməlidir. Sahibkarlar özləri də bu sahəyə daha böyük diqqət göstərsinlər. Biz gərək hər şeyi ardıcıllıqla edək. Biz, əlbəttə ki, meyvə-tərəvəz məhsullarımızı tədarük edirik, ixrac edirik. Bu ixrac da artır, çox yaxşı. Ancaq emal olunmuş malların daha böyük dəyəri var. Dəyərlər zənciri yaradılmalıdır. Ona görə hesab edirəm ki, kənd təsərrüfatında emal sektoruna xüsusi diqqət göstərilməlidir. Bir neçə misal gətirə bilərəm. Bizdə indi üzümçülük çox sürətlə inkişaf edir. Son illər ərzində salınmış minlərlə hektar üzüm bağları indi bar verir. Təkcə keçən il üzüm tədarükü 34 min ton artıbdır. Bu, birbaşa şərabçılıq sənayesini yaradır və biz indi şərab məhsullarımızı bir çox ölkəyə ixrac edirik. O cümlədən tütünçülük. Tütünçülüyün inkişafı sayəsində Sumqayıtda yeni siqaret fabriki yaradıldı, Bakı siqaret fabriki yenidən quruldu. Biz daxili tələbatı tam ödəməliyik və ödəyəcəyik, ixrac da edəcəyik. Yoxsa ki, əvvəlki illərdə tütün tədarük etməyən ölkələr bizə siqaret satırdı. Bu, bir nonsensdir. Bizim tütünümüz də, şəraitimiz də var. Ona görə bax, bu, emal sənayesinin inkişafının təzahürüdür. Baramaçılıq da həmçinin. Çünki burada da zəncir yaradılır - kümçüdən ta Şəki ipək kombinatına qədər. Orada da artıq yüzlərlə adam işlə təmin edilib. Kəndlərdə də minlərlə adam işlə təmin olunub və 30-40 gün ərzində böyük vəsait əldə edir, özü də az əziyyət çəkməklə.

Pambıqçılıq birbaşa emal sənayesini şərtləndirir. Bizdə pambıqçılıqda 46 faiz artım var. İxrac keçən il 158 milyon dollar olubdur. Ancaq biz pambığın 50 faizini ölkəmizdə emal edə bilirik. Ona görə nə lazımdır, yeni iplik fabrikləri, ondan sonra tekstil fabrikləri, daha sonra hazır məhsul fabrikləri. Bu zəncir bir-birinə bağlıdır, ona görə sahibkarlar bu sahəyə diqqət yetirsinlər və dövlət orqanları sahibkarları bu istiqamətlərə yönəltsinlər. Beləliklə, yüngül sənayenin inkişafı təmin ediləcək, iş yerləri yaradılacaq, hazır məhsul istehsal edəcəyik, hazır məhsulu idxal etməyəcəyik. Aydın məsələdir, bunlar bir-biri ilə bağlıdır. Pul burada, ölkəmizdə qalacaq.

Tərəvəzçilikdə də həmçinin. Emal sənayesi tərəvəzçilikdə çox aşağıdır. Biz tərəvəzi yığırıq, özümüz istehlak və ixrac edirik. Yaxşıdır, amma emal olunmalıdır. Misal üçün, bizdə keçən il tərəvəzçilikdə ixrac 243 milyon dollar olubdur. Bunun 190 milyon dolları pomidor ixracı idi və pomidor ixracı 7 faiz artıbdır. Ancaq əgər kifayət qədər tomat pastası zavodu olsa, daha da böyük qiymətə satıla bilər. Özü də bütün bazarlarda tələb olunan məhsuldur. Sahibkarlar buna diqqət yetirməlidirlər. Mən bu rəqəmləri, Azərbaycanın özünütəminetmə əmsalını müntəzəm olaraq səsləndirirəm ki, harada boşluqlar var, yerli sahibkarlar bu boşluqları doldursunlar. Ancaq mən bir qədər passivlik görürəm. Ona görə dövlət orqanları gərək sahibkarları tərpətsinlər, özləri də təşəbbüs göstərsinlər. Xüsusilə nəzərə alsaq ki, dövlət bütün şəraiti yaradıb və bütün sərgiləri keçirir, sahibkarları xaricə aparır. İndi biz şərab ixracını artırmışıq, nəyin hesabına? Dövlətin səyləri hesabına. Çünki dövlət xətti ilə, dövlətin hesabına beynəlxalq sərgilərdə iştirak təmin olunub, orada kontraktlar bağlanıb. Axı, sahibkar özü bunu etmir.

Əfsuslar olsun ki, bizdə alkoqollu içkilər sahəsində böyük pozuntular olur, statistika tam baş-ayaq idi. Nəyə görə? Çünki araq da istehsal edir, şərab da. Amma yazır ki, mən filan məhsulu istehsal etmişəm, çünki daha çox pul qazansın. Əlbəttə, buna da son qoyulur və qoyulacaq. Hər sahədə şəffaflıq olmalıdır, bunu hamı bilsin. Ona görə belə bicliklər gərək keçmişdə saxlansın.

Misal üçün meyvəçilikdə. 240 milyon dollarlıq meyvə ixrac olunub, artım 11 faiz. Amma bu meyvənin içində fındıq da var. 125 milyon dollarlıq fındıq ixrac olunub, artım 33 faiz. Nəyin hesabına? Yenə də dövlətin hesabına. Mən o vaxt göstəriş verdim ki, fındıq bağları salınsın. Bizim 30 min hektar sahədə fındıq bağımız var idi. İndi biz bunu 80 min hektara çatdırmışıq. Kim edib? Dövlət edib. Bəs, sahibkar özü niyə gedib əkmir? Yaxşı, baramanı da dövlət edib, pambığı da dövlət edib, nə vaxta qədər? Sahibkar da gedib etsin. İndi pambıqdan, fındıqdan böyük pul əldə edir, çox yaxşı, qoy, daha da varlansın. Amma özü də bir təşəbbüs göstərsin.

Biz bu işləri onsuz da aparacağıq. Çünki bu, dövlətimiz üçün lazımdır, sahibkar da bizim vətəndaşımızdır. Sahibkar da onlarla, yüzlərlə, bəlkə də minlərlə işçini saxlayır, ona maaş verir. Ona görə burada bu birliyin, bu konfransların məqsədi nədir?! Burada oturanların bir hissəsi yerli icra başçıları, mərkəzi icra orqanlarının rəhbərləri və sahibkarlardır. Bu konfransın ikinci hissəsində açıq söhbət aparılmalıdır. Daha şüarlar, hansısa bəyanatlar lazım deyil. Açıq söhbət olmalıdır, problem nədir, həlli yolu nədir sahibkar desin. Dövlət nümayəndəsi də ona desin ki, o, harada pozuntulara yol verir, dostcasına desin ki, “get bunu düzəlt, bax, son dəfə sənə deyirəm, düzəltməsən, onda özündən küs”. Bu gün burada, bax, bu məsələlər müzakirə olunmalıdır. Elə etməliyik ki, 2020-ci ildən başlayaraq, bütün bu bicliklər, manipulyasiyalar, saxtakarlıqlar, kassadan kənar ödəmələr qıraqda qalsın. Bəyan edilməmiş yüklərin gətirilməsi, yükün içində bir məhsul ola-ola başqa məhsulun bəyan edilməsi - bütün bunları dövlət

orqanları bilir və bilirdi. Sadəcə olaraq, bəziləri göz yumurdular, sövdələşirdilər. Daha bu dövr bitdi. Mən sizə bunu deyirəm, qurtardı. Ona görə mən dediyim kimi işləməlisiniz, vəssalam.

Eyni zamanda, bizdə sənaye sahəsində də hazır məhsulun buraxılması məsələsi gündəlikdədir. Məsələn, SOCAR Polymer zavodu istifadəyə verildi və indi biz polimerləri xaricə ixrac edirik. O ölkələrə ixrac edirik ki, həmin ölkələr ondan hazır məhsul istehsal edir, bizə satır. Ona görə biz özümüz burada klasterləri yaratmalıyıq və lazım olarsa, dövlət dəstək göstərəcək ki, polimerdən məhsullar Azərbaycanda istehsal olunsun, pul ölkəmizdə qalsın. Ona görə bu məsələyə də diqqət yetirmək lazımdır.

Kənd təsərrüfatı sahəsində də ciddi islahatlar aparılır. Əminəm ki, bundan sonra da artım çox sürətli olacaq. Bildirməliyəm ki, keçən il bütövlükdə fermerlərə 380 milyon manat subsidiya verilmişdir. İndi bu subsidiyalar Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə verilir. Bu, çox mütərəqqi sistemdir. Eyni zamanda, Aqrar sığorta mexanizminin işlənməsinə start verilmişdir. Əminəm ki, bu il bu məsələ də öz həllini tapacaq.

Kənd təsərrüfatında artımla bağlı bəzi rəqəmləri də səsləndirmək istərdim. Beləliklə, barama istehsalı 25, pambıq 26, yumurta 9, günəbaxan 43, kartof 12, tərəvəz 12, bostan məhsulları 11, meyvə və giləmeyvə 9, yaşıl çay yarpağı 7, üzüm 20 faiz artmışdır. İxrac da əhəmiyyətli dərəcədə artıb. Bir dəfə demişəm, bir daha demək istəyirəm ki, mən turizmi də ixrac növü hesab edirəm. Çünki keçən il xarici turistlər Azərbaycanda 4,3 milyard manat pul xərcləyiblər. Yəni, əgər bunu ixrac növü kimi hesablasaq, neftdən sonra ikinci sahə turizmdir. Məhz ona görə mən turizmin inkişafı üçün kompleks tədbirlərin görülməsini təmin etdim, son illər Azərbaycanda turistlərin sayı artıb və bu gün də artır. Əminəm ki, bu, belə də davam edəcək. Ancaq hər şeyin vaxtı var. Misal üçün biz 10 il bundan əvvəl bu haqda fikirləşsəydik, bəlkə də düzgün olmazdı. Çünki turistlər hara gələcəkdilər – yol yox, işıq yox, otel yox. Hara gələcəkdilər? İndi isə hər şey var. Ən müasir nəqliyyat infrastrukturu – Heydər Əliyev Beynəlxalq Aeroportu, dediyim kimi, beşulduzlu aeroportdur. Bundan başqa turistlərin daha çox gəldikləri yerlərdə də 5 beynəlxalq aeroport var. Həmçinin gözəl otellər var. Azərbaycanda dünyanın bütün aparıcı otellərinin brendləri fəaliyyət göstərir. Onlar nəyə görə buraya gəliblər? Niyə başqa ölkələrə getmirlər? Çünki ölkəmizdə sabitlik var, inam var, vəziyyət proqnozlaşdırılandır və investisiya mühiti, kredit reytinqlərimiz yaxşıdır. "Doing Business"dəki yerimiz yaxşıdır. Onlar görür, arayışa baxır. Dünyanın aparıcı brendi kortəbii olaraq gəlib burada otel tikər? Əlbəttə ki, yox. İqlim gözəldir, 9 iqlim zonamız var, xalqımızın qonaqpərvərliyi, tarixi abidələr, mətbəximiz və əlbəttə ki, sabitlik və təhlükəsizlik. Ona görə turizm sahəsində bu işlər görülür. Keçən il UNESKO-nun Ümumdünya İrs Komitəsinin sessiyasında Şəki Xan Sarayı Dünya İrs Siyahısına daxil edilib. Qobustan və İçərişəhərdən, Qız qalasından, Şirvanşahlar sarayından sonra bu, bizim növbəti böyük uğurumuzdur. Harada ki, boşluqlar var, biz öz turizm imkanlarımızı gərək səfərbər edək. Məsələn, keçən il Yanardağ tamamilə yenidən quruldu, çox gözəl şərait yaradıldı və demək olar ki, Bakıya gələn turistlərin böyük əksəriyyəti oranı ziyarət edir. Bizim palçıq vulkanlarımız var. Amma oraya heç yol da yoxdur. Hətta yol olsa belə, oraya gedib, bir stəkan çay içmək üçün yer də tapmaq mümkün deyil. Ona görə göstəriş vermişəm ki, bizim Turizm Agentliyimiz bu il bu məsələ ilə ciddi məşğul olsun. Necə ki, bu gün Yanardağa, yaxud da ki, Qobustana hər kəs gedir, palçıq vulkanlarına da hər kəs gedəcək. Çünki biz palçıq vulkanlarının sayına görə dünyada birinci yerdəyik.

Bizim tarixi yerlərimizi, tarixi kəndlərimizi turizm zonasına çevirmək üçün praktiki addımlar atılır. Qış turizminin inkişafı, Şahdağ xizək kompleksinin gələcək inkişafı ilə bağlı göstəriş verilmişdir. Onu da bildirməliyəm ki, bu gün mənə məlumat verildi, bu ilin yanvar ayında 2019-cu ilin yanvar ayı ilə müqayisədə turistlərin sayı 18 faiz artıb. Özü də turistlər üçün o qədər də cəlbedici olmayan yanvar ayında. Keçən il 11 faiz, ondan əvvəl 4 faiz, ondan əvvəl 24 faiz, ondan əvvəl 22 faiz, ardıcıllıqla. İndi ancaq yanvar ayında 18 faiz. Ona görə hesab edirəm ki, əgər keçən il ölkəmizə 3 milyon 170 min turist gəlmişdisə, bu il daha çox gələcək.

Əlbəttə ki, ölkəmizin əhəmiyyətini, rolunu və bizə olan münasibəti əks etdirən son hadisə Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində Davos Forumu ilə Azərbaycan arasında Dördüncü Sənaye İnqilabı üzrə Bakıda regional mərkəzin yaradılması hadisəsidir. Bu, çox əlamətdar hadisədir. Çünki Davos Ümumdünya İqtisadi Forumu dünyada birnömrəli Forumdur, bundan yuxarı yoxdur. Bu, həm siyasi, həm iqtisadi sahədə nömrə birdir və bu bölgədə, Cənubi Qafqazda, Orta Asiyada Azərbaycanı mərkəz kimi seçmək, əlbəttə, böyük hadisədir, mən və Forumun prezidenti niyyət protokolunu imzaladıq, indi işlər başlanacaq və Dördüncü Sənaye İnqilabında Azərbaycan lider olmalıdır. Necə ki, Davos Forumu bizi lider kimi görür, biz də lider olmalıyıq. Ona görə ki, bu, gələcək inkişafımız deməkdir. Biz elmi tərəqqini, inkişafı təmin etməliyik, ölkəmizi gələcəyə aparmalıyıq, müasirləşdirməliyik. Beləliklə hesab edirəm ki, bu hadisə bizim növbəti uğurumuzdur, növbəti qələbəmizdir. Əminəm ki, bundan sonra qələbələrimizin sayı çox olacaq.

Sağ olun.

## *Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısında İlham Əliyevin nitqi*

Hörmətli xanımlar və cənablar, hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Mən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin altıncı toplantısında iştirak etmək üçün buraya təşrif buyurmuş bütün qonaqları görməyimə çox şadam. Əvvəla, mən bu gün bizimlə birlikdə bu toplantıda iştirak edən nümayəndələrin hökumətlərinə illik altıncı toplantıda iştirak etmək məqsədilə yüksəksəviyyəli nümayəndələrini göndərdiyi üçün təşəkkürümü bildirmək istəyirəm.

Bu əməkdaşlıq formatının təşəbbüskarı olaraq Azərbaycan böyük qürur hissi keçirir ki, illər ərzində Məşvərət Şurası nəhəng Cənub Qaz Dəhlizi layihəsinin icrasında bizim səylərimizi gücləndirən çox səmərəli işçi mexanizmə çevrilmişdir. Biz bütün tərəfdaşlarımıza, ilk növbədə, Cənub Qaz Dəhlizinin üzvləri olan tərəfdaş ölkələrə - Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliyaya minnətdarıq. Bu ölkələr Azərbaycana çox yaxındırlar və mən bu ölkələrin dövlət və hökumət başçıları ilə çoxsaylı görüşlərimi xatırlayıram. Yalnız bu ilin iki ayında Türkiyə, İtaliya və Gürcüstanın dövlət və hökumət başçıları ilə görüşlərim, həmçinin bizim yaxın əməkdaşlığımızı nümayiş etdirir. Üç gün bundan əvvəl Türkiyə Prezidenti bizim qonağımız idi. Biz bu baxımdan nələrə nail olduğumuzu və gələcək planları müzakirə etdik. Bir həftə bundan əvvəl İtaliyaya dövlət səfəri çərçivəsində bu ölkənin Prezidenti və Baş Naziri ilə görüşlərim zamanı biz bu mühüm layihəni müzakirə etdik. Yanvar ayının sonunda Gürcüstanın Baş Naziri ilə keçirdiyim görüş bizə nailiyyətləri nəzərdən keçirməyə və gələcək addımlarımızı planlaşdırmağa imkan yaratmışdır. Hesab edirəm, Cənub Qaz Dəhlizi layihəsinin üzv ölkələrindən ibarət bu nadir tərkib onu nümayiş etdirir ki, ümumi amal ölkələri birləşdirə bilər. Əminəm ki, Cənub Qaz Dəhlizi layihəsi tamamlanandan sonra bizim çoxtərəfli əməkdaşlığımız digər sahələrdə davam edəcək.

Mən, həmçinin Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatları hökumətlərinə Azərbaycanın təşəbbüskarı olduğu layihələrə davamlı dəstək göstərdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Bu proses 1990-cı illərin ortasından başlamışdır. O zaman Azərbaycan öz neft və qaz potensialını xarici investorlar üçün açıq elan etdi. Azərbaycan Xəzər regionunda xarici şirkətlərə sərmayə yatırmaq və Xəzər dənizində neft əməliyyatlarını aparmaq imkanını verən ilk ölkə idi. Ötən 25 ildən artıq müddət ərzində Amerika Birləşmiş Ştatları və Birləşmiş Krallığın hökumətləri Azərbaycanla sıx tərəfdaşlıq edərək Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz xətti və Cənub Qaz Dəhlizi kimi nəhəng layihələrin icrasına böyük töhfələr vermişdir.

Mən tərəfdaş ölkələrimizin yüksəksəviyyəli nümayəndələrini görməyə çox şadam. Mən, həmçinin Avropa Komissiyasına minnətdarlığımı bildirmək istəyirəm. 2011-ci ildə Avropa Komissiyası və Azərbaycan burada - Bakıda Cənub Qaz Dəhlizi layihəsi üzrə Birgə Bəyannamə imzaladılar və bu, faktiki olaraq həmin layihənin icrasının başlanğıc mərhələsi oldu. Həmin Bəyannamədə biz açıq-aydın bəyan etdik ki, bu, strateji layihədir və layihənin icrası üçün səylərimizi əsirgəməyəcəyik. Mən 2011-ci ildə Bakıda bu sənədi birgə imzaladığımız Avropa Komissiyasının sabiq prezidenti cənab Barrozuya şəxsi minnətdarlığımı bildirmək istəyirəm. O, Azərbaycana iki dəfə səfər etmişdir. Həmçinin Azərbaycana iki dəfə səfər etmiş və sonuncu dəfə keçən ilin iyulunda təşrif buyurmuş, Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın gücləndirilməsində çox önəmli rol oynamış Avropa İttifaqı Şurasının sabiq prezidenti cənab Tuska da təşəkkürümü bildirmək istəyirəm. Həmçinin Avropa Komissiyasının sabiq komissarı cənab Ottingerə də çox minnətdar olduğumuzu qeyd etmək istəyirəm. O, bu layihənin icrasına yaxından cəlb edilmiş Avropa İttifaqının ilk komissarı olmuşdur. Həmçinin vitse-prezident Şevçoviçi qeyd etmək istəyirəm, o, indi vitse-prezident vəzifəsində işini davam etdirir, lakin digər sektorlara cəlb olunub. Amma Cənub Qaz Dəhlizi üzərində işləyərkən o, həmişə illik toplantılarda bizimlə birlikdə idi və əməkdaşlığımız konkret nəticələrə gətirib çıxarmışdır. Əlbəttə ki, mən bizə bu layihəni icra etməyə kömək göstərmiş beynəlxalq maliyyə institutlarını da qeyd etmək istəyirəm. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və digər banklar, həmçinin özəl banklar. Onların dəstəyi olmadan layihənin icrası mümkünsüz olardı. Başqa sözlə, biz çox nadir əməkdaşlıq formatını müəyyən etdik. Əlbəttə ki, Azərbaycan layihənin təşəbbüskarı, investoru və ev sahibi olaraq bu təşəbbüsə start verdi. Bu təşəbbüs bizim qonşularımız Türkiyə və Gürcüstan tərəfindən dəstəklənmişdir. Bu ölkələrlə biz əvvəllər enerji resurslarının nəqli və infrastrukturu üzrə mühüm layihələr icra etmişik. Sonra bu təşəbbüs yeni tərəfdaşlar - onlardan üçü Avropa İttifaqının üzvü olan İtaliya, Yunanıstan və Bolqarıstan, həmçinin Albaniya tərəfindən dəstəklənmişdir. Sonra isə yeni və potensial tərəfdaşlar - anlaşma memorandumlarını imzaladığımız ölkələr olan Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro bu təşəbbüsə qoşulmuşdur. Həmçinin bu gün bu masada biz Macarıstan, Rumıniya, Serbiya və Türkmənistanın nümayəndələrini görürük və onların burada iştirakı bu layihəyə maraqlarının olduğunu nümayiş etdirir. Hesab edirəm ki, qarşıdan gələn illərdə biz əməkdaşlığımızı gücləndirəcəyik və ola bilsin, bütün ölkələr arasında daha geniş əməkdaşlıq formatını

yaradacağıq və hətta, ola bilsin, burada iştirak etməyən ölkələr gələn ilin fevral ayında bizə qoşulacaq.

Fürsətdən istifadə edərək hamınızı gələn ilin fevralında qonağımız olaraq buraya dəvət etmək istəyirəm. Çünki hesab edirəm ki, TAP-ın tikintisinin tamamlanması bizim komanda işimizin sonu demək deyil. Düşünürəm ki, gələn ilin fevral ayında burada - Bakıda bir çox məsələləri nəzərdən keçirmək lazımdır. Sonra da biz gələcək üçün strategiyamızı hazırlayacağıq. Keçən ilin fevral ayında biz 2018-ci ilin iyununda Türkiyə bazarına çatan TANAP-ın hissəsinin uğurla tamamlanması barədə məlumat verdik. Bu dəfə isə biz qürur hissi ilə artıq Türkiyə-Yunanıstan sərhədinə çatmış TANAP-ın tamamlandığını bildiririk. Bu, bizim meqalayihəmizin icrasında çox mühüm mərhələdir. Bu gün Cənub Qaz Dəhlizi layihəsinin tamamlanması vəziyyətinin çox yüksək olduğu və sizə də yaxşı məlum olduğu kimi, TAP layihəsinin təqribən 92 faiz tamamlandığı bir vaxtda ümid edirəm ki, bu ilin sonuna kimi biz Cənub Qaz Dəhlizi layihəsinin açılışını qeyd edəcəyik.

Əlbəttə, bütün səylərimiz çox konkret nəticələr verdikdən sonra geriyə baxdıqda bizim qarşımızda - Azərbaycanın qarşısında müstəqillik illərimizin əvvəlində hansı çağırışların olduğunu hətta təsəvvürümüzə gətirmək belə çətindir və bir gün, 30 ildən daha az müddətdə ölkənin beynəlxalq tərəfdaşları ilə birlikdə belə böyük uğura nail olacağını və dünya ölkələrini maraqlandıran, dünya miqyasında layihələrin təşəbbüskarı olacağını, tərəfdaşları ilə birlikdə onları uğurla icra edəcəyini təsəvvür etmək mümkün deyildi. Bu layihələrin hər biri - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, "Azəri-Çıraq-Günəşli", "Şahdəniz", digər kəşfiyyat və hasilat layihələri, Cənub Qaz Dəhlizi, - mən, həmçinin Bakı-Tbilisi-Qars kimi nəqliyyat layihəsini də buraya əlavə edərdim, - onların hər biri strateji əhəmiyyətə malikdir. Onların hər biri ölkəmiz və xalqımız, bu layihədə iştirak edən bütün ölkələr üçün dayanıqlı, uğurlu və əminəm ki, çiçəklənən inkişafı təmin edəcəkdir.

Lakin 1991-ci ildə vəziyyət tamamilə fərqli idi. Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan müstəqilliyini bərpa etmişdi. Lakin əfsuslar olsun ki, ölkə öz xalqı üçün normal həyat şəraitini təmin edə bilməmişdir. Tam yoxsulluq var idi, iqtisadiyyat durğunluq vəziyyətində idi. Bir çox mürəkkəbliklərə və böyük itkilərə gətirib çıxaran xaotik bir vəziyyət var idi. 1992-ci ildə vəziyyət daha da pisləşdi. O zaman hərbi çevriliş nəticəsində Xalq Cəbhəsi hakimiyyətə gəldi. Deyərdim ki, o zaman fəlakət vaxtı idi. Çünki birillik hakimiyyət Azərbaycanı uçuruma gətirdi. İqtisadiyyat tamamilə məhv edilmişdi, geniş vüsət almış korrupsiya faktiki olaraq bizim yeni əldə etdiyimiz dövlətçiliyimizi pozan amil idi. İnflyasiyanın səviyyəsi 1000 faizdən artıq idi. Ermənistanın işğalı, 1 milyondan çox qaçqın və məcburi köçkün - hesab edirəm ki, o zaman biz adambaşına düşən qaçqınların sayına görə birinci yerdə idik. Ermənistan qüvvələrinin bizim ərazilərimizin bir hissəsini işğal etdiyi zaman Xalq Cəbhəsi hökuməti vətəndaş müharibəsinə, bu korrupsioner rejim azərbaycanlılar arasında müharibəyə başladı. Əldə edilmiş dövlətçilik yenidən risk altında idi. Azərbaycan xalqı bu antimilli rejimi məhv edəndə və Heydər Əliyevi Bakıya dəvət edəndə müdriklik və cəsarət nümayiş etdirdi. 1993-cü ilin oktyabrından, Heydər Əliyev prezident seçiləndən sonra Azərbaycan sabitlik, inkişaf və tərəqqi yoluna qədəm qoymağa başladı. Beləliklə, həmin vaxtdan bəri ölkəmiz siyasi, iqtisadi və sosial sabitlik vəziyyətində yaşayır. Regionumuzda və dünyadakı vəziyyətə nəzər yetirərkən, biz yeni münaqişələr, yeni qarşıdurmalar görürük. Əfsuslar olsun ki, münaqişələrin sayı artmaqdadır. Hesab edirəm ki, sabit və təhlükəsiz mühitdə yaşayış bizim siyasətimizin əsas nailiyyətlərindən biridir.

Əlbəttə ki, dövləti qurmaq üçün əsas yollardan biri güclü iqtisadiyyatın yaradılması idi və xarici investisiyalar olmadan bu mümkün deyildi. Ona görə də investisiya yatırmaq üçün xarici şirkətləri cəlb etməyimiz çox aydın idi, lakin haraya investisiya yatırılmalı idi? Xarici şirkətlərin maraq göstərə biləcəyi yeganə sahə neft sahəsi idi. Lakin Azərbaycan çox riskli ölkə hesab olunurdu, burada xarici şirkətlərin nümayəndələri özlərini çox narahat hiss edirdilər, onlar üçün hətta qala biləcəkləri normal otellər mövcud deyildi. Əlbəttə ki, bu vəziyyətdə investisiyaları cəlb etmək asan vəzifə deyildi. Lakin biz bunu edə bildik və 1994-cü ilin sentyabr ayında "Azəri-Çıraq-Günəşli" yataqları üzrə müqavilə Azərbaycan və xarici şirkətlərdən ibarət konsorsium tərəfindən imzalandı. Bu, bizim tərəqqiyə, çiçəklənməyə və inkişafa doğru yolumuzun əvvəli idi.

Ona görə də Azərbaycanın müasir tarixində neft amili həlledici rol oynayıb. Keçmişdə - Azərbaycan müstəqil olmadığı zaman, bildiyiniz kimi, ilk dəfə neft Bakıda çıxarılıb və dünyadakı ilk quyu bəlkə də buradan 10 kilometr məsafədə yerləşir. Lakin xalqımız bundan faydalana bilmirdi. Çünki Azərbaycanın müstəqil olmadığı zamanlarda 1 milyard tondan çox neft hasil edilmişdir. Əgər həmin vaxt Azərbaycan müstəqil olsa idi, biz bu gün dünyada ən varlı və çiçəklənən ölkələrdən biri ola bilərdik. Lakin həmin təbii sərvətlər Azərbaycan xalqının maraqlarına xidmət etmirdi. Yalnız biz müstəqil olduqdan sonra bu, baş verdi. Bu günün Azərbaycanı bunun aydın nümunəsidir. Ona görə də 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması təkcə kommersiya layihəsi deyildi. Bu, bizim üçün həyatda qalmaq layihəsi idi. Bu, bizim üçün dövlətçiliyimizi, iqtisadiyyatımızı gücləndirmək, insanlarımızın daha yaxşı həyatını təmin etmək layihəsi idi. Bunlar hamısı baş verdi. Bizim nümunəmizdə neft lənət deyildi. Neft uğur qazanmaq, güclü ölkə qurmaq, insanlara normal həyat vermək, sabitlik, təhlükəsizlik, qonşularımızla

harmoniyada yaşamaq üçün vasitələrdən, ən vacib vasitələrdən biri idi. Bundan sonra Azərbaycana maraq artdı və 1996-cı ildə "Şahdəniz" sazişi imzalandı. Həmin vaxt qaz ölkələrin enerji təhlükəsizliyində o qədər də vacib amil deyildi. Ona görə də "Şahdəniz" sazişinin imzalanması 1994-cü ildə "Azəri-Çıraq-Günəşli" kontraktının imzalanması qədər vacib hesab olunmurdu. Lakin bu günün reallıqları onu göstərir ki, onu vaxtında etmək necə də müdrik addım olub. Daha sonra 1997-ci ildə müqavilədə müəyyən edilmiş ərazidən ilk neft çıxarıldı. Bu baxımdan, düşünürəm ki, bu da rekord idi. Çünki adətən xarici investorlarla müqavilənin imzalanması ilə ilk karbohidrogen ehtiyatlarının çıxarılması arasında vaxt 3 ildən çox olur. Bizdə isə bu, 3 il oldu və bu, bizə imkan verdi ki, iqtisadiyyatın digər sektorlarına investisiya yatırmağa başlayaq. 2002-ci ildə əsas neft boru kəmərinin tikintisi ilə bağlı qərar artıq həyata keçirilmişdi. Çünki Bakı-Tbilisi-Ceyhan kəmərinin praktiki tikintisi başlamışdı. Bundan əvvəl bizim neftimizi Rusiya, Gürcüstan və Qara dəniz limanlarına çatdıran iki boru kəməri Bakı-Novorossiysk və Bakı–Supsa artıq istifadəyə verilmişdi. Ona görə də Bakı-Tbilisi-Ceyhanın 2006-cı ildə açılışı ölkəmizin inkişafında digər bir mərhələ idi. Çünki ondan sonra biz gəlirlər əldə etməyə, infrastruktura və insan kapitalına investisiya yatırmağa başladıq. 2007-ci ildə isə Azərbaycan ilk dəfə beynəlxalq qaz ixracatçısına çevrildi, Bakı-Tbilisi-Ərzurum qaz boru xətti açıldı. Biz hesab edirik ki, planlaşdırdıqlarımızın əksəriyyəti uğurla yerinə yetirildi. Lakin qarşımızda yeni çağırışlar var idi. Biz "Şahdəniz"in, "Şahdəniz-2" layihəsinin tam miqyasda işlənilməsinə başlamalı idik. Əsas qaz boru xətti sistemi olmadan bu, imkansız idi. Ona görə də konsorsium tərəfdaşlarla razılığa gəlmək, yekun investisiya qərarı vermək üçün bizi gözləyirdi və biz buna nail olduq. 2012-ci ildə Azərbaycan və Türkiyə Trans-Anadolu boru kəmərinin - TANAP-ın tikintisi ilə bağlı müqavilə imzaladı. Bundan əvvəl qeyd etdiyim kimi, biz 2011-ci ildə Avropa Komissiyası ilə birgə bəyannamə imzaladıq. Bundan sonra beynəlxalq konsorsium "Şahdəniz-2" ilə bağlı yekun investisiya qərarını verdi və uğurla aparılmış tikintiyə praktiki olaraq start verildi. 2018-ci ildə biz artıq Bakıda - Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılışını etdik və iyunda TANAP-la qaz Türkiyə bazarına çatdı. Artıq dediyim kimi, ötən ilin noyabrında TANAP Avropa sərhədlərinə çatdı. TAP-ın icrası artıq 92 faiz tamamlanıb. Beləliklə, bu, bizim hamımızın uğur hekayəsidir.

Düşünürəm ki, Məşvərət Şurası bu layihənin həyata keçirilməsində çox vacib rol oynayıb. Çünki biz hər il təkcə Bakıda görüşmürük. İl ərzində çoxsaylı görüşlər, məsləhətləşmələr keçirilir və layihəni irəliyə aparmaq üçün vacib qərarlar verilir. Azərbaycan bu müddət ərzində həm də etibarlı tranzit ölkəyə çevrildi. Təkcə təchizatçı deyil, həm də tranzit ölkəyə çevrildi. Xəzərin şərq sahillərində yerləşən ölkələr beynəlxalq bazarlara öz karbohidrogen ehtiyatlarını Azərbaycan ərazisindən nəql edirlər. Həmçinin Rusiya şirkətləri tərəfindən bu ölkənin Xəzər dənizi sektorundan çıxarılan neft bizim sistemimiz - Bakı-Tbilisi-Ceyhan vasitəsilə beynəlxalq bazarlara nəql edilir. Beləliklə, biz artıq tranzit ölkəyik. Tranzit ölkə kimi rolumuz əminəm ki, artacaq. Bu, həmçinin Azərbaycanın nəqliyyat sektorunun sürətli inkişafını stimullaşdırmışdır. Bu gün bu sektor çox müasir və səmərəlidir, Avrasiya nəqliyyat qovşağı kimi mövqelərimizi gücləndirməyə kömək edəcək. Xəzərdəki ən böyük donanma bizə məxsusdur, 200-dən çox gəmimiz var. Hazırda həm bizim, həm də konsorsium üçün zəruri gəmilər istehsal edən çox müasir gəmiqayırma zavodumuz var. Biz 6 beynəlxalq hava limanı tikmişik. Onlardan biri - Heydər Əliyev Beynəlxalq Aeroportu 5 ulduza layiq görülmüş hava limanıdır. Bu, dünyadakı beşulduzlu 10 hava limanından biridir. Biz dəmir yolu sistemimizi müasirləşdirmişik və bu proses davam etməkdədir. Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə əsasən, Azərbaycan dəmir yollarının səmərəliliyinə görə dünyada 12-ci yerdədir. Azərbaycan hava yollarının səmərəliliyinə görə dünyada 11-ci yerdədir. Yolların keyfiyyətinə görə biz dünyada 27-ci yerdəyik. İnfrastrukturun keyfiyyətinə görə isə 34-cü yerdəyik. Beləliklə, nəqliyyat sektorunun inkişafı çox sürətli olub.

Hazırda Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında iştirak edən və fəal investisiya yatıran yeganə ölkədir. Əslində, bu gün biz artıq ölkəmizdən keçən Şimal-Qərb nəqliyyat dəhlizi və hələ ki, istismara verilməyən, lakin potensialı olan Cənub-Qərb nəqliyyat dəhlizi barədə danışırıq. Həmçinin demək istərdim ki, "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" Azərbaycanın yeganə böyük sərvəti deyil. Baxmayaraq ki, onlar həqiqətən də böyük sərvətdir. Çünki Azərbaycanın və BP-nin müqavilənin müddətinin 2024-ci ildən 2050-ci ilə qədər uzadılması ilə bağlı müqaviləni imzalaması faktı onu göstərir ki, "Azəri-Çıraq-Günəşli"nin potensialı həqiqətən də böyükdür. Əgər əvvəllər yatağın neft potensialını 500 milyon ton ehtimal edirdiksə, hazırda bu, 1 milyard tondan qat-qat çoxdur. Əminəm, yeni texnologiyalar imkan verəcək ki, biz daha çox neft hasil edə bilək.

Bizim təsdiqlənmiş qaz ehtiyatlarımız 2,6 trilyon kubmetrdir. Proqnozlaşdırılan ehtiyatlar 3 trilyon kubmetr civarındadır. Ona görə də Azərbaycan 100 ildən çox müddət üçün karbohidrogen ehtiyatlarının etibarlı təchizatçısı olacaq. Bu gün ənənəvi tərəfdaşlarımızla, - "Şahdəniz", "Azəri-Çıraq-Günəşli" konsorsiumlarına rəhbərlik edən və strateji tərəfdaşımız olan BP ilə "D 2030" adlandırılan layihə üzərində çalışırıq. Bu, 2018-ci ildə qüvvəyə minib. BP ilə birlikdə biz "Şəfəq- Asiman" qaz yatağı üzərində çalışırıq və ilk quyu çox tezliklə qazılmalıdır. Biz BP ilə, həmçinin "Dayazsulu" adlandırılan layihə üzərində çalışırıq. Bu

layihənin aşkar edilməyən yataqlar baxımından böyük potensialı var, çünki o, sahilə çox yaxın yerləşir və bizim ənənəvi hasilatımız dənizdə aparılırdı. Gələn il biz "Total"la 300 milyard kubmetr qaz potensialı olan "Abşeron" yatağından qaz hasilatına başlayacağıq. SOCAR fəal şəkildə "Ümid-Babək" yatağının işlənilməsi ilə məşğuldur. Hazırda "Ümid" yatağının gündəlik hasilatı 3 milyon kubmetr qazdır. Bu yatağın potensialı 200 milyard kubmetrdən çoxdur. "Equinor"la birlikdə biz "Qarabağ yatağı" üzərində çalışırıq. Mənə verilən məlumata görə, kəşfiyyat quyusu çox tezliklə qazılmalıdır. Beləliklə, bunların hamısı Azərbaycanın gələcək potensialının göstəricisidir. Üstəgəl, "Azəri-Çıraq-Günəşli"də böyük həcmdə dərin qaz yataqları var və SOCAR ilə BP arasında bu istiqamətdə danışıqlar çox uğurla gedir. Ümid edirəm ki, tezliklə biz razılığa gələ biləcəyik. Beləliklə, bunlar hamısı, beynəlxalq bazarlarda iştirakımızın genişləndirilməsi, şaxələnmiş üsullarla karbohidrogen ehtiyatlarımızın ixracı və xalqımız üçün daha yaxşı şəraitin yaradılmasından ibarət olan strateji məqsədlərimizin həyata keçirilməsinə töhfə verəcək. Bu, bizim məqsədimizdir və dövlətçiliyimizin gücləndirilməsidir.

Biz, həmçinin sərvətlərin ədalətli bölgüsü üzərində fəal işləyirdik. Çünki neft hasil edən bir sıra ölkələrdə varlı və yoxsullar arasındakı fərq çox yüksəkdir. Ona görə də bizim əsas məqsədimiz dediyimiz kimi, nefti - "qara qızıl"ı insan kapitalına çevirmək olub. Son 16 ildə Azərbaycanda yoxsulluq səviyyəsinin təxminən 50 faizdən 4,8 faizə düşməsi faktı onu göstərir ki, iqtisadi inkişaf və neft-qaz layihələri insanlara daha yaxşı həyat sürməyə kömək edib. Bu müddət ərzində bizim iqtisadiyyatımız 3,4 dəfə artıb. Bu, dünya rekordudur. Son 16 ildə xarici ticarətimiz 6,4 dəfə artıb. Bizim birbaşa xarici borcumuz ümumi daxili məhsulun yalnız 17 faizini təşkil edir. Sərbəst konvertasiya olunan valyuta ehtiyatlarımız xarici borcdan 6 dəfə çoxdur. Başqa sözlə, biz xarici borcu istədiyimiz vaxt bağlaya bilərik.

Beləliklə, bunlar əsas iqtisadi məlumatlardır. Sonda onu əlavə etmək istərdim ki, Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı ən islahatçı 20 ölkədən biri hesab edir. Bu ilin yanvarında Azərbaycan ilə Davos Dünya İqtisadi Forumu arasında Bakıda "Davos Dördüncü Sənaye İnqilabı Mərkəzinin yaradılması haqqında niyyət protokolu" imzalandı. Bu, Qafqaz və Mərkəzi Asiyanı əhatə edəcək regional mərkəzdir. Azərbaycan ona görə seçildi ki, çünki bizim sənayemiz, qeyri-neft sənayemiz sürətlə inkişaf edir. Təkcə ötən il qeyri-neft sənayesində inkişaf təxminən 14-15 faiz idi. Bu il ümid edirik ki, artım daha çox və ya eyni səviyyədə olacaq.

Əlbəttə, neft və qaz layihələrindən danışarkən biz həmişə enerji təhlükəsizliyindən danışırıq. Azərbaycan özü və qonşuları üçün enerji təhlükəsizliyini təmin edən ölkədir. Enerji resurslarının şaxələndirilməsi ən vacib məsələlərdən biridir. Burada, əlbəttə, mənbələrin şaxələndirilməsi ən vacib məsələdir. Bizim nümunəmizdə isə mənbələrin və marşrutların şaxələndirilməsindən söhbət gedir. Həmçinin düşünürəm ki, bizim uğurumuzun əsas səbəblərdən biri maraqların balansıdır - hasilatçılar, tranzit ölkələr və istehlakçılar arasındakı balans. Əminəm ki, aramızdakı bu müsbət əməkdaşlıq formatı davam edəcək. Məşvərət Şurasına uğurlar arzu edirəm. Çox sağ olun.

## *Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında İlham Əliyevin nitqi*

Hörmətli deputatlar, hörmətli xanımlar və cənablar.

Altıncı çağırış Milli Məclis bu gün öz işinə başlayır. Bu münasibətlə bütün deputatları ürəkdən təbrik edirəm, onlara uğurlar arzulayıram.

İlk növbədə, beşinci çağırış Milli Məclisin deputatlarına göstərdikləri fəaliyyətə görə təşəkkürümü bildirirəm. Beşinci çağırış Milli Məclis, onun deputatları, rəhbərliyi ölkəmizin uğurlu inkişafı istiqamətində böyük rol oynamışlar, parlament tərəfindən qəbul edilmiş qanunlar bizim uğurlu inkişafımızın hüquqi bazasını gücləndirmişdir. Əminəm ki, altıncı çağırış Milli Məclis də uğurla fəaliyyət göstərəcək və beləliklə, ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfəsini verəcəkdir.

Fevralın 9-da keçirilmiş parlament seçkiləri ölkəmizin həyatında önəmli hadisə idi. Hər bir seçkilər önəmli hadisədir, bu seçkilərin xüsusiyyəti ondan ibarət idi ki, o, növbədənkənar seçkilər idi. Bu seçkilərin fevral ayında keçirilməsinin əsas səbəbi islahatları dərinləşdirmək, vaxt itirmədən yeni tərkibdə Milli Məclisin işini təşkil etməkdir. Hesab edirəm ki, seçki prosesi uğurla keçdi və bu dəfə seçkilərə çox böyük maraq göstərilmişdir. Bunun əyani sübutu odur ki, bu seçkilərdə 1300-dən çox namizəd iştirak etmişdir. Əlbəttə ki, bu namizədlər fəal iş apararaq öz fikirlərini, baxışlarını, ideyalarını seçicilərə azad şəkildə çatdıra bilmişlər. Bütün namizədlər üçün bərabər şərait yaradılmışdır, heç bir ayrı-seçkiliyə yol verilməmişdir. 1300-dən çox namizədin olması, əslində, seçkilərə onlar tərəfindən göstərilən etimadın təzahürüdür. Hesab edirəm ki, bütövlükdə seçki prosesi həm uğurla keçmişdir, həm də seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini əks etdirmişdir. Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan xalqı bu seçkilərdən məmnun qalmışdır və seçkilərdən sonra müşahidə olunan hadisələr bunu bir daha göstərir.

Biz seçkiləri müşahidə etmək üçün bir çox beynəlxalq təşkilatları, müşahidəçiləri dəvət etmişdik və onların mütləq əksəriyyəti seçkilərin həm hazırlıq

dövrünü, həm kampaniya dövrünü və həm də seçkilər gününü çox müsbət qiymətləndirmişdir. Demək olar ki, müşahidəçilərin mütləq əksəriyyəti seçkiləri demokratiyanın inkişafında növbəti uğurlu addım kimi qiymətləndirmişlər və bəyan etmişlər ki, Azərbaycan xalqı azad şəkildə öz seçki hüququndan istifadə edib və seçkilərin nəticələri real mənzərəni əks etdirir. Bunu bəyan edən beynəlxalq müşahidəçilər, əlbəttə ki, reallığı əks etdirir. Eyni zamanda, Azərbaycanda seçki prosesinə həmişə ikili standartlar prizmasından yanaşan və qeyri-obyektivliklə fərqlənən ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu və onun təsiri altında olan bəzi qurumlar bu dəfə də hansısa qüsurları qabardıb, onları böyük hadisə kimi təqdim etməyə çalışmışdılar. Heç bir seçki qüsursuz olmur. Bu dəfə də qüsurlar olub və 4 dairənin nəticələrinin ləğv edilməsi onu göstərir ki, bu qüsurların olmaması üçün Azərbaycan özü maraqlıdır. Seçkidən sonrakı proseslər bir daha onu göstərir ki, bizim əsas niyyətimiz ondan ibarət idi ki, Azərbaycan xalqı öz seçki hüququndan azad şəkildə istifadə etsin, bəyəndiyi namizədə səs versin, beləliklə, öz fikrini və öz siyasi iradəsini ifadə etsin. Bütövlükdə biz buna nail olmuşuq və seçkilərdən sonra artıq müşahidə olunan mənzərə onu göstərir ki, Azərbaycan xalqı seçkilərin nəticələri ilə razılaşıb. Bizim üçün əsas məsələ bundan ibarətdir.

Eyni zamanda, hesab edirəm ki, Avropa İttifaqı seçkilərin keçirilməsi ilə əlaqədar çox obyektiv bəyanat vermişdir. Bəyan etmişdir ki, Avropa İttifaqı yeni seçilmiş deputatlarla, Azərbaycan parlamenti ilə işləməyə hazırdır. Bu, əslində, seçkilərin tanınması deməkdir. O ki qaldı, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun rəyinə, bu dəfə görünür ki, ciddi hadisə baş vermədiyi üçün onlar da məcbur olub öz məruzəsini müəyyən dərəcədə balanslaşdırılmış formada təqdim etsinlər. Halbuki, biz çoxdan bilirik ki, onların məruzələri seçkilərdən əvvəl yazılır və harada yazılır, onu da biz bilirik. Bir də ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun son dövrdəki bəyanatları və bəzi ölkələrdə seçkilərə verilən qiymət bir daha onların nə dərəcədə qeyri-obyektiv, qərəzli olmasını göstərir və nümayiş etdirir ki, bu qurum siyasi sifariş icra edir. Son misal 2018-ci ildə Ermənistanda keçirilmiş parlament seçkiləri idi. Bildiyiniz kimi, bu seçkilər ovaxtkı hakim faşist respublikaçılar partiyası tərəfindən tam saxtalaşdırılmışdı, - mən bu partiyanı faşist adlandırıram, təkcə onların ideologiyasına, onların mahiyyətinə görə yox, eyni zamanda, onların embleminə baxmaq kifayətdir ki, hər kəs görsün, faşist Almaniyasının emblemi ilə onların emblemi fərqlənmir, - və Respublikaçılar partiyasının özünə 50 faizdən çox səs yazdırdığı bu saxtalaşdırılmış seçkilərə ATƏT Demokratik Təsisatlar və İnsan Haqları Bürosu müsbət rəy vermişdi. Bir sözlə, bu saxtakarlığa şərik çıxmışdır və ondan sonrakı hadisələr hər kəs üçün bəllidir. Ondan sonra bu qanunsuz və korrupsioner rejim devrildi, onları guya Ermənistan parlamentində təmsil edən deputatlar təslim oldu, əllərini qaldırdılar, boyunlarını bükdülər və kənara çəkildilər. Yeni parlament seçkiləri elan edildi və yeni parlament seçkilərində respublikaçıların faşist partiyası heç parlamentə girə bilmədi. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, 2 və ya 3 ay ondan əvvəl saxtalaşdırılmış seçkilərin nəticələri göz qabağındadır və bu nəticələrə, bu saxtakarlığa ATƏT Demokratik Təsisatlar və İnsan haqları Bürosu öz müsbət rəyini vermişdi. Yəni, sadəcə olaraq, bunu misal kimi gətirməklə bir daha demək istəyirəm ki, bu qurumun rəyi bizim üçün tamamilə əhəmiyyətsizdir. Çünki bu rəy yenə də siyasi sifariş əsasında yazılır və bu, elə bil ki, bəzi dövlətlərin aparıcı dairələrinin bir təzyiq üsuludur.

Bir məsələni - müşahidəçiləri də qeyd etmək istərdim. Bir məsələ də məni, sözün düzü, təəccübləndirdi. Deyə bilərəm ki, biz müşahidəçi qismində dəvət etdiyimiz bütün təşkilatları bu seçkilərdə görmüşük. Ancaq Avropa Parlamentinə biz dəvət göndərməmişik, çünki birincisi, biz bu qurumun üzvü deyilik, ikincisi, buna lüzum görmürük, təxminən eyni səbəblərə görə. Çünki Azərbaycana qarşı ədalətsiz qətnamələrin qəbul olunması sahəsində Avropa Parlamenti birincilik əldə edib. Onların da qətnamələri bizim üçün tamamilə əhəmiyyətsizdir. Ancaq bildirməliyəm ki, belə meyillər bizə qarşı bu gün də müşahidə olunur.

Beləliklə, biz bu təşkilatı dəvət etmirik. Onlar isə bəyanat yayırlar ki, bu seçkiləri müşahidə etməkdən imtina edirlər. Bu, ən yumşaq sözlə desəm, siyasi saxtakarlıqdır. Çünki biz sizi dəvət etmirik, biz sizi burada görmək istəmirik, biz sizə inanmırıq. Belə olan halda gəlib deyəsən ki, biz imtina edirik, bu, gülməlidir və təəccüblüdür.

Bir sözlə, seçkilər bir daha bizim siyasi xəttimizin xalq tərəfindən yüksək qiymətə layiq olduğunu göstərdi. Hesab edirəm ki, seçkilərdən sonrakı proseslər müsbət istiqamətdə inkişaf edəcək. Altıncı çağırış Milli Məclis çoxpartiyalı məclisdir. Bu, çox müsbət əlamətdir. Hesab edirəm ki, siyasi sistemin təkmilləşdirilməsi işində Milli Məclisin çox böyük rolu olacaqdır və olmalıdır. Bütün siyasi qüvvələr seçkilərdə iştirak etmişlər. Sadəcə olaraq, özünü müxalifət adlandıran marginal qruplaşma seçkiləri sanki boykot etmişdir. Bu da gülməlidir. Çünki Azərbaycan xalqı bu rüsvayçı qurumu çoxdan boykot edib və 27 ildir ki, onlar tarixin zibilxanasındadırlar. Belə olan halda boykot elan etmək həm gülməlidir, həm də təəccüblüdür.

Beləliklə, bütün siyasi qüvvələrin iştirak etdiyi seçkilər nəticəsində çoxpartiyalı parlament formalaşıb və hesab edirəm ki, bu, demokratiyanın inkişafında önəmli addımdır. Bildiyiniz kimi, Yeni Azərbaycan Partiyası yerlərin əksəriyyətini qazanıb. Təbii ki, Yeni Azərbaycan Partiyasının Milli Məclisdə sözü kifayət qədər qiymətlidir və təsirlidir. Yeni Azərbaycan Partiya-

sını təmsil edən deputatlar bu gün səhər mənim tapşırığımla yığışmışlar və önəmli qərarlar qəbul etmişlər. Mənim tövsiyəm o olmuşdur ki, partiyaların nümayəndələri altıncı çağırış Milli Məclisin rəhbərliyində və komitələrin rəhbərliyində təmsil olunsunlar. Bu günə qədər belə bir hal olmamışdır. Keçən çağırış Milli Məclisin komitələrinin rəhbərliyində, parlamentin rəhbərliyində müxalifət nümayəndələri təmsil olunmurdu. Ancaq mən hesab edirəm ki, Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün buna ehtiyac var. Əlbəttə, hesab edirəm ki, Yeni Azərbaycan Partiyası ümumi maraqlar naminə bu sahədə də çox düzgün addım atır.

Deyə bilərəm ki, həm altıncı çağırış Milli Məclis bu sahədə, əlbəttə, öz sözünü deyəcək, eyni zamanda, Prezident Administrasiyasının nümayəndələri son vaxtlar demək olar ki, bütün siyasi qüvvələrin rəhbərləri ilə görüşlər keçirir. Mənə bu görüşlər haqqında müntəzəm olaraq məruzə edilir. Bütövlükdə ilkin rəy müsbətdir. Hesab edirəm ki, indiki genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz. Bir partiya – hakim partiya təkbaşına siyasi dialoq apara bilməz. Çünki dialoq üçün tərəf-müqabillər lazımdır və ilkin təəssürat müsbətdir. Bu təşəbbüs heç bir şərt qoymadan həyata keçirilir. Ancaq yenə də marginallaşmış və bütün dayaqlarını tam itirmiş dərnək tipli qruplaşma bu görüşdən imtina etdi. İmtina edib, indi özü bilər. Hər halda, uduzan biz olmayacağıq. Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır. Hesab edirəm ki, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq. Hazırda siyasi partiyanı yaratmaq üçün heç bir ciddi meyar tələb olunmur. Hesab edirəm ki, bu praktikaya son qoyulmalıdır. Əgər biz doğrudan da istəyirik ki, Azərbaycanda çoxpartiyalı sistem inkişaf etsin, - biz bunu istəyirik və iqtidar partiyası kimi bunu təqdim edirik, - onda, əlbəttə, siyasi partiyaların fəaliyyəti üçün lazım olan bütün alətlər spektri mövcud olmalıdır. Bu, hesab edirəm ki, Milli Məclisin gündəliyində duran məsələlərdən biri olacaqdır.

Bir sözlə, həm seçkilər, həm də seçkilərdən sonra keçən dövr, iqtidar tərəfindən siyasi partiyalara yönəlmiş addımlar - bütün bunlar bizim mövcud siyasətimizin yeni mərhələsini əks etdirir. Bu, bizim islahatçı kursumuzu əks etdirir. Bildiyiniz kimi, islahatların yeni mərhələsi 2018-ci ilin prezident seçkilərindən sonra başlamışdır. Bu islahatları mən andiçmə mərasimində, bax, bu salonda bəyan etmişdim. Biz onları ardıcıl olaraq icra edirik və bu, həyatda öz əksini tapır. Bir də onu göstərir ki, həmişə olduğu kimi, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur.

İslahatlar həm konseptual xarakter, həm də struktur xarakteri daşıyır. Kadr islahatları aparılır. Son müddət ərzində Prezident Administrasiyası demək olar ki, tam yeni tərkibdə formalaşmışdır və yeni şöbələr yaradılmışdır. Bu şöbələrin yaradılması, eyni zamanda, dediyim sözləri bir daha təsdiqləyir, bizim niyyətimizi təsdiqləyir. Nazirlər Kabineti yeni tərkibdə formalaşmışdır. Hazırda Nazirlər Kabineti daha operativ və çevik fəaliyyət göstərir. Nazirliklərdə kadr islahatları aparılmışdır, yerli icra orqanlarında bu islahatlar aparılır və aparılacaq. Bəzi yerli icra orqanlarında müşahidə olunan biabırçı mənzərə bütün xalqımızı hiddətləndirir. Bundan sonra da təmizləmə işləri aparılacaqdır, həm mərkəzi, həm də yerli icra orqanlarında, bütün dövlət qurumlarında. Mən demişəm, bir daha demək istəyirəm ki, əgər kimsə dövlət işində işləmək istəyirsə, onun niyyəti də, əməlləri də təmiz olmalıdır. Əgər hansısa bir adam özündə bu xüsusiyyətləri görmürsə, o, dövlət işindən getsin, sabah bədbəxt olmasın.

Ona görə islahatların dərinləşməsi, əlbəttə ki, parlamentdən yan keçə bilməzdi. Hesab edirəm ki, yeni tərkibdə formalaşmış Milli Məclis islahatlara yeni təkan verəcəkdir. Deputatlar qarşısında böyük vəzifələr durur, ilk növbədə, qanunvericilik sahəsində. Çünki parlamentin əsas işi qanunvericilikdir. Mənim tövsiyəm ondan ibarətdir ki, nəinki kəmiyyətə, daha çox keyfiyyətə fikir verilsin. Çünki mövcud olan qanunların təkmilləşdirilməsinə baxmaq, onları təftiş etmək lazımdır. İcra strukturlarına mənim tərəfimdən göstəriş verilmişdir ki, qəbul edilmiş qanunların icrası nə yerdədir. Biz bir çox gözəl qanunlar qəbul edirik, eyni zamanda, Prezident tərəfindən bir çox önəmli sərəncamlar imzalanır, ancaq onların icrasına nəzarət lazımi səviyyədə deyil. Ona görə Prezident Administrasiyasında xüsusi şöbə yaradıldı. Hesab edirəm ki, Milli Məclis, deputatlar da bu işlərlə məşğul olmalıdırlar. Baxın, görün, qəbul olunmuş qanunlar icra edilir, yoxsa edilmir, bu qanunları pozurlar, yoxsa pozmurlar. Əgər belə hallar aşkarlanarsa, onda əlbəttə ki, ciddi cəza tədbirləri görülməlidir.

Ona görə hesab edirəm ki, bütövlükdə, - əlbəttə, bu, vaxt aparacaq, amma hər halda bunu etmək lazımdır, - biz qanunvericilik bazamızı təftiş etməliyik. Əgər lazım olarsa, onları qarşımızda duran mövcud hədəflərlə uzlaşdırmalıyıq. Çünki həyat yerində durmur, yeni çağırışlar, yeni problemlər üzə çıxır. Gözlənilmədən elə hadisələr baş verir ki, bütün dünya çaş-baş qalır. Ona görə bu qanunlar doqma deyil, onlara, əlbəttə ki, baxmaq lazımdır. Yeni qəbul ediləcək qanunların əsas mahiyyəti islahatları dərinləşdirməkdir. Ona görə qeyd etdiyim kimi, siyasi sistemin formalaşdırılması və gücləndirilməsi üçün qanunvericilik təşəbbüsləri, əlbəttə ki, lazım olacaq, iqtisadi islahatlarımızın dərinləşməsi işinə töhfə verən qanunlar qəbul edilməlidir.

Hesab edirəm ki, bizim milli dəyərlərimizlə, milli ənənəvi dəyərlərimizin qorunması ilə bağlı qanunvericilik bazası daha da geniş olmalıdır.

İnformasiya mühafizəsi ilə bağlı. Çünki biz informasiya dövründə yaşayırıq və saxta xəbərlər, yəni, “feyk nyus” adlandırılan xəbərlər əfsuslar olsun ki, geniş vüsət alır və istənilən yalan xəbər çox böyük fəsadlara gətirib çıxara bilər. Biz Azərbaycan olaraq bu şər-böhtan kampaniyaları ilə çoxdan üz-üzəyik. Bunun əsas səbəbi bizim müstəqil siyasətimizdir, heç kimin qarşısında baş əyməməyimizdir. Amma bunun fəsadları odur ki, bizə qarşı informasiya kampaniyası aparılır - qara piar kampaniyası, yalan, böhtan, uydurma, iftira üzərində qurulmuş kampaniya. Ona görə informasiya mühafizəsi ilə, informasiya təhlükəsizliyi ilə əlaqədar mütləq qanunvericilikdə yeni yanaşmalar, yeni fikirlər olmalıdır.

Sosial siyasətlə bağlı. Azərbaycan sosial dövlətdir və bizim atdığımız bütün addımlar bunu təsdiqləyir. Təkcə keçən il mənim təşəbbüsümlə reallaşan sosialyönümlü paket 4,2 milyon insanı əhatə edir. Minimum əməkhaqlarının, minimum pensiyaların müntəzəm olaraq qaldırılması, əlbəttə ki, böyük iqtisadi mənbə tələb edir və bunu da biz yaradırıq. Ölkəmizdə şəffaflıqla bağlı gedən proseslər, kölgə iqtisadiyyatına qarşı olan proseslər bizim iqtisadi imkanlarımızı gücləndirir, vergi bazasını genişləndirir, kölgə iqtisadiyyatına qarşı çox ciddi zərbə olur. Ona görə qanunvericilikdə bütün bu məsələlər, əlbəttə ki, diqqət mərkəzində olmalıdır.

Gənclər siyasəti ilə bağlı. Azərbaycan əhalisinin mütləq əksəriyyəti gənclərdir və Azərbaycanda demoqrafik mənzərə çox müsbətdir. Ona görə gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların fəal işə cəlb edilməsi, - misal üçün, könüllülər hərəkatı çərçivəsində, - vətənpərvərlik ruhunda tərbiyə edilməsi istiqamətində əlbəttə ki, qanunvericilikdə addımlar atılmalıdır. Gənclər milli ruhda tərbiyə almalıdırlar, xarici təsir altına düşməməlidirlər, xüsusilə indiki internet dövründə ki, istənilən yalan tezliklə yayılır və sonra elə bil həqiqət kimi təqdim olunur. Bu da bizə qarşı aparılan qeyri-təmiz siyasətin bir hissəsidir. Çünki sirr deyil ki, Azərbaycanda hazırda ictimai-siyasi vəziyyət çox sabitdir. Ölkəmizdə ictimai-siyasi sabitliyə təhlükə törədə biləcək heç bir amil mövcud deyil. Ona görə bu amilləri anti-Azərbaycan qüvvələr ölkəmizin xaricində yaratmaq istəyirlər. Burada özünü müxalifət adlandıran və tamamilə rüsvayçı halda guya fəaliyyətini davam etdirən qruplaşmadan artıq onların əli üzülüb, onlara heç inam da qalmayıb. Ona görə yeni beşinci kolonun yaradılması istiqamətində iş aparılır. Çünki indiki beşinci kolon öz sahiblərinin etimadını doğrultmur. Azərbaycanda çevriliş edə bilməyib, dırnaqarası inqilab edə bilməyib, xalqın dəstəyini qazana bilməyib, sadəcə, onlara müntəzəm olaraq verilən pulları mənimsəyib və beləliklə, öz havadarlarını pis günə qoyubdur. Odur ki, yeni beşinci kolon axtarışı gedir. Mən bütün siyasi qüvvələri bu məsələ ilə bağlı çox ciddi xəbərdar etmək istəyirəm ki, bu yol xəyanət yoludur, bu yola gedən xalq, dövlət qarşısında xəyanət edəcək. Ona görə bizim bütün daxili problemlərimiz Azərbaycanın daxilində həll olunmalıdır. Biz, öz daxili problemlərimizi, siyasi çəkişmələri xaricə ixrac etməməliyik. Birincisi, bunun heç bir əhəmiyyəti yoxdur. Çünki bu gün dünyada elə bir qüvvə yoxdur ki, hansısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin. Belə qüvvə yoxdur və nə qədər ki, mən prezidentəm, belə qüvvə olmayacaqdır. Ona görə bu, tamamilə mənasızdır. Azərbaycanı hansısa təzyiq altına salmaq cəhdləri, yaxud da ki, sanksiyalarla hədələmək – bütün bunların heç bir əhəmiyyəti yoxdur. Bu, iqtidara qarşı deyil, bu, dövlətə qarşı edilən cinayətdir və bunu heç kim unutmasın.

Son illər ərzində biz müxtəlif təzyiqlərlə, müxtəlif kampaniyalarla üzləşmişik, ancaq öz yolumuzdan dönməmişik. Ölkəmizin, xalqımızın əmin-amanlığı, təhlükəsizlik, sabitlik, xalqımızın rifahı, müstəqil siyasətimiz bizim üçün hər şeydən üstündür. Biz beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik, bəzi təşkilatların üzvüyük, o təşkilatlara könüllü şəkildə daxil olmuşuq, könüllü şəkildə də çıxa bilərik - əgər nə vaxtsa bu təşkilatlarda bizi nəsə qane etməsə, yaxud da bizə qarşı olan qərəzli münasibət o həddə çatsın ki, artıq bizim hövsələmiz tükənsin. Ona görə hesab edirəm ki, bütün siyasi qurumların nümayəndələri bu sahədə də çox diqqətli olmalıdırlar.

O ki qaldı, gənc nəslə, yenə də deyirəm, bizim gənc nəslimiz vətənpərvərdir, Vətənə bağlıdır, milli köklərə bağlıdır, elə də olmalıdır. Bizim gənclər, mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, milli ruhda tərbiyə almalıdırlar. Eyni zamanda, gənclərin mənəvi və fiziki hazırlığı üçün əlavə tədbirlər həyata keçirilməlidir. Hesab edirəm ki, Milli Məclis və onun müvafiq komitələri bu işlə məşğul olub konkret təkliflər irəli sürəcəklər.

Əlbəttə, deputatlara tövsiyəm odur ki, onlar seçildikləri dairələrdə fəal olsunlar, seçicilərlə daim təmasda olsunlar. İndi sirr deyil, əvvəlki dövrlərdə bəzi deputatlar seçicilərdən bir qədər, yaxud da ki, tamamilə uzaqlaşmışdılar. Heç öz dairələrinə baş çəkmirdilər, problemlərlə maraqlanmırdılar. Öz şəxsi problemlərini ortaya qoyurdular. Buna da son qoyulmalıdır. Əvvəllər belə hallar kifayət qədər çox olubdur. Öz qohumlarını vəzifələrə yerləşdirmək, hansısa torpaq sahələri əldə etmək, hansısa biznesə dəstək göstərmək və sair və ilaxır. Mən dərinə getmək istəmirəm. Ona görə yeni tərkibdə formalaşan Milli Məclis mənəvi cəhətdən qüsursuz olmalıdır. Çünki bizim əsas islahatlarımızın mahiyyəti də budur. Əgər bizim vətəndaşlar yaxından baxsalar görərlər ki, siyasi sahədə, struktur islahatları, kadr islahatları, vəzifələrə gətirilən kadrlar təmizdirlər. Yəni, onların arxasında heç bir, necə deyərlər, mənfi iz yoxdur. Milli Məclis də, onun deputatları da bu meyarlara cavab verməlidirlər. Sabah siz xalq qarşısında cavab verməli olacaqsınız. Ona görə siz seçildiyiniz dairələrin problemləri ilə daim maraqlanmalısınız,

seçicilərlə görüşməlisiniz, dairələrdə olmalısınız. Eyni zamanda, mövcud olan problemləri də üzə çıxarmalısınız. Bunları icra orqanlarının qarşısına çıxarmalısınız, mərkəzi icra orqanlarının diqqətinə çatdırmalısınız. Hesab edirəm ki, yeni tərkibdə formalaşan Milli Məclis bu sahədə də uğurlu fəaliyyət göstərəcək.

Beynəlxalq fəaliyyətlə bağlı demək istərdim ki, bizim deputatlar bir neçə beynəlxalq təşkilatda təmsil olunurlar. Əlbəttə ki, orada əvvəlki illərdə də fəallıq kifayət qədər yüksək idi. İndiki dövrdə daha da yüksək olmalıdır. Çünki biz Azərbaycan həqiqətlərini çatdırmalıyıq. Xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətləri çatdırmalıyıq. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Ona görə bizim arqumentlərə qarşı Ermənistan tərəfi heç bir ciddi arqument qoya bilmir, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiya. Bu, əslində, onların xislətidir. Onlar geniş şəbəkə çərçivəsində bəzi siyasətçiləri satın alırlar. Bu da heç kimə sirr deyil. Belə olan halda onların tarixi saxtakarlığına elə bil ki, bəraət qazandırılır. Ona görə bizim deputatlar bütün beynəlxalq təşkilatlarda tarixi həqiqətləri ortaya qoymalıdırlar. Mən Münxendə Kürəkçay sülh müqaviləsi haqqında deyəndən sonra bilirəm ki, Ermənistanda indi bu müqaviləni əzbərləyirlər. Orada açıq-aydın göstərilir ki, bu müqaviləni kim bağlayıb, nə vaxt bağlayıb və erməni xalqı haqqında orada ümumiyyətlə, söhbət belə getmir. Bir tərəfdən Rusiya generalı Sisianov, bir tərəfdən İbrahim xan, özü də rusca yazılmışdır İbrahim xan "Karabaxski Şuşinski". Bax, budur real tarix. XX əsrin əvvəllərində Rus imperiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir görəsən ki, orada indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Bunu demək lazımdır, o xəritələri gətirmək lazımdır. İşğal edilmiş indiki torpaqlarımızın xəritələrini gətirmək lazımdır. Bütün beynəlxalq təşkilatları, orada fəaliyyət göstərən nümayəndələri tanış etmək lazımdır. Eyni zamanda, müsəlman ölkələrinin parlamentlərinin nümayəndələri ilə görüşlər əsnasında mütləq ermənilər tərəfindən dağıdılmış məscidlərimizin şəkilləri göstərilməlidir. Mən bunu edirəm. Bir çox müsəlman ölkələrinin liderlərinə bu şəkilləri göstərirəm. Əgər bunu geniş siyasi elita görsə, onda əlbəttə ki, o ölkələrin rəhbərləri üçün Ermənistan rəhbərləri ilə ağız-ağıza öpüşmək ayıb olar. Biz bunu deməliyik, deməliyik ki, təkcə bizə qarşı yox, bütün müsəlman aləminə qarşı bu faşist rejim müharibə elan edib, bizim məscidlərimiz, tarixi abidələrimiz dağıdılıb. Amma biz bu məlumatı kifayət qədər çatdıra bilmirik. Ona görə bu, xüsusi bir istiqamət olmalıdır.

Əlbəttə ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan bütün təşkilatlarda biz fəal olmalıyıq, hücum diplomatiyası aparmalıyıq, çünki haqq-ədalət bizim tərəfimizdədir. Xocalı soyqırımı haqqında. Artıq 10-dan çox ölkənin parlamenti bunu rəsmən tanıyıb. Bu proses davam etdirilməlidir və deputatlar bu prosesdə fəal olmalıdırlar. Çünki bu qərarların qəbul edilməsində dövlət qurumları böyük dərəcədə əsas rol oynayırlar. Ona görə parlament fəal olmalıdır. Bu, artıq beynəlxalq münasibətlər çərçivəsində qəbul edilmiş faktdır. Ermənistan tərəfinin çox yersiz, yalançı, cılız cəhdləri Münxen Təhlükəsizlik Konfransında özünü göstərdi və bir daha onları ifşa etdi. Çünki onların bütün tarixi saxtakarlıqdır. Onlar tarixi Azərbaycan torpağında dövlət qurublar, əfsuslar olsun ki, bizim Azərbaycan Xalq Cümhuriyyətinin köməyi ilə. İndi bütün tarixi adlarımızı dəyişdirib bizim tariximizi, abidələrimizi özününküləşdirmək istəyirlər. Ona görə deputatlar daim bu məsələni qaldırmalıdırlar.

Bütövlükdə beynəlxalq təşkilatlar çərçivəsində bizim fəaliyyətimiz daha məqsədyönlü olmalıdır. Orada bizi təmsil edən deputatlar fəal olmalıdırlar, turist kimi getməməlidirlər, sonra hesabat verməlidirlər ki, nə iş görmüsən, kiminlə görüşmüsən, hansı məsələni qaldırmısan. Yoxsa bəzi hallarda bu, turist səfərlərini xatırladır. Getdik, görüşdük, oturduq, danışdıq, yedik, qayıtdıq. Özü də bəzi səfərlər, ümumiyyətlə, qəbuledilməzdir. Mən bu gün bu haqda çox danışmaq istəmirəm, amma bilirəm nə baş verir, hansı hadisələr baş verir. Ona görə biz beynəlxalq fəaliyyətimizin səmərəliliyini artırmalıyıq. O təşkilatlarda ki, bizə qarşı əsassız yanaşma var, bizə qarşı ittihamlar irəli sürülür, biz orada mübariz olmalıyıq. Yəni, onların qarşısında yaxşı olmaq yox, dövlət, xalq qarşısında yaxşı olmaq lazımdır. Hansısa məsələni kəskinləşdirmək istəmirəm bəhanəsi ilə kənara çəkilmək yox, əksinə, öz sözünü demək lazımdır. Qərəzli yanaşmanı ifşa etmək lazımdır. Necə ki, mən daim bunu edirəm və kifayət qədər faktlar var. Bunu demək üçün siyasətçi olmaq lazım deyil. Adi vətəndaş bunu görür televiziyada. Baxın, bizə demokratiyadan dərs vermək istəyənlər hansı cinayətlər törədirlər. Avropanın dırnaqarası demokratiya beşiyi sayılan ölkələrdə xalqın gözü qarşısında, dünyanın gözü qarşısında dinc nümayişçiləri vururlar, əzirlər, gözlərini çıxarırlar, öldürürlər, həbs edirlər. Jurnalistləri əsassız ittihamlarla həbs edirlər, çürüdürlər onları. Göz qabağındadır, dinc nümayişçiləri itlərlə, atlarla dağıdırlar. Bir ölkədə yox, iki ölkədə yox, demək olar ki, bu, indi bizi tənqid etmək istəyən məkanda kütləvi hal alıbdır. Müsəlman miqrantlara qarşı baxın, necə münasibət göstərilir. Onları XXI əsrdə itlərlə əzirlər, qəfəsə salırlar. Sonra isə qəfəsə yemək parçaları atırlar, heyvan kimi. Budurmu münasibət?!

İndi də bütün vasitələrdən istifadə edib onları əzmək fikrindədirlər. Bəs o miqrantlar haradan yarandı? Nə üçün onlar yarandı? Nəyə görə öz ölkələrini tərk etdilər? Kim onların ölkələrinə basqın etdi? Kim o ölkələri məhv etdi? Kim sabitliyi pozdu? Kim milyonlarla qaçqının yaranmasına səbəbkar oldu? Ona

görə kim bunu edibsə, qoy, onun acısını da çəksin. Nə üçün Türkiyə, bizim qardaş ölkəmiz 4 milyon qaçqını qəbul etməlidir, yedirməlidir, içirməlidir, milyardlarla pul xərcləməlidir? Bunları Türkiyəmi didərgin salıb? Yox. Onları didərgin salanlar gəlib onlara sahib çıxsınlar.

Bütün bunları demək lazımdır. Mən bu gün bu kürsüdən bunu deyirəm, açıq, heç kimdən çəkinmədən. Çünki mən haqlıyam və həqiqətə qarşı heç kim heç nə deyə bilməz. Əlbəttə, bax, görərsiniz, bu sözlərdən bir neçə gündən sonra yenə çirkin məqalələr çıxacaq, yenə hansısa bir qondarma təşkilat nəsə bəyanat verəcək ki, Azərbaycanda o, pisdir, bu, pisdir. Eybi yoxdur, qoy desinlər. Amma biz bu həqiqətləri deməsək, sabah bu, bizim başımızda sınacaq. Ona görə bunu deməliyik və siz də deməlisiniz. Mən bütün deputatlara deyirəm, heç bir sövdələşməyə getmək olmaz. Beynəlxalq təşkilatlarla işləmək lazımdır, biz də işləyirik, ancaq bizim maraqlarımız var və kifayət qədər arqumentlərimiz var. Ona görə mən sizi bu mübarizəyə çağırıram - həm Avropa Şurasında, həm ATƏT Parlament Assambleyasında, həm də bütün başqa təşkilatlarda. Beləliklə, hesab edirəm ki, bu istiqamətdə atılacaq addımlar bizim ölkəmizin mövqeyini daha da gücləndirəcək.

Əlbəttə ki, parlamentin iqtisadi sahədə görülən işlərlə bağlı rolu artmalıdır. Mən hesab edirəm ki, hökumət üzvləri də daha sıx təmasda olmalıdırlar, parlamentdə daim ünsiyyətdə olmalıdırlar, onlara suallar verilməlidir, onlar gördükləri işlər haqqında məruzə etməlidirlər, çıxış etməlidirlər və bunu da biz sistemə salmalıyıq. Çünki bu, həm hökumət üzvlərinin məsuliyyətini artıracaq, həm parlamentin rolu artacaq, - mən istəyirəm ki, Azərbaycanda parlamentin rolu və təsir imkanları artsın, - həm də ümumi işimizə müsbət təsir göstərəcək. Çünki məsuliyyət ən vacib məsələlərdən biridir. Məsuliyyət və nəzarət. Harada ki, bu, yoxdur, heç bir iş getməyəcək. Əksinə, çox mənfi mənzərə ilə üzləşə bilərik. Ona görə bu da bir nəzarət mexanizmi olmalıdır.

Mən indi vətəndaşlara ictimai nəzarət haqqında daim müraciət edirəm ki, bu proses yavaş gedir, hələ öyrəşməmişik. Hələ hesab edirik ki, bəli, orada hansısa icra başçısı bir ağadır, xandır, istədiyini edə bilər, insanları qul kimi işlədə bilər, insanlar da buna dözməlidirlər. Deyirəm ki, verin bu məlumatı, göndərin məktubları. İndi Prezident Administrasiyasında tam başqa bir vəziyyət var. O məktubları əvvəllər bəziləri gizlədirdilər. Əvvəllər kimdən ki, şikayət edirdilər, ona göndərirdilər. O da sonra həmin şikayətçini əzirdi orada. İndi buna son qoyulur. Düzdür, vaxt lazımdır, amma bu, artıq meyildir. Ona görə camaat da ictimai nəzarət işində daha fəal olmalıdır. Bir çox məsələlər haqqında məlumatı əvvəllər mən mətbuatdan alırdım, mənə çatmırdı, gizlədirdilər, malalayırdılar və demək olar ki, bu, böyük çətinliklər yaradırdı. Ona görə hesab edirəm ki, hökumət üzvləri ilə daim təmas olmalıdır, Prezident Administrasiyasında parlamentlə iş üzrə xüsusi şöbə yaradılıb. Bu, əlbəttə, bir daha onu göstərir ki, biz parlamentin işinə böyük əhəmiyyət veririk.

O ki qaldı, iqtisadi islahatlara, onlar da göz qabağındadır. Təkcə şəffaflıq hesabına keçən il biz büdcəyə proqnozdan 1 milyard manat çox vəsait daxil etdik və bu proses davam etdirilir. Bu ilin iki ayında vergi orqanları proqnozdan əlavə 181 milyon manat, gömrük orqanları isə 71 milyon manat çox vəsait yığıblar, məhz şəffaflığa görə, məhz kölgə iqtisadiyyatına qarşı mübarizəyə görə. Kölgə iqtisadiyyatına qarşı mübarizə öz nəticəsini verməkdədir və getdikcə kölgə iqtisadiyyatının əhatə dairəsi daralacaq. Əlbəttə, bunu bir gündə etmək mümkün deyil, bu, bir prosesdir, amma indi bütün hökumət qurumları səfərbər edilib və bu işdə fəaldırlar. İki ayın iqtisadi göstəriciləri də çox müsbətdir. Ümumi daxili məhsul 2,8 faiz artıb, qeyri-neft sektorunda isə yanvar-fevral aylarında 6,7 faiz artıb, biz əsas göstərici bunu sayırıq. Qeyri-neft sənaye istehsalı sahəsində artım 21,7 faizdir. Bu da son illər qeyri-neft sektorunun inkişafına görədir. Çünki neft sektorunda bu artım yoxdur, əksinə, hasilat düşür, qiymətlər də dünən tamamilə çökdü. Deməli, əhalinin gəlirləri iki ayda 9 faiz artıb, inflyasiya cəmi 2,8 faizdir. Bu tendensiya əminəm ki, gedəcək. Düzdür, indi koronavirusla bağlı dünyada gedən ajiotaj istər-istəməz bizə də təsir edir. Ancaq hesab edirəm ki, biz bütün səyləri ortaya qoyub bu vəziyyətdən də şərəflə çıxacağıq. Halbuki indi bir çox ölkələr bundan ciddi əziyyət çəkir. Azərbaycanda isə operativ qərargah yaradıldı və bu gün səhər mənə verilən məlumata görə, artıq xəstələnmiş vətəndaşların sağalması prosesi də uğurla gedir. Karantində olanlar da artıq karantin müddətini başa çatdırırlar və evlərə buraxılırlar. Yəni, vəziyyətə tam nəzarət edilir. Sərhədlərdə də vəziyyət nəzarət altındadır və yük maşınlarının Azərbaycan ərazisindən keçməsi üçün polis müşayiəti ilə xüsusi kolonlar formalaşdırılır. Yolda sürücülərə yemək verilir ki, onlar maşınlarından tez-tez çıxmasınlar. Yəni, bütün lazımi tədbirlər görülür.

Əlbəttə ki, bütövlükdə parlamentin sosial sahə ilə bağlı fəaliyyəti çox fəal olmalıdır. Bu sahə də bizim üçün prioritetdir, həmişə olduğu kimi. Qeyd etdiyim kimi, keçən il önəmli addımlar atıldı, bu il də davam etdiriləcək. Xüsusilə aztəminatlı ailələrin dövlət tərəfindən dəstəklənməsi işinə əlavə vəsait nəzərdə tutulur. Ünvanlı sosial yardımla əhatə olunan ailələrin sayı artmalıdır, mənim göstərişimlə orada müvafiq metodologiyada düzəlişlər edilir. Çünki əvvəlki metodologiya həqiqəti əks etdirmirdi və hər ailəyə verilən məbləğ də artmaqdadır. Məcburi köçkünlərə bu il 7 min mənzil veriləcək, bu, rekord göstəricidir. Şəhid ailələrinə 1500 mənzil veriləcək, bu da rekord göstəricidir. Keçən il 934 mənzil verilmişdi.

Dinlərarası, mədəniyyətlərarası dialoqun inkişafı ilə bağlı bizim parlamentin də rolu çox təsirli ola bilər.

Beynəlxalq tədbirlərdə və Azərbaycanda keçirilən bir çox tədbirlərdə bizim deputatlar fəal iştirak etməlidirlər. Biz öz dinimizə hörmət edirik. Dinimiz bizim üçün müqəddəsdir, eyni zamanda, başqalarının dinlərinə də hörmətlə yanaşmalıyıq . Keçən ilin sonlarında Bakıda keçirilmiş Dünya dini liderlərinin II Zirvə Görüşündə səslənən fikirlər onu göstərir ki, bu gün dünya miqyasında bəlkə də Azərbaycan qədər bu məsələ ilə ciddi məşğul olan və ciddi nəticələr hasil edən ikinci ölkə yoxdur. Həm müsəlman aləmi bizi dəstəkləyir, həm də İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dininə olan münasibətə görə bizi örnək kimi göstərir. Həm Rusiya Pravoslav kilsəsinin patriarxı Kirill Azərbaycanda gedən dinlərarası proseslərə müsbət qiymət verir, həm də Roma Papası Fransisk. Mən onunla artıq 3 dəfə görüşmüşəm, bir dəfə Bakıda, iki dəfə Vatikanda. Onun da Azərbaycanda bu sahədə aparılan işlərə verdiyi qiymət çox yüksəkdir. Yəni, bunu mən demirəm. Bunlar aparıcı ənənəvi dünya dini liderlərinin sözləridir. Əlbəttə ki, bu istiqamətdə addımlar atılacaq.

Bununla bərabər, biz Azərbaycanı müasir, dünyəvi dövlət kimi gücləndirməliyik. Dünyəvilik prinsipləri daha geniş bərqərar olmalıdır. Radikalizmə qarşı mübarizə daha geniş aparılmalıdır. Parlamentin rolu burada vacibdir. Ancaq sözün düzü, xatırlamıram ki, bu məsələ ilə bağlı əvvəlki dövrdə parlamentdə ciddi söhbət aparılsın. Biz aparmalıyıq. Heç bir bağlı mövzu olmamalıdır. Çünki bizim gələcəyimiz bundan asılıdır. Biz 20 il, 30 il, 50 il sonra hansı dövlətdə yaşamaq istəyirik. Biz bilirik və xalq da bilir. Amma bunu təmin etmək lazımdır. Əgər oturub nəyisə gözləyəcəyiksə, böyük problemlər yarana bilər. Ona görə biz bu sahədə də öz siyasətimizi təmin etməliyik, bizim siyasətimizin üstünlüyünü göstərməliyik və müqayisə etməliyik, çəkinmək lazım deyil. İstənilən tərəflə müqayisə etmək üçün kifayət qədər arqumentlərimiz var, təhlükəsizlik, əmin-amanlıq, inkişaf, sosial rifah, azadlıqlar. Ona görə parlament bu məsələlərlə ciddi məşğul olmalıdır və əminəm ki, olacaq.

Bu seçkilər bir daha göstərdi ki, bu gün Azərbaycan iqtidarı tərəfindən aparılan siyasi kursa alternativ yoxdur. Bunun da çox sadə səbəbləri var. Son illər ərzində ölkəmizdə müşahidə olunan inkişaf, əlbəttə ki, insanları inandırır. Azərbaycan xalqı əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşayır. Artıq 27 ilə yaxındır ki, biz sabitlik şəraitində yaşayırıq, görün, bizim ətrafımızda hansı proseslər baş vermişdir - müharibələr, qaçqınların axını, çevrilişlər, vətəndaş qarşıdurması, böhranlar. Ölkələr parçalandı, demək olar ki, bəzi ölkələrin coğrafi sərhədləri real vəziyyəti əks etdirmir, yəni, bu ölkələr, sadəcə olaraq, xəritələrdə öz suverenliyini və ərazi bütövlüyünü saxlayırlar. Əslində, çoxdan itiriblər, çoxdan bölünüblər tayfalara, təriqətlərə, müxtəlif bölgələrə. Bizim qonşuluğumuzda nə qədər acınacaqlı proseslər, inqilablar gedib. Hansı inqilab kimə xeyir gətirib? Ancaq ziyan, ancaq problemlər, ancaq qarşıdurma və bu qarşıdurmalar davam edir. İndi postsovet məkanına və Azərbaycanın vəziyyətinə baxın. Mən indi müqayisə edə bilmərəm, amma siz edə bilərsiniz. Deputatlar Prezidentin deyə bilmədiyi sözü deməlidir və əminəm ki, belə də olacaq.

Ona görə bu seçkilərin nəticələri görülmüş işlərin təzahürüdür. Çünki bu gün həm təhlükəsizlik, həm də sabitlik təmin edilir. Azərbaycan öz hərbi potensialını gücləndirib. 2016-2018-ci illərdə bizim hərbi qələbələrimiz hər bir Azərbaycan vətəndaşını fərəhləndirdi və bizim ordumuzun gücünü göstərdi. Təsadüfi deyil ki, bizim ordumuz dünyanın 50 ən güclü ordusu sırasındadır. Bizim beynəlxalq mövqelərimiz kifayət qədər möhkəmdir. Qoşulmama Hərəkatına üzv olmuşuq, ondan yeddi il keçmədi sədr seçildik, özü də 120 ölkənin dəstəyi ilə. Bilirsiniz ki, o ölkələr arasında ixtilaflar kifayət qədər kəskindir. İnanmıram ki, ikinci belə bir ölkə tapılsın ki, yekdil səslə bu təşkilata sədrlik etsin. BMT-dən sonra bu, ən böyük beynəlxalq təsisatdır. BMT-nin rəhbəri yoxdur, amma Qoşulmama Hərəkatının lideri var, bu da Azərbaycandır.

Biz keçən il Türk Şurasına sədrliyi öz üzərimizə götürmüşük və deyə bilərəm ki, türkdilli dövlətlərin əməkdaşlığı istiqamətində Azərbaycan çox önəmli rol oynayır. Bütün digər beynəlxalq təmaslarda biz Avropa İttifaqı ilə indi saziş üzərində işləyirik, Avropa İttifaqına üzv doqquz ölkə ilə strateji tərəfdaşlıq sənədlərimiz vardır. Bu da Avropa İttifaqına üzv ölkələrin üçdəbir hissəsidir. Qonşu ölkələrlə sağlam, işgüzar və dostluq əsasında qurulmuş münasibətlər var. Müsəlman aləmində böyük nüfuzumuz var. Budur, bizim beynəlxalq mövqelərimiz. Ona görə bizə hörmət edirlər, ona görə bizim sözümüz keçir və eyni zamanda, ona görə ki, bizim siyasətimiz birmənalıdır. Bizim siyasətimiz situativ deyil. Bizim siyasətimiz ədalətlidir və sözümüzlə əməlimiz arasında fərq yoxdur. Mən öz sözümü bütün auditoriyalarda deyirəm. Mənim üçün bir mövzu Azərbaycanda, bir mövzu xaricdə anlayışı yoxdur. Hər bir məsələ ilə bağlı mövqe var, mövqe olmalıdır və mən bu mövqeni müdafiə edirəm. Kimin xoşuna gəlir, gəlir, kimin xoşuna gəlmir, özü bilər. Bizi istəməyə bilərlər məhz bu hərəkətlərimizə görə, bu müstəqil siyasətimizə görə. Amma bizə hörmət edirlər. Bunu da mən dəfələrlə görmüşəm. Ona görə deputatlar da beynəlxalq təşkilatlarda elə fəaliyyət göstərməlidirlər ki, daim hörmət göstərilsin.

Son 16 il ərzində iqtisadi sahədə əldə edilmiş uğurların dünyada bərabəri yoxdur. Əgər varsa, desinlər, götürsünlər statistikaya baxsınlar, hansı ölkə 16 il ərzində öz iqtisadiyyatını 3,4 dəfə artıra bilib. Ondan sonra yoxsulluq, 50 faizə yaxın idi, indi 4,8 faizdir və daha da aşağı düşəcək. Çünki maaşlar, pensiyalar artır və artırılacaq, müavinətlər də həmçinin. Xarici borc ümumi daxili məhsulun 17 faizinə bərabərdir. Bu, çox aşağı göstəricidir. İnkişaf etmiş bəzi ölkələrdə bu, 100

faizdən çoxdur. Amma ondan daha önəmli məsələ odur ki, valyuta ehtiyatlarımız xarici borcumuzdan altı dəfə çoxdur. Yəni, istəsək, xarici borcumuzu bir ay ərzində sıfırlaya bilərik. Xarici borcu ödəmək üçün gərək bəzi ölkələrin valyuta ehtiyatları indikindən 50 dəfə artıq olsun.

Bu illər ərzində iqtisadi sahədə bu uğurlar əldə edilib, sosial sahədə maaşlar, pensiyalar on dəfədən çox artıb. Məcburi köçkünlərin, şəhid ailələrinin problemləri öz həllini tapır. Biz kosmik dövlətə çevrilmişik, üç peykimiz var. Dünya Astronavtika Konqresi 2022-ci ildə Bakıda keçiriləcək və bu haqqı biz gərgin mübarizədə qazanmışıq. Bu müsabiqədə 4 şəhər iştirak edirdi - Dehli, Rio-de-Janeyro, Sinqapur və Bakı. Biz bunu qazandıq. Nəyə görə? Çünki orada da bizə hörmət edirlər.

Mən belə faktları çox sadalaya bilərəm. Təkcə enerji siyasətimizə baxmaq kifayətdir ki, xalqımız, dövlətimiz və qitə üçün nələr etdiyimizi görək. Neft-qaz kəmərləri - indi Cənub Qaz Dəhlizi başa çatmaq üzrədir. Biz bunu çox çətin geosiyasi vəziyyətdə minimum itkilərlə etdik, demək olar ki, sıfır itkilərlə. Nəinki bunu etdik, hətta yeddi ölkə arasında uzunmüddətli beynəlxalq əməkdaşlıq formatı yaratdıq. Bu ölkələr artıq təbii dostlardır, müttəfiq olmasalar da, təbii dostlardır. Ona görə bu sahədə də bizim rolumuz danılmazdır və biz bu sahədə liderik.

Nəqliyyat sahəsində. Biz açıq dənizə çıxışı olmayan ölkəni nəqliyyat mərkəzinə çevirmişik. Belə faktlar çoxdur və hər biri seçkilərə müsbət təsir göstərmişdir. Parlamentə seçilmiş deputatların mütləq əksəriyyəti bu müsbət meyillərə düzgün qiymət verir. Ola bilər ki, onların qələbəsi, o cümlədən bu amildən də asılıdır.

Bu gün biz müstəqil ölkə kimi yaşayırıq, müstəqil siyasət aparırıq, heç kimin işinə qarışmırıq, heç kimə də imkan vermirik ki, bizim işimizə qarışsın. Əminəm ki, biz bundan sonra da bu müstəqillik və inkişaf yolu ilə gedəcəyik. Əminəm ki, Azərbaycan parlamenti bu işdə fəal olacaq. Bir daha sizi təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Sağ olun.

## *İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki*

-Əziz həmvətənlər, mən sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzulayıram. Novruz bayramı bizim milli bayramımızdır, milli sərvətimizdir. Əsrlərboyu Azərbaycan xalqı bu gözəl bayramı qeyd edir.

Bu il koronavirusa görə kütləvi tədbirlərin keçirilməsi mümkün deyil. Əminəm ki, Azərbaycan xalqı bu vəziyyəti yaxşı anlayır. Azərbaycan dövləti tərəfindən görülən bütün tədbirlər xalqın sağlamlığını, ölkəmizin təhlükəsizliyini təmin etmək üçündür. Ona görə xahiş edirəm ki, hər bir vətəndaş öz məsuliyyətini dərk etsin və yaşlı nəslin nümayəndələrinə xüsusi diqqət göstərilməlidir. Yaşlı nəslin nümayəndələrinə Azərbaycan cəmiyyətində həmişə böyük hörmət göstərilir. Mən bu mövzu ilə bağlı fikirlərimi kifayət qədər geniş şəkildə bildirmişdim və bir daha demək istəyirəm ki, bu, bizim cəmiyyətimizin əsas sütunlarından biridir. Bizim ənənələrimiz, milli dəyərlərimiz, yaşlı nəslin nümayəndələrinə hörmət və diqqət milli xüsusiyyətimizdir və biz bu dəyərləri bundan sonra da qorumalıyıq. Ancaq indiki şəraitdə yaşlı nəslin nümayəndələrinə xüsusi diqqət göstərilməlidir. Onlara hörmət dildə, sözdə yox, əməldə göstərilməlidir. Çünki bu xəstəliklə bağlı ən ağır fəsadlar məhz yaşlı nəslin nümayəndələrində müşahidə olunur. Əminəm ki, biz dünyanı bürümüş, pandemiya halına çevrilmiş bu xəstəliyə qarşı birlikdə mübarizə aparacağıq və bu mübarizə öz nəticəsini verəcəkdir.

İlin əvvəlindən görülmüş işlər ölkəmizin uğurlu inkişafını bir daha təsdiqləyir, Azərbaycan müasirləşir, yeniləşir. Azərbaycanda aparılan islahatlar demək olar ki, bütün sahələri əhatə edir. 2019-cu ildə aparılan islahatlar iqtisadi sahədə böyük dəyişikliklərə səbəb oldu. Məhz şəffaflıq prinsiplərinin tətbiqi nəticəsində dövlət büdcəsinə 1 milyard manatdan çox vəsait daxil edildi və bu vəsait son qəpiyinə qədər insanların sosial problemlərinin həllinə istiqamətləndirildi. Bildiyiniz kimi, keçən il Azərbaycanın 4,2 milyon vətəndaşı dövlət tərəfindən görülmüş tədbirlər nəticəsində öz maddi vəziyyətini yaxşılaşdırdı, maaşlar, pensiyalar, sosial müavinətlər əhəmiyyətli dərəcədə artırıldı. Bu, bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir və bizim bütün iqtisadi imkanlarımızın əsas istiqaməti vətəndaşların sosial təminatıdır. Bu istiqamətdə bundan sonra da işlər aparılacaq. 2020-ci ilin ilk iki ayı onu göstərir ki, bu istiqamətdə əlavə tədbirlərin görülməsi mümkün olacaqdır.

İlin əvvəlindən ölkəmizdə proseslər müsbət istiqamətdə gedir, Azərbaycanda sabitlik, təhlükəsizlik təmin edilir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır, xalq-iqtidar birliyidir, vəhdətidir. Bu birlik özünü bir daha parlament seçkilərində göstərmişdir. Fevralın 9-da keçirilmiş parlament seçkiləri ölkəmizin həyatında önəmli hadisədir. Parlament seçkiləri ölkəmizdə aparılan siyasətin xalq tərəfindən yüksək qiymətləndirildiyini bir daha ifadə etdi. Parlament seçkilərində Azərbaycan xalqının iradəsi öz əksini tapdı və Azərbaycan cəmiyyəti bu seçkilərin nəticələrindən məmnun qaldı.

Yeni parlamentin qarşısında duran vəzifələr haqqında mən parlamentin ilk iclasında öz sözlərimi demişəm. Əlavə etmək istərdim ki, parlamentin tərkibi yenidən formalaşdı və ilk dəfə olaraq parlamentin rəhbərliyində müxalifət nümayəndələri də yer aldı. Eyni zamanda, parlament komitələrinin rəhbərliyində də

müxalifət nümayəndələri təmsil olunur. Bu, ölkəmizin tarixində ilk dəfə baş verən hadisədir və bir daha onu göstərir ki, bizim niyyətimiz çoxpartiyalı sistemin təkmilləşdirilməsidir. Sirr deyil ki, parlamentdə səslərin çoxluğu Yeni Azərbaycan Partiyasına məxsusdur. Əlbəttə, Yeni Azərbaycan Partiyasının razılığı olmadan bu islahatlar aparıla bilməzdi. Bu, onu göstərir ki, bu istiqamətdə atılan addımlar ölkəmizin gələcək uğurlu inkişafına müsbət təsir edəcək və ölkəmizdə siyasi sistemin yeni konfiqurasiyası formalaşır.

Eyni zamanda, Prezident Administrasiyası bütün siyasi partiyalara dialoq təklifi etmişdir. Bu da çox ciddi addımdır. Sirr deyil ki, bu gün Azərbaycan iqtidarı tarixdə olmadığı qədər güclüdür. Biz hesab edirik ki, güclü ilk addımı atmalıdır, ilk təklifi verməlidir və belə demək mümkündürsə, yolunu azmışlara da yol göstərməlidir. Yəni, biz bunu etdik və şadam ki, siyasi spektrin mütləq əksəriyyəti bu təşəbbüsə müsbət reaksiya vermişdir, faktiki olaraq siyasi dialoq artıq başlamışdır. Əminəm ki, bunun nəticələri də xalqımız üçün və ölkəmizin gələcək inkişafı üçün müsbət olacaqdır. O ki qaldı, bu dialoqdan imtina edən qruplaşmalara, onlar özləri bilərlər. Hər halda mən demişəm, bir daha demək istəyirəm, uduzan tərəf biz olmayacağıq və yeni siyasi konfiqurasiyada satqın, xain beşinci kolonun nümayəndələrinə yer olmayacaq. Azərbaycan təmizlənir, o cümlədən satqınlardan, xainlərdən, beşinci kolonun nümayəndələrindən təmizlənir və təmizlənməlidir. Eyni zamanda, Azərbaycan xalqı yaxşı görür ki, xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparılır, korrupsiyaya, rüşvətxorluğa qarşı bundan sonra da mübarizə aparılacaqdır. Son hadisələr, bu istiqamətdə atılan addımlar bunu bir daha göstərir.

İlin əvvəlindən bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi. Mənim xarici tərəfdaşlarımla ikitərəfli formatda keçirilmiş görüşlər bir daha onu göstərdi ki, Azərbaycanın dünyada çox böyük hörməti var və bizim siyasətimizə böyük rəğbət var. Eyni zamanda, beynəlxalq tədbirlərdə mənim iştirakım ölkəmizin mövqelərini daha da gücləndirdi. Bildiyiniz kimi, Davos Ümumdünya İqtisadi Forumu dünyanın bir nömrəli siyasi və iqtisadi forumudur. Dünyanın siyasi və biznes elitası bu forumda iştirak edir. Mən bu forumda ardıcıl olaraq uzun illərdir ki, iştirak edirəm və hər bir iştirak ölkəmizə yeni dividendlər gətirir, həm siyasi, həm iqtisadi. Bu dəfə bir daha əmin oldum ki, Azərbaycanda gedən proseslərə böyük maraq var. Bütün tərəfmüqabillərim demək olar bir məsələni qeyd edirdilər ki, Azərbaycan sabit ölkədir və bu gün qeyri-sabit bölgədə, qeyri-sabit dünyada sabitliyi qorumaq böyük məharət və siyasi səriştə tələb edir. Sabitliyin mövcudluğuna görə Azərbaycana sərmayə qoyuluşu da təmin edilir. Keçən il 13,5 milyard dollar xarici sərmayə qoyulubdur, bu ilin yanvar ayında bərpaolunan enerji növlərinin yaradılmasına yönəlmiş 440 milyon dollar xarici sərmayənin qoyuluşu ilə əlaqədar müvafiq sənədlər imzalanmışdır. Ümumiyyətlə, Davos İqtisadi Forumunda bizim iştirakımız çox uğurlu olub. Davos Ümumdünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı üzrə regional mərkəzi məhz Azərbaycanda yaradılacaq. Bu mərkəz Qafqaz-Orta Asiya məkanını əhatə edəcəkdir və müvafiq sənəd də imzalanmışdır. Bu, bir daha bizim güclü mövqelərimizi ifadə edir.

Eyni zamanda, hesab edirəm ki, dünyada təhlükəsizlik sahəsində digər bir nömrəli konfrans Münxen Təhlükəsizlik Konfransıdır. Bu konfransda da mən müntəzəm olaraq iştirak edirəm və hər dəfə Azərbaycan həqiqətlərini geniş auditoriyaya çatdırıram. O cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini, haqlı olduğunu və tarixi aspektləri çatdırıram. Bu dəfə isə daha gözəl fürsət yaranmışdır, Azərbaycan xalqının və dünyanın gözü qarşısında Azərbaycan öz üstünlüyünü bir daha ifadə etmişdir. Tarixi həqiqət, beynəlxalq hüququn normaları bizim tərəfimizdədir. Münxen Təhlükəsizlik Konfransında Ermənistanın və dünya erməniliyinin uzun illər ərzində apardığı təbliğata sarsıdıcı zərbə vurulmuşdur. Demək olar ki, onların təbliğatı sübutlar, tarixi faktlar, beynəlxalq təşkilatların qəbul etdikləri qətnamələr və qərarlar əsasında darmadağın edilmişdir. Hesab edirəm ki, bu sarsıdıcı zərbə erməni təbliğatının sonudur. Münxen Təhlükəsizlik Konfransının auditoriyası kifayət qədər genişdir. Azərbaycan və Ermənistan rəhbərlərinin canlı debatının ilk dəfə keçirildiyini nəzərə alsaq, təsəvvür etmək çətin deyil ki, bu debatlara çox böyük maraq var idi və milyonlarla insan bu debatları həm canlı formatda, həm də ondan sonra izləyə bilmişdir. Ona görə bizim haqq işimiz bir daha öz təsdiqini tapdı və bütün dünya bir daha gördü ki, - mən bunu Valday Forumunda da canlı efirdə demişdim, - Qarabağ Azərbaycandır və nida işarəsi.

Bu il iqtisadi sahədə əldə edilmiş uğurlar əlbəttə ki, bizi çox sevindirir. İki ayda ümumi daxili məhsul 2,8 faiz artmışdır. Qeyri-neft sektorunda iqtisadiyyat 6,7 faiz artmışdır. Qeyri-neft sektorunda sənaye istehsalı 21,7 faiz artmışdır. Əhalinin pul gəlirləri 9 faiz artmışdır, inflyasiya isə cəmi 2,8 faizdir.

Yenə də islahatlar hesabına və şəffaflıq tədbirlərinin görülməsi nəticəsində iki ayda dövlət büdcəsinə proqnozdan əlavə 252 milyon manat daxil edilmişdir. Bu, bir daha onu göstərir ki, şəffaflıqla bağlı görülən tədbirlər, kölgə iqtisadiyyatına qarşı aparılan siyasət öz nəticəsini verməkdədir. Əminəm ki, bu müsbət meyil ilin sonuna qədər davam edəcək və Azərbaycan iqtisadiyyatının hazırda kölgədə olan hissəsi kölgədən çıxacaq. Burada təkcə dövlət orqanlarının fəaliyyəti kifayət deyil. Biznes dairələri də öz məsuliyyətini dərk etməli və əyri yola getməməlidirlər, öz fəaliyyətini kölgədən çıxarmalıdırlar və dövlətin vergisini son qəpiyinə qədər ödəməlidirlər. Çünki bilməlidirlər ki, bu

vergilər insanların maaşlarının, pensiyalarının artırılmasına istiqamətləndirilir.

Bu il sosial sahədə böyük işlərin görülməsi nəzərdə tutulur. İlin əvvəlindən üç böyük xəstəxana mənim iştirakımla açılmışdır - Goranboy, Şəmkir və Qazax şəhərlərində. Yenə də xəstəxanaların açılması nəzərdə tutulur və sosial infrastrukturun yaradılması istiqamətində işlər aparılacaqdır. Baxmayaraq ki, dünya bazarlarında neftin qiyməti kəskin aşağı düşdü, bizim bütün sosial öhdəliklərimiz təmin ediləcək. Baxmayaraq ki, keçən il görülmüş tədbirlər və qəbul edilmiş qərarlar nəticəsində bizim sosial sahəyə nəzərdə tutulan büdcə xərclərimiz kifayət qədər artmışdır, ancaq bütün sosial öhdəliklər yerinə yetiriləcək və bütün sosial infrastruktur layihələri tam icra ediləcək.

Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün nəzərdə tutulmuş 7 min mənzil tikilib istifadəyə veriləcək. Şəhid ailələri üçün nəzərdə tutulan 1500 mənzil tikilib istifadəyə veriləcəkdir. Bu məsələ ilə bağlı heç bir şübhə olmamalıdır. Əminəm ki, biz 2020-ci ili də uğurla başa vuracağıq. Halbuki bu gün bir çox ölkələr böyük çətinliklərlə üzləşiblər. Bu ölkələrdə həm siyasi sabitlik pozulur, həm iqtisadi böhran yaşanır və o cümlədən neft hasil edən ölkələrin bəziləri artıq neftin qiymətinin düşməsindən əziyyət çəkməyə başlayıblar. Koronavirus xəstəliyi əlbəttə ki, vəziyyəti çətinləşdirir. Bütün bunlara baxmayaraq, hesab edirəm ki, Azərbaycan bu sınaqdan da şərəflə və az itkilərlə çıxacaq. Buna nail olmaq üçün biz hamımız həmrəylik göstərməliyik, məsuliyyət göstərməliyik, birlik göstərməliyik. Dünya üçün bu çətin dövrdə həm xalqımızı, həm dövlətimizi qorumaq üçün xalqımızın ən ülvi xüsusiyyətlərini bir daha göstərməliyik və bunu dünyaya təqdim etməliyik.

Bildiyiniz kimi, koronavirus xəstəliyi dünya gündəliyinin bir nömrəli məsələsidir. Artıq Ümumdünya Səhiyyə Təşkilatı pandemiya elan edibdir və bəyan edibdir ki, pandemiyanın mərkəzi Avropa məkanıdır. Bu xəstəliyin geniş yayılması onu göstərir ki, hətta inkişaf etmiş ölkələr onun qarşısını ala bilmirlər. Bu xəstəliyə qarşı heç bir dərman, vaksin yoxdur və nə vaxt olacaq, heç kim bilmir. Ona görə bu xəstəliyin məhdudlaşdırılması və yayılmaması üçün biz bəri başdan, ən ilk günlərdən praktik addımlar atmağa başlamışıq. Mənim göstərişimlə yanvarın 24-dən Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Bu qərargah 24 saat işləyir, bütün dövlət qurumlarının fəaliyyətinə rəhbərlik edir, xəstəliklə bağlı bütün işləri nəzarətdə saxlayır və bu işləri əlaqələndirir. Ciddi tədbirlər görülmüşdür. Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə yanvarın 24-dən yeni əməkdaşlıq formatı çərçivəsində işləməyə başlamışıq. Onları ölkəmizə dəvət etmişik. Onların tövsiyələrinə riayət edərək ölkəmizdə çox ciddi tədbirlər görmüşük. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri mart ayında Azərbaycana gələrək, vəziyyətlə tanış olaraq bildirdilər ki, Azərbaycan rəhbərliyi koronavirusun yayılmaması üçün çox önəmli və təsirli tədbirlər görür. Bu, həqiqətən də belədir.

Bildiyiniz kimi, bütün uşaq bağçaları, məktəblər, ali məktəblər bağlandı. Kütləvi tədbirlərin keçirilməsi qadağan edildi. Martın 14-dən xüsusi davranış qaydaları tətbiq edildi və ictimaiyyətə bu məsələ ilə bağlı kifayət qədər məlumat verilir. Xəstəliklə, onun yayılması və nəticələri ilə bağlı mənim göstərişimlə vətəndaşlara müntəzəm olaraq bütün məlumatlar verilir. Karantin tədbirləri görülür, yeni laboratoriyalar alınıbdır. Qısa müddət ərzində ən müasir dörd laboratoriya alınıb gətirilib və hazırda bizim laboratoriyalarımızın sayı 10-a çatıb. Lazım olarsa, əlavə laboratoriyalar alınacaqdır. On xəstəxana xüsusi rejimdə işləyir. Bu xəstəxanalar ölkəmizin müxtəlif bölgələrində yerləşir, o cümlədən Bakı şəhərində. Bu xəstəxanalarda həm xəstələrin müalicəsi aparılır və həm də karantin tədbirləri görülür.

Bir çox ölkələrlə gediş-gəliş artıq məhdudlaşdırıldı, demək olar ki, tamamilə aradan qaldırıldı. Bir çox aviareyslər ləğv edildi, sərhədlərimizin bağlanması istiqamətində əməli addımlar atıldı, elektron vizaların verilməsi dayandırıldı və xəstəliyin geniş yayıldığı ölkələrdən Azərbaycana insanların gəlməsi qadağan edildi. Bütün bu tədbirlər əminəm ki, öz müsbət təsirini göstərəcək. Bizim əsas məqsədimiz bu xəstəliyin Azərbaycanda yayılmamasıdır. Buna nail olmaq üçün təkcə dövlət tərəfindən görülən tədbirlər kifayət deyil. Dövlət nə lazımsa edir, vəsait ayırır. Martın əvvəlində bu xəstəliklə mübarizə üçün 10 milyon manat vəsait ayrıldı. Bu gün bəyan edirəm, Prezidentin ehtiyat fondundan əlavə 20 milyon manat ayrılacaq ki, həm bu xəstəliyə qarşı mübarizə daha təsirli olsun, eyni zamanda, koronavirus xəstələrinə qulluq edən həkimlərin maddi təminatı daha da yüksək olsun. Biz bunu da nəzərə alırıq. Mən bir daha Azərbaycan həkimlərinə öz təşəkkürümü bildirmək istəyirəm. Onlar bu xəstəliyə qarşı fədakarcasına mübarizə aparırlar, öz sağlamlıqlarını risk altına atırlar. Ancaq yüksək məsuliyyət, içdikləri and əlbəttə ki, onları bu işlərə sövq edir. Xəstələr də həkimlərə böyük diqqətlə yanaşmalıdırlar. Bu, indiyədək dünyada görünməmiş xəstəlikdir və bu xəstəliyin yayılması templəri də bizə bəlli deyil. İnkişaf etmiş bir neçə ölkədə artıq bu xəstəlik bir-iki gün ərzində geniş vüsət alır. Bu, onu göstərir ki, xəstəliyin sanki akkumulyasiya dövrü vardır, ondan sonra bu xəstəlik geniş yayılır. Bu xəstəliyin yayılmaması üçün ilk növbədə, bütün dövlət tədbirləri ilə yanaşı, vətəndaşlar da məsuliyyətli olmalıdırlar. Əgər kimsə özündə xəstəlik simptomu hiss edərsə, dərhal həkimlərə müraciət etməlidir, dərhal özünü təcrid etməlidir, kütləvi yerlərə getməməlidir, lazım olmadan kütləvi tədbirlərdə iştirak etməməlidir. Bu tədbirlər artıq ləğv olunub, amma istisna deyil ki, hansısa məsuliyyətsiz adamlar qaydalara uyğun olmayan hərəkətlər etsinlər. Mən bəri başdan hər kəsi xəbərdar

etmək istəyirəm, ciddi tədbirlər görüləcək. Çünki bu, milli məsələdir, xalqımızın sağlamlığıdır, dövlətimizin təhlükəsizliyidir. Hər kəs bilsin, əgər martın 14-də elan olunmuş qaydalara kimsə əməl etməsə, çox ciddi məsuliyyətə cəlb ediləcək.

Təəssüflər ki, məsuliyyətsizliklə əlaqədar faktlar daxil olur. Eyni zamanda, biz açıq təxribatı da görürük. Bu təxribat haradan gəlir, həmin o beşinci kolondan, içimizdə oturan düşmənlərdən, özünü müxalifət adlandıran ünsürlərdən, xaricdən pul alan satqınlardan. Onların əsas məqsədi Azərbaycanı məhv etməkdir. Azərbaycan üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Baxın onların sosial şəbəkələrdəki çıxışlarına, nifrətlə, təxribatla doludur. Sanki istəyirlər ki, iğtişaş olsun. İstəyirlər ki, aləm qarışsın. İstəyirlər ki, panika olsun. Sonra da deyirlər ki, onlar Azərbaycan xalqının qayğıları ilə yaşayırlar. Onlar düşməndirlər və biz bunu açıq deməliyik. Bu xəstəlik hələ bilinmir nəyə gətirib çıxaracaq. Ona görə bu xəstəlik dövründə tamamilə yeni münasibətlər qaydaları mövcud olacaqdır. Hər kəs bunu bilsin və istisna edilmir ki, nə vaxtsa fövqəladə vəziyyət də elan oluna bilər. Belə olan halda, bu beşinci kolonun nümayəndələrinin təcrid edilməsi artıq tarixi zərurət olacaq. Azərbaycan xalqı onları tarixin zibilxanasına çoxdan atıbdır. Orada onlar artıq 30 ilə yaxındır ki, çürüyürlər. Amma biz imkan verə bilmərik ki, anti-Azərbaycan qüvvələr, beşinci kolon, milli satqınlar bu vəziyyətdən istifadə edib hansısa təxribat törətsinlər. Hər kəs bunu bilsin. Bizim siyasətimiz birmənalıdır, bizim iradəmiz qətidir. Biz hər zaman olduğu kimi, Azərbaycan xalqının problemlərini həll edirik və həll edəcəyik. İndiki vəziyyətdə, koronavirus dövründə Azərbaycan dövlətinin addımları bir daha onu göstərir ki, bizim üçün Azərbaycan xalqının sağlamlığı, təhlükəsizliyi, rifahı hər şeydən üstündür və buna nail olmaq üçün biz istənilən addıma gedəcəyik. Heç kimin bu məsələ ilə bağlı şübhəsi olmasın.

Əziz həmvətənlər, bacılar və qardaşlar, dünya yeni dövrə qədəm qoyur. Bu dövrün xüsusiyyəti ondan ibarətdir ki, bilinmir bu xəstəliyin sonu nə vaxt olacaq və bu xəstəlik hansı fəsadlara gətirib çıxaracaq. Ona görə bir daha bütün Azərbaycan xalqını həmrəyliyə, məsuliyyətə dəvət edirəm. Əminəm ki, biz birlikdə bütün sınaqlardan üzüağ çıxacağıq.

Bir daha əziz xalqımı bu gözəl bayram münasibətilə təbrik edirəm, hər bir Azərbaycan vətəndaşına cansağlığı, uzun ömür, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

# DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ
# SUSTAINABLE DEVELOPMENT MANAGEMENT

UOT 328;3432.5;351/354;351

**URXAN ƏLƏKBƏROV**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik**
*e-mail: alakbarovuk@gmail.com*

## AZƏRBAYCAN RESPUBLİKASI VƏ KEÇMİŞ SSRİ ÖLKƏLƏRİNDƏ DAVAMLI İNKLÜZİV İNKİŞAF: MÜQAYİSƏLİ TƏHLİL

Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini bərpa edib. Tarixi nöqteyi-nəzərdən ölkənin müstəqilliyinin bərpasından çox vaxt keçməsə də, ölkə iqtisadi, sosial və humanitar inkişafda yüksək göstəricilərə nail olub. Bu uğura çatmaqda müasir Azərbaycanın əsasını qoymuş Ümummilli Lider Heydər Əliyevin önəmli rolu xüsusi qeyd olunmalıdır. Yeni 2001-ci il ərəfəsində xalqa müraciətində o, XXI əsrdə Azərbaycan Respublikasının bütün sahələrdə uğurla inkişaf edən və yüksək nəticələr qazanmış çiçəklənən bir ölkəyə çevriləcəyini əminliklə vurğulamışdı (1). Proqnoz 2003-cü ildən sonra, yüksək siyasi idarəçilik və liderlik keyfiyyətlərinə, dərin ümumi və peşəkar zəkaya, hadisələri qabaqcadan görmək və önləmək qabiliyyətinə malik İlham Əliyev dövlət başçısı seçildikdən sonra uğurla reallaşdı. Qeyd edilən keyfiyyətlər, həmçinin yüksək enerji, təşəbbüskarlıq, praqmatizm, beynəlxalq münasibətlərdə də özünü büruzə verən müstəsna xoş istək bu gün ölkənin davamlı inklüziv inkişafın idarə edilməsi sahəsində regional və qlobal lider liyini təmin etmişdir (2). Bu, eyni zamanda ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən uğurlu sosial siyasət sayəsində mümkün olmuşdur (3). Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının otuzuncu ildönümü ərəfəsində diqqətinizə təqdim olunan məqalədə ölkənin davamlı inkişaf və inklüziv cəmiyyətin formalaşdırılması sahəsində qazandığı uğurları təhlil edilir. Bu təhlil eyni vaxtda müstəqilliyini elan edən və təxminən eyni və ya oxşar start imkanlarına malik keçmiş SSRİ ölkələri ilə müqayisədə aparılmışdır.

### Beynəlxalq reytinqlərdə əsas nailiyyətlər və mövqelər

2021-ci ildə SSRİ-nin dağılmasından və Müstəqil Dövlətlər Birliyinin yaranmasından 30 il keçir. Demoqrafik standartlara görə, nəsil dəyişikliyi hər 25 ildən bir baş verir. Bu o deməkdir ki, hazırda keçmiş SSRİ ölkələrində həm də bu dövlətlərdə müstəqillik illərində formalaşmış yeni bir nəsil yaşayır və fəaliyyət göstərir. Bu fakt və keçmiş SSRİ ölkələrinin dövlət müstəqilliyinin bərpasından və ya qazanılmasından sonrakı təqribən otuz illik dövr müstəqillik illərində ölkələrin inkişafının nəticələrini qiymətləndirmək üçün kifayət qədər əsasdır. Hazırkı məqalədə 1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında iqtisadi, sosial və humanitar inkişaf proseslərinin idarə edilməsinin səmərəliliyini qiymətləndirməyə, bu göstəriciləri əvvəllər Sovet İttifaqının tərkibində olmuş və bu gün müstəqil dövlətlərə çevrilən ölkələrin müvafiq statistikası ilə müqayisə etməyə cəhd edilib. Sözügedən yeni müstəqil ölkələrin bəziləri Avropa Birliyi də daxil olmaqla müxtəlif şura və birliklərin üzvüdür. Belə bir təhlil Azərbaycan Respublikasında

iqtisadi, sosial və humanitar inkişaf üçün dövlətin idarə edilməsi proseslərində tətbiq olunan müxtəlif texnologiyaların innovativliyinin, həmçinin dövlət qulluğunun təşkili sisteminin səmərəliliyinin qiymətləndirilməsi və bu göstəricilərin digər ölkələrlə müqayisəli dəyərləndirilməsinin aparılması üçün geniş imkanlar açır.

Ölkələrin inkişafının idarə edilməsi və yeni müasir dövlətlərin formalaşması prosesinin səmərəliliyinin müqayisəli təhlili belə bir tədqiqatda tətbiq oluna biləcək universal meyarların istifadəsini nəzərdə tutur. Əlbəttə, bu meyarlar ilk növbədə iqtisadi inkişaf məsələlərini özündə ehtiva etməlidir. Şübhəsiz, iqtisadi imkanlar dövlətin uğurlu inkişafı üçün vacibdir. Yalnız iqtisadiyyatın müvafiq səviyyəsinin mövcudluğu şəraitində indiki və gələcək nəsillərin maraqları naminə inkişaf prosesinin davamlılığını və inklüzivliyini təmin edəcək siyasət həyata keçirmək mümkündür. Sxematik olaraq, bu əlaqə davamlı inkişaf metodları və texnologiyaları ilə iqtisadi imkanların inklüziv cəmiyyətin formalaşmasına transformasiyası kimi xarakterizə edilə bilər (Şəkil 1). Şəkildən göründüyü kimi, iqtisadiyyat, davamlı inkişaf və bu prosesin inklüzivliyi arasındakı əlaqə iyerarxik prinsipə əsaslanır. Özünü təmin edən iqtisadiyyat və iqtisadi, sosial və humanitar inkişaf prosesinin səmərəli planlaşdırılması onun indiki və gələcək nəsillər üçün davamlılığını təmin edə və müasir inklüziv cəmiyyətin formalaşmasına töhfə verə bilər (4).

Beləliklə, keçmiş SSRİ-nin tərkibinə daxil olan bir ölkənin müstəqillik qazandıqdan sonrakı dövrdə dövlət quruculuğu proseslərinin nə qədər səmərəli olduğunu qiymətləndirmək üçün iqtisadi fəaliyyətin təhlili vacibdir. İqtisadi fəaliyyətin səmərəliliyinin qiymətləndirilməsi baxımından bu prosesin həm kəmiyyət, həm də keyfiyyət xüsusiyyətləri böyük önəm daşıyır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonra üzləşdiyi bir çox çətinliklər arasında ölkə ərazisinin iyirmi faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı mühüm əhəmiyyət kəsb edir. BMT Təhlükəsizlik Şurası həmin ərazilərin azad edilməsinə dair dörd qətnamə qəbul edib (5-8). Buna baxmayaraq, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı davam edir ki, bu da Azərbaycanın və bütün bölgənin iqtisadi, sosial və humanitar




**Şəkil 1.** İqtisadi imkanlar dövlətin inkişafının davamlılığı və inklüzivliyinə təsir edən amillər kimi




**Şəkil 2.** 2000-2018-ci illərdə Azərbaycan Respublikasında ÜDM-in adambaşına artımı (alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla ABŞ dolları). Mənbə: Dünya Bankı (10).

inkişafına mənfi təsir göstərir. Bu, işğal prosesini müşayiət edən bir çox amillərlə əlaqədardır, bunların arasında Azərbaycanda təxminən bir milyon qaçqın və məcburi köçkünün olması, əhəmiyyətli maliyyə və insan resurslarının bu əhali qrupunun sosial və humanitar reabilitasiyasına yönəldilməsi və hərbi təhlükəsizliyin təmin edilməsi və işğalın təsirlərinin aradan qaldırılmasına yönəlmiş tədbirlər xüsusi əhəmiyyət kəsb edir (9).

### İqtisadi inkişaf prosesinin müqayisəli kəmiyyət qiymətləndirilməsi

Hərbi müdaxilə və ölkənin 20 faiz ərazisinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı da daxil olmaqla çoxsaylı və çoxfaktorlu çağırışların olmasına baxmayaraq, müstəqillik dövründə Azərbaycan iqtisadiyyatı əhəmiyyətli dərəcədə inkişaf etmişdir. XX əsrin əvvəllərindən başlayaraq Azərbaycan Respublikasında adambaşına düşən ÜDM-in artımını xarakterizə edən məlumatlar Şəkil 2-də verilmişdir. Şəkildən göründüyü kimi, XX əsrdə Azərbaycan iqtisadiyyatı əhəmiyyətli kəmiyyət artımı nümayiş etdirmişdir. Müşahidə olunan iqtisadiyyatın sürətlənməsi, şaxələndirilməsi və modernləşdirilməsi prosesi 2003-cü ildən sonra ölkə iqtisadiyyatında mühüm struktur islahatlarının aparılması və iqtisadi münasibətlərin tənzimlənməsi baxımından vacib hüquqi sənədlərin qəbulu ilə daha da intensivləşib. Bu innovativ islahatlar ilk növbədə ölkə iqtisadiyyatının şaxələndirilməsinə, ölkənin ixrac potensialının, o cümlədən bərpa olunan mənbələr hesabına artırılmasına və özünüməşğulluq və kiçik və orta sahibkarlığın stimullaşdırılmasına yönəldilmişdir. İqtisadi stimullaşdırıcı islahatlar insan potensialının inkişafına da xidmət edir. Sonuncu Azərbaycan iqtisadiyyatının artımının ən vacib amildir (Şəkil 2).

Şəkil 2-dən də göründüyü kimi, 2000-ci illə müqayisədə 2018-ci ildə Azərbaycan iqtisadiyyatı 4,9 dəfədən çox artmışdır. Qeyd etmək lazımdır ki, bu dünya ölkələri arasında iqtisadi artımın ən yüksək göstəricilərindən biridir. Cədvəl 1-dən göründüyü kimi, Dünya Bankının məlumatına görə, bu dövrdə dünyada adambaşına düşən ÜDM-in istehsalı orta hesabla 2,2 dəfə artmaqla, 2018-ci ildə (Dünya Bankının 2020-ci ilin aprelində dərc etdiyi son məlumatlar) 17,94 ABŞ dollarına çatmışdır (2000-ci ildəki 7.98 ABŞ dolları (AQP) ilə

**Cədvəl 1.** Azərbaycan Respublikası, orta hesabla dünyada və müqayisə edilən ölkələrdə iqtisadi artımın təhlili (10)

| Ölkələr və ya ölkələr qrupu | 2018-ci ildə adambaşına ÜDM, AQP* nəzərə alınmaqla ABŞ dolları | 2000-ci ildə adambaşına ÜDM, AQP* nəzərə alınmaqla ABŞ dolları | Artım, dəfə |
|---|---|---|---|
| Dünya (orta) | 17,94 | 7,98 | 2,2 |
| Mərkəzi Avropa və Baltikyanı ölkələr | 31,24 | 9,98 | 3,12 |
| Avropa və Mərkəzi Asiya (yüksək gəlirli ölkələr istisna olmaqla) | 21,93 | 6,12 | 3,6 |
| Azərbaycan Respublikası | 18,1 | 3,7 | 4,9 |

*alıcılıq qabiliyyəti pariteti

müqayisədə alıcılıq qabiliyyəti pariteti (AQP) nəzərə alınmaqla). Azərbaycan Respublikasında iqtisadi artımı xarakterizə edən məlumatlar inkişaf əlamətləri və xüsusiyyətləri Azərbaycanınkına oxşar ölkələrin bilgiləri ilə müqayisə edilə bilər. Azərbaycana bənzər şərtlər xüsusən də Mərkəzi Avropa və Baltikyanı ölkələr qrupuna daxil olan, Avropa və Mərkəzi Asiya dövlətləri üçün xarakterik ola bilər (yüksək gəlirli ölkələr istisna olmaqla). Cədvəl 1-də əks olunmuş məlumatlar bunu təsdiq edir.

Cədvəl 1-də təqdim edilən məlumatlar müstəqilliyini bərpa edən ölkə iqtisadiyyatının formalaşması dövründə Azərbaycan Respublikasında reallaşdırılan təşkilati tədbirlərin səmərəli olmasının göstəricisidir. Təhlildən aydın olur ki, Azərbaycanda bu göstərici coğrafi mövqeyinə, iqtisadiyyatının xüsusiyyətlərinə və son onilliklərdə iqtisadi münasibətlərin transformasiyası xarakterinə görə müqayisə olunan bir sıra ölkələrə nisbətən daha yüksəkdir.

Azərbaycanın və Mərkəzi Avropa və Orta Asiya ölkələrinin iqtisadi artım templərindəki fərqlər müqayisə olunan ölkələr qruplarında adambaşına düşən ÜDM-in ilkin səviyyəsinin yüksək olması ilə bağlı ola bilər. Bu fərqlər xüsusilə Azərbaycanın iqtisadi göstəricilərinin Mərkəzi Avropa və Baltikyanı ölkələrdə iqtisadiyyatın artımını xarakterizə edən məlumatlarla müqayisə edildiyi hallarda nəzərə çarpır. Xüsusilə, bu qrup ölkələrində 2000-ci ildə ÜDM-in orta göstəricisi Azərbaycandan 60% yüksək idi (Cədvəl 1). Bununla yanaşı, qeyd etmək lazımdır ki, göstərilən zaman kəsiyində dünyada və müqayisə olunan ölkələrdə artım dinamikası orta hesabla Azərbaycandan aşağıdır. Bu, Azərbaycan Respublikasında təhlil olunan dövrdə intensiv iqtisadi artımın baş tutduğunu göstərir.

Metodik baxımdan, müxtəlif postsovet ölkələrində istifadə olunan dövlət idarəetmə texnologiyalarının və dövlət qulluğu sisteminin təşkili səmərəliliyini müəyyənləşdirmək üçün ən vacib olan bu ölkələrin müstəqillik qazandıqdan sonra iqtisadi inkişaf templərinin müqayisəli qiymətləndirilməsidir. Bu təhlilin nəticələri Şəkil 3-də verilmişdir.

Keçmiş SSRİ ölkələrində 2000-2018-ci illərdə ÜDM göstəricilərindəki dəyişikliklərin dinamikasının müqayisəli təhlilindən aydın oldu ki (Şəkil 3), Dünya Bankının məlumatına görə, göstərilən dövrdə Azərbaycanda bu iqtisadi göstərici 4,9 dəfə artmışdır. Bu, keçmiş SSRİ ölkələri, o cümlədən hazırda Avropa İttifaqının üzvü olan ölkələr arasında ən yüksək iqtisadi artım tempidir (10).

Qeyd etmək lazımdır ki, 2000-2018-ci illərdə müstəqil postsovet dövlətlərində ÜDM-in artımı ölkədən asılı olaraq 2,4-4,9 dəfə diapazonunda dəyişib. Həmin illərdə bu ölkələrin iqtisadiyyatı orta hesabla 3,7 dəfə artmışdır. Məlumdur ki, iqtisadi imkanların olması uğurlu sosial siyasətin həyata keçirilməsində vacib amil və zəruri şərtdir. İnsanların




**Şəkil 3.** Keçmiş SSRİ ölkələrində 2000-2018-ci illərdə adambaşına ÜDM-in artımının (dəfə) (alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla ABŞ dolları) nisbi xarakteristikası. Mənbə: Dünya Bankı (10).

rifah halının yaxşılaşdırılması Azərbaycan Respublikasının davamlı inklüziv inkişaf sahəsindəki siyasətinin əsas məqsədidir. Son illərdə aparılan islahatların ölkənin yetkin əhalisinin 40%-dən çoxunun maddi vəziyyətini əhatə etməsi buna sübutdur. Bu, əhalinin 4,2 milyon nəfərini əhatə edən böyük bir hissəsinin əmək haqlarının, minimum, orta və median gəlirlərinin, təqaüdlərinin, fokus qrupları üçün sosial müavinətlərin artması ilə əlaqəli idi (11).

Yuxarıda qeyd edildiyi kimi, adambaşına gəlirlərin yüksək başlanğıc səviyyəsi gələcəkdə artımını dayandıran amil kimi çıxış edə bilər. Bu fenomen 2000-2018-ci illərdə keçmiş SSRİ ölkələrində ÜDM-də dəyişikliklərin dinamikasının təhlili zamanı da müşahidə olunsa da, adambaşına düşən gəlir səviyyəsinin aşağı olduğu bir sıra ölkələrdə əvvəlcə ciddi artım müşahidə edilmədi.

Qeyd etmək lazımdır ki, əvvəllər SSRİ-nin tərkibində olan ölkələrin bazasında yeni müstəqil dövlətlər yarandıqdan sonra onlarda baş verən demoqrafik proseslər fərqli istiqamətlərlə xarakterizə olunurdu. Xüsusilə, təhlil olunan dövrdə bəzi ölkələrdə əhali artdı, digərlərində isə dəyişmədi və əksinə azaldı. Azərbaycan Respublikasında adambaşına düşən ÜDM-in artımı ölkədə əhalinin sayının artması fonunda baş verir. Ümumiyyətlə, müstəqillik illərində Azərbaycan əhalisi 2,5 milyon nəfər artmışdır. 2000-ci ildə Azərbaycan əhalisinin sayı 8 milyondan az idi, rəsmi statistikaya görə, 2020-ci ildə əhali 10 milyon nəfəri keçib (12).

### İqtisadi inkişaf prosesinin müqayisəli keyfiyyət qiymətləndirilməsi

Adambaşına düşən ÜDM-in artması kəmiyyət baxımından iqtisadi artım dinamikasını əks etdirən mühüm iqtisadi göstəricidir. Bununla yanaşı, ölkənin innovativ inkişafını təmin etmək və iqtisadiyyatın rəqabətqabi-

liyyətliliyini artırmaq üçün keyfiyyət dəyişikliklərinin xüsusiyyətləri vacibdir. Beynəlxalq təşkilatlar tərəfindən iqtisadiyyatın keyfiyyət baxımından artımını xarakterizə edən müxtəlif meyarlar mövcuddur. Bunlara inklüziv inkişaf, rəqabət qabiliyyəti, iqtisadi fəaliyyətin davamlı inkişafa təsirini xarakterizə edən məlumatlar və s. aiddir. Bu göstəricilər arasında davamlı inkişafı xarakterizə edən göstəricilər xüsusi əhəmiyyətə malikdir.

Məlumdur ki, davamlı inkişaf qlobal prioritet kimi qəbul olunur və dünya birliyinin bu səviyyəyə keçidi üçün 2015-ci ilin sentyabr ayında Nyu-Yorkda BMT Baş Asambleyasının 70 illik yubiley sessiyasında dünya ictimaiyyətinin 2030-cu ilə gerçəkləşdirməli olduğu 17 hədəf qəbul edilib (13). Eyni prioritetlər Nyu-Yorkda Baş Assambleya ilə eyni vaxtda keçirilən Ümumdünya Sammitində də mühüm əhəmiyyət kəsb edən qlobal hədəflər kimi müəyyənləşdirilib. Bəlli olduğu kimi, davamlı inkişafın 17 hədəfi, aclıq və yoxsulluğun aradan qaldırılması, bərabərsizlik, o cümlədən gender bərabərsizliyi ilə mübarizə, səhiyyə, təhsil və ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və s. yönəlmiş bir neçə yüz vəzifənin həllini özündə cəmləşdirir. Hal-hazırda ölkələrin davamlı inkişaf edən cəmiyyətə keçidə hazırlığını xarakterizə edən indeks yoxdur. Bu, təbiidir, çünki dünya ölkələrinin inkişaf səviyyəsi əvvəldən çox fərqlidir və davamlı inkişaf sahəsində dövlətlərin fərqli prioritetləri var. Bəzi ölkələrin davamlı inkişaf edən cəmiyyətə yaxınlaşması üçün ilk növbədə məhrumiyyətlərlə bağlı məsələləri həll etməsi, yəni yoxsulluq və aclığa qalib gəlməsi zəruridir. Digər ölkələrdə bu problemlər çoxdan həll edilmişdir və davamlı inkişaf edən cəmiyyətə keçid təhsil və səhiyyə sistemlərinin daha da təkmilləşdirilməsini tələb edir (14).

Qeyd etmək lazımdır ki, enerji sərfiyyatı səmərəliliyi baxımından Azərbaycan Respublikası neft və qaz istehsalçıları və ixracatçıları ölkələri qrupunda liderlərdən biridir. Şəkil 4-dən göründüyü kimi, Azərbaycan Respublikası bir enerji vahidindən istifadə etməklə alıcılıq qabiliyyəti pariteti (AQP) nəzərə alınaraq 11,2 ABŞ dolları dəyərində mal və xidmətlər istehsal edir. Təxminən eyni dəyərdə (AQP ilə 11 ABŞ dolları) mal və xidmət də Norveç




**Şəkil 4.** Keçmiş SSRİ ölkələrində bir enerji vahidinin (1 kq neftdəki enerjinin ekvivalenti) istifadəsi ilə istehsal olunan ÜDM (alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla ABŞ dolları).

Mənbə: Dünya Bankı (17).




**Şəkil 5.** Keçmiş SSRİ ölkələrində AQP nəzərə alınmaqla 1000 ABŞ dolları dəyərində mal və xidmətlərin istehsalına sərf olunan enerji (1 kq neftdəki enerjinin ekvivalenti). Mənbə: Dünya Bankı (18).

istehsal edir. Dünya Bankının məlumatına görə, digər ölkələrin - tanınmış karbohidrogen ixracatçılarının enerji sərfiyyatı səmərəliliyi aşağıdakı kimi xarakterizə olunur: Birləşmiş Ərəb Əmirlikləri – AQP nəzərə alınmaqla bir vahid enerjiyə 8,2; Küveyt - 7,9; Qatar - 6,5; İran - 5.6, Qazaxıstan - 5.3; Rusiya Federasiyası - 5.2; Bəhreyn - 4,1 dollar (17).

Ölkə iqtisadiyyatının enerji səmərəliliyini qiymətləndirmək üçün başqa bir metodologiya da mövcuddur. Bu halda, AQP nəzərə alınmaqla 1000 dollar dəyərində ÜDM istehsalı üçün ölkələrin enerji xərcləri qiymətləndirilir. Keçmiş SSRİ ölkələri üçün




**Şəkil 6.** Keçmiş SSRI ölkələrində 1 ABŞ dolları dəyərində (AQP nəzərə alınmaqla) UDM-in istehsalı zamanı $CO_2$ tullantıları (kq). Mənbə: Dünya Bankı (20).

belə bir təhlilin nəticələri Şəkil 5-də əksini tapıb. Dünya Bankının bilgiləri əsasında tərtib olunmuş bu şəkildən göründüyü kimi, Azərbaycan Respublikası digər ölkələrlə müqayisədə 1000 ABŞ dolları (AQP) dəyərində mal və xidmətlər istehsal etmək üçün 2-2,5 dəfə az enerji sərf edir (18).

Yuxarıda göstərildiyi kimi, davamlı inkişaf proseslərinin planlaşdırılması və idarə edilməsi sahəsində dövlət siyasətinin səmərəliliyini xarakterizə edən bir göstərici kimi enerji səmərəliliyi indikatorunu seçərkən bu göstəricinin ekoloji xarakteristikaya malik olması da nəzərə alınmışdır. Bu, hazırda dünyada istifadə olunan enerjinin demək olar ki, 70 faizinin fossil olması ilə bağlıdır. Fossil enerji bərpa olunmayan mənbələrdən əldə edilir və onlardan istifadə istixana qazlarının ətraf mühitə tullantılarının artmasına səbəb olur ki, bu da öz növbəsində qlobal iqlim dəyişikliklərinə yol açır (19).

Təhlil göstərdi ki, ölkədə davamlı inkişaf cəmiyyətinin qurulması sahəsində səmərəli dövlət siyasəti Azərbaycanda Dünya Bankı və BMT-nin bilgilərinə əsasən, istixana qazının atmosferə tullantılarının 2003-cü ildə AQP nəzərə alınmaqla 1 ABŞ dollarına görə 1 kq-dan 2020-ci ildə 0,2 kq-a qədər azalmasını təmin etmişdir.

Milli ÜDM istehsalında enerji və digər bərpa olunan və bərpa olunmayan resurslardan daha səmərəli istifadə həm iqtisadi proqramların reallaşdırılması zamanı istifadə olunan istehsal texnologiyaları, həm də dövlət idarəçiliyi prosesində tətbiq edilən idarəetmə texnologiyalarının innovativliyinin təzahürüdür. Beynəlxalq statistikada bu göstəricidən iqtisadi artımın idarə edilməsinin keyfiyyət göstəricisi kimi də istifadə olunur (21). Qlobal iqlim dəyişiklikləri bəşəriyyətin üzləşdiyi ən ciddi problemlərdən biridir (22). Qeyd etmək lazımdır ki, Azərbaycanda bir vahid mal və xidmətə görə istixana qazı tullantılarının göstəriciləri yüksək inkişaf etmiş ölkələrin - İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin oxşar göstəriciləri səviyyəsindədir (20).

## Sosial göstəricilərin müqayisəli qiymətləndirilməsi

Bəllidir ki, davamlı inkişaf iqtisadiyyatda, ekologiyada və sosial sahədə eyni vaxtda müvəffəqiyyəti təmin edəcək dövlət siyasətinin həyata keçirilməsini nəzərdə tutur (19). Yuxarıda göstərilən məlumatlardan aydın görünür ki, demək olar bütün postsovet ölkələri, o cümlədən Azərbaycan Respublikası iqtisadi inkişaf sahəsində ciddi irəliləyişlərə nail olublar. Bu həm də ötən dövrdə əksər ölkələrin sosial proqramların həyata keçirilməsi və bütövlükdə davamlı inkişaf üçün maddi bazanın yaradılması istiqamətində irəliləməsindən xəbər verir. Beynəlxalq standartlara uyğun olaraq, ölkələrdə sosial siyasətin səmərəliliyi xüsusi göstəricilər əsasında müəyyən edilir. Bu göstəricilər arasında Gini indeksi ən çox istifadə olunur. Kvintil nisbəti və Palma indeksi kimi göstəricilərlə yanaşı, Gini indeksindən əhalinin müxtəlif təbəqələri arasında gəlir bölgüsü sahəsində dövlət və ya ərazi siyasətini qiymətləndirmək lazım olduğu hallarda istifadə olunur (19). Bu siyasət yalnız ölkədə adekvat sosial siyasət üçün iqtisadi imkanlar olduqda uğurlu ola bilər. Buna görə Şəkil 7-də keçmiş SSRİ ölkələrində iqtisadiyyatda daha əhəmiyyətli nailiyyətlər əldə etmiş ölkələrin Gini göstəricilərinin müqayisəli qiymətləndirilməsi verilib. Şəkildəki informasiya Dünya İqtisadi Forumunun 2019-cu ildə dərc edilmiş məlumatlarına əsaslanır (23).

Şəkil 7-də təhlil edilən dövrdə iqtisadi imkanları 3,5 dəfədən çox artan keçmiş SSRİ ölkələrində Gini indeksini xarakterizə edən məlumatlar təqdim olunur. Məlumdur ki, bu indeks əhali arasında gəlirlərin bölgüsünün təbiətindən xəbər verir. Bu indeksin dəyərləri 0 ilə 100 arasında dəyişir və bu dəyər nə qədər kiçik olsa, ölkənin sosial rifah sahəsində dövlət siyasəti bir o qədər uğurlu sayılır. Dünya İqtisadi Forumunun 2019-cu ildə nəşr olunan bilgiləri əsasında tərtib edilmiş şəkildən göründüyü kimi, Azərbaycanda Gini indeksi aşağı dəyərlərlə xarakterizə olunur ki, bu da




**Şəkil 7.** 2000-2018-ci illərdə ÜDM 3,5 dəfədən çox artan keçmiş SSRİ ölkələrində Gini indeksi. Mənbə: Dünya İqtisadi Forumu (23).

ölkənin sosial siyasətinin uğurundan xəbər verir (23). Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət idarəçiliyi strategiyasının prioritet istiqaməti sosial siyasətdir. Bu siyasətin beynəlxalq təşkilatlar tərəfindən qlobal səviyyədə yüksək qiymətləndirilməsini təsdiqləyən faktlardan biri də Dünya İqtisadi Forumunun təsisçisi və daimi prezidenti, prof. Klaus Şvabın rəhbərliyi altında hazırlanan rəqabətqabiliyyətlilik haqqında qlobal hesabatda Azərbaycanın sosial proqramları yüksək səviyyədə təmin edən ölkə nümunəsi kimi təqdim olunmasıdır (24).

Qeyd etmək lazımdır ki, dövlət idarəçiliyi və bu məqsədlər üçün dövlət qulluğu sistemi və texnologiyalarının formalaşdırılmasının ən müasir prioriteti davamlı və inklüziv bir cəmiyyətin qurulmasıdır. Əslində bir dövlətin və ya ərazinin uğurlu inkişafı yalnız inklüziv xarakter daşıdıqda davamlı olaraq qəbul edilə bilər (4). Bu baxımdan son illərdə beynəlxalq inkişaf institutları dünya ölkələrinin inklüziv inkişaf səviyyəsini öyrənir və qiymətləndirir. Davamlı inkişafdan fərqli olaraq, inklüziv inkişaf səviyyəsi xüsusi bir indeksin hesablanması ilə müəyyən edilən kəmiyyət qiymətləndirməsinə malikdir. Metodologiyaya uyğun olaraq, inklüziv inkişaf indeksi 12 göstərici, o cümlədən əhalinin gəlirlərinin, həmçinin median gəlirlərinin ölçüsü, yoxsulluq səviyyəsi və əhali arasında gəlirlərin bölgüsünün xarakteri, dövlətin xarici borcu, əhalinin demoqrafik quruluşu və qlobal iqlim dəyişikliklərinə təsir kimi göstəricilər əsasında hesablanır (4). 2018-ci ildə Davos Dünya İqtisadi Forumu, keçmiş SSRİ-nin tərkibində olan dövlətlər də daxil olmaqla 140 ölkənin davamlı inklüziv inkişaf səviyyəsinə dair hesabat dərc edib. Bu ölkələrin inklüziv inkişaf indekslərini xarakterizə edən məlumatlar Şəkil 8-də verilmişdir.

Şəkil 8-də əks olunan məlumatlar göstərir ki, Azərbaycanın inklüziv inkişaf indeksi 4.69-a bərabərdir. Bu ölkənin bu qrupda üçüncü, Litva və Estoniyadan sonra ikinci olmasına imkan verib. Qeyd etmək lazımdır ki, Azərbaycanın bu qrupdakı yüksək reytinqi əsasən ölkənin uğurlu sosial və ekoloji siyasəti ilə əvvəlcədən müəyyən edilmişdir. Bu qənaət ona əsaslanır ki, Dünya Bankının məlumatlarına görə, Latviya (AQP nəzərə alınmaqla 30304 ABŞ dolları), Qazaxıstan (AQP nəzərə




**Şəkil 8.** Keçmiş SSRİ ölkələrinin inklüziv inkişaf indeksləri. Mənbə: Dünya İqtisadi Forumu (24).

alınmaqla 27879 ABŞ dolları) və Rusiya Federasiyasının (AQP nəzərə alınmaqla 27588 ABŞ dolları) iqtisadi göstəriciləri Azərbaycan Respublikasına nisbətən (AQP nəzərə alınmaqla 18044 ABŞ dolları) daha yüksəkdir. Belə şəraitdə Azərbaycan Respublikasının bu ölkələrlə müqayisədə yüksək inklüziv göstəricisi sosial siyasətin ölkənin dövlət siyasətinin prioriteti olmasından xəbər verir. Faktın dürüstlüyü Şəkil 9-dan da aydın olur. Şəkildən göründüyü kimi, Azərbaycanın iqtisadi imkanları müqayisə olunan ölkələrə nisbətən 1,5-2 dəfə aşağıdır, buna baxmayaraq sosial siyasət və ölkə inkişafının inklüzivliyinin təmini ya onlarla eyni səviyyədədir, ya da xeyli üstündür. Bu bir daha effektiv idarəetmənin davamlı inkişaf metodları və texnologiyaları ilə inklüziv cəmiyyətin formalaşmasında yüksək nəticələrin əldə edilməsində həlledici amil olduğunu sübut edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə dövlət idarəçiliyi sisteminin yüksək səmərəliliyi, sosial siyasətin ölkənin əsas prioriteti olması beynəlxalq təşkilatların hesabatlarında təsdiqini tapır (24).

Gələcəkdə iqtisadi imkanların artımı davamlı inklüziv inkişaf göstəricilərinin daha da yaxşılaşması üçün şərait yaradacağı aşkardır. Bu, hazırda dünyanın pandemiya və onun nəticələri ilə mübarizə etdiyi bir zamanda xüsusilə vacibdir.

Kadr potensialının formalaşdırılması və dövlət idarəçiliyində innovativ texnologiyalar Azərbaycan Respublikasının uğurlu davamlı inkişafının amilləri kimi

Təqdim edilən bilgilərdən aydın olur ki, Azərbaycan Respublikasının müstəqilliyini bərpa etdikdən sonrakı iqtisadi, sosial və humanitar inkişafı uğurlu hesab edilə bilər. Beynəlxalq təşkilatların rəsmi hesabatlarına əsaslanan müqayisəli təhlili göstərir ki, Azərbaycanın müstəqilliyinin bərpasından 30 ildən az vaxt keçməsinə baxmayaraq, ölkənin bir sıra vacib iqtisadi və sosial göstəriciləri "böyük yeddilik" (G7), İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı və s. ölkələr səviyyəsindədir (23, 24). Əldə edilmiş inkişaf səviyyəsi dövlət qulluğu üçün insan resurslarının inkişafı və dövlət idarəetməsində innovativ texnologiyaların tətbiqi sahəsindəki dövlət siyasətinə əsaslanır.




**Şəkil 9.** Bəzi keçmiş SSRİ ölkələrində inklüziv inkişaf indeksi və adambaşına ÜDM (AQP nəzərə alınmaqla ABŞ dolları). Mənbə: Dünya Bankı və Dünya İqtisadi Forumu (21-24).

Uğurlu bir dövlət qulluğu üçün potensialın hazırlığı və eyni zamanda davamlı inklüziv inkişaf üçün əlverişli mühitin yaradılması sahəsində siyasət peşə hazırlığından tutmuş ictimai maarifləndirmə və könüllülərin səfərbərliyinə qədər bütün mərhələləri əhatə edən çoxməqsədli bir proqramdır. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası bütün göstərilən istiqamətlərdə fəaliyyət göstərir (Şəkil 10).




**Şəkil 10.** Azərbaycan Respublikasında dövlət idarəçiliyi kadrlarının hazırlığı və davamlı inklüziv inkişafın idarə olunması üçün mühitin yaradılması (21).

Akademiyada bir neçə səviyyədə dövlət qulluqçularının təhsili və yenidən hazırlanmasını təmin edir: bakalavr, magistr, doktorantura və dövlət qulluqçularının davamlı təhsili. Dövlət qulluqçularının və bələdiyyə qulluqçularının hazırlıq səviyyəsinin artırılması üç ildən bir həftəyə qədər olan dövrü əhatə edə bilər. Hər il iki mindən çox dövlət qulluqçusu qırx müxtəlif proqram və modulda üzrə təlimlərdən keçir. Könüllü olaraq iqtisadi, sosial və humanitar proqramlarda iştirak edən gənclər üçün seminarlar və əhalinin məlumatlandırılması və iştirakının genişləndirilməsinə yönəlik fəaliyyət ölkədə davamlı və inklüziv cəmiyyət qurmaq üçün insan potensialından istifadənin səmərəliliyinin artırılmasına şərait yaradır. Bu siyasət Azərbaycan Respublikasında müstəqilliyin bərpasının ilk günlərindən həyata keçirilmişdir. Bu sahədəki siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü ildə keçirilən Dünya Sammitində "qara qızıl"ın (neft və qaz sənayesinin gəlirləri) intensiv şəkildə "insan qızılı"na (bilik və bacarıqların daim artırılması ilə insan potensialının inkişafı) çevrilməsini bütün sahələrdə ən vacib milli hədəflərdən biri olaraq elan etdikdən sonra yeni stimul qazandı. Bu amilin əhəmiyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci ilin birinci rübündə sosial-iqtisadi inkişafın yekunlarına dair iclasdakı nitqində bir daha vurğulandı (25).

İnsan potensialının formalaşdırılması sahəsindəki vəzifələr həmçinin tədris planlarına önləyici inkişafa dair proqramların daxil edilməsini nəzərdə tuturdu. Bu, bütün sahələrə, o cümlədən davamlı inkişaf sahəsindəki vəzifələrə aiddir (Şəkil 11).

Bəllidir ki, davamlı inkişaf əsas qlobal prioritetdir və bununla əlaqədar BMT Baş Assambleyası və Dünya Sammiti 2015-ci ilin sentyabrında "Dünyamızı dəyişək: 2030-cu ilədək davamlı inkişaf gündəliyi" adlı xüsusi qətnamə qəbul edib. Bu sənəd dünya icti-

| Azərbaycan | Dünya |
|---|---|
| • 2001 Təhsil Nazirliyinin Əmri: davamlı insan inkişafının əsaslarının orta və ali məktəblərdə tədrisi<br>• 2003 Ümumtəhsil məktəbləri üçün ilk dərslik<br>• 2005 BMT Azərbaycanın təşəbbüslərini "innovativ ideya və fəaliyyət" kimi dəyərləndirir<br>• 2015 Ali məktəblərdə yeni ixtisas: davamlı inkişafın idarə edilməsinin əsasları (bakalavriatura, magistratura, doktorantura) | • 2005 BMT və YUNESKO 2005 - 2014-cü illəri davamlı inkişaf sahəsində təhsil dekadası elan edir (1 mart, Nyu-York)<br>• Davamlı inkişafın tədrisi texnologiyaları və metodikalarına həsr olunmuş konfrans və seminarlar (mütəmadi)<br>• Ali məktəblərdə davamlı inkişaf ixtisası üzrə magistr təhsili |

**Şəkil 11.** Davamlı inkişaf sahəsində kadr potensialının inkişafı: Azərbaycan və dünya




**Şəkil 12.** Davamlı inkişafın idarə edilməsi və inklüziv cəmiyyətin formalaşdırılmasının innovativ texnologiyaları: Azərbaycan Respublikasının təcrübəsi (4).

maiyyətinin 2030-cu ilə qədər yerinə yetirməli olduğu 169 vəzifəni ehtiva edən 17 hədəfi müəyyənləşdirdi. Bu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi zəruri bilik və bacarıqların formalaşmasını nəzərdə tutur. Bu çağırışlara cavab verəcək insan resurslarının formalaşdırılması üçün BMT və UNESCO 2005-2014-cü illəri davamlı inkişaf sahəsində təhsil dekadası elan etdi. Bununla bağlı sənəd 2005-ci ilin martında Nyu-Yorkda imzalanmışdır. Azərbaycan Respublikasında bu proses 4 il əvvəl başladı (Şəkil 11). Bu hal davamlı inkişaf proseslərinin idarə olunması sahəsində fəaliyyətin səmərəliliyinin artırılmasına öz töhfəsini vermiş və bu sahədə Azərbaycanın qlobal liderliyinə səbəb olmuşdur (25).

Bəllidir ki, daha az maliyyə və ya maddi resurslardan istifadə etməklə planlaşdırılan nəticələrə nail olmaq yalnız idarəetmənin səmərəliliyinin artırılması, bu proseslərdə yeni texnologiyaların tətbiqi ilə mümkündür. Azərbaycan Respublikasında bu, dövlət proqramlarının milli və beynəlxalq proqramlara transformasiyası, tərəfdaşların potensialının sinergizasiyasını təmin edən texnologiyalar kompleksi və onların uzlaşdırılması sayəsində mümkün olmuşdur (Şəkil 12).

Göründüyü kimi, beynəlxalq təşkilatların rəsmi məlumatlarına əsasən, Azərbaycan Respublikası bu gün keçmiş SSRİ ölkələri arasında inklüziv cəmiyyətin qurulması məqsədilə davamlı inkişaf proseslərinin planlaşdırılması və idarə edilməsi sahəsində liderdir. Müstəqilliyini yeni bərpa etmiş Azərbaycan Respublikasında indiyə qədər əldə edilmiş iqtisadi inkişaf səviyyəsi və həyata keçirilən uğurlu sosial siyasət adekvat dövlət və bələdiyyə idarəetməsi sisteminin formalaşması hesabına gerçəkliyə çevrilmişdir.

**Ədəbiyyat:**


1. Əliyev H.Ə. http://heydaraliyev.preslib.az/biblio-about.php, 03 may 2020
2. Aliyev I. H. https://en.president.az/articles/35608, 03 may 2020
3. Aliyeva M.A. https://en.president.az/articles/123639/, 03 may 2020
4. Ələkbərov U.K. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Bakı, Təhsil nəşriyyatı, 2018.
5. BMT Təhlükəsizlik Şurasının 822 saylı Qətnaməsi, 30.04.1993
6. BMT Təhlükəsizlik Şurasının 853 saylı Qətnaməsi, 29.07.1993
7. BMT Təhlükəsizlik Şurasının 874 saylı Qətnaməsi, 14.10.1993
8. BMT Təhlükəsizlik Şurasının 884 saylı Qətnaməsi, 12.11.1993
9. Mekhtiev R.E. Nagorno Karabakh. Eurasian Books, 2016, 163 p.
10. https://data.worldbank.org/indicator/NY.GDP.PCAP.PP.CD,, 24.03.2020
11. Aliyev I.H. Speech at the first session of the Azerbaijani Parliament's sixth convocation. https://en.president.az/articles/36133, 05.05.2020
12. Azerbaijan in figures. State Statistical Committee of the Republic of Azerbaijan, 2020.
13. https://www.un.org/sustainabledevelopment/sustainable-development-goals/, 05.05.2020
14. Ələkbərov U.K. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Bakı, Təhsil, 2013, 224 s.
15. Alakbarov U.K., Lawrence J.E. Towards ecological civilization: Ideas from Azerbaijan. J. Human Resources and Sustainability Study (USA), 2015.
16. Alakbarov U.K., Lawrence J.E. Energy efficiency as an indicator of sustainable development policy: the Azerbaijan experience. Journal of Sustainable Development (Canada, ISSN 1913-9071), 2017, v. 10, № 3, p. 187-193.
17. https://data.worldbank.org/indicator/EG.GDP.PUSE.KO.PP.KD, 24.03.2020
18. https://data.worldbank.org/indicator/EG.USE.COMM.GD.PP.KD, 24.03.2020
19. Human Development Report 2019. UNDP, New York, 2019, 366 p.
20. https://data.worldbank.org/indicator/EN.ATM.CO2E.PP.GD, 25.03.2020
21. Алакбаров У.К. Устойчивое инклюзивное развитие Азербайджана: значение кадрового потенциала. Ж. Государственная служба (ISSN 2070-8378), 2019, т. 21, № 5, с. 6-11.
22. https://www.un.org/sustainabledevelopment/cop21/, 05.05.2020
23. The Global Competitiveness Report 2019. http://www3.weforum.org/docs/WEF_TheGlobalCompetitivenessReport2019.pdf. 25.03.2020.
24. Schwab K. The Global Competitiveness Report 2018. Geneva, 2018, p. 8.
25. Aliyev I.H. https://en.president.az/articles/36566. 14.04.2020 .
26. Габибова З.З. Человеческий потенциал как основа идеологии развития. Баку, Асполиграф, 2014, 184 с.


***Açar sözlər:*** *inklüziv cəmiyyət, davamlı inkişaf, innovativ texnologiyalar, insan potensialı, dövlət idarəçiliyi*

**Urxan Ələkbərov**
*Rector of the Academy of Public Administration*
*under the Presdident of the Republic of Azerbaijan, academician*

## SUSTAINABLE INCLUSIVE DEVELOPMENT OF THE REPUBLIC OF AZERBAIJAN AND THE COUNTRIES OF THE FORMER USSR: COMPORATIVE ASSESSMENT

### SUMMARY

Next year marks the 30th anniversary of the formation of independent states that previously formed the USSR. The Republic of Azerbaijan also restored its independence at that time. The economic, social and humanitarian achievements of the Republic of Azerbaijan have been analyzed in this paper. The data and reports of the international development institutions (World Bank, UN, World Economic Forum, etc.) and independed experts has been used for analyses. This investiqation is carried out in comparison with the countries of the former USSR. The analysis showed that the Republic of Azerbaijan is among the world leaders in the field of sustainable development management and the formation of an inclusive society. These results have been achieved through the mobilization of the innovative public administration and management technologie. The human capacity building for in the organization of public administration and civil service arfe the diferent tools for sustainable inclusive development in the Republic of Azerbaijan.

***Keywords:*** *inclusive society, sustainable development, innovative technologies, human potential, public administration*

**Urxan Ələkbərov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik*

# УСТОЙЧИВОЕ ИНКЛЮЗИВНОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И СТРАН БЫВШЕГО СССР: СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ

## РЕЗЮМЕ

В следующем году исполняется 30 лет со дня распада СССР и создания независимых государств на постсоветском пространстве. Азербайджанская Республика также восстановила свою независимость в то время. В данной статье анализируются достижения Азербайджанской Республики в экономической, социальной и гуманитарной сферах после восстановления независимости. Анализ основан на информации и официальных отчетах международных организаций и проводится в сравнении со странами бывшего СССР. Анализ показал, что Азербайджанская Республика входит в число мировых лидеров в области управления устойчивым развитием и формирования инклюзивного общества. Эти достижения были достигнуты благодаря применению инновационных технологий в государственном управлении и в сфере организации государственной службы и развития человеческого потенциала.

***Ключевые слова:*** *инклюзивное общество, устойчивое развитие, инновационные технологии, человеческий потенциал, государственное управление*

# DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ
# SUSTAINABLE DEVELOPMENT MANAGEMENT

UOT 347.77; UOT 340.11: 330.341.1

**KAMRAN İMANOV**
**Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri, professor**

## ƏQLİ MÜLKİYYƏT İNNOVATİV İNKİŞAF KONTEKSTİNDƏ

*«Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir».*

*«Gələcəyimiz – innovasiyalar, texnologiyalar, yaxşı idarəetmə, şəffaflıq və sahibkarlara dövlət dəstəyindədir».*

*Azərbaycan Respublikasının Prezidenti*
*cənab İLHAM ƏLİYEV*

Məqalənin başlığına epiqraf kimi çıxarılan sözlərin müəllifi dövlət başçımızdır. Cənab İlham Əliyevin sözləri ilə desək, «Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir».

Qarşımızda duran vəzifələr də cənab Prezident İlham Əliyevin Davos İqtisadi Forumunda vurğuladığı kimi, «Gələcəyimiz – innovasiyalar, texnologiyalar, yaxşı idarəetmə, şəffaflıq və sahibkarlara dövlət dəstəyindədir».

Bu fikirlər sinkretik məna daşıyır, mövcud reallıqları əks etdirir, uzaqgörən kreativlik gücə malik olaraq, bu günümüzlə gələcəyimiz arasındakı körpüdür. Bununla belə, qarşımızda istər əqli mülkiyyət sistemi, insan kapitalı və intellekt, istərsə də elm, biliklər və innovasiyalar sahəsində yeni vəzifələrimizi müəyyən edir.

Mövzunun önəmliyini vurğulayaraq, məqalədə aşağıdakı suallara cavab axtaracağıq:

1. Biliklər və əqli fəaliyyət nəticələri (ƏFN) nə cür təmasdadır və əqli mülkiyyət (ƏM) nə deməkdir?
2. ƏM nədən ibarətdir və qorunan əqli mülkiyyət hüquqları (ƏMH) nə deməkdir?
3. "Əqli mülkiyyət" termininin mənşəyi və onun müasir izahı nə cürdür?
4. ƏM-in milli qanunvericilik bazası nədən ibarətdir və mülki-hüquq məkanında ƏM nə cür tənzimlənir?
5. Ölkəmizdəki iqtisadi və institusional islahatların ƏM-ə təsiri və ƏM-in dəyişmiş konteksti amilinin rolu və yeri nə cür təsəvvür edilir?
6. İnnovasiyalı iqtisadiyyat ƏM prizmasından nə cür görünür?
7. Azərbaycanın ƏM sisteminin cari vəziyyəti və həlli gözlənilən problemlər hansılardır?
8. Beynəlxalq ƏM sisteminin qarşılaşdığı çağırışlar və dünyəvi trendlər hansılardır?

### 1. Biliklər və əqli fəaliyyət nəticələri nə cür təmasdadır və əqli mülkiyyət nə deməkdir?

“Bütün incəsənət əsərləri və ixtiralar insan dühasından yaranır. Bunlar insanın layiqli həyatı üçün təminat mənbəyidir. İncəsənət və ixtiraların bütün növlərinin etibarlı qorunması dövlətin borcudur”. Doktor Arpad Boqşa məxsus olan bu əhəmiyyətli sözlər ÜƏMT-nın Cenevrədə yerləşən mənzil-qərargahının günbəzində yazılıb. Yazı mahiyyətcə və fəlsəfi baxımdan parlaq və anlaşıqlı şəkildə ƏM-in müasir dünyada rol və əhəmiyyətini təsvir edir.

ƏM qısaca və daha dolğun formada: “əqli mülkiyyət hüquqları”nın qorunması dövlətin borcudur və bu hüquqlar qorunur. Tanınmış yazar Şatobrianın sözləri ilə desək, burada “kiminsə hüququ – digərinin vəzifəsidir, yerinə yetirmək borcudur” məşhur hüquqi sxemindən fərqli olaraq, “hüquq borcu doğurmur, borc hüququ doğurur”, yəni intellektual sərvətlərin yaradıcıları qarşısında dövlətin borcu ƏMH-nın qorunmasını yaradır. Cəmiyyət faydalanaraq, bu hüquqları tanıyır, dövlət qanunvericilik səviyyəsində onları qoruyur.

Əqli fəaliyyətin zirvəsində universal və təbii insan resursları olan yaradıcılıq və yenilikçilik durur. Hər bir xalqın ən əhəmiyyətli olan sərvəti onun intellektidir və intellektual, əqli fəaliyyətinin nəticələridir. Hər bir ölkə özünün təkrarolunmaz simasına görə öz xalqına minnətdar olduğu kimi, eləcə də “əqli mülkiyyət” adlandırdığımız anlayış öz simasına görə onu yaradanlara borcludur. Bu gün “əqli mülkiyyət” anlayışı elə bir sahə təşkil edir ki, onun mərkəzini hər yerdə görmək mümkündür, kənarlarını təşkil edən çevrəsi isə heç yerdə yoxdur.

Bəs ƏM-ə daxil edilən əsərlər, ixtiralar və insan zəkasının digər yaradıcılıq sərvətləri nə cür təsvir olunmalıdır?

Həqiqətən, bizi əhatə edən ənənəyə çevrilmiş, istifadə edilən predmetlər çoxluğunun yaradıcıları vardır. Həmin əşyaların yaradıcılarına, yaradıcı şəxslərinə onlar tərəfindən düşünülüb, gözəl və rahat şəklə gətirildiyinə görə biz minnətdar olmalıyıq. Kitab və kompüterlər, saat, yuyucu maşınlar və bizim təmasda olduğumuz digər predmetlər öz yaradıcılarının beyin, zəka, yaradıcılıq, bir sözlə əqli (intellektual) əməyinin nəticələrinin məhsuludur. Bu predmetlər yaradıcıların müxtəlif intellektual əməyinin birləşməsi, sintezidir.

Nümunə kimi, saatı götürək. Kimsə saat mexanizminin işləməsini kəşf edib, digər yaradıcı onun müəyyən funksional xassələrini təkmilləşdirib, üçüncüsü saatı bugünkü formaya gətirib, nəhayət, digəri öz ustalığı ilə siferblatı yaraşdırıb. Bu birgə zəhmətlər əməyin böyük intellektual məsrəflərini tələb edib ideya kəşfə, yaxud ixtiraya çevrilib əsər yaradılıb. O zaman bir suala cavab axtaraq, əgər yaranan əşyaya, predmetə bu gün hamının əlçatanlığı varsa, bunlar hamı üçün faydalı, adi əşyaya çevrilibsə, onda nə vaxtsa bu predmetlər yalnız öz yaradıcılıqlarına məxsus idi, onların yaradıcılıq nəticəsi idi, bu şəxslərə məxsus mülkiyyəti idi.

Öz əməyi ilə maddi əşyanı yaradan şəxsin həmin əşyaya mülkiyyət hüququnun yarandığı qaydada yaradıcılıq nəticəsində, intellektual əməyin bəhrəsinə də mülkiyyət hüququ yaranır. Beləliklə, təbiətin yaradıcıya bəxş etdiyi, öz əməyinin nəticələrindən istədiyi kimi istifadə etmək kimi ayrılmaz hüququ “Əqli mülkiyyət” anlayışını əmələ gətirir. Bir sözlə, “Əqli mülkiyyət” ifadəsini işlədərkən bu anlayışı verərkən bilməliyik ki, söhbət qorunan intellektual yaradıcılıq məhsulundan, yəni yaradıcılarına məxsus olan və yalnız onların icazəsi ilə istifadə edilə bilən mülkiyyətdən gedəcək.

Bir tərəfdən yaradıcılıq nəticəsinin yaradıcısının həmin nəticəyə müstəsna mülkiyyət hüququ vardır, yəni onu istifadə etmək hüququ (əmlak hüququ), digər tərəfdən, bilavasitə müəlliflik və digər hüquqlar. Əgər istifadə hüquqları kateqoriyası mülkiyyət hüququ ilə oxşardırsa, bir sözlə, əqli mülkiyyət yaradıcısının sərbəst qaydada istifadə etdiyi əmlak hüquqlarıdırsa, onda müəlliflıklə bağlı hüquqlar kateqoriyası öz təbiəti etibarı ilə

ayrılmaz olan şəxsi, qeyri əmlak hüquqlarıdır. Odur ki, yaradıcının ayrılmaz olan şəxsi hüquqlarından fərqli olaraq, əmlak hüquqları müəllifin razılığı əsasında digər tərəfə verilə bilər. Belə ki, müəllifin ilkin əmlak hüququnun keçməsi nəticəsində digər tərəfin törəmə sahiblik hüququ yaranır.

İnsanın yaratdığı və mülkiyyətinə çevrilən zəka məhsuluna yanaşması ilə yanaşı, ƏM-ə informasiya, biliklər prizmasından baxılması faydalı olar.

ƏM ona daxil edilmiş yaradıcı ideyalar baxımından dəyəri olan informasiyadan ibarətdir. Həmin kommersiya dəyəri olan informasiyaya hüquqların maraqlı bir məqamı var. Bəllidir ki, yaradıcılıq, intellektual fəaliyyət nəticələri qeyri-maddi xarakter daşıyır və insan yaddaşında informasiya kimi qorunub saxlanılır. İnsanın bioloji yaddaşının xüsusiyyəti isə həmin informasiyanı uzun müddətli zaman kəsiyində saxlamağa qadir olmadığından onu obyektivləşdirmək məcburiyyətinə gətirir, yəni maddi daşıyıcıların birində həkk etməyə vadar edir.

Həqiqətən, insan zaman keçdikcə yaddaşında olan xaricdən alınan informasiyanı əldə edilən biliklə yanaşı, özünün yaratdığı informasiya və biliyi unutmaq təhlükəsi ilə qarşılaşır. Belə çıxır ki, insan tərəfindən yaradılan qeyri-maddi ƏM obyektləri obyektiv şəkildə yalnız maddi obyektlərdə həkk olunduğu halda mövcuddur. Bu isə ƏM-in iki təbiətinə (dualizminə) gətirib çıxarır. Həmin ikili təbiət hüquqların qorunmasında maraqlı nəticələrlə müşahidə olunur.

Bunları duymaq üçün aşağıdakı “biliklər dövranı”nın sxemi ilə tanış olaq [1].

Bəllidir ki, zəka məhsulu olan yeni kommersiya dəyərli informasiya biliklərlə bağlıdır. Belə ki, ƏM obyektləri intellektin, əqlin məhsulu – biliklərlə və dahi Eynşteynin fikrinə əsasən, biliklərdən üstün olan təxəyyüllə sıx təmasdadır. Ulu babalarımızın qədim və qocalmayan abidəmiz “Qutadqu-bilik”də bizə yadigar qalmış sözlərinə görə, “intellekt, əql xoşbəxtlik, səadət gətirir”.

ƏM mövcud olan biliklərdən əmələ gəlir və yeni biliklərin yaranması ilə tamamlanır, bilik mənbəyinə çevrilir. Daha dəqiq ifadə etsək, ƏM “biliklər dövranının həm xammalı, həm də məhsuludur”. Burada başlıca proses insanın əqli fəaliyyətidir. Bu fəaliyyətin nəticələri beyin, zəka, düşüncə məhsulu olduğuna görə, “duyulmayan”, ideal xarakter daşıyır. Deməli, qeyri-maddi nemətdir. Qorunma ƏFN-ə, qeyri-maddi obyektə şamil

**Biliklər dövranı**



olunur. Lakin mütləq bir əlaməti olduğu halda – ƏFN obyektiv formada ifadə və əks olunmalı, maddi fiksə olunmalıdır. Yalnız o zaman tələb olunan meyarlara uyğun olaraq, o ƏM obyektinə çevrilə bilər. Beləliklə, obyektiv əks olunmuş ƏFN ƏM-ə çevrilir, yaradıcı müstəsna hüquqlar əldə edir, ƏM obyekti üzərində sahibinin hökmranlığı təmin edilir.

Buradan ƏM-in əsas prinsipi nəzərə çarpır.

ƏFN fərdin əqli fəaliyyətinin nəticəsində yaranmış qeyri-maddi obyektdir. İdeal yaradılan hər hansı daşıyıcıda maddiləşir və bununla da obyektivləşir, nəticədə isə hüquqi qorunma obyektiv ifadə olunmuş ƏFN (ilkin olaraq, qeyri-maddi olan) ƏM obyekti olur. Bu, mahiyyətcə o deməkdir ki, ƏM obyektiv iki hissədən – "obyektiv ifadə olunmuş" və "qeyri-maddi" ƏFN-dən ibarətdir, yəni ƏM-in ikili təbiəti ilə rastlaşırıq.

Maddi ifadə olunmuş qorunan ƏFN, yəni tərkibində ƏM obyektləri olan maddi əşya və əmtəələr mülki (iqtisadi) dövriyyədə iştirak edirlər. Özü də ƏM onun yaradıcısına məxsusdur, eyni zamanda tərkibində ƏM olan həmin əmtəə tamamilə başqa şəxsə məxsus ola bilər.

Beləliklə, ƏM-in təbiətindən irəli gələn ikili prinsipi o deməkdir ki, qeyri-maddi ƏM obyektləri yalnız maddi obyektlərdə, o cümlədən əksini tapdığı əmtəələrdə obyektiv mövcud olur.

Buradan çıxır ki, qeyri-maddi ƏM obyektinin hüquq sahibi onun mülkiyyətçisi olaraq, vacib deyil ki, həmin ƏM obyektinin əksini tapdığı əmtəənin də sahibi olsun. Bu real həyatda da sübut olunur, belə ki, ƏM obyektinin yaradıcısı, bir qayda olaraq, onu özü üçün deyil, geniş ictimaiyyətin istifadəsi üçün yaradır.

Qeyd etdiklərimizin nəticəsi kimi ƏM-in yaranması və biliklərlə təmasda olması aşağıdakı universal düstura gətirib çıxarır [2].

Əqli fəaliyyət (ƏF) →
→ Əqli fəaliyyət nəticələri (ƏFN) →
→ Əqli mülkiyyət hüquqları (ƏMH) =
= Əqli mülkiyyət (ƏM)

Bu hissənin sonunda biliklərin və ƏM-in əhəmiyyətini nümayiş edən iki misal gətirmək məqsədə uyğun olar.

İntellektin və biliklərin xüsusi əhəmiyyətini qeyd edərək, XX əsrin görkəmli filosofu Karl Popper onların istənilən maddi əşyadan nə qədər fundamental və dəyərli olduğunu nümayış etdirən çox gözəl bir misal gətirmişdi. Filosof belə bir situasiyanı təsəvvürə gətirməyi təklif edirdi: sənaye və sosial strukturlar da daxil olmaqla, tutaq ki, bizim iqtisadiyyatımız məhv edilmiş və ya yox olmuşdur. Lakin yalnız elmi və mədəni biliklər qorunub saxlanmışdır. K.Popper yazırdı ki, bu halda bəşəriyyətin yeni nəsilləri intellekt və qorunub saxlanmış biliklər hesabına yox olmuş maddi və sosial obyektləri qısa müddət ərzində bərpa edə biləcəkdir. Bununla yanaşı, filosof qeyd edirdi ki, əks halda, yəni bütün yığılmış biliklər məhv olmuşdursa və yalnız maddi dünya qorunub saxlanmışdırsa, o zaman bu mənzərə bizə sonradan vəhşi tayfaların məskunlaşdığı tərk edilmiş sənaye dünyasını xatırlada bilər.

ƏM-in qorunması ilə bağlı digər bir misal musiqi alətlərinin icadı ilə bağlıdır. Saksofon orkestrin yeganə patentli alətidir. Ona Fransada 1846-cı ildə Adolf Saks tərəfindən patent alınmışdır. Sonrakı təxminən 70 il ərzində saksofona aid 14 patent alınmışdır, onlardan bəziləri elə Saks tərəfindən, bəziləri isə özlərini rəqib adlandıran digərləri tərəfindən alınmışdır. Bu patentlər saksofonun müştük hissəsinin hal-hazırda bildiyimiz kimi olmasına, alt saksofonun, saksofonun digər müxtəlif növlərinə və saksofonun özünün təkmilləşdirilmiş mexanizminin yaranmasına gətirib çıxarmışdır. Hal-hazırda bu texnologiya ictimai sərvətlər, varidat sahəsində 100 ildən artıqdır ki, mövcuddur, patentlər açıqlanıb və hər kəs saksofonu istifadə və istehsal edə bilər.

İndi isə bunun skripkanın təkamülü ilə müqayisə edilməsi maraqlı və ibrətamiz olardı. İtaliyada, Kremonda XVII və XVIII əsrlərdə skripkanın istehsal texnologiyası ailə sirri idi və onu nəsildən-nəslə sirr olaraq ötürürdülər. Bunun nəticəsidir ki, indiyədək heç kim

dünyada məşhur Stradivari, Qvarneri və digər ən yaxşı ustaların skripkalarının necə istehsal edildiyini bilmir. Onların istehsalının sirri zamanla ailə sirlərində və onların öz biliklərinin bir-birinə ötürülməsi nəticəsində hansısa mərhələdə tükənmiş və itirilmişdir.

Sonda bir daha qeyd edək ki, iki vacib "əql" və "mülkiyyət" konsept-anlayışların birləşməsi təsadüfi deyil: ƏFN-lərin yaradıcılıq və yenilikçilik mövqeyindən mühüm olanları obyektiv əks olunduğu halda yaradanın mülkiyyəti hesab edilir və mülkiyyətə xas olan əlamətləri verilən müstəsna hüquqlar daşıyır.

### 2. Əqli mülkiyyət nədən ibarətdir və ona hüquqlar nə deməkdir?

ƏM toplanmış, ümumiləşdirilmiş anlayışdır. Deməli, onun tərkibi bu anlayışın vacib əlamətlərini özündə daşıyan və bu anlayışın sinfini, mahiyyətini müəyyən edən bəzi obyektlərin məcmusundan yaranır. Bu anlayışı açıqlayarkən, biz aşağıdakılara olan hüquqları özündə birləşdirən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) təsnifatından istifadə edəcəyik. Hüquqları olan obyektləri sadalayaq [3]:

- kompüter proqramları və məlumat bazaları daxil olmaqla, elmi, ədəbi və bədii əsərlərə;
- ifaçılıq fəaliyyətinə, fonoqram istehsalına və radio-televiziya verilişlərinə;
- insan fəaliyyətinin bütün sahələrinə aid olan ixtiralara, elmi kəşflərə;
- faydalı modellərə və sənaye nümunələrinə;
- əmtəə və xidmət (servis) nişanlarına, coğrafi göstəricilərə, firma və kommersiya, əmtəənin yaranma yerinin adlarına;
- haqsız rəqabətdən mühafizəyə.

ƏM obyektlərinin siyahısı açıqdır və onların sırasına əqli fəaliyyətlə bağlı istehsalat, elmi, ədəbi, bədii sahələrinə aid olan digər bütün hüquqlar daxil edilə bilər.

Təsnifata görə, ƏM-in müxtəlif növləri müvafiq meyar və şərtləri ödəyən sadalanma prinsipi əsasında ƏM obyektlərindən ibarətdir. Burada müxtəlif sahə bilikləri birləşdiyindən ƏM anlayışı sinkretik xarakter daşıyır. Bu fenomen məzmunu, forması və təyinatı vasitəsilə müəyyən edilir.

Belə ki, ƏM məzmununa görə menecment, texniki-mühəndis və humanitar-mədəni anlayışdır. Formasına görə ƏM hüquqi konstruksiyadır və təyinatına görə müstəsna olaraq iqtisadi anlayışdır.

Verilən tərifə əsasən, ƏM-in ən vacib və böyük tərkib hissəsini elm, ədəbiyyat və incəsənət əsərləri ilə bağlı müəlliflik hüququ və ona oxşar olan ifaçıların, fonoqram istehsalçılarının, radio-televiziya yayım təşkilatlarının əlaqəli hüquqları təşkil edir. ƏM-in ikinci vacib hissəsini ixtiralar, faydalı modellər və sənaye nümunələri ilə bağlı patent hüququ təmsil edir. Nəhayət, bunların arxasınca əmtəə nişanları və coğrafi göstəricilər və digər obyektlərlə bağlı hüquqlar gəlir. ƏMH-nın müəyyən hissəsi qeyri-ənənəvi obyektlərlə də bağlıdır. Bunların sırasında inteqral sxem topologiyaları və xüsusi məlumat topluları müasir İKT-nin nəticəsidir. Qeyri-maddi mədəni irsin qorunmasında ənənəvi mədəni nümunələr (folklor nümunələri) və ənənəvi biliklərə ƏMH verilməsi müstəsna əhəmiyyətə malikdir və bu növ obyektlər də qeyri-ənənəvi obyektlər kimi qəbul olunurlar.

Bir daha qeyd etmək vacibdir ki, ƏM ona olan hüquqlar vasitəsilə təqdim olunur.

Şübhəsiz ki, özündə yaradıcılıq və kommersiya dəyəri daşıyan məlumat kimi əsər, yaxud ixtira və ya digər obyektlər ümumi qəbul edilmiş mənada ƏM-ə aid edilir və onun tərkib hissəsinin komponentləridir. Lakin ƏM hüquqi mənada mülkiyyət kimi hüquq sahiblərini nəzərdə tutur və bu baxımdan, ƏM-in bu və ya digər komponentlərinə olan hüquqlar hüquqi obyekt kimi çıxış edir. Deməli, ƏM-in komponentləri yox, onlara olan hüquqlar qorunur. Bunun səbəbi nədən ibarətdir? Məsələ ondadır ki, ƏM yaradıcılıq məhsulu kimi toxunula və hiss oluna bilən formada çıxış etmir, onun obyektləri duyulmayan obyektlərdir. ƏM-ə aid olan

komponentlər o zaman qoruna bilərdi ki, əgər həmin komponentlər hər hansı bir toxunuşla, hiss oluna bilən formada ifadə olunsaydı, yəni ƏM-in qavranılmasına imkan verən hər hansı bir formada təsvir olunan halda olsaydı. O zaman ƏM-in komponentləri öz fiziki parametrləri mövqeyindən təyin, yaxud identifikasiya etmək mümkün olardı.

Yuxarıda qeyd edildiyi kimi, adətən, əqli mülkiyyət iki böyük sinif kimi təsnif olunur, o cümlədən elmi, ədəbi, bədii mülkiyyət (əsərlər) və sənaye mülkiyyəti (ixtiralar, əmtəə nişanları və s.). Bu cür təsnifat müəyyən mənada kifayət qədər səlis parçalanma kimi qəbul oluna bilməz. Səbəbi ondadır ki, əqli mülkiyyətin elə komponentləri də var ki, onlara olan hüquqlar ifaçılara, fonoqram istehsalçılarına və yayım təşkilatlarına məxsusdur və bu hüquqlar əsərlərə olan hüquqlarla (müəlliflik hüququ) əlaqələnir. Elə bu qaydada əqli mülkiyyətə aid olan əqli fəaliyyətin elə nəticələri mövcuddur ki, onlar da bu cür təsnifata düşmür. Məsələn, qeyd etdiyimiz inteqral sxemlərin topologiyası və ya məlumat topluları, folklor nümunələri və ənənəvi biliklər. Bu səbəbdən əqli mülkiyyət anlayışı həcminə görə elmi-ədəbi-bədii və sənaye mülkiyyət birləşməsi anlayışından daha genişdir. Odur ki, son illər bu təsnifata sığışmayan obyektlər xüsusi qeyri-ənənəvi ƏM qrupunda toplanılır.

Əqli mülkiyyəti qorumaq, müdafiə etmək və ümumiyyətlə əqli mülkiyyət hüquqlarını idarə etmək məqsədi ilə hüquqi alətlər, vasitələr yaradılmışdır.

Müəlliflik hüququ, əlaqəli hüquqlar, patentlər, əmtəə nişanları, coğrafi mənşə göstəriciləri və s. – bu növ hüquqi alətlər, vasitələrdir. Həmçinin bir çox ölkələrdə ədalətsiz rəqabətdən mühafizə adlandırılan, həmçinin kommersiya sirlərinin qorunması həyata keçirilir.

Bu hissənin sonunda ƏM obyektlərinin təsnifatı təqdim edilir.

**Əqli mülkiyyət obyektlərinin təsnifatı [1]**



**ƏM-in bilavasitə qorunan obyektlərinin üç növü:**

1) Müəlliflik hüququ, əlaqəli hüquqlar daxil olmaqla qorunan obyektlər (1-7; 14-16);

2) Patent hüququ ilə qorunan obyektlər (8-13);

3) Qeyri-ənənəvi ƏM hüququ ilə qorunan obyektlər (17-19);

4. ƏM-in dolayısı yolla qorunan obyektləri (20; 21).

**Şəxsi qeyri-əmlak hüquqları: yaradıcılıq meyarı ilə ölçülür və buraya daxil olan obyektlər:**

- bütün növ əsərlər;
- ifalar;
- ixtiralar, faydalı modellər və sənaye nümunələri;
- inteqral sxem topologiyaları.

**3. "Əqli mülkiyyət" termininin mənşəyi və onun müasir izahı nə cürdür?**

Dünya alimlərinin bu terminin səlahiyyətləri haqqında qızğın müzakirələrinə baxmayaraq, ƏM anlayışı həyatda öz yerini tapmış və vətəndaşlıq hüququ qazanmışdır. Bu məsələ ilə bağlı diskussiyaların kökləri XIX əsrin axırından başlayır, o zamanlardan ki, ƏM anlayışı və onun tərkib hissələri olan "ədəbi" və "sənaye" mülkiyyət məfhumları bir sıra ölkələrin qanunvericilik sənədlərində və beynəlxalq konvensiyalarda öz əksini tapmağa başlamışdı. Öz yaranması ilə "əqli mülkiyyət" termini XVIII əsrin Fransa qanunvericiliyinə minnətdar olmalıdır. Bu da həqiqətdir ki, müəlliflik və patent hüquqlarına dair propriyetarlıq Fransada meydana gəlmişdir, məsələn, Fransanın o zamankı qanunvericiliyi təbii hüquqlara əsaslanırdı. Müəlliflik və patent hüququ üzrə Fransa qanunvericiliyi əsərin, yaxud ixtiranın yaradıcısına özündən ayrılmaz, təbiətdən verilmiş və dövlət institutlarının onu tanımasından asılı olmayan hüquqları bəxş etmişdir. Bu cür mövqeyin parlaq timsalları kimi Didro, Volter, Qelvesiy, Russo və digər fransız filosof-maarifçilərinin işləri çıxış edir. Bu əsərlərdə şəxsin əməyi ılə yaradılmış maddı əşyaya və yaradıcı fəaliyyətdən irəli gələn yaradıcı nəticəyə olan hüquqlar qohum hüquqlar kimi əlaqələndirilmişdir.

Buradan da öz əməyinin nəticələrinə müstəsna sərəncam imkanlarını cəlb edən müəllifin mülkiyyət hüququ əmələ gəlmiş, bu ideyalar XVIII əsrin sonunda inqilabçı Fransanın qanunlarında öz əksini tapmış və artıq "ədəbi" və "sənaye" mülkiyyəti anlayışları özünü təsbit etmişdi. ƏM termininin mövqeyinin möhkəmlənməsində ABŞ-ın əhəmiyyətli rolu olmuşdur. Demək kifayətdir ki, Fransa qanunlarından xeyli əvvəl ABŞ-da müəlliflik hüququ "mülkiyyətin ən müqəddəs növü kimi" səciyyələndirilmişdir. Məsələn, Missuri ştatının 1789-cu il tarixli Qanununda deyilir ki, "insan ağlının əməyinin nəticəsi olan mülkiyyətdən artıq insana məxsus digər mülkiyyət ola bilməz".

XIX əsrdə Avropa ölkələrinin əksəriyyətinin qanunvericiliyində müəlliflik və patent hüququna mülkiyyət hüququ mövqeyindən yanaşma geniş yayılmışdı. 1883-cü ildə imzalanmış və bu günə qədər sənaye hüquqlarının qorunması üzrə ən vacib beynəlxalq sənəd kimi qüvvədə qalan Paris Konvensiyasında sənaye mülkiyyəti termini özünün tam təsbitini tapmışdır. Elə bu səpkidə də "ədəbi mülkiyyət" anlayışı öz təsbitini 1886-cı ildə imzalanmış müəllif-hüquq sahəsində ən nüfuzlu və qocaman beynəlxalq müqavilə olan "Ədəbi və bədii əsərlərin qorunması haqqında" Bern Konvensiyasında tapmışdı. "Əqli mülkiyyət" termininin tam qəti yeri isə 1967-ci ildə Stokholmda imzalanmış ÜƏMT-nı təsis edən Konvensiyanın mətnində təsbit edilmişdir və BMT-nın Ümumdünya Əqli Mülkiyyət Təşkilatının adında işlədilir.

Bu Konvensiya əsasən, əqli mülkiyyət hüquqlarının qorunması obyektləri kimi istehsalat, elmi və bədii sahələrdə yaradıcılıq fəaliyyətinin konkret nəticələri çıxış edir. Bu gün əqli mülkiyyət termini əksər ölkələrin qanunvericiliklərində, elmi ədəbiyyatda və təcrübədə geniş şəkildə istifadə olunur.

Azərbaycan Respublikasında "əqli mülkiyyət" termini Konstitusiyada və bir sıra qanunlarda öz əksini tapmışdır.

ƏM-in müasir izahı onun "biliklər cəmiyyət"ində innovasiyalı, kreativ iqtisadiyyatla dəyişmiş rolu ilə və ƏM-in yeni konteksti mikroiqtisadi və makroiqtisadi səviyyədə dəyişikliklərlə bağlıdır.

Təhlillər göstərir ki, son onilliklər ərzində sərvətlərin yaranma mərkəzi maddi aktivlərdən, kapitaldan qeyri-maddi aktivlərə, intellektual kapital tərəfə yönəlir. Bununla rəqabət fokusu dəyişir, investisiya axınlarının vektoru ƏM-ə istiqamətlənir. Belə ki, mikroiqtisadi səviyyədə ötən əsrin 80-ci illərində 5% payı olan qeyri-maddi aktivlər (əsasən ƏM ilə qoru-nan aktivlər) hal-hazırda «S&500» fond indeksinə daxil olan korporasiyalarda bu rəqəm 80%-ə qədər yüksəlib. Makroiqtisadi səviyyədə dəyişikliklər isə ona gətirib ki, ƏM nöqteyi-nəzərindən tutumlu sahələr inkişaf etmiş ölkələrdəki ÜDM-in yarısına qədər çatıb. 2017-ci ilin fevral ayında açıqlanan ABŞ-ın "U.S.Chamber International IP Index" "The Roots of Innovation" Hesabatı ƏM-in iqtisadiyyata müsbət təsirini təsdiqləyir.

Dünyanın aparıcı dövlətlərində bilik sahəsinə aid olan sahələrin ÜDM-dəki payı getdikcə artmaqdadır. Belə ki, Avropanın inkişaf etmiş ölkələrində – 35%, ABŞ-da – 45%.

ƏM-in dəyişmiş təsir mühiti eyni dərəcədə ƏM-ə və onun roluna olan münasibətdə bizim düşüncə tərzimizin dəyişilməsinə gətirib çıxarır. Hal-hazırda ƏM investisiyalarının cəlb edilməsi və innovasiyaların həyata keçirilməsində fəal aktora çevrilib və sosial-iqtisadi uğurların aparıcı amilləri arasında yerini tutmuşdur.

Müasir texnologiyaların sıçrayışı dövründə və innovasiyaların "rəqəmsal imperaiv" zamanında innovativ inkişaf – tədqiqatların nəticəsində əldə edilən biliklərin və texnologiyaların, investisiyaların və ƏM-in yaratdığı insan kapitalının ekosistemidir. Odur ki, tanınmış mütəxəssislərin fikrinə əsasən, «gələcəkdə əqli mülkiyyətin beynəlxalq arxitekturası və formasının texnologiyalar tərəfindən getdikcə daha çox diktə ediləcəyi və idarə edilməsi qaçılmazdır». Bununla da texnologiyaların ƏM-in mövcud landşaftına kardinal təsiri və öz növbəsində ƏM-in buna qarşı çıxmaması, əksinə, ona uyğunlaşması vurğulanır.

### 4. Əqli mülkiyyətin milli qanunvericilik bazası nədən ibarətdir və mülki-hüquq məkanında əqli mülkiyyət nə cür tənzimlənir?

Aşağıda göstərilən sxem ölkəmizin ƏM üzrə qanunvericilik bazasını təsbit edir. Bununla yanaşı, qanunların icrası üzrə müvafiq dövlət orqanları da sadalanır.

**Əqli mülkiyyətin milli qanunvericilik bazası, təsnifatı və sərəncamçılığı**



ƏMH-nı qoruyan 2 müdafiə xətti mövcuddur:

I xətt – 8 qanun və müvafiq Məcəllələrin müddəaları.

II xətt – haqsız rəqabət və kommersiya sirri haqqında qanunlar və bir sıra digər qanunlar.

ƏFN-ni tənzimləyən qanunvericilik bazasından söhbət açılaraq, hüquqi mövqedən irəli gələn bir neçə mühüm amilləri qeyd etmək vacibdir. Qanunlarda ƏFN ən azı iki aspekt mövqeyindən nəzərdən keçirilməlidir.

Birincisi, ümumi qəbul olunmuş mənada əqli (yaradıcılıq) fəaliyyətin yekunu kimi.

İkincisi, hüquqi mənada ƏM obyektini təmsil edən mülki hüquq obyekti kimi.

Adi mənada əqli fəaliyyət nəticəsi, xüsusilə də yaradıcı fəaliyyətin nəticəsi – əsər dedikdə, "maddi əşya deyil, yaradıcı təxəyyülün özü", yəni ideal, qeyri-maddi obyekt başa düşülür.

Müasir hüquq isə şəxslərin "daxili" həyatlarına, eləcə də insanlar arasındakı daxili münasibətlərə müdaxilə etməyi qətiyyən qəbul etmir, hüquq mənəvi həyata deyil, yalnız xarici dünyaya müdaxilə edilə bilər. Fikir yayılmayıbsa, o, hüquq üçün sadəcə mövcud deyil. Başqa sözlə desək, bir az əvvəldə qeyd olunduğu kimi, hüquq əqli fəaliyyəti bilavasitə tənzimləmir və buna qadirdə də deyil. Yalnız yaradılan əmələ gəldiyi halda yaradıcılıq prosesi hansısa məhsulunun yaranması ilə nəticələnmişdirsə, deməli, bu fəaliyyətin müəyyən nəticəsi meydana çıxmışdır və bu mərhələdən sonra onun hansı obyektiv forma almasından asılı olmayaraq, ictimai tanınmasını təmin edən, hüquqi rejimini və qorunmasını və yaradıcısının hüquqlarını və qanuni mənafelərini müəyyən edən mülki hüquq normaları fəaliyyətə başlayır. Hegelin qeyd etdiyi kimi: «Hüquq mənəvi məkana hüdud qoymaqda gücsüzdür».

Yaradılan yaradıcıdan "ayrıldıqda", mənimsənilə bilir və hüquqi əlaqələrə girir. Başqa sözlərlə, ƏFN yalnız hər hansı obyektiv forma aldıqdan və bu sayədə mənimsənildikdən sonra hüquqi əlaqələr obyektinə çevrilə bilər. Bu halda ƏFN haqqında hüquqi mənada mülki hüquq obyekti kimi danışa bilərik. Qeyd olunanlardan belə aydın olur ki, yalnız yaradıcıya aid mövcud olan ƏFN-nin digər şəxslər üçün də mövcud olması üçün iki vacib şərt vardır. O, öz yaradıcısından "ayrılmalı" və üçüncü şəxslər tərəfindən mənimsənilə bilməlidir. Bu isə o deməkdir ki, həmin yaradıcılıq nəticəsi obyektivləşdirilməlidir.

ƏFN-nin obyektiv ifadəsi onun yaradıcısından başqa heç kəsə məlum olmayan "yeni biliyin" digər şəxslərə verilməsi, obyektiv ifadə olunmuş "yeni biliyin", yaradıcılıq nəticəsinin maddi daşıyıcısının meydana çıxması şərtidir.

Biliklərin obyektivləşdirilməsi prosesi insan beynində olan subyektiv bilikləri bəzi maddi daşıyıcılar (səs, kağız, və s.) vasitəsilə obyektiv biliklərə çevirir, onların formasını dəyişdirir. Bununla, ideal varlıq maddi örtüyə malik olur, yəni subyektin obyektivləşdirdiyi biliklər artıq yaradıcısından kənarda mövcud olmağa başlayırlar. Bir sözlə, "mövcud olmaq – duyulub, mənimsənilməkdir".

Beləliklə, giriş hissəsində biliklər dövranını təsvir edərkən qeyd olunduğu kimi, "ƏFN obyektiv ifadə olunmalıdır".

Deyilənləri nəzərə almaqla, obyektiv ifadə olunmuş ƏFN haqqında öz-özlüyündə qeyri-maddi məhsul olan hüquqi termin kimi danışa bilərik. Hüquqi qorunma təqdim edilən obyektiv ifadə olunan ƏFN ƏM obyektləri sayılır. Onlar da öz növbəsində xarakterlərindən asılı olaraq, elm, ədəbiyyat və incəsənət əsərləri, ixtiralar, əmtəə nişanları və s. adlandırılan qeyri-maddi kommersiya məhsulları kimidir. Bunların da hər birinin özünəməxsus qorunma qabiliyyəti və yaradıcılarının hüquqlarının istifadəsi, həyata keçirilməsi və qorunmasının xüsusi şərtləri vardır [4].

Məhz obyektiv ifadə olunmuş ƏFN iqtisadi dövriyyədə iştirak edə və spesifik məhsul – əqli mülkiyyət ola bilər: "satıla bilən hər bir şey məhsul adlanır". Müasir tendensiya belədir ki, ƏFN getdikcə daha çox əmtəə – bazarda fəaliyyət üçün yaradılan əqli əmək məhsulu xüsusiyyətini əldə edir. Bu, ilk növbədə, intellektual nailiyyətlərin maddi daşıyıcılarının tirajlanması hesabına həyata keçirilir, çünki "yaradıcılığın qeyri-cismani nəticəsi yalnız onun cismani daşıyıcısı ilə birlikdə satıla

bilər". Ədəbiyyatda tez-tez gətirilən misalda olduğu kimi: "Ilham satılmır, amma əlyazmanı satmaq mümkündür" (Puşkin, "Kitabsatanın şairlə söhbəti").

Yalnız "ideyaların təbiətdə dövranının" sonuncu mərhələsi, daha əvvəl şərh edilmiş ƏM obyektlərinin, obyektiv ifadə olunmuş ƏFN-nin istifadəsi mərhələsi – göstərilən obyektlərlə əlaqədar hüquqi münasibətlərin yaranmasına gətirən ictimai əlaqələrə hüquqi tənzimləmə, hüquq normalarının təsiri üçün əlçatandır. ƏM-in tam hüquqlu sövdələşmə obyekti olması üçün ona etibarlı "hüquqi don" geyindirmək, qanunvericilik təminatı vermək lazımdır.

**5. Ölkəmizdəki iqtisadi və institusional islahatların ƏM-ə təsiri və ƏM-in dəyişmiş konteksti amilinin rolu və yeri nə cür təsəvvür edilir?**

ƏM sisteminin qarşısında duran vəzifələr dövlət başçısının innovasiyalı inkişafla bağlı yürütdüyü iqtisadi islahatlar siyasəti ilə formalaşdırılır. Bununla da ƏM bu siyasətin təsirinə və innovativ inkişafına adekvat xidmət etməlidir, investisiyaların cəlb edilməsində və innovasiyalara dəstək verilməsində real aktora çevrilməlidir. ƏM-in əhəmiyyətinin və faydasının artırılmasında əsas prinsip cənab Prezidentin iqtisadi islahatlarının uğurla həyata keçirilməsinə xidmət etməkdədir, cəsarətlə keçirilən tədbirlərinə dəstək olmasındadır, elmi-tədqiqat nəticələrindən kommersiyalaşma potensialı olan texnologiyaların seçilməsi və tətbiqindədir. Bununla da ƏM-in investisiyaların cəlb edilməsi və innovasiyaların həyata keçirilməsində fəal aktora çevrilməsi, öz-özlüyündə abstrakt vasitədən sosial-iqtisadi uğurların aparıcı amilləri sırasında yerini tutmasıdır. Bir sözlə, ƏM və innovasiyalı inkişaf cütlüyünə məxsus olan emercent effektivliyə nail olmaq məqsədimizə çevrilməlidir.

Azərbaycan uğurlu inkişaf yolundadır.

Bunun obyektiv əsaslarından ilk növbədə cənab Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, uzaqgörən siyasətini qeyd etməliyik. Bu siyasətin bəhrələridir ki, islahatçı ölkələrin avanqardına daxil olan Azərbaycan "Doing Business - 2020" hesabatında islahatçı 20 ölkə sırasına daxil edilib. Dünya İqtisadi Forumunun Qlobal Rəqabətqabiliyyətlilik İndeksi (GCI) - 2019 hesabatında Azərbaycan qanunvericiliyin effektivliyinə – 13-cü, hökumətin dəyişikliklərə olan reaksiyasına – 5-ci və hökumətin gələcəyə yönəlmiş fəaliyyətinə, uzaqgörənliyinə görə 10-cu yerləri tutur.

Xüsusi ilə vurğulanmalıdır ki, yaradılan Əqli Mülkiyyət Agentliyi cənab Prezidentin apardığı institusional islahatının məhsuludur. Həmin dəyişikliklərin nəticəsidir ki, ƏM sahəsinin inkişafında islahatlar və yeniliklər öz əksini tapmış olur. Belə ki, son Rəqabətqabiliyyətlilik İndeksinə əsasən, Azərbaycan 141 ölkə arasında "əqli mülkiyyətin qorunması" göstəricisinə görə 30-cu yerdə qərarlaşıb. Əqli Mülkiyyət Agentliyinin mövcud statistika və ÜƏMT-nın təlimatı əsasında apardığı hesablamarı göstərir ki, Azərbaycanın kreativ iqtisadiyyatının ÜDM-dəki payı 5,1%-ə çataraq, bir neçə inkişaf etmiş ölkələr səviyyəsindədir.

**GCI-də Azərbaycanın "əqli mülkiyyətin qorunması" üzrə göstəricisi (141 ölkə) [5]**






Qrafiklərdən göründüyü kimi, GCI-də “əqli mülkiyyətin qorunması” göstəricisi dövlət başçısının islahatlarının ikinci dalğası ilə tamamilə uyğun gəlir. Azərbaycan 141 ölkə arasında “mülkiyyət hüquqlarının qorunması” üzrə 37-ci yerdə və “əqli mülkiyyətin qorunması” göstəricisinə görə 30-cu yerdə qərarlaşıb. Burada diqqəti cəlb edən odur ki, 2015-2016-cı illərdən, yəni islahatların yeni mərhələsindən başlayaraq, bu göstərici ardıcıl olaraq yaxşılaşır. Rəqabətqabiliyyətlilik İndeksində 92-ci yerdən 2016-2017-ci illərdə – 71-ci, 2017-2018 – 37-ci, sonra 36-cı və nəhayət 2019-cu ildə 30-cu yerdə qərarlaşıb. Bu göstərici üzrə Azərbaycan bir neçə Avropa ölkələrini üstələyib, o cümlədən Portuqaliya (32-ci yer), Çexiya (34-cü yer), Sloveniya (38-ci yer) və s. qonşu ölkələrlə müqayisə etdikdə gorurük ki, Türkiyə 87-ci yerdə, Rusiya – 90, Gürcüstan – 94, İran – 136-cı yerdədirlər.

Azərbaycanda (dünyada qəbul edildiyi kimi) ƏMH-nın qorunması və təminatı səviyyəsi ilə adambaşına düşən ÜDM göstəricisi arasında güclü müsbət əlaqə mövcuddur.

Bütün bunlar Azərbaycan Respublikasının rəhbərliyinin islahatlarının dərinləşdirilməsinin qiymətləndirilməsidir, islahatların davamlılığına verilən beynəlxalq dəyərdir, kreativliyə, yenilikçiliyə, innovasiyalara və gələcək Azərbaycana olan töhfələrdir. Kreativliyə, innovasiyalara doğru kardinal dəyişikliklər Azərbaycanın yeniləşməsinin növbəti, dördüncü sənaye inqilabının fəal iştirakçısına çevrilməlidir.

Azərbaycan yeni iqtisadi siyasətin mühüm qolu – innovativ inkişafa qədəm qoyur. Bu məqsədlə innovativ ekosistemin əsasları yaradılmaqdadır.

Bəllidir ki, innovasiyalar iqtisadi artımın aparıcı qüvvələrindən biridir. Yenilikçilik, yaradıcılıq, ixtiraçılıq isə innovasiyaların başında durur.

XX əsrdə yaranan təşkilatlanmış innovasiyalı sistemlər innovasiya fenomeninə, onun təbiətinə aid olan və dövlətin bazar iqtisadiyyatı şəraitində innovasiyalı fəaliyyətin dəstəklənməsindəki rolu haqqında elmi fikri düşünməyə vadar etdi. İxtira fəaliyyətinə aid iki vacib icadın müəllifliyi Nobel laureatı, iqtisadçı-riyaziyyatçı Kennet Errouya məxsusdur.

- İxtiraçılıq risklidir, çünki hansısa problemin həllinə yönəldilən cəhdin həllinin olub-olmaması şəraiti ilə rastlaşır.
- Problemin həlli haqqında məlumat isə “ictimai nemət” olaraq, digərləri tərəfindən istifadə imkanı olduğu və çox vaxt həlli tapanın bunun qarşısını alması imkanının olmadığı səbəbindən yaradıcı nəticənin mənimsənilməsinə gətirmiş olur.

**GCI-də Azərbaycanın “əqli mülkiyyətin qorunması” və “adambaşına düşən ÜDM” üzrə göstəriciləri arasında əlaqə**



Odur ki, Errounun mülahizəsinə əsasən, zahiri, kənardan qarışmamaq vəziyyətində bazarın ixtira fəaliyyətinə yönələn yatırımları cəmiyyətin istəyindən az miqdarda olmalıdır. Bazar mexanizminin həmin çatışmazlığı, nöqsanı dövlətin bu məsələyə müdaxiləsinin müxtəlif formalarına gətirib çıxararaq, innovasiyaların dəstək verdiyi müasir sistemlərin simasını müəyyən edir.

Lakin dövlətin innovasiyalı proseslərə müdaxiləsi heç də demək deyil ki, yük bütövlükdə dövlət üzərinə düşür. Dünya təcrübəsindən, xüsusən inkişaf etmiş ölkələrin praktikasından göründüyü kimi, dövlət müdaxiləsi birbaşa və həmçinin dövlət-özəl tərəfdaşlıq səviyyəsində və dolayısı yollarla tənzimlənir.

Birbaşa dövlət tənzimlənməsinə aiddir:

- Dövlət universitetlərinin və ETİ-nın büdcədən maliyyələşməsi;
- ETTKİ-nin dövlət sifarişləri, məqsədli subsidiyalar, güzəştli kreditlər, özəl banklara zəmanətin verilməsi, investisiyalara kommersiya riskinin dövlət sığortalanması, xarici texnologiyaların, patent və lisenziyaların dövlət hesabına alınması, mükafatlar və s. vasitəsilə özəl kompaniyalara dəstəyi;
- ƏMH-nın təmin edilməsi ilə özəl firma və kompaniyaların öz təşəbbüsü ilə aparılan tədqiqatlara və araşdırmalara özəl maliyyələşmənin cəlb edilməsi. ƏMH bazar qüvvələrini innovasiya fəaliyyətinə cəlb edirlər, rəqabət şəraitində üstünlük əldə etməyə yönəldirlər. Dolayısı yolla innovasiyaların tənzimlənməsi stimul və motivlərlə bağlıdır və bunlar vergi, qiymət, gömrük, kredit və amortizasiya siyasəti ilə əlaqədədir. Bunlarla yanaşı, müxtəlif maliyyələşmə prinsiplərinə əsaslanan infrastruktur obyektlərini – Sığorta Fondları, Texnologiyaların transferi və kommersiyalaşma Mərkəzləri, Vençur kapitalı Agentliklərini yarada və onlara dəstək verə bilir.

Dediklərimin ən vacib məqamı ondadır ki, dövlətin innovasiya proseslərində əsas funksiyası dəstəkləyici şərait, şərtlər və stimulların yaradılmasındadır.

Dünya təcrübəsi əsasında aparılan araşdırmalar göstərir ki, ƏM-in yaradılması və istifadəsi səviyyəsi və ölkənin iqtisadiyyatı arasında bir başa müsbət əlaqə mövcuddur. Misal üçün, bir neçə xüsusən intensiv inkişafda olan ölkə götürüb, ÜDM-ə və ixtiralara olan iddiaların sayı arasındakı korrelyasiya (asılılıq) əlaqəsinə baxaraq, görürük ki, Koreyada 1970-2018-ci illər zaman kəsiyində "ÜDM-in artımı və "ixtiralara iddia olunan sifarişlər" göstəriciləri arasında korrelyasiya əmsalı r=0,98-ə bərabərdir və keyfiyyətcə belə əlaqə "çox yüksək" kimi qiymətləndirilir. Çində həmin parametrlər üçün 2000-2018-ci il zaman kəsiyində korrelyasiya əmsalı r=0,99 və bu da "çox yüksək" deməkdir. Rusiyada bu əlaqə r = 0,61, yəni keyfiyyətcə "görünən" kimi qəbul edilir.

ƏMH-nın qorunması bir tərəfdən innovasiyaları stimullaşdırır, digər tərəfdən bazarda inhisarçılıq davranışını da dəstəkləyə bilir. ÜDM-in artımı multifaktorlu göstərici olduğuna görə, onun yaratdığı korrelyasiya asılılığı bir sıra faktordan asılılıqdır. Lakin bir amil şərhsizdir: ixtiralara iddiaların azalması iqtisadiyyatın artımına gətirmir.

Aşağı gəlirli və yüksək gəlirli ölkələrdə ƏM-in qorunmasının gücləndirilməsi iqtisadi artıma müsbət təsir edir. Orta gəlirli ölkələr üçün (Azərbaycan adam başına düşən gəlirə əsasən, orta gəlirdən artıq ölkədir) daha çox ƏMH-nın həyata keçirilməsi üsulları rol oynayır. Misal üçün, orta gəlirli ölkələrdə dövlət tərəfindən ETTKİ-nə artırılan vəsaitlər lazımi effekt vermir, çünki yerinə yetirilən işlər biznes tərəfindən tələbatsız qalır, halbuki dövlət-özəl tərəfdaşlıq səviyyəsində ayrılan vəsaitlər daha səmərəli biznes-layihələrinin seçilməsinə və texnologiyaların cəlb edilməsinə şərait yaradır [6].

İnnovativ ekosistemin bəhrələrini əldə etmək üçün Azərbaycan dövləti mühüm sistemli tədbirlər həyata keçirib və keçirməkdədir, o cümlədən, investisiya layihələrinin güzəştli şərtlərlə kreditləşməsi, dövlətlə

birgə maliyyələşdirmə və risklərin bölüşdürülməsi, biznesə aid inzibati prosedurların sadələşdirilməsi, səmərəli fəaliyyət göstərənlərə dövlət dəstəyi, vergi və gömrük güzəştlərinin tətbiqi, subsidiyaların verilməsi və s.

İnnovasiyalı inkişafın başında innovasiyaların, yeniliyin iqtisadi gəlir əldə etmək məqsədi ilə praktiki tətbiqi durur. Odur ki, müasir dövrdə innovasiyalı inkişafın prioriteti texnologiyaların kommersiyalaşmasıdır, yəni innovasiyaların bazara çıxarılması, yenilikçilik məhsullarının istehlakçıya çatdırılmasıdır.

Bir sözlə, bunun altında "elmi-tədqiqat işlərinin nəticələrindən gəlir gətirən hər hansı fəaliyyət, o cümlədən ƏMH-nın istifadəsindən yaranan royalti, texnologiyalara əsaslanan yeni kompaniyaların yaradılması, özəl müştərilərlə bağlanan tədqiqat kontraktları və s." nəzərdə tutulur.

Texnologiyaların kommersiyalaşması da yalnız dövlət büdcəsi ilə bağlı olmamalıdır, çünki tədqiqatlara və konstruktor işlərinə tələbatı əsasən qeyri-dövlət (özəl) sektoru müəyyən edir. Xüsusi qeyd edirik ki, innovasiyalı inkişaf ƏM məsələlərinin, texnologiyaların kommersiyalaşmasına aid və innovasiyalara dəstək problemlərinin birgə, sistemli həllini tələb edir.

## 6. İnnovasiyalı iqtisadiyyat əqli mülkiyyət prizmasından nə cür görünür? [7]

«İnnovasiyalı iqtisadiyyat» anlayışının identifikasiyası və digər yeni iqtisadiyyatlar sırasından olan «kreativ iqtisadiyyat», «informasiyalı iqtisadiyyat», «biliklər iqtisadiyyatı» anlayışları ilə müqayisəsi, bunların sinonimik, yoxsa xüsusiyyətlərlə fərqlənən terminlər olması yalnız yeni iqtisadiyyatın adlanma mövqeyindən deyil, daha çox yeni iqtisadiyyatın formalarının bir sıra təriflərindəki ƏM-in təsirini müəyyən etmək nöqteyi-nəzərindən aktualdır.

Bu tezisə əsaslanaraq və təhlil aparılarkən, anlayışların genezisinin, yəni yaranma zamanı məna yükünün, inkişafı müddətində təsir edən hansı istehsalat faktoruna söykənməsi, hansı əsas iqtisadi resursdan qaynaqlanması və zənginliyinin (varlığının) mənbəyinin müəyyən edilməsi nəzərə alınmalıdır. Bunlarla yanaşı, yeni iqtisadiyyatın formalarının müvafiq əmtəələrinin keyfiyyətcə və əmtəələrinin bazar qiymətlərinin kəmiyyətcə fərqlənməsi vacibdir.

Aşağıda göstərilən cədvəldə müxtəlif adlandırılan "iqtisadiyyatlar" istehsalatın əsas faktoru, əsas iqtisadi resurs və yaranan renta mövqeyindən yanaşma əsasında müqayisə edilir:

| Amillər / «növlər» | Kreativ iqtisadiyyat (Xokins, Florida) | İnformasiyalı iqtisadiyyat | Biliklər iqtisadiyyatı | İnnovasiyalı iqtisadiyyat |
|---|---|---|---|---|
| İstehsalatın əsas faktoru | Kreativ potensial (kreativlik) | İnformasiya | Biliklər | İnnovasiyalar |
| Əsas iqtisadi resurs | Kreativ (intellektual) kapital | İnformasiyalı kapital | İntellektual kapital Struktur kapital | İntellektual kapital |
| Zənginliyin mənbəyi | İntellektual renta | İnformasiyalı, intellektual renta | İnformasiyalı, intellektual renta | Texnoloji, intellektual, informasiyalı renta |

• Göründüyü kimi, bütün «növ» iqtisadiyyatlar üçün ortaq və inkişafı, istifadəsi prioritet olan müxtəlif formalarda təqdim olunan (intellektual, informasiyalı) insan kapitalının etirafıdır;

• Bununla yanaşı, sadalanan iqtisadiyyatların hər bir «növü» özünəməxsus iqtisadi resurslara əsaslanır;

• Sadalanan iqtisadiyyatların genezisi fərqlənsə də texnologiyaların, bazarların, ixtisasların və s. inkişafı həmin iqtisadiyyatların bir-biri ilə kəsişməsinə və zənginləşməsinə gətirir və innovasiyaların, biliklərin, informasiyanın və kreativliyin ayrılıqda inkişafının mümkünsüzlüyünü göstərməkdədir.

Gətirdiyimiz cədvəldən də görünür ki, "innovasiyalı iqtisadiyyat"ın əsas "iqtisadi resursu" olan "intellektual kapital" "biliklər iqtisadiyyatı"nın həmin resursu ilə kəsişir və müəyyən mənada "kreativ iqtisadiyyat"ın eyniadlı resursu ilə ziddiyyət yaratmır ("kreativ iqtisadiyyat"da "kreativ kapital" yaradıcılıq sahələrinə aid edilən "intellektual kapital"dır). Bununla belə, hər dörd növ iqtisadiyyatlarda zənginliyin mənbəyi ortaq olaraq – intellektual rentadır və həmçinin üç iqtisadiyyat növündə ("informasiyalı", "biliklər" və "innovasiyalı" "iqtisadiyyat"lar) "zənginliyin mənbəyi" kimi digərləri ilə yanaşı "informasiyalı renta" da çıxış edir [8].

Növbəti sxemdə "iqtisadiyyatlar" əmtəə və əmtəənin qiyməti mövqeyindən yanaşma əsasında müqayisə edilir.

Yeni iqtisadiyyat formalarının inkişafına əmtəə və əmtəənin qiyməti mövqeyindən yanaşma halını evolyusiyaya uyğun olaraq, aşağıdakı sxem təsvir edir:




Sxemdən göründüyü kimi, "kreativlik" müvafiq "innovasiya" anlamı ilə müqayisədə yeni əlamətli (keyfiyyətli) innovasiya simasında çıxış edir. Bir sözlə, kreativlik innovasiyanın xarakteristikasıdır. Bununla "kreativ iqtisadiyyat"ın "innovasiyalı iqtisadiyyat"dan yeganə fərqi əsas töhfənin iqtisadiyyatın kreativ sektorundan gəlməsidir.

Beləliklə, "kreativ iqtisadiyyat" "innovasiyalı iqtisadiyyat"ın müəyyən çeşidi kimi (qeyd edilən fərqlər nəzərə alınmaqla) baxıla bilər. Bu səbəbdən elmi cəmiyyət çox vaxt "innovasiyalı iqtisadiyyat"ı biliklərə və informasiya texnologiyalarına əsaslanan və iqtisadi artımın əsas mənbəyi olan biliklərin istehsalı, IT-nın və ETTKİ-nin inkişafı, insan kapitalının yığımı və s. olan iqtisadiyyatın müəyyən növü kimi tanıyır.

Dünya təcrübəsinin təhlili göstərir ki, innovasiyalara nail olmaq məqsədilə ölkələr özünəməxsus innovasiyalı sistemlər yaradır və bu sistemlərin təşkilati prinsipləri və fəaliyyəti ölkənin resursları və cəmiyyətinin sosial-mədəni parametrləri ilə yanaşı, seçilmiş innovasiya modeli ilə bağlıdır [9].

**Bəs, milli innovasiya sistemlərinin modelləri hansılardır?**

Milli innovasiya sistemləri sırasında qabaqlayıcı innovasiyalara əsaslanan (yaradılış adlanan) imitasiya tipli (mənimsəmə adlanan) və qarışıq (yəni hər iki modelin prinsiplərini istifadə edən kombinatorikalı) innovasiya modelləri yer alır.




Yaradılış modelində yeniliklərdə istifadə olunan texniki həllər kommersiya sirri, həmçinin patentləşmə və kommersiyalaşma kompaniyanın öz gücü və resursları vasitəsilə həyata keçirilir. Bu strategiyanın tətbiqi

dövlətin elm və innovasiyalara maliyyə, büdcə dəstəyindən nəzərə çarpan dərəcədə asılıdır. Bu strategiyanı (birgə mənimsəmə modeli strategiyası ilə) inkişaf etmiş ölkələr hazırda həyata keçirirlər (ABŞ, Aİ, Çin). Bu modelə həmin ölkələr öncə keçirtdiyi imitasiya modelindən gəlmişlər. Onların ilbəil bu istiqamətdə yatırımları artmaqdadır. Bununla inkişaf etmiş ölkələrin hər biri iqtisadiyyatın müəyyən sektorunda lider pozisiyalarına müvəffəq olmağa çalışır.

Mənimsəmə (imitasiya) modelinin istifadəsi halında kompaniyalar özləri yaratmadan digər ölkələrin yeniliklərini lisenziyalar, bir-birini lisenziyalaşma yolu ilə, patent pullarının yaradılması və sirlərin aralarında bölüşməsi vasitəsilə əldə edirlər. Bu strategiyanı daha çox inkişafda olan ölkələr istifadə edirlər, halbuki inkişaf etmiş ölkələr də bundan imtina etmirlər. Keçmişdə bu modeli Yaponiya, Cənubi Koreya, Çin tətbiq edirdilər. Öz iqtisadiyyatını möhkəmləndirəndən sonra isə onlar yaradılış modelinə keçmiş oldular. Həmin ölkələrin bugünkü iqtisadi nailiyyətləri düzgün strategiyanın seçilməsinə dəlalət edir.

İnnovasiyalı iqtisadiyyatda əldə edilən renta və ƏM-in qarşılıqlı təsiri aşağıdakı diaqramda verilir [10, 11]:

**7. Azərbaycanın əqli mülkiyyət sisteminin cari vəziyyəti və həlli gözlənilən problemlər hansılardır?**

Yuxarıda da qeyd olunduğu kimi, Əqli mülkiyyət sahəsi həyata keçirilən islahatların innovasiyalı əsasları ilə dəqiq rezonans yaradaraq, bunların nəticəsində əhəmiyyətli, institusional və funksional dəyişikliklərlə müşahidə olunur.

Dövlət başçısının göstərişlərindən irəli gələn çevik, daha yığcam və daha məqsədyönlü struktur vasitəsilə sahələrin idarə edilməsi, şəffaflığın, səmərəliyin və cavabdehliyin təmin olunması məqsədilə Əqli Mülkiyyət Agentliyi yaradılıb, onun mandatı həm müəlliflik hüquqları və əlaqəli hüquqlar sahəsini, həm də sənaye mülkiyyəti sahəsini əhatə edir. Agentliyin tabeliyində iki mərkəz – Patent və Əmtəə Nişanlarının Ekspertizası və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzləri yaradılıb, Respublika Elmi-Texniki Kitabxanası onun tərkibinə verilib.

Beləliklə, aparılmış islahatlar nəticəsində özündə vəhdət təşkil edən üçlük formulu: koqnitivlik, kreativlik və kommersiyalaşmanı birləşdirən özünəməxsus idarəetmə modeli aktuallaşmışdır.



Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü ilə aparılan iqtisadi və institusional islahatların nəticəsində yaradılmış və bu modeli reallaşdıran publik hüquqi şəxs institutu öz töhvələrini verməkdədir. Belə ki, əsas məntiq dövlət-inzibati funksiyaları yerinə yetirən publik hüquqi şəxslər eyni zamanda özlərinin təsdiq olunmuş nizamnamələrindən irəli gələn fəaliyyətlərindən əldə olunmuş vəsaitlər hesabına saxlanma və digər xərclərinin optimallaşdırılmış üsullarla idarə olunmasının təşkilidir.

Dövlət başçısının rəhbərliyi altında sahə üzrə aparılan institusional islahat nəticəsində çalışan dövlət qulluqçularının sayı 43 nəfər, işləyənlərin ümumi sayı isə 32 nəfər azaldılaraq, il ərzində bir milyon 100 min manatdan artıq vəsaitə qənaət etmək mümkün olmuşdur. Dövlət büdcəsindən yalnız Əqli Mülkiyyət Agentliyinin dövlət qulluqçularına bərabər tutulan işçilərinin əmək haqları maliyyələşdirilir. Agentliyin saxlanma xərcləri və tabeliyində olan iki mərkəzin bütövlükdə fəaliyyəti özünümaliyyələşdirmə prinsipi əsasında həyata keçirilir. Bu isə institusional islahatın effektivliyinin təsdiqidir.

Ölkəmizin nailiyyətləri nəinki beynəlxalq reytinq institutları tərəfindən qeyd olunur, bu həm də Azərbaycanın beynəlxalq təşkilatlardakı nüfuzunun artmasına səbəb olur.

Ötən ilin oktyabr ayında ÜƏMT-nın Baş Assambleyasında Azərbaycan Büdcə və Proqram Komitəsinə seçilib. Ölkəmiz həmçinin rotasiya əsasları ilə Koordinasiya Komitəsində təmsil olunacaq.

Azərbaycanın nümayəndəsi ilk dəfə olaraq, müəllif hüququ üzrə 1886-cı ildən qüvvədə olan və 170 ölkəni birləşdirən məşhur Bern Konvensiyası Assambleyasının sədri vəzifəsinə layiq görülüb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən olduqca uğurlu islahatlar silsiləsinin ikinci dalğası ölkəmizin inkişaf gündəmini dəyişməklə, beynəlxalq aləmdə də geniş əks-səda yaradır, diqqətlə izlənir və yüksək dəyərləndirilir. Nüfuzlu beynəlxalq təşkilatların reytinqləri ilə yanaşı, ÜƏMT-nın təsis etdiyi "Əqli mülkiyyət sahəsində ən yaxşı müəssisə (WIPO IP Enterprise Trophy)" mükafatının bu ilki nominantı Azərbaycan Respublikasından qurum seçilmişdir.

Mükafatın üzərində də qeyd olunduğu kimi, bu mükafat son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən davamlı, uğurlu iqtisadi islahatlar modelinin nəticələrinə və bu islahatların reallaşdırılması üçün investisiyaların cəlb olunması, innovasiyaların dəstəklənməsi və innovativ fəaliyyətin stimullaşdırılmasına xidmət edən ƏM sahəsinin inkişafı üzrə görülən işlərə, bir sözlə, bütövlükdə möhtərəm cənab Prezidentin müəllifliyi ilə reallaşdırılan islahatlara verilən mükafatdır.

Ölkədə aparılan islahatlara dəstək olmaq üçün Əqli Mülkiyyət Agentliyi digər dövlət qurumları ilə birgə işlər aparır.

Xüsusilə qeyd etməliyik ki, Azərbaycan tələbələri və şagirdləri bu ilki Avrasiya patenti üzrə müsabiqələrdə Agentliyin və Təhsil Nazirliyinin dəstəyi ilə birinci və mükafat yerlərə və Laureat adlarına layiq görülmüşlər.

Bu sırada ÜƏMT-nın Baş Assambleyasında UNESCO tərəfindən qeyri-maddi incilər siyahısına daxil olan obyektlərə əsaslanan müasir coğrafi göstəricilər nümayış etdirilmiş, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birlikdə ÜƏMT-da "Azərbaycanda əqli mülkiyyətin inkişafı və onun regiona təsiri: innovativ və yüksək texnologiyalar üzrə startapların təqdimatı" mövzusunda beynəlxalq konfrans və Azərbaycanın innovativ və yüksək texnologiyalı startaplarına həsr olunan sərginin təşkil olunması da vacib tədbirlərdəndir. Bu beynəlxalq tədbirin xüsusi əhəmiyyəti yeniləşən islahatçı-ölkə – Azərbaycanın müasir simasını dünyaya, beynəlxalq ekspert cəmiyyətinə nümayiş etdirməkdə idi.

Bunlarla yanaşı, ƏM üzrə mütəxəssislərin qıtlığı nəzərə alınaraq, Bakı Dövlət Universitetində "Əqli mülkiyyət" kafedrası yaradılıb və Agentliyin aparıcı mütəxəssisləri öz maddi-texniki bazası əsasında orada tədris edəcək.

İnnovasiyalı iqtisadiyyat və əqli mülkiyyət, problemlər və onların həlli mövzusunda dayanaraq, qeyd edək ki, ƏM sisteminin qarşısında duran vəzifələr ölkənin innovasiya siyasəti ilə müəyyən edilir və ölkədə həyata keçirilən iqtisadi islahatlara xidmət etməlidir.

Bu sahədə ehtiyatlarımız mövcuddur. Son Qlobal İnnovasiya İndeksinə əsasən, 2019-cu ildə Azərbaycan 129 ölkə arasında 84-cü yeri tutur. Bu isə dövlət başçısının apardığı iqtisadi islahatların masştabına heç cür uyğun gəlmir. Ölkəmizin "innovasiya imkanları" 77-ci yerdə olduğu halda, "innovasiya nəticələrimiz" 90-cı yerdədir. Beləliklə, ümumi imkanlarımız 13 pillə ümumi nəticələrimizi üstələyir. Deməli ehtiyatlarımızı səmərəli işlətməliyik.

İkincisi, geriyə salan "elmi-texnoloji məhsullar" göstəricisidir – 101-ci yer. Bu isə o deməkdir ki, yeniliklər zəif kommersiyalaşır, bazara innovasiyalı məhsul kimi mümkün olan səviyyədə çıxarılmır.

Beləliklə, gələcək uğurlarımızın artması iki vacib problemin həlli ilə bağlıdır – elmi imkanlarımızdan səmərəli istifadə və innovasiya nailiyyətlərimizin kommersiyalaşmasından ibarətdir.

Azərbaycanda yaranan vəziyyəti araşdıraraq, ilk dəfə olaraq, beynəlxalq təcrübədə qəbul edilmiş indikatorlara əsasən, son 8 ildə ixtiralara patent sifarişlərinin, patentlərin verilməsi və digər mütləq göstəricilər təhlil edilmiş və əksər göstəricilər üzrə ÜƏMT-nın 2019-cu ildəki Hesabatına görə, 2018-ci ilin nəticəsi istisna olmaqla, azalmanın olduğu aşkar edilmişdir. Bundan başqa, qüvvədə olan patentlərin sayının müşahidə olunan dərəcədə azalması ixtiraçıların patentlərin qüvvədə olmasına marağının və mövcud patentlərə bazar tələbatının zəif olmasını göstərir, sənaye mülkiyyəti obyektlərinin kommersiyalaşmasının olmadığından stimullaşdırma amilinə zərər gətirir.

Bu istiqamətdə Agentlik təxirə salınmaz işlər aparır, o cümlədən ixtiraçılıq və patent fəallığının artırılması üzrə tədbirlər davam edir, "vahid pəncərə" prinsipi, patent fəaliyyətinin sürətləndirilməsi və şəffaflığını təmin etmək məqsədi ilə yeni rəqəmsal xidmətlərin və informasiya sistemlərinin, PƏNAH (Patentlərə, əmtəə nişanlarına açıq hədəf) sisteminin verdiyi imkanlar hesabına ƏM hüquqlarının daha dürüst və kütləviliyi artıran qorunmasının üzərində işlər tamamlanıb. Bununla yanaşı, ekspertizanın aparılma müddəti azaldılıb.

"Patent haqqında" və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Qanunların müasir tələblərə uyğun olan variantları hazırlanmış, "Patent haqqında" Qanunun tələblərinə uyğun olaraq, hazırlanmalı olan, lakin illər boyu hazırlanmamış iddia sənədlərinə aid tələblər Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənmiş, həmçinin Əqli Mülkiyyət Agentliyinin "Apelyasiya Şurası haqqında Əsasnamə"si təkmilləşdirilmişdir.

İxtiraçıların stimullaşdırılması və dəstəyi məqsədilə "İxtira fəaliyyəti haqqında" Qanun layihəsi hazırlanmışdır. İnnovasiyalı inkişafa dəstək vermək və kommersiyalaşma işlərinin gücləndirilməsi məqsədilə 3.0 (təhsil + araşdırmalar + kommersiyalaşdırma) universitetlərin yaradılması ilə bağlı IP-ofislərin texnologiyaların dəstək ofislərinə çevrilməsi və Əqli Mülkiyyət Agentliyinin axtarış şəbəkəsinə qoşulması, startap və spinautların dəstəklənməsi. Bu işlər ÜƏMT ilə birgə aparılır və Əqli Mülkiyyət Agentliyi Müəllif Hüquqları Agentliyi kimi fəaliyyət göstərdiyi dövrdən başlayaraq, indiki yeni imkanlarla davam edir. Belə ki, Müəllif Hüquqları Agentliyi, Təhsil Nazirliyi və ÜƏMT-nın birgə hazırladıqları "Universitet və elmi-tədqiqat institutlarında əqli mülkiyyət siyasəti üçün milli Layihə"ni göstərmək olar.

Və ən vacibi – Texnologiyaların transferi və kommersiyalaşdırılması Mərkəzlərinin yaradılması və İnnovasiyalara dəstək Mərkəzlərinin formalaşdırılması və onların fəaliyyəti üzrə müsabiqə nəticəsində genişmiqyaslı işlərin aparılmasıdır.

Mövcud problemlərdən biri də kiçik və orta sahibkarlıq subyektlərində (KOS) ƏM mədəniyyətinin gücləndirilməsi və bu növ sahibkarların innovasiyalara cəlb edilməsidir.

Dünya təcrübəsindən bəllidir ki, aparıcı dövlətlərdə dəyərli ixtiraların 58-dən 46-ı, yəni təxminən 80%-i fiziki şəxslər və kiçik innovasiya firmalarına məxsusdur, KOS-lar texniki-texnoloji yeniliklərin əsas təşkilatçıları və istifadəçiləridir. KOS-ların innovasiyalı fəaliyyətə cəlb edilməsi və iqtisadi rolunun artırılması məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Əməkdaşlıq haqqında Memorandum və birgə fəaliyyət planı həyata keçirilir, KOS-lar üçün Əqli Mülkiyyət Agentliyi tərəfindən "İnnovasiyalara maneə törədən" sorğu keçirilmiş və nəticələri təqdim edilmişdir, "İnnovasiyalı inkişaf və iqtisadi islahatlar: əqli mülkiyyətin və texnologiyaların kommersiyalaşdırılmasının rolu" mövzusunda konfrans keçirilmişdir.

Sahibkarlar Konfederasiyası ilə birlikdə kiçik və orta biznes subyektlərində innovasiyaların stimullaşdırılması məqsədilə təlim mərkəzlərimizdə biznes nümayəndələrinin təlimləri həyata keçirilir, bir tərəfdən ƏM mədəniyyəti formalaşdırılır, digər tərəfdən isə patent və əmtəə nişanlarına sifarişçilər üçün axtarış və ekspertizanın öyrənilməsi təqdim edilir.

Əqli Mülkiyyət Agentliyinin kreativ iqtisadiyyat sahəsində atdığı addımlar üzərində dayanaraq, qeyd edək ki, bu sahə Agentliyin fəaliyyətinin vacib istiqamətlərindən biridir və kreativ iqtisadiyyatın monitorinqi, onun ölçülməsi və inkişafına dair təkliflərin hazırlanmasıdır. Ötən ildə müəlliflik hüququna əsaslanan kreativ sənayenin 2018-ci il üzrə milli iqtisadiyyat sahələrinə dair faktiki statistik göstəriciləri və dövlət büdcəsi rəqəmləri toplanmış və təhlil edilmişdir. Müəlliflik hüququna əsaslanan milli iqtisadiyyat sahələrində istehsalın həcmi müəyyən ediləndən sonra, bu sahələrin ölkə üzrə ümumi daxili məhsulda xüsusi çəkisi hesablanmışdır. Əqli Mülkiyyət Agentliyində aparılan təhlil və hesablamalar göstərir ki, Azərbaycanın ÜDM-də kreativ sənayenin payı getdikcə artmaqdadır. Son 8 ildə ölkənin ÜDM-də kreativ sənayenin payı 2010-cu ildə 3,5%-dən 2018-ci ilin 1 yanvarına olan vəziyyətə görə 5,1%-ə çatmış və hazırda inkişaf etmiş ölkələr səviyyəsindədir. Yalnız müəlliflik hüququna əsaslanan sahələr 8 il ərzində 2,0%-dən 2,9%-ə çatmışdır. Bu isə müəllif hüququ sahəsinin inkişafının əsas göstəriciləridir. 2018-ci ildə Azərbaycanda müəlliflik hüququna əsaslanan sahələrdə istehsalın həcmi 4096,3 mln. manat təşkil etmişdir.

Bu sahədə aparılan tədqiqatlar və təkliflər "Kreativ iqtisadiyyat" Respublika Forumuna təqdim edilmiş və prezentasiyada səsləndirilmişdir [11].

Maarifləndirmə işi ƏM sahəsinin inkişafı üçün xüsusi önəm daşıyır.

ƏM mədəniyyətinin formalaşdırılmasında, hüquq sahiblərinin və istifadəçilərin məlumatlandırılmasında vacib rol oynayan və yeni buraxılan "Əqli mülkiyyət" jurnalının dərcidir.

Hüquqi maarifləndirilmə məqsədi ilə Agentliyin təşkilatçılığı və iştirakı ilə keçirilmiş 15-ə yaxın tədbir təşkil edilmiş, KİV-lərdə 350-dən artıq informasiya, maarifləndirici və təbliğat xarakterli material dərc olunmuş, TV və radio kanallarında 35-dən çox veriliş və süjetlər göstərilmiş, Agentliyin təşkil etdiyi tədbirlərdə ölkəmizi, xarici ölkələri və beynəlxalq təşkilatları təmsil edən peşəkar mütəxəssislər, alimlər, beynəlxalq ekspertlər, tarixçilər və qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən əqli mülkiyyət məsələlərinə dair 90-a yaxın prezentasiya və çıxışlar edilmiş, həmçinin Agentliyin nümayəndələri müxtəlif beynəlxalq tədbirlərdə 15-ə yaxın təqdimatla çıxış etmişlər. Bununla yanaşı, onlarla kitab və broşuralar dərc edilərək, geniş ictimaiyyətə paylanmışdır.

Əqli mülkiyyət hüquqlarının təminatı daim Agentliyin diqqət mərkəzindədir.

Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanından irəli gələn vəzifələrin aidiyyəti üzrə icrası çərçivəsində əqli mülkiyyət hüquqlarının təminatı ilə bağlı Agentliyin təşkilatçılığı və Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının dəstəyi

ilə 2019-cu il 14 iyun tarixində "Məhkəmə islahatları: məhkəmə-hüquq sisteminin əqli mülkiyyət hüquqlarının təminatında rolu" mövzusunda konfrans-təlim, 2019-cu il 5-6 dekabr tarixlərində isə Əqli Mülkiyyət Agentliyi və ÜƏMT-nın birgə təşkilatçılığı ilə "Əqli mülkiyyət hüquqlarının müdafiəsinin təminatı: ixtisaslaşmış məhkəmələrin milli və beynəlxalq təcrübəsi" mövzusunda beynəlxalq seminar keçirilmiş, 2019-cu il 21 iyun tarixində Agentliyin rəhbərliyi ilə Dövlət Gömrük Komitəsinin rəhbərliyi arasında keçirilən görüşdə tərkibində ƏMH olan malların idxalı zamanı ƏMH-nın qorunması sahəsində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) rəhbərliyi ilə 2019-cu il 25 may tarixində keçirilmiş görüşdə ölkəmizdə ƏM sahəsində aparılan islahatlar barədə məlumat verilmiş, gələcək əməkdaşlıq perspektivləri, o cümlədən Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində AmCham-ın nümayəndələri üçün Agentliyin maddi-texniki və məlumat bazalarından istifadə etməklə birgə tədbirlərin və təlimlərin keçirilməsi və s. məsələlər müzakirə olunmuşdur. ƏMH-nın təminatı məsələsi Azərbaycan-ABŞ Hökumətlərarası Komissiyanın Bakıda keçirilmiş 4-cü iclasının gündəliyində də yer almış, bu sahədə müvafiq tədbirlərin həyata keçirilməsi məqsədi ilə 4 iyun 2019-cu il tarixində ABŞ-nın Azərbaycandakı Səfirliyinin iqtisadi məsələlər üzrə müşaviri ilə görüş keçirilmiş, paralel idxal, kontrafakt malların idxalı, ƏMH-nın qorunması məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

Proqram təminatı sahəsində piratçılığa qarşı mübarizə tədbirləri çərçivəsində "Microsoft" şirkəti ilə əməkdaşlıq davam etdirilmiş, bu sahədə əməkdaşlığın koordinasiya edilməsi məqsədi ilə yaradılmış Agentliyin və "Microsoft" şirkətinin nümayəndələrindən ibarət İşçi qrupun bir neçə görüşü keçirilmiş, "Oracle" və "Trimble Tekla" şirkətlərinə məxsus proqram təminatlarından qeyri-qanuni istifadə ilə bağlı həmin şirkətlərin qaldırdığı məsələlərlə əlaqədar onların ölkəmizdəki nümayəndələri ilə görüş keçirilmiş, hüquq pozuntusu hallarının qarşısının alınması, həmçinin lisenziyalı proqram təminatından istifadənin geniş təşviq edilməsi istiqamətində birgə tədbirlər həyata keçirilməsi barədə razılıq əldə olunmuşdur.

Pozulmuş müəlliflik hüquqlarının bərpası ilə bağlı 2019-cu ildə hüquqi və fiziki şəxslərdən çoxlu sayda müraciət daxil olmuş, həmin müraciətlərə müəllif-hüquq qanunvericiliyinin tələbləri nöqteyi-nəzərindən baxılmış, bir qismi Agentliyin səlahiyyətləri çərçivəsində həll edilmiş, bir qismi isə aidiyyəti qurumlara göndərilmişdir.

Agentliyin 960 nömrəli "Qaynar xətt"i və ictimai əsaslarla fəaliyyət göstərən "Hüquq məsləhətxanası" müəlliflərin və digər hüquq sahiblərinin istifadəsində olmuş, müəllif-hüquq məsələləri üzrə 1530-dən artıq müraciət və sorğuya baxılmış, qaldırılan məsələlərin həllində, həmçinin iddia ərizələrinin tərtib edilməsində hüquqi köməklik göstərilmiş, Agentliyin nümayəndələri ƏM obyektləri ilə bağlı müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 35 iş üzrə (onlardan 31-sənaye mülkiyyəti obyektləri, 4-ü isə müəllif hüquqları ilə bağlı) 90-dan çox məhkəmə iclasında iştirak etmiş, hər bir iş üzrə ekspert rəyi hazırlanmış, maarifləndirmə tədbirləri keçirilmişdir.

2019-cu ildə Agentliyin Sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya şurası tərəfindən 135 işə baxılmışdır.

Görülən tədbirlərin nəticəsi olaraq 2005-ci illə müqayisədə piratçılığın səviyyəsi kitab satışı sahəsində 61%-dən 23%-ə, audio-video məhsul bazarında 90%-dən 58%-ə, proqram təminatında 96%-dən 72%-ə düşmüşdür.

Mədəniyyətimizə, tariximizə olan təcavüzə qarşı mübarizəmiz Əqli Mülkiyyət Agentliyinin ən vacib funksiyalarındandır.

UNESCO-nun qeyd etdiyi kimi, kitablar, müəlliflər və ümumilikdə kitab işi insanın əsas azadlıqlarının kəsişməsində yerləşir, bu azadlıqlardan ən mühümləri fikirlərin ifadə

edilmə azadlığı və nəşriyyat fəaliyyətinin azadlığıdır. Bu azadlıqlar kifayət qədər kövrəkdirlər, çünki müəllif hüquqlarına və mədəni müxtəlifliyə qəsddən tutmuş müəllif və naşirlərin məruz qaldıqları təhdid və təhqirlərə, eləcə də əlyazmalarının və kitabların məhv edilməsinə kimi çoxsaylı problemlərlə üzləşirlər. Saxtakarlıq və plagiat, qəsdən çap edilən yalan və saxta əsərlər bu azadlıqlara yeri doldurulmaz ziyan vurur. Əxlaqi baxımdan çirkin və hüquqi cəhətdən qanuna zidd olan bu hərəkətlər fiziki şəxslər, ayrı-ayrı fərdlər tərəfindən yerinə yetirilə bilər və bunlar müəllif hüquqlarını pozan və ya saxtakarlıq naminə özünü ifadə etmə azadlığından qəsdən istifadə edən müxtəlif ölkə vətəndaşları, söhbət sənaye mülkiyyətindən getdikdə isə, həm də hüquqi şəxslər ola bilər.

Geniş mənada bu cür əməllər mədəni plagiat və ya mədəni dələduzluqdur. Söhbət intellektual oğurluqlardan və etnosun mədəni irsinin saxtalaşdırılmasından, onun mədəni ənənələrinin mənimsənilməsindən və ya yanlış inkar edilməsindən, başqa xalqın sərvətinə iddialardan getdikdə isə, plagiatçılıq və saxtalaşdırma məsələsi xüsusi əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, müasir mədəniyyət – ilk növbədə, qorunub saxlanması ali prioritet kimi qəbul edilən mədəni müxtəliflikdir və mədəniyyətlərin dialoqunu və qarşılıqlı fəaliyyətini nəzərdə tutur. Yəqin ki, mədəniyyətlərin tolerantlığının və bərabər hüquqluluğunun qarşılıqlı tanınmasında multikulturallığın əsası qoyulmuşdur. Eyni zamanda bir mədəniyyətin digərini əxz etməsi həmin mədəniyyətin zənginləşməsindən başqa bir şey deyildir. Bu, həm ayrı-ayrı fərdlər səviyyəsində, həm də müxtəlif etnoslar, xüsusən də bir coğrafi arealda yaşayan xalqlar səviyyəsində baş verir. Hər zaman müəllif adına həssas və diqqətli olan dünya eyni zamanda həm də əxzetmələrə imkan vermişdir.

Söhbət, əgər belə demək mümkünsə, hansısa xalqın müəllifliyindən gedirsə, deməli, bu, ilk növbədə ona məxsus olan mədəniyyətin (folklorun) ənənəvi ifadəsi və ənənəvi biliklər, başqa sözlə, qeyri-maddi mədəni irsdə öz əksini tapmış mədəni ənənələrdir. Bunlar "elə bir keçmiş olan ənənələr deməkdir ki, onlar olmadan bu günün gələcəyi yoxdur".

Yuxarıda qeyd edildiyi kimi, etnik ənənələrin, eləcə də müəllif əsərlərinin əxz edilməsinə yol verilə bilər, çünki onlar bilik və yaradıcılıq təcrübəsi ilə zənginləşdirərək yeni yaradıcılığın və kreativliyin inkişafı üçün tramplin rolunu oynayırlar.

Beləliklə, etnik ənənələrin, eləcə də müəllif əsərlərinin elementlərinin biliklə zənginləşdirmə çərçivəsində əxz edilməsinə yol verilir, lakin bu cür mütləq şərtlə ki, onlar sizin əqli mülkiyyətinizə keçərkən əxz olunma mənbəyini və müəlliflik hüququ qaydaları (etik və hüquqi) çərçivəsində ona istinadı nəzərdə tutmalıdır. Əgər bu cür əxzetmə mənbəni və ya orijinalı nəzərə almadan mənimsənilməyə keçirsə, onda bu cür plagiat oğurluğa, yaradıcıların şərəf və ləyaqətinə xələl gətirən özünəməxsus uydurmaya çevrilir və mahiyyət etibarilə başqa xalqlardan oğurluq etməklə onların hüquqlarına xələl gətirir. Bu cür plagiat eyni zamanda mənəvi terrordur, çünki o, həmin mənbələrin və onların yaradıcılarının mənəvi və psixoloji tapdanmasına, onların dəyərləri üzərində istehzaya, adət və ənənələrində təcəssüm olunmuş müqəddəs məfhumları üzərində təhqirlərə, onları mənimsəməyə və ya məhv etməyə gətirib çıxarır. Bu əməllərin həyata keçirilmə alətləri fiziki terror halında olduğu kimi fiziki zorakılıq vasitələri deyil, bir qayda olaraq, saxtalaşdırmalar, uydurmalar və aldatmalardır.

Bu gün "Azərbaycanın mədəni ənənələrinin mənimsənilməsi üzrə erməni ənənəsi" məhz bu cür xarakter almışdır. Bu ənənənin bu gün də yaşadılması və yeni mənasız ifadələrlə "zənginləşməsi" ilə əlaqədar intellektual oğrulara və saxtakarlara bunu xatırlatmaq yerinə düşərdi ki, müasir erməni ədəbiyyatının banisi Xaçatur Abovyan hələ XIX əsrdə yazırdı: "Qədim və yeni dilin [erməni] əsas fərqi danışıq tərzindən və sintaktik strukturdan ibarətdir. Bu baxımdan qədim erməni dili ["qrabar"] Avropa dilinə, yeni erməni dili isə

["aşxarabar"] türk [Azərbaycan] dillərinə bənzəyir" (X.Abovyan, Naxaşaviq, Yerevan, 1940-cı il, erməni dilində) (kursivlə yazılmış sözlər bizə məxsusdur). Bir sözlə, X.Abovyana görə müasir türkləşdirilmiş (azərbaycanlaşdırılmış) erməni dili yaranıb. X.Abovyanın işinin davamçısı Qazaros Ağayan isə öz növbəsində həmin əsrdə yazırdı: "... Türklər [azərbaycanlılar] onu [Koroğlunu] türk [azərbaycanlı], kürdlər kürd, ermənilər isə azərbaycanlılaşmış erməni hesab edirlər. Onun nəğmələrini türk [Azərbaycan] və kürd dillərində ancaq ermənilər oxuyur, digər xalqlar isə öz dillərində oxuyurlar" (Q.Ağayan, Seçilmiş əsərləri, Yerevan, 1939-cu il, erməni dilində). Bir sözlə, Q.Ağayana görə bizim Koroğlu "azərbaycanlılaşmış erməni" olmuşdur. Bu da azərbaycanlılaşdırmanın erməni etnosuna və onun istifadə etdiyi dilə obyektiv təsiri olub, sonradan Azərbaycan xalqının yaradıcılığının mənimsəyici, subyektiv "erməniləşdirilmə"sinə çevrilib.

Odur ki, mədəni irsin qorunması və erməni plagiatına qarşı mübarizə Agentliyin daim diqqət mərkəzindədir. "Qədim mətnlər və klassik mənbələr erməni saxtakarlığını və uydurmalarını ifşa edir" mövzusunda ənənəyə çevrilmiş beynəlxalq konfranslar ermənilərin maddi və qeyri-maddi mədəni irs nümunələrimizə iddiaları təkzibedilməz elmi və tarixi faktlarla ifşa edilir.

Bununla yanaşı, Rusiyalı müğənni Avraam Russonun ifa etdiyi "Kamança" mahnının Üzeyir Hacıbəyovun 1918-ci ildə Əhməd Cavadın sözlərinə bəstəldiyi "Çırpınırdı, Qara Dəniz" mahnısından plagiat edildiyi, həmçinin dahi bəstəkarımız Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyasının bir hissəsinin erməni bəstəkarı A.Babacanyan tərəfindən oğurlanaraq "Vaqarşabat rəqsi" kimi təqdim edilməsi faktları araşdırılmış, bununla bağlı elmi arayış hazırlanaraq yayılmışdır.

Ümumiyyətlə, Azərbaycanın mədəni irsinin, o cümlədən xalq mahnılarımızın, rəqslərimizin, bəstəkarlarımızın əsərlərinin ermənilər tərəfindən oğurlanması faktları, o cümlədən yuxarıda göstərilən faktlar barədə Əqli Mülkiyyət Agentliyi tərəfindən ÜƏMT-yə bir sıra etiraz müraciətləri göndərilmişdir.

Hesabat ilində erməni saxtakarlıqlarını ifşa edən "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya ermənilərin Qafqaz avtoxtonluğu cəhdləri" və "Кавказская Албания и генетический анализ в историко-географическом аспекте" adlı kitablar hazırlanmış və nəşr edilmiş, bununla yanaşı, "Erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir", "Армянский геноцид" или армянский террор?", "Erməni tarixi uydurmalarının tarixinə giriş", "Öz-özünü təkzib edən "erməniçiliyin müəllif hüququ", "Erməni müəlliflərinin kitablarındakı uydurmalara "müəlliflik hüququ" və s. kitabçalar, həmçinin "Erməni yadelli nağılları" kitabı və "Gəldim, gördüm..., mənimsədim" kitabçası (Azərbaycan, rus, ingilis və fransız dillərində) təkrar nəşr edilərək il ərzində Agentliyin keçirdiyi tədbirlərdə xarici qonaqlara, nümayəndələrə və tədbir iştirakçılarına paylanmışdır.

Erməniçilik uydurmalarını və mənimsənilmələrini mütləq qaydada müşayiət edən amillər də vardır. Hər şeydən əvvəl, bunlar, intellektual oğurluqlara "bəraət qazandırmaq" məqsədi daşıyan ərazi iddiaları və bununla yanaşı tarixi-coğrafi uydurmalar, region üzrə qonşularının tarixini paralel şəkildə təhrif etməklə öz yalan tarixini formalaşdırmaqdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 10 mart 2020-ci ildə altıncı çağırış Milli Məclisin ilk iclasında çıxışında qeyd etmişdir ki:

"...biz Azərbaycan həqiqətlərini çatdırmalıyıq. Xüsusilə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı tarixi həqiqətləri çatdırmalıyıq. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir: Ona görə bizim arqumentlərimizə qarşı Ermənistan tərəfi heç bir ciddi arqument qoya bilmir, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiya. Bu, əslində, onların xislətidir. Onlar geniş şəbəkə çərçivəsində bəzi

siyasətçiləri satın alırlar. Bu da heç kimə sirr deyil. Belə olan halda onların tarixi saxtakarlığına elə bil ki, bəraət qazandırılır... Mən Münxendə Kürəkçay sülh müqaviləsi haqqında deyəndən sonra bilirəm ki, Ermənistanda indi bu müqaviləni əzbərləyirlər. Orada açıq-aydın göstərilir ki, bu müqaviləni kim bağlayıb, nə vaxt bağlayıb və erməni xalqı haqqında orada ümumiyyətlə, söhbət belə getmir... Rus imperiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir görəsən ki, orada indiki Ermənistan ərazisində toponimlərin əksəriyyəti Azərbaycan mənşəlidir...".

Bəli həqiqətlər bundan ibarətdir və bizim borcumuz onları hər imkan olduğu halda dünyaya çatdırmaqdan ibarətdir.

### 8. Beynəlxalq əqli mülkiyyət sisteminin qarşılaşdığı çağırışlar və dünyəvi trendlər hansılardır?

Dördüncü sənaye inqilabı bir sıra çağırışlar irəli sürür və nəzərə alınmalı olan trendlərlə müşahidə olunur.

Birincisi, rəqəmsal erada iqtisadi artım və inkişafın hərəkətverici qüvvəsi texnoloji tərəqqidir. Yaxın onillikdə texnologiyaların əhəmiyyəti daha da artacaq, texnologiyaların tətbiqi hər il sürətlənərək, innovasiya dövrünü azaldacaq. Texnologiyaların inkişafı nəinki ƏM-in əhəmiyyətinin artmasına səbəb olmalı, texnologiyalar artıq bu gün və yaxın onilliklərdə ƏM-in beynəlxalq arxitekturasını müəyyən edəcək, ƏM isə bu obyektivliyi qəbul edərək, bu fenomenə mane olmamalı, əksinə ona uyğunlaşmalıdır. Bu amin ƏM-in gələcək evolyusiyasını müəyyən edəcək.

İkincisi, qlobal rəqəmli şəbəkənin ƏM-ə münasibətdə çox böyük təsiri müşahidə olunur. Müasir internet-xidmətlər və platformalar informasiya məkanını inteqrasiya edir, kontentə çevrilmiş rəqəmsallaşdırılmış ƏM obyektlərinin hüquqi cəhətdən tamamilə yenidən və fərqli canlanmasının baş verməsinə səbəb olur, bu isə ƏM hüquqlarının ərazi xarakteri ilə internet şəbəkəsinin transsərhəd, qlobal təbiəti və rəqəmsal kontentin informasiya təbiəti arasında fundamental ziddiyyət doğurur.

Göstərilən ziddiyyət beynəlxalq hüququn bir çox məsələlərinə toxunur və xüsusən, müəlliflik və digər ƏM obyektlərinin hüquqlarının dərk edilməsində yeni yanaşmalara gətirib çıxarır.

Üçüncüsü. Növbəti problem isə ƏM sahəsində hüququn aparıcı rolunun saxlanması ilə bağlıdır. Rəqəmsal mühitdə hüquq kifayət qədər sərt, hətta məhdudlaşdırıcı alətə çevrilməkdədir. İnternet mədəniyyəti indi isə elədir ki, onun təqdim etdiyi platformalar davranışa hüquqdan çox olmasa da eyni dərəcədə təsir edir. Bir sözlə, ƏM siyasətində hüququn sonuncu arbitr mövqeyini qoruyub saxlaması üçün əqli mülkiyyət və xüsusən müəlliflik hüququ rəqəmsal platformalar və onların doğurduğu İnternet mədəniyyəti qarşısında geri çəkilməlidir, rəqəmsal yeniliklərlə tərəfdaşlıq etməlidirlər.

Dördüncüsü. Müəllif hüququnda sistem problemlərdən biri də rəqəmsal mühitdə əlavə dəyərin yaradılmasının yeni biznes-modelləridir. Bu yanaşmanın uğuru İnternet şəbəkəsi istifadəçilərinin gözləntilərinə uyğun olaraq hüquqların idarə edilməsinin və onlayn-ticarətin leqal sxemlərinin gətirilməsindədir. Başqa sözlə, leqal ticarət və ya lisenziyalaşdırma qeyri-leqal istifadədə olduğu qədər sadə həyata keçirilməlidir.

Onu da nəzərə almalıyıq ki, ƏM-in rəqəmsal problemləri ümumi rəqəmsal inqilabın fonunda baş verir, hansı ki, süni intellektli sənaye şəbəkələrinin istifadəsində, Sənaye İnternetinin (Internet of Things) inkişafında, neyron texnologiyalarının və kiberfiziki sistemlərinin tətbiq olunmasında özünü göstərir. Bu çərçivəyə avtomatik identikləşdirmə xidmətləri, qlobal məlumat bazalarının (big data) işlənməsi, sənaye obyektlərinin bulud robototexnika kompleksləri (smart everything) və sosial şəbəkələrin inkişafı və s. daxil edilməlidir.

Rəqəmsallaşdırma rəqəmsal ekosistemdə heç də sadə olmayan hüquqi xarakterli problemlər doğurur və bununla rəqəmsal

innovasiyalar mütəxəssislərin fikrincə, “rəqəmsal imperativ” adlanan davranışı müəyyən edir, bu isə bütövlükdə, o cümlədən ƏM sahəsində hüquqi tənzimləmə mexanizminə təsir göstərir, özü də elə şəkildə ki, əksər hallarda ƏM dövriyyəsinin, həmçinin ƏM hüquqlarının qorunmasının üsul və alqoritmləri mexaniki olaraq rəqəmsal mühitdə tətbiq oluna bilmir.

Növbəti aktual problemlərdən biri IT-nın həyat haqqında elm sahəsində tətbiqi və süni intellektin geniş istifadəsidir. Misal üçün, biologiya elmlərində ƏM obyektlərinin ənənəvi ölçüsünə sığmayan generasiya olunan iri verilənlər massivləri. Yaxud süni intellektin yaratdığı kommersiya əsərləri və ya ixtiralar, hansılarda ki, hüquq sahibliyi məsələlərində, yəni “bəstəkar”, “müəllif” və “ixtiraçı” terminləri altında nəyin başa düşülməsində çətinliklərlə üzləşirik.

Qarşılaşdığımız problemlərdən biri rəqəmsallaşdırmanın yaratdığı sistemli çətinliklərdir. Bəllidir ki, ƏM-in əsaslandığı başlıca prinsip – ƏM-in transparentliyi prinsipidir. Belə ki, hüquqları əldə edənlər yaratdığı yeni texnologiyalara, məhsullara, xidmətlərə və ya müəlliflik hüququ obyektlərinə münasibətdə müəyyən informasiyanın ictimaiyyətə açıqlanmasının vacib şərtini yerinə yetirirlər. Məhz bu prinsip sayəsində digərləri ƏM hüquqlarının kimə məxsusluğunu və onların həcminin nə qədər olduğunu öyrənirlər. Bu funksiya mülkiyyət hüquqları haqqında ictimai qeydləri aparan dövlət sektoru, adətən ƏM idarələri tərəfindən həyata keçirilir. Lakin hazırda məsələn, “blokçeyn” kimi yeni texnologiyalar meydana çıxıb və qeydlərin etibarlı saxlanması sistemi kimi təklif edilir. Bununla dövlət və özəl sektorlar arasında məhdudlaşdırıcı xətləri dağılmalı olur.

Digər bir sistem problemi iri verilənlər massivlərinin generasiyası ilə əlaqədardır. Bunların içərisində ƏM sisteminin ənənəvi kateqoriyalarından kənara çıxanlarının mövcudluğunu da nəzərə almalıyıq. Buna görə də onların qorunması üçün daha çox kommersiya sirrinə müraciət edilir. Bu verilənlərin saxlanıldığı yerlərə sahibliyə (ənənəvi mənada), həmçinin onların hüquq sahiblərinə münasibətdə suallar yaranır. Biz mütəxəssislərin o fikri ilə razıyıq ki, “ƏM hüquqlarının klassik kateqoriyalarından kənara çıxan verilənlər siniflərinə münasibətdə mülkiyyət hüquqlarının yenidən müəyyənləşdirilməsi qaçılmazdır”.

Bununla yanaşı, digər məsələ də meydana çıxır.

Ümumiyyətlə, bir halda ki, süni intellektin fundamenti verilənlərdən ibarətdir, onlar isə kommersiya sirri kimi qorunur, onda tətbiqi əlavələrin hazırlanması üçün onlara sərbəst giriş verilməsinin zəruriliyini və eyni zamanda yeni biliklərin yaradılmasının stimullaşdırılması üçün onlara əlçatımlığın məhdudlaşdırılmasını necə uzlaşdırmalıyıq?

Göründüyü kimi, texnologiyalardan irəli gələn sadalanan problemlər kardinal dəyişiklikləri nəzərdə tutur və fənlərarası xarakter daşıyır. Bu çağırışlar öz həllini ƏM sahəsində müşahidə olunan trendlər fonunda tapır. Onların çərçivəsinə ƏM obyektlərinə hüquqların sifarişlərinə nəzərə çarpan artımı, ƏM-in yeni obyektlərinin meydana çıxması, istifadə üsulları və tətbiq sahəsi, İnternet və sosial şəbəkələri hesabına müəlliflərin, hüquq sahiblərinin subyekt heyətinin genişləndirilməsi və ƏM-in dövriyyəsinin intensivləşdirilməsi və mürəkkəbləşdirilməsi daxil edilməlidir.

Milli əqli mülkiyyət sistemimiz sadalanan məsələlərlə tanışdır və onların həllinə öz töhfələrini verməyə çalışır.

**Ədəbiyyat:**


1. İmanov K.S. "Əqli mülkiyyət hüquqları", Bakı, 2013
2. Близнец И.А. «Право интеллектуальной собственности», М., 2005
3. Конвенция, учрежденная ВОИС, ВОИС, 1979
4. Зенин И.А. «Право интеллектуальной собственности», М., 2013
5. The Global Competitivess Report, 2019
6. Imanov K.S. "Innovative development and economic reforms: The role of commercialization of Intellectual Property and Technologies", Baku, 2019
7. Иманов К.С. «Инновационное развитие и интеллектуальная собственность», Баку, 2018
8. Локалов А.А. «Инновационная экономика и новая экономика: соотношение процессов и понятий», М., 2018
9. Заркович А.В. «К вопросу становления «новых экономик»: инновационная экономика», М., 2012
10. Imanov K.S. "Creative economy and development of the Azerbaijan economy", Baku, 2016
11. İmanov K.S. "Kreativ iqtisadiyyat, əqli mülkiyyət və iqtisadi artım", Bakı, 2019


***Açar sözlər:*** *intellektual mülkiyyət, innovasiyalar, innovativ inkişaf, əqli mülkiyyətin milli sistemi, innovasiya ekosistemi*

**Kamran Imanov**
*Chairman of the Board, Intellectual Property Agency of the Republic of Azerbaijan, professor*

# INTELLECTUAL PROPERTY IN THE CONTEXT OF INNOVATIVE DEVELOPMENT

## SUMMARY

The article is devoted to the study of the importance of intellectual property (IP) in the innovative development of the country. The issues of the emergence of IP rights from the perspective of IP object-maker, as the owner (right holder) and from the point of view of information having commercial value are studied, the concept of "result of intellectual activity", expressed in an objective form, is introduced, and the links are established between the "circulation of knowledge", "IP rights ", non-material and material benefits, as well as the principle of IP dualism. IP rights have been reviewed as the objects of civil law rights, the classification of IP objects and the national legislative framework in the field of IP are proposed.

The role of IP in innovative development, an impact of economic and institutional reforms carried out in Azerbaijan on the development of national IP system have been studied. Achievements of the country are described in the light of ratings of leading international institutions, reserves are assessed and ways to bring scientific and technical potential in line with the results of R&D and strengthening of the commercialization of scientific and technological achievements are proposed.

The issues of creating an ecosystem of innovations with the use of IP concept of IP highlighted, the understanding of "creative" and "innovative" economies is compared, and their interaction and inter-influence are defined. The activity of the Intellectual Property Agency, established on the initiative of the political leadership of the country, the tasks set for it, already solved and being addressed are briefly described, and it is emphasized that the main goals of this department at the present stage are to translate its activities as an abstract tool focused on corporate interests into an active factor in economic development, to attract investments and to support innovations.

In conclusion, the technological challenges facing the international IP system and the observed trends, are necessary for the progressive development of the national IP system, are presented.

***Keywords:*** *intellectual property, innovation, innovative development, national IP system, innovation ecosystem*

**Камран Иманов**
*Председатель Правления Агентства Интеллектуальной Собственности Азербайджанской Республики, профессор*

# ИНТЕЛЛЕКТУАЛЬНАЯ СОБСТВЕННОСТЬ В КОНТЕКСТЕ ИННОВАЦИОННОГО РАЗВИТИЯ

## РЕЗЮМЕ

Статья посвящена исследованию значимости интеллектуальной собственности (ИС) в инновационном развитии страны. Изучены вопросы возникновения прав ИС с позиций творца объектов ИС, как собственника (правообладателя) и с точки зрения, имеющей коммерческую ценность информации, введено понятие «результат интеллектуальной деятельности», выраженный в объективной форме, установлены связи между «круговоротом знаний», «правами ИС», нематериальными и материальными благами, а также принцип дуализма ИС. Рассмотрены представление прав ИС, как объектов гражданского права, предложена классификация объектов ИС и национальная законодательная база в сфере ИС.

Изучены роль ИС в инновационном развитии, влияние на развитие национальной системы ИС экономических и институциональных реформ, осуществляемых в Азербайджане, а также на основании рейтингов ведущих международных институтов приведены достижения страны, отмечены резервы и предложены пути приведения научно-технического потенциала в соответствие с результатами НИОКР и усиления процесса коммерциализации научно-технических достижений. Освещены вопросы создания экосистемы инноваций с привлечением понятия ИС, сопоставлено понимание «креативная» и «инновационная» экономика и выявлено их взаимодействие и взаимовлияние. Кратко освещены деятельность созданного по Распоряжению Президента страны Агентства Интеллектуальной Собственности, поставленные перед ним актуальные задачи и подчеркнуто, что основные цели этого ведомства на современном этапе сводятся к переводу его деятельности как абстрактного средства, сосредоточенного на корпоративных интересах в активного актора экономического развития по привлечению инвестиций и поддержке инноваций.

В заключение приводятся технологические вызовы, стоящие перед международной системой ИС и наблюдаемые тренды, учет которых необходим для поступательного развития национальной системы ИС.

***Ключевые слова:*** *интеллектуальная собственность, инновации, инновационное развитие, национальная система интеллектуальной собственности, экосистема инноваций*

# VƏTƏN TARİXİ
# NATIONAL HISTORY

UOT 94 (479.24)

**İSMAYIL HACIYEV**
**AMEA Naxçıvan Bölməsinin sədri, akademik**
*e-mail: ismayil_haciyev@yahoo.com*

## NAXÇIVANIN RUSİYA İMPERİYASININ MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİNƏ QARŞI MÜBARİZƏSİ (XIX-XX əsrin əvvəlləri)

Rusiya imperiyası Naxçıvanı tutduqdan sonra burada ağır işğal rejimi quruldu. Bunun üçün Naxçıvan xanlığının tarixən formalaşmış dövlətçilik ənənələrinin ləğv edilməsi siyasəti həyata keçirildi. Bu məqsədlə ilk növbədə mövcud idarə sistemi dağıdılmağa və yeni imperiya idarə sistemi formalaşdırılmağa başlandı. Bu siyasət Azərbaycanın Rusiya tərəfindən işğal edilən digər xanlıqlarından fərqli şəkildə həyata keçirilirdi. Naxçıvan xanlığının Rusiya tərəfindən, əsasən, dinc yol ilə tutulmasına baxmayaraq, çar hökuməti onunla, bu yol ilə ilhaq edilən Qarabağ, Şəki və Şirvan xanlıqları kimi müqavilə bağlamamış [2], lakin Ehsan xan və Şeyxəli bəyin xidmətləri nəzərə alınaraq, onlar həmin torpaqlara naib təyin edilmişdi [7, s.105]. İrəvan xanlığı 1827-ci ilin oktyabrında işğal edildikdən sonra [3] vilayətə çevrildi və Naxçıvanın idarəsinin onunla birləşdirilməsi təcrübəsi tətbiq edilməyə başlandı ki, bu da fərqli cəhətlərdən biri idi. Belə ki, İrəvan xanlığının işğalından qısa müddət sonra, 1827-ci il oktyabr ayının 6-da Paskeviç İrəvan vilayətinin idarəsi üçün ümumi qaydalar müəyyən etdi. Bu qaydalar 19 bənddən ibarət olub, vilayətin yeni idarə sisteminin (Müvəqqəti idarə yaradılması və s.) əsaslarını göstərirdi [12]. Baş Qərargah rəisi qraf Dibiçin Paskeviçə 1827-ci il 15 dekabr tarixli təliqəsindən aydın olur ki, Sankt-Peterburqda hazırlanmış və qaydalar layihəsi adlanan bu sənəd İrəvan əyaləti adı altında İrəvan və Naxçıvan xanlıqlarının torpaqlarını nəzərdə tuturdu [13]. Vilayət inzibati-ərazi baxımdan İrəvan və Naxçıvan qəzalarına və Ordubad dairəsinə bölünürdü.

Ümumi qaydalara uyğun olaraq yaradılan Müvəqqəti idarəyə general-leytenant Krasovski, erməni katolikosu Nerses Aştaraketsi və İrəvan qalasının komendantı polkovnik Borodin daxil idi. Göründüyü kimi əvvəla, Müvəqqəti idarəyə azərbaycanlı əhalidən heç kim daxil edilməmişdi; ikinci, İrəvan əyalətinin coğrafiyasının daha geniş nəzərdə tutulmasına baxmayaraq, Naxçıvanın nümayəndəsi burada təmsil olunmamışdı. Hətta, belə bir vəziyyətdə də idarə səmərəli fəaliyyət göstərə bilmədi. Paskeviç ilə Krasovski və Nerses arasında yaranan ziddiyyətlər, onların İrəvandan uzaqlaşdırılması ilə başa çatmışdı [17, s.38]. Krasovskini bu vəzifədə A.G.Çavçavadze, onu isə əslən erməni olan D.O.Behbudov əvəz etmişdi.

Ermənilər yaranmış vəziyyətdən istifadə edərək Rusiya imperiyasının protektoratlığı altında erməni muxtariyyətinin yaradılması və erməni dövlətçiliyinin bərpası haqqında əvvəlki dövrlərdə olduğu kimi layihələr hazırladılar və çara təqdim etdilər. I Nikolay 1828-ci ilin fevralında Türkmənçay müqaviləsinin imzalanmasından az bir vaxt keçməmiş, martın 21-də əlahəzrət fərmanı ilə hökumətin bu məsələyə baxışını ortaya qoydu. Fərmanda bildirilirdi ki, İranla bağlanmış müqaviləyə əsasən, Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarının bundan sonra, "Erməni vilayəti" adlandırılması hökm edilir və çarın

titulaturasına daxil edilirdi. Vilayətin quruluşu və onun idarə edilməsi qaydası haqqında Ali senat lazımı fərmanları vaxtında almalı idi [14].

Bu fərman ermənilərin mənafeyini müəyyən dərəcədə nəzərə alsa da, onu tam şəkildə ifadə etmədi. Bununla belə, bu fərman bütövlükdə Azərbaycanın mənafeyinə uyğun deyildi və formalaşmış tarixi gerçəkliyi nəzərə almırdı.

Fərmana uyğun olaraq, bölgədə vilayət idarəsi yaradılmışdı. Fərmanın həyata keçirilməsi də göstərirdi ki, çarizm onun reallaşdırılmasına siyasi-hüquqi baxımdan hazır deyildi. Belə ki, vilayətin 1828-ci ilin martında yaradılmasına baxmayaraq, onun idarəsi üzrə imperatorun təsdiq etdiyi Nazirlər Kabinetinin ştatın təsdiqi haqqında əsasnaməsi 1829-cu il sentyabrın 10-da həyata keçirilmiş, lakin bu da müvəqqəti adlandırılmışdı [25]. Vilayətin gerbi isə çar tərəfindən 1833-cü il 27 fevralda təsdiq olunmuşdu.

Vilayətə dair ən mühüm hüquqi sənəd – "Erməni vilayəti" idarəsinin quruluşu haqqında Əsasnamə isə beş il sonra, 1833-cü il iyunun 23-də təsdiq olunmuşdu [26]. 16 maddədən ibarət olan bu sənədin birinci maddəsi ilə vilayət idarəsində kollegial idarə dayandırılır, işlərin nazirliklərin departamentləri üzrə aparılması müəyyən edilirdi. Naxçıvan və Ordubadda əvvəlki inzibati-ərazi bölgüsü saxlanır, beşinci maddəyə görə, naiblər-polkovnik Ehsan xan və mayor Şeyxəli bəyə həmin əyalətlərdə zemstvo hakimiyyəti verilirdi. Səkkizinci maddə ilə İrəvan şəhəri ilə eyni zamanda, Naxçıvanda da Rusiya məmurlarından ibarət əyalət məhkəməsi təşkil edilirdi. Ordubad əyalətinin işləri də Naxçıvan məhkəməsinə verilirdi.

Bütün Qafqazda olduğu kimi, Naxçıvanda da yaradılan inzibati-idarə sistemi özünü doğrultmayıb, əhali üçün ciddi problemə çevrilmişdi. İstər çar hökuməti dairələrində, istərsə də yerlərdə mövcud idarə sistemindən narazılıq var idi [23]. Bunu nəzərə alan çar hökuməti 1840-cı il aprelin 10-da Zaqafqaziya diyarının idarəsi üzrə təsisatları təsdiq etdi. Təsisatlara uyğun olaraq, Cənubi Qafqazda üç pilləli-quberniya (vilayət), qəza (dairə) və sahə inzibati-ərazi bölgüsünə keçildi. "Erməni vilayəti" ləğv edildi, onun ərazisi Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edildi. Naxçıvan qəzası və Ordubad dairəsi Naxçıvan qəzasında birləşdirildi. O da özlüyündə Naxçıvan, Ordubad və Dərələyəz sahələrinə bölünürdü.

İnzibati-ərazi bölgüsü ilə bərabər, idarə və məhkəmə sistemi də dəyişdirildi. Cənubi Qafqazda baş idarə, quberniya və qəza idarəsi olmaqla üçhəlqəli sistem yaradıldı.

Naxçıvanda yeni idarə sisteminə keçid nəinki, Cənubi Qafqaz, eləcə də Azərbaycanın digər bölgələrinə nisbətən daha gərgin şəraitdə həyata keçirilirdi. Bu hər şeydən əvvəl, 1840-cı il islahatı ərəfəsində Naxçıvandakı idarə sisteminin xüsusiyyətləri ilə bağlı idi. Belə ki, bu dövrə qədər Naxçıvanı naiblər – Ehsan xan və Şeyxəli bəy idarə edirdi. Yeni qaydalara uyğun olaraq naiblərin hakimiyyətinin ləğvinə Ehsan xandan daha barışmaz münasibət bəsləyən Şeyxəli bəy İrana qaçdı. Onun mülkü xəzinəyə müsadirə edildi. Naiblərin kiçik qardaşı rus xidmətinin poruçiki Mehdi ağa da qaçdı [24, s.91]. Ehsan xan ilə məsələ fərqli oldu. Bu hal onun Peterburqda çar I Nikolay ilə görüşündən sonra aydın oldu. Çarın hökmü ilə Ehsan xana maaş təyin edildi. Kəngərlilər isə onun tabeliyindən çıxarıldı. Qafqazdakı rus qoşunlarının baş komandanı Qolovin tərəfindən kəngərlilər üçün "kompensasiya" olaraq xana altı tiyul kəndi verilməsi haqqında təklifi də qəbul edilmədi. Beləliklə, Ehsan xan vəzifəsindən qəti şəkildə uzaqlaşdırıldı, onun qarşısında yalnız, 200 kəngərli süvarisinin hərbi hazırlığının təmin edilməsi vəzifəsi qoyuldu. Xan 1846-cı ilin fevralında vəfat etdi [24].

1840-cı il inzibati-məhkəmə islahatı özünü doğrultmadığına görə, onun nəticələrinin qaldırılması sahəsində tədbirlər görülməyə başladı. 1844-cü ildə Qafqazda canişinlik sistemi tətbiq edildi. Qafqazda vəziyyətin stabilləşdirilməsində ilk canişin M.S.Vorontsova (1844-1854) böyük etimad göstərilirdi. Onun təqdimatı əsasında 1846-cı il 14 dekabr fər-

manı ilə inzibati-ərazi bölgüsündə dəyişiklik olundu. Diyar dörd quberniyaya-Tiflis, Kutais, Şamaxı və Dərbənd quberniyalarına bölündü. Naxçıvan qəzası Tiflis quberniyasının tərkibinə daxil edildi [23]. Bu inzibati-ərazi bölgüsü də uzun müddət davam etmədi.

1849-cu il iyunun 9-da Zaqafqaziya diyarında İrəvan quberniyası yaradılması haqqında fərman verildi. Fərmana əsasən, Tiflis quberniyasından İrəvan, Naxçıvan və Axalkalaki sahəsindən başqa, Aleksandropol qəzası, Şamaxı quberniyasından Şuşa qəzasının Mehri sahəsi və Qapaq kəndi ayrılmaqla yeni quberniya təşkil edildi. Quberniya mərkəzi İrəvan şəhəri təyin edildiyinə görə, quberniya İrəvan quberniyası adlandırıldı. Naxçıvan qəzasının Ordubad sahəsi istisna olmaqla, mərkəzi şəhəri Naxçıvan olan qəza və Naxçıvan qəzasının Ordubad sahəsi, Şuşa qəzasının Qapaq kəndi ilə birgə, Mehri sahəsi əsasında yaradılan Ordubad qəzası İrəvan quberniyasının tərkibinə daxil olurdu. Ştatdan kənar (заштатный) şəhər olan Ordubad qəza şəhəri statusunu alırdı. Quberniyaya daxil olan İrəvan, Naxçıvan və Aleksandropol qəzalarından fərqli olaraq, Ordubad və Novobəyazit qəzaları hələlik sahələrə bölünmürdü [27]. Bütövlükdə Zaqafqaziyanın, o cümlədən Naxçıvan bölgəsinin də inzibati-ərazi bölgüsü bununla başa çatmadı, bölgü prosesi yenə da davam etdirildi. 1867-ci il dekabrın 9-da Qafqaz və Zaqafqaziya diyarının idarəsinin dəyişdirilməsi haqqında fərman verildi. Həmin fərmana görə, Zaqafqaziyada yeni-beşinci Yelizavetpol quberniyası yaradıldı [27]. Bununla əlaqədar olaraq, Ordubad qəzası ləğv olunaraq, Naxçıvan qəzası ilə birləşdirildi, Mehri sahəsi isə Yelizavetpol quberniyasının tərkibinə verildi.

1870-ci ilin əvvəllərində həyata keçirilən dəyişikliklər üzrə İrəvan qəzasının Şərur sahəsi Naxçıvan qəzasına birləşdirildi, 1874-cü ildə isə Naxçıvan qəzasının Şərur və Dərələyəz sahələri əsasında, Şərur-Dərələyəz qəzası təşkil edildi [7, s.109-110].

Beləliklə, Naxçıvan bölgəsinin Rusiya imperiyası tərkibində həyata keçirilən inzibati-ərazi bölgüsü və idarə sistemi çarizmin müstəmləkəçilik siyasətinə xidmət edirdi. Bu siyasət hər vasitə ilə nəinki, Azərbaycan torpaqlarını, eyni zamanda onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın tarixi torpaqlarını digər inzibati-ərazi vahidləri arasında parçalayaraq, ərazi və əhalinin konsolidasiyasına mane olurdu.

Çarizmin müstəmləkəçilik siyasətinin digər bir istiqamətini Şimali Azərbaycan torpaqlarına, o cümlədən Naxçıvana ermənilərin kütləvi şəkildə köçürülməsi təşkil edirdi. Məlumdur ki, ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi çar I Pyotrun 1724-cü il 10 noyabr tarixli fərmanı ilə dövlət siyasətinə çevrilmişdi [33]. II Yekaterina dövründə də bu siyasət davam etdirilmiş, XIX əsrin əvvəllərindən Rusiya imperiyasının Şimali Azərbaycan torpaqlarının işğalının başlanması ilə sistemli və kütləvi hal almışdı [18]. Ermənilərin köçürülməsi hüquqi-siyasi baxımdan 1828-ci il fevralın 10-da imzalanan Türkmənçay müqaviləsinin XV maddəsi ilə tənzimlənirdi [29].

Köçürmənin həyata keçirilməsinin təşkili və reallaşdırılması məsələlərinə dair ilk sənədlərdən biri Paskeviçin qraf Dibiçə təliqəsi idi. Bu təliqədə köçürmə ilə əlaqədar üç bənddən ibarət olan sərəncamından bəhs edilir. Birinci bənddə köçürmə işinin təşkilinə polkovnik Lazarevin təyin edilməsindən və ona əksəriyyəti erməni dilini bilən hərbçilərin köməkçi təyin edilməsi bildirilirdi. İkinci maddədən aydın olur ki, köçürülən ermənilərin məskunlaşdırılmasında İrəvan və Naxçıvan vilayətlərinə üstün yer verilir. Paskeviç bu bənddə İrəvan Müvəqqəti idarəsinə ermənilərin İrəvan və Naxçıvana gəlməsinə qədər tədbirlər görülməsi barədə göstəriş verdiyini qeyd edir. Qarabağa bu iki əyalətə nisbətən daha yaxın olan yerlərdən ermənilər köçürülməli idi. Üçüncü bənddə köçürülən ermənilərin xərcləri üçün traktata uyğun İran hökumətindən alınan təzminatdan 50 min gümüş manat ayrıldığı diqqətə çatdırılırdı [31]. Digər sənədlərdə polkovnik Lazarevə və İrəvan Müvəqqəti idarəsinə köçürülən ermәni-

lər barədə verilən qaydalar göstərilirdi. Qaydaların 12-ci bəndində xristianların Naxçıvan və İrəvan vilayətlərinə getməsinə razılaşdırılması əksini tapmışdı, bununla həmin vilayətlərdə mümkün olduqca xristian əhalinin artırılması nəzərdə tutulurdu [31, v.4 arx.].

Naxçıvan bölgəsinə köçürülən ermənilərə dair rəqəmlər İ.Şopen [32] və V.Qriqoryevin [20] bilavasitə, həmin dövrə aid tədqiqatlarında əksini tapmışdır. Şopenin məlumatlarından aydın olur ki, Naxçıvan bölgəsinin Rusiya imperiyası tərəfindən ələ keçirilməsindən sonra Naxçıvan əyalətinə İrandan 2137 ailə (10652 nəfər), Türkiyədən isə 8 ailə (27 nəfər), Ordubad dairəsinə isə 250 ailə (1340 nəfər) köçürülmüşdü [32]. Burada bir maraqlı fakt diqqəti cəlb edir. Belə ki, İrandan Naxçıvan əyalətinə köçürülən hər bir erməni ailəsinə təxminən 5, Ordubad dairəsində isə 5,36 nəfər düşdüyü halda, bu rəqəm Türkiyədən köçürülənlərə 3,3 nəfər düşür. Deməli, burada rəqəmlərdə yanlışlıq var və Türkiyədən köçürülən ermənilərin sayı da əslində, çox olmalıdır.

İrandan Naxçıvan bölgəsinə köçürülən ermənilər haqqında V.Qriqoryevin məlumatlarının daha informativ olmasını və bir sıra yeni məsələlərə aydınlıq gətirdiyini vermiş olduğu cədvəldən görmək mümkündür [20, s.125-127]. Cədvəldən aydın olur ki, burada 9 mühüm məsələ (köçürülən ermənilərin ilkin məskunlaşdıqları yerlər, ailələrin sayı, onların sosial tərkibi, cinsi, yaşı və haradan köçürülmələri) əksini tapmışdır.

Bütövlükdə, Naxçıvan bölgəsinə 2551 ailə köçürülmüşdü [20, s.127].

Bu, Şopenin rəqəmindən (2387 ailə) 164 ailə çox idi. Köçürülən ermənilərin tərkibində tacirlər 8,15%, sənətkarlar 18,74%, əkinçilər isə 73,11% təşkil edirdi. Köçürülən ermənilər içərisində kişilər (6954 nəfər, yaxud 52,84%) qadınlara (6206 nəfər, yaxud 47,16%) nisbətən çox idi. Kişilərin yaş üzrə bölgüsündən aydın olur ki, böyüklər kiçiklərdən 1964 nəfər çox idi. Nəhayət, cədvəl köçürülən ermənilərin İran, bütövlükdə isə Cənubi Azərbaycan üzrə coğrafiyasını müəyyən etməyə imkan verir.

Naxçıvana köçürülən ermənilərə dair faktlar nəinki, konkret zaman kəsiyindəki vəziyyəti deyil, perspektivi də aydınlaşdırmağa imkan verir. Çar hökuməti tərəfindən ən yaxşı torpaqlarda yerləşdirilən və xüsusi imtiyazlar ilə təmin olunan ermənilərin mexaniki artımı ilə eyni zamanda, təbii artımı üçün də əlverişli şərait yaradılmış və onlar sonrakı tarixi dövrdə Naxçıvanda müstəqillik və dövlətçiliyin bərpası uğrunda mübarizə qarşısında ciddi maneəyə çevrilmişdilər.

Çarizmin Naxçıvanda iqtisadi və sosial-mədəni sahədə həyata keçirdiyi tədbirlər də müstəmləkəçilik sisteminin möhkəmləndirilməsinə xidmət göstərirdi. Naxçıvan bölgəsinin iqtisadi əsasını kənd təsərrüfatı təşkil edirdi. Çar hökumətinin bütün Şimali Azərbaycanda olduğu kimi, Naxçıvanda da iqtisadi siyasətinin əsas istiqamətini daha çox gəlir əldə etmək, yeni işğal edilmiş torpaqların Rusiya sənayesinin xammal bazasına çevrilməsi təşkil edirdi. Bu sırada pambıqçılığı xüsusi qeyd etmək olar [9, s.69]. Çar hökuməti aqrar münasibətləri də bu siyasətinə uyğunlaşdırmağa çalışır, hər vasitə ilə özünə bölgədə sosial dayaq yaratmağa da cəhd edirdi. 1846-cı il 6 dekabr reskriptinin birinci maddəsi ilə çar hökumətinin bəzi şəxslərə bəxşiş etdiyi torpaqlarla bərabər, müsəlman əyalətlərinin Rusiyaya birləşdirilməsi dövründə onların nəsillərinin sahib olduqları və o zaman da onların ixtiyarında olan bütün torpaqları irsi mülkiyyət kimi təsdiq olunurdu. Bu çar reskriptinə uyğun olaraq, kəndli əsasnamələri qəbul edilmişdi. İrəvan quberniyası və Tiflis quberniyasının Axalsix qəzasına aid 1851-ci il 8 iyun əsasnaməsi qəbul edilsə də, Krım müharibəsi ilə əlaqədar həyata keçmədi. Rusiyadakı 1861-ci il kəndli islahatından sonra, Cənubi Qafqazda da kəndli islahatına hazırlıq başlandı və nəhayət, 1870-ci ilin may ayında kəndli islahatı elan edildi, lakin sahibkar kəndindəki problemləri tam həll edə bilmədi. Sahibkar kəndindəki kimi dövlət kəndində də hüquqi münasibətlər tam tənzimlənməmişdi. Çar hökuməti dövlətin və ona sadiq olan sahibkarların mənafeyini

müdafiə etsə də, əsas istehsalçılar olan kəndlilərin vəziyyəti ağır idi [9, s.70-73, 128-130] və bu da onların müstəmləkə zülmünə qarşı mübarizəsini şərtləndirirdi.

Rusiya imperiyasının müstəmləkəçilik siyasəti özünü sosial-mədəni sahədə də sərt şəkildə göstərirdi. Çar hökuməti xüsusilə, müsəlman coğrafiyasında, o cümlədən Naxçıvan bölgəsində təhsilin, elmin və mədəniyyətin inkişafı qarşısında ciddi maneələr yaradırdı. Tarixin əvvəlki dövrlərində böyük elmi, ədəbi-bədii potensialı ilə fərqlənən Naxçıvan bölgəsində qəza məktəbi yalnız 1837-ci ildə açılmışdı. Çox maraqlıdır ki, bu məktəb üçün də xüsusi bina tikilməmiş, on iki il müddətinə Ehsan xanın oğlanlarının evində yerləşmişdi. Ordubadda isə yalnız 1854-cü ildə ibtidai məktəb açılmışdı [6]. Naxçıvan qəza məktəbi 1879-cu ildə şəhər məktəbinə, Ordubad ibtidai məktəbi isə sonralar dördsinifli ali ibtidai məktəbə çevrilmişdi [16]. Bu məktəblər Naxçıvan kimi geniş əraziyə və əhaliyə malik olan bir bölgə üçün olduqca az idi. Bu fakt göstərir ki, çarizm bölgədə elm və təhsilin, bununla əlaqədar olan digər sahələrin inkişafında maraqlı deyildi və bu sahədə tarixən böyük ənənələrə malik olan Naxçıvan ziyalıları bu vəziyyətlə barışa bilməzdi.

Çarizmin bütövlükdə Şimali Azərbaycanda, o cümlədən Naxçıvanda formalaşdırdığı müstəmləkə üsul-idarəsi yerli xalqın müqaviməti ilə rastlaşır və dövlətçiliyin bərpası uğrunda mübarizə üçün zəruri bir platformaya çevrilirdi. Bu özünü əvvəla, çarizmin Naxçıvanda yaratdığı müstəmləkə rejiminə qarşı azadlıq hərəkatında, ikinci, çar hökuməti tərəfindən Naxçıvan bölgəsinə köçürülərək burada yerləşdirilən və onun müstəmləkə siyasətinin etno-sosial və siyasi dayağını təşkil edən erməni iddialarına və yerli əhalinin soyqırımı əleyhinə mübarizədə, üçüncü, Naxçıvanın görkəmli ziyalılarının çarizmin müstəmləkə rejiminin sosial-mədəni əsaslarına qarşı fəaliyyətində özünü göstərirdi.

Çar Rusiyası tərəfindən Şimali Azərbaycanın işğalının başa çatdırılmasından sonra, əsasən Gülüstan müqaviləsindən sonra ələ keçirilmiş Car-Balakən (1830), Lənkəran (1831), Quba (1837) və Şəki (1838) bölgələrində anti-müstəmləkə üsyanları baş verdi [1]. Bu üsyanlar çarizmi müstəmləkə üsul-idarəsində dəyişiklik etməyə məcbur etdi. 1840-cı il 10 aprel qanunu əsasında aparılan inzibati-məhkəmə islahatının gedişində müstəmləkəçiliyin ilk simvollarından biri olan komendant üsul-idarəsi ləğv olundu [1, s.110-119]. Naxçıvan bölgəsi 1830-cu il üsyanlarının coğrafiyasından kənarda qalsa da, burada müstəmləkə rejiminə qarşı mübarizə yerli idarəetmənin xüsusiyyətlərindən asılı olaraq, özünəməxsus şəkildə əks olunmuşdur, Naxçıvanın idarəsinin ilk vaxtlar yerli hakimlər-naiblər tərəfindən həyata keçirilməsi komendant üsul idarəsinə, yaxud İrəvan əyalətində tətbiq edilən idarə- üsuluna nisbətdə əhaliyə daha yaxın idi. Buna baxmayaraq, bu hal yeni yaradılmış idarə-üsuluna qarşı narazılığı tam aradan qaldıra bilməmişdi. Ən maraqlısı odur ki, bu idarə üsuluna ilk etiraz Şeyxəli bəydən olmuşdu. Onun gizli olaraq Abbas Mirzə ilə məktublaşması haqqında şayiələr var idi [10]. O, Ordubad dairəsinin idarəsində iştirak etmək məqsədi ilə pristav göndərilməsini neqativ qarşıladı və Ordubadı tərk edərək yaşamaq üçün Naxçıvana gəldi. Vilayətin rəisi Çavçavadzeyə müraciət edərək Ordubadda tək hakim olmasını rica etdi [11].

Sonrakı tarixi hadisələr göstərir ki, Naxçıvan əhalisi də bu narazılığa qoşulmuş, rejim əleyhinə olan hadisələrdə iştirak etmişdir. Zaqafqaziya diyarının quruluşu haqqında komissiyanın üzvü, kollej asessoru (mülki çin, həmin vaxtlar mayora uyğun idi.-İ.H.) Nefedyevin yazılı qeydlərində özünü peyğəmbər kimi qələmə verən bir mollanın fəaliyyəti nəticəsində Ordubadda əhali arasında həyəcanlardan bəhs olunur, minlərlə insanın bu həyəcana qoşulduğu bildirilir. Bu həyəcan Naxçıvan və ətraf yerlərin sakinlərini də əhatə etmişdi. Nefedyev yazırdı ki, hər şey təhlükədə idi; xoşbəxtlikdən xan və pristav hələ yaylağa yola düşməmişdi və vilayət rəisinin bura gəlişi ölümcül nəticələri aradan qaldırdı [21].

1840-cı il 10 aprel inzibati-məhkəmə islahatı ilə Naxçıvanda yaradılan yeni idarə üsulu da narazılığa səbəb olmuş, yuxarıda qeyd etdiyimiz kimi Ordubad dairəsinin naibi Şeyxəli bəy və kiçik qardaşı Mehdi bəy də İrana qaçmışdı.

Kəngərlililərin hüquqi statusunda baş verən dəyişikliklər də etirazlara səbəb olmuşdu. Ehsan xan ilk vaxtlar kəngərlilərin vergidən azad olmasına nail olsa da, yeni təyin edilən Naxçıvan qəza rəisi Serbinov vergilərin ödənməsini tələb etdi. Çar hakimiyyətinə loyal münasibət bəsləyən Ehsan xan kimi şəxs də bu vəziyyətlə barışmamış və Serbinovun qeyri-qanuni tələblərini boykot etməyə çağırmışdı.

Kəngərlilərin böyük hissəsinin İrana qaçması ilə münaqişənin silahlı toqquşmaya çevrilməsi təhlükəsi aradan qalxmışdı. Bundan sonra çar I Nikolay ilə görüşməsinin təşkili əsas götürülərək Ehsan xan da Naxçıvandan uzaqlaşdırılmışdı.

Naxçıvan əhalisinin geniş təbəqəsini təşkil edən kəndlilər də çar üsul-idarəsindən narazı idilər və bu da kəndli hərəkatının müxtəlif formaları (ərizə və şikayətlər ilə müraciətlər, İrana qaçmaq və s.) vasitəsi ilə özünü göstərirdi. XIX əsrin sonlarına doğru kəndli hərəkatının silahlı mübarizəyə çevrilməsi genişlənməkdə idi. Azərbaycan kəndində kəndli hərəkatının spesifik forması kimi özünü göstərən qaçaq hərəkatı Naxçıvanda da yayılmışdı. Öz miqyasına və əhəmiyyətinə görə, XIX əsrin 90-cı illərində Rusiya imperiyasının ucqarlarında azadlıq hərəkatı tarixində iz buraxan Qaçaq Nəbinin mübarizəsi Naxçıvan ilə də sıx bağlı olmuşdur. XX əsrin əvvəllərində kəndli hərəkatının coğrafiyası və iştirakçılarının sayı xeyli artmışdı [4].

Naxçıvan bölgəsində Naxçıvan, Ordubad və Culfa kimi şəhərlərin olması, burada çarizmin müstəmləkə zülmünə qarşı mübarizənin daha mütəşəkkil xarakter alması və siyasi cəhətdən təşkilatlanmasına şərait yaradırdı. Belə ki, 1904-cü ildə təşkil edilmiş “Hümmət” təşkilatının Naxçıvan və Culfa şöbələri yaradılmışdı [15].

Birinci Dünya müharibəsinin başlanması və Rusiya imperiyasının tərkibində Şimali Azərbaycanın, o cümlədən Naxçıvan bölgəsinin müharibəyə daxil olması ilə burada da siyasi fəaliyyət genişlənməyə başladı. Naxçıvanda “Mücahidin” adlı milli partiya təşkil olundu (1915), müharibə alovlandıqca anti-hərbi mitinqlər də keçirilməyə başlandı [22].

Naxçıvanda müstəmləkəçiliyə qarşı mübarizənin digər bir istiqaməti çar hökumətinin erməniləri məqsədyönlü şəkildə bölgəyə köçürməsi ilə bağlı idi. Ermənilərin köçürülməsi ideyasının gündəmə gətirilməsi, onun həyata keçirilməsinə hazırlıq və təşkilati işlərin görülməsi mərhələsində bu prosesə qarşı mübarizə imkanları məhdud olmuşdur. Lakin ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsinin başlanmasının ilk mərhələsindən etibarən ona qarşı mübarizədə Naxçıvan bölgəsi əsas yeri tuturdu. Azərbaycanın digər bölgələri ilə müqayisədə Naxçıvanda özünəməxsus cəhətlər də var idi. Belə ki, ermənilərin kütləvi şəkildə köçürülməsinədək Azərbaycanın şimalında olan xanlıqlar ləğv edildiyindən, hakim təbəqənin bu prosesə qarşı çıxması üçün adminstrativ resurs aradan qaldırıldığından, yalnız yerli əhalinin müqavimətindən bəhs oluna bilər. Naxçıvan bölgəsində isə yerli idarəetmədə naiblərin rolu ermənilərin köçürülməsinə qarşı mübarizədə yeni istiqamət yaratmışdı. A.S.Qriboyedovun Paskeviçə 1828-ci il 1 oktyabr tarixli məktubunda bu istiqamətin hər ikisi haqqında müəyyən təsəvvür əldə etmək mümkündür. O, məktubunda ermənilərin köçürülməsi ilə əlaqədar tatarlar (azərbaycanlılar – İ.H.) içərisində həyəcan və narazılığın yüksək dərəcəyə çatdığını bildirir. Məktubdan aydın olur ki, Şeyxəli bəy də ermənilərin köçürülməsinə narazılığını bildirmişdir, çünki Qriboyedov qeyd edir ki, o, narazılıqları aradan qaldırmaq üçün köçürülənlərə bu münasibət qeyri-adi və keçicidir. Bir sözlə, Qriboyedov diplomatik tərzdə bölgədə yaranmış bu və digər narazılığı aradan qaldırdığını bildirir [28]. Qriboyedov ermənilərin

İrandan yeni işğal edilmiş torpaqlara köçürülməsi haqqında qeydlərində də köçürülmənin yerli əhali üçün yaratdığı problemlərdən və bununla əlaqədar ortaya çıxan həyəcan və narazılıqlardan bəhs edərək yazırdı ki, köçürülənlər özləri darısqallıqdadırlar və müsəlmanları sıxışdırırlar, onlar isə əsaslı narazılıq edirlər. Qriboyedov ermənilərin köçürülməsi işinə o zaman rəhbərlik edən knyaz Arqutinskidən bəhs edərək qeyd edirdi ki, biz onunla müsəlmanları necə inandıracağımız barədə çox düşünürdük ki, onları indiki çətinliklərlə barışdıraq və inandıraq ki, bu uzunmüddətli olmayacaq və ermənilərin ilk dəfə buraxıldıqları torpaqları həmişəlik zəbt edəcəkləri barədə onların qorxusunu aradan qaldıraq. Bu barədə mən polismeysterə, idarə heyəti üzvlərinə və burada mənim yanımda olmuş xanlara da demişəm [19]. Burada iki məqama xüsusi diqqət yetirmək istərdik: 1) müsəlmanlarda ermənilərin ilk dəfə buraxıldıqları torpaqları həmişəlik zəbt edəcəkləri barədə qorxu təsadüfi olmayıb müəyyən təcrübəyə, yəni əvvəlki tarixi dövrdə də ermənilərin buraya köçürüldükləri təsdiq olunur; 2) "Bu barədə mən polismeysterə, idarə heyəti üzvlərinə və burada mənim yanımda olmuş xanlara da demişəm" ifadəsi isə bu fikirlərin bilavasitə, Naxçıvan bölgəsinə aid olduğunu bildirir.

Çar hökumətinin erməniləri kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına, xüsusilə Naxçıvan bölgəsinə köçürdükdən sonra onlar üçün əlverişli və imtiyazlı şərait yaratması ilə ermənilər köçürüldükləri ərazidə mühüm müstəmləkəçilik vasitəsinə çevrilməklə yanaşı (təsadüfi deyil ki, çar hakimiyyət orqanları ya ermənilər ilə əlbir hərəkət edir, ya da onları dəstəkləyirdi), ərazi iddialarını da reallaşdırmağa başladılar. Bu özünü XX əsrin əvvəllərində daha kəskin şəkildə göstərməyə başladı. Naxçıvan 1905-1906-cı illər "erməni-müsəlman davasının" əsas mərkəzlərindən birinə çevrildi. Naxçıvan bölgəsinin erməni iddialarına və onun aşkar şəkildə yerli əhaliyə qarşı çevrilmiş soyqırımı siyasətinin qarşısının alınmasında tarixi rol oynadı [7, s.216-226].

Naxçıvanda 1905-ci il hadisələrinin başlanması və gedişi əslində ermənilərin bölgəyə köçürülməsindən sonra keçən dövrün ümumi mənzərəsini də bərpa etməyə köməklik göstərir. M.S.Ordubadi sənəd və mənbələr əsasında yazdığı və ilk dəfə 1911-ci ildə nəşr olunan "Qanlı illər" əsərinin "Kədərli Naxçıvan hadisələri" bölməsində bu mətləblərə də aydınlıq gətirir. O, yazır ki, "1905-ci ilin may ayının əvvəllərində Bakı erməni-müsəlman toqquşmasından sonra Naxçıvan erməni-müsəlman camaatı artıq həyəcanda idilər. Buna nisbət ermənilər əsla qorxmayıb həmişə müsəlmanlara əziyyət verməkdə idilər. Bir tərəfdən şəhərə belə səs salmışdılar ki, ermənilərdə cürbəcür odlu silahlar olduğundan müsəlmanlara birdən-birə hücum edəcəklər. Ermənilərdən də belə hallar hər dəqiqə gözlənilirdi. Hər vəziyyətdə, erməni siyasətini götür-qoy edəndə elə belə də olmalı idi. Zira, ermənilərin rəyincə, bizim əlimizin üstündə Qafqazda gərək əl olmasın,- deyib hər tərəfə odlu silah və sair hərbi ləvazimat göndərməyə çalışırdılar..." [8, s.18]. Təqdim olunan parçadan ermənilərin silahlı hazırlıq görməsi, qəflətən hücum etməyi planlaşdırması və s. kimi nəticələr ilə birlikdə bir mühüm məsələ də önə çıxır. Ermənilər azərbaycanlılara qarşı müharibəyə psixoloji dəstək də təmin etməyə çalışırdı. Şəhərə "səs salmaq" da bunun göstəricisi idi. Fikrini davam edən Ordubadi yeni bir faktı da nəzərə çatdırır: "Naxçıvanın ətrafı hər tərəfdən erməni kəndləri ilə əhatə olunduğundan, 6 saat ərzində İrəvandan istədikləri qədər erməni əsgəri gətirməyə gücləri çatdıqlarından daha müsəlmanları şirin dillə dindirmək belə istəmirdilər" [8, s.18]. Buradan aydın olduğu kimi ermənilərin hərəkatı daha geniş miqyas daşımış, əsgəri qüvvə formalaşdırmış, özlərində güc hiss edən kimi əsl simalarını ortaya qoymuşdular. 1905-ci il may ayının 5-də ermənilər Cəhri kəndinin üç sakinini yaralamaqla açıq şəkildə meydan oxumağa, qanlı hadisələrin coğrafiyasını genişləndirməyə başladılar. İş o yerə çatdı ki, mayın 7-də azğınlıq edən ermənilər əhalisinin iki hissəsi

müsəlmanlardan, yalnız bir hissəsi ermənilərdən ibarət olan Tunbul kəndindən keçən bir müsəlmanı vurub öldürdülər [18, s.18-22]. Müsəlmanların hakimiyyət orqanlarına şikayətləri isə cavabsız qaldı. Ermənilər bundan istifadə edərək təcavüzkar hərəkətlərini davam etdirməyə başladı. Mayın 9-da naxçıvanlı Əli Hacı Bayramzadə qətlə yetirildi. Mayın 11-də isə daşnaklar tərəfindən onlara yardım etmədiyi üçün cəzalandırılaraq öldürülən erməni ailəsinin qətlini müsəlmanların üzərinə atmağa cəhd etməklə iki tərəfdən yararlanmağa çalışdı: əvvəla, bu qətl digər ermənilərə də xəbərdarlıq olmalı idi, digər tərəfdən isə azərbaycanlılara qarşı təcavüzü daha da genişləndirməyi nəzərdə tuturdu.

Ermənilərin bütün hazırlığına və hökumətin etinasızlıq pərdəsi altında faktiki olaraq onları müdafiə etməsinə baxmayaraq, naxçıvanlılar bu fitnəkarlığın qarşısını almağa nail oldular. Bu ermənilərin hakimiyyət ilə yeni iş birliyi quraraq, müsəlmanlara qarşı yeni hücumuna səbəb oldu. Ordubadi bu hadisələri belə təsvir edir: “Noyabrın 26-cı gecəsi müsəlmanlara böyük bir müsibət üz verib, hökumətin də hiyləsini hamıya bildirdi. Həmin gecəni Naxçıvanda müsibət gecəsi, odlu-alovlu gecə adlandırmışlar...” Onun əsasını isə kazaklar və ermənilərin əlbir olub müsəlman bazarını tamam qarət edəndən sonra od vurması olmuşdu. Noyabrın 30-da isə Cəhri kəndi ermənilər və kazaklar tərəfindən yandırıldı [18, s.21-22]. Ermənilərin hərtərəfli hazırlığına və çar hakimiyyət orqanları ilə əlbir olaraq, Azərbaycanda və o cümlədən, Naxçıvanda hakim mövqe tutmaq, etnik üstünlüyə malik olub, ərazi iddialarını həyata keçirmək strategiyası iflasa uğradı. Bu ümumi mübarizədə Naxçıvan bölgəsi mühüm rol oynadı. Çarizmin ermənilər vasitəsi ilə reallaşdırmaq istədiyi müstəmləkəçilik siyasətinə də ciddi zərbə vuruldu.

Naxçıvan bölgəsində çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizənin mühüm bir istiqamətini də sosial-mədəni sahədə də özünü göstərən hərəkat təşkil edirdi. Bu istiqamətin ən mühüm səciyyəvi xüsusiyyəti ondan ibarət idi ki, o daha uzunmüddətli məqsədə xidmət edirdi. Azərbaycanın azadlıq hərəkatı ölkə üçün savadlı və dövrün qabaqcıl dünyagörüşünə malik insanların yetişdirilməsini tələb edirdi. Bunun üçün çarizmin müstəmləkə siyasətinin daha kəskin şəkildə təzahür etdiyi sosial-mədəni sahədə dönüşə nail olmaq lazım idi. Çar hökumətinin bu hərəkatın daha təhlükəli olacağını nəzərə alaraq, onu ciddi nəzarətdə saxladığı və hər bir mütərəqqi addımı müqavimətlə qarşıladığı əsas götürülsə bu sahədə fəaliyyət böyük iradə və xalqın gələcəyi üçün yenilməz ruh tələb edirdi. Naxçıvan bölgəsi sosial-mədəni sahədə dönüşə xüsusi önəm verən ziyalılar baxımından bütün Azərbaycanda öndə gedirdi. Bu baxımdan Məhəmməd Tağı Sidqinin fəaliyyətini, xüsusilə onun əvvəlcə Ordubadda “Əxtər” (Ulduz) adlı məktəbini (1892-ci il), sonra isə Naxçıvan şəhərində açdığı “Məktəbi-tərbiyə”ni (1894-cü il) qeyd etmək olar. “M.T.Sid-qinin “Tərbiyə-məktəbi”ndəki fəaliyyəti bir sıra maarifçi ziyalıları da məktəbdarlıq işinə həvəsləndirdiyindən onlar öz yazışmalarında “Naxçıvanda Sidqinin “hərəkəti-arifanəsi” bizi də burada fövqəladə səy və qeyrətlərə sövq edirdi” fikrini etiraf edirdilər. Bu etiraflar isə öz növbəsində dövrün maarifçi ziyalılarının əməli fəaliyyəti ilə nəticələnir, Azərbaycanın müxtəlif bölgələrində yeni tipli məktəblərin açılması zəminində iş gedirdi” [7, s.179].

Naxçıvanda qadın təhsilinin inkişafı sahəsində də müəyyən addımların atılması Azərbaycanın təhsil tarixinin mühüm səhifələrindən idi. M.T.Sidqi 1890-cı illərdə Naxçıvanda xüsusi qız məktəbi açmağa nail olmuşdu. 1890-1897-ci illərdə Nehrəm kəndindəki iki sinifli məktəbin müdiri vəzifəsində çalışan C.Məmmədquluzadənin fəaliyyəti də qeyd edilməlidir [9, s.166].

Naxçıvanın və onun timsalında Azərbaycanın müstəmləkə zülmündən qurtarması üçün fəaliyyət göstərən görkəmli insanlardan biri də Məhəmməd ağa Şahtaxtlı (1846-1913) idi. Onun çoxşaxəli yaradıcılığında Azərbaycançılıq məfkurəsinin formalaş-

masındakı rolunun böyük əhəmiyyəti olmuşdur. Onun 1891-ci ildə "Kaspi" qəzetində dərc edilmiş "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı" məqaləsi elmi dəyərini bu gün də saxlamaqdadır. Buradan çıxan əsas nəticələrdən biri də ölkənin adı və onun titul xalqı haqqındakı uzaqgörən mühakimələri ilə bağlıdır. Məlum olduğu kimi Azərbaycanın M.F.Axundov kimi görkəmli mütəfəkkiri xalqın inkişafı və tərəqqisi ilə əlifba arasında əlaqəyə mühüm önəm verirdi. Bəzən düşünüldüyü kimi əlifbanın dəyişdirilməsi məqsəd deyil, bir vasitə idi. M.A.Şahtaxtlı da əlifba məsələsinə əhəmiyyət vermiş, "Təkmilləşdirilmiş Azərbaycan əlifbası" layihəsini çap etdirmiş, XX əsrin əvvəllərində də əlifba islahatı sahəsində fəaliyyətini davam etdirmiş, latın əlifbasına keçid hərəkatının iştirakçılarından olmuşdur [7, s.180-181].

Naxçıvan ədəbi məktəbinin yaradıcılığında da azadlıq uğrunda mübarizə meylləri özünü həmişə göstərmişdir. C.Məmmədquluzadə bədii əsərləri və publisistikası ilə azadlıq ideologiyasının formalaşmasında böyük xidmət göstərmişdi [5].

Beləliklə, Naxçıvanda çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizənin gedişində Azərbaycanın müstəqilliyi ideyasının təşəkkülü reallığa çevrilməyə başladı. Bunun nəticəsi idi ki, belə bir tarixi şəraitdə formalaşan nəsillər 1918-ci ildə müstəqil Azərbaycan Cümhuriyyətinin yaranmasında, Naxçıvanın Azərbaycanın tərkib hissəsi kimi varlığının davam etdirməsinin təmin edilməsində həlledici rol oynadı.

**Ədəbiyyat:**


1. Azərbaycan tarixi. Yeddi cilddə, dördüncü cild, Bakı, 2000, s.99-110; Сумбатзаде А.С. Кубинское восстание. Баку, 1961; Qurbanov R. XIX əsrin birinci yarısında Şimali Azərbaycanda azadlıq hərəkatı. Bakı, 2006, s.111-164.
2. Bu müqavilələr haqqında bax: Гарабах: Кюрекчайский договор-200. Баку, 2005; Mahmudov Y., Şükürov K. Azərbaycan: Beynəlxalq münasibətlər və diplomatiya tarixi. s. 365-376.
3. Bax: İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Elmi red. Y.Mahmudov. Bakı, 2010; Süleymanov M. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, 1997.
4. Bu problemlər Azərbaycan tarixşünaslığında xüsusi olaraq nəzərdən keçirildiyinə görə onlara istinad etməklə kifayətlənirik: Гасанов И. Из истории крестьянского движения в Азербайджане в последней трети XIX века. О выступлениях крестьян под руководством Качега Наби // Изв.АН Азерб.ССР. Сер.общ.наук. 1961, №4, с. 38-49; Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində, s.133-139; Гусейнов Дж. Из истории национально-освободительного движения в Азербайджане в начале XX в. (1900-1907). Баку, 2001; его же, Движение качагов в Азербайджане в 1900-1910 гг.Баку, 2004; Алиев А. Крестьянское движение в Азербайджане в 1905-1907 гг. Нахчыван, 2004 və s.
5. C.Məmmədquluzadənin həyat və fəaliyyəti haqqında bax: Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Təkmilləşdirilmiş ikinci nəşri. Naxçıvan, 2009; Yenə onun, Böyük ədəbiyyat nəhəngi. Bakı, 2012 və s.
6. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixindən. Bakı, 2001, s.10-15.
7. Naxçıvan tarixi. Üç cilddə, ikinci cild, Naxçıvan, 2014, 528 s.
8. Ordubadi M.S.Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı, 1991, 144 s.

9. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı, 2008, 264 s.
10. Акты, собранные Кавказской археографической комиссией. Тифлис, 1878, т.VII, док. 622, с.646.
11. Акты, собранные Кавказской археографической комиссией. Т.VII, док. 624, с.649.
12. Акты, собранные Кавказской археографической комиссией. Т.VIII, док.432, с.480-481.
13. Акты, собранные Кавказской археографической комиссией. Т.VIII, док.435, с.482.
14. Акты, собранные Кавказской археографической комиссией. Т.VIII, док.437, с.487.
15. Багирова И.Политические партии и организации Азербайджана в начале XX века. 1900-1917. Баку, 1997, 336 с.
16. Ваидова Х. История города Ордубада в XIX- нач. XX в. Баку, 2007, с.138-139.
17. Гаджиев И. Армянская область-мина замедленного действия // İrs. Наследие. 2011, №6(54), с.38-42.
18. Глинка С. Описание переселения армян азербайджанских в пределы России. СПб, 1831.
19. Грибоедов А.С. Записка о переселение армян из Персии в наши области// А.С.Грибоедов. Полное собрание соч. В 3-х тт. Пг, 1917, Т.3, с.267-270.
20. Григорьев В.Н. Статистическое описание Нахичеванской провинции. СПб, 1833, 264 с.
21. Записка Нефедьева о Нахичеванской провинции, 22 ноября 1837 г. // Колониальная политика российского царизма в Азербайджане 20-60-х гг. XIX в. М.-Л., 1936, ч.1, с.336; Həmçinin bax: Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində, s.132-133.
22. Мадатов Г. Победа советской власти в Нахичеване и образование Нахичеванской АССР. Баку, 1968, с.24.
23. Мильман А.Ш. Политический строй Азербайджана в XIX- начале XX веков, с.133; Naxçıvan tarixi. Üç cilddə, ikinci cild, s.109.
24. Нагдалиев Ф. Ханы Нахичеванские в Российской империи. М., 2006, 432 с.
25. Полное собрание законов Российской империи (ПСЗРИ). Собр.вт., т.IV.1829. СПб, 1830, док.3144, с.642.
26. ПСЗРИ. Собр.вт., т.VIII. Отд. Первое. 1833. СПб, 1854, док.6282, с.374.
27. ПСЗРИ. Собр. вт., т. XXIV.Отд. Первое. 1849. СПб, 1850, док.2303, с.311-312.
28. ПСЗРИ. Собр. вт., т.XLII. Отд. Второе.1867. СПб, 1871, док.45259, с.383.
29. ПСЗРИ. Собр. вт., т. III. 1828, СПб, 1830, с.130.
30. Письмо А.С.Грибоедова графу И.Ф.Паскевичу, от 1 октября 1828 г. Переправа на Араксе против Джульфы// А.С.Грибоедов. Соч. М.,1988, с.611-614.
31. Российский Государственный Военно-исторический архив, ф.846, оп.16, д.978, лл.1-2
32. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб, 1852; Ermənilərin Türkiyədən köçürülməsi haqqında bax: Потто В. Переселение христиан из Турции. СПб, 1901.
33. Эзов Г.А. Сношения Петра Великого с армянским народом. СПб., 1898, док. 255-260, с.392-397.

***Açar sözlər:*** *Rusiya, Şimali Azərbaycan, Naxçıvan, müstəmləkəçilik siyasəti, köçürmə, iqtisadi tədbirlər, sosial-mədəni tədbirlər*

**Ismayil Hajiyev**
*Nakhchivan Branch of Azerbaijan National Academy of Sciences, academician*

## NAKHCHIVAN'S STRUGGLE AGAINST THE COLONIZATION POLICY OF THE RUSSIAN EMPIRE (BEGINNING OF THE XIX-XX CENTURIES)

### SUMMARY

In the article the establishment of Provisional government and "Armenian province", Ehsan khan and Sheykhalibey`s activity as a regent, administrative control system formed several times, attitude to kengarlis, the dissatisfaction of the population have analyzed on the basis of the factual materials. Here the reformation of 1840, decrees of December 14, 1846, December 9, 1867, 1874 and their essence, the relocation of Armenians to the North Azerbaijanç also to Nakhchivan, V.Qriqoriyev`s and I.Shopen`s information about this have been learnt. Analyzing of the materials the author`s results are that the economic, social, and cultural activities of the tsarism in Nakhchivan contributed to the strengthening of the colonization system.The Tsarist government posed serious obstacles to the development of education, science and culture in Nakhchivan. The intelligentsia and the local people who knew this were opposed to the colonial rule created by the Tsar.

In general, the main sections of the population were dissatisfied with the colonial methods created by the Tsarism and they began an open struggle for it. Defector movements and peasant uprisings that occurred in the late 19th and early 20th centuries were against the colonial policy of the Russian Empire.

***Keywords:*** *Russia, Northern Azerbaijan, Nakhchivan, colonization policy, relocation, economical measures, social-cultural measures*

**Исмаил Гаджиев**
*Председатель Нахчыванского отделения*
*Национальной Академии Наук Азербайджана, академик*

## БОРЬБА НАХЧЫВАНА ПРОТИВ КОЛОНИАЛЬНОЙ ПОЛИТИКИ РОССИЙСКОЙ ИМПЕРИИ (XIX- НАЧАЛО XX ВЕКА)

### РЕЗЮМЕ

В статье на основе фактических материалов исследованы деятельность созданных после захвата Нахчывана и Иревана Российской империей Временного Управления и «Армянской области», Эхсан хана и Шейхали бека как наибов, сформированная несколько раз административно-управленческая система, отношение к кенгерлинцам, недовольство населения. Здесь были изучены реформа 1840 г., указы от 14 декабря 1846 г., 9 декабря 1867 г., 1874 года, их сущность, переселение армян в Северный Азербайджан, а также в Нахчыван, сведения В.Григорьева и И.Шопена об этом. Анализируя материалы, автор пришёл к такому выводу, что меры, предпринятые царизмом в Нахчыване в экономической и социально-культурной сфере, служили укреплению колониальной системы. Царское правительство в Нахчыванском регионе создавало серьёзные препятствия развитию образования, науки и культуры. Осознавая это, интеллигенция и представители народа оказывали сопротивление созданной царизмом колониальной системе управления.

В целом, широкие слои населения были недовольны сформированной царизмом системой управления и начали для этого открытую борьбу. Качагское движение, крестьянские восстания, происходящие в конце XIX – начале XX веков были направлены против колониальной политики Российской империи.

***Ключевые слова:*** *Россия, Северный Азербайджан, Нахчыван, колониальная политика, переселение, экономические меры, социально-культурные меры*

# K O N F L İ K T O L O G İ Y A
# C O N F L İ C T O L O G Y

UOT 327.5; UOT 94 (479.24)

**ELMAN NƏSİROV**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor**
*e-mail: elmannasirov@yahoo.co.uk*

## AZƏRBAYCANLILARA QARŞI SOYQIRIM SİYASƏTİ: TARİXİ VƏ SİYASİ-HÜQUQİ MÜSTƏVİDƏ

*"Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir."*

*Heydər ƏLİYEV*
*Azərbaycan xalqının ümummilli lideri*

*Ermənistanın sistemli zorakılıq siyasətinin tərkib hissəsi olub. Xocalıdakı mülki insanların məqsədyönlü qırğını sadəcə azərbaycanlı olduqları üçün onların kütləvi məhvinə yönəlmişdi. Beynəlxalq hüquqa görə belə hərəkətlər "soyqırımı" anlayışına uyğundur və dünya ictimaiyyəti tərəfindən bu cür tanınmalıdır.*

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

Son iki yüz ildə Azərbaycan xalqı dəfələrlə kütləvi qırğınlara və soyqırımlarına məruz qalmışdır. XIX əsrin əvvəllərindən başlayaraq kütləvi və məqsədli şəkildə Cənubi Qafqaza köçürülən ermənilər xarici havadarlarının köməyi ilə soydaşlarımızın yaşadıqları minlərlə yaşayış məntəqəsini viran etmiş, bir milyondan artıq soydaşımıza qarşı bəşəri cinayət olan soyqırımı siyasətini həyata keçirmişlər.

Azərbaycan xalqına qarşı erməni təcavüzünün başlıca məqsədi tarixi Azərbaycan torpaqları hesabına erməni dövlətinin əsasını qoymaq və sonradan müxtəlif yollarla onu genişləndirməklə "Böyük Ermənistan" yaratmaqdan ibarət olmuşdur.

1826-1828-ci illər Rusiya-İran, 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrindən dərhal sonra İran və Türkiyədən köçürülən 130 minə yaxın erməni əsasən İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılmışdır. Həmin müharibələr nəticəsində 359 müsəlman kəndi dağıdılmış, əhalisinin xeyli hissəsi məhv edilmiş və torpaqlarından didərgin salınmışdır. Türkmənçay müqaviləsindən sonra İrəvan və Naxçıvan xanlıqları ərazisində təşkil edilən Erməni vilayətində mövcud olan 1111 yaşayış məntə-

qəsindən cəmisi 62 kənddə (erməni kilsələrinin ətrafında) ermənilər yaşayırdılar (1).

Son iki yüz ildə indiki Ermənistan ərazisində Azərbaycan türklərinə qarşı həyata keçirilən qırğınlar, deportasiya və soyqırımları nəticəsində onların yaşadıqları iki minə yaxın yaşayış məskəni boşaldılmışdır. Azərbaycanlıların öz əzəli torpaqlarından qovulması ilə paralel ermənilərin onların yerində məskunlaşdırılma kampaniyası XIX əsrin sonunda Türkiyədə baş qaldıran erməni separatizminin yatırılmasından sonra daha geniş vüsət almışdır. XX əsrin əvvəllərində azərbaycanlılar İrəvan qəzasında hələ də əhalinin əksəriyyətini təşkil edirdi. Həmin vaxt İrəvan qəzasında yaşayan 121809 nəfər əhalinin 65871 nəfərini azərbaycanlılar, 45624 nəfərini ermənilər, 7865 nəfərini kürdlər, 869 nəfərini isə ruslar təşkil edirdi. Faiz nisbəti ilə əhalinin 54,1 faizini azərbaycanlılar, 37,5 faizini ermənilər, 6,5 faizini kürdlər, 0,7 faizini isə ruslar təşkil edirdi (2). Həmin dövrdə "Daşnaksutyun" partiyası öz proqramında dəyişiklik edərək, fəaliyyətinin ağırlıq mərkəzini Cənubi Qafqaza keçirmiş, müstəqil erməni dövləti qurmaq məqsədilə terrorçu silahlı birləşmələr yaratmışdır.

Rusiyanın rəsmi dairələrinin ermənipərəst mövqeyindən istifadə edən "Daşnaksutyun" partiyası İrəvan, Gəncə (Yelizavetpol) və Tiflis quberniyalarında Azərbaycan türkləri yaşayan əraziləri təmizləmək və orada erməniləri məskunlaşdırmaq məqsədilə kütləvi qırğınlar törətmişdir. 1905-1906-cı illərdə əvvəlində Rusiyada baş verən iğtişaşlardan bir fürsət kimi istifadə edən ermənilər əvvəlcə Bakıda, sonra isə İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda, Qazaxda və Tiflisdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmişdir. Erməni silahlı dəstələri İrəvan-Naxçıvan-Zəngəzur-Qarabağ istiqamətində yerləşən azərbaycanlı yaşayış məskənlərinin əhalisini qırmaqla, qovmaqla və həmin ərazilərdə erməniləri məskunlaşdırmaqla gələcək Ermənistan dövlətinin əsasını qoymaq istəyirdilər. Sayları on min silahlıdan artıq olan erməni birləşmələri İrəvan şəhərində və onun ətraf kəndlərində, Eçmiədzin (Üçkilsə) və Şərur-Dərələyəzdə, Gəncə quberniyasının Zəngəzur qəzasının Gorus, Qapan və Qarakilsə (Sisyan) nahiyələrində, Şuşa, Cavanşir, Cəbrayıl, Qazax qəzalarında kütləvi soyqırım törətmiş, 200-dən artıq azərbaycanlı kəndini viran qoymuşlar (3).

Ermənilərin Azərbaycan xalqına qarşı çevrilmiş soyqırımı siyasəti çar Rusiyasında mərkəzi hakimiyyətin süqut etdiyi, keçmiş imperiyanın dərəbəylik və anarxiya şəraitində yaşadığı 1918-ci ildə daha geniş vüsət almışdır. Bu dövrdəki soyqırımı daha mütəşəkkil şəkildə və daha böyük bir qəddarlıq və amansızlıqla həyata keçirilmişdi. Təkcə 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda ermənilər 50 mindən çox azərbaycanlını qətlə yetirmiş, evlərini talan etmiş, on minlərlə adamı öz yurd-yuvalarından didərgin salmışdılar. Yalnız Bakıda 30 minə yaxın soydaşımız xüsusi amansızlıqla qətlə yetirilmiş, Şamaxı qəzasının 58 kəndi dağıdılmış, 7 min nəfərədək adam, o cümlədən 1653 qadın və 965 uşaq öldürülmüş, Quba qəzasının 122 müsəlman kəndi yerlə yeksan edilmişdi. Qarabağın dağlıq hissəsində 150-dən çox, Zəngəzur qəzasında 115 Azərbaycan kəndi vəhşicəsinə dağıdılmış, əhaliyə cinsinə və yaşına fərq qoyulmadan qəddarcasına divan tutulmuşdu (4). İrəvan quberniyasında 211, Qars vilayətində 92 Azərbaycan kəndi dağıdılmış, yandırılmış və talan edilmişdir. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki, qısa müddət ərzində bu tarixi Azərbaycan şəhərində və onun çevrəsində 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 132 min azərbaycanlı məhv edilmişdir. Erməni cəza dəstələrinin törətdikləri vəhşiliklər, daşnak hakimiyyəti dövründə yürüdülən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə cəmisi 70 min nəfərə enmişdir. Göründüyü kimi, qısa müddət ərzində soyqırımın və geniş miqyaslı etnik təmizləmələrin aparılması nəticəsində erməni millətçiləri qarşılarına qoyduğu məqsədə əsasən nail olmuşlar (4).

Şovinist ruhlu erməni millətçilərinin azərbaycanlılara qarşı soyqırımı cinayətlərinin cəzasız qalması, bu cinayətlərə heç bir siyasi-hüquqi qiymətin verilməməsi səbəbindən sovet hakimiyyəti dövründə də azərbaycanlılar onlara qarşı yeridilən antihumanist siyasətlə dəfələrlə üzləşmişlər. Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların taleyi bu düşünülmüş, rüsvayçı siyasətin əyani təzahürüdür. "Sürünən" deportasiyalar, habelə 1948-1953 və 1988-1989-cu illərin zorakı deportasiyaları nəticəsində Ermənistan SSR-dən yarım milyona yaxın azərbaycanlı qovulmuş, onların bütün əmlakı talan edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra fövqəladə istintaq komissiyası yaradılmış və ermənilərin xalqımızın başına gətirdikləri müsibətlər şahid ifadələri əsasında sənədləşdirilmişdir. Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə hər il martın 31-ni matəm günü kimi qeyd etmək qərara alınmışdı. Erməni təcavüzünün qurbanlarının xatirəsi 1919-cu və 1920-ci il martın 31-də matəm kimi qeyd edilmişdi. 1920-ci ildən sonra Ermənistanda azərbaycan türklərinə qarşı deportasiya siyasəti "dostluq" və "beynəlmiləlçilik" pərdəsi altında davam etdirilmişdir. 1930-1937-ci illərdə Ermənistanın Türkiyə və İranla sərhəd boyunda yaşayan 50 minə yaxın azərbaycanlı repressiyaya məruz qalaraq həbs edilmiş, Qazaxıstan və Sibir çöllərinə sürgün edilmişlər (5).

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-də kolxozçu və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarına əsasən 1948-1953-cü illərdə azərbaycanlılar yaşayan ən münbit ərazilərdən, xüsusən də İrəvan və onun ətraf rayonlarından 150 minə yaxın əhali deportasiyaya məruz qalaraq Azərbaycanın aran rayonlarına köçürülmüşdür. Köçürülən əhalinin təqribən yarısı iqlim şəraitinə uyğunlaşmayaraq tələf olmuşdur (5).

1988-ci ildə keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli mövqeyindən istifadə edən Ermənistan Respublikası Dağlıq Qarabağ Muxtar Vilayətini anneksiya etməyə cəhd göstərməklə yanaşı, Ermənistan SSR Ali Soveti sessiyasının məxfi göstərişinə əsasən, 1988-ci il noyabrın 22-dən 28-dək müddət ərzində soydaşlarımız yaşayan 22 rayonda 170 tam və 94 qarışıq (ermənilərlə) yaşayış məskənləri azərbaycanlılardan təmizlənmiş, nəticədə 200 mindən artıq azərbaycanlı 18 min müsəlman kürd, min nəfər rusdilli əhali Azərbaycana pənah gətirmişdir. Həmin vaxt 216 azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, minlərlə qadın, uşaq və qoca bədən xəsarəti almış, on minlərlə ailənin əmlakı qarət olunmuşdur (6).

Ermənistan Respublikası azərbaycanlılara qarşı təkcə fiziki soyqırım siyasətini deyil, onları tarixi-etnik torpaqlarından təmizlədikdən sonra mənəvi soyqırım – türk mənşəli toponimləri erməniləşdirmək aksiyasını da həyata keçirmişdir. Son vaxtlara qədər mövcud olan türk mənşəli toponimlərin hamısı dəyişdirilmiş və yaxud soydaşlarımızın yaşadıqları kəndlər ölü zonaya çevrilərək, yaşayış məntəqələrinin siyahısından silinmişdir.

Monoetnik Ermənistan dövləti yaratmağa nail olan Ermənistan rəhbərləri onu dəstəkləyən dövlətlərin hərbi-sənaye potensialından qidalanaraq əhalisinin 30 faizini azərbaycanlılar təşkil edən Dağlıq Qarabağ Muxtar Vilayətini, habelə, 7 ətraf rayonu (Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam və Füzuli rayonlarını) işğal edib xarabazara çevirmiş, əhalini soyqırımına məruz qoymuşlar.

Ermənistan silahlı qüvvələri Azərbaycanın 12 rayonunu işğal etmiş (ərazisinin 20 faizi, yaxud 1/5 hissəsini), 20 minə yaxın Azərbaycan vətəndaşını öldürmüş, 4 minə yaxın əhalini girov götürmüşlər ki, onların da əksəriyyəti uşaqlar, qadınlar və qocalar təşkil edirlər. İşğal edilmiş ərazilərdə 4 mindən çox sənaye və kənd təsərrüfatı obyekti, 724 şəhər, kənd və qəsəbə qarət edilmiş, ümumi sahəsi 6 milyon kv. metr olan 180 mindən artıq mənzil və şəxsi ev, minə yaxın təlim tərbiyə müəssisəsi, 3 minə yaxın mədəni-maarif ocağı, 700-dən artıq tibb

müəssisəsi erməni vandalları tərəfindən dağıdılmışdır (7).

Nəhayət, Azərbaycan xalqına qarşı Xocalıda törədilmiş soyqırım aktı öz miqyası etibarilə Xatın, Lidisa, Sonqmi və Srebrenitsa ilə müqayisə oluna bilər. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən Xocalı şəhərinin mülki əhalisi 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni terrorçuları tərəfindən kütləvi soyqırıma məruz qalmışdır. Bəşəriyyətə qarşı olan bu soyqırım aktında Ermənistan Respublikasının silahlı qüvvələri və Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisindəki erməni terrorçu birləşmələri keçmiş SSRİ-nin Xankəndində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyyətinin və hərbi texnikasının iştirakı ilə Xocalı şəhərini işğal edərək azərbaycanlılara qarşı soyqırımı siyasətini həyata keçirmişlər. Bu bəşəri cinayətdə mayor Seyran Ohanyanın (Ermənistan Respublikasının keçmiş müdafiə naziri) komandanlığı altında 366-cı alayın 2-ci batalyonu, Yevgeni Nabokixinin komandanlığı altında 3-cü batalyonu, 1 saylı batalyonun qərargah rəisi Valeriy Çitçiyan və alayda xidmət edən 50 nəfərdən artıq erməni zabiti iştirak etmişdir.

Soyqırım siyasəti nəticəsində 613 nəfər həlak olmuş (o cümlədən 106 qadın, 63 uşaq), 478 nəfər əlil olmuş, 1275 nəfər erməni əsirliyinin bütün dəhşətlərindən keçmiş, 8 ailə bütünlüklə məhv edilmiş, 56 nəfər xüsusi qəddarlıqla diri-diri yandırılmış, 150 nəfər isə itkin düşmüşdür. Şəhərin özü isə yer üzündən silinmişdir.

Xocalı soyqırımı həm də beynəlxalq terror aktıdır. Bu mütəşəkkil cinayət əməlində beynəlxalq terrorçuluq üçün xarakterik olan bütün əlamətlər vardır. İlk növbədə, o, siyasi məqsəd daşıyır və prosesdə eyni vaxtda 3 tərəf iştirak edir. Terrorun icraçıları, qurbanları və sağ qalmış insanlar. Bu halda hədəf qismində, nə qədər paradoksal səslənsə də, həlak olmuşlar deyil, sağ qalanlar seçilir. Ölənlərin sayı çox olduqca, sağ qalanlara təsirin miqyası artmış olur, total qorxu və vahimə effekti yaradılır və nəticədə siyasi məqsədin reallaşması – ərazi işğalı üçün unikal imkanlar təmin edilir. Xocalı soyqırımını həyata keçirən erməni terror birləşmələrindən birinin rəhbəri olmuş Serj Sarkisyanın (Ermənistan Respublikasının sabiq prezidenti) etirafları da yuxarıda səslənən fikirləri təsdiqləyir: «Xocalıdan öncə azərbaycanlılar güman edirdilər ki, biz onlarla zarafat edirik və hesab edirdilər ki, ermənilər mülki əhaliyə əl qaldırmağa qadir olmayan insanlardır. Biz isə bunun əksini sübut etməyi bacardıq. Baş verənlər də məhz bunlardan ibarətdir».

Xocalıda terror metodlarla həyata keçirilən soyqırım hadisəsi beynəlxalq reaksiyaya səbəb oldu. «Qarabağ təpələrinə səpələnən cəsədlər», Böyük Britaniyadan olan jurnalist Anatol Levenin reportajı belə adlanırdı.

Xocalı soyqırımını ABŞ «ilin ən böyük faciəsi» adlandırmışdı.

Rusiyanın «Gün» («День») qəzetinin 1992-ci il 10-16 may tarixli 19-cu nömrəsində nəşr olunmuş «Xəyanətin qiyməti» başlıqlı yazıda haqlı olaraq qeyd olunurdu ki, «niyə «Qarabağ xalqı»nın dostları olan Starovoytova, Nuykin, Bonner, Lebed və başqaları kimi siyasi muzdurlar Sumqayıtda həlak olmuş 27 erməniyə görə göz yaşları axıdırlar, lakin bir dəfə də olsun Xocalını xatırlamırlar? Qarınları yırtılmış hamilə qadınlar, başlarının dərisi soyulmuş qocalar, gözləri çıxarılaraq güllələnmiş uşaqlar – məgər bu, faşizm deyildir?» (7).

Beynəlxalq hüquqi-normativ sənədlər Xocalı qətlamını soyqırım cinayəti kimi tövsir etməyə əsas verir. Bu baxımdan “Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya”, “Beynəlxalq Nürnberq Hərbi Tribunalının Nizamnaməsi”, “Beynəlxalq Cinayət Tribunalının Yuqoslaviya üzrə Nizamnaməsi”, “Beynəlxalq Cinayət Tribunalının Ruanda üzrə Nizamnaməsi”, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Azərbaycan Respublikası Prezidentinin “Azərbaycanlıların soyqırımı haqqında” 26 mart 1998-ci il tarixli fərmanı və digər sənədlər olduqca əhəmiyyətli hüquqi baza rolunu oynayır (7).

Bir sözlə, təkcə XX yüzillikdə bir milyona yaxın azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə öldürülmüş, 1,5 milyondan artıq soydaşlarımız indiki Ermənistan ərazisindən deportasiya edilmişdir. 1918-ci ildə imzalanan Batum müqaviləsinə əsasən cəmisi 9 min kv.km. ərazisi olan Ermənistan 1988-ci ildə onu 30 min kv.km.-ə çatdırmış, hazırda isə işğal etdiyi ərazilərlə birlikdə azı 45 min kv.km. əzəli Azərbaycan torpaqlarını öz nəzarəti altına almışdır.

Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması haqqında BMT Təhlükəsizlik Şurası 4 qətnamə (822, 853, 874, 884 saylı) qəbul etmişdir. Ermənistan Respublikası həmin qətnamələrin tələblərinə indiyədək əməl etməmişdir.

Ermənistanın soyqırım və terror siyasətinin, xüsusilə də Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət Ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanmışdır. Ulu öndər “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” 18 dekabr 1997-ci il, “Azərbaycanlıların soyqırımı haqqında” 26 mart 1998-ci il tarixli fərmanlar imzalamış, Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermiş, fevralın 26-sını Xocalı Soyqırımı Günü elan etmişdir (7).

Xarici ölkələrdə erməni təcavüzkarlarının bəşəriyyət əleyhinə cinayətləri haqqında doğru-dürüst informasiyanın yayılması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, ölkəmizinin Birinci vitse-prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın və “Xocalıya ədalət” beynəlxalq kampaniyasının təşəbbüskarı Leyla xanım Əliyevanın fəaliyyətinin prioritet xəttidir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın “Xocalıya ədalət” kampaniyası Xocalı həqiqətlərini dünya ictimaiyyətinə çatdırmağı qarşısına məqsəd qoymuşdur və ciddi nəticələr əldə olunmuşdur (7).

Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan bu sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilmişdir. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləmişdir. Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qətlə yetirilməsinin “müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər” olduğunu müəyyən etmişdir.

Bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar ötən il fevralın 26-da Bakıda ümumxalq yürüşü keçirilmişdir (8).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yürüşdə iştirak etmişlər. Paytaxtın Azadlıq meydanından Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başlayan və on minlərlə insanın iştirak etdiyi ümumxalq yürüşünün məqsədi Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaq idi.

Bu il sivil bəşəriyyətə qarşı cinayət olan Xocalı soyqırımının 28-ci ildönümüdür. 28 ildir ki, Xocalı şəhidlərinin əziz xatirəsi ölkəmizdə və onun hüdudlarından kənarda böyük ehtiramla yad edilir. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin sonunda bütün sivil bəşəriyyətin gözü qarşısında törədilmiş bu vəhşiliyə laqeydlik, yüzlərlə dinc insanın ölü-

mündə təqsirkar olanların cəzalandırılmaması belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər.

Bütün bunları nəzərə alaraq Xocalı soyqırımının 28-ci ildönümü ərəfəsində bir daha "Xocaliya ədalət" şüarını gündəmə gətirir və bununla bağlı haqlı tələblərimizi ifadə edirik:

-1948-ci il 9 dekabr tarixli BMT-nin "Soyqırım cinayətlərinin qarşısının alınması və cəzalandırılması" haqqında Konvensiyasının 2-ci maddəsini əsas tutaraq dünyanın aparıcı beynəlxalq qurumları və beynəlxalq ictimaiyyəti bu qeyri-insanı, qəddar cinayəti pisləməli, habelə Ermənistan Silahlı qüvvələri tərəfindən bəşəriyyət əlehinə törədilmiş bu qanlı aksiyaya müvafiq hüquqi və siyasi qiymət verməlidir.

-Xocalı soyqırımı zamanı əsir və itgin düşmüş, girov götürülmüş, taleyi bu günə kimi də məlum olmayan vətəndaşlarımızla bağlı məlumatlandırmanın təmin olunması üçün BMT, dünyanın aparıcı dövlətlərinin İnsan hüquqları institutları və bu işlə birbaşa məşğul olan Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti Ermənistan hökumətinə lazimi təzyiqlər göstərməlidir.

-İşğal edilmiş Azərbaycan torpaqlarından erməni silahlı qüvvələrinin tamamilə və qeyd şərtsiz çıxarılması barədə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməsi yerinə yetirilməlidir.

-Ermənistan münaqişə ilə bağlı qəbul edilmiş beynəlxalq sənədlərin müddəalarını yerinə yetirməli, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, azərbaycanlı qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqları təmin edilməli, onlar öz doğma yurdlarına dönməli və Ermənistana beynəlxalq qurumlar tərəfindən sanksiyalar tətbiq olunmalıdır.

**Ədəbiyyat:**


1. Prezident Kitabxanası Azərbaycanlıların deportasiyasına dair materiallar əsasında elektron resurs hazırlamışdır/ https://azertag.az/xeber/PREZIDENT_KITABXANASI_AZARBAYCANLILARIN_DEPORTASIYASINA_DAIR_MATERIALLARI_ASASINDA_ELEKTRON_RESURS_HAZIRLAMISDIR-404541
2. Mustafa N. İrəvan xanlığının əhalisi/ http://www.iravan.info/xanligin_ehalisi.html
3. Azərbaycanlılara qarşı etnik təmizləmə/ http://www.virtualkarabakh.az/az/post-item/3/29/azerbaycanlilara-qarsi-etnik-temizleme.html
4. Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı (31 Mart 1998-ci il) / http://genocide.preslib.az/az_s14.html
5. 1948-1953-cü illər deportasiyası/http://www.iravan.info/1948-1953_deportasiyasi.html
6. 1988-1989-cu illər deportasiyası/http://www.iravan.info/1988-1989_deportasiyasi.html
7. Ermənistan-Azərbaycan. Dağlıq Qarabağ münaqişəsi / http://files.preslib.az/projects/azerbaijan/gl8.pdf
8. Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib
 Azərbaycan Prezidenti İlham Əliyev yürüşdə iştirak edib / https://azertag.az/xeber/Xocali_soyqiriminin_27_ci_ildonumu_ile_elaqedar_Bakida_umumxalq_yurusu_kechirilib__Azerbaycan_Prezidenti_Ilham_Aliyev_yurusde_istirak_edib__YENILANIB_4_VIDEO-1251066


***Açar sözlər:*** *soyqırım, Xocalı soyqrımı, erməni terrorçuluğu, deportasiya, beynəlxalq hüquq*

**Elman Nasirov**
*Member of Parliament of the Republic of Azerbaijan,
Head of Institute of Political Researches
of the Academy of Public Administration
Under the President of the Republic of Azerbaijan,
Doctor in Political Sciences, Professor*

## GENOCIDE POLICY AGAINST AZERBAIJANIS: IN A HISTORICAL, POLITICAL AND LEGAL SPHERE

### SUMMARY

The article deals with the political massacres, deportations and genocide ccarried out by the current Armenian nationalists against the Azerbaijani Turks in the last two hundred years with the support of foreign defenders in the historical, political and legal spheres.

The author provides the basis of facts and arguments that the Armenian armed forces committed an act of genocide in Khojaly which is comparable with scale of the problems in Khatun, Lidisa, Songmi and Srebrenica.

The article also discusses Armenian's policy of genocide and terrorist acts in details, particularly the necessary steps taken by the Azerbaijani State to convey the truth about Khojaly to the world, to recognize this tragedy as an act of genocide against our people.

***Keywords:*** *genocide, Khojaly genocide, Armenian terrorism, deportation, intellectual law*

**Эльман Насиров**
*Депутат Милли Меджлиса Азербайджанской Республики,*
*Директор Института Политических Исследований*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор политических наук, профессор*

# ПОЛИТИКА ГЕНОЦИДА ПРОТИВ АЗЕРБАЙДЖАНЦЕВ: В ИСТОРИЧЕСКОЙ И ПОЛИТИКО-ПРАВОВОЙ ПЛОСКОСТИ

## РЕЗЮМЕ

В статье были исследованы в исторической и политико-правовой плоскостях осуществляющиеся армянскими националистами с поддержкой своих покровителей против Азербайджанских тюрков убийств, политики депортации и геноцида. Автор на основе фактов и аргументов доказывает, что вооруженные силы Армении совершили акт геноцида в Ходжалах по своим масштабам, сравнимым с Хатынью, Лидицей, Сонгми и Сребреницей. Широко освещаются предпринятые Азербайджанским государством шаги по донесению до мирового сообщества истины о политике геноцида и террора Армении, особенно о совершенном ею Ходжалинском геноциде, достижению признания этой трагедии в мире как акта геноцида против азербайджанского народа.

***Ключевые слова:*** *геноцид, Ходжалинский геноцид, армянский терроризм, депортация, международное право*

# VƏTƏN TARİXİ
# NATIONAL HISTORY

UOT 94 (479.24)

**FİRDOVSİYYƏ ƏHMƏDOVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent**
*e-mail: fahmedova@rambler.ru*

## MİLLİ MƏSƏLƏDƏ BOLŞEVİK PLATFORMASI VƏ AZƏRBAYCANIN MÜQƏDDƏRATI

Millətlərin öz müqəddəratını sərbəst təyin etmək məsələsində bolşevik siyasətinin həqiqi məzmunu Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının II qurultayında ifadə olunmuş, III qurultayında isə artıq qətnamə kimi müəyyənləşdirilmişdir. 1905-ci ildə III qurultayın «Milli sosial-demokrat təşkilatlarına münasibət haqqında» qəbul etdiyi qətnamədə deyilirdi: «III qurultay, federalizm məsələsinə II qurultayın münasibətini təsdiq edir və həm MK-ya, həm də yerli komitələrə tapşırır ki, yerlərdə aparılan işləri uyğunlaşdırmaq və beləliklə də bütün sosial-demokrat partiyalarını vahid RSDFP halında birləşdirmək imkanını hazırlamaq üçün var qüvvə ilə çalışıb milli sosial-demokrat təşkilatları ilə sazişə gəlsinlər» (3, s.91). «Rusiyadakı bütün millətlərin sosial-demokrat təşkilatlarının birləşməsini tələb» edən qətnamə ilə Rusiya millətlərinin birliyi, vahid partiyaya tabelik, nəticədə vahid dövlətdə olmaq siyasəti yeridilməli idi. Bu platforma sonrakı proseslərdə dəyişən konyunkturaya uyğun taktiki şüarların mahiyyətini şərtləndirmişdi. Nəzərdə tutulan birləşmədə, ümumi mübarizədə Qafqaz bölgəsinin də xüsusi yeri elə həmin qurultayın «Qafqazdakı hadisələrə dair» ayrıca qətnaməsində təsbit olunmuşdur. Partiyanın «ən mübariz təşkilatlarının» yaradıldığı Qafqaz Rusiya bolşeviklərin aparıcı fəaliyyət məkanlarından idi. Bunu şərtləndirən amil kimi «Qafqazın ictimai-siyasi həyatının xüsusi şəraiti» göstərilirdi (3, s.93). Sovetlər birliyini idarə etmiş məşhur bolşevik liderlərinin bir çoxunun məhz Qafqazdan çıxdığını yaxud siyasi-inqilabi fəaliyyət məktəbini Qafqazda keçdiyini nəzərə alsaq, Qafqaz xalqlarının müqəddəratının da kommunistlər tərəfindən öncədən müəyyənləşdirildiyi bəlli olur. Həmin dövrdə Qafqazdakı erməni-müsəlman qırğınlarını Rusiya mütləqiyyətinin milli siyasətinin nəticəsi kimi qiymətləndirən bolşevik partiyası «bakılı və müsəlman yoldaşlara və Qafqazın bütün proletariatına öz böyük rəğbətini bildirirdi (3, s.104-105). «Bakılı yoldaşlar» Mərkəzi Sovet hakimiyyətinin güvəndiyi cinah sayılırdı. «Bakılı yoldaşlar» milli sosial-demokrat partiyası kimi təşkilatlanmasalar da, RSDFP-nin Bakı Komitəsinin şöbəsi kimi «Hümmət» müsəlman sosial-demokrat təşkilatı yaradılmışdı. Bu təşkilat müstəqil fəaliyyət göstərsə də, RSDFP-yə formal olsa belə, bağlılığı onun «milli sosial-demokrat partiyası» statusunda partiya qurultaylarında təmsil olunmasını şərtləndirmirdi. Müsəlman ziyalılarının sosial-demokratiya platformasında bir araya gəlməsində bir tərəfdən bu partiyanın mövcud hakimiyyətə qarşı müxalifliyi rol oynayırdısa, digər tərəfdən bolşeviklərin proqramındakı millətlərin öz müqəddəratını təyinetmə prinsipi cəlb edici idi (1, I c., s.431). «Hümmət» ayrıca milli sosial-demokrat partiyası statusunda olsaydı belə, mahiyyət dəyişməyəcəkdi. Tarixə «birləşdirici» kimi daxil olmuş dördüncü qurultayında RSDFP-nin «Milli sosial-demokrat

partiyalarına münasibət» başlıqlı qətnamə layihəsində deyilirdi: «milli sosial-demokrat partiyalarının çoxu, Rusiya sosial-demokrat fəhlə partiyasının II qurultayının haqlı olaraq rədd etmiş olduğu federasiya prinsipi üzərində indi daha israr etmir… Rusiyanın bütün milli sosial-demokrat partiyalarının vahid Rusiya sosial-demokrat fəhlə partiyasında tezliklə birləşdirilməsi üçün ən ciddi tədbirlər görmək lazımdır» (3, s.125). Vahid partiya da gələcəkdə dövlət üçün federasiya formasını məcburən qəbul etməli olsa da, əslində federativ dövlət vahid partiyanın ali rəhbərliyi altında Mərkəzdən ucqarlaradək eyni prinsiplə idarə olunmalı idi. Bu eyniyyət çərçivəsində belə federasiyanın ayrı-ayrı subyektlərinə münasibətdə fərq istisna deyildi.

Mərkəziyyət prinsipini uğurlu siyasət üçün başlıca amil sayan bolşeviklər hələ hakimiyyətə gəlməmişdən 11 il əvvəl «ümumpartiya mərkəzinə tabe olan ümum Rusiya hərbi döyüş təşkilatı yaradılmasını» da zəruri hesab edirdi. Mərkəziyyətçi olduqları qədər də milliyyətçilik əleyhinə idilər. Milli əsasa söykənən hər hansı bölgünü qəbul etmirdilər. Həmkarlar ittifaqlarının belə, «milliyyətlər üzrə təşkili prinsipinin qəti əleyhinə» olmuşdular. Hakimiyyətə gələnədək davamlı olaraq milli partiya təşkilatlarının birləşdirilməsi məsələsi keçirilən qurultayların, konfransların gündəliyində olmuş, müvafiq qətnamələr qəbul edilmiş və hər dəfə «birləşmə üçün federalizm prinsipinin əsas götürülməsinin qəti surətdə əleyhinə» çıxılmışdır. Bolşeviklərin milli partiya təşkilatlarını birləşdirmək siyasətinin Qafqaz müsəlmanları üçün zərbəsi Qafqazda erməni təşkilatı ilə birləşmə oldu. Ərazi deyil, etnik mənsubiyyət əsasında formalaşmış təşkilatın təqdim etdiyi layihə RSDFP-nin beşinci (London) qurultayında qəbul olunmuşdu. Partiyanın 1908-ci ilin dekabrında keçirilmiş plenumunda «Qafqazda erməni təşkilatı ilə birləşmə» adlı qətnamə qəbul etmişdi: «MK, Qafqaz təşkilatları vilayət komitəsinin diqqətini mümkün qədər ən yaxın bir zamanda erməni təşkilatı ilə birləşmək zərurətinə cəlb edir və bu da mütləq yerinə yetirilməlidir, xüsusilə ona görə ki, London qurultayından il yarımdan da çox keçir» (3, s.227).

Qafqazda sosial-demokratların milli mənsubiyyətinə görə erməni təşkilatı partiyanın Mərkəzi Komitəsi səviyyəsində qəbul olunurdusa, yerli təşkilatlar kimi fəal olan Bakı və Tiflis təşkilatları da milli tərkibinə görə əsasən qeyri-müsəlmanlardan ibarət idi. Rusiya təşkilat komissiyasının müşavirəsinin 1911-ci ilin payızında Bakı və Tiflisdə keçirilməsi də təsadüfi deyildi. Belə ki, müşavirənin təşkilatçısı – xarici təşkilat komissiyasının müvəkkili Q.Orconikidze, iştirakçıları S.Şaumyan, S.Spandaryan və b. idilər. Qafqazla bağlı olan bu şəxslər, Stalin də daxil olmaqla çağırılan partiya konfransında bolşevik Mərkəzi Komitəsinin üzvləri və ya üzvlüyə namizədlər oldular. Stalin başda olmaqla MK Rusiya bürosu seçildi. Beş il sonra hakimiyyətə gələcək bu bolşeviklər ən yüksək postlarda bütün Rusiyanın, sonradan SSRİ-nin, o cümlədən əvvəl Şaumyanın, sonra isə Orconikidzenin simasında Qafqazın müqəddəratını həll edəcəkdilər. Partiya konfransı çağıran komissiyanın müşavirəsi «Milli təşkilatlar haqqında» da qətnamə qəbul etmişdi. Qətnaməyə görə milli təşkilatlara müraciət edilib, onların konfrans seçkilərinə başlamağı təklif edilməliydi (3, s.281).

Bütün təşkilati işlərə, üç dəfə dəvət edildiklərinə baxmayaraq, 1912-ci ilin yanvarında Praqada keçirilmiş ümumpartiya konfransında milli mərkəzlərdən nümayəndələr iştirak etməmişdilər. Bu barədə qətnamə qəbul edən konfrans ««nasyonalların» gəlməməsinin bütün məsuliyyətini onların mərkəzləri üzərinə» qoymuş, «yerlərdə «nasyonallarla» birlik yaradılmasını, habelə ümum Rusiya mərkəzi ilə milli təşkilatların əlaqəsini möhkəmləndirməyi» zəruri hesab etmişdir (3, s.297-298). Bu cəhətdən bolşeviklərin Qafqaz təşkilatı bir örnək kimi partiyanın 1913-cü il

«fevral» müşavirəsində təqdir edilmişdir. «S.-d. partiyasının federalizm prinsipləri əsasında qurulmasının tamamilə iflas etdiyini və «milli» s.-d. təşkilatlarının ayrılıqda qalmasının» «son dərəcə zərərli olduğunu» xüsusilə vurğulayan müşavirə «yerlərdə s.-d. fəhlələri RSDFP-nin vahid təşkilatları halında, - Qafqazda çoxdan bəri olduğu kimi, …ən sıx surətdə birləşməyə və qovuşmağa» çağırmışdır (3, s.329-330). Amma bu təqdir uzun sürməmişdir. Elə həmin ilin avqustunda partiya müşavirəsi Qafqaz s.-d.-lərini də «Bund və təsviyəçilər»lə bir sırada ittiham etmişdi. Heç də həmişə s.-d. mərkəzi tərəfindən nümunəvi sayılmayan Qafqaz təşkilatı partiya proqramını ləğv etmək cəhdində və s. təqsirləndirilirdi. Sosial-demokratların arasında milli məsələyə dair nəinki ixtilafların olması, həm də bu prosesin kəskin qarşıdurmaya keçə biləcəyi gözlənilən idi. Yaranmış situasiyanı bolşeviklər «qaragüruhçu millətçiliyinin tüğyanı, liberal burjuaziya içərisində millətçilik meyllərinin artması, məlum millətlərin yuxarı təbəqələri içərisində millətçilik meyllərinin güclənməsi» ilə əlaqələndirirdi. Bu səbəblərdən də milli məsələnin «görkəmli bir yerə» çıxdığını və sosial-demokratiya daxilindəki vəziyyətin «partiyanı bu məsələyə daha artıq diqqət verməyə məcbur» etdiyini qeyd edirdilər.

Milli məsələyə dair bolşeviklər arasında fərqli mövqelər partiyanı bu məsələyə «xüsusilə böyük diqqət» verməyə məcbur etdi və partiya müşavirəsi 1913-cü ilin sentyabrında «Milli məsələyə dair» geniş həcmli qətnamə qəbul etdi. (3, s.347-349). Bu qətnamə 1917-ci ilin aprelinədək, yəni mütləqiyyətin devrilməsinə qədər partiyanın qüvvədə saxladığı müddəaları əhatə edirdi. Əslində RSDF(b)P-nin 1917-ci il aprel konfransındakı müddəalarla bir ziddiyyət də yoxdur. 1913-cü ildə eyni adda qəbul edilmiş qətnamənin mətni qismən genişdir, amma eyni müddəalar yığcam məzmunda, bəzən də olduğu kimi təkrarlanmışdır. Hər ikisində «bütün millətlər və dillər üçün tam hüquq bərabərliyini təmin edən ardıcıl-demokratik respublika quruluşu və dövlət idarəsi» «milli sülhü» mümkün edən zəruri şərtlər hesab edilirdi. Qətnamə mətnlərinin təhlili göstərir ki, 1917-ci ilin aprelində qəbul edilən variant 1913-cü ildə olan mətn üzərində təkmilləşdirilmiş və yeni vəziyyəti özündə əks etdirən qətnamədir. «Finlandiya ilə rus Müvəqqəti hökuməti arasında baş verən münaqişə» əsasında fikir bildirilməsi xaricində qalan müddəalar təkrarlanır. Yəni, bolşevik partiyası 4 il sonra, 1917-ci ildə də milli məsələdə eyni mövqeyini saxlamaqda idi. Millətlərin ayrılmaq hüququ, geniş vilayət muxtariyyətinin verilməsi, «mədəni-milli muxtariyyət»in rədd edilməsi kimi məsələlər eyni məzmunda təkrarlanırdı (3, s.347-349, 382-383). 22 iştirakçıdan 17 nəfərin həlledici səsə malik olduğu müşavirənin qəbul etdiyi müddəalar həmin məzmunda 4 il sonra 16 səsə qarşı 56 səslə qəbul edilmiş, 18 nəfər səs verməmişdir. Deməli, milli məsələyə dair fikirlərdə nəinki yekdillik yox idi, həm də fərqlilik nisbəti diqqətəlayiqdir: 90 nəfərdən 56 nəfəri lehinə səs vermişdi. Partiya müşavirəsi 4 il əvvəl milli proqram məsələsini partiya qurultayının gündəliyinə daxil etsə də, qurultay 4 ildən sonra, yəni əvvəlki-beşinci qurultaydan (1907-ci il) 10 il sonra 1917-ci ildə baş tutdu. Həmin müddətdə partiya MK-sı, mətbuatı, yerli təşkilatları milli məsələni «mümkün qədər ətraflı» işıqlandırmağa vəzifələndirilmişdilər. Lakin partiyanın, növbəti-altıncı qurultayı (iyul-avqust, 1917) milli məsələyə dair sənəd qəbul etməmişdi. Amma qurultaya qədər keçirilən RSDF(b)P hərbi təşkilatlarının ümumrusiya konfransında milli məsələyə dair qəbul edilmiş qətnamədə yeni situasiyaya uyğun fikir yürüdülmüşdür. Əsas tənqid hədəfi Müvəqqəti hökumət olmuşdur. Rusiya xalqlarının milli hərəkatları Müvəqqəti hökumətin qeyri-demokratik siyasətinin nəticəsi kimi qiymətləndirilərək, rəğbətlə qarşılanmamışdır. Təbii ki, milli hərəkatların mövcudluğu milli

məsələnin həllinin qətiləşməsi, bolşeviklər üçün problemin ciddiləşməsi, hakimiyyətə gələcəkləri təqdirdə ağır bir «mirasla» üzləşəcəkləri demək idi. Bu baxımdan milli məsələnin həllinin Müəssislər məclisi çağırılacağı vaxta qədər təxirə salınması Müvəqqəti hökumətin yanlış siyasəti kimi pislənirdi. Digər tərəfdən, mövcud problemdən hakimiyyətə gəlmək üçün yararlanmaq imkanı geniş idi ki, bolşeviklər bu məsələdən də məharətlə istifadə edirdilər. Daha doğrusu, mövcud hakimiyyəti yıxmaq üçün çoxsaylı problemlərin kəskinləşməsi əlverişli şərait yaradırdı. Problemlərin həlli hakimiyyət böhranını aradan qaldıra bilərdi. Bolşeviklərin mövcud problemlər dalğasında hakimiyyətə gəlməsini Müvəqqəti hökumətin üzvləri qəsbkarlıq hesab edərək rus xalqına bəyanatla müraciət etmişdilər. Bu bəyanat 1917-ci il noyabrın 17-də Petroqradda çıxan «Naşa reç» adlı kadet qəzetində dərc edilmişdi. «Üç illik müharibə nəticəsində əzab çəkmiş əsgər və fəhlə kütlələri mahiyyətcə ədalətli, lakin dərhal mümkün olmayan cazibədar «dərhal sülh, çörək və torpaq» şüarlarına aldanaraq Müvəqqəti Hökuməti həbs etdilər» bildirişi ilə Müvəqqəti hökumət üzvləri «təcavüzkarların, onların iradələrini yerinə yetirməyəcəyi təqdirdə hətta Müəssislər Məclisinə də əl qaldırmaqdan geri durmayacaqlarından ehtiyat edərək» xalqı yekdilliklə Müəssislər Məclisini müdafiə etməyə çağırırdılar: «Müvəqqəti Hökumət bütün ordu və arxa cəbhə vətəndaşlarını xalqın iradəsini möhkəm və qətiyyətlə ifadə etmək imkanı vermək üçün Müəssislər Məclisini yekdilliklə müdafiə etməyə çağırır» (7).

Milli məsələnin də həllini tapmaması onunla siyasi möhtəkirlik etməyə imkan verirdi. Bolşeviklər Müvəqqəti hökuməti ukraynalılara öz müqəddəratını təyin etmək hüququnu həyata keçirməkdə mane olmaqda günahlandırırdılar. Ukraynanın, Müəssislər məclisini gözləməyərək, öz muxtariyyətini həyata keçirməyə tam hüququ olduğunu bildirirdilər. 1917-ci ildə Müvəqqəti hökumətə ittihamlarını Ukrayna nümunəsində ünvanlayan bolşevik partiyası hərbi sahədə də mərkəzləşmə tərəfdarı olduğundan milli polkların yaradılmasının qəti əleyhinə olsa da, «hər bir millətin bu cür polklar yaratmaq hüququnu inkar» etmədiyini bildirməklə xalqlar, millətlər arasında sosial-siyasi dayaq yaratmağa çalışırdı. Müvəqqəti hökuməti imperialist cəhdləri göstərməkdə təqsirləndirən bolşeviklər hakimiyyətə gəlmək ərəfəsində «millətlərin öz müqəddəratını təyin etmək hüququnun ancaq qəti surətdə və dönmədən qəbul edilməsi, təkcə sözdə deyil, işdə qəbul edilməsi» tələbini qoyurdusa, yenə də dövlətin bütövlüyü tərəfdarı olaraq qalırdılar. Təbii ki, bu zaman da Rusiya xalqlarının «zorla deyil, könüllü surətdə birləşməsi» şüarı ilə çıxış edirdilər (3, s.400-401). Həmin dövrdə Azərbaycanda milli hərəkat, muxtariyyət hərəkatı da mövcud idi. Ukrayna üçün səsləndirilən fikirlər nəzəri olaraq Azərbaycan üçün də keçərli ola bilərdi, amma Ukraynanın özü üçün belə faydası olmadığı halda, qısa zaman sonra bolşevik şüarlarının gerçək mahiyyəti üzə çıxmışdı. Partiyanın yeni nizamnaməsini qəbul edən VI qurultayı «bütün partiya təşkilatları demokratik mərkəziyyət prinsipləri əsasında qurulmalıdır» hökmünü vermişdi.

Müstəmləkəçi dövlətlərin təcavüz vasitələrindən daha çox mənfəət qazandıran hərbi müdaxilədən də artıq milli və dini amillərdən istifadədir. Təcavüz hədəfi olan dövləti daxildən sarsıdacaq ən güclü silah etnik yaxud dini zəmində çaxnaşma yaratmaq, toplumun vəhdətini, sabitliyini pozmaq olur. Nəticədə müstəmləkəçi siyasətin təntənəsindən bərqərar olmuş imperiyalar etnik və dini rəngarəngliyi ehtiva edən cəmiyyətə sahib dövlətlər olur. İmperiya xarici təzyiq vasitələri imperiya daxili dağıdıcı vasitələrə çevrilə bildiyindən «parçala, əldə et» siyasəti «parçala hökm sür» siyasətinə keçid alır. Ən sərt əsarət tədbirləri belə milli və dini amilin varlığını məhv edə

bilmir. Bu amillər artıq daxili siyasətin möhtəkirlik alətinə çevrilir. Siyasi təsisatların proqramında yer alan platforma kimi dini və milli məsələlər hakimiyyəti əldə etməyin, sonra isə inzibati idarəçiliyin mühüm elementini təşkil edir. Bu mənzərədə Rusiya imperiyası yeganə olmayan, amma çox bariz və klassik bir nümunədir. Rusiya dövlətinin imperiya kimi təşəkkül tapmasında rol oynamış etnik-milli və dini amil sonralar «xalqlar həbsxanası» adlanacaq imperiyanın çöküşündə də sürətləndirici təsir göstərmişdir. Rusiya imperiyası milli-azadlıq hərəkatları nəticəsində dağılmasa da, əsarət altında qalan xalqlarda milli oyanış, milli özünüdərk, müstəbid rejimə qarşı milli maraqları uğrunda mübarizə ardıcıl və güclənən bir prosesə çevrilmişdi. Bu amili müstəbid rejimə qarşı mübarizə aparan siyasi qüvvələrin diqqətə almaması mümkünsüz idi. Xüsusən də daha radikal proqramla çıxış edən Rusiya sosial-demokratları milli məsələni öz məramnamələrində ön planda saxlayırdılar. Millətlərin öz müqəddəratını təmin etmək hüququnu başlıca mübarizə şüarlarından biri etmiş Rusiya sosial-demokratları hakimiyyətə gələnə qədər və hakimiyyət dövründə də milli məsələni daim diqqətdə saxlamışlar. Milli məsələ üzərindən siyasi möhtəkirlik edildiyi bolşevik elitasının nəzəri irsində yetərincə əksini tapmışdır. SSRİ-nin, Zaqfederasiyanın yarandığı 1922-ci ildə Stalin Leninə məktubunda yazırdı ki, «Vətəndaş müharibəsinin dörd ili ərzində biz müdaxilə səbəbindən milli məsələdə Moskvanın liberallığını nümayiş etdirməyə məcbur idik» (6). Milli məsələdə nümayiş, dekorasiya kursu 4 il, hətta ondan öncə də bolşevik siyasətində strateji yer tuturdu. Hakimiyyətə yiyələnməmişdən əvvəl, 1917-ci il aprelin 29-da Lenin milli məsələyə dair nitqində daha diplomatik mexanizm təklif edirdi: «Birləşmək azadlığı ayrılmaq azadlığını tələb edir… (4, c.31, s.466) …Rus sosialistləri məzlum millətlərin ayrılmaq azadlığına nail olmalıdırlar; məzlum millətlərin sosialistləri birləşmək azadlığına kömək etməlidirlər, onların hər ikisi rəsmən müxtəlif (əslində eyni) yollarla vahid məqsədə doğru: proletariatın beynəlmiləl təşkilinə doğru getməlidirlər» (4, c.31, s.470). Həmin dövrdə Stalinin milli məsələnin həlli ilə bağlı fikirləri Lenininki ilə heç də tam uyğun gəlmirdi. Nəzərə alsaq ki, bolşevik hakimiyyətinin liderləri qismində hər ikisi milli məsələ ilə bağlı yalnız nəzəri yox, həm də rəsmi mövqe sahibləri idi, onda məsələnin əməli həllində birbaşa rolu və məsuliyyəti olmuş bu iki bolşevikin mövqeyinin paralel müqayisədə təhlili xalqların müqəddəratının müəyyənləşdirilməsi prosesinin mahiyyətini anlamağa imkan verər. Yerli bolşevik lideri, həm də regional (Qafqaz) statusda səlahiyyət sahibi S.Şaumyanın milli məsələdə mövqeyi heç də rəhbərlərininki ilə eyniyyət təşkil etmirdi. Bu ziddiyyət Qafqaz müsəlmanlarının, Azərbaycan xalqının müqəddəratında 1918-ci ilin yaz-yay qırğınları ilə nəticələndi. Azərbaycan milli qüvvələrinin Rusiyanı federativ respublika kimi görmək istəyi mövcud reallıqdan, təbii proseslərdən, tarixi zərurətdən qaynaqlanırdı və hakimiyyətə yiyələnən istənilən siyasi qüvvə bu amili diqqətə almağa məhkum idi.

Oktyabr çevrilişi ərəfəsində artıq Rusiya millətlərinin bir çoxunun ayrılmış vəziyyətdə olması, milli hərəkatlar amili, digər tərəfdən federasiya formasının iqtisadi əlaqələrə zidd olmaması bolşevikləri federasiyanı inkardan əl çəkib qəbul etməyə yönəltmiş şərtlər sayılırdı. Federasiya formasını qəbul etmək məcburiyyətində qalan bolşeviklər hələ əvvəlcədən qəbul etdikləri ayrılma prinsipinə də reallıqda əməl etmirdilər. Cənubi Qafqaz nümunəsində fikrini bildirmiş Stalin Zaqafqaziya xalqları ayrılma tələb etdikləri halda, təbii ki, ayrılacaqlarını və bolşeviklər tərəfindən onlara qarşıdurma olmayacağını ifadə etmişdir. Zaqafqaziya müsəlmanları ayrılma deyil, muxtariyyət istəyi ilə hərəkət etdikləri halda 1918-ci ilin yazında kütləvi qətliama məruz

qaldılar. Bu zaman üçün isə hətta federasiya forması «Zəhmətkeş və istismar olunan xalqın hüquq bəyannaməsi»ndə yer almışdı. Ayrılma tələbinə qarşı çıxmayacaqlarını vəd edən bolşeviklər muxtariyyət statusuna belə təhəmmül etmədilər və nəinki siyasi qarşıdurma nümayiş etdirdilər, həm də siyasi fəaliyyətdən uzaq minlərlə müsəlmanı məhv etməkdən çəkinmədilər. Halbuki, həmin Cənubi Qafqaz Stalinin layihəsində muxtariyyət hüququ ala biləcək vilayətlər sırasında idi. Vilayət muxtariyyəti statusuna qarşı qoyulan milli-mədəni muxtariyyət prinsipini məqbul bilməyən Stalinin mövqeyi Azərbaycan milli hərəkatının platforması ilə eyni görünə bilər. Lakin milli-mədəni muxtariyyətdən daha üstün milli-məhəlli muxtariyyət tələbi ilə mübarizəyə başlayan azərbaycanlıların motivləri və məramı fərqli idi. Millətçiliyə xidmət nöqteyi-nəzərindən sosial-demokratiyanın milli-mədəni muxtariyyətə qarşı olması ilə Azərbaycan milli hərəkatının mədəni muxtariyyətə qarşı çıxması eyni motivə söykənmirdi. Milli-məhəlli muxtariyyət çərçivəsində xalqın mədəni tərəqqisini daha üstün səviyyədə təmin etməyin mümkünlüyünü əsaslandıran Azərbaycan siyasətçilərindən fərqli olaraq bolşeviklər mədəniyyətin milləti tam vahiddə birləşdirəcəyindən ehtiyat edirdilər. Milləti parçalayacaq çox məsələlər olduğu halda, mədəniyyət məsələsinin məhz milləti birləşdirəcək qüvvə olduğunu əsas götürən bolşeviklər milli-mədəni muxtariyyət planını rədd etmişdilər. Xalqların öz müqəddəratını təyin etmə şüarının cazibəsinə düşən xalqlar bu hüququ gerçəkləşdirmək yönündə əməli fəaliyyət göstərəndə bolşeviklərin silahlı müqaviməti ilə üzləşmiş oldular. Rusiyada baş verən proseslər, Qafqazda, xüsusən də Bakıda bolşeviklərin davranışı müsəlman milli siyasətçilərini təşvişə salırdı, yeni hakimiyyətin öz vədlərinə sadiq qalmamaları, bəyanatları ilə əməlləri arasında ziddiyyətləri müsavatçılara yenidən əsarət altına düşmə təhlükəsini yaşadırdı: «Rusiya millətlərinin həqqi-muxtariyyətləri o demək degildir ki, Rusiya millətləri velikorus dvoryanlarının keyfindən qurtarıb velikorus əmələlərinin keyfinə tabe olsunlar» (5). «Müsavat» partiyası «Azərbaycan muxtariyyəti»ni gerçəkləşdirmək əzmindən geri çəkilmək fikrində deyildi, hətta bu muxtariyyət xarabazarlar qiymətinə alınsa belə: «Bəlkə də, müqəddərdir ki, biz muxtariyyətimizi xarabəzarlar qiymətinə alalım. Müqəddərati – tarixiyyədən, əlbəttə ki, boyun qaçırmaq olmaz» (5). Beləliklə, 1918-ci ilin fevralı üçün müsavatçılarla bolşeviklər arasında yollar nəinki ayrılmış, artıq qarşı-qarşıya gəlmişdi. Bu siyasi qüvvələrin məramnamə baxımından uyğunluğu olsa da, əməli baxımdan yolları heç üst-üstə düşmədi. Cəbhənin bir tərəfində məhəlli müxtariyyət istəyən müsavatçılar (Türk ədəmi-mərkəziyyətçilər), digər tərəfində M.-Ə.Rəsulzadənin «bizim bolşeviklər» adlandırdığı Bakı bolşevikləri görünsə də, əslində Mərkəzi bolşevik hakimiyyəti, yəni Sovet Rusiyası dayanmışdı. Qüvvələr nisbəti xüsusi araşdırma aparmadan bəlli olur. Bir ay sonra, martın əvvəli üçün siyasi qüvvələr nisbətində radikal dəyişiklik baş verdiyini xəbər verən «Açıq söz» qəzeti Bakı bolşeviklərini kadetlərə təslim olmaqda ittiham edirdi: Bolşeviklərin yalnız kadetlərlə deyil, daşnaklarla, menşeviklərlə birgə «siyasi blok» hasil etmələrinin səbəbini axtaran «Demokrat» imzalı M.-Ə.Rəsulzadə «Qafqaz demokratiyasının», xüsusən də «Bakı demokratiyasının» gözünü açmağa çalışırdı. Kadet, daşnak, menşeviklərin öz mövqelərindən əl çəkməyəcəkləri yəqinliyilə «siyasi bloku» formalaşdıran amili bolşeviklərin onlara güzəştə getməsi ilə izah edirdi. Bu addım Qafqaz demokratiyasının mənafeyinə xəyanət kimi qiymətləndirilirdi.

1918-ci ilin yazında Azərbaycan xalqının məruz qaldığı qırğınlar da bolşevik siyasətinin milli məsələdə ikili məzmunundan törəyən akt idi. Bu ikililik əslində forma və məzmun cəhətlərini ehtiva edir. Milli məsələdə

bolşeviklərin prinsipi məzmuna yox, formaca dəyişikliyə məruz qalırdı. Stalinin təkamül adlandırdığı proses isə məzmuna yox, formaya şamil edilməlidir. Partiyanın milli məsələdə ayrılma hüququ, vilayət muxtariyyəti, dövlət federasiyası və s. müddəaları mahiyyəti dəyişmirdi. Mahiyyət vahid dövlətçiliyi, dövlət bütövlüyünü, yəni Rusiyanın tamlığını saxlamaqdan ibarət idi.

Bolşeviklərin milli məsələyə dair baxışlarını siyasi opponentləri «milli məsələdə Leninçilik» adlandırmışdı. Bu ifadəni isə hərcmərclik, qarışıqlıq, anarxiya anlayışlarına bərabər tuturdular. Eser və menşeviklərin bu ittihamını əsassız sayan Lenin öz tələbləri ilə hərc-mərclik, qarışıqlıq, anarxiya xofu yarada bilərdi, amma hakimiyyət uğrunda ən radikal proqramla çıxış edən bolşevik partiyasının bu davranışı qeyri-adi deyildi, əksinə tam səciyyəvi idi. Oktyabr çevrilişi ərəfəsində bolşeviklərin qəbul etməyə məcbur olduğu federativ demokratik respublika quruluşu Azərbaycan milli hərəkatının əsas hədəfi idi. Nəzərdə tutulan federasiyada Azərbaycanın məhəlli-muxtariyyətə nail olacağı isə sual altında idi. Oktyabr çevrilişi bolşeviklər üçün vədlərin əmələ çevrilməsi sərhədi idi.

Bolşevik hakimiyyətinin həyata keçirəcəyi təcrübəni isə Azərbaycan xalqı tezliklə hiss etməli və on minlərlə dinc əhalisinə qanlı divan tutulması hesabına yaşamalı oldu. 1918-ci ilin yazında kütləvi müsəlman qətliamları üzərində Bakıda qurulmuş sovet hakimiyyəti mərkəzi bolşevik hökuməti üçün Qafqazda uğurlu nailiyyət sayılsa da, əslində qanlı «təcrübə» tarixi məsuliyyəti sonralar belə kommunist hakimiyyəti tərəfindən rəsmi yaxud qeyri-rəsmi etiraf edilməyən cinayət hadisəsi idi. «Vətəndaş müharibəsi» anlayışı ilə pərdələnən on minlərlə siyasətdən uzaq, siyasi düşüncədən xali müsəlman qətlinə bolşevik hakimiyyətindən heç bir cavabdehlik olmadı, heç kəs məsuliyyət daşımadı. Halbuki bolşevik liderləri milli məsələdə daha irəli gedən şüarlarla, bəyannamələrlə çıxış edirdilər. Rusiyanın milyonlarla əhalisinin, xalqlarının inandığı bu şüarlar, bəyannamələrlə hakimiyyəti əldə edə bilməyəcəyini yəqin edən Lenin güc-üsyan vasitəsilə hərəkət etməyə qərar vermişdi. Təbii ki, zorakılığı məqsədə çatmaq üçün məqbul bilən qüvvələrin idarəetmədə eyni tərzdə davranacaqları nəinki, istisna deyil, əksinə qaçılmaz olur. Lenin də reallıqdan çıxış edən çevik siyasətçi kimi Oktyabr çevrilişi ərəfəsində «ələ düşən yaxşı fürsətdən istifadə edərək» (V.İ.Lenin) hərbi yolu tətbiq etdi: «İndi tarix hərbi məsələni başlıca siyasi məsələ etmişdir… Biz belə etməsək, gülünc axmaqlar vəziyyətində qala bilərik: gözəl qətnamələrimiz və Sovetlər olar, lakin hakimiyyət əlimizdə olmaz!!» (4, 34-cü cild, B., 1982, s.299-300). Hərbi hazırlıqla yanaşı siyasi şüarçılıq da əhəmiyyətini saxlayırdı. Cəmiyyətin əksəriyyəti üçün ən vacib sayılan məsələlər bolşevik təbliğatının gündəmində idi: «Milli məsələ və aqrar məsələsi indiki zamanda Rusiya əhalisinin xırda burjua kütlələri üçün əsas məsələlərdir… ilk dəfə olaraq kütlələr… Finlandiya, Ukrayna, Belorusiya üçün, müsəlmanlar üçün tam azadlığın dərhal bərpa olunmasını və i.a. görərdilər» (4, 34-cü cild, B., 1982, s.336). Müsəlmanların da bu sırada yer alması, Rusiya əhalisinin mühüm bir hissəsini təşkil edən müsəlmanlar, o cümlədən azərbaycanlılar üçün olduqca ümidverici idi. Bolşeviklərin «xırda burjua kütlələri»nin maraqlarına xidmət etmədikləri halda onları diqqətə alması hakimiyyətə gəlmək və hakimiyyəti əldə saxlamaq üçün önəmli idi. Elə bu səbəbdən də milli məsələ və aqrar məsələyə belə həssaslıqla yanaşılırdı. Ayrılma hüququnu tanıyıb birləşmə tərəfdarı olan bolşeviklərin həqiqi mövqeyi hakimiyyətə gəldikdən sonra bəlli ola bilərdi.

Müstəbid rejimdə əsarət altında yaşamış Rusiya xalqlarının ümidlə baxdıqları, nicat tapacaqlarına vəsilə hesab etdikləri «öz müqəddəratını təyin etmək prinsipi» həqiqətdə ucqarları yalnız sovet hakimiyyəti altında yaşatmaq deyil, başlıcası ümumi dövlətdə

saxlamaq üçün bolşeviklərin ideoloji silahı olmuşdur. Amma bu hüququ «Türkiyə Ermənistanına» tanıyanda və tətbiq edəndə erməni xalqının «burjuaziyası», «zəhmətkeş kütləsi» fərqləndirilmirdi. «Talan və qırğınlar» yaşamış, «qan içində olan», «aldadılmış», «əsarətdə olan» Ermənistan və «Ermənistan oğulları, öz vətəninin qəhrəman müdafiəçiləri» tam olaraq vəhdətdə qəbul edilirdi. Ermənistanın həmin «qəhrəman oğullarının» artıq 1917-ci ilin sonlarından başlayaraq, əsasən 1918-ci ilin əvvəllərindən Şərqi Anadoluda, Cənubi Azərbaycanda, Qafqazda müsəlmanlara tutduğu qanlı divan zamanı yenə də müsəlmanlar sinfi nöqteyi-nəzərdən təsnif edilmiş və təqsirli bilinmişlər. Qafqazın öz müqəddəratını təyin etməsi ilə bağlı Stalin «Qafqaz komissarlığının» sovet təşkilatlarına qarşı «aqressiv siyasətini» əsas göstərərək vətəndaş müharibəsini davam etdirməyi lazım bilmişdir. Vətəndaş müharibəsi adı altında əsl milli qırğın törədildiyi haqqında isə Mərkəzi sovet hakimiyyəti nə həmin dövrdə, nə də mövcud olduğu müddətdə rəsmi münasibət bildirmədi. Müsəlmanların görünməmiş vəhşiliklə kütləvi qətlə yetirilməsini Mərkəzi sovet hakimiyyəti «Zaqafqaziya əksinqilabçılarının» siyasəti ilə əlaqəli hadisələr kontekstində heç ciddiyə də almamışdı.

«Zaqafqaziya əksinqilabçıları sosializm adı altında» başlıqlı məqalə yazaraq Stalin bölgənin qısa səciyyəsini vermiş, sərvətinə və milli tərkibinin müxtəlifliyinə görə Rusiya Federasiyasının bütün ucqarlarından ən səciyyəvi bölgə olduğunu göstərmişdir. Zaqafqaziyanın digər səciyyəvi əlaməti kimi iqtisadi geriliyini göstərmişdir. Bakı istisna olmaqla, Zaqafqaziyanın aqrar ölkə olduğunu, bu səbəbdən, yenə də Bakı istisna olmaqla, fəhlə hərəkatının zəifliyini və belə zəmində «imkanlı siniflərin» siyasi koalisiyasının yarandığını əlaqələndirmişdir. Məqalənin bütün ruhu Zaqafqaziya komissarlığının «anti sovet» fəaliyyətinin, xüsusən də onun başında dayanan «sosialistlərin» ifşası məzmunundadır. Bu məqsədlə ən dəlalətli fakt kimi «Şamxor hadisəsini» təfərrüatı ilə, amma «Bakinskiy Raboçiy» qəzetinin materialları əsasında, yəni Bakı bolşeviklərinin yanaşmasında təqdim etmişdir. Stalinin ittiham etdikləri qüvvələr sırasında Qafqaz «milli şuraları» da yer alır. «Antisovet koalisiyasının» «canlı təcəssümü» kimi Zaqafqaziya komissarlığının üzvü olan «tatar bəyləri Xan-Xoyski və Xasməmmədov» da ayrıca qeyd olunur. Məqaləsində «Bakinskiy Raboçiy»in mətnlərini olduğu kimi təqdim edən Stalin faktlara, sənədlərə söykəndiyini göstərir: «Bunlar faktlardır», «Bunlar sənədlərdir» deyir. Amma sənədlərin bir tərəfli yozumu, faktların saxtalaşdırılması, qərəzli təqdim olunması da xüsusən siyasətdə, o cümlədən bolşevik siyasətində səciyyəvi bir haldır. Bakı qırğınları günlərində, daha dəqiqi az vaxt sonra, aprelin 3-ü və 4-ündə Stalinin Rusiya Federativ Respublikasının təşkili haqqında «Pravda» qəzetinin əməkdaşı ilə söhbəti dərc olunmuşdur. Bu müsahibədə Qafqaz müsəlmanlarının, - «Azərbaycan tatarlarının» məruz qaldığı qətliam haqqında bir söz deyilməsə də, Rusiyanın dövlət formasının – federativliyin prinsipləri, Mərkəzi hakimiyyət quruculuğu, Rusiya Federativ Respublikasının tərkibi məsələlərinə aydınlıq gətirilmişdir. Stalinin müsahibəsinin həsr olunduğu məsələlər məhz Azərbaycan muxtariyyətini gerçəkləşdirmə uğrunda mübarizə aparan qüvvələrin taleyüklü məsələləri olmuşdur. Bir il əvvəl federasiyanı qəbul etməyən bolşeviklər artıq federasiyanın subyektlərini açıqlayırdılar. Bir il əvvəl hakimiyyətə gəlmə təbliğatı aparırdılarsa, artıq hakimiyyət başında idilər. Azərbaycan xalqı da federasiyada öz statusunu milli-məhəlli muxtariyyətdə görürdüsə, artıq bu istəyinə cavabını kütləvi qətliama məruz qalaraq almışdı. Bəs onda bolşevik hakimiyyəti artıq məqbul bildiyi federasiyada Azərbaycan xalqının yerini hansı inzibati statusda müəyyənləşdirmişdi? Şimali Azərbaycan torpaqlarının daxil olduğu Cənubi Qafqazı, yəni Rusiya təbirincə Zaqafqaziyanı

Stalin milli tərkibli əhalisi, müvafiq həyat tərzi olan iqtisadi ərazi vahidi kimi görürdü. Rusiyanın digər ucqarları kimi Cənubi Qafqazın da zorla ümumrusiya siyasi orqanizminə sıxışdırılmış vahid kimi artıq ya federativ münasibətlər, ya da tam müstəqillik formasında zəruri fəaliyyət azadlığı əldə etməyə səy göstərdiyini qeyd edirdi. Stalinin Rusiyada xalqların azad ittifaqı əsasında federativ sistem qurmağın mümkünlüyünü və lazımlığını dediyi günlərdə Bakı bolşeviklərinin lideri Şaumyan Azərbaycan muxtariyyətinin gerçəkləşməməsi üçün kütləvi müsəlman qırğınları törətməkdən çəkinmirdi. Stalinin müsahibəsində daha konkret məqam Rusiya Federativ Respublikasının tərkibini açıqlamasıdır. Rusiya Federasiyasının subyektləri ola bilmək şərtlərinə malik vilayətlər sırasında Stalin Polşa, Ukrayna, Finlandiya, Krım və d. ilə yanaşı Zaqafqaziyanı da göstərmişdir. Diqqətə layiq haldır ki, 1918-ci ilin 3-4 aprel tarixlərində Stalin Zaqafqaziyanın gürcü, erməni, «Azərbaycan-tatar» və d. bir sıra müəyyən milli-ərazi vahidlərinə bölünə biləcəyinin mümkünlüyünü istisna etmirdi. Rusiyanın federativ subyekt ola biləcək bütün vilayətləri içərisində milli-ərazi vahidi statusunda bölünmə həmin zaman yalnız Zaqafqaziya üçün mümkün bilinirdi. Təbii, digər subyektlər əsasən müəyyən milli tərkibə malik bölgələr sayıla bildiyindən Zaqafqaziyanın milli-ərazi prinsipi ilə bölünməsi adekvat görünə bilər. Federal vilayətlərin hüquqları ilə milli azlıqların hüquqları arasında fərq aydın və konkret göstərilmişdir.

Millətlər üzrə komissar kimi Stalinin milli məsələ ilə bağlı yazdıqları və dedikləri ümumilikdə, Cənubi Qafqaza, o cümlədən Azərbaycana aidiyyatı olan və bolşevik hakimiyyətinin nəzərdə tutduğu vəzifələr kimi dəyərləndirilməlidir. İlk əvvəldən Bakını bütün Qafqaz, daha sonra Şərq üçün forpost hesab edən bolşevik rəhbərliyinin şüarları ilə əməlləri arasında ziddiyyətlər davamlı üzə çıxmaqda idi.

1918-ci ilin yazında Azərbaycan xalqının məruz qaldığı qırğınlardan sonra Stalinin muxtariyyətlə bağlı fikirləri həmin qanlı hadisələrə görə məsuliyyət sahiblərini müəyyənləşdirməyə imkan verir. Müsəlman qırğınlarından az keçmiş, aprelin əvvəllərində növbəti vəzifələrdən bəhs edən yazısında Stalin bir daha burjua muxtariyyətinin əleyhinə çıxmış, yerlərdə Sovetlər əsasında muxtariyyəti məqbul saymışdır. Qafqaz müsəlmanları, Azərbaycan xalqı üçün də bu şərt keçərli idi. Qırğın günlərində Şaumyana məktubunda Stalin yazırdı: «Bakını hərbi və maliyyə cəhətdən möhkəmləndirmək, müsəlmanlar muxtariyyət tələb edirlərsə, mərkəzdə və yerlərdə Sovet hakimiyyətini sözsüz olaraq tanımağı şərt qoymaqla, onlara muxtariyyət vermək… lazımdır» (2). Əks təqdirdə muxtariyyətdən söhbət gedə bilməzdi. Azərbaycan xalqının qanlı müqəddəratı da bolşevik rəhbərliyinin muxtariyyət məsələsində mövqeyi ilə şərtlənmişdi, bu baxımdan müsəlman qırğınlarının məsuliyyətini yalnız yerli Sovet, Bakı bolşevikləri deyil, həm də və ilk növbədə mərkəzi Sovet hakimiyyəti daşımalı idi. Mərkəzin göstərişlərini, nəzəri fikirlərini rəhbər tutaraq hərəkət edən Bakı Soveti, şəxsən Şaumyan müsəlman qırğınlarının baş verməsində birbaşa təşəbbüskar təşkilatçı, iştirakçı kimi cavabdeh sayılmalıdır. Amma Stalinin konkret tövsiyəsini formal olaraq da yerinə yetirməmişdi, yəni şərt qoymaqla muxtariyyət vəd etməyi belə müsəlmanlara rəva görməmişdi.

Ucqarların muxtariyyəti haqqında məsələ birbaşa mərkəzi Sovet hakimiyyətinin, konkret olaraq millətlər işləri üzrə xalq komissarlığının, şəxsən komissar İ.Stalinin səlahiyyətində və nəzarətində idi. Muxtariyyətlərin xarakteri, formaları, coğrafi sərhədləri sonuc etibarilə məhz bu komissarlıq tərəfindən təsdiqlənirdi. Stalin müxtariyyəti 2 növə ayırırdı: millətçi və sovet. Birinci tipi sovet hakimiyyətinin qəbul etməyəcəyini, prinsip etibarilə rədd etdiyini açıqlamaqla cəmiyyətdə sinfi əlamətə söykə-

nən Şuraların iradəsini ifadə edən «sovet muxtariyyətini» təqdir edirdi. Millətçilik əsaslarına söykənən muxtariyyətdə «Milli şuralar»ın və onların ətrafındakı milli polkların fəaliyyətinin milli didişmə ilə nəticələnəcəyinin qaçılmaz olduğunu bildirən Stalin Zaqafqaziya nümunəsində haqlılığını təsdiqləməyə çalışırdı. Cənubi Qafqazda «erməni, gürcü və tatar» milli şuralarının mövcudluğunu baş verən qanlı hadisələr üçün səbəb göstərirdi. Hər hansı milli şura ilə Sovetlər arasında istənilən qarşıdurma yaxud savaş belə milli mənsubiyyətinə görə müsəlmanların kütləvi qətliamı qədər itki ilə nəticələrə bilməzdi. Müsəlman qırğınlarının miqyası bütün sinfi prinsip və mülahizələri alt-üst edir. Mərkəzi sovet hakimiyyəti tərəfindən kütləvi müsəlman qırğınlarına biganə münasibət bir tərəfdən Bakı bolşeviklərinin lideri Şaumyanın göndərdiyi məlumatlardan irəli gəlirdisə, digər tərəfdən milli məsələnin həllini olduqca vacib sayan Mərkəz üçün millətçiliyin təsirli bir vasitə ilə aradan qaldırılması mövqeyindən yaranırdı. Mərkəz keçid dövrü üçün güclü ümumrusiya hakimiyyətini zəruri sayırdı. Belə hakimiyyəti də proletariat diktaturası adlandırırdı. Hansı sinfin, zümrənin üstünlüyündən asılı olmayaraq bütün hallarda diktatura rejiminin məqbul bilinməsi ən sərt idarə üsullarının tətbiqi deməkdir. Bu anlamda Şaumyanın siyasəti və törətdikləri də Mərkəz tərəfindən dəstəklənirdi. Paradoksal görünsə də 1918-ci il may ayının 19-da Stalin «Növbəti yalan» adlandırdığı məqaləsində «ağ yalan» yazırdı: «Bolşeviklərin müsəlmanlarla heç bir mübarizəsi olmayıb və ola da bilməz». Təbii ki, bolşeviklər hər hansı milləti və xalqı, o cümlədən müsəlmanları mübarizə hədəfi kimi seçməyiblər. Amma sinfi mübarizə adı altında on minlərlə müsəlmanın Bakı quberniyasında qısa müddətdə amansızcasına məhv edilməsinin məsuliyyəti Bakı Sovetinin və onun rəhbəri Şaumyanın üzərində idi. Hələ də Bakı quberniyasının qəzalarında müsəlman qırğınlarının davam etdiyi halda belə müddəa ilə çıxış etmək və Bakı Soveti hakimiyyətinin «hər şeydən əvvəl müsəlman xalqının hakimiyyətini» təmsil etdiyini yazmaq Bakı müsəlmanlarına qarşı təhqiredici münasibət kimi dəyənləndirilə bilər.

Bakı quberniyasında baş vermiş müsəlman qırğınları haqqında Stalinin ilk vaxtlar dəqiq məlumatı ola bilməməsi də istisna deyildir. Onun istinad etdiyi materiallar bolşevik mətbuatı və Qafqazdan olan qeyri-müsəlman bolşeviklərlə ünsiyyətdən, şəxsən Şaumyanın yazışmalarından əldə etdiyi informasiyadan ibarət idi. Qafqazdakı vəziyyət haqqında Seym üzvü Karçikyanın Tiflisdən verdiyi məlumat əsasında fikir yürüdürdü. Tiflisdən verilən məlumata görə türk komandanlığının Bakını tutmaq və Bakı rayonunda müsəlmanları xilas etmək üçün türk qoşunlarının göndərilməsini qaçılmaz hesab etdiyi bildirilirdi. Stalin bu məlumatı sənədə əsasən yoxlamaq imkanının olmadığını yazır, amma Bakı bolşevik mətbuatında yazılanları, Şaumyanın məlumatlarını birmənalı etibarlı hesab edir, yoxlamağa lüzum bilmir. Bakı Sovetinin fəaliyyəti haqqında birtərəfli məlumatlara söykəndiyindən böyük yəqinliklə verdiyi proqnoz da özünü doğrultmadı. Türk «xilaskarlarının» Bakıya doğru həqiqətən hərəkət edəcəkləri təqdirdə əhalinin geniş təbəqələri və ilk növbədə, müsəlman fəhlə və kəndliləri tərəfindən güclü müqavimət ilə qarşılanacaqları haqqında Stalinin qənaəti yanlış çıxdı.

Mərkəzi sovet hakimiyyətinin Azərbaycana dair siyasəti 1918-ci ildə Cənubi Qafqaz çərçivəsində Bakı rayonu ilə məhdudlaşmalı olmuşdu. Əslində həmin dövrdə Sovet Rusiyasının Cənubi Qafqaz siyasətinin aktiv bazası Bakı rayonu ilə hüdudlanırdı. Qafqazdan bəhs edərkən təkcə coğrafi deyil, siyasət anlamında da iki vektor ayrılırdı: Zaqafqaziya (Cənubi Qafqaz) və Şimali Qafqaz. Cənubi Qafqazda seymin müstəqillik haqqında 22 aprel tarixli qərarını kəskin tənqid edən Stalin Qafqazlı informatorlarından Karçikyanın və d. məlumatını əsas götürərək ayrı-ayrı bölgələrin

seymin qərarına münasibətini təsvir etmişdir. Bu məqalədə iki məqam diqqəti cəlb edir: Tiflis «hökuməti»nin qəsbkarlığına qarşı «bütün Armeniyanın» etiraz etdiyi və «müsəlmanlığın mərkəzi» Bakının bütün Şərqi Zaqafqaziyanı öz ətrafında toplayaraq Sovet Rusiyası ilə əlaqəni saxlamağa səy etdiyi göstərilir. Həmin dövrdə Cənubi Qafqazda «Armeniya» adlı inzibati-ərazi vahidi olmadığı halda Stalinin belə ifadə tərzi bolşevik liderinin ərazilərin müqəddəratı ilə bağlı baxışlarını və mövqeyini əks etdirir. Digər diqqətəlayiq məqam Bakını «müsəlmanlığın mərkəzi» kimi etiraf etməsi, Lənkəran və Qubadan Yelizavetpola (Gəncəyə) qədər bütün Şərqi Zaqafqaziyanı öz ətrafında birləşdirməsini göstərməsidir. Azərbaycan Cümhuriyyəti elan olunanda ərazisinin Zaqafqaziyanın şərqini və cənubunu əhatə etməsi «İstiqlaliyyət Aktı»nın birinci bəndində qeyd edilir. Cümhuriyyətin təbii paytaxtı olaraq Bakı uğrunda savaş aparılır. Yəni, hələ Cümhuriyyətin elanından əvvəl Stalin birmənalı olaraq bu ərazilərin Zaqafqaziya müsəlmanlarına məxsusluğunu «Pravda» qəzetinin 23 may tarixli nömrəsindəki məqaləsində göstərmişdir. Bu məqalə dərc olunandan 2 gün sonra Zaqafqaziyanı Rusiyadan ayırmaqda təqsirli bilinən seym artıq buraxılmış olur. Cənubi Qafqazda üç cümhuriyyət elan olunur, nəticədə Cənubi Qafqaz, sonradan Şimali Qafqaz Sovet Rusiyası üçün itirilmiş ərazilərə çevrilir. Mərkəzi sovet hakimiyyətinin iqtisadi gücü əsasən ucqarların hesabına olduğundan 13-26 aprel tarixində «Sovet hakimiyyətinin növbəti vəzifələri» əsərini yazarkən Lenin bölgələrin sərvətləri, o cümlədən Qafqaz neftinin hesabına Rusiya Sovet respublikasının əlverişli şəraitdə olduğunu vurğulamışdır. (4, 36-cı cild, B., 1982, s.204).

Mərkəzin ucqarların hesabına rahatlığı bolşevik hakimiyyətinin ilk dövründə güvənli, təminatlı deyildi. Baxmayaraq ki, aprelin 25-də Bakıda Xalq Komissarları Soveti təşkil edilmişdi, düz 3 ay sonra, iyulun 31-də bu qurum süqut etdi. Süqutdan 3 gün öncə, iyulun 28-ində Leninin Bakıdan aldığı teleqram Mərkəz üçün ürəkaçan olmadı: «…dünən xəbər alınmışdır ki, Bakıda ingilis-fransız imperializmi çox effektli bir manevr keçirməyə müvəffəq olmuşdur». Bakı Xalq Komissarları Sovetinin Mətbuat bürosunun göndərdiyi iri həcmli teleqramı geniş tərkibli iclasda oxuyan Lenin «bakılı yoldaşları»nın mövqeyini təqdir etmişdir: «İngilis-fransız imperialistləri ilə hər cür sazişdən qəti surətdə imtina etmək – bakılı yoldaşların atdığı yeganə düzgün addımdır, çünki ingilis-fransız imperialistlərini dəvət etmək müstəqil sosialist hakimiyyətini, - əlaqəsi kəsilmiş bir ərazidə yerləşsə də, - imrepialist müharibəsi köləsinə çevirmək deməkdir. Buna görə də, ümumi hadisələr silsiləsində Bakı hadisəsinin nə qədər əhəmiyyəti olduğuna bizim heç bir şübhəmiz yoxdur» (4, c.37, s.7-8, B., 1983).

Leninin Bakı Xalq Komissarları Sovetini «müstəqil sosialist hakimiyyəti» hesab etməsi nə faktiki, nə də məntiqi baxımdan doğru deyildir. Bakı Xalq Komissarları Soveti rəsmi bəyannaməsində Mərkəzi sovet hakimiyyəti qarşısında cavabdeh olacağını, ümumrusiya Xalq Komissarları Sovetinin bütün dekret və sərəncamlarını yerli şəraitə uyğun həyata keçirəcəyini, ümumrusiya mərkəzi hakimiyyəti ilə möhkəm əlaqə yaradacağını göstərirdi (2, s.371). Bu şərtlər daxilində nə dərəcədə «müstəqil sosialist hakimiyyəti» olmağın əskikliyini «əlaqəsi kəsilmiş bir ərazidə» yerləşməsi ilə izah etmək məntiqsiz görünsə də, bu ifadədə Lenin ağırlığı «müstəqilliyə» deyil, «sosialist hakimiyyəti»nə yönəltmişdir. Sovet Rusiyası ilə «əlaqəsi kəsilmiş bir ərazidə yerləşsə də» «sosialist hakimiyyəti» olduğunu vurğulayır. Bu amili nəzərə alaraq Bakı Xalq Komissarları Soveti də «ümumrusiya mərkəzi hakimiyyəti ilə möhkəm əlaqə yaratmağ»ı əsas vəzifələrindən biri hesab edirdi. Yəni, bu hakimiyyətin «müstəqilliyi» Rusiyanın bolşevik hakimiyyətindən deyildi. Leninin ifadə etdiyi

«müstəqillik» «imperialist müharibəsi köləsi» olmamaq, imperialist dövlətləri ilə sazişə girməmək anlamında idi. Konkret zaman kəsiyində isə Qafqazda Sovet Rusiyasının qalıb-qalmamaq müqəddəratı həll olunurdu. Bu baxımdan Leninin «Bakı hadisəsinin nə qədər əhəmiyyəti olduğuna» önəm verməsi təbii idi. Bəhs etdiyi bu məsələlərin yer aldığı nitqinin planında 2 bənddə «Bakı» adının qeyd olunması da bu əhəmiyyətdən irəli gəlir: ikinci bənddə daşnakların ingilislərlə iş birliyini nəzərdə tutaraq «Bakı (daşnaklar+ingilislər), səkkizinci bənddə «Mübarizə nəyin üstündədir? Meydana nə qoyulmuşdur?» başlığının alt bəndlərinin biri «Bakı» kimi qeyd olunmuşdur (4, c.37, B., 1983, s.571-572).

Mərkəzi sovet hakimiyyəti üçün «Bakı cəbhəsi»nin aktuallığını saxlaması «Bakı məsələsi»nin beynəlxalq məzmun aldığı dövrlə məhdudlaşmır. Bakı uğrunda aparılan diplomatik və hərbi mübarizə Rusiya sovet hökuməti üçün uğursuzluqla nəticələnsə də, bu rayon Sovet Rusiyasının nəzərində ərazisinin bir parçası olaraq qalmaqda idi. Artıq Azərbaycan Cümhuriyyətinin paytaxtı olan Bakını Sovet Rusiyası yenə də özünün bir hissəsi hesab etməkdə idi.

Bolşeviklərin Rusiya millət və xalqları, o cümlədən Qafqazla bağlı planlarında təzadlı bir yanaşma olmuşdur. Proqram, bəyanat, təbliğat üçün deyilən və yazılanlar, irəli sürülən tezislər taktiki xarakter daşımış, əməli baxımdan məqsədə müvafiq bilinməmiş, tətbiqinə qarşı zor işlədilmişdir. Çar unitarizminin məcburiliyini ittiham edən bolşevik liderləri Rusiya xalqlarının formaca könüllü, məzmunca məcburi birliyini təmin etdi. Sosialist federalizmi adlanan bu birlik sovet ordusunun yürüşləri hesabına bərqərar olundu. Cənubi Qafqaz üçün bu proses 100 il əvvəl Azərbaycana hərbi müdaxilədən başlanmışdı.

**Ədəbiyyat:**


1. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, B., 2014, I cild, 440 səh.
2. Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər. Bakı, 1960, 676 səh.
3. Sovet İttifaqı Kommunist Partiyasının qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. I hissə, 1898-1924, B., 1954, 918 səh.
4. Lenin V.İ., Əsərlərinin tam külliyyatı
5. Rəsulzadə M. Ə., Əsərləri. IV cild. Bakı, 2014, s.401
6. Rusiya Dövlət Sosial Siyasi Tarix Arxivi, f.5, s.2, iş 28, v.19-21
7. Аргументы и факты, N18, 1991


***Açar sözlər:*** *mərkəzçilik prinsipi, hakimiyyət, bolşeviklər, milli məsələ, Qafqaz, Bakı, siyasət*

**Firdovsiyya Ahmadova**
*Head of the Department of History the Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Doctor of Philosophy in History, Associate Professor*

# BOLSHEVIK PLATFORM ON THE NATIONAL QUESTION AND THE FATE OF AZERBAIJAN

## SUMMARY

Although the Russian Empire did not collapse as a result of national liberation movements, national awakening in captive nations, self-governance and the struggle for national interests against the autocratic regime were a consistent and growing process. The Russian Social Democrats, who made the nation's right to self-determination as a main slogan, always took under control the national question both before and during the reign. Political speculation on the national question is reflected in the theoretical legacy of the Bolshevik elite.

The Bolsheviks, who considered the principle of centralism as a main criterion for the successful politics, did not accept any single divisions on a national basis. The impact of the unification policy of the national-party organizations of the bolsheviks to the Muslims of the Caucasus was their unity with the Armenian organization in the Caucasus. While the organization of the Armenian Social Democrats in the Caucasus was adopted at the level of the central committee of the party, the other main local organisations such as Baku and Tiflis organizations, were mainly non-muslim in terms of ethnic composition.

In the first months of the Bolsheviks' coming to power, Azerbaijani national forces believed in their program and hoped that they would gain autonomy. The processes taking place in Russia, the behavior of the Bolsheviks in the Caucasus, and especially in Baku, provoked the Muslim national politicians, and the inability of the new government to keep its promises and contradictions between their statements and actions threatened to enslave the Azerbaijani people again.

***Keywords:*** *principle of centralism, power, Bolsheviks, national question, Caucasus, Baku, politics*

**Фирдовсия Ахмедова**
*Заведующая кафедрой Истории Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по истории, доцент*

# БОЛЬШЕВИСТСКАЯ ПЛАТФОРМА В НАЦИОНАЛЬНОМ ВОПРОСЕ И СУДЬБА АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

Хотя Российская империя не развалилась в результате национально-освободительных движений, национальное пробуждение,

Национальное самосознание порабощенных наций и борьба за национальные интересы против самодержавного режима были последовательным и растущим процессом. Российские социал-демократы, которые сделали право наций на самоопределение одним из главных лозунгов борьбы, всегда учитывали национальный вопрос как до, так и в период своего правления. Политическая спекуляция по национальному вопросу достаточно отражена в теоретическом наследии большевистской элиты.

Большевики, считавшие принцип централизма основным условием для успешной политики, не принимали ни одного деления на национальной основе. Ударом политики большевиков по объединению национально-партийных организаций для мусульман Кавказа стало объединение с армянской организацией на Кавказе. На Кавказе если по национальной принадлежности армянская организация социал-демократов принималась на уровне центрального комитета партии, то бакинские и тифлисские организации, которые действовали активно как местные организации, по национальному составу были в основном немусульманскими.

В первые месяцы прихода к власти большевиков азербайджанские национальные силы верили их программе и надеялись получить автономию. Процессы происходящие в России, поведение большевиков на Кавказе, и особенно в Баку, беспокоили мусульманских национальных политиков, а неспособность новой власти сдержать свои обещания, противоречия между их заявлениями и действиями создавали опасность для азербайджанских национальных сил снова попасть под порабощение.

***Ключевые слова:*** *принцип централизма, власть, большевики, национальный вопрос, Кавказ, Баку, политика*

# VƏTƏN TARİXİ
# NATIONAL HISTORY

UOT 94 (479.24)

**EMİN MƏLİKOV**
**AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun**
**elmlər doktoru proqramı üzrə doktorantı, tarix üzrə fəlsəfə doktoru**
*e-mail: eminmelikov79@gmail.com*

## AZƏRBAYCAN RESPUBLİKASININ CƏNUB-ŞƏRQ BÖLGƏSİNDƏ YEYİNTİ SƏNAYESİNİN İNKİŞAFI VƏ BU İSTİQAMƏTDƏ UĞURLU İQTİSADİ SİYASƏT (2003-2018)

Ölkədə həyata keçirilən Dövlət Proqramlarına uyğun olaraq regionlarda yeni emal müəssisələri yaradılmış xüsusilə yeyinti sənayesi inkişaf etmişdir. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərdə hər bir bölgənin iqtisadi imkanları nəzərə alınmaqla prioritet sahələrin inkişafı nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2004-cü il 11 fevral tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2018-ci illər)" təsdiq edilməsi haqqında Fərmanı respublikanın cənub-şərq bölgəsində yeyinti sənayesinin inkişafını sürətləndirdi. Ölkə başçısı Prezident İlham Əliyev tərəfindən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasını sürətləndirmək məqsədi ilə 2005-2008-ci illər ərzində 17 Sərəncam imzalanmışdır. Həyata keçirilən tədbirlər müsbət nəticə vermiş ölkə üzrə sənaye sektorunda istehsal olunan məhsul 21,8 milyard manat təşkil etmiş və 2008-ci ildə ümumi daxili məhsulun 57,4 faizinə bərabər olmuşdur [13, c.8]. Belə ki, yeyinti sənayesi sahəsində yeni yaradılan müəssisələr və istehsal sahələrinin bərpa edilməsi ilə bu sahə respublikanın bütün bölgələrində inkişaf etmişdir. 2004-cü ildə Lənkəran rayonunda "Vita", "Lənkəran-süd" ASC, "Lüks", "Çinar" və "Maz" müəssisələri yaradılmış burada konservləşdirilmiş meyvə-tərəvəz məhsulları istehsal edilmişdir. Yerli fermerlər istehsal etdikləri məhsulları istehsal müəssisələrinə təhvil verərək kənd təsərrüfatının inkişafına da şərait yaratmışlar. 2005-ci ilin birinci yarısında "Vita" MMC tərəfindən 880 q. dəmir bankalarda 83000 ədəd tomat pastası istehsal edilmişdir. "Çinar" emal və istehsal müəssisəsində 7400 ədəd qazlaşdırılmış su istehsal edilərək yerli bazara çıxarılmışdır. Rayonun "Digah tərəvəz", "Real" MMC, "Optimal" və "Lənkəran konserv kombinatı" emal sənayesini genişləndirmiş və 9500 ton tərəvəz məhsulunu emal edərək bazara çıxarmışdır [1]. 2006-cı il avqustun 11-də "Palmalı" şirkətlər qrupu tərəfindən Lənkəran süd zavodu fəaliyyətə başlamışdır. Müasir standartlara uyğun qurulan zavodda 15 çeşiddə süd məhsulları istehsal edilmişdir. Günlük emal gücü 50 ton olan zavodun texniki avadanlığı Türkiyə və Almaniyadan gətirilmişdir. Rayonun ən böyük konserv emal müəssisəsi olan "Gilan" MMC-də il ərzində 110 ton yeyinti məhsulu istehsal edilmişdir. 2006-cı ildə rayonda "Xəzər balıq" MMC, "Kaspi" və "ABSK" müəssisələri tərəfindən balıq emalı həyata keçirilmişdir. Bu müəssisələr sənaye ovu və emalı ilə yanaşı balıqartırma zavodlarını nərə cinsli törədici balıqlarla da təmin edir. 2006-cı ildə Lənkəran rayonunda balıq ovu və emalı sahəsində 5 özəl şirkət hüquqi şəxs qismində fəaliyyət göstərmişdir. Bu şirkətlər tərəfindən 2451,3

ton müxtəlif balıq məhsulları ovlanaraq emal edilmişdir. Rayonda kürü emalı müəssisələri ilə yanaşı hisləmə və balıq unu hazırlayan zavodlar fəaliyyət göstərmişdir.

2005-ci ildə Masallı rayonunda "Nur-M" konserv zavodu fəaliyyətə başlamışdır. "Nihad", "Altun Metal" müəssisələri qazlı su və müxtəlif şirələrin istehsalı ilə məşğul olmuşdur. Həmin ildə konservləşdirilmiş meyvə-tərəvəz məhsulu istehsalı sahəsində "Xudayar" MMC-yə məxsus konserv sexi fəaliyyətə başlamışdır. "Nur-M" MMC tərəfindən tomat, müxtəlif konservlər və un məmulatları istehsal olunur. İstehsal olunan məhsullar Rusiya və Bolqarıstana ixrac olunur. Müəssisə tərəfindən konservlərin keyfiyyətini artırmaq məqsədilə 320 torpaq mülkiyyətçisi ilə müqavilə bağlayaraq 300 hektar sahədə tərəvəz, bostan məhsulları əkilmişdir. Əkilən məhsullar zavodda qablaşdırılaraq satışa çıxarılır. Burada mayonez sexi də fəaliyyət göstərir ki, istehsal olunan məhsul yüksək keyfiyyətinə görə seçilir. Rayonda süd soyuducu sexi və 4 pendir istehsalı müəssisəsi daxili tələbatı ödəməkdən ötrü məhsul istehsal edir. "Tale-E", "Dastəvənd" MMC-tərəfindən rayonda müxtəlif süfrə suları istehsal olunmuşdur. Rayonda mövcud yeraltı suların pasportlaşdırılması məqsədilə 42 quyu üzərində invertarlaşdırma işləri başa çatdırılmışdır. I Dövlət Proqramına uyğun olaraq Masallı şəhərində şirniyyat istehsalı müəssisələri fəaliyyətə başlamışdır. Masallı şəhərində bölgənin ən böyük şirniyyat emal müəssisəsi fəaliyyət göstərərək burada müxtəlif növdə yeyinti məhsulları istehsal olunur. Şərəfə kəndində süd soyuducu və pendir sexi fəaliyyətə başlamışdır. Rayonun Boradigh, Qəriblər və Qızılağac kəndlərində pendir istehsal edən sexlər yaradılmışdır.

2005-ci ildə Astara rayonunda sahibkar Osmanağa Qurbanov tərəfindən tərəvəz və sitrus meyvələri emal edən "Astara 1" və "Astara 2" zavodları fəaliyyətə başlamışdır. "Astara-1" zavodu Telman, Pensər, Siyəkəran, Kakalos, Şahağacı və "Astara-2" zavodu Maşxan, Ərçivan, Təngərüd, Supəribağ, Kijəbə, Səncərədi, Süvi, Kələdəhnə kəndlərinin ərazisində yetişdirilən tərəvəz sitrus meyvələrini qəbul edərək emal edəcəkdir. Emal müəssisələri gün ərzində 300 ton tərəvəzi qəbul etmək imkanlarına malikdir. Zavod rəhbərliyi 30 fermer təşkilatlarına 150 milyon manat faizsiz kredit vermişdir [2]. Astara rayonu üzrə balıqçılığın və balıq emalı sənayesinin yenidən qurulması və fəaliyyətinin genişləndirilməsinin dəstəklənməsi ilə əlaqədar 20 balıqçı vətəgəsi açılmış, 2 ədəd 10 tonluq soyuducu quraşdırılmışdır. Rayonda "Xəzərbalıq" MMC və "Kaspi" ABSK balıqçılıqla məşğul olaraq, axçalı balıq və kilkə balıq növlərinin ovlanması işini təşkil etmişdir. 2006-cı ilin III rübündə balıq ovlamaqdan ötrü 2 ədəd taxta kolaz və 6 qazandan ibarət 2 nevrot tikilib quraşdırılmışdır. Bölgədə Lənkəran rayonunda balıqçılıq təsərrüfatı daha sürətlə inkişaf etmiş və balıqçılıq təsərrüfatları yaranmışdır. 2008-ci ildə "Xəzərbalıq", "Kaspi" və "Sara" kimi balıqçılıq təsərrüfatlarında balıq məhsulları emal edilmişdir. "Xəzərbalıq" MMC-nin emal müəssisəsində 228,8 ton kilkə, 60,7 ton axçalı balıq 31,5 ton nərəcinsli balıq ovlanmış, 24 ton balıq unu, 0,37 ton balıq yağı, 83,3 ton kilkə, 59,8 ton axçalı balıq, 24,3 ton nərə cinsli balıq, 1,53 ton qara kürü istehsal olunmuşdur. "Kaspi" müəssisəsində 44,4 ton balıq, "Sara" emal müəssisəsi tərəfindən 1670 kq. balıq ovlanaraq emal edilmişdir [3].

2008-ci il oktyabrın 8-də Prezident İlham Əliyev Lənkəran şəhərində "Nur-süd" MMC-nin süd zavodunun açılışını etmişdir. Zavoda 32 milyon manat sərmayə qoyulmuş və bu da beynəlxalq standartlara uyğun gündə 15 ton süd emal etmək gücünə malikdir. Zavodda 25 çeşiddə süd məhsulları istehsal edilmişdir. Bölgədə süd istehsalını artırmaq məqsədilə zavod rəhbərliyi tərəfindən 40 milyon avroluq layihə hazırlanmışdır. Layihənin ilkin mərhələsinə görə Masallı rayonunun Miyanku

kəndində heyvandarlıq təsərrüfatının yaradılması və gündə 25-30 litr süd verən 600 baş inək gətirilməsi üçün müqavilə bağlanmışdır. 2008-ci ilin ilk rübündə zavodda 10685,5 litr süd, 7482 kq süd məhsulları istehsal edilərək bazara çıxarılmışdır [4].

2009-cu ildə Lerik rayonunun Pirasora kəndində "Xan su", Qosmalyan kəndində "Zuvand", "Zərin qala", "Lik-Aqua", Mondigah kəndində "Mondigah" və "Lider" adlı süfrə suları qablaşdırılaraq satışa çıxarılmışdır. Təsərrüfatlarda istehsal olunan məhsulların tədarükü və meyvə-tərəvəz konservlərinin istehsal məqsədilə "Azərbaycan-Türkiyə iş Bankı"ndan alınmış 48 min manat kredit hesabına rayonda konserv zavodu işə salınmışdır.

2010-cu ilin iyunun 25-də Lənkəran rayonunun Sütəmurdov kəndi ərazisində "Gilan" konserv zavodu fəaliyyətə başlamışdır. Zavodun açılışında iştirak edən Prezident İlham Əliyev demişdir: "Zavod əlbəttə ki, Lənkəranda sənayenin inkişafna xidmət göstərəcəkdir və yəqin ki, bu rayonda, eyni zamanda, bölgədə, bütün cənub zonasında kənd təsərrüfatının inkişafına təkan verəcəkdir. Çünki fermerlər artıq öz məhsullarını bu zavoda gətirib təhvil verəcəklər, pulunu alacaqlar və beləliklə, kənd təsərrüfatının inkişafı daha da sürətlə gedəcəkdir. Belə zavodların Azərbaycanda yaradılması çox əlamətdar hadisədir, aparılan iqtisadi siyasətin nəticəsidir" [5]. Ölkə başçısının bölgəyə göstərdiyi diqqət, qayğı və həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində yeni sənaye müəssisələri yaradılmışdır. Buna misal olaraq konserv zavodu müasir avadanlıqla təmin edilmiş və ekoloji cəhətdən təmiz milli məhsul istehsal etmək daxili tələbatın təmin edilməsində əsas rol oynayır. Zavod saatda 30 ton məhsul emal etmək gücünə malikdir və tutumu 2 min ton olan 9 kameralı soyuducu anbar burada inşa edilmişdir. 2010-cu ildə Lənkəran rayonunun Sütəmurdov kəndində yeni çay fabriki fəaliyyətə başlamışdır. Fabrik saatda 2,5 ton yaşıl çay yarpağını qəbul etmək gücü ilə yanaşı illik istehsalı 100 tondur. Fabrikdə istehsal olunan çay "İmperial" və "Lənkəran" adı ilə bazara çıxarılmışdır. Lənkəran rayon ərazisində yeyinti sənayesi ilə İstisu qəsəbəsində "1 saylı çay fabriki", Sütəmurdov kəndi ərazisində "Mari" müəssisəsi, Bürcəli kəndi ərazisində "Xanbulaq" MMC, Nərimanabad qəsəbəsində "Orienta" KM və "Xəzərbalıq" MMC, Lənkəran şəhəri ərazisində "Lənkəran çörək" ASC, "Həyat və "Ş-Mari" kimi istehsal müəssisələri məşğul olmuşdur.

2010-cu il iyunun 25-də Prezident İlham Əliyev Lənkəran şəhərində "Palmalı Holdinq" şirkətlər qrupuna daxil olan "Palfood" dondurma fabrikinin açılışında iştirak etmişdir. Burada "Türk üsulu", "Palegeriya", "Buz qələm" adlarında 28 çeşiddə dondurma istehsal edilmişdir. Fabrikin 720 $m^2$ olan soyuducu anbarında 250 ton qablaşdırılmış dondurma saxlamaq mümkündür. Rayonda yeyinti sənayesinin inkişafı nəticəsində "Lənkəran konserv" ASC-də 460 ton, "Lənkəran-süd" MMC-də 170 ton, "Vita" MMC-də 26 ton, "Çinar" müəssisəsində 48 ton tomat və 4400 dekolitr sərinləşdirici içki və "Mari" emal müəssisəsindən 9000 dekalitr qazlaşdırılmış su istehsal edilərək bazara çıxarılmışdır [11].

2010-cu ildə Cəlilabad rayonunda "Cəlilabad şərab 2" ASC-nin zavodu fəaliyyətə başlamışdır. Zavodun istehsal gücü üzüm qəbulu və emalı üzrə ildə 8 min ton, şərab məhsulları üzrə 560 dekalitr, konyak spirti üzrə 800 dekalitr, şərabın qablaşdırılması üzrə saatda 3500, tünd içkilərin qablaşdırılması üzrə isə 1500-1800 butulkadır [7]. Zavodun istehsal sahəsinin ərazisi 7,4 hektardır ki, bununla yanaşı burada 300 hektar sahədə bar verən üzüm bağları salınmışdır. Rayonun Ocaqlı kəndində 10 min tonluq taxıl məhsullarının saxlanılması üçün anbar tikilmişdir. Cəlilabad şəhərində 100 tonluq dəyirmanın fəaliyyətə başlaması ilə bölgənin

un məhsulu ilə təminatı xeyli yaxşılaşdırılmışdır. Muğan və Alar kəndlərində 2000 tonluq soyuducu kameralarının fəaliyyətə başlaması ilə yeyinti məhsullarının uzun müddətli saxlanılmasında mühüm rol oynamışdır. 2012-ci ilin iyulun 31-də Cəlilabad şəhərində "Avanqard" MMC-nin un fabriki fəaliyyətə başlamışdır. Müasir texnologiyaya əsaslanan sahələrin Türkiyənin "OBİAL" şirkətinin avadanlığı əsasında qurulumuşdur. Fabrikin taxıl anbarının hər biri 2 min ton olmaqla beş silodan ibarət olmuşdur. Fabrikə daxil olan taxıl xüsusiyyətlərinə və növünə görə elevatorlar vasitəsilə bu silodlara ötürülür və silodlarda saxlanılan taxıl məhsulu tam avtomatlaşdırılmış üsulla istehsal olunur. Fabrikdə "İpək" və "Ocaqlı" adı ilə un məhsulları istehsal olunmuşdur. Rayon iqtisadiyyatında sənaye sahəsi ilə məşğul olan fərdi sahibkarların, fiziki şəxslərin sayı ildən-ilə artır. Belə ki, 2000-ci ildə sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların sayı 8 nəfər idisə, 2012-ci ildə onların sayı 25 nəfərə çatmışdır [7, s.88]. II Dövlət Proqramının həyata keçirilməsi nəticəsində yeyinti sənayesinin bölgədə sürətlə inkişafına şərait yaranmışdır. Belə ki, şərab istehsalını artırmaq məqsədilə rayonun Ocaqlı kəndində müasir standartlara cavab verən üzüm emalı zavodu tikilərək, istifadəyə verilmişdir. Bölgənin əsas şərab istehsalı Cəlilabad rayonunda həyata keçirilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 3749 nömrəli və 2013-cü il 30 dekabr tarixli 3989 nömrəli Sərəncamları ilə Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunun Cəlilabad Dayaq məntəqəsinin inzibati binasının, laboratoriya, anbar və qarajının tikintisinə 304 min manat vəsait ayrılmışdır. Müasir standartlara cavab verən laboratoriyada istehsal olunan şərab məhsullarının keyfiyyətli yoxlanılması ilə yanaşı şərab emalı müəssisələrinin məhsulları nəzarətdə saxlanılır. Rayonun Qarazəncir kəndində süd məhsullarının emalı sexi istifadəyə verilmişdir. Müəssisənin istehsal gücü 450-500 kq. təşkil edir. Rayonda yaradılan yeyinti sənaye müəssisələrinin fəaliyyəti nəticəsində sənaye məhsullarının həcmi 2006-cı ildəki 631000 manatdan 2010-cu ildə 1.262000 manata çatdırılmış və son 4 ildə yeyinti sənaye istehsalı 2 dəfədən çox artmışdır. 2007-2010-cu illər ərzində rayonda kənd təsərrüfatı istehsalçıları tərəfindən 397,1 min ton kartof, 5476 ton meyvə, 199,4 min ton süd məhsulları istehsal edilmişdir [14].

2012-ci ildə Masallı şəhərində "Maestro" MMC-nin soyuducu anbarı istifadəyə verilmişdir. Layihəyə 5 milyon manat investisiya qoyulmuşdur ki, bunun 1 milyon manatı Sahibkarlığa Kömək Milli Fondunun güzəştli krediti təşkil edir. 2013-cü ildə "Nur-M" konserv zavodunun istehsal gücü artırılmış, və yeni yeyinti məhsullarının istehsalına başlanılmışdır. Rayonda "Cay-2 ASC" və "Kolatan cay ASC" bölgənin əsas yeyinti sənayesini təşkil edən cay istehsalının artırılmasında mühüm rol oynayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanan 2016-cı il 13 iyun tarixli "Masallı rayonunda sənaye məhəlləsinin yaradılması haqqında" Sərəncam bölgənin iqtisadi cəhətdən inkişafına şərait yaratmışdır. Sərəncama uyğun olaraq rayon ərazisində sənaye məhəlləsinin yaradılması məqsədi ilə 10 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsi ayrılmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 oktyabr 2016-cı il tarixli 5449 nömrəli Sərəncamına əsasən həmin torpaq sahəsinin kateqoriyası dəyişdirilərək sənaye təyinatlı torpaq kateqoriyasına keçirilmişdir. Sənaye məhəlləsinin yaradılması bölgədə yeyinti sənayesinin inkişafına da şərait yaradacaqdır. Burada fəaliyyət göstərən müəssisələr ölkə iqtisadiyyatının inkişafına və dayanıqlığına təkan verəcəkdir.

Bölgənin əsas yeyinti istehsalı məhsulu çaydır ki, bunun da sənaye üsulu ilə istehsalı ilbəil artır. Ən böyük çay fabrikləri Lənkəran

və Astara rayon ərazisində yerləşir. 2015-ci ildə Astara rayonunun Çayoba kəndində beynəlxalq standartlara uyğun çay fabriki fəaliyyətə başlamışdır [8]. Fabrikin cay emalı avadanlıqları Koreya, Yaponiya və Almaniyadan gətirilmişdir. Fabrikin günlük emal gücü 10 tondur ki, mövsüm ilə əlaqədar istehsalı artırmaq mümkündür. Fabrikdə "AzTea" və "Astaraçay" markalı çay məhsulları satışa çıxarılır. Lənkəran rayon ərazisində çay emalı ilə məşğul olan ən böyük zavod "Ova" MMC tərəfindən yaradılmışdır. Müəssisənin illik istehsal gücü 5500 tondur və yerli bazarla yanaşı burada istehsal olunan çay məhsulları xarici bazara çıxarılır. Bununla yanaşı rayonun Hafthoni qəsəbəsində istehsal gücü 750 ton olan "Lənkəran-çay 5" və Sütəmurda kəndi ərazisində olan istehsal gücü 500 ton olan çay emalı zavodları bölgə iqtisadiyyatının inkişafında əsas rola malikdir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramında Milli Aerokosmik Agentliyinin Lənkəran şəhərində yerləşən xüsusi konstruktor Texnoloji Bürosunda "Yeyinti və digər sənaye sahələrinin inkişafının dəstəklənməsi" üzrə tədbirlərin icrası nəzərdə tutulmuşdur.

2017-ci ilin 6 ayı ərzində Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına Lənkəran rayonu üzrə sənaye sahələrinin inkişafı ilə bağlı investisiya layihəsinin maliyyələşdirilməsinə 5 min manat güzəştli kredit vəsait ayrılmışdır [9, s.441]. Rayonda çörəyin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə gündəlik istehsal gücü 15 ton olan "Həyat" MMC və gündəlik istehsal gücü 10 ton olan "Rövşad" MMC-nin çörək zavodları fəaliyyətə başlamışdır. 2017-ci il sentyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Lənkəran şəhərində "Cənub-Arqo" MMC-nin çəltik zavodunun açılışında iştirak etmişdir. Zavod yeyinti məhsulu olan düyü istehsalı ilə bağlı bölgənin müasir standartlara uyğun emal müəssisəsidir. Zavodun aylıq emal gücü 300 ton və düyüqurutma gücü isə 900 tondur [10]. Emal müəssisəsində istehsal olunan düyü məhsulları artıq "Made in Azerbaijan" brendi ilə xarici bazara çıxaraq ölkə iqtisadiyyatının möhkəmlənməsində mühüm rol oynayır. 2017-ci il sentyabrın 6-da Cəlilabad rayonunda "Avanqard" MMC-nin dənli və paxlalı bitgilərin təmizlənməsi və qablaşdırılması zavodu istifadəyə verilmişdir. Zavod yerli xammal bazası əsasında fəaliyyət göstərir. Emal kompleksinin müasir standartlara cavab verən taxıl anbarı və dəyirmanı Türkiyə istehsalı olan avadanlıqlarla quraşdırılmışdır. Taxıl anbarının tutumu 10 min ton, müasir dəyirman kompleksinin emal gücü isə saatda 30 tondur [12]. 2017-ci ildə rayonun yeyinti sənaye müəssisələrində 1174 ton meyvə-tərəvəz konservi, 750 ton çörək, 2301 ton qablaşdırılmış çay, 6,6 ton kərə yağı, 285 ton pendir və kəsmik, 2416 ton süd məhsulu, 156 ton dondurulmuş balıq məhsulu istehsal edilmişdir. Müasir tələblərə cavab verən yeyinti emal müəssisələrinin yaradılması və yeyinti istehsalının artması ölkəni xarici idxaldan asılılığını azaldır, keyfiyyətli yeyinti məhsulu və tələbatın ödənilməsini təmir edir. Bu məqsədlə bölgədə yaradılan emal müəssisələri yeni iş yerlərinin açılması və əhalinin sosial-rifahının yaxşılaşdırılmasına kömək etmişdir.

Beləliklə, bölgədə Dövlət Proqramlarının icrası və yerli sahibkarlar tərəfindən yeyinti məhsulları istehsal edən sənaye müəssisələri yaradılmışdır. Bölgənin kənd təsərrüfatı sahəsi üzrə istehsallaşmasına baxmayaraq Lənkəran, Masallı, Astara və Cəlilabad inzibati rayonları ərazisində yeyinti məhsulları istehsal edən emal zavodları yaradılmışdır. Bölgədə istehsal olunan yerli yeyinti məhsulları xarici bazara çıxarılmışdır. Ölkədə istehsal olunan milli məhsulun artımında bölgənin istehsal çəkisi əhəmiyyətli dərəcədə artmış və ölkə iqtisadiyyatının inkişafına və dayanıqlığına şərait yaranmışdır

**Ədəbiyyat:**


1. Lənkəran İcra Hakimiyyətinin cari arxivi. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı ilə bağlı görülən işlər barədə məlumat (2004-2008-ci illər).
2. Telmankənd Konserv zavodu müasir tələblərə cavab verən müəssisədir // "Xalq qəzeti", 2005, 9 sentyabr.
3. Lənkəran rayon İcra Hakimiyyətinin cari arxivi. Sosial-iqtisadi məsələlər şöbəsinin 2008-ci ildə gördüyü işlər barədə arayış.
4. "Nur-süd MMC-nin" süd məhsulları xarici bazara çıxacaqdır // "Xalq qəzeti", 2008, 9 oktyabr.
5. Prezident İlham Əliyev Lənkəranda yeni konserv zavodunun açılışında iştirak etmişdir // "Xalq qəzeti". 2010, 26 iyun.
6. Prezident İlham Əliyev «Cəlilabad şərab-2» ASC-nin açılışında iştirak etmişdir // "Xalq qəzeti". 2010, 1 may.
7. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Cəlilabad rayonunun statistik göstəriciləri (2007-2012). Cəlilabad-2013, 107 s.
8. Lənkəran rayon İcra Hakimiyyətinin cari arxivi. 2015-ci il üçün rayon icra hakiminin illik hesabatı.
9. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Regionların sosial-iqtisadi inkişafı (2014-2018) / Statistik məcmuə, Bakı, iyul-2017, 593 s.
10. Lənkəran düyüsü dünya bazarına çıxacaq // "Azərbaycan" qəzeti. 2017, 6 sentyabr.
11. Lənkəran rayon İcra Hakimiyyətinin cari arxivi. Sosial-iqtisadi məsələlər şöbəsinin 2010-cu ildə gördüyü işlər barədə arayış.
12. Regionlarda modern emal kompleksləri genişləndirilir // "Azərbaycan" qəzeti. 2017, 6 sentyabr.
13. Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) icrasının yekunları: uğurlu siyasət nəticələri. Azərbaycan Respublikası iqtisadi inkişaf Nazirliyi, Bakı: 2009, 79 s.
14. Cəlilabad İcra Hakimiyyətinin cari arxivi. "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramının (2007-2010)" icra vəziyyəti ilə bağlı Cəlilabad rayonunda görülmüş işlər barədə məlumat.


***Açar sözlər:*** *qida sənayesi, zavod, dövlət proqramı, iqtisadi inkişaf, region*

**Emin Malikov**
*PhD in History, Postdoctoral Researcher, the Institute of History named after A.A.Bakikhanov, Azerbaijan National Academy of Sciences*

# THE DEVELOPMENT OF THE FOOD INDUSTRY IN THE SOUTH-EAST REGION OF THE REPUBLIC OF AZERBAIJAN AND SUCCESSFUL ECONOMIC POLICY IN THIS AREA (2003-2018)

## SUMMARY

State Programs implemented under the supervision of the President of the Republic of Azerbaijan Ilham Aliyev play a key role in the economic development of the country. At the same time, new enterprises established in the south-east region of the country have improved the social welfare of the population and increased exports of products to foreign markets. Successful economic policy has been implemented with the expansion of the region's industrial potential. New industrial enterprises were established in the main districts of the region - Lankaran, Astara, Masalli, Jalilabad, Lerik and Yardimly, and annually there has been observed increase in development. State investment projects have given impetus to the development of the existing sector.

***Keywords:*** *food industry, plant, state program, economic development, region*

**Эмин Меликов**
*Докторант Института Истории имени А.А.Бакиханова*
*Национальной Академии Наук Азербайджана, доктор философии по истории*

# РАЗВИТИЕ ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ В ЮГО-ВОСТОЧНОМ РЕГИОНЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И УСПЕШНАЯ ЭКОНОМИЧЕСКАЯ ПОЛИТИКА В ЭТОМ НАПРАВЛЕНИИ (2003-2018)

## РЕЗЮМЕ

Государственные программы, осуществляемые под контролем Президента Азербайджанской Республики Ильхама Алиева, играют ключевую роль в экономическом развитии страны. Вместе с тем, созданные новые предприятия в юго-восточном регионе Республики, повысили социальное благосостояние населения, увеличили экспорт продукции на зарубежные рынки. С расширением промышленного потенциала региона проводилась успешная экономическая политика. В Лянкяране, Астаре, Масаллы, Джалилабаде, Лерике, Ярдымлы, являющимися основными районами региона, созданы новые промышленные предприятия и наблюдается рост в ежегодном развитии. Осуществляемые государством инвестиционные проекты дали толчок развитию существующей сферы.

***Ключевые слова:*** *пищевая промышленность, завод, государственная программа, экономическое развитие, регион*

# VƏTƏN TARİXİ
# NATIONAL HISTORY

UOT 94 (479.24)

**ЭМИН ГАДЖИНСКИЙ**
**Доцент кафедры Истории Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по истории**

**АЛИ АЛИЕВ**
**Научный сотрудник Бакинской Музыкальной Академии имени У.Гаджибекова**

## АЗЕРБАЙДЖАНО-АМЕРИКАНСКИЕ ОТНОШЕНИЯ В ПЕРВЫЕ ДЕСЯТИЛЕТИЯ XXI ВЕКА: НАПРАВЛЕНИЕ, ОСОБЕННОСТИ И СПЕЦИФИКА

Крах мировой системы социализма и последовавший за ним развал «сверхдержавы» СССР кардинальным образом изменили самооценку Соединенных Штатов Америки своего нового положения в мире. Обретя статус «единственной сверхдержавы», США стали на путь реализации стратегии, мирового преобладания и установления контроля над всей системой международных отношений. США получили возможность реализовать на практике свое превосходство, в различных регионах мира, в политике, военной сфере, экономике, культуре.

В начале XXI столетия значительно усилились притязания США на роль единственного гегемона в глобальной системе международных отношений, навязывания американских ценностей всему мировому сообществу, народам и нациям. США, путём заключения неравноправных договоров и соглашений в политической, экономической и других сферах, удалось вовлечь в орбиту своих приоритетов отдельные государства и регионы Европы и Азии. В тоже время, американская модель сотрудничества отношений не была воспринята отдельными странами, которые, исходя из собственных национальных приоритетов, избрали путь налаживания равноправного взаимовыгодного, основанного на нормах международного права, сотрудничества с США.

К числу таких стран следует отнести Азербайджанскую Республику. США, в декабре 1991 года признали независимость государств образовавшихся на постсоветском пространстве. В марте 1992 года США установили дипломатические отношения с Азербайджаном и в столицах обеих государств были открыты посольства. Однако, в тот период, из-за некомпетентности в области государственного строительства, отсутствие должного понимания приоритетов и принципов международной политики и дипломатии, правительства Народного фронта отношения между двумя странами носили в основном декларативный характер.

В июле 1992 года, Конгресс США принял 907-ю поправку к «Акту защиты свободы», в результате которой Азербайджанская Республика была лишена действенной американской государственной экономической и гуманитарной помощи, в которой Азербайджан нуждался на фоне армяно-азербайджанского Нагорно-Карабахского конфликта.

Лишь только после возвращения к власти, в июне 1993 года Гейдара Алиева, азербайджано-американские отношения

стали приобретать целенаправленный, взаимовыгодный характер. США оказали большую дипломатическую и финансовую поддержку в деле заключения и реализации «Контракта века», строительстве основного нефтепровода «Баку-Тбилиси-Джейхан». К началу 2000-х годов благодаря титанической деятельности президента Азербайджана Гейдара Алиева, азербайджано-американские отношения достигли уровня стратегического характера во всех областях межгосударственного сотрудничества.

События 11 сентября 2001 года во многом изменили видение Соединёнными Штатами Америки вопросов будущего мирового сообщества, развития отношений между государствами. США встали на путь свержения неугодных им режимов в Ираке, Афганистане, Ливии и других государствах.

Азербайджанская Республика была в числе первых стран, которые заявили о полной поддержке принципов и действий Соединённых Штатов Америки в борьбе с международным терроризмом. Президент Азербайджана Гейдар Алиев, 12 сентября 2001 года, выступил с заявлением в связи с террористическими актами и заявил о готовности Азербайджана к сотрудничеству с США в борьбе с международным терроризмом (2, с.865-866).

Азербайджан открыл своё воздушноё пространство для США, в его борьбе с терроризмом, в рамках действий международной коалиции. Позиция Азербайджана и его всемерная поддержка усилий США в борьбе с международным терроризмом имело одним из существенных следствий тот факт, что 8 влиятельных конгрессменов обратились к государственному секретарю США К. Пауэллу с предложением отмены действие 907-ой поправки «Акту защиты свободы». В октябре 2001 года Сенат США предоставил право президенту принять решение по приостановлению 907-ой поправки (4).

В декабре 2001 года состоялся первый визит министра обороны США Д.Рамсфельда в Азербайджан. Целью визита было объявлено обсуждение вопроса об участии воинского контингента из мусульманских стран, Турции, Иордании, Азербайджана в миротворческих операциях Соединённых Штатов на территории Афганистана.

Результатом обсуждения стало подписание 25 января 2002 года президентом США Д.Бушем документа, в котором предусматривалась отсрочка на 1 год действия 907-ой поправки (3, с.47). Приостановка действий 907-ой поправки создали условия для расширения сотрудничества Азербайджана с США в сфере безопасности и военной области.

За период прошедший с событий 11 сентября значительно расширилось сотрудничество в сфере безопасности между министерств обороны США и Азербайджана. Американское правительство выделило министерству обороны Азербайджана для обеспечения нужд сферы безопасности 4,4 млн. долл. В 2002 году Азербайджан участвовал в 11 программах в сфере обороны и безопасности (19, с.7).

В ноябре 2002 года Милли Меджлис Азербайджана принял решение об участии четырёх взводов азербайджанской армии под общим командованием структур НАТО в миротворческих операциях в Афганистане (1, с.43).

США уделяли большое внимание участию Азербайджана в миротворческих операциях и обеспечения региональной безопасности в качестве стратегического союзника. Отмеченное обстоятельство особенно проявилось во время событий произошедших в Ираке в начале 2003 года. Благодаря усилиям США была создана масштабная по количеству участников коалиция стран, которые заявили о своей готовности участвовать в составе американских войск в борьбе против Ирака.

Азербайджан поддержал антитеррористическую операцию международной коалиции против Ирака. Режим Саддама Хусейна в Ираке был свергнут в марте 2003 года.

27 марта 2003 года правительство США выступило с заявлением, в котором выразило благодарность странам-участникам коалиции, в том числе и Азербайджану за помощь, в свержении режима С. Хусейна. После свержения режима Хусейна, миротворцы из Азербайджана были направлены в Ирак (14).

Большое значение для расширения азербайджано-американских связей имел визит в США в феврале 2003 года президента Азербайджана Гейдара Алиева. Президент Азербайджана принял участие в международной конференции «Энергетический коридор Запад-Восток реальность». В ходе конференции были обсуждены вопросы, связанные со строительством основного экспортного нефтепровода Баку-Тбилиси-Джейхан и газопровода Баку-Тбилиси-Эрзерум (15).

В августе 2003 года Азербайджан посетила делегация американских конгрессменов во главе с К. Велдоном. Делегация была принята премьер-министром Азербайджана Ильхамом Алиевым. Американская делегация выдвинула предположение о создании рабочей межпарламентской группы из представителей американского конгресса и Милли Меджлиса (9).

К числу проблем, которые во многом определяют специфику и характер отношений между Азербайджаном и США следует отнести проблему Нагорного Карабаха. Начиная с 1992 года, США являются одним из сопредседателей Минской группы ОБСЕ. Следует отметить, что со времени установления двусторонних дипломатических отношений США на различных уровнях заявляли о своей готовности приложить максимум усилий для урегулирования Нагорно-Карабахского конфликта.

Вопрос урегулирования армяно-азербайджанского, Нагорно-Карабахского конфликта важен для США, так как разрешение конфликта может стать залогом стабильности на всём Южном Кавказе. Особое внимание американская администрация уделяла организации встреч на высшем уровне руководителей Армении и Азербайджана, в качестве сторон вовлечённых в конфликт.

В апреле 2001 года в городе Ки-Уэст американского штата Флорида, под эгидой ОБСЕ и при участии государственного секретаря США К.Пауэлла, была организована встреча президентов Азербайджана и Армении, на которой были рассмотрены пути урегулирования конфликта между двумя странами. 9 апреля Президент Азербайджана Гейдар Алиев провел в Белом доме с президентом США Дж.Бушем специальное обсуждение по вопросу урегулирования армяно-азербайджанского, Нагорно-Карабахского конфликта. Одной из причин было то, что американская администрация надеялась, обеспечить стабильные поступления нефти из Каспийского региона и обойти Россию.

Однако на этой встрече достичь прорыва не удалось, несмотря на участие в переговорах лидеров обеих сторон вовлеченных в конфликт и госсекретаря К. Пауэлла.

Заложенный во времена президентства Гейдара Алиева потенциал азербайджано-американских отношений был значительно развит после прихода к власти, победившего на президентских выборах в октябре 2003 года Ильхама Алиева. Большую роль в укреплении взаимного сотрудничества между Азербайджаном и США сыграл первый официальный визит в США Президента Ильхама Алиева в 2006 году. В ходе переговоров с президентом США Дж. Бушем был обсуждён широкий спектр

вопросов, касающихся двусторонних отношений таких как, участие Азербайджана в борьбе с международным терроризмом, строительство основного нефтепровода БТД и газопровода БТЭ. Особое место отводилось обсуждению вопросам урегулирования армяно-азербайджанского, Нагорно-Карабахского конфликта. Президент Азербайджана Ильхам Алиев на встрече с президентом США Дж, Бушем заявил: «мы надеемся, что Соединенные Штаты в качестве сверхдержавы и страны-сопредседателя Минской группы ОБСЕ будут способствовать урегулированию этого конфликта» (6).

На президентских выборов в США в 2009 году победу одержал представитель демократической партии США Барак Обама. Администрация Б. Обамы уделила большое внимание вопросам прав человека и обеспечения демократии и в случае их несоответствия американским представлениям брала на себя право открытого вмешательства во внутренние дела суверенных государств (17).

Президент США Б. Обама объявил о «перезагрузке» в своих отношениях с Россией. Налаживание нового типа отношений США с Россией, как с одним из сопредседателей в Минской группе ОБСЕ, должны были помочь мирному урегулированию армяно-азербайджанского Нагорно-Карабахского конфликта. Кроме того, официальный Вашингтон назвал разрешение армяно-азербайджанского, Нагорно-Карабахского конфликта одним из своих приоритетов, увязав его с отношениями с Турцией и Арменией (16, с.95).

Отношения между США и Азербайджаном значительно осложнились после того, как Вашингтон предпринял попытки убедить Турцию открыть её границу с Арменией вопреки интересам Азербайджана.

Резолюция о так называемом «геноциде» армян, принятая Комитетом Палаты представителей по иностранным делам в марте 2010 года, сыграла негативную роль в осложнении и без того сложных отношений между США и Азербайджаном.

Таким образом, надежды Азербайджана на новую администрацию США и усилении её роли в урегулировании конфликта в Нагорном Карабахе не оправдались.

В июне 2010 года состоялся визит в Баку министра обороны США Рю Гейтса, который привез письмо Барака Обамы президенту Азербайджана Ильхаму Алиева. В своём письме, глава Белого дома поблагодарил президента Азербайджана за поддержку миротворческой миссии в Афганистане и выразил надежду на расширение и углубление азербайджано-американских связей (12).

В июле 2010 года состоялся официальный визит в Баку госсекретаря США Х.Клинтон. В ходе встречи с президентом Азербайджана, Ильхамом Алиевым Х.Клинтон, заявила, что «США являются сторонниками разрешения Нагорно-Карабахской проблемы мирным путём и в рамках принципа территориальной целостности государств» (7).

В сентябре 2010 года в рамках работы 65-й сессии Генеральной Ассамблеи ООН состоялась встреча Президента Азербайджана Ильхама Алиева и Президента США Бараком Обамой (13). Стороны выразили удовлетворение уровнем развития отношений в различных сферах экономики, и в частности в сфере энергетики и международного энергетического сотрудничества. Президент США Барак Обама, признал лидерскую роль президента Азербайджана Ильхама Алиева и признал нашу страну одни из государств Южного Кавказа достигшего больших успехов в экономическом процветании.

Некоторую напряженность в азербайджано-американских отношениях создал вопрос о назначении на пост посла в

Азербайджане. В 2011 году Барак Обама, назначил своим указом М. Брайза послом в Азербайджане. Однако в 2012 году, под сильнейшим давлением армянского лобби, Конгресс США, отказался утвердить М.Брайза послом США в Азербайджане (8).

В июне 2012 г. послом США в Азербайджане был назначен Р. Морнингстар. Он заявил что «широкий круг общих интересов США и Азербайджана пересекается со многими высшими приоритетами американской внешней политики» (11).

Несмотря на противодействие армянского лобби, Конгресс США сыграл позитивную роль в развитии азербайджано-американского сотрудничества в различных сферах экономики. Средства, запрашиваемые администрацией и выделяемые для Азербайджана в рамках бюджетной помощи иностранным государствам, охватывали три сферы: поддержка демократии, укрепление мира и безопасности и содействие экономическому росту. В 2015 году Конгресс США выделил на эти цели 13,4 млн. долл. помощи.(20) Эти средства должны были содействовать увеличению производительности сельскохозяйственной отрасли Азербайджана и улучшению работы банков и финансового сектора Азербайджана.

В ходе слушаний в Хельсинкской комиссии в июне 2014 г. с участием высокопоставленных представителей Государственного департамента, также была обсуждена проблема конфликта в Нагорном Карабахе. Сопредседатель Комиссии сенатор Д.Кардин призвал американских дипломатов активизировать посреднические усилия, поскольку, карабахский конфликт «порождает в Европе тревогу», а его урегулирование «могло бы привести к существенному увеличению взаимного доверия и стабильности в регионе» (18)

В последующие годы администрация Б.Обамы, в силу политических изменений происшедших в Евразийском регионе и исходя из собственных и национальных интересов, вновь стали на путь пересмотра стратегии своего курса в отношении Азербайджана.

Превращение Азербайджана в одно из сильнейших государств Южного Кавказа и его независимая политика, возросшая роль в обеспечении энергетической безопасности в Европе обусловили дальнейшее сближении Азербайджана и США. Администрация Б. Обамы посчитала необходимым пригласить президента Ильхама Алиева на саммит по ядерной безопасности, который прошёл в марте 2016 года в Вашингтоне. В ходе своего визита в Вашингтон Ильхам Алиев заявил: «отношения между США и Азербайджаном имеют уже 25-летнюю историю. Эти отношения всегда были тесными, искренними, а сейчас достигли уровня отношений стратегического значения» (4).

В январе 2017 года новым президентом США стал представитель республиканской партии Дональд Трамп. Администрация Д.Трампа заявила, что она готова развивать в дальнейшем стратегическое сотрудничество с Азербайджаном. Азербайджан был интересен для США, как сила, обеспечивающая геополитический баланс в регионе Южного Кавказа, вносит вклад в международную безопасность, в том числе в обеспечение энергетической безопасности Европы. Азербайджан – это государство, которое проводит последовательные реформы в строительстве демократического государства, среди которых особое место занимает обеспечение верховенства закона.

28 мая 2019 года, по случаю Дня Республики, президент США Д. Трамп направил поздравительное письмо Президенту Азербайджана Ильхаму Алиеву. Оно интересно тем, что в нем были определены три основных принципа на основе, которых США хотят строить

отношения с Азербайджаном – это прочное партнерство, сотрудничество в области энергетической безопасности и качественные реформы, проводимые в Азербайджане, как социально-экономические, так и реформы в сфере государственного управления (21).

4 июля 2019 года, по случаю национального праздника США - Дня независимости президент Азербайджана Ильхам Алиев направил президенту США Дональду Трампу поздравительное послание.

В частности в нём говорилось: «Азербайджанскую Республику и Соединенные Штаты Америки связывают отношения дружбы и сотрудничества. Наше сотрудничество в ряде сфер, представляющих взаимный интерес, носит характер стратегического партнерства. Мы намерены и впредь решительно продолжать нашу деятельность в многостороннем порядке в вопросах обеспечения международной безопасности, борьбы с терроризмом. А успешно реализуемый нами проект Южного газового коридора, инициаторами которого мы являемся, является важным вкладом в усиление энергетической безопасности Европы». (10)

На основе изложенного материала, попытаемся сделать ряд выводов. Основы взаимовыгодного, отвечающего нормам международного права сотрудничества Азербайджана с США были заложены во время пребывания Гейдара Алиева на посту президента Азербайджанской республики.

Реализация в начале XXI века крупнейших энергетических проектов и непосредственное участие в них американских ТНК, способствовало тому, что азербайджано-американские отношения приобрели характер стратегического сотрудничества.

Азербайджан возлагает большие надежды на потенциал США, как великой мировой державы и как одного из председателей Минской группы ОБСЕ в деле урегулирования, на основе принципа территориальной целостности и нормах международного права армяно-азербайджанского, Нагорно-Карабахского конфликта.

**Литература:**


1.Azərbaycan–NATO: 15 illik tərəfdaşlıq /Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyi, 2009, s.43/ - http://www.mfa.gov.az/files/file/Az-NATO_15_il(az).pdf

2.Amerika Birləşmiş Ştatlarının Nyu York və Vaşinqton şəhərlərində baş vermiş dəhşətli terror hadisələri ilə bağlı Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı. /Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. Bakı, 2001.1 hissə, 986s..

3. Dirçəliş - XXI əsr” jurnalı, Bakı, 2002, yanvar, IV s. 47

4. Азербайджано-американские отношения достигли уровня стратегического партнерства https://azertag.az/.../Azerbaidzhano_amerikanskie_otnosheniya_dostigli_urovnya_strate..

5. Азербайджано-американские отношения и 907-ая поправка newtimes.az/ru/experts/318

6. Визит в США будет способствовать дальнейшему развитию сотрудничества./ Вышка, 2006, 28 апреля, № 17 (19609)

7. Госсекретарь США Хиллари Клинтон прибыла в Баку https://www.kavkaz-uzel.eu/articles/171130/

8. Мэтью Брайза завершил дипломатическую миссию в Азербайджане https://www.kavkaz-uzel.eu/articles/198943/

9. Парламенты Азербайджана и США будут сотрудничать в шести направлениях. Политика, 2 сентября 2003 https://news.day.az /politics/ 275.html
10. Президент Ильхам Алиев поздравил Дональда Трампа 3 июля, 2019 https://report.az › prezident-ilham-aliev-pozdravil-donalda-trampa
11.Посол США в Азербайджане может быть назначен в ближайшие дни https://www.trend.az › Азербайджан › Политика
12.Роберт Гейтс дал высокую оценку визиту в Баку https://www.video.azertag.az/.../robert_geits_dal_vysokuyu_ ocenku_vi...
13. Состоялась встреча Ильхама Алиева и Президента США Барака Обамы 24 сентября 2010, https://ru.president.az/articles/765
14. Состоялась церемония отправки в Ирак миротворческой роты вооруженных сил Азербайджана 14.08.2003 Https://azertag.az/.../sostoyalas_ ceremoniya _otpravki_v_irak_mirotvo
15.Транспортный коридор Восток-Запад - Welcome to Heydar Aliyevs «Heydar Aliyev» Heritage international online library …LIB.ALIYEVHERITAGE. ORG/ RU/ 6345926.HTML
16. Халифзаде М. Американская политика «перезагрузки» отношений с Россией и Южный Кавказ //«Центральная Азия и Кавказ», 2014, № 3.С. 89-104
17. Charles Homans. Responsibility to Protect: A Short History, Just what is a just war? /11.10.2011/ - http://foreignpolicy.com/2011/10/11/responsibility-to-protect-a-short-history/
18.Commission on Security & Cooperation in Europe: U.S. Helsinki Commission, Hearings on "The Security, Economic and Human Rights Dimensions of U.S.-Azerbaijan Relations," 11.06.2014 (http://www.csce.gov/index.cfm?FuseAction= ContentRecords.ViewTranscript&ContentRecordid556ContentRecord
19.Elizabeth Wishnick, Growing U.S. Security Interests in Central Asia, Strategic Studies Institute, U.S. Army War College, 2002, p. 7.
20. Foreign Operations Assistance: Azerbaijan. Fact Sheet. Bureau of European and Eurasian Affairs, U.S. Department of State. 01.06.2014 (http: //www.state.gov/p/eur/rls/fs/2014/230879 .htm).
21. US President Donald Trump sends letter to Azerbaijani President Ilham Aliyev https://en.azvision.az › news ›

***Ключевые слова:*** *внешняя политика США, внешняя политика Азербайджана, международное сотрудничество, проблема Нагорного Карабаха, региональная и международная безопасность*

**Emin Hacınskiy**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru*

**Əli Əliyev**
*Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası, elmi işçi*

## XXI-Cİ ƏSRİN İLK ONİLLİKLƏRİNDƏ AZƏRBAYCAN-AMERİKA MÜNASİBƏTLƏRİ: İSTİQAMƏTLƏR, XÜSUSİYYƏTLƏR VƏ SPESİFİKA

### XÜLASƏ

Bu məqalədə sənədli mənbələrə və müasir tarix elminin nailiyyətlərinə əsaslanaraq, XXI əsrin ilk onilliklərində Azərbaycan-Amerika münasibətlərinin geniş spektrinin təhlilinə cəhd edilir. Azərbaycan və ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizədə sülhməramlı əməliyyatların həyata keçirilməsində əməkdaşlığı mexanizmi göstərilir. Bundan başqa, ABŞ-ın ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Ermənistan-Azrəbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində rolunun müəyyən edilməsinə böyük diqqət verilir, həmçinin iki ölkənin regional və beynəlxalq təhlükəsizliyin, demokratiya, qanunun aliliyinin təmin edilməsi sahəsində əməkdaşlığı ilə bağlı məsələlər nəzərdən keçirilir.

***Acar sözlər:*** *ABŞ-ın xarici siyasəti, Azərbaycanın xarici siyasəti, beynəlxalq əməkdaşlıq, Dağlıq Qarabağ problemi, regional və beynəlxalq təhlükəsizlik*

**Emin Hajinski**
*Associate Professor of History chair The Academy of Public Administration Under the President of the Republic of Azerbaijan*

**Ali Aliev**
*Researcher at the Baku Musical Academy named after U. Hajibeyov*

## AZERBAIJANI-AMERICAN RELATIONS IN THE FIRST DECADES OF THE XXI ST. CENTURY: DIRECTION, FEATURES AND SPECIFICITY

### SUMMARY

This article makes an attempt, based on documentary sources and the achievements of modern historical science, to analyze the specifics and characteristics of Azerbaijani-American relations in the first decades of the twenty-first century. The authors are interested in such issues as the participation of Azerbaijan in peacekeeping operations against terrorism conducted by the international coalition under the auspices of the United States, the role of Azerbaijani-American relations in strengthening regional and international security.

***Key words:*** *US foreign policy, foreign policy of Azerbaijan, international cooperation, the Nagorno-Karabakh problem, regional and international security*

**B E Y N Ə L X A L Q  M Ü N A S İ B Ə T L Ə R**
**I N T E R N A T I O N A L  R E L A T I O N S**

UOT 327-027(21)

**MƏHSƏTİ ƏLİYEVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının dosent əvəzi, siyasi elmlər üzrə fəlsəfə doktoru**
*e-mail: mehseti.aliyeva04@gmail.com*

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN MEYDANA GƏLMƏSİ VƏ İNKİŞAFI

Beynəlxalq münasibətlər tarixən istənilən dövlətin, cəmiyyətin, müxtəlif təşkilatların həyatında kifayət qədər əhəmiyyətli yerə və rola malik olmuşdur. Dövlətlərin meydana gəlməsi, dövlətlərarası sərhədlərin formalaşması, siyasi rejimlərin yaranması və dəyişməsi, müxtəlif sosial institutların meydana gəlməsi, mədəniyyətlərin, elmin inkişafı, texniki tərəqqi və s. ticarət, maliyyə, mədəni və digər mübadilələrlə sıx şəkildə əlaqəlidir. Təbii ki, bu əlaqələr elə dövlətlərarası, dövlət ittifaqları arasında əlaqələrin və ya diplomatik əlaqələrin müxtəlif təzahür formalarıdır. Bütün bunları ümumi şəkildə beynəlxalq münasibətlər kimi ifadə etmək mümkündür. Müasir dövrdə müxtəlif xarakterli qarşılıqlı əlaqələr və ya münasibətlər böyük dinamikliklə inkişaf etməkdədir. Bu inkişaf bəşər cəmiyyətinin inkişafı ilə birbaşa bağlıdır. Yəni, beynəlxalq münasibətlər ayrı-ayrı cəmiyyətlərin müxtəlif xarakterli inkişaf istiqamətləri ilə bağlıdır və bu inkişafı şərtləndirən başlıca amildir.

## Dövlətlərarası münasibətlərə dair yanaşma

Dövlətlərarası münasibətlər lap qədim zamanlardan dövrünün müdrik insanlarını yaxından maraqlandırmışdır. Bu haqqda müxtəlif fikirlər meydana gəlmişdir. Dövlətlərarası münasibətlərin dərin təhlili ilk dəfə olaraq iki min il əvvəl Fukidid tərəfindən verilmişdir. “Peloponnes müharibəsinin tarixi yeddi kitabda” adlı əsərində o, bu məsələlərlə bağlı mülahizələrini irəli sürmüşdür. Bu əsərdə yer almış bir sıra mülahizələr müasir günümüzdə də aktuallığını saxlamaqdadır. Uzunmüddətli, yorucu müharibənin səbəblərini araşdıran müəllif onun subyektlərinin (afinalılar və lakedemonyanlar) qüdrətli və tərəqqi edən xalqlardırlar və onlardan hər biri öz rəqibinin üzərində üstünlüyünü təmin etməyə çalışır. Bununla da dövlətlər arasında sonradan müharibəyə çevrilən ziddiyyətlər və ya münaqişələr meydana gəlmişdir. Onun fikrincə, afinalıların davranışları qarşı tərəfdən özü üçün təhlükəli qəbul olunmuşdur və onu müharibəyə başlamağa sövq etmişdir. Lakedemonyanlar etiraf edirdilər ki, sülh pozulmuşdur və mühərəbəyə başlamaq zərurəti yaranmışdır [1, s.23]. Bu müharibənin başlanmasını şərtləndirən əsas məqam afinalıların güclənməsi ilə bağlı idi. Fukidid əsaslandırır ki, iki subyekt arasında ən təsirli arqument rolunda ancaq güc çıxış edə bilər. Dövlətlərarası münasibətləri səciyyələndirən tarixçi qeyd edir ki, zəiflər həmişə güclülər tərəfindən dəf olunurlar. Bununla yanaşı, Fukidid hesab edir ki, dövlətin gücü və qüdrəti əsas məqsəd deyildir. Onlar yalnız dövlətin maraqlarının, nüfuzunun və təhlükəsizliyinin qorunması alətləri rolunda çıxış edirlər [7, s.10]. Qeyd etmək lazımdır ki, Fukidid gücün və zora-

kılığın tərəfdarı deyildi. O, təəsüflə gücə istinadın qaçılmaz olduğunu qeyd edirdi. Fukidid dövlətlərarası qarşılıqlı münasibətlərdə hüquq normalarının rolunu yüksək qiymətləndirirdi. Lakin qeyd edirdi ki, dövlətlərin gücləri bərabər olduğu halda hüquq normaları təsirli olur. Belə olmadığı halda isə, hüquq gücsüzdür və güclü dövlət istədiyi kimi davranır, zəif isə güzəştə getmək məcburiyyətində qalır. Beləliklə, göründüyü kimi, Fukidid müasir siyasi elmdə ən təsirli cərəyanlardan birinin əsasını qoymuşdur. Sonrakı dövrdə bu cərəyan klassik adını almışdır və Nikolo Makiavellinin, Tomas Hobbsun, Emerik de Vattelin və digərilərinin baxışlarında ifadəsini tapmışdır. Belə yanaşma tərzi avstriyalı hərbi nəzəriyyəçi Karl fon Klauzevitsin əsərində özünün tam bitkin formasını almışdır.

T. Hobbs hesab edirdi ki, insan, təbiəti etibarilə eqoistdir. Onda hakimiyyət hərisliyi vardır. Təbiətən insanlar qabiliyyətlərinə görə qeyri-bərabər olduqlarına görə onlar arasındakı rəqabət, qarşılıqlı etimadsızlıq, maddi resurslara can atmaları "hamının hamıya qarşı müharibəsinə" gətirib çıxarır. Müharibə insanın qarşılıqlı münasibətlərinin təbii vəziyyətidir. Qarşılıqlı məhvolmadan qurtulmaq üçün insanlar ictimai müqavilə bağlamaq məcburiyyəti qarşısında qalırlar. Bunun da nəticəsi dövlətdir-Leviafandır. Bu, insanların könüllü şəkildə öz hüquq və azadlıqlarını dövlətə verməsi yolu ilə baş tutur. Dövlət də bunun əvəzində ictimai əsayişi, sülhü və təhlükəsizliyi təmin edir. Bununla da insanlar arasındakı münasibət süni xarakter alır. Buna baxmayaraq, dövlətlər arasındakı münasibətlər özünün təbii vəziyyətində qalmaqda davam edir. Bu təbii vəziyyət də, artıq qeyd olunduğu kimi, müharibə vəziyyətidir. Müstəqil olduqlarına görə dövlətlər heç bir məhdudiyyətlərlə bağlı olmurlar. Dövlətlərin hər birinə nə əldə etməyə qadirdilərsə, o da məxsusdur. Dövlətlərarası münasibətlərin yeganə tənzimləyicisi gücdür. Bu münasibətlərin iştirakçıları isə qladiatorlar vəziyyətində olurlar. Belə ki, onlar silahlarını hazır tutaraq, biri-birilərinin davranışlarını ehtiyatla izləyirlər [6, s.71].

T. Hobbsun bu ənənəsinin bir istiqamətini də hollandiyalı mütəfəkkir B. Spinoza, ingilis filosofu D.Yum və Emerik de Vattel dəstəkləmişlər. T.Hobbsdan fərqli olaraq Emerik de Vattel dövlətlərarası münasibətlərə o qədər də bədbin baxmır. O, hesab edir ki, dünya dəyişmişdir, ən azından Avropa hamının münasibətlərlə və millətlərin müxtəlif maraqları ilə birləşdiyi siyasi sistemi ifadə edir. Artıq vəziyyət dəyişmişdir və insanların onlara aid olmayanlara maraq göstərmədiyi zaman keçmişdir. Dövlətlərin bütün Avropada baş verənlərə maraq göstərmələri, səfirlərin səfərləri, danışıqlar və s. ümumi maraqların da meydana gəlməsini şərtləndirmişdir. De Vattel hesab edir ki, məhz belə vəziyyət siyasi bərabərliyi, hakimiyyət bərabərliyi ideyasını əhəmiyyətli dərəcədə gücləndirmişdir. Bununla yanaşı, de Vattel klassik ənənəyə uyğun olaraq hesab edirdi ki, millətin maraqları ilə müqayisədə ayrı-ayrı şəxslərin maraqları ikinci dərəcəlidir. Dövlətin xilas olunmasından söhbət gedən zaman əlavə ehtiyatlı olmağa ehtiyac yoxdur. Əgər təhlükənin mövcudluğuna asanlıqla inanılırsa, bunda özünün müəyyən məqsədlərini nümayiş etdirən qonşu günahkardır. Bu, o deməkdir ki, təhlükəli qonşuya qarşı preventiv müharibə qanuni və ədalətlidir. Bəs qonşunun gücü digər dövlətlərin gücünü ciddi şəkildə üstələdiyi halda nə etmək lazımdır? Bu suala cavab verərək de Vattel qeyd edir ki, bu zaman ən düzgün yol koalisiya yaratmaqdan ibarətdir. Belə olan halda ən güclü dövlətə qarşı gəlmək olar və onun öz iradəsini diktə etməsinin qarşısını almaq mümkündür. Hazırda Avropa dövlətləri belə davranırlar. Onlar biri-birilərini qarşılıqlı şəkildə dəf etməyə çalışan iki dövlətdən daha zəifi ilə birləşirlər. Bununla da qüvvələr balansını təmin etməyə çalışırlar.

Klassik ənənə XIX əsrdə daha tam şəkildə Karl fon Klauzevitsin baxışlarında öz ifadəsini

tapmışdır. Karl fon Klauzevits özünün "Müharibə haqqında" əsərində beynəlxalq münsibətlərin mahiyyətinin dövlətlər arasındakı münasibətlərdən ibarət olduğunu təsdiqləyir. Siyasəti də öz növbəsində dövlətin xarici mühitə münasibətdə strateji xətti kimi nəzərdən keçirir. Bu zaman o, əsaslandırır ki, müharibə sadəcə siyasətin alətidir. Müharibə siyasi məqsədlərə çatmaq üçün bir vasitədir. Yəni, Karl fon Klauzevits hesab edir ki, müharibə siyasətin başqa yolla davam etdirilməsidir [6, s.93].

Klassik ənənə ilə yanaşı, Avropada xristianlığın inkişafı və bir sıra mütəfəkkirlərin baxışları ilə əlaqələndirilən digər ənənə də formalaşmışdır. Bu mütəfəkkirlərdən Frantsisko de Vitorianı, Huqo Qrotsiyni, İmmanuil Kantı xüsusi qeyd etmək lazımdır. Bu ənənənin əsasında insanlığın mənəvi və siyasi vahidliyi, həmçinin, insanın ayrılmaz, təbii hüquqları haqqında ideya dayanır. Müxtəlif dövrlərdə bu ideya fərqli formalarda ifadə olunmuşdur. Məsələn, F. Vitorianın yanaşmasına görə insanla dövlət arasındakı münasibətlərdə prioritet insana aiddir. Dövlət isə, insanların yaşamını yüngülləşdirən sadə zərurətdən başqa bir şey deyildir. Son nəticədə insan nəslinin vahidliyi onun ayrı-ayrı dövlətlərə bölünməsini süni edir. İnsanın normal, təbii hüququ onun sərbəst yerdəyişməsindən ibarətdir. Başqa tərzdə ifadə etmiş olsaq, Vitoria insan hüquqlarının qorunmasını dövlətin əsas vəzifəsi kimi təqdim edir. Göründüyü kimi, bu müasir liberal-demokratik yanaşmanı hətta üstələyir.

Nəzərdən keçirilən ənənənin tərəfdarları hesab edirlər ki, insanlar arasında əbədi sülhə çatmaq mümkündür. Bunun yolu ya beynəlxalq münasibətlərin hüquqi və mənəvi tənzimlənməsindən, tarixi zərurətin özünüifadəsi ilə əlaqəli olan digər yollardan ibarətdir. Məsələn, Kant hesab edir ki, insanlar arasındakı ziddiyyətə və tamaha əsaslanan münasibətlər gec-tez hüquqi cəmiyyətin qurulmasına gətirib çıxaracaqdır. Həmçinin, dövlətlər arasında münasibətlər də daimi, harmonik tənzimlənən sülhü təmin edəcəkdir. Bu ənənənin tərəfdarları mənəviyyata və hüquqi arqumentlərə istinad edirlər və insan hüquqlarının ayrılmazlığında israr edirlər. Bu səbəbdən bu ənənə liberal-idealist yanaşma kimi nəzərdən keçirilir [9, s.183].

XIX əsrin ortalarında marksizm ideyalarının meydana gəlməsi beynəlxalq münasibətlərdə daha bir ənənənin yaranmasını şərtləndirmişdir. Bu ənənə nə klassik, nə də liberal-idealist ənənəyə yaxın idi. K. Marksa görə ümumdünya tarixi kapitalizmdən başlayır. İstehsalın kapitalist üsulunun əsasını vahid dünya bazarını formalaşdıran iri sənaye, nəqliyyat və əlaqə vasitələri təşkil edirlər. Dünya bazarını istismar etmək yolu ilə burjaziya bütün ölkələrinin istehsalını və tələbatını kosmopolitləşdirir və hakim sinfə çevrilir. Bu proses də təkcə ayrı-ayrı dövlətlərdə deyil, bütün dünya miqyasında cərəyan edir. Lakin burjaziyanın inkişaf etdiyi səviyyədə elə proletariat da inkişaf edir. İqtisadi müstəvidə beynəlxalq münasibətlər istismar münasibətlərinə çevrilir. Siyasi müstəvidə isə hakim və tabe olanlar münasibətlərinə çevrilir. Bu da sinfi mübarizə və inqilab nəticəsində yaranmış münasibətlərdir. Bununla da milli suverenlik, dövlət maraqları ikincidərəcəlidir. Obyektiv qanunlar ümumdünya cəmiyyətinin formalaşmasını şərtləndirir. Bu cəmiyyətdə isə, hərəkətverici qüvvəsinin sinfi mübarizədən və proletariatın ümumdünya-tarixi missiyasından ibarət olduğu kapitalist iqtisadiyyatı hökmranlıq edir. K. Marksın fikrincə, burjuaziyanın inkişafı ilə, ticarətin azadlığı ilə, ümumdünya bazarın mövcudluğu ilə xalqların milli xüsusiyyətləri və fərqləri getdikcə daha sürətlə itməyə başlamışdır. V.İ.Lenin də öz növbəsində hesab edirdi ki, kapitalizm özünün inkişafının dövlət-inhisarçı mərhələsinə keçməklə, imperializmə tranformasiya edir. O, özünün "İmperializm kapitalizmin yüksək mərhələsi kimi" adlı əsərində yazır ki, dünyanın imperialist

dövlətləri tərəfindən siyasi bölgüsündən sonra, onun inhisarlar arasında iqtisadi bölgüsü mərhələsi başlayır. İnhisarçılar hər zaman bazar qıtlığı problemi ilə üzləşirlər və daha çox gəlir əldə etmək üçün kapialı zəif inkişaf etmiş ölkələrə yönəldirlər. Bu zaman onlar sərt rəqabətlə üzləşirlər. Bu rəqabət də dünya siyasi böhranlarına, müharibələrə və inqilablara rəvac verir.

Beynəlxalq münasibətlər haqqında yuxarıda nəzərdən keçirdiyimiz nəzəri ənənələr öz aktuallığını müasir dövrümüzdə də saxlamaqdadırlar.

**Beynəlxalq münasibətlərdə əsas paradiqmalar**

Paradiqma dedikdə, nəzəri və empirik tədqiqatları istiqamətləndirən müəyyən baxışlar məcmusu nəzərdə tutulur. Bu və ya digər paradiqmadan yaranan nəzəriyyələr əksər hallarda biri-birilərindən fərqlənirlər və öz aralarında rəqabət aparırlar. Lakin nəzəriyyələrin rəqabətindən fərqli olaraq, paradiqmaların rəqabəti elmin obyektinə və onun əsas problemlərinin öyrənilməsinə yanaşma məsələlərinə aid olur. Müxtəlif paradiqmaların təmsilçiləri müxtəlif yanaşmalardan çıxış edirlər və müxtəlif problemləri əsas kimi fərqləndirirlər. Belə paradiqmaların sayı bir qayda olaraq, çox olmur. Beynəlxalq münasibətlərdə bir neçə paradiqma fərqləndirilir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, beynəlxalq münasibətlər sahəsinin mütəxəssisləri əsas paradiqmalarla bağlı oxşar mövqelərə malikdirlər. Bunlara aşağıdakılar aiddirlər [2, s.31]:

-liberal-idealist paradiqma;

-siyasi realizm paradiqması;

-marksist və ya sosialist paradiqması.

Bu paradiqmalar əsasında müxtəlif, eyni zamanda ən müasir beynəlxalq münasibətlər nəzəriyyələri yaradılır. Bu baxımdan bu paradiqmaların mahiyyətinə daha yaxından diqqət yetirmək vacibdir.

Liberal-idealist paradiqma, artıq əvvəlki hissədə nəzərdən keçirdiyimiz kimi, Fukididin, Makiavellinin, de Vattel və Klauzevitsin nəzəri irsidir. Liberal-idealist paradiqmanın əsas müddəaları aşağıdakılardan ibarətdir:

-beynəlxalq münasibətlərin iştirakçılarının dairəsi kifayət qədər genişdir. Buraya dövlətlərlə yanaşı, beynəlxalq hökumət və qeyri-hökumət təşkilatları, ictimai birliklər, özəl müəssisələr, hətta, ayrı-ayrı şəxslər daxildirlər. İdealistlər hesab edirlər ki, dövlət rasional və unitar aktor kimi nəzərdən keçirilə bilməz. Dövlətlərin beynəlxalq siyasəti daimi mübarizəni xatırladır;

-beynəlxalq təşkilatların səlahiyyətlərinin artırılması, beynəlxalq hüquq normalarının təkmilləşdirilməsi, beynəlxalq münasibətlərin demokratikləşdirilməsi, bütün aktorların beynəlxalq siyasətdə bərabərhüquqlu iştirakını təmin edir;

-Beynəlxalq proseslər rəngarəngdir və beynəlxalq münasibətlər ancaq sülh və müharibə vəziyyəti ilə uzlaşdırıla bilməz. Hətta, yalnızca əməkdaşlığa və münaqişəyə də aid edilə bilməz. Bunların hər birinin özünəməxsus yeri və rolu vardır;

-beynəlxalq aktorların plüralizmi həmçinin, onların məqsədlərinin plüralizmini nəzərdə tutur. Bütün bu müxtəliflik fonunda ümumbəşəri dəyərlər və universal demokratik prinsiplər prioritet təşkil edirlər;

-demokratik dövlətlərdən ibarət olan dünya birliyi ictimai rəyin təsiri altında meydana çıxan münaqişələri sülh yolu ilə aradan qaldıra bilərlər. Bu zaman beynəlxalq təşkilatların rolu həlledici ola bilər;

-beynəlxalq münasibətlərdə cərəyan edən dəyişikliklər onda anarxik təbiətin tamam itməsini təmin edəcəkdir. Bununla da müharibələrə və münaqişələrə son qoyulacaqdır. BMT rəhbərliyi altında dünya hökumətinin yaradılacağı da istisna deyildir;

Yuxarıda nəzərdən keçirilən müddəalardan göründüyü kimi, liberal-idealist paradiqma çərçivəsində beynəlxalq münasibətlərin təhlilinin əsas prinsipi rolunda universal dəyərlər və demokratiyanın idealları çıxış

edirlər. Beynəlxalq münasibətlər tarixində əsrlər boyu mövcud olmuş idealist paradiqma hazırkı dövrdə də müəyyən təsirini saxlamaqdadır. Bu təsir beynəlxalq münasibətlərin demokratikləşdirilməsi və humanistləşdirilməsi istiqamətində atılan praktik addımlarda özünü biruzə verməkdədir.

Siyasi realizm idealizmi sərt tənqid edir. Siyasi realizmin nümayəndələri hesab edirlər ki, idealist düşüncə tərzi ikinci dünya müharibəsinin baş verməsini şərtləndirmişdir. Bu istiqamətin ən tanınmış nümayəndələrindən H. Morgentaunu və R. Aronu qeyd etmək olar. Belə ki, H. Morgentaunun "Millətlərarasında siyasi münasibətlər. Hakimiyyət və dünya uğrunda mübarizə" adlı əsəri siyasi elmi öyrənənlərin stolüstü kitabına çevrilmişdir [3, s.76].

Siyasi realizm paradiqmasının əsas müddəalarını aşağıdakı kimi nəzərdən keçirmək mümkündür:

-beynəlxalq münasibətlərin əsas iştirakçıları suveren dövlətlərdirlər. Bununla yanaşı, dövlət rasional fəaliyyət göstərən birtipli orqanizmdir. Yalnız dövlət müqavilələrin bağlanması, müharibələrin elan olunması və digər fəaliyyətlər üçün legitim əsaslara və zəruri resurslara malikdir. Burada söhbət daha böyük dövlətlərdən gedir. Belə dövlətlər arasındakı münaqişəli və kooperativ münasibətlər beynəlxalq siyasətin mahiyyətini ifadə edir;

-beynəlxalq münasibətlərin xüsusiyyəti ondan ibarətdir ki, o, anarxik xarakter daşıyır. Hər iştirakçı öz fəaliyyətində hər şeydən öncə xüsusi maraqlarından çıxış edir. "Milli maraq" siyasi realizm nəzəriyyəsinin əsas kateqoriyasıdır. Beynəlxalq münasibətlərdə ali hakimiyyət mövcud deyildir. Bu baxımdan, beynəlxalq münasibətlərdə iştirak edən dövlətlər üçün başlıca prinsip "Özün özünə kömək et" prinsipidir;

-anarxik mühitdə fəaliyyət göstərən dövlətlərin maraqları qaçılmaz olaraq digər dövlətlərin maraqları ilə toqquşur. Bu, o deməkdir ki, münaqişə və onun kəskin forması olan müharibə əsas beynəlxalq proses kimi müəyyənləşdirilir. Bununla yanaşı realistlər əməkdaşlığı da beynəlxalq münasibətlərin bir növü kimi qəbul edirlər. Bu əməkdaşlıq əsasən münaqişələrin tənzimlənməsi sahəsində olur;

-beynəlxalq münasibətlərin anarxik xarakteri dövlət maraqları üçün olduqca təhlükəlidir. Bu baxımdan, beynəlxalq siyasətdə dövlətin əsas məqsədi təhlükəsizliyini təmin etməkdən ibarət olur. Böyük dövlətlər bunun üçün böyük resurslara malik olurlar. Lakin buna baxmayaraq, heç onlar da özlərini tam təhlükəsizlik vəziyyətində hiss etmirlər;

-dövlətin hakimiyyəti onun gücündən ayrılmazdır. H. Morgentau yazırdı: "fiziki zorakılıq siyasətin orqanik elementidir. Beynəlxalq siyasətdə hərbi güc dövlətin siyasi qüdrətini təmin edən əsas amildir; [10, s.63]

-güclü dövlətlərin süni manipulyasiyaları əsasında beynəlxalq münasibətlərin təbiətini dəyişmək mümkündür. Dövlətlər siyasətə təsir edirlər və edəcəklər. Realistlər hesab edirlər ki, siyasi qüvvələrin konfiqurasiyasını dəyişmək, beynəlxalq anarxiyanın nəticələrini yumşaltmaq mümkündür. Daha stabil və təhlükəsiz dövlətlərarası münasibətlər qurmaq mümkündür. Lakin beynəlxalq münasibətlərin təbiətini əsaslı şəkildə dəyişmək qeyri-mümkündür.

Realist paradiqmanın konseptual əsasları ictimai inkişafın obyektiv qanunlarına söykənir. Bu da siyasi realizmin nüfuzunu təmin etmişdir. Lakin buna baxmayaraq, beynəlxalq münasibətlər elmində mütləq hakim mövqeyə malik deyildir. Bunu onun bir sıra ciddi çatışmazlıqları şərtləndirmişdir. Beynəlxalq münasibətlərin güc qarşıdurmasının "təbii vəziyyəti" nəzərdən keçirilməsi sübut edir ki, bu münasibətlər birbaşa dövlətlərarası vəziyyəti ifadə edir. Siyasi realistlərin baxışlarında dövlətin daxili və xarici siyasəti biri-biri ilə sıx əlaqəli kimi görünmür. Dövlətlər isə beynəlxalq münasibətlər sistemində qarşılıqlı şəkildə əvəzlənən subyektlər kimi nəzərdən keçirilir. Yəni, bəzi dövlətlər daha güclü

olurlar, bəziləri isə zəif olurlar. Onlar qarşılıqlı şəkildə biri-birilərinin yerini tuturlar. Güclülər zəifləyə, zəiflər isə, əksinə, güclənə bilərlər. Siyasi realizm paradiqmasının görkəmli nümayəndələrindən olmuş A. Uolfers beynəlxalq münasibətlər sistemindəki dövlətləri biri-biriləri toqquşan bilyard şarları ilə müqayisə etmişdir. Qeyd etmək lazımdır ki, beynəlxalq münasibətlərin əbədi və dəyişməz obyektiv qanunlarına istinad etməklə, siyasi realizm bir növ özü öz yanaşmasının girovuna çevrilmişdir [4, s.361]. Siyasi realizmin tərəfdarları dünya inkişafının kifayət qədər vacib tendensiyalarını və onda baş verən dəyişiklikləri nəzərə almamışlar. Bundan başqa, daha bir məqam nəzərdən qaçmışdır. Belə ki, nəzərə alınmamışdır ki, beynəlxalq münasibətlərin elmi təhlilinin klassik metodlarla yanaşı, yeni metodlarının tətbiqi lazımdır. Bütün bunlar digər yanaşmaların təfədarlarının siyasi realizmi tənqid etmələrini şərtləndirmişdir [8, s.15].

Beynəlxalq münasibətlər nəzəriyyəsində marksizm və neomarksizm özünün ciddi mövqelərini qoruyub saxlamaqda davam edirlər. Neomarksizm paradiqması çərçivəsində yeni, kifayət qədər maraqlı ideyalar, nəticələr və ümumiləşdirmələr meydana gəlməkdə davam etməkdədirlər. Neomarksizm beynəlxalq münasibətlər nəzəriyyəsindəki digər cərəyanlara da ciddi təsir görtərməkdədir. Məsələn, beynəlxalq iqtisadi siyasəti xüsusi qeyd etmək mümkündür. Neomarksizmin mahiyyətini daha dərindən dərk etmək üçün onun ideya mənbəyinə-marksizmə yaxından diqqət yetirmək vacibdir.

Beynəlxalq münasibətlərin marksizm paradiqmasının əsas subyektləri rolunda dünya burjaziyası və beynəlxalq fəhlə sinfi çıxış edir. Beynəlxalq münasibətlərin iştirakçıları kimi dövlətlər ikincidərəcəlidirlər. Burjaziyanın daha artıq gəlir əldə etməyə can atması onun fəhlə sinfini daha güclü istismar etməsinə səbəb olur. Bu da bir tərəfdən imperiyalararası ziddiyyətlərin dərinləşməsini, digər tərəfdən isə, fəhlə həmrəyliyinin güclənməsini şərtləndirir. “Fəhlələrin vətəni olmur”, onları proletar beynəlmiləlçiliyinin obyektiv əsasları birləşdirir. Burjaziya da öz mahiyyəti etibarilə kosmopolitdir. O, milli dövlətləri özünün sinfi ağalığının aləti kimi yaratmışdır. Burjaziya dövlətin xarici siyasi alətlərini istifadə etməklə, beynəlxalq münasibətlərin daimi qeyri-stabilliyini, silahlı münaqişələri və müharibələri şərtləndirir.

Beynəlxalq münasibətlər özünün mahiyyəti etibarilə miqyasından başqa, daxili ictimai münasibətlərdən heç nə ilə fərqlənmir. Ümumilikdə, o, ikinci və üçüncüdərəcəli xarakter daşıyır. Əsasən milli dövlət çərçivəsində burjaziya ilə fərhlə sinfi arasında qarşılıqlı fəaliyyətin xüsusiyyətlərini ifadə edir. Beynəlxalq münasibətlər mahiyyəti etibarilə kapitalist xarakter daşıyır, hakim imperialist burjaziya ilə istismara məruz qalan proletariat arasında sərt qarşıdurmanı ifadə edir. Bu səbəbdən əsas beynəlxalq proseslər sinfi münaqişlərdə, böhranlarda, müharibələrdə və sosial inqilablarda ifadəsini tapır.

Beynəlxalq münasibətlərin əsas aktorlarının məqsədləri kəskin şəkildə biri-birilərindən fərqlənirlər. Əgər dünya burjuaziyası gəlirlərinin maksimum artırılmasına çalışırsa, beynəlxalq fəhlə sinfi hakim sinfin devrilməsinə və bununla da proletariyatın tarixi missiyasını yerinə yetirməyə çalışır. Bu məqsədlərə çatma vasitələri də fərqlidirlər. Bir tərəfdən istismarın güclənməsi, digər tərəfdən dünya sosial inqilabı.

Marksizm beynəlxalq münasibətlərin gələcəyi ilə bağlı da kifayət qədər aydın mövqeyə malikdir. Beynəlxalq münasibətlərin gəlcəyi ictimai inkişafın obyektiv qanunları ilə müəyyənləşir. Beynəlxalq münasibətlərin marksist təhlilinə gəlincə isə, o, ümumi metodoloji mövqelərdən çıxış edir. Burada müəyyənləşdirici rol ictimai münasibətlərin inkişafında istehsal və iqtisadi bazis üsullarına, həmçinin, tarixi prosesin hərəkətverici qüvvəsi kimi sinfi mübarizə çıxış edir.

**Beynəlxalq münasibətlərə dair postmodernizm nəzəriyyəsi**

Postmodernizm ötən əsrin 80-ci illərində meydana gəlmişdir. Postmodernizmin meydana gəlməsi bir növ klassik nəzəriyyələrə reaksiya kimi qiymətləndirilir. Bununla yanaşı, bu nəzəriyyə, neomarksizmə reaksiya hesab olunur. Postmodernizmin inkişafına son onilliklərdə cərəyan edən proseslər də ciddi təsir etmişdir. Bu prosesləri klassik neorealizm və neoliberalizm müstəvisində izah etmək mümkün olmamışdır. Postmodernistlər realistləri kəskin tənqid edirlər və hesab edirlər ki, obyektiv şəkildə dövlət maraqlarını üzə çıxarmaq qeyri-mümkündür. Bundan başqa, universal maraqlar mövcud olmurlar. Onlar hesab edirlər ki, dövlət insanlar qrupunu ifadə etmək üçün istifadə olunan anlayışdır. Postmodernizm nümayəndələri beynəlxalq münasibətlərdə əsas anlayışların dekonstruksiyasını təklif edirlər. XX əsrin son on ili dünyanın siyasi xəritəsini əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Ötən əsrin 80-90-cı illərində dünyanın siyasi reallıqlarının dərk edilməsi proseslərin özünün inkişafı ilə ayaqlaşa bilmirdi. 1990-cı illərdə XX əsrin sonlarında dünyanın siyasi inkişafı ilə bağlı qızğın mübahisə getməkdə idi [5, s.121]. Əsas mübahisə dünyanın dövlət-sentrist sisteminin dəyişməsi ideyasını dəstəkləyənlərlə bu dəyişikliklərin əhəmiyyətsiz olduğunu hesab edənlər arasında gedirdi. Bu, beynəlxalq münasibətlər nəzəriyyəsində “üçüncü böyük diskussiya” hesab oluna bilər. Birinci, hələ ötən əsrin 50-ci illərinin sonlarında idealistlərlə realistlər arasında getmişdir. İkinci diskussiya ötən əsrin 60-cı illərində beynəlxalq münasibətlərin ənənəvi metodlarını istifadə edənlərlə, tədqiqatların təbii elmlər prinsipi üzrə qurulmasını düzgün hesab edənlər arasında olmuşdur. Üçüncü diskussiya nəticəsində nəzəri yanaşmaların uzlaşmadığı əsas parametrlər qalmaqda davam etmişdir. Bununla yanaşı, müxtəlif məktəblərin və istiqamətlərin yaxınlaşması müşahidə olunmuşdur. Kəskin diskussiyalar nəticəsində müəyyən oturuşmuş rəy formalaşmışdır. 1. Beynəlxalq münasibətlərdə anarxiyanın qalmasına baxmayaraq, onların tənzimlənməsi imkanları da mövcuddur. 2. Beynəlxalq qarşılıqlı fəaliyyətin iştirakçılarının sayı daimi artmaqdadır və öz sıralarına dövlətlərlə yanaşı, beynəlxalq hökumət, qeyri-hökumət, transmilli şirkətləri, müxtəlif firmaları, assosiasiyaları və s. daxil etmişdir. 3. Dünyanın qarşılaşdığı problemlər ümumi xarakter daşıyır və bütün dünya dövlətləri tərəfindən həllini tələb edir.

Beləliklə, tədqiqatçıların böyük əksəriyyətini birləşdirən başlıca məqam ondan ibarətdir ki, dövlətlər beynəlxalq arenanın əsas aktorları kimi qəbul edilməkdədirlər. Bundan başqa, hamı qəbul edir ki, beynəlxalq münasibətlər sistemi və dövlətlər zaman keçdikcə ciddi dəyişikliklərə məruz qalmışdır. Sadəcə olaraq əsas diskussiya bir institut olaraq dövlətin nə dərəcədə dəyişikliyə məruz qalması və digər iştirakçıların fəallıqlarının artması ətrafında getməkdədir. Göründüyü kimi, müxtəlif paradiqmaların nümayəndələrinin mövqelərinin üst-üstə düşməməsi kəskin nəzəri mübahisələrə səbəb olmuşdur. Bu da, lap başlanğıcdan özünü beynəlxalq siyasi elmdə biruzə vermişdir.

**Ədəbiyyat:**


1. Галенской Л.А., Малинина С.А. Энциклопедия международных организаций: в 3 т. СПб. : Изд- во СПбГУ, 2003, Т. 1, 523 с.
2. Дугин А.Г. Международные отношения. Парадигмы, теории, социология. М., Академический проект, 2014, 431 с.
3. История международных отношений: основные этапы с древности до наших дней./ К.С. Гаджиев и др. М.: Логос, 2007, 712 с.
4. Лактионов А. История дипломатии. М., АСТ; АСТ МОСКВА, 2006, 943 с.
5. Медяков А.С. История международных отношений в Новое время. М., Просвещение, 2007, 463 с.
6. Цыганков П. А. Международные отношения: теории, конфликты, движения, организации: учеб. Пособие. Изд. 2-е, перераб. и доп. М., ИНФРА-М, 2007, 319 с.
7. Цыганков П.А. Природа и закономерности международных отношений // Современные международные отношения. М., 2000, с, 9–37
8. Цыганков А.П., П.А.Цыганков. Социология международных отношений. Анализ российских и западных теорий: учеб. пособие. М.: Аспект-Пресс, 2006. С. 14–17
9. Hurrell A. Kant and the Kantian Paradigm in International Relations // Review of International Studies. 1990. Vol. 16, №3, P. 183-205
10. Nobel J.W. Morgenthau's Sruggle with Power: The Theory of Power Politics and the Cold War // Review of International Studies. 21(1). January, 1995, P. 61-86


***Açar sözlər:*** *beynəlxalq münasibətlər, dövlətlər, sərhədlər, əlaqələr, nəzəriyyə, yanaşma*

**Mehsati Aliyeva**
*Acting Assistant Professor of the Department of International Relations and Foreign Policy of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in Political Science*

# APPEARANCE AND DEVELOPMENT OF THE INTERNATIONAL RELATIONS

## SUMMARY

In article historical process of formation and development of the international relations is analyzed. First of all, it is justified that the problem of the relations between the states always interested thinkers of the time. That is, the problem of the international relations always had an important significance for any state and society. The international relations are tightly connected the appearance of the nations, the formation of boundaries between the states, formation political the mode, development of science, culture, technique, etc. It is marked that the international relations consist of different components. In article approaches to an entity of the international relations are also considered. It is justified that the international relations have quite complex structure.

***Keywords:*** *international relations, states, borders, communications, theory, approach*

**Мехсети Алиева**
*И.о. доцента кафедры Международных отношений и внешней политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам*

## ПОЯВЛЕНИЕ И РАЗВИТИЕ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ

### РЕЗЮМЕ

В статье анализируется исторический процесс формирования и развития международных отношений. Прежде всего, обосновывается, что проблема отношений между государствами всегда интересовала мыслителей своего времени, то есть проблема международных отношений всегда имела важную значимость для любого государства и общества. Международные отношения тесно связаны с появлением наций, формированием границ между государствами, формированием политических режимов, развитием науки, культуры, техники и т.д. Рассматриваются подходы к сущности международных отношений, обосновывается, что международные отношения имеют довольно сложную структуру и состоят из различных компонентов.

***Ключевые слова:*** *международные отношения, государства, границы, связи, теория, подход*

KONSTİTUSİYA HÜQUQU; İNZİBATİ HÜQUQ
CONSTITUTIONAL LAW; MUNICIPAL LAW

UOT 342; UOT 342.7

**РОМЕЛЛА ГЮЛЬАЛИЕВА**
**Ведущий научный сотрудник Института Права и прав человека Национальной Академии Наук Азербайджана,**
**доктор философии по праву, доцент**
*e-mail: romella.gul@mail.ru*

# НЕКОТОРЫЕ ВОПРОСЫ ОСВОБОЖДЕНИЯ ОТ УГОЛОВНОЙ ОТВЕТСТВЕННОСТИ В СВЕТЕ СУДЕБНО-ПРАВОВЫХ РЕФОРМ

В Азербайджанской Республике всегда уделялось большое внимание вопросам совершенствования уголовного законодательства, повышения эффективности правоприменительной практики, улучшения деятельности правоохранительных органов и повышения правосознания граждан. Так, в частности, в Указе Президента Азербайджанской Республики господина Ильхама Алиева отмечается, что в целях ускорения процесса формирования правосудия, отвечающего требованиям времени, пользующегося большим авторитетом в обществе, необходимо еще более расширить возможности обращения в суд, увеличить прозрачность в деятельности судов, повысить эффективность судопроизводства, обеспечить полное и своевременное исполнение решений судов, усилить меры, принимаемые для устранения волокиты и других негативных явлений [9].

В целях гуманизации уголовно-правовой политики распоряжением Президента Азербайджанской Республики от 10 февраля 2017 года «Об упорядочении деятельности в пенитенциарной сфере, гуманизации политики наказания, а также расширении применения альтернативных видов наказания и процессуальных мер принуждения, не связанных с изоляцией от общества» рекомендовано подготовить законопроекты в нескольких направлениях по либерализации наказаний и углублению судебно-правовых реформ, в том числе по декриминализации преступлений, в частности, преступлений в области экономической деятельности. Полагаем, что в непосредственной связи с распоряжением главы государства находятся вопросы освобождения от уголовной ответственности и разработка рекомендаций по расширению круга оснований для такого освобождения.

Прежде всего следует указать, что понятие уголовной ответственности наряду с понятием преступления и наказания относится к основным и наиболее часто употребляемым понятиям в уголовном законодательстве. Достаточно указать, что в уголовном кодексе упоминание о ней содержится в статьях не только Общей (статьи 3, 7, 19, 20, 23), но и Особенной части (статьи 290, 291) УК АР. Законодательное определения преступления содержится в статье 14.1, а наказание определяется в статье 41.1. УК Азербайджанской Республики. В то же время, законодательного определения понятия уголовной ответственности пока еще нет. Нет единства мнений по этому вопросу и в теоретической литературе. Одни авторы понимают под ней обязанность лица

понести ответ за совершение общественно опасного деяния. Другие наряду с обязанностью отвечать за совершение преступления указывают также обязанность претерпеть наказание. Третьи полагают, что уголовная ответственность есть совокупность правоотношений, возникающих между государством и виновным лицом по поводу совершения преступления. Полагаем, что статья 3 УК АР об основаниях уголовной ответственности может быть изложена дополнена новой частью хотя бы следующего содержания: «Уголовной ответственностью признается право соответствующих государственных органов возбудить уголовное преследование виновного лица и подвергнуть его уголовному наказанию при наличии для этого необходимых оснований».

Поскольку закон предусматривает значительное число видов освобождения от уголовной ответственности, различающихся своей правовой природой в юридической литературе получило распространение мнение о выделении общих и специальных оснований освобождения от уголовной ответственности [3, с.74]. Общими основаниями признаются те, которые предусмотрены в Общей части УК. Согласно УК Азербайджана их всего девять, из них семь предусмотрены в главе 11 (ст. 72-75), под названием «Освобождение от уголовной ответственности». К еще одному самостоятельному виду освобождения от уголовной ответственности предусмотренному в Общей части относится освобождение в связи с актом амнистии (ст. 81). Помимо этого, им признается предусмотренное в статье 88 УК АР освобождение несовершеннолетних от уголовной ответственности с применением принудительных мер воспитательного воздействия.

Специальными основаниями освобождения от уголовной ответственности признаются основания, предусмотренные в Особенной части и относящиеся к конкретным составам преступлений. В Особенной части предусматривается около 20 таких специальных оснований. Законом Азербайджанской Республики от 20.10.2017 г. № 816-VQD Уголовный кодекс был дополнен статьей 74-1 об освобождении от уголовной ответственности в связи с наркоманией. По нашему мнению, данное основание является не общим, а специальным, поскольку касается только одного вида преступления (ст.234.1) и одной категории виновных – больных наркоманией. Полагаем, что данное основание в виде примечания может быть перенесено в статью 234 УК. Взамен этого вида освобождения в статье 74-1 следует предусмотреть возможность освобождения от уголовной ответственности вследствие наличия у виновного психического или иного тяжелого заболевания.

Уголовное законодательство Азербайджана предусматривает возможность освобождения осужденного от наказания по болезни (психической или физической). Статья 78.2. УК определяет, что лицо, заболевшее после совершения преступления иной тяжелой болезнью, помимо психического заболевания, препятствующей отбыванию наказания, может быть постановлением суда освобождено от отбывания наказания. Следовательно, если лицо, страдающее тяжелым заболеванием, совершило преступление, оно не может рассчитывать на освобождение, поскольку закон такой возможности не предусматривает. Оно должно быть привлечено к уголовной ответственности, осуждено к наказанию и лишь затем получает право обратиться в суд с ходатайством об освобождении от отбывания наказания по болезни. Данное положение, на наш взгляд, находится в противоречии с конституционным указанием об охране здоровья (ст.

41 Конституции Азербайджана) [1, с.16]. Кроме того, нахождение больного под стражей, когда у него нет возможности обратиться за квалифицированной медицинской помощью должно расцениваться как нарушение статьи 3 Европейской конвенции о правах человека, гласящей о недопустимости применения пыток либо бесчеловечного или унижающего достоинство обращение или наказание. Как свидетельствует практика Европейского суда по правам человека неоказание своевременной надлежащей медицинской помощи расценивается как нарушение указанной статьи Конвенции [7]. Тяжело или смертельно больного человека негуманно заставлять находиться в заключении, лишая права на полноценное лечение и способности к реабилитации, и таким образом подвергая его жизнь необоснованному риску, что может привести к летальному исходу. Такое недопустимо, поскольку превысит допустимое воздаяние за совершенное преступление. В деле «Семихвостов против России» Европейский суд по правам человека признал, что «лишение свободы осужденного, страдающего тяжелым заболеванием (паралич нижних конечностей) без создания специальных условий его содержания нарушает право лица не подвергаться бесчеловечному или унижающему достоинство обращению или наказанию» [8].

Поскольку ни понятие «психическая болезнь», ни понятие «иное тяжелое заболевание» в уголовном законе не раскрываются, нормы, предусмотренные в статье 78 УК АР, относятся к категории бланкетных. Исходя из этого, некоторые авторы заключают, что только понятие «иная тяжелая болезнь» должно определяться исходя из соответствующего Перечня [5, с.441].

Безусловно, при применении освобождения от уголовной ответственности в связи с тяжелым заболеванием следует отразить в законе четкие критерии, которыми следует руководствоваться при принятии такого решения, не допуская при этом ограничения правоприменителя законодательными рамками, учитывая характер заболевания и тяжесть совершенного виновным преступления.

Как свидетельствует правоприменительная практика в Азербайджане в последнее время одним из мощных правовых рычагов в руках высших органов власти стали амнистия и помилование. Нормы, регулирующие освобождение от уголовной ответственности и наказания в силу акта амнистии или помилования регламентируются в специальной главе УК Азербайджана. Наряду с ними в этой главе расположены нормы, регламентирующие вопросы судимости, а также сроки ее погашения и снятия. В этой связи нам представляется более удачным решение данного вопроса в УК Украины, в котором нормы об амнистии и помиловании расположены в разделе об освобождении от наказания и его отбывания, а понятие, правовые последствия, сроки погашения, снятие, порядок исчисления сроков погашения судимости предусматриваются в специальном разделе [13]. Таким же образом решен этот вопрос и в УК Республики Беларусь [11].

Вопросам уголовной ответственности и наказания несовершеннолетних в УК Азербайджанской Республики посвящен раздел пятый, содержащий одну главу и девять статей, определяющих отличительные особенности уголовной ответственности и наказаний в отношении несовершеннолетних.

При этом уголовное законодательство Азербайджана не разграничивает сроки лишения свободы в зависимости от категории преступления и возраста несовершеннолетнего. В этом отношении

более предпочтительной нам представляется позиция УК Республики Беларусь, регламентирующего в статье 115, что несовершеннолетнему впервые совершившему преступление, не представляющее большой общественной опасности, не назначается наказание в виде лишения свободы. Помимо того, срок назначаемого несовершеннолетнему наказания в виде лишения свободы не должен превышать: 1) за менее тяжкое преступление - трех лет; 2) за тяжкое преступление - семи лет; 3) за особо тяжкое преступление - десяти лет [11]. Полагаем, что пробелом в законодательстве следует признать отсутствие в УК Азербайджанской Республики нормы о применении положений данной главы к лицам в возрасте от восемнадцати до двадцати лет, как это имеет место, в частности, в УК РФ.

Представляет интерес предусмотренные в Уголовных кодексах Республики Беларусь и Республики Казахстан такие основания освобождения от наказания как наличие чрезвычайных обстоятельств в виде пожара, стихийного бедствия, тяжелой болезни или смерти единственного трудоспособного члена семьи (статья 74 УК Казахстана) или иных чрезвычайных обстоятельств, вследствие которых дальнейшее отбывание наказания способно повлечь за собой особо тяжкие последствия для осужденного или его семьи (статья 94 УК Республики Беларусь) [11,12]. Указанная позиция, на наш взгляд, заслуживает одобрения, поскольку, предусматривая эти нормы в УК, законодатели исходили прежде всего из интересов детей осужденных, из принципа гуманизма не только и не столько к виновному, сколько к членам его семьи.

Для всех случаев освобождения от уголовной ответственности необходимо наличие ряда предусмотренных законом условий. Несмотря на то, что прямое указание об этом содержится только в ст. 74 УК Азербайджана, общим условием для всех оснований освобождения от уголовной ответственности по действующему УК Азербайджана является утрата прежней общественной опасности лицом, совершившим преступление. Так, в частности, согласно ст. 73-1 УК Азербайджана виновный освобождается от уголовной ответственности если оно примирилось с потерпевшим и полностью возместило причиненный ущерб. Все это свидетельствует об утрате лицом, совершившим преступление общественной опасности, в связи с чем отпадает необходимость в применении к виновному уголовной ответственности и наказания.

При этом, поскольку критерии, положенные в основу признания деяния преступным остаются неизменными, его общественная опасность сохраняется. Следовательно, только в случае утраты лицом, совершившим преступление общественной опасности возможно его освобождение от уголовной ответственности. Освобождение от уголовной ответственности как проявление гуманизма со стороны правоохранительных органов не отменяет положения закона, определяющего преступность деяния и его общественную опасность [6, с.5-33]. Однако изменившиеся условия, а также соответствующее поведение лица после совершения преступления свидетельствуют об отпадении его общественной опасности.

Вызывает интерес мнение Х.Д.Аликперова, предложившего считать «компромиссными» нормы, предусматривающие освобождение от уголовной ответственности. К «компромиссным» нормам, по мнению указанного автора, следует относить нормы, гарантирующие лицу, «совершившему преступление, освобождение от уголовной ответственности или смягчение наказания в обмен на

совершение таким лицом поступков, определенных в законе и обеспечивающих реализацию основных задач уголовно-правовой борьбы с преступностью» [2, с.112].

Следует согласиться с утверждением, что в качестве целей такого компромисса выступают обеспечение прав и законных интересов потерпевших и обвиняемых, экономия уголовной репрессии, средств и времени правоохранительных органов и другие. Данная точка зрения получила поддержку многих других ученых-правоведов [4, с.68; 14].

В связи с рассматриваемой проблемой находится вопрос об основаниях освобождения от ответственности юридических лиц. Как известно Законом Азербайджанской Республики от 7 марта 2012 года № 314-IVQD в УК АР была включена глава VII-II об уголовно-правовых мерах, применяемых в отношении юридических лиц [10]. В соответствии со статьей 99-9 УК об освобождении юридического лица от применения уголовно-правовых мер, уголовно-правовые меры в отношении юридического лица не могут быть применены, если лицо, совершившее преступление в пользу юридического лица или в защиту его интересов, освобождено от уголовной ответственности в связи с истечением срока давности. По нашему мнению, данное указание не соответствует положению, предусмотренному в статье 99-4.4. УК, согласно которому прекращение уголовного преследования в отношении физического лица, в установленных законом случаях не препятствует применению уголовно-правовых мер к юридическому лицу. Безусловно, на юридическое лицо могут применяться сроки давности привлечения к уголовной ответственности, предусмотренные для физических лиц, однако это вовсе не означает, что прекращение уголовного преследования физического лица должно влечь за собой такое же прекращение в отношении юридического лица. Полагаем, что для юридического лица как субъекта уголовной ответственности может быть предусмотрено такое основание освобождения от уголовной ответственности, как заглаживание нанесенного вреда, а также возмещение причиненного преступлением ущерба.

**Литература:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. “Hüquq Yayın Evi”. Bakı. 2019.
2. Аликперов Х.Д. Преступность и компромисс. Баку. 1992.
3. Головко Л.В. Прекращение уголовного дела в связи с деятельным раскаянием // Законодательство. 1999. N 1. С. 74.
4. Келина С.Г. Освобождение от уголовной ответственности как правовое последствие совершения преступления // Уголовное право: новые идеи. М., 1994.
5. Козаченко И.Я., Новоселов Г.П. Уголовное право. Общая часть: Учебник для бакалавров. М., 2014.
6. Малков В.П. Квалификация повторных преступлений, совершенных освобожденными от уголовной ответственности // Советская юстиция. 1967. N 20.
7. Постановление Европейского суда № 22277/93 по делу «Ильхан против Турции» от 27 июня 2000 года
8. https://prostopravo.com.ua/pravonarusheniya/stati/osvobozhdenie_ot_otbyvaniya_nakazaniya_po_sostoyaniyu_zdorovya
9. http://xn----7sbbaj7auwnffhk.xn--p1ai/article/19916
10. Указ Президента Азербайджанской Республики об углублении реформ в судебно-правовой системе от 3 апреля 2019 года - https://ru.president.az/articles/32587
11. Уголовный кодекс Азербайджанской Республики. Баку. «Hüquq Yayın Evi”. 2019.
12. Уголовный кодекс Республики Беларусь. Санкт-Петербург. Издательство «Юридический пресс Центр». 2001.
13. Уголовный кодекс Республики Казахстан. Санкт-Петербург. Издательство «Юридический центр Пресс». 2001.
14. Уголовный кодекс Украинской Республики. Санкт-Петербург. Издательство «Юридический пресс Центр». 2001.
15. Уголовное право России. Общая часть: Учебник / Под ред. Ф.Р. Сундурова, И.А.Тарханова. М.: Статут. 2016.


***Ключевые слова:*** *уголовная ответственность, тяжелая болезнь, освобождение, основание*

**Romella Güləliyeva**
*AMEA Hüquq və İnsan Haqları İnstitutunun*
*aparıcı elmi işçisi, hüquq üzrə fəlsəfə doktoru, dosent*

# MƏHKƏMƏ-HÜQUQİ İSLAHATLARI BAXIMINDAN CİNAYƏT MƏSULİYYƏTİNDƏN AZAD EDİLMƏNİN BƏZİ MƏSƏLƏLƏRİ

## XÜLASƏ

Məqalədə cinayət məsuliyyətindən azad etmənin ayrı-ayrı məsələləri təhlil olunur, eləcə də qüvvədə olan cinayət qanunvericiliyinin təkmilləşdirilməsi üzrə təkliflər irəli sürülür. Məsələn, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 3-cü maddəsinə cinayət məsuliyyətinin anlayışını cinayət hüququnun əsas konsepsiyası kimi müəyyən edən normanın, Cinayət Məcəlləsinin 11-ci fəslinə isə ağır xəstəliklə əlaqədar məsuliyyətdən azad etməyə əsas verən yeni normanın əlavə edilməsi təklif olunur. Bundan başqa, müəllifin fikrincə, huquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması ucun cinayət törətmiş şəxs muddətin kecməsi ilə bağlı cinayət məsuliyyətindən azad edildiyi halda, hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməməsinin mümkünsüzlüyü barədə Cinayət Məcəlləsinin 99-9-cu maddəsində nəzərdə tutulan müddəa Cinayət Məcəlləsinin 99-4.4-cü maddəsinə ziddir. Belə ki, həmin normaya əsasən, qanunla muəyyən edilmiş hallarda fiziki şəxs barəsində cinayət təqibinə xitam verilməsi huquqi şəxsə cinayət-huquqi tədbirlərin tətbiq edilməsinə mane olmur. Bununla bağlı olaraq, hüquqi şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün əsas kimi vurulmuş zərərin aradan qaldırılması, habelə cinayət nəticəsində dəymiş zərərin ödənilməsi qanunda nəzərdə tutula bilər.

***Acar sözlər:*** *cinayət məsuliyyəti, ağır həstəlik, azad edilməsi, əsasları*

**Romella Gulaliyeva**
*Leading Researcher of the Institute of Law and Human Rights of the Azerbaijan National Academy of Sciences, PhD in Law, Associate Professor*

## SOME ISSUES OF EXEMPTION FROM CRIMINAL LIABILITY IN THE LIGHT OF JUDICIAL-LEGAL REFORM

### SUMMARY

The article addresses certain issues of exemption from criminal liability, as well as makes separate proposals to improve the current criminal legislation. In particular, it is proposed to include in article 3 of the Criminal Code a rule on the concept of criminal responsibility as a key concept of criminal law, to supplement chapter 11 of the Criminal Code with a new ground of exemption from liability – liberation from responsibility in connection with disease.

In addition, according to the author, the indication in article 99-9 of the Criminal Code of the possibility of not applying criminal legal measures against a legal person if the person who committed the crime in his favour or in defence of his interests is exempted from criminal liability due to the expiry of the statute of limitations does not comply with the provision provided for in article 99-4.4. According to the Criminal Code, the termination of criminal proceedings against an individual, in cases established by law, does not prevent the application of criminal legal measures to a legal person.

In this regard, a ground may be provided for the exemption of a legal person from criminal liability, such as compensation for the harm caused, as well as compensation for the damage caused by the crime.

***Keywords:*** *criminal responsibility, serious disease, liberation, ground of exemption*

# SOSİAL FƏLSƏFƏ
# SOCIAL PHILOSOPHY

UOT 321. 01; 340. 11:1

**ƏNTİQƏ PAŞAYEVA**
**AMEA-nın Fəlsəfə İnstitutunun "İslam Fəlsəfəsi" şöbəsinin böyük elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru**
*email: pashayeva.ph@mail.ru*

## HÜQUQUN FƏLSƏFƏSİ: HÜQUQUN FƏLSƏFİ ANLAYIŞINDA MƏNTİQİ QAYDALARIN TƏSİRİ

**Müqəddimə**

Hüququn fəlsəfi anlayışını və mahiyyətini təhlil edərkən qeyd etmək lazımdır ki, hüquq ictimai əlaqələri tənzimlədiyi üçün ictimai elmlər sırasına daxildir; hüquq insanın ictimai varlığını araşdırır. Elə bu səbəbdən də hüquq ictimai bir elm olaraq öyrənilir. Ümumiyyətlə, hər hansı bir mövzu barəsində tədqiqat apararkən nəzərə almaq lazımdır ki, hər bir elmin araşdırılması üç hissəyə bölünür ki, bunun iki hissəsi müqəddimə və ümumi məsələlərdən (külliyyat) ibarətdir; bunlardan biri həmin elmin (xüsusi məsələlərin) mövzusudur. Məsələn, insan bədəni tibb elminin mövzusudur və elm də bu mövzunun predmetlərindən bəhs edir. Amma burada isə əsas mövzu hüquqi ixtisasların başlanğıcıdır. Digəri isə elmin başlanğıcıdır ki, həmin külliyyatda bəhs olunur və daha çox hüququn növlərinə diqqəti yönəldir. Üçüncü hissə isə elmi məsələlərdir, yəni elm mövzusuna aid olan cüzi məsələlərdir ki, bu hissə hüquqi ixtisasların funksiyasını bəyan edir. Məhz bu baxımdan hüququn fəlsəfi anlayışını və mahiyyətini öyrənmək üçün ilk növbədə hüquqi qaydalara və onların funksiyalarına diqqət etməliyik. Bu qaydalar nəyi etmək və nəyi etməmək kimi məsələlərlə bağlı olaraq hüququn fəlsəfi anlayışını və mahiyyətini əks etdirməklə yanaşı, həm də hüquqi məsələləri düşüncə əsasında tədqiq edir. Bundan əlavə, hüquqla bağlı olan qayda-qanunların vəziyyətini, onların şərtlərini, bütünlüklə prinsiplərini tədqiq etməklə yanaşı, həm də hüququn hansı şöbəyə aid olmasını araşdırır. Hüququn fəlsəfi anlayışını və mahiyyətini tədqiq etmək üçün hüquq filosofları (philosophers of law) ilə yanaşı, bu barədə filosofların düşüncələrinə də diqqət etməliyik. Burada filosofun məqsədi ondan ibarətdir ki, insanın mövcud aləm barədə olan düşüncə və agahlığı dəyərləndirilsin. Çünki bizi əhatə edən aləm insana məxsusdur və filosof çalışır ki, insan düşüncəsinin təsvirini yaratsın. Bu cür dərketmə ictimai quruluşu hazırlayır və bu ictimai quruluşda hətta adi bir insan da çalışır ki, təbiət və onun insani keyfiyyətləri barədə olan təsəvvürünü, rəftar və fəaliyyətini təbiətə uyğunlaşdırsın və onunla birlikdə ölçsün. Elə buna görə də filosoflar hüquq, dövlət, siyasət, əxlaq və bununla bağlı olan digər məfhumlara daha çox diqqət edərək ümumi təsəvvürü tədqiq etmişlər.

**Hüquq və fəlsəfə terminlərinin lüğətdə və mövzuda işlənmə mənaları**

Tədqiqatın əsas mövzusu hüququn fəlsəfi anlayışı və mahiyyəti olduğu üçün bunların lüğətdə və mövzuda işlənmə mənalarının açıqlanmasına ehtiyac vardır. Hüquq fransız dilində "Droit", inqilis dilində "Right" və ərəb dilində isə "حقوق" deməkdir. Əsası yunan dilinə aid olan "Fəlsəfə" termini iki sözün

birləşməsindən-“filo” (Φιλο-sevmək) və “sofiya” (Σοφι΄σ-hikmət) sözünüdən alınmış və ərəb dilində düzəldilmiş formasıdır. “Fəlsəfə” sözünün mövzuda işlənmə mənasına gəldikdə isə bu mövcud aləmin həqiqətini əqli (reasonable) yolla öyrənən elmdir. Filosof çalışır ki, əqli və elmi sübutlara istinad etməklə mövcud aləmin reallıqlarını bəyan etsin. Amma “hüquq” sözünün mənasına gəldikdə isə hüquq cəm mənasındadır və tək mənası “haqq” deməkdir. Buradan məlum olur ki, hüquq haqq sözündən götürülmüşdür. Dilçi alimlər bu sözün lüğəti mənasının dərin kökləri olduğunu izah edirlər. Onların fikrincə,“haqq” sözü ibri (ivrit) dilində “qupartmaq”, bir şeyin üzərinə “həkk etmək”, “yapışdırmaq” (daşın, ağacın, metalın və s...) deməkdir (1.p.82). Amma ərəb dilində isə “yaradan”, “doğru-düzgün”, “ədalət”, “ədalətsizliyə qarşı” deməkdir. Bu sözün digər mənası “başçı”, “qanun”, “göstəriş” və “qayda” deməkdir. Haqq kəlməsinin mövzuda işlənmə mənasına gəldikdə isə bu termin mövzuda belə izah olunur: haqq xüsusi bir iqtidar və ya məqamdır ki, qanunvericilik əsasında o şəxslərə verilir ki, onlar qanuna əsasən subyektin özü və mənsub olduğu mülkiyyət barəsində düzgün və ədalətli qərar çıxartsınlar (2.s.49-50; 3.s.125). Digər mənbələrdə isə hüquq belə tərif olunur: “hüquq hər bir ölkənin fiziki və hüquqi şəxsləri üçün nəzərdə tutulan imtiyazı deməkdir. Hüquq demək olar ki, bütün zamanlarda və məkanlarda beynəlxalq hüquq normalarının, bəşəriyyətin ictimai-siyası və fərdi azadlığını təmin edən qanunlar məcmuəsindən ibarətdir” (4.s.441). Hüquq, insan həyatının davamlılığı və inkişafı üçün zəruri olan faktorların ən önəmlisidir(5.s.23). Hüquq, ictimai asayişi və ədaləti bərpa etmək üçün ümumi qanunların toplusundan ibarət olmaqla, ictimaiyyət üzərində məsuliyyət daşıyır və bu qanunların yerinə yetirilməsi dövlət tərəfindən tənzimlənir. Hər bir hüquqi quruluşda qruplar və hətta tək-tək şəxslər üçün ictimai təhlükəsizlik, insanlar arasında əlaqələri tənzimləmək, qanun əsasında normativlər və imtiyazlar təyin olunur ki, bunların hər biri haqqa əsaslanır. Hüquq bu imtiyazların toplusudur ki, dövlət onun yerinə yetirilməsi zəmanətini öz üzərinə götürür.

### Hüququn anlayışına və mahiyyətinə məntiqi yanaşma

Nəzərə almaq lazımdır ki, hüququn fəlsəfi anlayışı və mahiyyəti təkcə hüquqi təhlillə məhdudlaşmır, burada dövlət, siyasət və əxlaq normaları da mühüm əhəmiyyət kəsb edir. Almaniyanın məşhur filosofu İmanuel Kant hüququn fəlsəfi və əxlaqi aspektlərindən bəhs edərkən, hüququn ümumi şöbəsinə işarə edərək, ictimaiyyətin birliyi əsasında yaranan dövləti qanunların nəzarəti altinda olduğunu bildirir. Onun fikrincə, məhz qanunlar vasitəsi ilə dövlət idarəçilik sistemini yaradır, inkişaf etdirir və hüququn ümumi şöbəsi ictimaiyyət üçün qanuni bir quruluşun (hüquqi dövlətin) yaradıcısıdır(6.p.63). Burada digər və mühüm məsələlərdən biri də budur ki, fəlsəfə digər elmlərdən ayrı deyil, fəlsəfə bütün elmləri özündə birləşdirən və onların üzərində üstün dərəcəyə malikdir. Burada onun üstün dərəcəsi isə hüquq və hüquq daxilində olan qanunların fəlsəfi baxımdan tədqiq və təhlil olunmasıdır. Burada sual yaranır: nəyə görə hüquq məhz fəlsəfi aspektdən təhlil olunmalıdır? Ümumiyyətlə, nə üçün filosoflar hüququ fəlsəfəyə daxil etmişlər? Yuxarıda deyilənləri nəzərə alaraq demək olar ki, fəlsəfə hər hansı bir şeyin əsasını, daha dəqiq desək başlanğıcını axtarmaqla məşğuldur. Bundan başqa, fəlsəfə ədalət və ictimai asayişi yaradan və təmin edən ümumi qanunların toplusu olan düşüncə tərzindən (reflection system), təbiət aləminin şərhindən (external universe explanatory) və tənqidi düşüncə tərzindən (critical reflection system) ibarətdir. Filosoflar təbiətə və hüquqi quruluşların qaydalarına istinad etməklə hüququ təkcə dəyərlər baxımından deyil, həm

də irad və tənqidi yanaşmalar əsasında tədqiq edirlər(7.p.459). Digər bir arqument isə ondan ibarətdir ki, fəlsəfə bütün elmlərin mənbəyidir, yəni bütün elmlər öyrənilməsində fəlsəfəyə ehtiyacı vardır, məhz fəlsəfədir ki, bunları köklü şəkildə təhlil edir. Amma hüququn əsaslandığı praktika bu üstünlüyə cavab verə bilmir, çünki praktikanın işi əməllə bağlıdır nəinki ruhla. Hüquq ilk növbədə insanın ruhuna və sonra isə əməlinə bağlıdır; daha aydın desək, hüququn prinsipləri ruha əsaslanır və hüquq müstəqil olaraq insan ruhuna hakimdir. Məsələn, əgər hər hansı bir şəxsin itmiş haqqı özünə qaytarılırsa bu təkcə onun cisminin sakitliyi deyil, bu həm də onun ruhunun rahatlığıdır və əgər ruh rahat olmasa cisim də rahat deyil. Ümumiyyətlə, fəlsəfi baxımdan hüquqi anlayışlar əsasən iki mühüm hissəyə-iradə və şəxsiyyətə ayrılaraq əməli (praktiki) məsələlərə bağlanır. İradə və şəxsiyyət praktikada üç əsas məfhumun meydana gəlməsinə səbəb olur. Elə buna görə də Fredrik Hegel bu üç məfhuma daha çox diqqət etmişdir. Bunlar "hüquq", "dövlət" və "əxlaq" məfhumlarıdır. Bu məfhumlar tarixi inkişafın təkamülüdür ki, insanların ruhunu ifadə edir və bu ruh nəhayət dünyəvi ruhiyyənin başlanğıcı hesab olunur. Dünyəvi ruh həmin müqəddəs və ya mütləq (absolute) ruhdur ki, bütün insanlarda vardır və onların varlığında təcəssüm olunur. Hüquq qeyri-maddi olan ruha bağlıdır, elə bir ruh ki, təbiətdə yatmışdır və onun ayılmağı vicdan və dünyəvi şüurla bağlıdır. İctimaiyyətin ruhu dedikdə, insanların ehtiyacı olan mənəvi dəyərlər nəzərdə tutulur. Hüquq mənəvi dəyərləri müəyyən olunmuş qaydalara əsasən nizamlayan çox güclü və qüdrətli bir sistemdir; hüquq eyni zamanda ictimai varlığın əsas göstəricisidir. Bu barədə Hegel yazır: "Hüquqla bağlı olan hər nə varsa həqiqətdir" (8.p.431).

Hüququn fəlsəfi anlayışını və mahiyyətini həm fəlsəfi və həm də hüquqi aspektdə təhlil edərkən təkcə filosofların deyil, hüquqşünasların da fikirlərinə diqqət etmək zəruridir. Məlum olduğu kimi yuxarıda Hegelin verdiyi tərif, hüquqşünasların hüququn anlayışı və mahiyyəti barədə verdiyi təriflə uyğunluğu vardır. Hüquqşünaslar hüququ daha çox ictimai münasibətlərlə əlaqələndirir və həmçinin dövləti nizama salan bir sistem kimi tanıdırlar: "Hüququn anlayışı, mahiyyəti, əlamətləri və funksiyaları dedikdə nəzərə almaq lazımdır ki, hüquq şəxsiyyətin azad inkişafını, cəmiyyətdə mütəşəkkilliyi və qaydanı təmin edərkən, ictimai münasibətlərin dövlət nizamlayıcısı kimi çıxış edir (9.s.13.) Hər iki tərifdən göründüyü kimi hüquq praktikadan ayrı deyil, daha aydın desək, filosoflar hüququ praktikadan ayırmır, əksinə həm praktiki və həm də fəlsəfi mənalara istinad edərək hüququ həm məfhum və həm də məna baxımından izah edirlər. Hüquq elmində hüquq anlayışı davranış qaydalarının məcmusu kimi əsaslandırırlır. Hüquq-sözügedən cəmiyyətdə tanınan və rəsmi müdafiə ilə təmin olunan, bərabərlik və ədalət normativlərinin məcmusu olub, azad iradənin bir-biri ilə qarşılıqlı münasibətlərində mübarizəsini və vəhdətini tənzimləyir (10.s.32). Digər tərəfdən isə hüquq elmində hüquq anlayışı iki mənanı ifadə edir:

a).Obyektiv hüquq. Obyektiv hüquq dedikdə, yəni hüquq normaları sistemində ifadə olunan ümumməcburi davranış qaydalarının toplusu nəzərdə tutulur.

b).Subyektiv hüquq. Hüququn bu növü konkret şəxsə dəlalət edir. Subyektiv hüquq şəxsiyyətin azadlığını, davranışının mümkünlüyünü, sərbəstlik və təşəbbüskarlıq göstərmək imkanını hüquqi cəhətdən təmin edir. Vətəndaş müstəqil olaraq öz bacarığından istifadə etməklə hər hansı bir sahəni seçib və bu sahədə fəaliyyət göstərmək hüququna malikdir. Amma hüquqi vəzifə dedikdə isə burada şəxsin mənsub olduğu davranışlarının növü və müəyyən olunmuş həddi nəzərdə tutulur (həmin mənbə, s. 36).

Bu mövzuda, yəni hüququn anlayışını və

mahiyyətini fəlsəfi baxımdan araşdırarkən burada klassik məntiq elmində olan bəzi mühüm məsələləri nəzərdən qaçırmaq olmaz və bu məsələlərə diqqət yönəltmək olduqca zəruridir. Nəzərə almaq lazımdır ki, hüquq təkcə fəlsəfə ilə deyil, klassik məntiq elmi ilə də sıx bağlılığı vardır. Çünki hüquqşünas düzgün fikir yürütməyin yolunu bilmək üçün məntiq elminə ehtiyacı vardır. Hər hansı bir hüquqşünas sözlərin qaydasını düzgün bilərsə, bu həmin sözün düzgün və qanuni yerinə yetirilməsinə dəlalət edir. Məhz bu baxımdan hüquqi nəticənin doğru və ədalətlə alınmasında məntiq elminə yiyələnmək mühüm şərtdir. Məntiq bizə doğru və düzgün fikir yürütmək qaydalarını öyrədir. Mütəfəkkirlərin əsərlərində məntiq belə tərif olunur: "məntiq zehni yanlış fikirlərdən qoruyan qanuni bir vasitədir" (11.s.8-9). Məhz bu mənada, başqa elmlərdə olduğu kimi hüquq elminin də məntiqə ehtiyacı vardır.

### Hüquqi əmrlərdə məntiqi qaydaların təsiri

Hüquq və klassik məntiq arasında olan baglılıqdan bəhs etməzdən əvvəl qeyd etmək lazımdır ki, bir çox hallarda qanunun ədəbi formada şərh olunması onun icra olunması məsələsini həll etmir. Bəzi hallarda qanun qısa və natamam da ola bilər; həmin tamlıq təşkil etməyən natamam qanunların hökmlərində müxtəlif ziddiyyətlər mövcud olur. Belə bir vəziyyətdə hüquqşünas daha geniş və dolğun bir mənbəyə üz tutmalıdır və çalışmalıdır ki, digər maddələr arasında hökmün yaranmasını nəzərə alsın, həmçinin hökmlə bağlı olan bütün fəsillərə, bəndlərə, adlara diqqət yetirsin ki, hökmdə mövcud olan ziddiyyətləri aradan qaldıra bilsin. Əks təqdirdə bu mümkün deyil. Hüquqşünas hökmdə hər hansı bir ziddiyyətin mövcudluğunu görürsə, belə bir vəziyyətdə ziddiyyətli maddələri diqqətlə nəzərdən keçirtməli, təkcə özünün əsaslandığı təcrübəsinə və hüquq elminə deyil, ən əsası əqli qaydalardan (rational laws) istifadə etməklə maddənin məfhumunu tam olaraq aydınlaşdırmalıdır (12.cild.1.s.239). Amma əsas mövzuya gəldikdə isə, yəni hüquq və klassik məntiq arasında olan baglılıqdan bəhs edərkən, hüquqi əmrlərdə məntiq elminin əhəmiyyətini bilmək üçün hüquq və dövlət, dövlət və ictimaiyyət arasında olan əlaqəyə diqqət etmək lazımdır. Bəzi qərb hüquqşünasları hüquq və klassik məntiq arasında olan bağlılıqdan bəhs edərkən məntiqin qayda-qanunlarının hüququn arqumentləri ilə mütənasib olduğunu bildirmişlər (13.pp.5-15).

Məlum olduğu kimi dövlət tələb olunan məsələlərin icra olunması üçün əmrlər verir və bu əmrlər və ya göstərişlər heç də şəxsiyyətin formalaşmasında yetərli deyil. Nəzərə almaq lazımdır ki, ideal xüsusiyyətə sahib olan dövlətlərdə əsas hədəf qanunvericilik siyasətinin ədalətə əsaslanması, yaranmış qaydaların əhəmiyyəti, həmçinin iqtisadi nizamlama və siyasi ideyalardır. Buradan məlum olur ki, qanunverici orqan fəaliyyətində əsaslı sübutlara ehtiyacı vardır. Əgər hüquqi və siyasi dəlillər məntiqə əsaslanmasa, təbii ki, vicdan rahat ola bilməz və daim narahatçılıq insanda özünü göstərər. Amma diqqət etsək görərik ki, hüquqi və siyasi dəlillər (sübutlar) hətta məntiqə əsaslansa belə bu birinci mərhələdə özünü göstərmir və nəzərə çarpmır; daha aydın desək, qanunvericilik ilk olaraq qanunun yazılmasına çalışır, nəinki qanunun doğru və düzgün olmağını axtarır; qanunun doğru olub olmaması sonrakı mərhələlərdə özünü göstərir. Buna misal olaraq burada dövlətin arxalandığı siyasi qüvvəyə işarə etmək yerinə düşərdi. Məlum olduğu kimi dövlət öz gücünə arxalanır, zəif və mənafeyə uyğun olmayan fikirləri öz güc və qüdrəti əsasında pərdələyir. Siyasi məsələlərin təbliğində daha çox hissə əsaslanan fikirlər və aldadıcı vədlər özünü göstərir. Məhz bu mənada deyilən sözlərdə ziddiyyətlərin mövcudluğu danılmazdır və burada sözün

düzgün ifadə formasına diqqətin az olması şübhəsizdir. İstər klassik və istərsə də müasir məntiq elmində olsun burada sözlərin düzgün ifadə forması əsas şərtdir.

Yuxarıda qeyd olundu ki, qanunvericilik qanunun doğru olub olmamasından daha çox qanunların yazılmasına səy göstərir və bu mərhələ başa çatdıqdan sonra hüquqşünas hüquqi göstərişlərin şərh olunmasında, həmçinin hüquqi qaydaların icra olunmasında tutarlı dəlillərə-məntiqə ehtiyacı vardır. Burada hüquqşünas əsas gəldiyi nəticəni bəyan etmək məcburiyyətindədir. Əlbəttə burada hakimin üzərinə düşən ən əsas vəzifələrdən biri də budur ki, qanuni sənədləri nəzərdən keçirərkən hüquqşünasın əsaslandığı arqumentlərə diqqət etsin. Bununla yanaşı, burada vəkilin işi hakimdən daha ağır və məsuliyyətlidir. Çünki hakim dövlətin qüvvəsinə arxalanaraq əmr verir, amma vəkil isə elə bir düzgün və tutarlı arqumentlər qarşıya qoymalıdır ki, hakimi qane edə bilsin. Burada məntiqdən başqa elə bir güclü qüvvə yoxdur ki, vəkilin köməyinə çatsın. Əlbəttə burada təkcə vəkil deyil, ümumiyyətlə, hüquq elmini tədris edən alimlər, hüquqşünas alimlər, həmçinin qanunvericiliyə mənsub olan məsul şəxslər ədliyyə sistemini və hüquqi bazanın nüfuzunun təkmilləşdirmək və möhkəmləndirmək üçün tutarlı mənbəyə-məntiqə üz tutmalıdırlar. Hər hansı bir haqqın inkişaf və tərəqqisi məntiqlə bağlılığı vardır. Qanunların düzgün həlli yolları üçün məntiq elminin əsas qanunlarından –"qiyas" (deduction, syllogism), "istiqra" (induction) və "təmsil"dən (reasoning by analogy) istifadə olmalıdır (12.cild.3.s.3).

Mövzunu təhlil etdikcə mühüm bir sual qarşımıza çıxır: hüquq və məntiq arasında olan bağlılıq dedikdə bu məntiq elminin hansı şöbəsinə aiddir? Burada riyaziyyata və təcrübəyə əsaslanan məntiq elmindən söhbət gedir ya humanitar sahəyə aid olan fərqli bir elmindən bəhs olunur? Suala cavab verməzdən əvvəl mühüm bir məsələni nəzərdən qaçırmamalıyıq. Nəzərə almaq lazımdır ki, hüquq məfhumu, əsasları və hədəfi düşüncə sahiblərinin nəzərində eyni deyil, bəzən müxtəlif fikirlər şübhəli sualların yaranmasına səbəb olur. Bunu hüququn fəlsəfəsində tədqiq olunan doktorinalarda görmək mümkündür. Məsələn, tədqiqi hüquq (pozitiv law) nəzəriyyəsində buna rast gəlmək mümkündür. Çünki bu məktəbdə bütün məsələlərin həlli qanunla əlaqələndirilir. Burada hüquqşünasın fəaliyyəti və hüquqi göstərişlər, həmçinin bütün məsələlərin həlli yolları qanunvericilik əsasında müəyyənləşir. Amma hüquq və məntiq arasında bağlılıq dedikdə isə icra olunması zəruri olan bir sıra funksiyalar nəzərdə tutulur ki, bunlar riyazi məntiqə daha çox yaxındır. Burada mətn və qanunun ruhunu ehtimal etməklə deyil, yəqinliklə qəbul etmək lazımdır. Bundan başqa, ictimai həyatda və hətta insanların bir-biri ilə əlaqəsində bu məsələlərin necəliyi, hansı formada icra olunması və ən əsası əldə olunan nəticə göstərilməlidir; daha aydın desək, hüquq yerinə yetirilməsi zəruri olan vəzifələri, qayda və metodları açıqlayır və bu vəzifələri və ya öhdəlikləri yerinə yetirən şəxs və ya şəxslər (mükəlləf) müəyyən olunmuş rəftar qaydalarının yerinə yetirilməsinə səy göstərirlər və bu qaydalar məhz insanlar üçün yaranmışdır. Elə bu səbəbdən də bəzi hüquq filosofları hüquq və məntiq arasında olan bağlılığı məntiqi vəzifə və ya məntiqi rəftar adlandırmışlar (14.pp.210-215). Əgər diqqət etsək məlum olur ki, hüququn məntiqi aspektləri təcrübi elmlərlə daha çox uyğunluq təşkil edir, çünki qanunlar ictimai əlaqələrin səbəb və nəticələrini bilməklə yanaşı, həm də ehtimal olunan məsələlərin və ən əsası məlumatların köməyi ilə yaranır (12.cild.3.s.17). Amma bir azda dərindən diqqət etsək və qəbul etsək ki, hüquqi məntiq mövcud olduğu xüsusiyyətlər baxımından müəyyən üstünlükləri vardır, bəs belə olan halda onu riyazi məntiqə və təcrübi elmlərə tabe etmək olmaz, əksinə hüquqla bağlı olan

məntiqin xüsusi bir hədəfə tabe olduğunu qəbul etmək lazımdır ki, bu da tədqiqi metodlarda özünü göstərir. Nəzərə almaq lazımdır ki, hüquqla bağlı olan məntiq tədqiqi metoddan daha məhdud bir məfhumdur; yəni səhvsiz və sağlam düşüncəyə əsaslanır, ona görə də yaranması və tabeçiliyi tədqiqi metoda bağlıdır. Burada əsas məsələlərdən bir də budur ki, hüququn fəlsəfəsi bunların hər ikisini idarə edərək və həm də bunlara başçılıq edir, yəni bunların hər ikisi hüququn fəlsəfəsinə aid olan mühüm mövzulardır (15.pp.81-83). Amma Claud Pasquierin gətirdiyi arqumenti digər bir formada açıqlasaq demək olar ki, hüquqla bağlı olan təlim və tədqiqin metodu hüquqi məntiqin bir hissəsidir və ona tabedir necə ki, bir sıra tədqiqatçılar və hüquq filosofları, o cümlədən Claud Pasquier bu yolla getmişlər. Hər halda məntiq və hüququn metodu hətta bir məfhum olmasalar belə bir-birinə bağlıdırlar, yəni biri digərinin nəzarəti altındadır.

Filosofların və hüquqşünasların nəzəriyyəsinə əsasən hüququn fəlsəfi anlayışını və mahiyyətini həm fəlsəfi və həm də hüquqi aspektdə təhlil edərkən, buradan belə nəticəyə gəlmək olar ki, hüququn fəlsəfi anlayışı və mahiyyəti təkcə filosofların deyil, həm hüquqşünasların və həm də hüquq filosoflarının əsas tədqiq mənbəyi olmuşdur. Burada filosofun hüquqşünasdan fərqi ondadır ki, insan onu əhatə edən maddi aləmi və bu aləmin əsas göstəricisi olan dəyərləri – hüququ təkcə qanunlar əsasında deyil, həm də real düşüncə – məntiqi qaydalar əsasında araşdırsın və onun görünməyən tərəflərini ortaya qoysun. Çünki maddi aləmdə hər nə varsa insana məxsusdur və filosof səy göstərir ki, insana xas olan dəyərlər, yəni hüquq və hüquqa mənsub olan normalar təkcə praktiki göstərişlərlə deyil, həm də məntiqi düşüncə əsasında insanın fərdi və ictimai inkişafı üçün istiqamətlənsin. Əlbəttə, həm filosoflar, həm hüquqşünaslar və həm də hüququ fəlsəfi aspektdən tədqiq edən hüquq filosofları arasında müəyyən fərqin olmasına baxmayaraq, burada hüququn ictimai tələblərinin yerinə yetirilməsində fikir birliyi mövcuddur. Çünki filosoflar hüquq və dövlət, hüquq və siyasət, hüquq və əxlaq barəsində bəhs edərkən ümumi anlayışa və hüququn ictimai-siyasi mahiyyətinə xüsusi diqqət edərək, hüquqşünaslarla fikir birliyinə gəlmişlər. Məhz bu mənada filosoflar hüququn anlayışını və mahiyyətini həm fəlsəfi və həm də hüquqi aspektdə tədqiq edərkən, hüququ və onun əmrlərini klassik məntiqə nisbət verərək, bunların arasında olan bağlılıqdan bəhs etmişlər. Onların fikrincə, hüquqşünas hər hansı bir qərarında düzgün düşüncəyə – məntiqə ehtiyacı vardır. Çünki çıxarılan hökm və ya verilən hər hansı bir qərarın əsası düşünülmüş və müəyyən olunmuş qanuna – məntiqi qaydaya tabedir.

**Ədəbiyyat:**


1.(2).Cəmaləddin İbn Mənzur əl-Ənsari əl-Rəvifi əl-İfriqi. Ərəbin dili. c.1, Beyrut-Livan: "Darul-fikir" müəssisəsi. hq. 1414/1993 m. 1006 s.

2.جمال الدين ابن منظور الأنصاري الرويفعي الإفريقي. لسان العرب. ج. 1، بيروت- لبنان: دار الفكر للطباعة، هق. 1414/1993 م. 1006 ص.

2.(15).Claude Du Pasquier. Introduction à la théorie générale et à la philosophie du droit. Neuchatel, 1948, 364 p.

3.(6).Dias R. W. Jurisprudence. New York: Butterworths, 1976, 709 p.

4.(11).Əbu Əli İbn Sina. Qeydlər və İstinadlar (Məntiq). Tərcümə və şərh: Mələkşahi Həsən. Tehran: Suruş. hş. 1369/1991 m. 564 s.

11.ابو علي بن سينا. اشارات و تنبيهات (منطق). ترجمه و شرح: ملكشاهي، حسن. تهران: سروش، هش. 1369/1991 م. 564 ص.

5.(5).Hayrettin Ökçesiz., Gülriz Uygur., Saim Üye. Hukuk felsefesi ve sosyolojisi arkivi.

İstanbul: İstanbul Barosu yayınları, 2014, 508 s.
6.(7).Hoecke, M. V. Jurisprudence, The philosophy of Law. Edited by: Christopher Berry Gray. New York: Garland Publication INC, 1999, 1000 p.
7.(14).Husson Léon. Nouvelles études sur la pensée juridique. Collection Philosophie du droit 14. Dalloz Paris,1974, 441 p.
8.(4).Keyre Həsən. Qanun kitabı: Qanunlara giriş. İskəndəriyyə elmi nəşriyyatı. hq. 1414/1993 m. 326 s.
4.كيرة، حسن. الكتاب القانوني: المدخل الى القانون. المعارف منشأه بالاسكندرية، هق. 1414/1993 م. 326 ص.
9.(10).Lazarev V.V. Ümumi hüquq və dövlət nəzəriyyəsi. Tərcümə edən: Əziz Rzabəyli. Bakı: Qanun, 2007, 491 s.
10.(1).Macdonald D. B. Hakk. The Encyclopedia of Islam. New York: Syracuse University Press, 1961, 1359 p.
11.(9).Məmmədov İ.S., Süleymanov C. A. Dövlət və Hüquq Nəzəriyyəsi: 100 suala 100 cavab. Bakı: Çaşıoğlu, 2005, 126 s.
12.(12).Nasir Katuzyan. Hüququn Fəlsəfəsi: hüququn tərifi və mahiyyəti. c.1, 3. Tehran: Nəşriyyat şirkəti. hş.1388/2009 m. 706 s.
12.ناصر کاتوزیان. فلسفه حقوق: تعریف و ماهیت حقوق. جلد اول و سوم، تهران: شرکت سهامی انتشار، هش. 1388/2009 م. 706. ص.
13.(8).Patterson E. W. Jurisprudence. Men and Ideas of the Law. New York: Brooklyn, The Foundation Press INC, 1953, p. 310.
14.(3).Raqib əl-İsfəhani Həsən bin Muhəmməd. Qurani-Kərimin ayələrinin izahı. c.1. Beyrut: “Darul-qələm” müəssisəsi. hq. 1430/2009 m. 1015 s.
3.الراغب الإصفهانی حسین بن محمد. مفردات ألفاظ القرآن. ج. 1، بیروت: دار القلم-الدار الشامية، هق. 1430/2009 م. 1015 ص.
15.(13).Soeteman A. Logic in Law. Publication City/Country Dordrecht, Netherlands Publishers: Springer, 2010, 326 p.

***Açar sözlər:*** *hüququn fəlsəfəsi, filosoflar, hüquq filosofları (philosophers of law), hüquq, anlayış, mahiyyət, klassik məntiq, ictimaiyyət*

**Antiga Pashayeva**
*Senior Researcher at the Department "Islamic Philosophy", Philosophy Institute of Azerbaijan National Academy of Sciences, PhD in Philosophy*

## PHILOSOPHY OF LAW: THE INFLUENCE OF LOGICAL RULES IN THE PHILOSOPHICAL UNDERSTANDING OF LAW

### SUMMARY

As it is already known, the law is a natural concept, thus the law is one of the most essential factors for the existing universe. Because rights have appeared not later, but since the creation of human-being. The study of such a concept solely on the basis of socio-political, economic and cultural aspects can not fully cover law. In order to deeply study the concept and essence of the concept of law, mental sciences are needed. One of such sciences is the science of logic, which is closely connected with legal principles. It is necessary to accept that in any judgment and decision, logical rules manifest themselves. Because the lawyer can not come to the conclusion only on the

basis of his knowledge and experience, whether any article is correct here is one of the main conditions, which is based on logical reasoning.

In the present study, the philosophical concept and essence of law, referring to the theory of philosophers, lawyers and philosophers of law, were analyzed not only in the philosophical and legal aspects, but also in reference to logical rules.

***Keywords:*** *philosophy of law, philosophers, philosophers of law, concept, essence, classical logic, community*

**Антига Пашаева**

*Старший научный сотрудник отдела «Исламской философии» Института Философии Национальной Академии Наук Азербайджана, доктор философии по философии*

## ФИЛОСОФИЯ ПРАВА: ВЛИЯНИЕ ЛОГИЧЕСКИХ ПРАВИЛ В ФИЛОСОФСКОМ ПОНИМАНИИ ПРАВА

### РЕЗЮМЕ

Как известно, право является естественным понятием, т.е. право является одним из основных факторов существующего мира, и так как права возникли не впоследствии, а вместе с человеком с момента его появления. Изучение подобного понятия лишь на основании общественно-политических, экономических, культурных аспектов не может полностью охватить право. Для более глубокого изучения понятия и сущности права возникает потребность в науках. Одной из таких наук является и логическая наука, которая тесно связана с принципами права. Следует отметить, что в вынесенном каком-либо приговоре и постановлении проявляются логические нормы. Поскольку правовед не может прийти к выводу, придерживаясь только своих знаний и практики, здесь достоверность какой-либо статьи составляет одно из ключевых условий, которое опирается на логическую мысль. В настоящем исследовании изучаются философское понятие и сущность права не только с философского и юридического аспектов, но и с точки зрения логических правил, ссылаясь на теории философов, правоведов и философов-правоведов.

***Ключевые слова:*** *философия права, философы, философы-юристы, право, понимание, сущность, классическая логика, общественность.*

D Ö V L Ə T İ D A R Ə Ç İ L İ Y İ
P U B L I C A D M I N I S T R A T I O N

UOT 328; 342.5; 351/354

**TARYEL MƏMMƏDOV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət qulluğu və kadr siyasəti kafedrasının doktorantı**
*e-mail: dia.maliyye@mail.ru*

# DÜNYA ÖLKƏLƏRİ VƏ AZƏRBAYCANDA DÖVLƏT XİDMƏTLƏRİNİN ELEKTRON FORMADA TƏQDİM EDİLMƏSİ

Müasir şəraitdə əhaliyə dövlət xidmətlərinin genişləndirilməsi inzibati islahatların səmərəli şəkildə aparılması ilə şərtlənir. İnzibati islahatların gedişində dövlət xidmətlərinin strukturu və xüsusiyyətlərinin optimallaşdırılması müasir dövlətin əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Dövlət idarəçiliyi sistemində davamlı islahatların həyata keçirilməsi istiqamətində dövlət hakimiyyəti orqanlarının fəaliyyəti vətəndaşlara keyfiyyətli dövlət xidmətlərinin göstərilməsinin təmin edilməsi məqsədinin reallaşmasına, onların keyfiyyətinin artırılmasına xidmət edir. Bu kontekstdə dövlət xidmətlərinin, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə göstərilməsi sisteminin yaradılması və onun təkmilləşdirilməsi müasir dövlətin həyata keçirdiyi inzibati islahatlar çərçivəsində yerinə yetirilməsi vacib olan vəzifədir. Xidmətlərin keyfiyyətinin artırılmasının əsas yollarından biri innovativliyin təmin edilməsi və elektron xidmətlərin tətbiqinin genişləndirilməsindən ibarətdir.

Dövlət xidmətlərinin elektron formada təqdim edilməsi istehlakçı üçün bu xidmətlərin alınması mərhələlərinin hamısından, yəni xidmət barədə informasiya ilə tanış olmaqdan tutmuş onun göstərilməsi nəticəsinin elektron kommunikasiya vasitələrinin köməyi ilə əldə olunmasınadək keçməsi imkanı nəzərdə tutur. Əhaliyə və biznesə hökümət xidmətlərinin göstərilməsinin optimallaşdırılması elektron dövlətin (hökumətin) əsas məqsədlərindən birini təşkil edir. Hazırda dünyanın aparıcı dövlətlərində olduğu kimi, Azərbaycan Respublikasında da elektron dövlətin (hökumətin) tətbiqi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Dövlət qurumları elektron hökumət portalı vasitəsilə vətəndaşlara öz xidmətlərini təklif edir, onların keyfiyyətli təqdim olunmasını, şəffaflığının və əlçatanlığının təmin edilməsini və son nəticədə vətəndaş məmnunluğuna nail olunmasını qarşıya qoyulmuş əsas hədəf hesab edir. Bütün bunlar dövlət xidmətlərinin elektron formada təqdim edilməsi modellərinin ABŞ, bəzi Avropa, Asiya ölkələri və Azərbaycanın təcrübəsi əsasında öyrənilməsinin həm nəzəri, həm də praktik baxımından aktual və əhəmiyyətli olduğunu göstərir.

## Elektron hökumət xidmətlərinin təqdim edilməsinin dünya təcrübəsi

Müasir elmi ədəbiyyatda elektron hökumət (E-Government) adını davamlı olaraq hakimiyyət orqanlarının əhali və vətəndaş cəmiyyəti institutları ilə qarşılıqlı informasiya əlaqələrini təmin edən internet texnologiyaları almışdır. Bu baxımdan XX əsrin sonunda populyarlıq almış elektron dövlət (hökumət) konsepsiyası dövlət hakimiyyəti orqanları və cəmiyyətin informasiya sahəsində qarşılıqlı əlaqələrini nəzərdə tutur. Bu qarşılıqlı

əlaqələrin əsas hərəkətvericisi kimi inkişaf edən informasiya-kommunikasiya texnologiyaları çıxış edir. Dövlət və əhalinin elektron qarşılıqlı əlaqələri "elektron hökumət" institutunun tətbiqi vasitəsilə reallaşır. "Elektron hökumət" (e-Government) hakimiyyət orqanlarının əhali və vətəndaş cəmiyyəti institutları ilə elektron qarşılıqlı əlaqələrini təmin edən internet texnologiyalarıdır. "Elektron hökumət" konsepsiyasında bütün icra hakimiyyəti orqanlar sistemi xalqa xidmət göstərmək təyinatına malik olan vahid servis təşkilatı kimi fəaliyyət göstərir [15, s.164].

Dünyada dövlət xidmətlərinin göstərilməsinin elektronlaşdırılmasının geniş vüsət alması elektron dövlət (hökumət) anlayışının yaranması və inkişafını stimullaşdırmışdır. Elmi ədəbiyyatda "elektron dövlət (hökumət)" və "servis dövləti" kateqoriyalarının məzmunca tam şəkildə üst-üstə düşməməsi söylənilir. Servis dövlətinin əsas məzmunu və sosial əhəmiyyəti onun sosial xidmətlərin təqdim edilməsi prosesi kimi başa düşülməsi ilə bağlıdır. Elektron hökumətin fəaliyyətinin əsas funksional məzmunu əhaliyə dövlət və bələdiyyə xidmətlərinin göstərilməsi keyfiyyətinin yaxşılaşdırılmasına yönələn informasiya-kommunikasiya proseslərinin təkmilləşdirilməsini nəzərdə tutur. Elektron hökumətin formalaşması dövlət xidmətləri sahəsinin, onlara nəzarət və planlaşdırılmasına dair kommunikativ texnologiyaların inkişaf etdirilməsini, istehlakçıların sorğularına (tələblərinə) müvafiq olaraq informasiyanın məqsədli spesifikləşdirilməsini, eləcə də internet mühitində müxtəlif istifadə olunan informasiya servislərinin inkişafını nəzərdə tutur. Elektron dövlətin (hökumətin) servis dövləti kimi üstünlükləri, birincisi, dövlət hakimiyyətinin icra orqanlarının əhalinin müxtəlif sosial qruplarının tələbatlarına məqsədli şəkildə oriyentasiyası; ikincisi, istifadəçilərin tələbləri vasitəsilə interaktiv kommunikasiya və əks əlaqə prinsiplərinə müvafiq olaraq "çevik reaksiyaya" əsaslanan yeni idarəetmə keyfiyyətləri; üçüncüsü, dövlət xidmətlərinin geniş istehlakçılar dairəsinə keyfiyyətli təqdim edilməsi əsasında dövlətin sosial funksiyalarının gerçək imkanları; dördüncüsü, bürokratik strukturların mərkəzsizləşdirilməsi (desentralizasiyası) və qərarların qəbul edilməsi proseslərinin açıqlığı; beşincisi, idarəetmə proseslərinə vətəndaş nəzarəti imkanları ilə müəyyən olunur [13, s.13-14].

Müasir dövrdə menecerial yanaşma servis dövləti konsepsiyasına transformasiya olmuş, bu konsepsiya elektron idarəetmənin dövlət institutlarının məqsədli vəzifələrinə və funksiyalarına tətbiqi baxımından elektron idarəçiliyi konkretləşdirir. Bu zaman elektron idarəetmə idarələrarası qarşılıqlı əlaqələri və vətəndaşların (təşkilatların) və dövlətlərin informasiya kommunikasiyasını təmin edən inteqrasiya edən çoxsəviyyəli informasiya sistemlərinin yaradılması ilə əlaqələndirilir. Müvafiq olaraq elektron dövlətin (hökumətin) inkişaf strategiyası, birincisi, idarəetmə infrastrukturunun, yəni texniki-texnoloji informasiyalaşdırma proseslərinin və inteqrasiya edən informasiya mühitinin inkişafının dəstəklənməsinə, ikincisi, idarəetmə proseslərinin inkişafı tələbatlarına uyğun olaraq kommunikasiya servislərinin formalaşmasına və informasiya mübadiləsi yarımsistemlərinin differensiasiyasına istiqamətlənməsi ilə müəyyən olunur [11, s.14-15]. Elektron dövlətin inkişafı strategiyası idarəetmə proseslərinin müstəqil şəkildə qərarlar qəbul edən və vətəndaşlar qarşısında hesabat verən inzibati strukturların üfiqi qarşılıqlı əlaqələrinin inkişaf etdirilməsi əsasında mərkəzsizləşdirilməsini, vətəndaşlar və təşkilatların idarəetmə proseslərində iştirakını təmin edən çoxsaylı kommunikasiya servislərinin inkişafını nəzərdə tutur [13, s.14].

Müasir yanaşmalar çərçivəsində tarixi amillərdən və vətəndaşların dövlət aparatı ilə qarşılıqlı üsullarından asılı olaraq elektron hökumətin işləməsi modelləri kimi kontinental – Avropa (Avropa ölkələri), ingilis – amerikan

(ABŞ, Böyük Britaniya, Kanada), Asiya və Rusiya modelləri ayrılır [12, s.26]. Bundan başqa, E-hökumətin Qərb və Şərq modelləri də ayrılır: Qərb modelində əsasən ABŞ və Kanadanın təcrübəsi, Şərq modelində isə Sinqapur və Cənubi Koreyanın elektron hökumət nümunələri önə çəkilir [9, s. 17].

Həmin modellərin bəzilərinin xüsusiyyətlərini nəzərdən keçirmək olar. Kontinental-Avropa modelini səciyyələndirən əlamətlər kimi, tövsiyələrini Avropa İttifaqı ölkələrinin hamısının qəbul etdiyi Avropa Komissiyası, Avropa Parlamenti və Avropa Məhkəməsi kimi ümumi dövlət institutlarının mövcud olması; informasiya-kommunikasiya texnologiyaları və informasiya axınları, eləcə də bu sahədəki münasibətlər Aİ-nin bütün ərazisində sərt şəkildə tənzimlənir və s. Bu model çərçivəsində Avropa İttifaqı ölkələri öz fəaliyyətində ən qabaqcıl informasiya-kommunikasiya texnologiyalarından istifadə edir, dövlət idarəçiliyi vətəndaşlara, digər istiqamətlərlə yanaşı, maksimum komfortlu şəraitdə dövlət və bələdiyyə xidmətlərini almaq imkanı verir. Amerika modeli Avropa dövlət idarəçiliyi sistemlərinin elektron hökumətin tətbiq edilməsi ilə qurulması modellərindən çox fərqlənir, bu isə dövlət orqanları sistemi, eləcə də Amerika cəmiyyətinin mentaliteti və ənənələri ilə şərtlənir. Əksər inkişaf etmiş ölkələr kimi, ABŞ da e-Hökumətdən istifadə etməklə dövlət idarəetməsinə keçid sistemini ötən əsrin 90-cı illərində işləmişdir. Bu keçid "İnformasiya azadlığı haqqında" Qanuna (The Freedom of Information Act) düzəlişlərlə və informasiya-kommunikasiya texnologiyalarından istifadə edərək dövlət idarəçiliyini tənzimləyən yeni qanunların qəbul edilməsi ilə başlamışdır. Bu normativ-hüquqi aktlara əsasən ABŞ-da e-Hökumətdən istifadə etməklə dövlət idarəetməsinə keçid və hökumət işinin keyfiyyətinin yaxşılaşdırılması metodlarını informasiyaya əlçatanlığın sadələşdirilməsi; informasiya axtarışının asanlaşdırılması; elektron sənəd dövriyyəsi və elektron ticarətin inkişaf etdirilməsi; dövlət orqanlarının təkrarlanan funksiyalarının aradan qaldırılması; vətəndaşlara və təşkilatlara keyfiyyətli dövlət xidmətlərinin təqdim edilməsi və s. təşkil edirdi. ABŞ-da elektron-hökumət mexanizmlərinin dövlət idarəetməsinə tətbiq edilməsində məqsəd federal büdcənin nəhəng bir dövlət aparatına xərclənməsinin azaldılması və vətəndaşlara göstərilən dövlət xidmətlərinin keyfiyyətinin artırılmasından ibarət olmuşdur [12, s.27].

Elektron hökumətin Şərq modelinin əsas nümunələrindən biri kimi 2000-ci ildən «E-hökumət» Dövlət Proqramının reallaşmasına başlamış və ən inkişaf etmiş bir səviyyəyə çatmış Sinqapuru göstərmək olar. Sinqapurda əvvəllər müxtəlif nazirliklərin və təşkilatların göstərdikləri xidmətlər birləşdirilərək inteqrasiya olunmuş şəkildə «E-hökumət» portalı çərçivəsində hökumət portalında cəmləşdirilmişdir. Vətəndaşlar onlar üçün daha münasib vaxtda ev, yaxud iş kompüterlərindən istifadə etməklə elektron hökumət xidmətlərindən istifadə edirlər. Xüsusilə bu ölkədə İT-nin biznes sahəsinə və vətəndaşların gündəlik həyatına tətbiqində böyük nailiyyətlər əldə olunmuşdur. E-Citizen (e-vətəndaş) portalı elektron hökumətin əsas proqramlarından biri kimi əvvəllər müxtəlif hökumət təşkilatlarının təqdim etdikləri xidmətləri inteqrasiya olunmuş bir xidmət zərfi kimi əhaliyə təqdim edir. Sinqapurun hər bir vətəndaşı «Elektron vətəndaş» (e-Citizen, www.ecitizen.gov.sg) portalında təqdim olunan xidmətlərdən geniş istifadə imkanlarına malikdir. O, portala daxil olaraq bu və ya digər dövlət təşkilatları barədə informasiya almaqla bərabər qısa müddətdə həyati vacib əməliyyatlar da apara bilir. 1,5 milyard dollar həcmində büdcəsi olan bu layihə çərçivəsində "Singapore Government Online" ("Dövlət Portalı") və "e-Citizen" ("Elektron vətəndaş") servis mərkəzi yaradılmışdır. Təhsil, sosial və mədəni sahələr üzrə bütün təşkilatlar dövlət portalında interaktiv xidmət göstərirlər [9, s.19].

Cənubi Koreyada isə elektron hökumətin tətbiqi istiqamətində sıçrayışa səbəb olan addım 2002-ci ildə «www.egov.go.kr» portalının yaradılması olmuşdur. Bu portalın fəaliyyətə başlaması Koreyanın elektron xidmətlər üzrə dünyanın aparıcı dövlətləri sırasında ön yerlərdən birini tutması ilə nəticələnmişdir. Hazırda Koreyanın e-hökumət portalında dörd yüzə yaxın xidmət və dörd min kateqoriya üzrə informasiya cəmləşmişdir. Bundan başqa, Koreyada e-hökumət sisteminin tamamlanmasını təmin edən "Korean Electronic Government" veb-saytı da istifadəyə verilmişdir. "Korean Electronic Government" www.korea.go.kr saytları bütün inzibati strukturları əhatə edən informasiya sistemindən istifadə edir. İnternet vasitəsilə 393 əsas məsələ barədə sorğu vermək və 4 min kateqoriya üzrə lazımi məlumatlar almaq olur. Daxili İşlər Nazirliyinin inteqrasiya olunmuş internet xidməti dünyada bu sahədə birincidir [18]. Koreyada e-hökumətin tətbiqinin nəyin hesabına uğurlu olmasını öyrənən tədqiqatçılar bu sahədə zəruri kompleks imkanlardan istifadə olunduğunun vacibliyini göstərirlər. Ölkənin uğurları sıx əməkdaşlıq, biliklərin əldə olunması, siyasət və institutlardan istifadə kimi üç imkanlar nöqteyi nəzərindən araşdırılır və belə nəticəyə gəlinir ki, prezidentə birbaşa tabeçilik, çebollar (Cənubi Koreya maliyyə - sənaye qrupları forması) və hökumət dairəsinin yaradılması, İKT infrastrukturuna daimi investisiyalar və müvafiq qanunvericiliyin qəbul edilməsi uğur üçün çox vacibdir [17].

Asiya modeli haqqında danışarkən qeyd etmək lazımdır ki, Asiya ölkələrində idarəetmə aşağı səviyyəli vəzifələrin daha yüksək vəzifələrə tabeçiliyi kimi dəqiq iyerarxiyaya əsaslanan xüsusi bir spesifiklik və korporativ mədəniyyətlə xarakterizə olunur.

Rusiyada dövlət xidmətlərinin elektron formada göstərilməsi üzrə iş 2005-ci ildən RF Rabitə Nazirliyi tərəfindən başlamış, hazırda bu ölkədə elektron xidmətlərdən vətəndaşların 30%-dən çoxu istifadə edir. "İnformasiya cəmiyyəti (2011-2020)" dövlət proqramının reallaşdırılması çərçivəsində RF hökuməti əhaliyə dövlət və bələdiyyə xidmətlərinin elektron formaya keçirilməsi üçün 74 federal xidmət, 56 regional və bələdiyyə xidmətlərini müəyyən etmişdi. Aparılan işlər nəticəsində 2009-cu ilin dekabr ayında Rusiyanın elektron hökümətinin elementini təşkil edən "Dövlət və bələdiyyə xidmətlərinin Vahid portalı" (www.gosuslugi.ru) Federal dövlət sistemi fəaliyyətə başlamışdır. Təyinatına uyğun olaraq Vahid portalda xidmətlər reyestrində göstərilən məlumatlara uyğun olaraq dövlət xidmətləri və ictimai funksiyalar haqqında məlumatların yayımlanması; dövlət xidmətinin (funksiyanın) alınması üçün tələb olunan ərizə formasının və digər sənədlərin təqdim edilməsi; dövlət xidmətlərinin göstərilməsi və ya dövlət funksiyalarının icrası gedişatının monitorinqinin keçirilməsi imkanının təmin edilməsi və s. nəzərdə tutulur [14]. Vahid portal dövlət və bələdiyyə xidmətləri haqqında məlumatların əlçatanlığını və şəffaflığını təmin edir, müraciətlərin elektron formada təqdim edilməsinə, məsafədən xidmətlərin göstərilməsi gedişini izləməyə imkan verən bir sıra servisləri təqdim edir. İstifadəçilərin vahid dövlət xidmətləri portalında qeydiyyatı üçün yeni sadələşdirilmiş prosedur hazırlanmışdır. Əvvəlkindən fərqli olaraq indi dövlət xidmətləri portalında qeydiyyat mobil telefondan və onlayn qaydada həyata keçirilir. Bununla yanaşı, elektron formada dövlət xidmətlərinin göstərilməsinin inkişafına bəzi amillər müəyyən dərəcədə maneçilik edir: qeydiyyat sisteminin mürəkkəb olması, elektron dövlət xidmətlərinin alınmasının üstünlükləri barədə vətəndaşların kifayət qədər məlumatlı olmaması, əhalinin informasiya savadlılığı səviyyəsinin aşağı olması və s. [20].

Bu sahədəki Rusiyanın spesifikası ondan ibarətdir ki, orada regional dövlət və bələdiyyə xidmətləri portalları da işləyir. Regional səviyyədə uğurla işləyən dövlət xidmətləri portallarına misal olaraq Moskva şəhər

(mos.gosuslugi.ru), Tatarıstan Respublikası portallarını göstərmək olar [21].

Təhlillər əsasında göstərmək olar ki, elektron hökumətin tətbiqi dövlət xidmətlərinin göstərilməsi zamanı çevikliyin, şəffaflığın təmin olunması və səmərəliliyin nail olunmasına imkan verir. Bu baxımdan, aşağıda qeyd edilən xüsusiyyətlər onun səmərəliliyini təmin edir:

-elektron hökumət vətəndaşlara, onların dövlət hakimiyyəti orqanları ilə ünsiyyət formalarından asılı olmayaraq, xidməti təmin edir;

-xərclərinin həcmini əhəmiyyətli dərəcədə aşağı salır və bizneslə hökumət arasındakı qarşılıqlı ünsiyyəti sadələşdirir;

-fiziki imkanları məhdud insanların dövlət idarəçiliyi strukturlarına çıxışını təmin edir;

-hökumətin fəaliyyətinin şəffaflığını və onun məsuliyyətini artırır və s.

Elektron hökumət (e-Government) müvafiq olaraq hökumətin fəaliyyətinin əməliyyat və ya icra sahəsini əhatə edir və vətəndaşların müvafiq istiqamətdə dəqiq informasiyalar əldə etmələrini, əhali ilə hakimiyyət strukturları arasında qarşılıqlı fəaliyyət üçün şəraitin yaradılmasını təmin edir. Xüsusilə də, vətəndaş cəmiyyəti institutları və biznes ilə dövlət idarəçiliyi orqanları arasında dialoqun inkişaf etdirilməsi və təmasların sıxlaşdırılması elektron hökumət konsepsiyasının əsas prinsiplərdəndir [16].

Beləliklə, dövlətin idarə olunmasında və cəmiyyətin həyatında informasiya-kommunikasiya texnologiyalarının səmərəli tətbiqi üçün dünya dövlətləri elektron hökumət sistemlərindən istifadə etməklə dövlət idarəetməsi modellərini işləyir və inkişaf etdirir ki, bu modellər də mütləq şəkildə özünə ölkə ərazisində rabitə şəbəkələrinin yayılmasını, İnternetin sürətinin artırılmasını, göstərilən dövlət xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılmasını, həmçinin informasiyanın əlçatanlığının artırılmasını daxil edir. Bütün bunlar isə əhalinin elektron hökumətə, eləcə də dövlət qurumlarının özlərinə etimad səviyyəsini artırır və büdcə vəsaitinə xeyli miqdarda qənaət edilməsinə imkan verir. Bundan əlavə, e-hökumət vasitələrindən istifadə edərək dövlət idarəçiliyinin uğurla həyata keçirilməsində məmurların və ölkə əhalisinin kompüter savadlılığı səviyyəsinin, eyni zamanda yeni texnologiyalara inamın artırılması vacibdir.

**Azərbaycan Respublikasında dövlət xidmətlərinin elektronlaşdırılması təcrübəsi**

Ulu öndərimiz Heydər Əliyevin dövlət idarəçiliyi sahəsində həyata keçirdiyi islahatlar nəticəsində əhaliyə göstərilən dövlət xidmətlərinin genişləndirilməsi və keyfiyyətinin artırılması üçün geniş zəmin yaradılmışdır. Bu siyasət çərçivəsində dövlət xidmətlərinin göstərilməsində informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsini xüsusi ilə qeyd etmək lazımdır ki, bunun da təməli ölkəmizdə İKT-nin inkişafında böyük rolu olan Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş, bu siyasət dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə, bütün sahələrdə olduğu kimi, uğurla davam etdirilir.

Azərbaycanda dövlət xidmətlərinin göstərilməsinin keyfiyyətinin artırılması, o cümlədən bu sahədə İKT-nin tətbiqi, xidmətlərin elektronlaşdırılması və “bir pəncərə” prinsipi ilə təqdimatı istiqamətində mühüm addımlar atılır. Atılan addımlar içərisində elektron hökumətin tətbiqi mühüm yer tutur. Ölkəmizdə gerçəkləşən «Elektron hökumət» layihəsi beynəlxalq təcrübəyə və Ümummilli lider Heydər Əliyevin «Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiyanın (2003-2012-ci illər) təsdiq edilməsi haqqında» 17 fevral 2003-cü il tarixli 1146 nömrəli Sərəncamına əsaslanır [1].

Elektron hökumətə keçidin təmin olunmasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycan Respublikasında rabitə və informasiya

texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı»nın (Elektron Azərbaycan)» təsdiq edilməsi haqqında» 11 avqust 2010-cu il tarixli Sərəncamı, eləcə də «Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» 23 may 2011-ci il tarixli Fərmanı xüsusi əhəmiyyət kəsb etmişdir. Prezidentin həmin Fərmanı ölkədə «elektron hökumət»in formalaşdırılması və elektron xidmətlərin inkişaf etdirilməsinə, «elektron hökumət» infrastrukturunun əsas komponentlərindən olan «elektron hökumət» portalının yaradılmasına xidmət etməklə, portalın yaradılması Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə tapşırılmış, bununla da «elektron hökumət» portalının fəaliyyətinin təşkili və ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlərin görülməsinə başlanılmışdır [2].

Portala (https://www.e-gov.az/) qoşulmuş mərkəzi icra hakimiyyəti orqanları göstərəcəkləri elektron xidmətləri Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nomrəli qərarı ilə (1 nomrəli əlavə) təsdiq edilmiş Qaydalara uyğun şəkildə təqdim edirlər. Göstərilən elektron xidmət novlərinin hər bir mərkəzi icra hakimiyyəti orqanı üzrə siyahısı da Nazirlər Kabinetinin həmin qərarı ilə (2 nomrəli əlavə) təsdiq olunmuşdur [22]. Beləliklə də, mərkəzi icra hakimiyyəti orqanları müvafiq olaraq göstərilməsi nəzərdə tutulan elektron xidmət növlərinin konkret siyahısını portal vasitəsilə əhaliyə təqdim edirlər. Məsələn, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi – 27, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi – 59, İqtisadiyyat Nazirliyi – 106, Səhiyyə Nazirliyi – 31, Dövlət İmtahan Mərkəzi – 21, Kənd Təsərrüfatı Nazirliyi – 22 adda elektron xidmətlər təklif edirlər [19]. Bundan başqa, portalda bütün elektron xidmətlərin, həmçinin elektron ödənişlər, elektron arayışlar, həyat hadisələri, bank və sığorta xidmətləri, qurumlara aid müraciətlər üzrə qruplaşmış, eləcə də yerli icra hakimiyyəti orqanlarının portala inteqrasiya olunan bütün elektron xidmətlərinin siyahısı təqdim olunur.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2013-cü il tarixli 813 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Elektron hökumət» portalı haqqında» əsasnaməyə görə, portal (https://www.e-gov.az/) dövlət orqanlarının elektron xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim olunmasına, istifadəçilərin onlardan istifadəsinə, dövlət orqanlarının portala qoşulmuş informasiya sistemlər və ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) müvafiq sənədlər barədə qanunla müəyyən edilmiş qaydada informasiya əldə edilməsinə xidmət edir. İstifadəçiləri fiziki və hüquqi şəxslər, dövlət qurumları olan portalın fəaliyyəti modulluq və miqyaslılıq; sərbəstlik; sistemlilik; təhlükəsizlik; istifadə asanlığı; səmərəlilik və şəffaflıq prinsiplərinə əsaslanır [6].

Azərbaycanda elektron hökumətin, ümumilikdə ölkədə elektron xidmət prosesinin konseptual inkişafı, həmçinin monitorinqini Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2012-ci il tarixli Fərmanı ilə yaradılmış Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşların Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi həyata keçirir. Qeyd etmək lazımdır ki, Dövlət Agentliyinin yaradılması dövlət xidmətlərinin göstərilməsi səviyyəsinin, keyfiyyətinin artırılması istiqamətində ən mühüm institusional addım olmuşdur. Bu zaman əsas məqsəd dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsinin, vətəndaş məmnunluğunun təmin olunmasının zəruriliyini nəzərə alaraq, dövlət xidmətlərin təkmilləşdirilməsi, elektron xidmətlərə keçidin sürətləndirilməsi olmuşdur [3]. Bu istiqamətdə Dövlət Agentliyinin üzə-

rinə Azərbaycan Respublikası Prezidentinin «Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında» 11 sentyabr 2014-cü il tarixli, 262№-li Fərmanı ilə qoyulmuş vacib vəzifələrdən biri dövlət xidmətləri haqqında məlumatların vahid mənbədə toplanması və sistemləşdirilməsi, bu sahədə idarəetmənin çevikliyinin təmin edilməsi məqsədi ilə yaradılmış Dövlət Xidmətlərinin Elektron Reyestrinin təşkili və fəaliyyətinin təmin edilməsi olmuşdur. Bundan başqa, Prezidentin həmin Fərmanına əsasən Dövlət Agentliyi Elektron Reyestrə daxil olunan xidmətlərin qiymətləndirilməsini də aparır. Qeyd edək ki, qiymətləndirmə «ASAN xidmət indeksi»ni təşkil edən aşağıdakı parametrlər rəhbər tutulmaqla həyata keçirilir:

- xidmət barədə məlumatlandırma (xidmət üçün tələb olunan sənədlər və xidmət haqları barədə məlumatlandırma, sorğu xidmətinə edilən müraciətlərin cavablandırılma operativliyi və s.);
- xidmətə müraciət imkanları (elektron, poçt, birbaşa);
- xidmətin göstərilmə müddəti;
- xidmətin təşkilində istifadə edilən informasiya ehtiyatlarının elektronlaşdırılması və digər dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiyası;
- xidmətlərin təşkili ilə bağlı əməkdaşlara təlim keçilməsi;
- şikayət və nəzarət mexanizmləri;
- vətəndaş məmnunluğunun ölçülməsi mexanizmləri [4].

Prezidentin Fərmanına müvafiq olaraq Dövlət Agentliyinin Kollegiyasının 17 oktyabr 2016-cı il tarixli 1/1-06 nömrəli qərarı ilə «Dövlət xidmətlərinin «ASAN xidmət indeksi» üzrə qiymətləndirilməsi Qaydaları» təsdiq edilmişdir. Qaydalarda «ASAN xidmət indeksi» hər bir dövlət xidmətinin təşkili və göstərilməsi üzrə cari vəziyyətin bu Qaydalara uyğun qiymətləndirilməsi nəticəsində müəyyən edilən ölçü vahidi kimi verilir. Qaydalarda bu indeks üzrə qiymətləndirmənin hər bir dövlət xidməti barədə üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulur: məlumatların toplanması; toplanmış məlumatların təhlili və Dövlət Agentliyi tərəfindən qiymətləndirmənin aparılması; qiymətləndirmə nəticələrinin sistemləşdirilməsi, nəticələrə dair arayış və hesabatların hazırlanması [7].

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda elektron hökumətin tətbiqi, dövlət xidmətlərindən vətəndaşların keyfiyyətli şəkildə istifadəsinin təmin olunması beynəlxalq qurumların hesabatlarında da öz əksini tapır. Məsələn, BMT-nin hesabatına görə, Elektron hökumətin inkişaf indeksi («E-government development index») üzrə Azərbaycan 2016-cı ildə 2014-cü il ilə müqayisədə dünyanın 193 ölkəsi arasında 12 pillə irəliləyərək 56-cı yerdə qərarlaşmış, Asiya regionu üzrə 11-ci, MDB ölkələri üzrə sıralamada isə 4-cü yeri tutmuşdur. Bundan sonrakı dövrdə də bu müsbət tendensiya saxlanılır [10, s.80].

Azərbaycanda elektron hökumətin tətbiqinin uğurlu olmasında dövlətimiz tərəfindən bu sahədə normativ-hüquqi bazanın yaradılması və inkişaf etdirilməsinin, həmçinin dövlət hakimiyyəti orqanlarının müvafiq olaraq öz fəaliyyətlərinin yenidən qurulmasına hazır olmaları əhəmiyyətli olmuşdur. Bütün bunlar isə elektron hökumətin və informasiya cəmiyyətinin inkişaf etdirilməsinin milli strategiya məsələsi olduğunu göstərir. Məhz bundan çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi üçün dövlət xidmətlərinin tam elektronlaşdırmaq və bu sahədə bir sıra vəzifələrin yerinə yetirilməsində vahid yanaşmanın, standartların tətbiqi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zəruriliyini nəzərə alaraq «Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında» 14 mart 2018-ci il tarixli (№ 1885) Fərmanı

imzalamışdır. Fərmanda müvafiq dövlət qurumları qarşısında bir sıra konkret vəzifələr qoyulmuş, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə bu sahədə dövlət siyasətinin həyata keçirilməsi, «Elektron hökumət» portalının idarə olunması və fəaliyyətinin təmin edilməsi və təkmilləşdirilməsi, portal vasitəsilə elektron xidmətlərin göstərilməsinin təşkil edilməsi, onların, o cümlədən dövlət-biznes (G2B – government to business), biznes-dövlət (B2G – business to government) elektron xidmətlərinin inkişafı ilə bağlı tədbirlərin görülməsi tapşırılmışdır. Fərmanda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi məqsədilə Agentliyin tabeliyində «Elektron Hökumətin İnkişafı Mərkəzi» publik hüquqi şəxs yaradılmışdır [5].

Geniş funksional təyinata malik olan «Elektron Hökumətin İnkişafı Mərkəzi» öz fəaliyyət istiqamətləri ilə elektronlaşdırılmış dövlət xidmətləri, e-vizanın verilməsi və rəqəmsal ödəniş sistemləri üzrə xidmətləri əhatə edir və həmin sahələr üzrə xidmət keyfiyyətinin, vətəndaş məmnunluğunun artırılması məqsədilə dünya təcrübəsindən istifadə etməklə, həmçinin vətəndaşların ehtiyaclarını nəzərə alaraq fəaliyyətini innovativ yeniliklərdən istifadə etməklə qurur [8].

Beləliklə, təhlillər göstərir ki, müasir dövrdə dünya ölkələrində dövlət xidmətlərinin göstərilməsinin elektronlaşdırılmasının getdikcə geniş vüsət aldığı bir vaxtda həm dünya miqyasında, həm də Azərbaycanda elektron dövlət xidmətlərinin daha keyfiyyətli göstərilməsi mərhələləri yaşanmaqdadır. Bütün bunlar isə dövlət idarəetməsi sisteminin çevikliyini təmin etmək, vətəndaşlara daha keyfiyyətli xidmət göstərmək məqsədini daşıyır. Vətəndaşlar tərəfindən dövlət xidmətlərinin elektron qaydada alınmasının üstünlüklərini bu xidmətlərin təqdim olunması vaxtının azaldılması; vətəndaşların və hüquqi şəxslərin maliyyə xərclərinin azalması; elektron sənəd dövriyyəsinin tətbiqi ilə əlaqədar bürokratik gecikmələrin aradan qaldırılması; korrupsiya risklərinin azalması və s. təşkil edir.

Hazırda Azərbaycanda dövlət xidmətlərinin «bir pəncərə» sistemi ilə elektron qaydada təqdim edilməsi istiqamətində böyük nailiyyətlər əldə edilmişdir. Yaradılmış vahid internet portalında dövlət qurumları özlərinin elektron xidmətlərini təqdim edirlər ki, bu da vətəndaşlar tərəfindən bu xidmətlərdən istifadəni xeyli asanlaşdırmışdır. Dövlət xidmətlərinin daha keyfiyyətli şəkildə təqdim edilməsi və bu sahədə səmərəliliyin, şəffalığın, operativliyin təmin edilməsində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, eləcə də onun nəzdində geniş fəaliyyət göstərən ASAN xidmət mərkəzləri xüsusi rol oynayırlar. Dövlət Agentliyi tərəfindən həmçinin müəyyən edilmiş hüquqi əsaslara müvafiq olaraq təqdim olunan dövlət xidmətlərinin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsi də həyata keçirilir, nəticələr ictimaiyyətə açıqlanır və bununla bağlı hesabat ölkə Prezidentinə təqdim edilir.

Dünya dövlətləri və Azərbaycanın təcrübəsi dövlət xidmətlərinin elektron formada təqdim edilməsinin vətəndaş və dövlət arasında yeni qarşılıqlı münasibətlər sisteminin yaradılmasının şərtləndirdiyini göstərir. Bu yeni münasibətlər çərçivəsində dövlət xidmətlərinin elektron formada təqdim edilməsinin inkişaf etdirilməsində vətəndaşların elektron dövlət xidmətləri barədə məlumatlılığının artırılması, həmçinin əhalinin bu informasiya texnologiyaları sahəsində biliklərinin genişləndirilməsi, onların elektron kommunikasiya üsulları və vasitələrinə inam və etimadının da artırılması vacibdir. Bu baxımdan, birincisi, dövlət xidmətləri portalında elektron xidmətlərin istifadəsinin genişləndirilməsi və sadələşdirilməsi; ikincisi, dövlət xidmətlərinin elektron formada alınmasının üstünlüklərinin

təbliğ edilməsi kimi prioritet vəzifələrin yerinə yetirilməsi elektron hökumətin optimallaşdırılmasına yönəlir. Bütövlükdə, elektron dövlət xidmətləri servislərinin əhali arasında populyarlaşdırılması bütün səviyyələrdə hakimiyyət strukturları qarşısında duran başlıca vəzifədir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiyanın (2003-2012-ci illər) təsdiq edilməsi haqqında " Sərəncamı. 17 fevral 2003-cü il // http://e-qanun.gov.az/framework/1969
2. Azərbaycan Respublikası Prezidentinin “Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Fərmanı. 23 may 2011-ci il // http://e-qanun.gov.az/framework/23874
3. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanı. 13 iyul 2012-ci il //http://e-qanun.gov.az/framework/23926
4. Azərbaycan Respublikası Prezidentinin “Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında” Fərmanı. 11 sentyabr 2014-cü il, № 262 // http://www.e-qanun.az/framework/28319
5. Azərbaycan Respublikası Prezidentinin “Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında” Fərmanı. 14 mart 2018-ci il, №1885 // http://www.e-qanun.az/framework/38229
6. Elektron hökumət” portalı haqqında Əsasnamə. Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2013-cü il tarixli Fərmanı təsdiq edilmişdir.
7. Dövlət xidmətlərinin “ASAN xidmət indeksi” üzrə qiymətləndirilməsi Qaydaları // http://www.e-qanun.az/framework/34012
8. Elektron Hökumətin İnkişafı Mərkəzi // https://www.digital.gov.az/page/haqqimizda
9. Orucova M., Səfərova Ü. E-hökumətin iki modeli və onun inkişaf perspektivləri // ADAU-nun Elmi Əsərləri. Gəncə, 2018, № 2. S. 17-21, s.17-18
10. Yusifov F.F., Qurbanlı A.E. Elektron dövlət platformasında xidmətlərin qiymətləndirilməsi meyarları: Azərbaycan təcrübəsi // İnformasiya cəmiyyəti problemləri, 2018, № 2.S. 76-84
11. Бачило И. Л. Электронное правительство и инновации в области государственных функций и государственных услуг // Информационные ресурсы России. 2010. № 1. с.13-17.
12. Ботнев В.К. Зарубежный опыт построения электронного правительства // Социально-политические науки 2018, № 1.с.26-28. S.26
13. Васильева Е.Г., Кононенко Д.В. Современные интерпретации концепции электронного государства (электронного правительства) // Вестн. Волгогр. гос. ун-та. 2016. № 1 (30).С.9-16. с. 13-14
14. Единый портал государственных и муниципальных услуг (функций) ЕПГУ //https://digital.gov.ru/ru/activity/govservices/infosystems/20/

15. Ирхин Ю. «Электронное правительство»: теория и практика // «Государственная Служба», 2008, №4, С.163-173 // http://www.elibrary.az/docs/jurnal/jrn2008_743j.htm
16. Bhatnagar S. E-Government: from Vision to Implementation, Sage Publications, New Delhi / Thousand Oaks. L., 2005. P. 29–30.
17. Park T.-Y., Kim J.-Y. The capabilities required for being successful in complex product systems: case study of Korean e-government // Journal Asian Journal of Technology Innovation. Volume 22, 2014 - Issue 2. P. 268-285 // https://www.tandfonline.com/doi/abs/10.1080/19761597.2014.973166
18. Song H. (2006). "E-Government in developing countries: Lessons learned from Republic of Korea", Bangkok:UNESCO // https://unesdoc.unesco.org/ark:/48223/pf0000155663
19. https://www.e-gov.az/az/services/index
20. https://www.gosuslugi.ru/help/news/2019_12_16_10_years
21. http://msu.tatarstan.ru/rus/index.htm/news/1032169.htm
22. https://edu.gov.az/az/pdf/451/4756

***Açar sözlər:*** *dövlət xidmətlər, keyfiyyətin yaxşılaşdırılması, elektron dövlət (hökumət), elektron xidmətlər, əsas modellər, dövlətlərin təcrübəsi, xidmət keyfiyyətinin qiymətləndirilməsi*

**Taryel Mammadov**
*PhD candidate, Department of the State Service and Personnel Policy,*
*Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## THE PROVISION OF PUBLIC SERVICES IN ELECTRONIC FORM

### SUMMARY

In the article on the example of a number of leading countries and Azerbaijan examines the experience of providing electronic public services, in the context of the conceptual approaches put forward, the essence and advantages of the electronic state (government) as a service state are revealed, the existing models of its functioning in the world are considered, in particular, continental European, Anglo-American, Asian, Russian, as well as Western and Eastern models, in this context, the experience of the USA, the EU, Singapore, South Korea, and Russia in improving the quality of public services and providing them in electronic form is analyzed. A special place is given to covering the experience and achievements of the Republic of Azerbaijan in this area, as well as to assess the quality of the provided public services, which is carried out in accordance with the "ASAN Service Index". In general, the popularization of e-government services among the population is considered the main task of government bodies at all levels.

***Keywords:*** *public services, quality improvement, e-government, electronic services, basic models, state experience, service quality assessment*

**Тариэль Мамедов**
*Докторант кафедры Государственной службы и кадровой политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ПРЕДОСТАВЛЕНИЕ ГОСУДАРСТВЕННЫХ УСЛУГ В ЭЛЕКТРОННОЙ ФОРМЕ

### РЕЗЮМЕ

В статье на примере ряда ведущих стран и Азербайджана изучается опыт предоставления электронных государственных услуг, в контексте выдвинутых концептуальных подходов раскрывается сущность и преимущества электронного государства (правительства), как сервисного государства, рассматриваются существующие в мире модели его функционирования, в частности, континентально-европейская, англо-американская, азиатская, российская, а также западная и восточная модели, в этом контексте анализируется опыт США, стран ЕС, Сингапура, Южной Кореи, России по повышению качества государственных услуг и предоставлению их в электронной форме. Отдельное место отводится освещению опыта и достижений Азербайджанской Республики в данной сфере, а также осуществлению оценки качества предоставленных государственных услуг, которая проводится в соответствии с «Индексом обслуживания ASAN». В целом, популяризация услуг электронного правительства среди населения считается основной задачей государственных органов всех уровней.

***Ключевые слова:*** *государственные услуги, повышение качества, электронное государство (правительство), электронные услуги, основные модели, опыт государств, оценка качества услуг*

**D A V A M L I İ N K İ Ş A F I N İ D A R Ə E D İ L M Ə S İ**
**S U S T A I N A B L E D E V E L O P M E N T M A N A G E M E N T**

UOT 354

**YUSIF HUSEYNOV**
**Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in Political Science**
*e-mail: huseynoff@live.com*

# DISASTER RISKS REDUCTION IN THE ENERGY AND TRANSPORTATION INFRASTRUCTURE OF AZERBAIJAN

## 1. Introduction

Based on the contemporary global disaster rates, world industry, especially crude oil and natural gas projects are under threat from many disaster risks. These projects that consists of huge investments and complex technologies can receive negative impacts from any disaster events which can occur any time in any part of the world. Disasters are a subject to uncertainty and can happen at an unknown time and location and cannot be prevented. However, by inducing risk factors and threat assessment analyses within these industries, can minimize the negative impacts in the long term. For this reason, with the help of the human resource professionals, drafting and adopting a specific disaster risk reduction strategy in the energy and transportation infrastructure could help Azerbaijan to reduce the impacts of the disaster to minimum (1). This approach will not only contribute to the security of these projects but also improve the preparedness and reduce the environmental and economic impacts.

Located on the western shores of the Caspian basin and surrounded with South Caucasus mountains, the Republic of Azerbaijan has a high risk of disasters. Occasionally, floods, landslides, biological hazards, earthquakes, storms, hails, avalanches, forest and wildfires etc. causes economic interruptions and losses. Within this framework, Republic of Azerbaijan ensured the implementation of many goals of the global documents of the UN's Sendai Framework for Disaster Risk Reduction 2015-2030, Sustainable Development Goals (SDGs) and UN's Framework Convention on Climate Change and has attempted to integrate these goals within its national implementation unit. These goals promote Azerbaijan's preparedness and response capacity which in result helps country to protect its energy and transportation infrastructures. In this case, the disaster risk reduction strategy needs to be carried out with respect to these documents and to achieve sustainable development plans under the slogans of security and resilience. Therefore, further identification and analysis of the internal and external risks can be very affective with respect to resilience of the energy and transportation infrastructures of Azerbaijan (3).

Southern Gas Corridor which was initiated by the Republic of Azerbaijan has gained an important status from the energy security perspective to the European consumer market without any interruptions. For the sustainable and secure transportation of the fossil fuels, the energy infrastructures need to meet political and economic commitments and criterions. Also, Azerbaijan being located on the ancient Silk Road, new regional and global transportation projects are being built to connect Europe with Asia. However, these

complex energy and transportation infrastructures, especially natural gas and crude oil projects needs to consider hazards, or any other disasters that can lead to destruction, in which can bring a lot of unfavorable impacts. Thus, this paper will review the aims of the Republic of Azerbaijan and study the risks in its energy and transportation projects that needs to be considered to reduce the risk factors and improve further sustainable development.

## 2. Energy Infrastructures

Implementation of the Baku-Tbilisi-Ceyhan (BTC) crude oil and the Baku-Tbilisi-Erzurum (BTE) natural gas pipelines, and the construction of the current projects such as Trans-Anatolian natural gas (TANAP), and Trans-Adriatic (TAP) natural gas pipelines, Azerbaijan has endeavored to become an important natural gas supplier to the European gas market from the Caspian basin (4). In this manner, European countries started receiving number of alternative sources in order to counteract any disruption from one route in case there are any political or environmental disasters. Despite the technological innovations and construction developments, any built critical infrastructure is still subject to threat from disasters, including the energy pipeline projects. The above-mentioned crude oil and natural gas pipelines of Azerbaijan passes thru different types of topographies of Azerbaijan, Georgia and Turkey and goes beyond the European countries. Therefore, BTC, BTE and TANAP and TAP projects which lengths thousands of kilometers needs to have resilient operational mode from any natural disasters. When looking at the 20 years of operational history of BTC, this crude oil pipeline starts from Caspian Sea and ends in Mediterranean Sea, did not face any major catastrophic disaster, despite the fact that it passes thru very sensitive terrain. Maintenance works has taken place when oil spills with little causalities occurred, and these causalities did not have any environmental or economic impacts in the region.

The Republic of Azerbaijan understands its importance in playing an important role in the energy diversification policy of the European countries. This role is very important to Azerbaijan because the energy cooperation promotes and stimulates the continuing development of its national economy. Also, cooperation with European countries promotes the important status of the country in the Caspian basin region. In light of this, the country has developed its own strategy to play the most critical role in the energy diversification policy of the European countries by considering all the risks. The foreign policy of Azerbaijan aims to help European countries in some way to secure their energy security. In the long-term, Azerbaijan, with its independent and diversified export energy projects, started to securely deliver its energy resources to the European energy market. In this context, it is very visible that the government of Azerbaijan has taken well note of the risks, including the impact of the natural disaster which could cause disruptions in the transportation of the natural resources.

## 3. Transportation Infrastructure

Well-organized roads, highways, railways and transportation infrastructures are at the center of the development programs of the government of Azerbaijan. It can be seen from the level of investments and quality infrastructures that is being implemented in the country. This aim has been clearly indicated at the all the “State Program on the Social and Economic Development of Regions” for the last 15 years. As seen in the figure 1, Government of Azerbaijan needs to consider and further integrate the below mentioned framework of analysis into the state programs.

In this framework, measured against its neighboring countries, Azerbaijan has a relatively well-developed infrastructure.

**Figure 1.** DRR Framework for Infrastructure Developments




However, this success story of Azerbaijan has some disaster risk challenges. The challenges in the transportation infrastructures of Azerbaijan are also listed below as it was listed in the above-mentioned figure 1:

1) Main and connecting road networks can be impacted with flooding in rainy seasons which could cause disruptions in the service delivery, logistics and rescue operations;

2) Railway transportation lines could be destroyed and buried under sediments and cause major disruption in inland and international cargo deliveries.

When doing an analysis in the modern transportation infrastructure of Azerbaijan, it becomes clear that Azerbaijan's is becoming part of the major international transportation hub. For example, Trans-Caspian International Transportation Corridor (TITC) which connects western European countries with Asian countries via Black Sea and Caspian Sea. TITC route consist of several transportation types, such as railways, seaports and highways and this multi operational route significantly helps to shorten the route and time lapse for cargos. In this project, Azerbaijan contributes its role with the Baku-Tbilisi-Kars railway in parallel with western and eastern routes. On the other hand, International North South Transport Corridor (INSTC) connects north south transportation route in Eurasia and Azerbaijan contributes to this project with its strategic location between Russian Federation and Islamic Republic of Iran. Within this mega project, Azerbaijan not only refurbishes its railways infrastructure, but also financially invests into Russia and Iran to create resilient and sustainable railways link. Azerbaijan's loan of credit to Islamic Republic of Iran in the amount of USD 400 million to construct the Qazvin-Rasht-Astara railways is one of the recent examples of activities (2).

Despite the pipelines, the railway route from Azerbaijan to Georgia also transports

crude oil from the Caspian basin to European market. Georgian railway routes are responsible for the transport of crude oil to the European market. Any disaster risk occurrences, and disruption of the bridge or any other critical infrastructure along the railway route, could stop the transportation of crude oil and result in significant disruptions. With the destruction of a section of the railway line, would only cause big economic loss and financial damage to all the stakeholders.

Therefore, considering the "State Program on the Social and Economic Development of Regions 2019-2023" of the Republic of Azerbaijan and its expected positive outcome to the resilient development of the regions along with transportation infrastructure investments, the country could integrate further risk reduction strategies into the security of its transportation networks. The disaster risk reduction strategy will definitely shelter the projects of TITC (BTK railways), INSTC railways as well promote it beyond its borders and assist neighboring countries that is linked to these projects.

## 4. Conclusion and Recommendation

In conclusion, it has been clearly seen that Azerbaijan comprehends its sensitive topography in term of disasters. Surrounded with mountains, rivers and sea, country faces heavy flooding with seismic activities in which last two decades proved that few high magnitude earthquakes are also a big threat to its sustainable development. Also, due to heavy industrialization of the economy and enormous energy and transportation infrastructures, country could face disaster risks that could interrupt these projects. It is well appreciated the efforts of the government to actively engage resilient national capacities for disaster preparedness. Therefore, systematic approach in recognizing and evaluating the risks and minimizing the negative impacts of disasters is very crucial.

Based on the analysis of the disaster risks in the energy and transportation infrastructures of Azerbaijan, it is recommended that, realization of the activities expressed in Sustainable Development Goals, The Paris Agreement on Climate Change and Sendai Framework for Disaster Risk Reduction will guarantee the success in energy and transportation sectors and will further boost the sustainable development of the country.

**References:**


1. Alakbarov. U, Habibova. Z, Rahimli, R. (2020). "The Role of Human Resources in Comprehensive Regional Sustainable Development: The Case of Azerbaijan". International Journal of Economics and Financial Issues, 2020, 10(3), 79-82.DOI: https://doi.org/10.32479/ijefi.9303
2. COMCEC Report (2017). Improving Transnational Transport Corridors in the OIC Member Countries: Concepts and Cases. http://www.sbb.gov.tr/wp-content/uploads/2018/11/Improving_Transnational_Transport_Corridors_in_the_OIC_Member_Countries_Concepts_and_Cases.pdf
3. Huseynov, Y. (2019). Resilience of the Republic of Azerbaijan and Implementation of the "State Program On The Social And Economic Development Of Regions - 2019-2023." Ekonomia i Środowisko, 2(4 (71)), 163–175. https://doi.org/10.34659/dc9e-jf91
4. Yusif Huseynov. (2017). Geopolitics of the Republic of Turkey's Energy Policy.

International Journal of Energy Economics and Policy, 7(3), 337–344. https://doaj.org/article/e9e05e612ff6472aba1064b866d4ed4d
5. SDGs (Sustainable Development Goals 2015-2030 Agenda of the United Nations), Web: URL: https://sustainabledevelopment.un.org/sdgs
6. UNDRR (United Nations International Strategy for Disaster Reduction) (2015), Sendai framework for disaster risk reduction 2015-2030. https://www.preventionweb.net/files/43291_sendaiframeworkfordrren.pdf
7. UNFCC (United Nations Framework Convention on Climate Change). Web: URL: https://unfccc.int

***Keywords:*** *energy, transportation, risk reduction, sustainable development, Azerbaijan*

**Yusif Hüseynov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

## AZƏRBAYCANIN ENERJİ VƏ NƏQLİYYAT İNFRASTRUKTURLARINDA FƏLAKƏT RİSKLƏRİNİN AZALDILMASI

### XÜLASƏ

Azərbaycan Respublikasının təşəbbüsü ilə Cənub Qaz Dəhlizinin həyata keçirilməsi, enerji məhsullarının davamlı və təhlükəsiz şəkildə beynəlxalq bazarlara daşınması, həmçinin, qədim İpək Yolu üzərində yerləşən Azərbaycanın Avropa və Asiyanı yeni regional və qlobal nəqliyyat layihələri ilə birləşdirməsi həqiqətən də Azərbaycanı çox cəlbedici və önəmli bir beynəlxalq oyunçu ölkəyə çevirmişdir. Bu səbəblə, bu cür mürəkkəb və böyük investisiyalar sayəsində yaradılmış enerji və nəqliyyat layihələrində fəlakət risklərinin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Fəlakət risklərinin azaldılması və yaradacağı təhlükələrin aradan qaldırılması bilavasitə bu layihələrin təhditsiz və dayanmadan fəaliyyətinə töhfə verəcək, Azərbaycanın davamlı inkişafına xidmət edəcəkdir. Beləliklə, bu məqalə Azərbaycan Respublikasının beynəlxalq enerji və nəqliyyat layihələrini və bu layihələrə qarşı fəlakət risklərini öyrənəcəkdir. Həmçinin, məqalə Azərbaycanın bu istiqamət üzrə proqram və məqsədlərini nəzərdən keçirəcək, inkişaf perspektivindən irəli gələn risk amillərinin azaldılmasını təhlil edəcəkdir.

***Açar sözlər:*** *enerji, nəqliyyat, risklərin azaldılması, davamlı inkişaf, Azərbaycan*

**Юсиф Гусейнов**
*Академия Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по политическим наукам*

# СНИЖЕНИЕ КАТАСТРОФИЧЕСКИХ РИСКОВ В ЭНЕРГЕТИЧЕСКОЙ И ТРАНСПОРТНОЙ ИНФРАСТРУКТУРАХ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

Претворение в жизнь Южнокавказского коридора по инициативе Азербайджанской Республики, перевозка энергетических продуктов в устойчивом и безопасном состоянии на международные рынки, в том числе соединение с Азербайджаном, расположенным на древнем Шелковом пути, новых европейских и региональных, транспортных проектов реально превращают Азербайджан в привлекательную страну и важного международного игрока. По этой причине благодаря столь сложных и созданных благодаря большим инвестициям энергетических и транспортных проектах, принятие во внимание катастрофических рисков и создаваемых ими опасностей непосредственно даст толчок постоянной деятельности этих проектов без угроз и будет служить устойчивому развитию Азербайджана. Таким образом, в данной статье изучаются международные энергетические и транспортные проекты Азербайджанской Республики и катастрофические риски против них. Наряду с этим рассматриватся программы и цели Азербайджана в этом направлении, анализируется снижение факторов рисков, вытекающих из перспектив развития страны.

***Ключевые слова:*** *энергетика, транспорт, снижение рисков, устойчивое развитие, Азербайджан*

# SİYASİ NƏZƏRİYYƏ
# POLITICAL THEORY

UOT 327.56

**GÜNEL MƏLİKLİ**
**Azərbaycan Milli Elmlər Akademiyasının**
**Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru**
*e-mail: gunelmelikli88@gmail.com*

## ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TƏNZİMLƏNMƏSİNİN SİYASİ ASPEKTLƏRİ

Müstəqilliyi qoruyub saxlamaq üçün respublikamızda vətəndaş birliyi, həmrəyliyi, ictimai-siyasi sabitlik yaratmaq, qanunların aliliyini təmin etmək lazımdır.

Dahi lider Heydər Əliyev qeyd edirdi ki, "Müstəqilliyi yaşatmaq, qorumaq üçün, Konstitusiyamızda əks olunduğu kimi, Azərbaycanda dövlət quruculuğu ilə ciddi məşğul olmaq lazımdır... Azərbaycanda hüquqi, demokratik, sivilizasiyalı, dünyəvi dövlət qururuq. Dövlət quruculuğu prosesi gedir və gedəcək. Mən tam əminəm ki, biz Azərbaycanda hüquqi, demokratik dövləti tamamilə qurub, onu dünya demokratiyası səviyyəsinə çatdıra biləcəyik" [3, s.318].

Ümummilli lider Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəblərinə və qərarlaşmış mövcud vəziyyətə dərindən bələd olduğuna görə reallıqların imkan verdiyi dərəcədə problemin həlli istiqamətində çox ciddi səylər göstərirdi, milli təhlükəsizliyi təmin etməyin müxtəlif istiqamətlərini məharətlə birləşdirirdi.

Dağlıq Qarabağ problemi Çar Rusiyasının Şimali Azərbaycan torpaqlarını işğal etməsi, bu prosesdə Rusiya-erməni əməkdaşlığının qurulması əsasında təşəkkül tapmışdır. Erməni millətçiləri Rusiyanın hərtərəfli dəstəyindən yararlanaraq, "Böyük Ermənistan" dövlətini yaratmaq məqsədi ilə əzəli Azərbaycan torpaqları olan İrəvan və Naxçıvan xanlıqlarına məxsus ərazilərin bir hissəsini ələ keçirdikdən sonra bu istiqamətdə zaman-zaman irəliləmiş, Qarabağın da "qədim erməni torpağı" olduğunu iddia edərək, bu torpaqları da Ermənistana birləşdirmək üçün bütün vasitələrə, o cümlədən hərbi təcavüzə əl atmışlar. Halbuki mövcud tarixi mənbələr təsdiqləyir ki, Qarabağ, eləcə də onun dağlıq hissəsi Azərbaycanın ayrılmaz tərkib hissəsi olmuşdur.

XVIII əsrdən başlayaraq Rusiya İmperiyası Qafqazda öz strateji maraqlarını həyata keçirmək üçün fəal geosiyasi addımlar atmağa başlamışdır. Regionun zəngin təbii ehtiyatları, əlverişli coğrafi mövqeyi Rusiya İmperiyası üçün cəlbedici məqamlar idi. O, feodal çəkişmələrindən məharətlə istifadə edir, sosial-siyasi prosesləri öz maraqlarına uyğun istiqamətə yönəltməyə səy göstərir, İranın və Türkiyənin Qafqazda, Xəzər sahillərində möhkəmlənmək cəhdlərinin qarşısını almaq istəyirdi. Tarixi proseslərin gedişində Rusiya öz siyasətində yerli xristianlarla, ilk növbədə isə onun dəstəyi ilə öz dövlətini yaratmaq istəyən ermənilərlə əməkdaşlığa daha ciddi önəm verməyə başladı. Rusiyanın Gürcüstanı tam istila etməsi onun geosiyasi niyyətlərinin reallaşmasında ciddi rol oynadı. XIX əsrin əvvəllərində Azərbaycan xanlıqlarının zəbt olunması prosesi əhəmiyyətli dərəcədə gücləndi. Qarabağ xanı 1805-ci ildə Rusiyanın himayəsinə keçmək haqqında müqaviləni imzaladı. Həmin müqavilə aşkar surətdə Rusiyaya birtərəfli üstünlük verirdi.

1905-ci ildə inqilabi hadisələrin baş verdiyi dövrdə Bakıda ilk dəfə erməni və azərbaycanlılar arasında qanlı toqquşmalar baş verdi. Bu da qısa bir müddət ərzində bütün Azərbaycanı, xüsusilə Qarabağı, həmçinin İrəvanı və Tiflisi əhatə etdi. Bu münaqişədən sonra ermənilərin fəallığı daha da artdı, azərbaycanlılara qarşı törətdikləri dəhşətli hadisələr, soyqırımlar daha geniş miqyas aldı. Ermənilərin torpaq iddiaları bitmək-tükənmək bilmirdi. Nəhayət, 1923-cü il iyulun 7-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında dekret imzaladı [20, s.152-153].

Lakin bu muxtar qurumun yaradılması da erməni millətçilərinin Azərbaycana qarşı yönəlmiş torpaq iddialarına son qoymadı. SSRİ yaradılandan sonra azərbaycanlılara münasibətdə başqa standartların işə düşməsini, təzyiqin artmasını sübut edən bəzi faktları xatırlayaq.

- “Qarabağ məsələsi” xaricdə yaşayan erməni diasporu və Ermənistan tərəfindən dəfələrlə qaldırılmışdır;
- Ermənistanda yaşayan azərbaycanlılar DQMV-də yaşayan ermənilərdən xeyli çox olsalar da, onlara muxtariyyət verilməmişdir;
- Azərbaycanlıların 1948-1953-cü illərdə Ermənistan ərazisindən deportasiyası həyata keçirilmişdir;
- erməni millətçilərinin tələbi ilə Azərbaycanın Qazax və Gədəbəy rayonlarından min hektarlarla torpaq sahəsi Ermənistana “bağışlanmışdır”;
- 1987-ci ildə (oktyabr ayında) “Qarabağ komitəsi” deyilən təşkilatın ərazi iddiası tələblərini ifadə edən açıq mitinqi keçirilmişdir;
- SSRİ-nin paytaxtında-Moskvada ermənilərin “Milli müqəddəratının müstəqil təyin edilməsi birliyi”, “Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi” millətçilik ruhunda fəal iş aparırdı.

Bu bir həqiqətdir ki, Azərbaycan müstəqilliyi olduqca çətin və ağrılı bir dövrdə əldə edilmişdir. Bu çətinliyi şərtləndirən ən mühüm amillərdən biri 1988-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində ölkəmizdə ictimai-siyasi vəziyyətin gərginləşməsidir. Məhz bu təcavüz nəticəsində torpaqlarımızın bir qismi Ermənistanın və onun havadarlarının silahlı qüvvələri tərəfindən işğal olunmuş, sərhədlərimiz, ərazi bütövlüyümüz pozulmuşdur.

Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində atəşkəs əldə olundu, müharibə dayandırıldı və problemin sülh yolu ilə həll edilməsi üçün müəyyən imkanlar yarandı. Atəşkəs rejiminin qərarlaşması təxirəsalınmaz vəzifələrin həllinə əlverişli zəmin yaratdı. Ölkəmizdəki müxalif qüvvələr bu vəziyyəti məqbul saymır, tənqid edir, yaxud da buna qara yaxmaq yolunu tuturdular. Lakin respublika əhalisinin əksəriyyəti bu tədbirə, bu siyasi gedişə tərəfdar çıxır, yeridilən siyasəti bəyənir və dəstəkləyirdi. Heydər Əliyev bu siyasət nəticəsində Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində fəal iş aparırdı.

Heydər Əliyevin rəhbərliyi altında 1993-cü ilin noyabrından etibarən fəal surətdə hərbi quruculuq prosesi başlamış və uğurla davam etmişdir. Ulu öndər məsələni belə qoyurdu: Azərbaycanın özünə layiq, onun müdafiəsini təmin edən ordusu yaranmalıdır, hərbi qulluğa münasibət yüksək səviyyədə olmalıdır. Belə bir faktı xatırlamaq yerinə düşər ki, xalqımızın hərbi xidmət sahəsində də diqqətə layiq ənənələrimiz vardır. Məsələn, Azərbaycandan ikinci dünya müharibəsinə 600 min nəfər səfərbər olunmuşdu, onların 300 min nəfəri geri qayıtmamış, həlak olmuşdur. Erməni vandallarına qarşı aparılan müharibədə bizim çox sayda şəhidlərimiz olub. Milli Qəhrəman adı alanlarımızla fəxr edirik.

Heydər Əliyev öz müraciətində Ermənistanın Azərbaycana qarşı təcavüzünün sülh yolu ilə aradan qaldırılmasına və dövlətin yeritdiyi siyasətin də buna uyğun qurulması zəruriliyinə öz münasibətini belə ifadə edirdi: “Azərbaycan vətəndaşlarına məlumdur ki,

mən Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilən gündən indiyə qədər, indi isə Prezident vəzifəsində olduğum zaman Ermənistanla Azərbaycan arasında gedən müharibəyə son qoyulmasının, işğal edilmiş torpaqlarımızın geri qaytarılmasının və ümumiyyətlə bu hərbi münaqişənin kəsilməsinin tərəfdarı olmuşam. Münaqişənin həll edilməsində sülh yoluna üstünlük vermişəm və bu məsələlərin danışıqlar yolu ilə həll olunmasını daha lüzumlu bilmişəm".[19.s.309]

Heydər Əliyev müraciətində dünyagörüşündən asılı olmayaraq bütün siyasi qüvvələri yaranmış vəziyyəti düzgün qiymətləndirməyə, əl-ələ verərək Azərbaycanı ağır vəziyyətdən çıxarmağa çağırırdı. Dövlət rəhbərinin qənaəti belə idi ki, qarşılarına qoyduqları məqsəddən asılı olmayaraq respublikanın işğal olunmuş ərazilərinin azad edilməsi, ərazi bütövlüyünün təmin edilməsi bütün siyasi qüvvələri birləşdirən ümumi vəzifə olmalıdır: “Mən Prezident kimi Azərbaycan Respublikasında dünyabaxışından asılı olmayaraq bütün qüvvələri əl-ələ verib Azərbaycanı bu ağır vəziyyətdən çıxarmağa dəvət edirəm. Ola bilsin ki, kiminsə kimdən xoşu gəlmir, birinin bu cür, başqasının ayrı cür dünyagörüşü var-bunlar kənara qoyulmalıdır. Ola bilər ki, tarixi biri bir cür, başqası ayrı cür təhlil etsin, bunlara son qoyulmalıdır. İndi Azərbaycan üçün bir amal, bir məqsəd var. Azərbaycanı bu ağır vəziyyətdən xilas etmək, onun ərazi bütövlüyünü, müdafiəsini təşkil etmək [19, s.331].

1992-ci ilin əvvələrindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tədricən beynəlxalq xarakterli münaqişəyə çevrilməyə başlayır. 1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) üzvü oldu və həmin il iyulun 8-10-da ATƏM-in Helsinkidə keçirilən zirvə toplantısında onun sənədlərini imzaladı. Müstəqilliyini qazanan Azərbaycan Respublikası ATƏM-in üzvü olduqdan sonra Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də bu təşkilatın prinsiplərinə uyğun olaraq, üzv dövlətlərin daha çox diqqət obyektinə çevrildi. [5, s.312].

1994-cü ilin may ayında atəşkəs haqqında saziş imzalandıqdan sonra münaqişənin sülh yolu həlli üçün münasib şərait yaranmışdı. Problemin bu istiqamətdə həllini reallaşdırmaq üçün Azərbaycan tərəfi xeyli iş görmüş, konstruktiv təkliflər irəli sürmüşdür. Bu baxımdan ən böyük nailiyyət ATƏT-in 1996-cı ilin dekabrında Lissabonda keçirilmiş zirvə görüşündə əldə edilmişdir. Həmin görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi üçün qəbul olunmuş prinsiplər irəliyə doğru addım hesab oluna bilər. Lakin Ermənistan tərəfinin destruktiv mövqeyinə görə pozitiv nəticə əldə edilməmiş, həmin prinsiplərin reallaşması və münaqişənin sülh yolu ilə həll olunması, torpaqlarımızın işğaldan azad edilməsi mümkün olmamışdır.

Başqa sözlə, məsələnin sülh yolu ilə həll olunmasının hələ böyük potensialı vardır. İlk növbədə, qeyd edilməlidir ki, ATƏT-in Minsk qrupunun həmsədrləri-Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa bu məsələnin həlli üçün lazımi tədbirləri görmürlər. Bir sıra hallarda ikili standartların müxtəlif təzahürləri ilə rastlaşırıq. Azərbaycan tərəfi, təbiidir ki, öz narazılığını, etirazını bildirir, problemin konstruktiv istiqamətə yönəldilməsini vacib sayır, öz mövqeyini aydın ifadə edir.

Heydər Əliyevin təşəbbüsü ilə, onun qətiyyəti, əzmkarlığı və uzaqgörənliyi nəticəsində 1994-cü ilin may ayının 12-də Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında razılaşma imzalandı. Atəşkəs rejiminin tətbiq edilməsi “Bişkek protokolu”nda öz əksini tapmışdır. Yenə də Heydər Əliyevin iradəsi ilə tərəflərə təqdim edilən “Bişkek protokolu”nda Azərbaycanın xeyrinə bir sıra düzəlişlər edilmişdir. Belə ki, Rusiyanın nəzarəti altında hazırlanan protokolda Azərbaycanın işğal edilmiş əraziləri sadəcə “tutulmuş ərazilər” kimi ifadə olunurdu. Azərbaycan tərəfi buna qarşı çıxaraq protokolun 5-ci abzasında “tutulmuş ərazilər” sözünün “işğal

olunmuş ərazilər" lə əvəzlənməsinə nail olmuşdur [4, s.23].

Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin sülh yolu ilə həll olunması üçün mövcud olan imkanlardan daim istifadə etməyə çalışmışdır. Lakin eyni zamanda reallıqları dəqiq nəzərə almaqla ölkəmizin təhlükəsizliyini qorumaq, torpaqlarımızın etibarlı müdafiəsini təmin etmək üçün bütün imkanlardan dolğun istifadə edilməli, Azərbaycan ordusunu gücləndirilməli, onun təchizatını yaxşılaşdırılmaq gərəkdir. Çünki, artıq Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə, zərurət yaranarsa, torpaqlarımızı müharibə yolu ilə azad etməyə qadir olan ordumuz vardır.

Ulu öndərin gərgin fəaliyyəti nəticəsində cəmiyyətdə, xüsusilə gənclər arasında orduya münasibət müsbət mənada dəyişilməlidir. Onlar həvəslə orduda xidmət edir, öz vətəndaşlıq borclarını yerinə yetirir, ordunun güclənməsi, daha nizamlı olması üçün səylə çalışırlar.

2001-ci il noyabrın 21-də Ümummilli lider Heydər Əliyev keçirilmiş Yeni Azərbaycan Partiyasının II qurultayında ölkənin XXI əsrdə inkişaf ideologiyasının forma və məzmununu dəqiq səciyyələndirmişdir: "... biz elə nəsil yetişdirməliyik ki, təkcə bizim vaxtımızda yox, bizdən sonra da onlar Azərbaycanın xətalara düşməsinə imkan verməsinlər. Onlar düz yolla, doğru yolla, milli hissiyyatlar yolu ilə getməlidirlər" [15, s.14].

Ümummilli Lider Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində xalqın milli müstəqilliyinin sosial-siyasi və mədəni-əxlaqi mahiyyətinin yetərincə dərk olunmasına, fəal şüur fenomeninə çox ciddi əhəmiyyət verirdi. ...Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" sosial-fəlsəfi konsepsiyası belə bir ideyanı aşılmağa yönəlib ki, biz milli mentalitetimizin əsil mahiyyətini başa düşmək üçün milli mənlik şüurumuzun təbiətini dəyərincə dərk etməyi, tarixi yaddaşımızın qatlarında "vətəndaşlıq qazanmış" mental xüsusiyyətlərin məntiqini dərindən öyrənməliyik. Heydər Əliyev zəkasının ən böyük xidmətlərindən biri də bu oldu ki, o, böyük quruculuq işlərinə başlamaq üçün ilk növbədə xalqına müstəqilliyin əsil mahiyyətini dərk etdirdi, onun milli dövlətçiliyinə inamını və milli ruhunu qaytardı" [2, s.5,6].

Nəzərə almaq lazımdır ki, Sovetlər ölkəsi dağıldıqdan sonra Qərbin özündən razılığı beynəlxalq münasibətlərdə təhlükəli vəziyyətə gətirib çıxara bilərdi, ən azı Azərbaycan kimi kiçik ölkələrin problemləri, milli maraqları nəzərə alınmazdı. Real proseslər bu ehtimalı təsdiqlədi. Dünyanın bir sıra mərkəzlərində zəngin Qafqaz incisini – Azərbaycanı ələ keçirmək, "itaətdə saxlamaq" üçün müxtəlif məkrli planlar qurulurdu. Bu planlar aydın məqsəd izləyirdi: Azərbaycanda güclü dövlətin formalaşmasına və fəaliyyətinə mane olmaq.

1991-1995-ci illərdə bilavasitə Azərbaycan dövlətçiliyinə qarşı yönələn və müəyyən xarici qüvvələr tərəfindən dəstəklənən qəsdlər törədildi. Seçilən vasitələr kifayət qədər geniş dairəni əhatə edirdi: terror, ölkədəki seperatçı qurumların qərarlaşması, dövlət adamlarının, ziyalıların qətlə yetirilməsi, siyasi qüvvələrin bir-birinə qarşı qoyulması, vətəndaş müharibəsinin qızışdırılması və s. də bu qəbildəndir. Bunları seyr edən və öz maraqlarını reallaşdırmağa çalışan bəzi xarici qüvvələr ölkənin dağılacağını güman edirdilər. Lakin çoxlarının artıq dağılmış kimi təsəvvür etdikləri Azərbaycanda dövlət quruculuğu başladı. Kiçik bir dövlətə bu güc haradan gəldi? Necə oldu ki, bəzi xarici dairələrin onu dağıtmağa çalışdığı tarixi bir mərhələdə zaman Azərbaycanın xeyrinə işləməyə başladı? Bu suallara cavab cəmiyyətdə güclü dövlət quruculuğu konsepsiyasının, güclü xarici siyasət kursunun həyata keçirilməsi ilə verildi. [18, s.41]. Bu konsepsiyanın, bu kursun müəllifi Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev idi.

Bu iki məqama bir cəhəti də əlavə etmək olar: "Boş vədlər verən rəhbərlərlə Heydər

Əliyevi müqayisə edən insanlar anladılar ki, hər siyasi rəhbərə inanmaq olmaz. Heydər Əliyevə, onun ideyalarına xalqın inamının əsasında real faktlar, görülmüş böyük işlər dayanırdı. Bu inamın nəticəsidir ki, Azərbaycanın dünya dövlətləri arasında layiqli yer tutması üçün xalq quruculuq işlərində fəal çalışır, Azərbaycanın müstəqilliyini, suverenliyini qoruyub saxlamağı, inkişaf etdirməyi özünün müqəddəs borcu hesab edir" [11, s.174].

Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi probleminin həllində, tərəflərin apardığı müharibə məsələsində düzgün, əsaslı mövqe tutdu. Müdrik bir strateg kimi real vəziyyətlə hesablaşdı. Məkrli düşmənlərimizin və onların beynəlxalq havadarlarının gücünü, planlarını, Azərbaycanın düşdüyü qanlı burulğanın nə qədər təhlükəli olduğunu nəzərə aldı. Vəziyyəti düzgün qiymətləndirdi. Real vəziyyətdən çıxış edərək atəşkəs rejiminə nail oldu. Bununla Azərbaycanın gənc, sağlam qüvvələrinin mənasız yerə qırılmasının qarşısını aldı-genefondumuzu xilas etdi. Bu, Azərbaycan xalqının yaşaması, gələcəyi deməkdir. [13.s.108,109]

Sonrakı hadisələr göstərdi ki, Heydər Əliyev atəşkəs rejiminin yaratdığı siyasi-hüquqi, sosial-iqtisadi və hərbi imkanlardan çox məharətlə istifadə etməyi bacarmış, diplomatik səylərin fəallaşmasını təmin etmiş, ötən əsrin sonlarına doğru münaqişənin həlli üçün münasib şəraitin qərarlaşmasına nail olmuşdur. Lakin Ermənistanın destruktiv mövqeyi münaqişənin həllinə, görülmüş işlərin tam həcmdə nəticəli olmasına imkan verməmişdir. Yaranmış şərait həqiqətən çox mürəkkəb və çoxaspektli idi.

"Mahir siyasət ustası şahmat taxtasında bir neçə rəqibi ilə oynamalı və qalib gəlməli idi. Heydər Əliyev bunu bacardı. Ümumi beynəlxalq və daxili vəziyyət isə nə onun, nə də Azərbaycanın xeyrinə deyildi. Siyasətçi dövlət quruculuğunun fəlsəfəsini surətlə, ölkənin ziddiyyətli problemlərini həll edə-edə yaratmalı idi" [18, s.44]. Heydər Əliyev özünün nadir liderlik keyfiyyətləri sayəsində bu çətin vəzifənin öhdəsindən gəldi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanması və dinamikası göstərdi ki, Qafqaz Avrasiyanın geosiyasətində mürəkkəb miras kimi dəyərləndirilə bilər. Münaqişə ətrafında baş verən hadisələr və proseslər sübut etdi ki, Azərbaycanın regionda geosiyasi əhəmiyyəti getdikcə artır. Bu, əslində, Qafqazın geosiyasi baxımdan çox mühüm, çox əhəmiyyətli qovşaq olması ilə əlaqədardır. Yeri gəlmişkən qeyd edək ki, son illərdə K.Haushoferin "dövlətin coğrafi zəkası" adlandırdığı geosiyasət məsələlərinə maraq getdikcə artır.

Məhz, Heydər Əliyevin səyləri nəticəsində bütün beynəlxalq təşkilatlarda həmin problemlər müzakirə mövzusuna, obyektinə çevrildi, bu təşkilatların imkanlarından istifadə etmək imkanları artdı. Həm Qərbdə, həm də Şərqdə dünyanın böyük dövlətləri, yəni dünya siyasətinə daha fəal təsir göstərə bilən dövlətlər, onların başçıları bizim problemlərlə yaxından tanış ola bildilər. Problemin həll olunması üçün göstərilən səylər nəzərə çarpacaq dərəcədə gücləndi. Onlar məsələlərin sülh yolu ilə həll olunması istiqamətində müəyyən tövsiyələr verir, öz köməklərini təklif edirdilər. Birləşmiş Millətlər Təşkilatında, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında digər beynəlxalq təşkilatlarda bu məsələlərin dəfələrlə müzakirə olunmasını xüsusi qeyd etməliyik.

Azərbaycan tərəfi belə hesab edirki, münaqişənin dinc yolla həlli imkanları tükənməyibdir. Bu, Azərbaycan xalqının sülhsevərliyinə, humanizminə dəlalət edən mühüm cəhətdir. Lakin əgər respublikamızın ərazi bütövlüyü dinc vasitələrlə təmin edilməsə, işğal olunmuş torpaqlarımız azad olunmasa, dövlət sərhədlərimiz bərpa edilməsə, onda Azərbaycan Respublikası öz sərəncamında olan bütün imkanlardan istifadə edəcəkdir ki, ölkənin müstəqilliyi və ərazi bütövlüyü tamamilə təmin olunsun, yerindən-yurdundan didərgin düşmüş

bir milyondan artıq vətəndaşımız öz yerinə qayıda bilsin. Bu vəzifənin reallaşması üçün hər cür çətinliklərə, məhrumiyyətlərə dözməliyik, respublikamızın daha qüdrətli olması üçün əlimizdən gələni əsirgəməməliyik.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində və dövlət quruculuğunun uğurla davam etdirilməsində müdafiə imkanlarının gücləndirilməsi mühüm rol oynayır. Heydər Əliyev təəssüflə vurğulayırdı ki, müstəqillik əldə olunandan sonra Azərbaycanın dövlət atributlarının yaranmasında xeyli vaxt itirilib, böyük fürsətlər əldən verilibdir.

Bu baxımdan Ümummilli Lider Azərbaycanın müstəqilliyini təmin edən qüdrətli ordunun yaranmasına müstəsna əhəmiyyət verirdi. O, dərin təəssüf hissi ilə bildirirdi ki, ordu quruculuğunda böyük səhvlər buraxılıbdır, hətta xəyanətlərə də yol verilibdir. Məhz bu səhvlərin, xəyanətlərin nəticəsində baş verən müharibədən ayrı-ayrı adamlar öz mənafeləri üçün istifadə etmiş və nizamlı ordumuz vaxtında yaradılmamışdır.

Ona görə də, Heydər Əliyev müstəqil Azərbaycanın müstəqilliyini təmin edə biləcək yeni ordu quruculuğunun əsasını qoydu və hələ sağlığında belə bir ordunu təşkilatlandıra bildi. Dövlətin rəhbəri və Silahlı Qüvvələrinin Ali Baş Komandan kimi Heydər Əliyev Azərbaycan Ordusunu xalqın bir parçası sayırdı, xalqı ordunun güc və qüdrət mənbəyi hesab edirdi. Ona görə də, o, bütün xalqın güclü ordu formalaşdırılmasına səfərbər edilməsini ciddi vəzifələrindən biri kimi qiymətləndirirdi. [19.s.309].

Deməli, o vaxtaqədərki illər əslində itirilibdir. Keçmiş Sovetlər ordusunun Azərbaycanın ərazisində olan binaları dağıdılıb, mənimsənilibdir. Bütün bunlar Azərbaycan ordusunun yaranmasına ciddi zərbələr vuraraq, xalqımıza xəyanətlər kimi dəyərləndirilməlidir.

1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası münaqişəyə dair 4 qətnamə (822, 853, 874 və 884 nömrəli qətnamələr) qəbul etmiş, Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını birmənalı olaraq təsdiqləmiş, Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Əslində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bu qətnamələr ciddi, əsaslı hüquqi zəmin yaradır.

Azərbaycan Respublikasının Prezidenti ilk iki təkliflə tam razı olmasa da, onların danışıqlar prosesinin konstruktiv istiqamətdə davam etdirilməsi üçün əsas kimi qəbul edilməsinə razılıq vermişdir. Buna baxmayaraq, Ermənistan tərəfi bu təkliflərlə razılaşmamış, aşkar surətdə qeyri-konstruktiv mövqe tutmuşdur.

Həmsədrlərin üçüncü təklifini Azərbaycan tərəfi qəbul etməmişdir. Çünki "ümumi dövlət"in heç bir beynəlxalq-hüquqi bazası yoxdur, Dağlıq Qarabağı müstəqil dövlət və ərazi qurumu kimi nəzərdə tutur, ona Azərbaycan ilə bərabərhüquqlu subyekt statusunu verir, əslində isə Azərbaycan torpaqlarının işğalını qanuniləşdirir.

Araşdırmalar belə nəticə çıxarmağa əsas verir ki, həmsədrlər əsasən vasitəçilik fəaliyyəti ilə məşğul olaraq, danışıqlar prosesinə beynəlxalq hüquq normaları çərçivəsində yetərli təsir göstərə bilməmişlər. 1996-cı il dekabr ayının 2-3-də ATƏT-in Lissabonda keçirilən Zirvə toplantısında qəbul edilən və münaqişənin nizama salınmasında beynəlxalq-hüquqi baza olan sənəd Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində böyük siyasi nailiyyət sayıla bilər. Zirvə toplantısında Prezident Heydər Əliyevin gərgin əməyi və diplomatik istedadı sayəsində münaqişənin həllinin siyasi-hüquqi çərçivələrini müəyyənləşdirən xüsusi bir bəyanat qəbul edildi. Bu bəyanat, Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin yekun qərarında öz əksini tapdı [5, s.316].

Bəyanat Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasının üç əsas prinsipini ortaya qoydu. Bu prinsiplər:

1. Ermənistan və Azərbaycan respublikalarının ərazi bütövlüyünün tanınması;

2. Razılaşma əsasında Azərbaycanın tərkibində Dağlıq Qarabağa öz müqəddəratını təyinetmə prinsipinə söykənən ən yüksək özünüidarəetmə hüquqi statusunun verilməsi;

3. Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə beynəlxalq təminatın verilməsi [5, s.316].

Zirvə toplantısı zamanı Prezident Heydər Əliyevin gərgin əməyi, diplomatik istedadı, bacarığı sayəsində münaqişənin həllinin siyasi-hüquqi çərçivələrini və əsas prinsiplərini müəyyənləşdirən bu bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin yekun qərarında əksini tapdı. ATƏT-in Lissabon zirvə görüşündən sonra Rusiya ilə yanaşı ABŞ və Fransa nümayəndələri də Minsk qrupunun həmsədrliyinə daxil oldular [5, s.316].

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinamikasından bəhs edərkən Azərbaycanın beynəlxalq təşkilatlarla uğurlu diplomatik fəaliyyətinə də diqqət yetirilməlidir.

1998-ci ilin noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycan üçün qəbulu qeyri-mümkün hesab edilən üçüncü təklif sürdülər. Bu təklif dünya praktikasında mövcud olmayan "ümumi dövlət" ideyasına əsaslanırdı. Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edilən "ümumi dövlət" təklifi Azərbaycanın mənafeyinə zidd olmaqla yanaşı, həm də ATƏT-in Budapeşt və Lissabon zirvə toplantılarında qəbul olunmuş sənədlərə də etinasız yanaşmanın göstəricisi idi. ATƏT-in Minsk qrupunun son təklifindən Azərbaycan tərəfi birmənalı şəkildə imtina etdikdən sonra, 1999-cu il fevralın 8-də Azərbaycan Prezidenti Heydər Əliyev Minsk qrupunun həmsədrləri olan dövlətlərin (ABŞ, Rusiya, Fransa) başçılarına məktubla müraciət etdi [5, s.316-317].

Minsk qrupunun fəaliyyətini, xüsusilə həmsədrlərin axırıncı təklifini ciddi surətdə tənqid edən dövlət başçısı "ümumi dövlət" ideyasının ATƏT-in prinsiplərinə uyğun olmadığını və sülh prosesinə xeyli zərər verdiyini göstərməklə yanaşı, ABŞ, Fransa və Rusiya dövlət başçılarını münaqişənin ədalətli həlli və tezliklə aradan qaldırılması üçün səylərini ciddi surətdə artırmağa çağırdı. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əsasən ATƏT və qismən BMT məşğul olsa da, 1993-cü ildən başlayaraq Azərbaycan dövlətinin səyi ilə digər beynəlxalq və regional təşkilatlar da bu məsələyə birbaşa, yaxud dolayısı ilə münasibət bildirmişlər [5, s.316-319].

1999-cu ilin aprelindən etibarən münaqişənin tənzimlənməsi istiqamətində yeni format yarandı: bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqudur. Həmin vaxtdan iki respublikanın prezidentləri xeyli görüş keçirmişlər. Konkret əməli nəticələr əldə olunmasa da, Prezidentlər münaqişənin dinc yolla aradan qaldırılması imkanlarının tükənmədiyini bildirmiş, dialoqun davam etdirilməsini zəruri hesab etmişlər. Danışıqlar zamanı Azərbaycan tərəfi öz haqlı mövqeyini müdafiə edərkən bir sıra çətinliklərlə qarşılaşır. Belə ki, Ermənistan tərəfi bir qayda olaraq, qeyri-konstruktiv mövqedən çıxış edir, işğalçılıq siyasətindən əl çəkmək istəmir. Bundan əlavə dünya birliyi "ikili standartlar" prinsipindən çıxış edərək, öz təklif və qətnamələrini həyata keçirmək üçün konkret addımlar atmır, bir çox hallarda fəal təsir imkanlarından istifadə etmirlər. Böyük dövlətlər müasir beynəlxalq münasibətlər üçün təhlükəli olan təcavüzkarın qarşısını almaq istiqamətində daha fəal olmalı, qəti və əməli addımlar atmalı, Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər.

AŞPA-nın 2001-ci il sentyabrın 24-28-də keçirilən plenar sessiyasında Azərbaycanın nümayəndə heyətinin yaydığı "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" adlı

sənəd münaqişənin səbəbləri və dinamikası barədə obyektiv informasiya mənbəyidir.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan nümayəndə heyətinin ardıcıl, sistemli fəaliyyəti nəticəsində AŞPA-nın 2002-ci ilin sentyabrında keçirilən payız sessiyasında ilk dəfə olaraq bu beynəlxalq qurumun sənədlərində Ermənistanın silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğalı faktı rəsmi şəkildə öz əksini tapmışdır.

Azərbaycan nümayəndə heyəti yaranmış imkanlardan istifadə edərək ölkəmiz haqqında əsil həqiqətləri Avropa ictimaiyyətinə çatdırmaq istiqamətində öz səmərəli fəaliyyətini daha da gücləndirir, genişləndirir.

Həmin hüquqla əlaqədar Heydər Əliyevin mülahizələri diqqətə layiqdir: “Ermənistanın münaqişə ilə bağlı öz iddiaları vardır. Sadəcə onlara şərh verim ki, sizdə tam təsəvvür yaransın, yalnız bir tərəfin dediklərini eşitməyəsiniz. Onların iddiası belədir ki, Dağlıq Qarabağda yaşayan ermənilərin öz müqəddəratını təyin etmək hüquqları var. Öz müqəddəratını təyin etmək insanlara verilmiş çox mühüm hüquqdur. Biz hamımız ona hörmətlə yanaşırıq. Ermənilər artıq öz müqəddəratlarını təyin etmişlər, onların Ermənistan dövləti var. Bu o deməkdir ki, bir millət kimi ermənilər artıq bu hüquqdan istifadə etmişlər. Təsəvvür edin ki, hər bir xalq öz müqəddəratlarını həll edəcəyi halda nə baş verər?! Bu nə deməkdir? Bu o deməkdirmi ki, milli azlıqların yaşadığı hər bir yerdə separatizm olmalıdır? Məgər bu o deməkdir ki, milli azlıq yaşadığı hər bir ərazidə öz dövlətini qura bilər? Əlbəttə ki yox!” [12, s.396].

Göründüyü kimi, Heydər Əliyevin güclü məntiqi, əsaslı arqumentasiyası ermənilərin iddialarının mənasızlığını tam şəkildə aşkara çıxarır. Qarşıya belə bir sual çıxır: öz müqəddəratını təyin etmə hüququnu erməni millətçiləri niyə ancaq ermənilərə aid edirdilər, nə üçün təkcə XX əsrdə 4 dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və nəhayət, 1988-1993-cü illərdə erməni millətçilərinin və vandallarının törətdikləri soyqırımı və etnik təmizləmə zamanı azərbaycanlıların öz müqqəratını təyinetmə hüququ yada düşmürdü?

Zənnimizcə, cavab aydındır: erməni millətçiləri beynəlxalq hüquqa məhəl qoymur, ancaq özlərinin imtiyazlı vəziyyətdə olmasını istəyir, münaqişənin nizamlanması istiqamətində yox, davam etməsi istiqamətində fəaliyyət göstərirlər. Belə fəaliyyətin isə heç bir perspektivi yoxdur: Azərbaycan öz ərazi bütövlüyünü və təhlükəsizliyini təmin edəcəkdir, bunun üçün onun yetərli səviyyədə potensialı vardır.

2008-ci il martın 14-də BMT Baş Məclisinin 62-ci sessiyasında Azərbaycan tərəfindən irəli sürülmüş, beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini bəyan edən, erməni qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən, bu ərazilərdən qovulmuş əhalinin öz yurd-yuvalarına qayıtma hüququnu təsdiq edən və işğal nəticəsində yaranmış vəziyyəti heç bir dövlətin qanuni hesab edə bilməyəcəyini vurğulayan qətnamə qəbul edilmişdir [18, s.310].

Həmin sənədin Azərbaycan Respublikası tərkibində olmaqla Dağlıq Qarabağda səmərəli fəaliyyət göstərə biləcək demokratik özünüidarəetmə sisteminin yaradılması məqsədilə bölgənin azərbaycanlı və erməni icmalarının təhlükəsiz və bərabər həyat şəraitinin təmin edilməsinin zəruriliyini qeyd edən bəndini xüsusilə vurğulamaq lazımdır. Münaqişənin nizama salınmasının başlıca prinsiplərinin razılaşdırılması istiqamətində atılmış ən mühüm addımlardan biri ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərin başçılarının 2010-cu il iyunun 26-da Kanadanın Muskoka şəhərində verdikləri birgə bəyanat olmuşdur. Birgə bəyanatda dövlət başçıları tərəfindən münaqişənin işğal altındakı ərazilərin azad edilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması və digər prinsipləri nəzərdə tutan mərhələli həllinin zəruriliyi vurğulanmışdır [17, s.310,311].

Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın prinsipial mövqeyini 1993-2003-cü illərdə Prezident Heydər Əliyev, 2003-cü ildən isə etibarən isə Prezident İlham Əliyev dəfələrlə BMT, ATƏT, NATO, AŞ, Aİ, İƏT, MDB və digər beynəlxalq və regional təşkilatların tribunalarından səsləndirmiş, bu təşkilatların rəhbərləri ilə keçirilən görüşlərdə və s. tədbirlərdə mütəmadi olaraq qaldırmış və məntiqi mülahizələrlə əsaslandırmışlar [5, s.312] Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında ədalətli həlli, coğrafi baxımdan yaxın uzaq dövlətlərlə, aparıcı beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərinin dərinləşdirilməsi, respublikamızda həyata keçirilən mütərəqqi ruhlu islahatlar barədə dünya ictimaiyyətində obyektiv rəyin formalaşdırılması, sivil, ədalətli oyun qaydaları əsasında enerji resurslarının ixracı və diversifikasiyası prosesinin gerçəkləşdirilməsi dövlət başçısı İlham Əliyevin xarici siyasətində xüsusən diqqəti çəkən prioritetlər olmuşdur. Məhz bu diplomatik reallıqlar fonunda respublikamızın Avropa üçün geosiyasi və iqtisadi əhəmiyyəti daha da yüksəlmiş, avrostrukturlara inteqrasiya prosesi sürətlənmişdir [1, s.79].

Azərbaycan dövləti beynəlxalq təşkilatların, xüsusilə də münaqişəni dinc vasitələrlə nizama salmaq üçün fəaliyyət göstərən ATƏT-in sülhyaratma təkliflərinə hörmətlə yanaşaraq onun işində müntəzəm və əməli şəkildə iştirak edir. Bu da münaqişənin nizama salınması istiqamətində aparılan danışıqlarda Azərbaycanın ilk növbədə sülh variantına üstünlük verdiyinə sübutdur [7, s.30].

İlham Əliyevin dəyərlər sistemində dövlət birinci yerdədir və bu, şəxsiyyət dəyərlərini istisna etmir. Bizim şəraitimizdə bu, götür-qoy edilmiş yoldur. Zəif cəmiyyətə malik güclü demokratik dövlət ola bilməz. Dövlət maşınını ətalətdən, dövlət aparatını durğunluqdan, şəxsiyyəti isə hakimiyyətin qanunsuz hərəkətlərindən ancaq cəmiyyətin mükəmməl həyatı qoruya bilər [14, s.64].

İstər xarici ölkələrə rəsmi və işgüzar səfərlərində, istərsə də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində keçirilən görüşlərində Prezident diqqəti Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ, qaçqınlar və məcburi köçkünlər məsələsinə yönəldir. Azərbaycan prezidenti AŞ PA-da, Avropa Birliyində, NATO-da, BMT Baş Assambleyasının sessiyasındakı çıxışlarında, nüfuzlu kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrində Ermənistanın işğalçılıq siyasətindən geniş danışır, Dağlıq Qarabağ, qaçqınlar və məcburi köçkünlər probleminin həllinə yönələn çağırışlar edir [10, s.55].

Bu gün Azərbaycanda həm orduda, həm də ictimaiyyətdə böyük ruh yüksəkliyi var. Açıq deyək: hər kəs qələbəyə köklənib və bunun mümkün olduğunu da aprel əməliyyatlarının timsalında artıq dəqiq bilir. Bu, şübhəsiz ki, İlham Əliyevin prezidentlik missiyasının məntiqi nəticələrindəndir:

- Prezidentin yüksək diplomatik fəaliyyəti hərbi əməliyyatlarımızın gerçəkləşməsinə beynəlxalq hüquqi zəmin formalaşdırıb;
- düzgün iqtisadi siyasət Azərbaycanın bu savaşdan qalib çıxması üçün fövqəladə gücünü yaradıb;
- uğurlu hərbi islahatlar ordumuzun qüdrətini artıraraq, onu Qarabağı düşməndən tam təmizləyəcək səviyyəyə yüksəldib;
- xalqın və fəal siyasi zümrənin Ali Baş Komandana birmənalı inamı, dəyişməz etimadı mövcuddur. Bu istiqamətlər Azərbaycanın iqtisadi-siyasi-hərbi gücünü müəyyənləşdirən əsas amillər, onun qələbəsinin labüdlüyünü şərtləndirən mühüm məqamlardır. Ermənistanı, onun rəhbərliyini beynəlxalq miqyasda haqsız və nüfuzsuz duruma salan, bölgənin iqtisadi xəritəsindən silən, bütün qlobal layihələrdən təcrid edən İlham Əliyev təcavüzkarı indi döyüş meydanında da məğlub duruma saldı! Artıq Lələtəpədəki səngərdə əsgərinə əmr verən Komandan İlham Əliyevdir!

Azərbaycan Prezidentinin "Bölgədə, Qarabağda sülh yaranmasa, Ermənistanın iflası və məhvi daha da tezləşəcək" bəyanatı artıq bu ölkədə geniş əks-səda yaradıb və İlham Əliyevlə tam razılaşan ermənilərin sayı durmadan artır.

İlham Əliyev öz həqiqətləri, düzgün yanaşmaları ilə Ermənistanın ictimai fikrində mifləri dağıdıb və proses günü-gündən daha geniş miqyas alır! İlham Əliyev erməni cəmiyyətində uzun onilliklər dəyişməyən vahid "miatsum" düşüncəsinə alternativ fikrin səslənməsini rəvac bilərək, xalqı "Qarabağa birləşək" utopik-mümkünsüz ideyadan ayıraraq konkret xilas təklifləri üzərində düşünməyə yönləndirib! İlham Əliyevin çağırışları Ermənistanda vətənpərvərlərə cəsarət verir, onların Bakıya gələrək bütün erməni xalqının S.Sarkisyan kimi düşünmədiyini söyləməyə, Xocalı soyqırımına görə ermənilər adından üzr istəməyə vadar edir!

Artıq ermənilər S.Sarkisyanın "əbədi savaş - əbədi səfalət" siyasətini anlayaraq ondan kütləvi şəkildə üz döndərir və öz gələcəkləri üçün İlham Əliyevin "Qarabağda sülh - Qafqazda inkişaf - erməni xalqının rifahı" təklifini dəstəkləyirlər! İlham Əliyev S.Sarkisyana indi onun öz evində - Ermənistanda qalib gəlir!. [9]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə öz çıxışlarında qeyd etmişdir:"Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınmışdır. Dağlıq Qarabağ həm tarixən, həm də hüquqi və siyasi baxımdan Azərbaycanın ayrılmaz hissəsidir".

Şübhəsiz ki, bu uğurlar üzləşdiyimiz ağır problemin- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın maraqları çərçivəsində həlli istiqamətində mühüm rol oynayacaqdır.

**Ədəbiyyat:**


1. Əliyev Heydər. Müstəqillimiz əbədidir. Bakı: Azərnəşr, 2011.
2. Əliyev Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı: "Qismət", 2003.
3. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi. Bakı: "Qapp-Poliqraf" Korporasiyası, 2003.
4. Heydər Əliyev: Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik" (dörd dildə). Bakı. "Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxanasının nəşri", 2006.
5. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, "Letterpress" nəşriyyat evi, 2011
6. Həsənov Ə. Azərbaycan və ATƏT. Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi Ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997
7. Həsənov Ə. Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırırımı siyasətinin mərhələləri. Bakı, "Zərdabi LTD", 2017.
8. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: "Azərbaycan" nəşriyyatı, 2005.
9. Hüseynli İ. İlham Əliyev düşmənin bütün hərbi hədəflərinin məhv olunacağını Lələtəpədən bəyan etdi//Azərbaycan qəzeti, 16 noyabr 2016-cı il.
10. İlham Əliyevin 5 illik Prezidentlik Fəaliyyəti və Azərbaycanda Vətəndaş Cəmiyyəti - Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası: Sosiloji tədqiqat.Noyabr-dekabr, 2008; Bakı, 2009.
11. Qaralov Z. Heydər Əliyevin elmi irsi (nəzəriyyə və təcrübə). II cild. Bakı: "Şərq-Qərb", 2013.
12. Qasımov C., Nağıyev N. Milli təhlükəsizliyin əsasları. MTN Maddi texniki Təminat Baş idarəsinin nəşriyyat – poliqrafiya mərkəzi.Bakı-2015.
13. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti Bakı: "Təhsil", 2002.

14. Mehdiyev R.Ə. XXI əsrdə Milli Dövlətçilik Bakı: XXI- Yeni Nəşrlər Evi, 2003.
15. Mehdiyev R. Yeni dünya nizamı və milli ideya. Bakı, "Şərq-Qərb", 2016.
16. Məlikli G. Vətən sevgisi// Respublika qəzeti, 2fevral 2019-cu il.
17. Məmmədov N. Geosiyasətə giriş (iki cilddə. II cild). –Bakı, "Azərbaycan" nəşriyyatı, 2011.
18. Məmmədov N. Xarici siyasət: Reallıqlar və gələcəyə baxış.Bakı: Qanun, 2013.
19. Süleymanov M. Azərbaycanda Ali Baş Komandanlıq instittunun Heydər Əliyev mərhələsi. Bakı, "Elm və təhsil", 2018.
20. К истории образования Нагорно-Карабахской автономной области Азербайджанской ССР. 1918-1925.Документы и материалы, с. 152-153.

***Açar sözlər:*** *Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, ərazi bütövlüyü, hərbi təcavüz, ordu quruculuğu, geosiyasət, işğalçılıq siyasəti*

**Gunel Malikli**
*Leading researcher at the Institute of Philosophy of the Azerbaijan National Academy of Sciences, PhD in Political Science*

## POLITICAL ASPECTS OF THE SETTLEMENT OF THE ARMENIA-AZERBAIJAN NAGORNO-KARABAKH CONFLICT

### SUMMARY

Starting from the 18th century, Russia began to take active geopolitical steps to realize its strategic interests in the Caucasus. Using the Caucasian policy of Russia, Armenian nationalists seized part of the historical lands of Azerbaijan - Yerevan and Nakhchivan khanates. In an attempt to create "Great Armenia", stating that Nagorno-Karabakh was "ancient Armenian land", Armenian nationalists used all means to unite these lands with Armenia, including military aggression. As a result of the occupation policy launched by Armenia in 1988 with the goal of annexing the territory of Nagorno-Karabakh, 20% of the country's lands were occupied. This situation has led not only to a violation of the territorial integrity of the country, but also to an aggravation of the socio-political situation in Azerbaijan, which has just regained its independence.

Thanks to the hard work of the national leader Heydar Aliyev, who came to power in this tense situation, a ceasefire was reached, the war was stopped, and opportunities were created for a peaceful solution to the problem. As a result of the policy of the national leader Heydar Aliyev, it became possible to involve international organizations in the process of the peaceful settlement of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict, international recognition of the territorial integrity of Azerbaijan, recognition of Armenia as an aggressor state and relevant resolutions related thereto were adopted.

It was the achievement of a ceasefire that created favorable conditions for solving pressing problems. Thus, as a result, conditions were created for stabilizing the socio-political situation in the country, strengthening the military-technical base and developing the armed forces.

A fair settlement of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict on the basis of international law, deepening bilateral and multilateral cooperation with geographically close countries, leading international organizations, the formation in the world community of objective opinion on progressive reforms in our country, the implementation of the process of export and diversification of energy resources based on civilized and fair relations, education of youth in a national spirit, on the basis of national and only values are among the priorities of the foreign policy of President Ilham Aliyev.

***Keywords:*** *Armenia-Azerbaijan Nagorno-Karabakh Conflict, territorial integrity, military aggression, army construction, geopolitics, occupation policy*

**Гюнель Маликли**
*Ведущий научный сотрудник Института Философии Национальной Академии Наук Азербайджана, доктор философии по политическим наукам*

## ПОЛИТИЧЕСКИЕ АСПЕКТЫ УРЕГУЛИРОВАНИЯ АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА

### РЕЗЮМЕ

Начиная с XVIII века Россия начала предпринимать активные геополитические шаги, чтобы воплотить в жизнь свои стратегические интересы на Кавказе. Воспользовавшись кавказской политикой России, армянские националисты захватили часть исторических земель Азербайджана - Ереванского и Нахчыванского ханств. В попытке создать «Великую Армению», заявив, что Нагорный Карабах был «древней армянской землей», армянские националисты использовали все средства, в том числе военную агрессию, для объединения этих земель с Арменией. В результате оккупационной политики, начатой Арменией с 1988 года с целью аннексии Нагорно-Карабахской территории Азербайджана, 20% земель страны были ею оккупированы. Эта ситуация привела не только к нарушению территориальной целостности Азербайджана, но и к обострению общественно-политической ситуации в стране, недавно восстановившей свою независимость.

Благодаря напряженной работе Общенационального лидера Гейдара Алиева, пришедшего к власти в этой сложной ситуации, было достигнуто прекращение огня, война была приостановлена и были созданы возможности для мирного решения проблемы. В результате политики Общенационального лидера Гейдара Алиева стало возможным вовлечение международных организаций в процесс мирного урегулирования армяно-азербайджанского, нагорно-карабахского конфликта, международное признание территориальной целостности Азербайджана, признание Армении государством-агрессором и принятие связанных с этим соответствующих резолюций. Именно достижение прекращения огня создало благоприятные условия для решения неотложных задач. Так, в результате этого были созданы условия для стабилизации общественно-политической обстановки в стране, укрепления военно-технической базы и развития вооруженных сил.

Справедливое урегулирование армяно-азербайджанского, нагорно-карабахского конфликта на основе норм международного права, углубление двустороннего и многостороннего сотрудничества с государствами и ведущими международными организациями, формирование в мировом сообществе объективного мнения об осуществляемых в стране прогрессивных реформах, реализация процесса экспорта и диверсификации энергетических ресурсов на основе цивилизованных и справедливых отношений являются особыми приоритетными направлениями и внешней политики Президента Азербайджанской Республики Ильхама Алиева.

***Ключевые слова:*** *Армяно-Азербайджанского Нагорно-карабахский конфликт, территориальная целостность, военная агрессия, строительство армии, геополитика, оккупационная политика*

**G Ə N C   T Ə D Q İ Q A T Ç I L A R**
**Y O U N G   R E S E A R C H E R S**

**D Ö V L Ə T   İ D A R Ə Ç İ L İ Y İ**
**P U B L I C   A D M I N I S T R A T I O N**

UOT 32:002.6; UOT 32:::008; 32:316.7

**ANAR ŞÜKÜROV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət qulluğu və kadr siyasəti kafedrasının doktorantı**
*e-mail: anar-shukurov2015@list.ru*

# İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİN TARİXİ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

Sosial, mədəni, iqtisadi və siyasi şərtlərin təzyiqi nəticəsində XX əsrdə ictimaiyyətlə əlaqələr fəaliyyətindən daha ciddi formada istifadə edilməyə başlanılmışdur. İdarəetmə orqanlarının siyasət və fəaliyyətlərinin ictimaiyyətə açıqlamalı olduqları zərurətini hiss etmələri, liberal kapitalist sistemin tətbiq olunduğu rəqabətə davamlı ölkələrdə hədəf kütlələr ilə münasibətlərin əhəmiyyət qazanması və insan resurslarının idarəetmə yanaşmalarında dəyişən yerləri ictimaiyyətlə əlaqələrin çox vacib bir element kimi yaranmasına və inkişafına səbəb olmuşdur.

İctimaiyyətlə əlaqələr işi ilə maraqlanan alimlər ictimaiyyətlə əlaqələrin insanların birgə yaşadığı vaxtlardan bəri var olduğunu bildirməkdədirlər. Həqiqətən də Yunanıstanda və Romada istifadə edilən forumlar bir ictimaiyyətlə əlaqələr fəaliyyətləri sayıla bilərlər. Çünki Qədim Romada söylənilən "Vox populi, vox Dei" (Xalqın səsi, Tanrının Səsidir) ifadəsi, ictimaiyyətlə əlaqələrə verilən önəmi göstərməkdədir [14, s.12].

Oxuma-yazmanın olmadığı keçmiş zamanlarda ictimaiyyətlə əlaqələrin təsirli formaları üz-üzə əlaqələr, danışıqlar və konfransa bənzər toplantılar olmuşdur. Çiçero (M.Ə 106-43) və Domosten (M.Ə 383-322) açıq yığıncaqlarda məşhur olmuşlar və xalqa təsir edən insanlar kimi tarixdə izlər qoymuşlar.

Farslar, Babillər ve Aşşurlar isə çox diqqətli və əla hazırlanmış portretlərlə, göstərmək istədikləri güclü imperator imicinin tarix boyunca qorunmasına çalışmışlar. Qədim Misirdə isə din adamları ictimai fikri formalaşdırmaq, tətbiq olunan qaydaları gücləndirmək və xalqın zehnində uzun zaman qalmaları üçün ictimaiyyətlə əlaqələr texnikalarından istifadə etmişlər [8, s.92].

Dinləyənləri inandırmaq məqsədi ilə dili təsirli formada istifadə etmək üçün Aristotelin "Ritorika" adlı kitabını ictimaiyyətlə əlaqələr sahəsi ilə əlaqədar olaraq yazılan ilk kitab olduğunu söyləyənlər belə vardır [11, s.15]. Həqiqətən də sübutlarla inandırmaq ritorika sənətinin əslini təşkil edirsə, ictimaiyyətlə əlaqələr ilə ritorikanı əlaqələdirmək və ictimaiyyətlə əlaqələr işini həmin dövrə, həmin illərə aparmaq olar.

Roma İmperatoru Oqüst, abidələr inşa etdirər, ədəbiyyatı xalq içində yayaraq ictimaiyyətin sevgisini qazanardı. Oqüstdən sonra gələn Roma imperatorlarının da demək olar ki hamısı, Roma papaları da eyni yoldan istifadə edərək xalqın sevgisini qazanmağa çalışmışlar [4, s.55].

1440-cı ildə mətbəənin kəşfi ictimaiyyətlə əlaqələrə daha çox təsir göstərmiş və ictimaiyyətlə əlaqələr fəaliyyətləri genişlənməyə başlamışdır. Çap vasitələri sayəsində ictimaiyyət ilə idarəedənlər arasında xəbərləşmə, ünsiyyət və əlaqələr artmışdır.

## Amerika Birləşmiş Ştatlarında ictimaiyyətlə əlaqələr

Amerika Birləşmiş Ştatları ictimaiyyətlə əlaqələrin vətəni sayılır. 1641-ci ildə Amerikada Harvard Universitetinin yaradılması üçün başladılan xeyriyyəçilik kampaniyası və 1770-ci illərdə İstiqlal Müharibəsi illərində aparılan kampaniyalar ictimaiyyətlə əlaqələr fəaliyyətinin ilk sistemli nümunələri hesab olunmaqdadır. Bu dövrdə duyğuları oyandıran, asanlıqla yadda qalan ifadələr və simvollar inkişaf etdirilir, ictimai müzakirəni stimullaşdırmaq və ictimaiyyətə təsir etmək məqsədi ilə broşuralar, açıq görüşlər, xəbərlər və qəzetlər də daxil edilməklə hər cür əlaqə vasitələrindən istifadə edilirdi [1, s.9].

İctimaiyyətlə əlaqələrin yaradıcısı və nəzəriyyəçilərindən biri olan Edvard Bernaysın dediyinə görə, İctimaiyyətlə Əlaqələr anlayışından ilk dəfə 1882-ci ildə vəkil Dorman Eaton "cəmiyyətin xeyrinə olan əlaqələr" ifadəsi şəklində istifadə etmişdir. Daha sonra isə 1887-ci ildə Amerikanın dəmir yollarına aid dərc olunan "İllik Dəmiryolu Kitabında" ictimaiyyətlə əlaqələr sözündən istifadə edilmişdir [15, s.28].

Bernays öz təcrübələrindən belə nəticə çıxarmışdır ki, İctimaiyyətlə əlaqələr mütəxəssisləri ictimaiyyətlə əlaqələr qaydalarını bilməklə yanaşı eləcə də üz-üzə ünsiyyət, emosiya yarada bilmək qabiliyyəti, təhlil etmək və obyektiv olmaq kimi keyfiyyətlərə də malik olmalıdırlar.

İctimaiyyətlə əlaqələr sənayesi Bernaysın karyerasından çox şey öyrənmişdir. O, 1923-cü ildə Procter and Gamble Şirkətinin məslətçisi kimi fəaliyyət göstərirdi. Onun təklifi ilə Procter and Gamble Şirkətinin İvori sabunları ilə insanların Nyu Yorkdakı heykəlləri təmizləməsi və sabun heykəllərdən müsabiqələrin keçirilməsi P&G Şirkətinin imicinin artmasına səbəb oldu [13, s.141]. Bunun reklam ilə ictimaiyyətlə əlaqələrin fərqinin daha yaxşı başa düşüldüyü bir tətbiq olduğunu söyləmək olar.

İctimaiyyətlə əlaqələr fəaliyyətlərindən ilk dəfə Amerika Birləşmiş Ştatlarında istifadə edildiyi məlumdur və həmin bu ictimaiyyətlə əlaqələr fəaliyyətlərində jurnalist Luy Ladbetder Liinin də böyük rolu olmuşdur. Həmin dövrdə Con Rokfellerin məslətçisi olmuş və Con Rokfellerin cəmiyyətdə yaranmış mənfi imicini aradan qaldırmağa çalışmışdır [2, s.20]. Lii, iş qurumlarının işlərini xalqdan uzaq bir şəkildə qapalı bir qutu formasında həyata keçirdiklərini təyin etmişdir. Sonra isə iş adamlarına etdikləri işlərin qəzetlər vasitəsi ilə yayaraq xalqa açıq olmalarını təklif etmişdir. Bunun nəticəsində də işgüzar qurumlar səslərini xalqa eşitdirə bilmiş və ictimaiyyətdən gələn reaksiyaları da dəyərləndirirək özlərini istiqamətləndirməyə başlamışdılar [12].

Həmin dövrdə dünyanın ən varlı ailəsi kimi tanınan, lakin işçilərinin yaşayış şəraiti, həyat tərzi ilə məşğul olmamaqda günahlandırılan Rokfellerə işçilərlə yaxın ünsiyyət qurmasını, işçilərlə bir yerdə yemək yeməsini, işçilərə aid iş yerlərini ziyarət etməsi kimi qurumdaxili ictimaiyyətlə əlaqələrə istiqamətlənmiş bir neçə təklifləri Lii məsləhət görmüşdür [19, s.15]. Bu təcrübənin motivasiyanı artıran, işçiləri müəssisəyə bağlayan, özünə inam hissini yaradan və işçilərlə idarəedənlər arasındakı münasibətləri tənzimləyən qurumdaxili ictimaiyyətlə əlaqələr nümunələri olduğunu söyləmək olar.

Liinin ictimaiyyətlə əlaqələr peşəsinə verdiyi əsas töhvələri aşağıdakı kimi sıralamaq olar:

- Sənaye və özəl təşkilatlar ictimai maraqları nəzərə almalıdırlar.

- Rəhbərliklə ünsiyyətdə fasiləsizlik təmin edilməli və işçilərin dəstəkləmədiyi layihələr həyata keçirilməməlidir.

- Media ilə əlaqələr mütəşəkkil və davamlı olmalıdır.

- İş dünyası işçinin insan olaraq əsas xüsusiyyətlərini qəbul etməlidir [9, s.9].

Liinin "ictimai maraqlar" və "davamlı" ifadələri müasir ictimaiyyətlə əlaqələrin təriflərində yer almaqdadır.

Amerika Birləşmiş Ştatlarında ictimaiyyətlə əlaqələrin inkişafında prezidentlərin də rolu çox böyük olmuşdur. Bu prezidentlərə nümunə olaraq Amerika Birləşmiş Ştatlarının 26-cı prezidenti olmuş Teodor Ruzvelti göstərmək olar. Teodor Ruzvelt Ağ Evdə jurnalistlərə ayrıca bir şöbə yaradan və jurnalistlərin istədikləri vaxtda Ağ Evə gələrək prezidentlərin icra işlərini əyani görmələrinə şərait yaradan ilk prezident olmuşdur.

Amerika Birləşmiş Ştatlarında ictimaiyyətlə əlaqələr fəaliyyəti ilk illərdə daha çox özəl sektorlar tərəfindən həyata keçirilmişdir. Daha sonralar isə hökumət tərəfindən ictimaiyyətlə əlaqələr fəaliyyəti həyata keçirilməyə başlanılmışdır. Xususi ilə də 1929-1930-cu illər arasında meydana çıxan böhrandan sonra ictimaiyyətlə əlaqələrə daha çox önəm verilməyə başlanılmışdır.

Amerika Birləşmiş Ştatlarının 32-ci prezidenti olmuş Franklin Ruzvelt 1929-1930-cu illərə aid iqtisadi böhran səbəbindən alınmalı olan qərarların xalq tərəfindən mənisənilməsi üçün radiodan geniş ölçüdə istifadə etmiş və bu vasitədən ictimaiyyətlə əlaqələrdə daha çox istifadə edilməsinə səbəb olmuşdur. İkinci Dünya Müharibəsi səbəbiylə ticarət və sənaye təşkilatlarının müharibənin mənfi təsirindən azad olmaq üçün ictimaiyyətlə əlaqələr praktikasına yer verdikləri müşahidə edildi.

Amerika Birləşmiş Ştatlarında 1944-cü ildən ictimaiyyətlə əlaqələr məqsədli formada təşkilatlanmağı bacarmışdır. Belə ki, həmin ildə yaradılan Amerikan İctimaiyyətlə Əlaqələr Dərnəyi (APRA) və 1948-ci ildə yaradılan Amerika İctimaiyyəti ilə Əlaqələr Birliyi (PRSA) 1961-ci ildə birləşərək ölkə miqyasında böyük bir təşkilat halına gəlmişdir. Qeyd edək ki, 1948-ci ildə yaradılan Amerikan İctimaiyyətlə Əlaqələr Birliyinə 800 minə yaxın insan üzv olmuşdur.

Müasir dövrümüzdə Amerika Birləşmiş Ştatları ictimaiyyətlə əlaqələr fəaliyyətinin ən sıx olduğu həmçinin də bu mövzuda ən çox təşkilata sahib olan ölkələrdən biridir. ABŞ milli maraqları üçün ölkə xaricində də fəaliyyət göstərən bəzi böyük təşkilatlara sahibdir.

İctimaiyyətlə əlaqələrin inkişafında və genişlənməsində İkinci dünya müharibəsinin təsiri böyük olmuşdur. Çünki İkinci Dünya Müharibəsi dövründə dövlətlər xalqa səslənməyə, xalqın dəstəyini qazanmağa çalışırdılar. Müharibədən sonra ictimaiyyətlə əlaqələr yeni inkişaf göstərərək dünyanın bütün ölkələrinə yayılmağa başlamışdır. 1940-cı ildə ABŞ-dan Kanadaya keçən ictimaiyyətlə əlaqələr Kanadada sürətlə inkişaf etdi və İngiltərə, Almaniya, Fransa, Norveç, Hollandiya kimi digər Avropa ölkələrinə də yayılmağa başladı.

**İtaliyada ictimaiyyətlə əlaqələr**

Dünyanın başqa dövlətlərinin ictimaiyyətlə əlaqələr tarixi ilə müqayisədə İtaliyada ictimaiyyətlə əlaqələr tədbirlərinin ölkənin ilk mütəşəkkil qrupları qədər qədim tarixə malik olması nəzərə çarpır. Min ildən daha çox bir müddətdə Romalılar öz hakimiyyətlərinə inamı yaratmaq və həm sərhədləri daxilində həm də fəth etdikləri ərazilərdə müxtəlif ictimaiyyətlə əlaqələr taktikalarından istifadə etmişlər.

Həyata keçirilən mərasimlər və tədbirlər hakimiyyəti mənimsətmək və vəzifə bölgüsü tətbiq edərkən ən məşhur olan strategiyalar idi. Xüsusilə də xalqı ictimaiyyətlə əlaqələr taktikaları və strategiyaları ilə idarə etmək ehtiyacı XV əsrdə siyasətçilərin və

idarəedənlərin əsas narahatlıqları idi. Bunun ən böyük nümunəsi Florensiyalı yazıçı Makiavellinin "Şahzadə" əsəridir. Machiavelli siyasət və təbliğat vasitəsi ilə İtaliyanın güclü şahzadələrinin öz hakimiyyətlərinə necə yiyələndiyini və öz vəzifələrini qorumaq üçün istifadə etdiklərini açıq müzakirə edən ilk insanlardan biri olmuşdur. Bu fəaliyyətlərin çoxu xalqı və fərdləri inandırıcı fəaliyyətə istiqamətləndirmək üçün ictimaiyyətlə əlaqələrin inkişaf etdirilməsi və kombinasiyası idi. İngilis elm adamlarından Harris və Lokk 1996-cı ildə, Harry, Moss və Vetter isə 1999-cu ildə müasir İngilis şirkətlərinin Machiavelli texnikalarından istifadə etdiklərini öz müzakirələrində sübut etmişlər.

Digər maraqlı bir məsələ Roma Katolik Kilsəsinin İtaliyada ictimaiyyətlə əlaqələrin inkişafında açar rolunu oynamasıdır. İslahatlar zamanı Roma Katolik Kilsəsi yeni kəşf edilmiş mətbəədən ağıllı olaraq, islahatçıların təbliğatına qarşı xalqa Katolik inanclarını mənimsətmək və ya xalqın dəstəyini alıb bu işləri davam etdirmək məqsədi ilə broşuralar çap etmək üçün istifadə etdi [17]. Ancaq bu, Roma Katolik Kilsəsinin rəsmi məlumat bölməsi yaratmasından təxminən yüz il sonra baş verdi.

1622-ci ildə Papa XV Qreqori Sakra, Congregatio De Propagende Fide-ni ( İnam Yayan Müqəddəs Cəmiyyət) qurdu. Bu Cəmiyyətin əsas məqsədini Roma Katolik doktrinasının yayılması, təkmilləşdirilməsi və təşkil edilməsi məsələləri tuturdu. Həmçinin də bu Cəmiyyət tərkibinə əlaqələndiricilər və yüksək rütbəli keşişlər də daxil edilmiş ilk kilsə təşkilatı idi.

Propaqanda sözü ilk dəfə "propagare" (təbliğat, yayılma) sözündən yaranmışdır və müasir zamanda müxtəlif mənfi mənada olmayan nəcib işlərdən bəhs edirdi. İnsanları maarifləndirməkdən əlavə bu İnam Yayan Müqəddəs Cəmiyyət (Congregatio De Propagende Fide) dünyanın müxtəlif xalaqlarına məxsus mədəniyyətlər, icmalar və əhali haqqında məlumat toplayaraq mühüm bir funksiyaya sahib idi. Bu gün strateji ictimaiyyətlə əlaqələr mərkəzi olan xalqdan və onun ətrafından məlumat toplamaq və müşahidə aparmaq, kilsə tərəfindən dini mesajları hazırlamaq və inkişaf etdirmək bu Cəmiyyətin əsas işidir. Qeyd edək ki, bu İcma hələ də fəaliyyət göstərməkdədir və Vatikanın İncil Kitabını öyrətmək səylərində əsas rol oynayır [21].

İtaliyada müasir ictimaiyyətlə əlaqələrin köklərinə baxsaq biz bunu Mussolini idarəçiliyində və İkinci Dünya Müharibəsində görə bilərik. Muzi Falkoni İtaliyada 1930-cu illərin ortalarını müasir ictimaiyyətlə əlaqələrin başlanğıcı, Pirelli Şirkətlər Qrupunu isə ilk dəfə ictimaiyyətlə əlaqələr fəaliyyətini həyata keçirən şirkət kimi müəyyən etmişdir.

İtaliyada ictimaiyyətlə əlaqələr fəaliyyətində ABŞ-ın rolu böyük olmuşdur. Çünki həmin dövrdə ABŞ-ın informasiya xidməti tərəfindən verilən böyük həcmdə təlimlərdən sonra italyan jurnalistlərin ictimaiyyətlə əlaqələr üzrə mütəxəssis təhsili aldıqları bildirilir. İlk mütəşəkkil ictimaiyyətlə əlaqələr üzrə birliklər Romada Sindacato Nazionale Professionisti Relazioni Pubbliche (İctimaiyyətlə Əlaqələr Peşakarları Milli Təşkilatı) ve Milanda Associazione İtaliona Relazioni Pubbliche (İtaliya İctimaiyyətlə Əlaqələr Dərnəyi) qurulmuşdur. 1960 və 1970-ci illər arasında İtaliyanın demək olar ki, bütün regionlarında kiçik və orta sahibkarlığa xidmətlər göstərən bir çox ictimaiyyətlə əlaqələr agentlikləri və məsləhətxanaları yaranmağa başladı [5].

1980-ci illərin əvvəllərinə qədər İtaliyada ictimaiyyətlə əlaqələr əsasən bir şirkətin nüfuzunu və imicini yaratmaqda dəstək olurdu. İctimaiyyətlə əlaqələrin ikinci funksiyası (dəstək olmağa kömək etmək) ictimaiyyətlə əlaqələrə "tədbirlərin kralı" ləqəbini qazandırmışdır.

İtaliyada 1990-cı illərdə ilk dəfə Milan Universitetində (İstituto Universitario di

Lingue Moderne) İctimaiyyətlə əlaqələr dərsləri və İctimaiyyətlə əlaqələr diplomu verilməyə başlanıldı. Buna görə də 50 ildən artıq bir müddətdə ictimaiyyətlə əlaqələr mütəxəssisləri jurnalistika, iqtisadiyyat və siyasətşünaslıq kimi müxtəlif sahələrdən formalaşırdılar. Onlar daha çox iş həyatında ictimaiyyətlə əlaqələr fəaliyyətini öyrənir və həyata keçirə bilirdilər [16].

1990-cı illərin əvvəllərində İtaliyada dövlət idarəçiliyini modernləşdirmək üçün qanunlarda müxtəlif dəyişikliklər edildi və ictimaiyyət ilə digər maraqlı tərəflər arasındakı məlumatlandırma və ünsiyyətə daha geniş yer verilməyə başlanıldı. Belə olan təqdirdə də dövlət orqanlarında ictimaiyyətlə əlaqələr daha önəmli yer tutmağa başladı. İtaliyanın birləşdirilməsindən əvvəlki hökumət, əlaqələri (1861-ci il) əsasən böyük şəhərlərdəki reklam lövhələrində və əyalət qəzetindəki məqalələr üzərində qururdu. Vətəndaşlarla xarici rabitə işlərini Daxili İşlər Nazirliyinin dövlət məmurları və hökumətin yüksək katiblikləri həyata keçirmişdir [10].

Ancaq bu gün hökumət siyasətinin nümayişi və həyata keçirilməsi, yerli, regional və milli səviyyədə geniş və planlı bir dövlət idarəetmə sistemi tərəfindən həyata keçirilir. 1990-cı il islahatlarından əvvəl İtaliyada xalq ilə ünsiyyət kütləvi informasiya vasitələri kimi çox az daxili rabitə ilə məhdudlaşırdı [20]. İctimaiyyətlə Əlaqələr İdarəsi yaradıldığı 1993-cü ilə qədər İtaliyada dövlət orqanları arasında sırf ictimaiyyətlə əlaqələr fəaliyyətini həyata keçirən rabitə departamenti yox idi.

Bü gün yayım və təmsilci nümayəndəlikləri ilə birlikdə İctimaiyyətlə Əlaqələr İdarəsi, İtaliya dövlət idarəçiliyinin məlumat və əlaqə işlərinin bel sütunudur. İtaliyada hər birində İctimaiyyətlə Əlaqələr İdarəsi və yayım nümayəndəliyi olan 8094 bələdiyyədə vardır və İtaliyanın dövlət qurumları çox sayda ictimaiyyətlə əlaqələr üzrə mütəxəssis işə götürməkdədirlər. Lakin bunlardan çox az qisminin strateji ictimaiyyətlə əlaqələr metodlarından istifadə etdiyi məlumdur. Eynilə qazanc məqsədi güdməyən şirkətlərin də ictimaiyyətlə əlaqələr fəaliyyəti kifayət etmir. Bu şirkətlər sağlamlıq, rifah və mədəniyyət kimi sahələrdə bir-birini tamamlayan xidmətlər göstərməklə İtalyan cəmiyyətində böyük rol oynayır. Dini qurumlar üçün pul toplama fəaliyyəti orta əsrlərə və Roma Katolik Kilsəsinin təcrübələrinə qədər uzun bir yola əsaslanır [6]. Cəmiyyətdə vətəndaşların iştirakının az olması və böyük vətəndaş cəmiyyəti təşkilatları arasında koordinasiya əskikliyi güclü bir İtalyan vətəndaş cəmiyyətinin inkişafı üçün çox böyük problem olaraq qalmaqdadır. Ancaq bu gün təxminən 4720 təşkilat hədəf kütlə ilə münasibətlər, tərəfdaş münasibətləri, sponsorluq və imic idarəetməsi kimi özəl ictimaiyyətlə əlaqələr xidmətləri göstərməkdədirlər.

### Fransada ictimaiyyətlə əlaqələr

Fransda ictimaiyyətlə əlaqələr bu sahədə işləyən mütəxəssislərin çox güclü olan mədəniyyət, iş və mətbuat ənənələri ilə mübarizə etmək məcburiyyətində qalmaları səbəbiylə digər Avropa ölkələrinə nisbətən daha gec formalaşmışdır.

Ümumiyyətlə Fransda ictimaiyyətlə əlaqələrdən söz açarkən 1946-cı ildən başladığını söyləmək olar. Çünki bu dövr Fransada milliləşdirmə hərəkatlarının başladığı kömür, elektrik, avtomobil sənayesi kimi sahələrdə böyük milli təşəbbüslərin göstərildiyi dövrdür. İkinci Dünya Müharibəsinin vurduğu böyük zərərlərdən xilas olmaq üçün məhsuldarlıq fikrinin yayıldığı dövrdür. Bir çox Fransız Amerikanı yaxından tanımış, ən yaxşı məhsuldarlıq (rentabellik) formullarını axtarmaq üçün hətta mütəxəssislər də ora getmişdir. Bu mütəxəssislər Amerikada mühəndislərin, idarəedənlərin bəzən də demək olar ki, hər kəsin ictimaiyyətlə əlaqələrdən bəhs etdiklərini görmüşlər. Beləcə bu mövzu okeanı keçərək Fransaya keçmiş və heç kim bu ifadəyə

tərcümə axtarmadan Relations Publiques ifadəsini işlətməyə başlamışdır.

1946-cı ildə ilk dəfə Fransız neft şirkəti tərəfindən Cen Çoppin de Janvrinin Amerika Birləşmiş Ştatlarına etdiyi bir səyahətdən sonra İctimaiyyətlə Əlaqələr bölməsi qurulmuşdur. Bu hadisədən sonra Şell və Kalteks başda olmaqla digər neft şirkətləri də İctimaiyyətlə Əlaqələr Xidməti açmışlar. Beləliklə də tədricən digər sektorlar və idarəetmə quruluşlarında da İctimaiyyətlə Əlaqələr servisləri açılmağa başlamışdır [14, s.16].

Fıransız filosof Auqust Komten şirkətlərin bir şüşə ev kimi cəmiyyətə açıq olmalarını və həmin şirkət rəhbərinin cəmiyyətin düşüncələri ilə maraqlanmasını söyləmişdir. Bu filosofun düşüncləri ilə yola çıxan 10 mütəxəssis 1952-ci ildə Etiene Blokun rəhbərliyi altında Le Maisan de Verne - İctimaiyyətlə əlaqələr Dərnəyinin əsasını qoymuşlar və bu dərnək müasir ictimaiyyətlə əlaqələr birliyinin toxumunu formalaşdırmışdır.

**İngiltərədə ictimaiyyətlə əlaqələr**

İngiltərədə ictimaiyyətlə əlaqələrin əhatə dairəsinin genişləndirilməsi üçün ilk addım 1912-ci ildə atıldı və dövrün baş naziri Loyd George hökumət işlərinin düzgün şəkildə xalqa təqdim edilməsi üçün ictimaiyyətlə əlaqələr mütəxəssislərini bir araya gətirərək bir təbliğat qrupu qurmuşdur. Həmin bu təbliğat qrupu sonradan İngiltərə hökumətinin həm daxili, həm də xaricdəki ictimai münasibətlərini tənzimləmək məqsədi ilə 1946-cı ildə qurulan Mərkəzi Hökumət İdarəsinin əsasını təşkil etmişdir [4, s.17].

1914-cü ildə müharibənin başlaması ilə rəsmi təbliğat işləri İngiltərədə və xaricdə sürətli surətdə inkişaf etməyə başladı və 1918-ci ilin əvvəlinə qədər bu cür təbliğat işləri üç əsas təşkilat tərəfindən idarə edildi. Koloniyalarda, müttəfiq və neytral dövlətlərdə təbliğat fəaliyyətlərindən cavabdeh olan İnformasiya Nazirliyi, İngiltərədə vətənpərvər bir propaqanda kompaniyası həyata keçirən Milli Müharibə Silahları Komitəsi və Lord Nortklifin idarəçiliyində digər ölkələrdəki təbliğatdan cavabdeh olan başqa bir Komitə.

1932-ci ildə bir mətbuat əlaqələndiricisi baş nazirin heyətinə təyin edildi və 1938-ci ildə Sarayda Mətbuat Katibliyi postunun yaradılması media qurumları ilə əlaqələrin əhəmiyyətinin hökumət dairələri tərəfindən qəbul edilməsinə səbəb oldu [7, s.93].

1926-cı ildə Kral Ticarət Nazirliyinin (The Empire Marketing Board) yaradılması və İctimaiyyətlə Əlaqələr İnstitutunun təsisçisi olan ser Stefan Tallents İngiltərədə insanların ağlında imperiya düşüncəsini canlı tutmaq işini həyata keçirtməklə vəzifələndirildiyində müasir mənada ictimaiyyətlə əlaqələrdən faydalanma prosesi başlamış oldu. Kral Ticarət Nazirliyi öz məqsədlərini xalqa çatdırmaq üçün filmlərdən, sərgilərdən, afişalardan, mətbuatdan və BBC-dən faydalanmışdır. Hökumət tərəfindən ianə yolu ilə toplanılan illik bir milyon funt sterlinqin təqribən üçdə biri tanıtım fəaliyyətlərinə xərcləndi.

1932-ci ildə qurulan BBC Kral Xidmətinin yaradılmasından sonra Xarici Yayım Xidmətinin (The BBC External Broadcasting Service) təməli qoyulmuş və 1934-cü ildə xarici ölkələrlə təhsil və mədəni əlaqələri inkişaf etdirmək üçün British Council yaradılmışdır.

1937-ci ildə Milli Yerli İdarəetmə Təşkilatları Milli Assosiasiyası tərəfindən ictimaiyyətlə əlaqələr üzrə bir işçinin təyin edilməsi ilə Yerli İdarəetmə orqanlarında ictimaiyyətlə əlaqələr fəaliyyətlələri başlanıldı. İngiltərə Sənayesi 1945-ci ilə qədər ictimaiyyətlə əlaqələr araşdırmalarına çox da maraq göstərməmişdir. 1948-ci ilin fevral ayında İngiltərədə qurulan İctimaiyyətlə Əlaqələr İnstitutu (İPR), ictimaiyyətlə əlaqələr peşəsinin inkişafında fəal rol oynamışdır. Həmçinin İctimaiyyətlə Əlaqələr Məsləhətçiləri Birliyi (The Public Relations Consultants Association - PRCA) də məsləhət xidmətinin

təşkilində böyük rola malik olmuşdur. İş dünyasında ictimaiyyətlə əlaqələr fəaliyyətlərinin başladığı və cəmləşdiyi ölkə Amerika Birləşmiş Ştatları olmasına baxmayaraq hökumət ətrafında siyasi və qeyri-kommersiya sahələrində ictimaiyyətlə əlaqələr praktikasında İngiltərənin lider ölkə olduğunu söyləmək olar.

Beynəlxalq İctimaiyyətlə Əlaqələr Birliyi - İPRA 1 may 1955-ci ildə Londonda təsis edildi və bu Birliyə sədr Tom Fife Klark təyin edildi. 1965-ci ildə Code of Athens adlı, təməli Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsaslanan Beynəlxalq İctimaiyyətlə Əlaqələr Etikası Kodeksini İPRA qəbul etdi [7, 94].

Beynəlxalq İctimaiyyətlə Əlaqələr Birliyi (İPRA) Yaponiya, İngiltərə, ABŞ, Cənubi Amerika, Sinqapur, Braziliya, İsveçrə və Avstraliyadan ibarət səkkiz ölkədə 1997-ci ildə həyata keçirtdiyi araşdırmada qloballaşmanın korporativ ünsiyyət üzərindəki təsirlərini təhlil edərək, korporativ sosial qiymətləndirmənin inkişafı və qorunması məsələləri ilə yanaşı şirkət strategiyasına uyğun olaraq korporativ ünsiyyətin də ictimaiyyətlə əlaqələrin gələcəyini müəyyənləşdirən ən vacib funksiyalardan biri olduğu qənaətinə gəlmişdir.

XXI əsrdə ictimaiyyətlə əlaqələrin daha işlək olmasının səbəbləri aşağıdakı kimidir [22]:

- dövlət və özəl qurumların sosial məsuliyyət hissinin güclənməsi,
- ətraflarına qarşı daha həssas olmaları;
- qarşılıqlı imkanların artması;
- rabitə texnologiyasında böyük inkişaflar;
- dövlətin vəzifələrinin get-gedə artması.

Şübhəsiz ki, bunların hamısına təsir göstərən ümumi bir amil də sənayeləşmə ilə birlikdə meydana çıxan sosial dəyişiklik və inkişafdır.

Beynəlxalq səviyyədə ünsiyyətin və əlaqələrin reallaşdırılması şirkətlərin regional fərqliliklərə yaxşı bələd olan ictimaiyyətlə əlaqələr üzrə mütəxəssislərlə nə dərəcədə işləmə səviyyəsindən asılıdır. Burada səhmdarlar, investorlar və müştərilər ən vacib hədəf qrupları olaraq seçilərkən, işçilər dördüncü yerdə müəyyənləşdirilmişdir. Müasir dövrümüzdə demək olar ki, hər kəs şirkətlərin daha geniş miqyasda rabitə fəaliyyətinə ehtiyaclarının olduğu fikrini dəstəkləyir.

Milli sərhədlərin xaricində məhsul barəsində yaranan məsuliyyətin yaradacağı çətinliklər, internet əsrində məlumatların sızmasının qarşısının alınması və qlobal standartların qorunması məsələləri gələcəkdə daha çox düşünülən problemlər olacaqdır [18].

Media və digər təzyiq qrupları qurumları sorğulamağa davam etdikcə ictimaiyyətlə əlaqələr fəaliyyəti də inkişaf edərək genişlənməkdə davam edəcəkdir. Media ilə qlobal səviyyədə əlaqələrin aparılması qurum fəaliyyətinə daha çox diqqət yetirmək deməkdir. İnkişaf edən ictimaiyyətlə əlaqələr müasir dövrdə zaman-zaman qərar qəbuletmə mexanizminin bir hissəsi olmaqdadır və ictimaiyyətlə əlaqələrin qlobal səviyyədə ələ alınması adi hala çevrilməkdədir.

**Ədəbiyyat:**


1. Akbulut, A. D. (2008). İş İlanlarında Halkla İlişkiler Mesleğinin Sunumu. (Yüksek Lisans Tezi). Kocaeli: Kocaeli Sosyal Bilimler Enstitüsü.
2. Asna M.Alaedden, "Halkla İlişkiler", TODAİE yayınları, Anakara 1969,
3. Asna: Yönetim Halk İlişkileri, Amme İdaresi Dergisi, 1968, sayı 3.
4. Bülent Göksel.A, Halka ilişkiler, E.Ü. İletişim Fakültesi Yayınları, İzmir,1994,
5. Confcommercio. (2009). (SMEs" Roadshow. Small and medium enterprises in Italy) Roadshow PMI. Le piccole e media imprese in Italia. Available at:http://www.confcommercio.it
6. Dubach, E. B. Lavorare con le fondazioni. Guida operativa. Milan, Italy: Franco Angeli.2009
7. Filiz Balta Peltekoğlu, Halkla İlişkiler, Beta Yayım Dağıtım A.Ş., İstanbul, Mart 1998.
8. Filiz Balta Peltekoğlu, Halkla İlişkiler Nedir?, Beta Yayınları VIII Baskı, İstanbul 2016, 621 səh.
9. Geçikli, F. (2010). Halkla İlişkiler ve İletişim. İstanbul: Beta Basım.
10. Grandi, R. (2003). (Public communication) La Comunicazione pubblica. Roma, Italy: Carrocci editore. http://www.vatican.va/romancuria/congregations/cevang/archivio/index.html
11. James E.Grunig, Todd Hunt, Managing Public Relations, New York, N.Y.: Holt, Rinehart and Winston, 1984.
12. Kadıbeşegil M.Salim, Halkla İlişkilerin Temel İlkeleri, Tükemat A.İ, İzmir 1986.
13. Kadıbeşegil, S. (2000). Halkla İlişkilere Nereden Başlanmalı? İstanbul: Mediacat Yayınları.
14. Nuri Tortop, Halkla İlişkiler, Yargı Yayınları VII Baskı, Ankara 1998, 236 səh.
15. Özer, M. A. (2009). Halkla İlişkiler Dersleri. Ankara: Adalet Yayınevi.
16. Sriramesh, K., & Vercic, D. (2009). The global public relations handbook. Theory, research, and practice (2nd Ed.). New York, NY: Routledge
17. Taylor, P. M. (2002). Munitions of the mind: A history of propaganda from the ancient world to the present day. New York: Manchester University Press
18. Theaker, A. (2008). Halkla İlişkilerin El Kitabı. İstanbul: Mediaçat Yayınları, 464 səh.
19. Ülger, B. (2003). İletişim ve Halkla İlişkiler. İstanbul: Der Yayınları.
20. Valentini, C. (2013). Public relations in the public sector. The role of strategic communication in the Italian public administration. Sinergie, 92(Sep.–Dec).
21. Vatican. (2010). (Historical archive of the De Propaganda Fide) Archivio Storico De Propaganda Fide. The Vatican. Available at: http://www.vatican.va/romancuria/congregations/cevang/archivio/index.html
22. Zeyyad Sabuncuoğlu, İşletmelerde Halkla İlişkiler, Alfa Aktüel, Bursa 2010.


***Açar sözlər:*** *ictimaiyyətlə əlaqələr, ictimaiyyətlə əlaqələrin tarixi, Amerika, İtaliya,Fransa, İngiltərə, ictimaiyyətlə əlaqələr fəaliyyətləri*

**Anar Shukurov**
*PhD candidate, Department of the State Service and Personnel Policy,*
*Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## HİSTORY AND DEVELOPMENT STAGES OF PUBLİC RELATİONS

**SUMMARY**

The roots of public relations go back to ancient times. However, systematically studying of public relations falls to the second part of the XIX century and its transformation as a profession happened in XX century. As the relationship between subject and object of administration emerged, public relations activities have increased. Today, public or private organizations give great importance on public relations. Because public relations make a significant contribution to the achievement of the institution's goals. Institutions and organizations that want to compete better with their opponents, have a good image and have a long-term vision, can only achieve this with their public relations activities. This article describes the history of public relations, the reasons for emergence, and the stages of development.

***Keywords:*** *public relations, history of public relations, America, Italy, France, England, public relations activities*

**Анар Шюкюров**
*Докторант кафедры Государственной службы и кадровой политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ИСТОРИЯ И ЭТАПЫ РАЗВИТИЯ СВЯЗЕЙ С ОБЩЕСТВЕННОСТЬЮ

### РЕЗЮМЕ

Корни связей с общественностью уходят в древние времена. Однако их систематическое изучение относится ко второй половине XIX века, а превращение в отдельную профессию – XX веку. С появлением связей между управляющими и управляемыми также увеличилась доля деятельности по связям с общественностью. На сегодняшний день государственные и частные структуры придают большое значение связям с общественностью, потому что они способствуют достижению целей этих структур. Структуры и организации, которые хотят вести лучшую конкуренцию с конкурентами, достичь хорошего имиджа и желающие долгие годы осуществлять свою деятельность в данной сфере, могут достигнуть этих целей лишь посредством деятельности, связанной со связями с общественностью. В представленной статье анализируются история связей с общественностью, причины их возникновения и этапы развития.

***Ключевые слова:*** *связи с общественностью, история связей с общественностью, Америка, Италия, Франция, Англия, деятельность по связям с общественностью*

# G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
# Y O U N G R E S E A R C H E R S

# D Ö V L Ə T İ D A R Ə Ç İ L İ Y İ
# P U B L I C A D M I N I S T R A T I O N

UOT 340.1; 321.01

**HƏMDULLA MƏMMƏDOV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət qulluğu və kadr siyasəti kafedrasının dissertantı**
*e-mail: hamdulla.mammadov@gmail.com*

## AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT QULLUĞUNUN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASINA YÖNƏLMİŞ İSLAHATLAR

Son dövrlərdə qlobal səviyyədə əhəmiyyət qazanmış, dövlət idarəçiliyi sistemində vacib elementlərdən biri olan dövlət qulluğunun səmərəliliyinin artırılması məsələsi bütün nümunəvi dövlətlər tərəfindən diqqətdə saxlanılmaqdadır. Dövlət qulluğunda səmərəliliyin artırılması dedikdə, ilk növbədə dövlət qulluğunun və idarəetmənin rasional təşkili nəzərdə tutulur. Dövlət qulluğunun səmərəliliyinin artırılması dövlət qulluqçusunda məsuliyyət hissinin artırılmasına əsaslanmaqdadır. Qeyd etmək lazımdır ki, təcrübədə dövlət qulluğunda səmərəliliyin artırılmasının bir sıra növlərinə rast gəlmək mümkündür. Bu baxımdan Azərbaycan Respublikası da öz dövlət qulluğu sisteminin mükəmməlləşdirilməsi və onun səmərəliliyinin artırılması məqsədilə uzun illərdir ki, ardıcıl və hərtərəfli islahatlar aparır.

### Dövlət qulluğunda səmərəlilik anlayışı

Müasir dövrdə dövlət sistemlərinin dinamik inkişafı prosesində ən mühüm amillər sırasında dövlət qulluğu və onun dövlət orqanlarının səmərəli fəaliyyətini təşkil etmək məsələsi də durmaqdadır. Hal-hazırda dövlət idarəçiliyinin reallıqları dövlət qulluqçularından yüksək intizam və peşəkarlıq tələb edir. Bu da öz növbəsində dövlət qulluğunun səmərəliliyinin artırılmasının başlıca komponentlərindən biridir. Bu, eyni zamanda dövlət qulluqçularının üzərinə düşən məsuliyyəti və idarəçilik yükünü olduqca artırmaqdadır. Bununla əlaqəli olaraq, dövlət qulluğu sistemi yeni kompleks vəzifələrin öhdəsindən gəlmək kimi bir problemlə qarşılaşır. Nəzərə alanda ki, bu vəzifələrin miqyası və mürəkkəblik dərəcəsi fərqli səviyyələrdə özünü göstərir, dövlət qulluğunun səmərəliliyini təyin edən amillərin sərhədlərində kifayət qədər geniş olduğunu düşünmək mümkündür. Ələlxüsus, Qərb dövlətlərində dövlət qulluğunun səmərəliliyi məsələsinə yanaşma müəyyən özünəməxsus cəhətləri ilə diqqəti cəlb edir. Belə ki, vətəndaşların həyat tərzi və sosial-iqtisadi vəziyyəti bütövlükdə dövlət qulluğunun səmərəliliyindən birbaşa asılıdır. Bu baxımdan, Qərb siyasi elmində dövlət qulluğunun və dövlət idarəçiliyinin səmərəliliyi biri-birilərini tamamlayan hallar kimi səciyyələndirilir.

Qərb siyasi elminin ünsürlərini və müasir dövlət idarəçiliyi elementlərini tətbiq edən hər bir dövlət, eləcə də, Azərbaycan Respublikası dövlət qulluğu sisteminin səmərəliliyinin artmasını şərtləndirən dövlət idarəçiliyi mexa-

nizmlərinin müəyyənləşdirilməsi və tətbiqi sahəsində müəyyən islahatlar aparmaqdadır.

Burada əsas məqam ondan ibarətdir ki, bu islahatlar situativ və dövrü deyil, davamlı şəkildə həyata keçirilməlidir. Çünki, istər yerli cəmiyyət, istərsə də bütün dünya davamlı olaraq inkişafdadır [11, s.51]. Bu da öz növbəsində, ölkədə sosiomədəni, sosial-iqtisadi dəyişiklikləri şərtləndirməkdədir. Bütün bunların fonunda dövlət qulluğu sistemi müvafiq yenilənmə tələb edir.

Beynəlxalq təcrübədə müvafiq istiqamətdə səmərəliliyin təmin olunmasının ən bariz xüsusiyyətlərindən biri də onun hərtərəfli və sistemli şəkildə həyata keçirilməsidir. Bununla yanaşı, dövlət qulluğu kadrlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi də səmərəliliyin artırılmasının əsas mexanizmlərindən biri kimi qiymətləndirilir. Məsələn, Almaniya təcrübəsinə diqqət yetirsək, görərik ki, burada dövlət qulluqçularının peşəkarlıq səviyyəsinin yüksəldilməsini təmin edən çoxsaylı kurslar mövcuddur. Xüsusilə də yeni kadr texnologiyalarının tətbiqi effektiv təcrübənin əsasını qoymuşdur ki, ondan da hazırda dünyanın əksər ölkələrində istifadə olunmaqdadır. Belə ki, Almaniya da daxil olmaqla, əksər Avropa ölkələrində yeni kadr texnologiyaları əsasən özəl sektor sahəsindən mənimsənilir.

Dövlət qulluğunda səmərəliliyin artırılması sahəsində müəyyən metodlardan istifadə olunmaqdadır. Dövlət qulluğunun səmərəliliyinin artırılmasının ən sınanılmış metodlarından biri məhz dövlət qulluqçularının motivasiyasının yüksəldilməsindən ibarətdir. Bu, sağlam rəqabət mühitini yaratmaqla, ümumilikdə məqsədlərə daha səmərəli çatmağa imkan verir. Motivasiya ilə yanaşı, dövlət qulluqçularına müəyyən məhdudiyyətlərin tətbiq olunması da dövlət qulluğunda səmərəliliyin təmin edilməsi məqsədilə tətbiq olunan mexanizmlərdən biri kimi qəbul olunmaqdadır [6, s.411].

Dövlət qulluğunun səmərəliliyi ilə əlaqədar analizlər bir sıra amillərə diqqət yetirməyin lazım olduğunu göstərməkdədir. Bu amilləri müəyyənləşdirmək üçün yenə də Qərb təcrübəsinə nəzər salmaq lazımdır. Yalnız səmərəliliyi təmin edən innovasiyaların tətbiq olunması dövlət qulluğunun təşkilində kifayət etmir. Bununla yanaşı, dövlət qulluğunun səmərəliliyini azaldan amillər diqqətdən kənarda qalmamalıdır. Çünki bu kimi faktorların mövcudluğu innovasiyaların gözləntiləri qarşılamaması ilə nəticələnə bilər.

Yuxarıda qeyd olunan məqamlarla yanaşı, vətəndaşların iştirakı dövlət qulluqçularının səmərəliliyinin artırılmasının siyasi və inzibati elementlərini ehtiva etməklə yanaşı, dövlət hakimiyyəti orqanlarının işində vətəndaşların müəyyən iştirak imkanlarının yaradılması dövlət qulluqçularının məsuliyyətinin artmasına kömək edir. Bəzən hətta ictimai nəzarət inzibati islahatlardan daha çox səmərə verə bilir.

### Azərbaycan Respublikasında aparılan islahatların dövlət qulluğunun səmərəliliyinə təsirləri

Azərbaycanda dövlət qulluğu sistemində səmərəliliyin artırılması məqsədilə aparılan islahatlar müəyyən uğurlar əldə etmişdir. Bunlar, ilk növbədə, dövlət sektorunda dəyişiklikləri və inkişafı təmin edən faktorların düzgün təhlil edilməsi ilə birbaşa bağlıdır. Qeyd edildiyi kimi, dövlət qulluğunda səmərəliliyin artırılması məqsədilə aparılmış islahatlara bir çox faktorlar təsir göstərmişdir: dövlət xərclərinin ixtisar edilməsi, siyasi qərarlar və onların reallaşdırılması, dövlət qulluğunun cəlbediciliyi, onun prestijinin yüksəldilməsi və s.

Azərbaycanda dövlət qulluğu sisteminin səmərəliliyinin artırılmasının iki əsas xüsusiyyəti mövcuddur:

- xarici ölkələrin müsbət nümunələrinin ümumiləşdirilməsi;
- ekspert və dövlət qulluqçularının mövqeyinin nəzərə alınması [9, s. 6].

Nəticə etibarilə gələcəyə yönəlik planlanmış dövlət qulluğu sisteminin formalaşması digər sahələrdə islahatların səmərəli reallaşdıra biləcək səriştəli kadrların yetişməsini təmin etməkdədir. Dövr keçdikcə həm cəmiyyətin, həm də dövlətin dövlət qulluqçularından tələbləri müxtəlif olur. Dövlət qulluqçusu hal-hazırda təlimatlara uyğun davranıb müəssisə iyerarxiyasının yuxarı pillələrindən təşəbbüs gözləyən işçi imicindən qurtulub, cəmiyyət həyatının müəyyən sahələrində iştirak edən qüvvəyə çevrilmişdir.

Yuxarıda qeyd olunan məsələlər Azərbaycan Respublikasının Prezidenti tərəfindən daim diqqətdə saxlanılmaqdadır. Bu baxımdan cənab Prezident tərəfindən dövlət qulluğunun səmərəliliyinin artırılması ilə bağlı atılan yeni addımlar sırasında Birinci vitse-prezident institutunun təsis edilməsi və bu yüksək vəzifəyə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təyin olunması da xüsusi əhəmiyyət kəsb edir. Məhz onun fəaliyyətinin nəticəsi olaraq Azərbaycanda dövlət qulluğu istər hüquqi və təşkilati, istərsə də ictimai və sosial institut kimi imic qazana bilmişdir.

Ümumlikdə isə, Azərbaycanda müasir dövrdə dövlət qulluğunun əsasları 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ilə qoyulmuşdur. Belə ki, Konstitusiyanın 55-ci maddəsində qeyd olunur ki, Azərbaycan vətəndaşlarının dövlət idarəetməsində iştirak və dövlət qulluğuna qəbul hüququ vardır:

I. Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsilə həyata keçirə bilərlər.

II. Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər [1].

Ölkədə dövlət qulluğu sistemində həyata keçirilən ilkin islahatlar çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 1998-ci il dekabrın 29-da “Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında” fərmanı əhəmiyyətli rol oynamışdır. Dövlət qulluğu ilə bağlı fundamental hüquqi sənəd isə 2000-ci il iyulun 21-də qəbul edilmiş “Dövlət qulluğu haqqında” qanundur. Bu qanun Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası hesab edilməkdədir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 180 nömrəli Fərmanı ilə təsis edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi barədə 3 iyun 2005-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya haqqında Əsasnamə təsdiq edilmişdir [4, s.4].

Bundan bir il sonra Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 iyul tarixli Fərmanı ilə “Azərbaycan Respublikasının dövlət orqanlarında dövlət qulluğunun rəhbər vəzifələrinin tutulması üçün ehtiyat kadrların formalaşdırılması qaydaları” təsdiq edilmiş, qaydalar "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa, dövlət qulluğu və kadrlarla iş sahəsinə aid olan digər normativ-hüquqi aktlara uyğunlaşdırılmışdır.

Bunun ardınca, 2007-ci il mayın 31-də qəbul olunan “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Qanuna əsasən, dövlət qulluqçuları üçün etik davranış

qaydaları, prinsipləri və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmlər müəyyən edilmişdir.

Həmçinin 24 iyun 2009-cu il tarixli “Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsilə qəbul Qaydaları”nın təsdiq edilməsi barədə fərmanı, 2011-ci il 1 iyul tarixli “Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi barədə fərmanı və s. kimi normativ-hüquqi aktların müasir dövlət qulluğunun formalaşmasında mühüm rolu olub.

Növbəti il, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə 20 aprel 2012-ci il tarixli qanunla dövlət orqanlarının kateqoriyalarında dövlət qulluğu vəzifələrinin təsnifatında, ixtisas dərəcələrində dəyişiklik edilmiş, bu da öz növbəsində kadrlar məsələsində müvafiq dəyişikliklərin edilməsini şərtləndirmişdir.

2016-cı ildə isə dövlət orqanlarının mərkəzləşdirilməsi və dövlət idarəçiliyində səmərəliliyin yüksəldilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın hüquq və vəzifələri Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə həvalə olunmuşdur.

Ölkədə dövlət qulluğunun səmərəliliyini artırmaq məqsədilə həyata keçirilən islahatların effektiv olması üçün xarici təcrübənin öyrənilməsi və tətbiqi də vacib məsələlərdən hesab olunur. Bu baxımdan, TACİS proqramı və Tvinninq layihəsi bəhs olunan məsələdə vacib rol oynamışdır [12, s.49].

Son dövlərdə Azərbaycan Respublikasında aparılan ardıcıl islahatlar dövlət qulluğunun təkmilləşdirilməsinə, səmərəli və peşəkar dövlət qulluğunun qurulmasına, vətəndaş-məmur münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasına, məsuliyyətli kadr potensialının yaradılmasına xidmət etməkdədir. Əhaliyə dövlət xidmətlərinin istehlakçısı kimi, onun məmnunluq səviyyəsinə isə dövlət orqanlarının fəaliyyətinin qiymətləndirilməsi meyarı kimi yanaşılmaqdadır.

Beləliklə, müasir dövlət qulluğu modelləri və milli-tarixi dövlətçilik ənənələrinə əsaslanan bu islahatlar nəticəsində dövlət xidmətlərinin təqdim olunmasının forma və üsulları müntəzəm olaraq təkmilləşdirilir [9, s.6].

Azərbaycan Respublikasında dövlət qulluğu sferasında həyata keçirilən islahatların ən son mərhələsi innovasiyaların tətbiqi ilə xarakterizə olunur. Belə ki, bu islahatların məqsədi olan idarəetmədə çevikliyin, operativliyin və şəffaflığın təmin olunması İKT-nin və bu kimi digər innovasiyaların tətbiqi ilə həyata keçirilməkdədir. Dövlət qulluğunda innovasiyaların tətbiqi dövlət qulluğunun səmərəliliyinin artırılması ilə yanaşı, dövlət qulluqçuları və vətəndaşlar arasında fərdi təmasları azaltmaqla bir sıra subyektiv mənfi amilləri aradan qaldırır.

Azərbaycanda dövlət qulluğunun səmərəliliyinin artırılması istiqamətində tətbiq olunan ən mühüm innovasiyalardan biri də e-hökumətin tətbiqinə dair addımlardır. Bu baxımdan, ölkəmizdə e-hökumətin tətbiqi istiqamətində ciddi uğurlar əldə edilmişdir [8].

2018-ci il prezident seçkilərindən sonra islahatlar dalğasının növbəti mərhələsinə start verən dövlətimiz cəmiyyətin bütün sahələrində yeni nailiyyətlər əldə etmiş və onun hərtərəfli rifahını artırmaq üçün ciddi tədbirlər görmüşdür. Xüsusilə qeyri-neft sektorunun inkişafını prioritet kimi qəbul edən dövlət başçısı idarəetmə strukturunun təkmilləşdirilməsi məqsədilə xüsusi addımlar atmışdır.

Bu müstəvidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu ilin birinci rübünün yekunlarından bəhs edərkən sözü

gedən sahələr üzrə əldə olunan uğurları bilavasitə islahatların nəticəsi kimi dəyərləndirmişdir [10].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev son illərdə dövlət qulluğunun səmərəliliyinin artırılmasına yönəlmiş yeni islahatlar mərhələsinə start vermişdir. Bu islahatlar dalğasının öncə hərtərəfli və geniş strategiyası hazırlanmış, daha sonra isə hüquqi, həm də inzibati bazası yaradılmışdır. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiyadan bəhs oluna bilər.

Bəhs olunan strategiya dövlət qulluğu sistemində idarəetmənin səmərəli yenilənməsi, dövlət müəssisələrinin kadr imkanlarının artırılması və dövlət idarələrinin fəaliyyətində səmərəliliyin yüksəldilməsi kimi bir sıra məqsədləri özündə birləşdirir.

Bununla yanaşı, strategiya dövlət qulluğu sisteminin təkmilləşdirilməsinə yönəlmiş institusional quruculuq və kadr siyasəti, həmçinin dövlət qulluqçularının fəaliyyətinin səmərəliliyinin artırılması məsələlərində fundamental islahatların həyata keçirilməsini nəzərdə tutur.

Strategiyanın "Dövlət qulluğu sahəsində mövcud vəziyyətin təhlili" hissəsində Azərbaycan Respublikasında dövlət qulluğu sisteminin bu günü ilə əlaqədar aparılmış analizlərin nəticələri yer almışdır. Həmçinin, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsinin ardınca dövlət qulluğu sisteminin inkişafında müəyyən uğurların əldə edilməsi faktından söz açılmış və təhlillərin nəticələri ardıcıllıqla qeyd olunmuşdur. Həmçinin, Dövlət qulluğunun inkişaf prinsipləri və Dövlət qulluğunun inkişaf istiqamətləri hissələrində Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafının əsas prinsipləri göstərilmiş, meritokratiya, sistemlilik və planlılıq, eləcə də səmərəlilik kimi prinsiplərin rəhbər tutulduğu qeyd olunmuşdur. Bununla yanaşı, bu hissədə hal-hazırda Azərbaycan Respublikasının dövlət qulluğu sistemində həm karyera, həm də vəzifə modellərinə əsaslanan dövlət qulluğu sistemlərinin elementləri yer aldığı qeyd olunmuş, Dövlət qulluğunda institusional islahatların həyata keçirilməsi, Dövlət qulluğunda kadr siyasətinin inkişafı, Dövlət qulluğunda rotasiya, Dövlət qulluğunda səriştə (kompetensiya) modelinin tətbiqi, Dövlət qulluqçularının fasiləsiz peşəkar inkişafının təmin edilməsi, Dövlət orqanlarının struktur bölmələrinin və dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi kimi bir sıra istiqamətlər müəyyənləşdirilmişdir.

Digər bölmələr isə Strategiyanın həyata keçirilməsi və icrasının monitorinqi, Strategiyanın maliyyələşdirilməsi, eləcə də "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2019-2021-ci illərdə icrası üzrə Fəaliyyət Planı kimi hissələri əhatə edir. Sonuncu isə, öz növbəsində, Dövlət qulluğunda institusional islahatların həyata keçirilməsi, Dövlət qulluğunda kadr siyasətinin inkişafı, Dövlət qulluğunun informasiya təminatı və elektron dövlət qulluğunun inkişaf etdirilməsi, Dövlət qulluğuna dair qanunvericiliyin təkmilləşdirilməsi və icrasına nəzarət, Dövlət qulluqçularının etik davranış qaydalarının tətbiqinin təkmilləşdirilməsi və s. kimi bölmələrə ayrılmışdır [3].

Beləliklə, Azərbaycan Respublikasının dinamik inkişafı və dünyanın bir sıra öndə gedən təşkilatları tərəfindən tanınması, ilk növbədə ölkə rəhbərliyinin həyata keçirdiyi ardıcıl və davamlı islahatların nəticəsidir. Qeyd etmək vacibdir ki, bütün Azərbaycan vətəndaşları həyatlarının hər sahəsində bu islahatların müsbət təsirini hiss edir və əldə olunan uğurlardan fərəh hissi keçirirlər.

Dövlət qulluğu sistemində səmərəliliyin artırılması məqsədilə istənilən islahatın aparılması üçün ictimai rəyin öyrənilməsi

olduqca vacibdir. Dövlət qulluğunun vətəndaşlarla birbaşa qarşılıqlı əlaqəsi var. Bu baxımdan dövlət idarələri və vətəndaşlar arasında əlaqə qaçılmazdır. Dövlət qulluğu vətəndaşlar üçün daha sadə və daha çox iştirak imkanı yaradan bir sistem olmaq xarakteri daşıyır. Buna nail olmaq üçün dövlət sektorunun idarə edilməsində texnologiyaların tətbiqi vacibdir.

Azərbaycan Respublikasında dövlət qulluğunun səmərəliliyinin artırılması istiqamətində aparılan islahatlar dövlət orqanları və inzibati bürokratiya ilə vətəndaşlar arasında yeni münasibətlərin formalaşmasına zəmin yaratmaqdadır. Səmərəli dövlət qulluğuna keçid şəffaflığın təmin edilməsi, süründürməçilik hallarının aradan qaldırılması, vətəndaşlarla dövlət strukturları arasında zaman itkisinə səbəb olan faktorların minimuma enməsi ilə nəticələnir. Bu baxımdan, sosial innovasiyalar dövlətin davamlı və dayanıqlı inkişafının təmin edilməsi, intellektual potensialının gücləndirilməsi, yoxsulluq və işsizliyin azaldılması, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün prioritet vasitə hesab edilir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun, 2016. 66 səh. Maddə 55
2. "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 27 aprel 2016-cı il, 13 səh.
3. Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
4. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya. Bakı, 2014. 38 səh.
5. "Azərbaycan - 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı, 2012-ci il. 39 səh.
6. Christensen, T. and P. Laegreid. Complexity and Hybrid Public Administration—Theoretical and Empirical Challenges. Public Organization Review, 2011 vol. 11, No. 4, səh. 407-423.
7. Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 27 oktyabr 2018, 7 səh.
8. Elektron hökumət portalı. Elektron hökumət haqqında ümumi məlumat: "Elektron Hökumət"in əsas fəaliyyət prinsipləri və əhəmiyyəti. (https://www.e-gov.az/az/content/read/2) [22 yanvar 2020]
9. Hüseynova N. İdarəetmədə müasir islahatların əsas istiqamətləri: şəffaflıq, asan xidmət, vətəndaş məmnunluğu / Azərbaycan, 2014, 21 fevral, s.6.
10. İsmayılov S. Davamlı islahatlar dövlət qulluğunun təkmilləşdirilməsində mühüm vasitədir. Azərtac. https://azertag.az/xeber/Davamli_islahatlar_dovlet_qullugunun_tekmillesdirilmesinde_muhum_vasitedir-1296955?__cf_chl_jschl_tk__=86ca88865937f2731ec1d5a20233ed67fa8bd826-1582319757-0-AY8c_4RjVkA18cpqe72RzS1sGu3-RS3VSMcjN0Ic0lOLB4fkgb9AkpxVqEepkzD66ey5cTFlMRmttSScKFB8td2t-WJvMj8Hr7sYA39Kc1PYkf1_LosKwOL-LwlXEQAXKNWyyAJRXjjVPfN

5xhyYtlNr_WRRyXKbaQ9eVCfOA7xK photl-xitcRKP0FU69P2fl1n4RdfV8-SjmPaE12uKqzk0J0Tcu_77R3tkmg3k-buwMdCAS_FaBUU6un8KjucSac5zTY1 0maL4sJ17YAx4oKl-Nj9BgfnfUm_uPozVIfpw5izkrD5OE2Pp NILcSyED4eK7R7u-Hrw0Faew3lQz01Q9T2xz1w3zIkOTmR 5SSW0auMY8KUkie_q0zueHwTY_P5I W2itpLRPEYD5lfClPqA15.02.2020

11. Koppell, J.G S. Administration without Borders. Public Administration Review. Special Issue on the Future of Public Administration in 2020, 2010, vol. 70, S1, Səh. 46-55.
12. Müfit A. Kamuda İnovasyon. İstanbul, 2007, səh. 33-58 (http://www.inovasyon.org/pdf/MA. Kamuda.Inovasyon.pdf)

***Açar sözlər:*** *dövlət idarəçiliyi, dövlət qulluğu, islahat, sistemli yanaşma, dövlət idarəçiliyində səmərəlilik*

**Hamdula Mammadov**
*PhD candidate, Department of Civil Service and Personnel Policy,*
*Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## REFORMS AIMED AT ENHANCING THE EFFECTIVENESS OF CIVIL SERVICE IN THE REPUBLIC OF AZERBAIJAN

### SUMMARY

This article, which focuses on the results of reforms implemented in the Republic of Azerbaijan to improve the efficiency of the civil service, touches on the issue of increasing the efficiency of civil service and its history in Azerbaijan, which has become a modern requirement and an important element of the public administration system. The article also discusses the reforms pursued by the Republic of Azerbaijan in order to develop its civil service system and to increase its effectiveness. The article emphasizes that both the national leader Heydar Aliyev and the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, has implemented reforms in the civil service system that have yielded very positive results. These reforms have resulted in visible changes in our country and in an increase in the efficiency of the civil service in the Republic of Azerbaijan in recent years.

***Keywords:*** *public administration, civil service, reform, system approach, the effectiveness of public administration*

**Гамдулла Мамедов**
*Диссертант кафедры Государственной службы и кадровой политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

# РЕФОРМЫ, НАПРАВЛЕННЫЕ НА ПОВЫШЕНИЕ ЭФФЕКТИВНОСТИ ГОСУДАРСТВЕННОЙ СЛУЖБЫ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

## РЕЗЮМЕ

В статье, посвященной результатам реформ государственной службы в Азербайджанской Республике, затронуты вопросы повышения эффективности государственной службы, являющейся важным элементом системы государственного управления, исследованы история и результаты ее внедрения в Азербайджане. Также обсуждаются реформы, которые проводит Азербайджанская Республика для улучшения своей системы государственной службы и повышения ее эффективности. Подчеркивается, что как общенациональным лидером Гейдаром Алиевым, так и его достойным преемником Президентом Азербайджанской Республики господином Ильхамом Алиевым были проведены реформы в сфере государственной службы, имевшие положительные результаты. Эти реформы привели к значительным изменениям в стране, а также способствовали повышению эффективности государственной службы в Азербайджанской Республике.

***Ключевые слова:*** *государственное управление, государственная служба, реформа, системный подход, эффективность в государственном управлении*

G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G  R E S E A R C H E R S

D A V A M L I  İ N K İ Ş A F I N  İ D A R Ə  E D İ L M Ə S İ
S U S T A I N A B L E  D E V E L O P M E N T  M A N A G E M E N T

UOT 005;007;35;658;338; UOT 338.2

**SƏBUHİ MEHDİZADƏ**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi kafedrasının dissertantı**
*e-mail: sabuhibmw@yahoo.co.uk*

# BƏRK MƏİŞƏT TULLANTILARININ ƏMƏLƏ GƏLMƏSİNƏ TƏSİR EDƏN AMİLLƏR VƏ EMAL OLUNMASI TEXNOLOGİYALARI

Müasir dövrdə cəmiyyətin qarşısında duran böyük problemlərdən biri də tullantıların idarə edilməsi, daha sadə formada desək, yaranan tullantılarla necə rəftar edilməsidir.

İnsanın yaşaması üçün lazım olan həyat mühitinin strukturunda başlıca olaraq sosial-məişət şəraiti durur. Sosial-məişət şəraitinin ən vacib və yaradıcı komponenti, ərzaq istehsalı fəaliyyətinin istehlakçısı, o cümlədən müxtəlif qeyri-maddi tələbatların daşıyıcısı kimi təzahür edən əhali, eyni zamanda çoxsahəli fəaliyyət prosesi nəticəsində birbaşa və ya dolayı yolla ətraf mühiti məişət tullantıları ilə çirkləndirir. Ətraf mühiti çirkləndirən tullantıların 20-38%-i qida, 20-36%-i kağız, 1-4%-i ağac, 5-7%-i şüşə, 3%-i qara və əlvan metallar, 3-6%- parça, 1-3%-i daş, keramika, 1,5-2,5%-i dəri, rezin, 2,5%-i kömür, şlak, 1-2%i sümük, 3-5%-ə yaxını isə polimer metalların emalından yaranır [4, s.231].

Şəhərdaxili yollar, küçələr, meydançalar, mədəniyyət sarayları, bağlar, bulvarlar, ictimai bina və qurğular, yaşayış məntəqələri və s. bu kimi ərazilər, ətraf mühitə atılan məişət tullantılarının ən başlıca mənbəyi hesab edilir. Bərk məişət tullantıları ətraf mühiti çirkləndirən əsas tullantı növü kimi öncül yerdə durur. Respublikada 2019-cu ildə 3276,5 min ton və ya əvvəlki illə müqayisədə 13,1 faiz çox tullantı əmələ gəlmiş və onların 61,7 faizini bərk məişət tullantıları, 38,3 faizini isə müəssisələrin istehsal fəaliyyəti nəticəsində yaranmış müxtəlif növ tullantılar təşkil etmişdir (diaqram 1 və 2) [8].

Demoqrafik proseslər və əhalinin gəlirlərinin artması nəticəsində əmələ gələn məişət tullantılarının yaranması durmadan artan templə davam edir. Adambaşına düşən tullantı miqdarı ölkəyə, onun iqtisadi durumuna görə dəyişir. Son illərdə bərk məişət tullantılarından, o cümlədən onların həcminin çoxluğundan qaynaqlanan problemlər ölkənin ən vacib ekoloji problemlərindəndir.

Qablaşdırma maddələri və yemək artıqları xaricində batareyalar, boya artıqları, işıqlandırmada istifadə edilən müxtəlif lampalar, təbii və ya sintetik hazır şablon məhsulları, kağız və müxtəlif törəmələri, ev təmizliyinin tullantıları, elektron əşyalar və s. evlərdə istifadə edilən hər şey zaman keçdikcə tullantıya çevrilir.

İstehlak tullantılarının artdığı belə bir zamanda onların qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, istehlak tullantılarının idarə olunması prosesini bu ardıcıllıqla göstərmək olar:

- düzgün toplanma;




**Diaqram 1.** Tullantılarının yaranması, istifadə edilməsi və zərərsizləşdirilməsi (min ton)




**Diaqram 2.** Tullantılarının yaranması, istifadə edilməsi və zərərsizləşdirilməsi (adambaşına düşən, kq)

- çeşidlənmə;
- yandırılma;
- poliqonda basdırılma.

Poliqon texnologiyası, yəni təkrar emala yararlı olmayan, yandırılmaya cavab verməyən, texnoloji proseslərdə qalıqların tullantıların basdırılması metodu hal-hazırda ən ucuz amma nisbətən zərərli üsuldur. Müasir dövrdə poliqonlar xüsusi arxitektor planlama tədbirlərinin əsasında sanitar-mühafizə zonaları olan sahələrdə salınır, torpağa, qrunt sularına ziyan vurmayacaq şəkildə texnologiya qurulur [2].

Tullantıların emalı, qiymətləndirilməsi dövrümüzün ən vacib problemlərindən biridir. Bu səbəbdən tullantıların "yox edilməsi" ən

sağlam şəkildə təşkil olunmalıdır. Ona görə də, poliqonlar xüsusi membranla torpaqdan ayrılır ki, hər hansı çirkləndirici (tullantı) yeraltı ehtiyatlara qarışmasın. Tullantıların mükəmməl şəkildə idarə olunmasının əsas şərti ondan ibarətdir ki, təkrar emala yararlı olan tullantılar iqtisadi dəyərləndirilərək emal olunsun, oluna bilməyənlər isə ətraf təbii mühitə zərəri olmadan basdırılsın. Bərk məişət tullantılarının böyük qismi əsasən təhlükəli sayılmadığı üçün ikinci növ poliqonda basdırılır.

Bakıda Balaxanı Bərk Məişət tullantılarının Zərərsizləşdirilməsi Poliqonunda hər iki metodun tətbiqi həyata keçirilir. Belə ki, poliqonun üzəridə müəyyən hücrələr qoyulub ki, tullantıdan əmələ gələn metan qazını tutsun və elektrik enerjisinə çevirsin. Digər poliqon texnologiyası isə ərazidə qoyulmuş su təmizləyici qurğusudur ki, bunun sayəsində sızıntı suyu qrunt sularına, torpağa qarışmamış tutulur, yığılır və qurğuya göndərilir ki, nəticədə içməyə tam yararlı olmasa da texniki su kimi istifadə etmək olur [1-5].

Tullantıların, o cümlədən məişət tullantılarının düzgün şəkildə emalı prosesinin getməsi üçün məişətdə xüsusi çeşidlənməli, sonra ictimai qoyulmuş çeşidlənmə qablarına boşaldılmalıdır. Bu məqsədlə ölkəmizdə 2012-ci ildə "Təmiz şəhər" Açıq Səhmdar Cəmiyyətinin nəzdində Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavodu və Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu istifadəyə verilmişdir. Qeyd edilən zavodların tikintisi ümumi dəyəri 41,5 milyon ABŞ dolları olan Azərbaycan Hökuməti ilə Dünya Bankının "Bərk məişət tullantılarının vahid idarəçiliyi" birgə layihəsi çərçivəsində həyata keçirilmişdir [7]. Qarışıq tullantı təkrar emal prosesində çətinlik törətdiyi qədər, basdırılma texnologiyasında da problem əmələ gətirir. Çeşidlənərək dəyərləndirmə və təkrar emaldan kənar qalan tullantılar poliqona gətirilir. Gətirilən tullantılar kortəbii şəkildə və adi basdırılma yolu ilə zərərsizləşdirilmir. Ona görə də, məişət tullantıları üçün poliqon texnologiyasının ümumi müəyyən olunmuş şərtləri vardır:

- Gətirilən tullantı poliqona mümkün qədər homogen (bir-birindən ayrılmayan şəkildə) yayılmalıdır. Boşaldılan tullantıların üzərindən kompaktorlar (ağır silindirli maşınlar) bir neçə dəfə keçərək yaxşı sıxlaşdırılmasını təmin etmək lazımdır.
- Poliqon əraziləri bir neçə bölgəyə ayrılır. Bu bölgələr bir günlük tutuma görə tarazlaşdırılır. Həmin bölgələr qoxu, iy, quş və həşəratlara qarşı qorunma məqsədi ilə hər gün torpaqla örtülməlidir. Günlük örtüyün qalınlığı təxminən 30 sm olmalıdır.
- Poliqonlar açıq və mümkünsə düz bir sahədə əhaliyə və məişət tullantılarının atılma potensialına görə qurulmalıdır. Poliqonun döşəməsinə konusvarı forma verilərək süzülən sızıntı sularının bir hissəyə axıdılması təmin olunmalıdır.
- Məişət tullantılarından süzülən sızıntı sularının yeraltı sulara qarışmaması üçün poliqonunun döşəməsinin xüsusi membranla örtülməsi vacibdir.
- Məlumdur ki, poliqon məişət tullantısı ilə dolduqca tullantı yığımı içində yüklənmə və istilik artdığından zibildə kimyəvi reaksiya nəticəsində qaz formalaşır. Bu qazların partlama ehtimalından tutulması mühümdür. Poliqon ətrafında, yağışla gələn yamac və ya sel sularının tullantılara qarışmamasının qarşısını almaq üçün kiçik kanallar salınır. Maili yamaclara tullantı basdırılmamalıdır. Çünki belə ərazilərdə sızıntı suyunun qarsısın almaq çox çətindir.

Bu gün, müasir poliqon texnologiyası əsasında qurulan poliqonlar insanların sağlamlığı və ətraf təbii mühitin qorunmasını öncül hesab edir.

Poliqon texnologiyasının tətbiqi iqtisadi baxımdan və bir dəfəyə daha çox tullantının yox edilməsi tərəfdən ən sərfəli metoddur. Poliqonun üzəri torpaqla örtülür, lakin çürümə və ya parçalanma prosesləri getdiyindən bu sahələrdə bəzən çökmələr müşahidə olunur.

Bu səbəbdən, poliqonların üzərində onu çökdürməyə daha da kömək edən inşalar yerinə qolf və ya futbol meydançası edərək həm də rekreasion sahəsi kimi istifadəyə vermək olar. Məişət tullantılarının emal dövriyyəsi müəyyən proseslərdən ibarətdir ki, bunların arasında termik və biotermik emalın rolu yüksəkdir. Bu metodlar enerji əldə olunması ilə gedir və düzgün idarə olunarsa tullantıların tamamilə yox edilməsi, enerji əldə olunması (dünya təcrübəsində adı belədir: waste to energy) baxımından sərfəli metoddur, lakin yaxşı olduğu qədər bahalı üsuldur [6].

Məişət tullantılarının kəskin azalmasına imkan verən termik metodun prosesinin getməsi üçün lazım olan enerjinin buxar və ya elektrik olaraq təkrar emalı mümkündür. Yandırılma nəticəsində əmələ gələn dib külü və uçucu küllərin inşaat, yol-tikinti materialı olaraq təkrara emal olunması bu metodun müsbət tərəfləridir.

Termiki emal metodunda məişət tullantıları xüsusi bir formada marten sobalarında yandırılma texnologiyasına əsaslanır. Tullantıların yandırılması prosesində təkrar emalı və enerji istehsalını təmin etmək və eyni zamanda ətraf mühitə olan mənfi təsirləri minimuma endirmək üçün yandırılma prosesindən əvvəl tullantıların ilkin çeşidlənməsi, yanma nəticəsində ortaya çıxan qalıq maddələrin başqa sənaye sahələrində düzgün istifadə olunması kimi xüsusiyyətlər vacibdir.

Məlumdur ki, məişət tullantılarının yandırılması atmosferi, litosferi, estetik görünüş baxımdan təbiəti kirlədən və cəmiyyətin sağlamlığı baxımından təhlükəlidir. Lakin, yuxarıda qeyd olunan kimi, termiki emal metodu düzgün qiymətləndirilərsə bu təsirləri minimuma endirmək olar.

İstehlak tullantılarının termiki emalı metodu ümumi emal prosesinin texnologiyasına aid olub, istifadə olunan tullantının yüksək temperatur verilərək, müxtəlif üsulların vasitəsilə məhv edilməsidir. Belə ki, termiki metodun qiymətləndirilməsi, emal prosesinin getməsi üçün aşağıdakı üsullar istifadə olunur [3]:

- qazlaşdırma;
- mexaniki istilik əməliyyatı;
- piroliz;
- tullantı sterilizatoru və s.

Yandırma, yanma, ümumiyyətlə yüksək temperatur verilərək tullantının yox edilməsi tullantıların idarə edilməsinin emalı metodudur. Termik metod və ya tullantıların yandırılması tullantını dib külü, baca külü və istiliyə çevirir, hansı ki, bu da termik metodun bu baxımdan qiymətləndirilməsində üstün tutulmağını təmin edir. Yanma prosesində əmələ gələn kül əksəriyyətlə tullantıların qeyri-üzvi komponentləri tərəfindən yaranır və baca qazı tərəfindən daşınan bərk parçalar və ya hissəciklər şəklində ola bilər. Baca qazı atmosferə dağıdılmadan əvvəl qaz və hissəciklərin çirkləndiricilərindən təmizlənməlidir və ya tutularaq baca külü halına gətirilməlidir.

Bəzi hallarda, yandırma nəticəsində yaranan istilik elektrik enerjisi istehsal etmək üçün istifadə edilə bilər.

Yanma ilə enerjinin əldə olunması qazlaşdırma, piroliz və anaerob fermentasiya (bioqazın alınması) kimi tullantılardan enerjinin əldə olunması (waste to energy) texnologiyalarından biridir. Yandırma və qazlaştırma texnologiyaları prinsip olaraq bənzər olmağına baxmayaraq, texnoloji prosesin sonunda alınan enerji məhsulu fərqlidir. Belə ki, yandırmadan alınan enerji yüksək temperaturda istilikdir, ancaq yanıcı qazın əsas enerji məhsulu alışan qazdır. Termik metod olan yandırma və qazlaşdırma, enerji və xammal əldə olunmasa belə tətbiq olunur.

Tullantıların, o cümlədən məişət tullantılarının termik işlənmə ilə yəni əsasən yandırma ilə emalı tullantıların ümumi həcmini, kütləsini aşağı salır, eyni zamanda termal və ya elektrik enerjisi istehsal edir və nəticədə hidrosferdə, atmosferdə çirkləndirici emissyonlarını minimuma endirir.

Termiki metodla emaldan sonra yaranan qara və əlvan metal qırıqları təkrar emal olunaraq, yenidən istifadə olunur. Yandırılma prosesində əmələ gələn dib külü, şlak tikinti sahəsində binaların tikilməsində istifadə olunur. Qida və üzvi maddələr isə termiki işlənmədən sonra təkrar istifadə olunmur.

Piroliz, əlavə hava və ya oksigen əlavəsi olmadan, istilik tətbiq olunması yolu ilə üzvi maddənin termal ayrılması olaraq təyin oluna bilər. Bəzi ekoloqlar onu “oksigensizlik” vəziyyətində termal parçalanma olaraq izah edirlər. Piroliz, tullantıların miqdarını azaltmaq üçün bir alternativ və tullantılardan enerji əldə etmək üçün bir üsul olaraq düşünülsə də, "yüksək istilik dəyəri olan orqanik xammalların işlənməsi üçün ən uyğun olduğu görülür".

Qazlaşdırma, hər hansı bir karbon əsaslı maddənin qazlı yanacaqlara çevrilməsinin yanma olmadan mümkün olduğu bir proses olsa da, termiki emal metoduna aiddir. Termal qazlaşdırma yüksək istilikdə və oksigenli mühitdə üzvi tullantılardan sintetik qaz çıxarılması prosesidir. Termal qazlaşdırmada üç texnologiya mövcuddur. Bunlar piroliz, şərti qazlaşdırma və plazma qazlaşdırmasıdır. Termiki qazlaşdırma ilə əldə edilən qazlar metanol istehsalı və elektrik enerji istehsalı üçün istifadə edilə bilər. Ayrıca qazlaşdırmanın yan məhsulları kül, şlak və ərinmiş vəsaitlər təkrar istifadəyə əlverişli materiallardır.

Müasir tullantı yandırma zavodlarında, enerji əldə etmək üçün qurğu və inkişaf etmiş texnologiya ilə təchiz olunan baca qazı təmizləmə sistemi var. Məişət, təhlükəli və tibbi tullantılar üçün yandırma prosesi və baca təmizləmə prosesi fərqlidir. Bu səbəbdən, bu tullantıların ayrı xətlərdə ya da ayrı zavodlarda yandırılması lazımdır. Lakin bütün tullantı növlərinin yandırılması üçün ümumi olan prosesin ardıcılllığı aşağıda sıralanmışdır:

1. Tullantıların qəbulu;
2. Tullantıların ön çeşidlənməsi (ayırma, parçalama);
3. Təmiz hava əlavəsi ilə qurutma və sobada yandırma, enerji istehsalı;
4. Alınan şlakların uzaqlaşdırılması, lazım olduqda şlak yuma;
5. Yandırma sobasının üst qismində istifadə edilmiş (orta) hava əlavəsi ilə baca qazlarının və tozların yandırılması;
7. Qaz soyutma;
8. Baca qazının təmizlənməsi;
9. Təmizlənmiş baca qazının alıcı mühitə (havaya) axıdılması;
11. Tullantıların suyunun təmizlənməsi;
12. Enerji qiymətləndirmə (elektrik istehsalı, buxar istifadəsi).

Yuxarıda gedən proseslər demək olar ki, bütün yandırılma zavodlarında eynidir və iqtisadi səmərəlilik əsasən sobanın formasından, növündən tullantıya verilən temperaturdan asılıdır.

Poliqonlarda basdırılma və termiki metodlar uzun müddətdə və çox problem yaradan metodlardır.

Biotermik emal metodu orqanik əsaslı məişət tullantılarının oksigenli və ya oksigensiz mühitdə ayrılması surəti ilə əldə edilən torpaq yaxşılaşdırıcı maddə halına çevrilməsidir. Areob kompostlaşdırılma (gübrə alınması) və anaerob (bioqazın alınması) metodunun xarakterizə olunması mövzusunda konkret bir standartlaşma yoxdur. Yaxşı bir çürümə prosesinin getməsi, biotermik emalın iqtisadi qiymətləndirilməsi üçün mütləqdir:

- Bioloji parçalana bilməli, orqanik maddə miqdarının çox olması,
- Bitkilərin yararlana biləcəyi qida elementlərinin ideal konsentrasiyasında olması,
- Hər cür zərərli maddələrdən ayrılmış olmalı və s.

Biotermik emal metodunu iqtisadi dəyərləndirsək, məlum olur ki, təbiətdən alınan məhsulun yenidən təbiətə qaytarılması mexanizmi ilə işləyən bu metod çox sərfəli və ekoloji baxımdan yüksək səviyyəli metoddur.

Biotermik emal həm bioloji, həm də mexaniki proseslər sayəsində çürümənin getdiyi işlənmə formasıdır. Biotermik emal metodu əsasən yaşıl tullantılar (green waste)

və ya orqanik (qida) qalıqların çürüməsi ilə gedən prosesdir.

Havalı, yəni oksigenli kompostlaşdırma və ya orqanik maddənin aerob şərtlər altında idarə olunması biotermik emala aiddir. Orqanik tullantıların mikroorqanizmlər tərəfindən emalını sürətləndirən amillər oksigen $O_2$ və sudur. İstilik, kompostlaşdırma prosesində vacib bir parametr olmaqla bərabər, mikrobioloji fəaliyyətin nəticəsidir. Kompostlaşdırmanı kasad edən parametrlər isə qida maddələri və pH-dır. Xüsusilə azot və karbon mikrobioloji böyümə və fəaliyyət üçün gərəkli olub, bu prosesdə mühüm rol oynayır. Karbon əsasən enerji mənbəyi olub, azot isə hüceyrə sintezi üçün vacibdir [5].

Məişət tullantılarının inteqrasiya olunmuş, yəni kompleks emalı təşkilati, sosial və maddi baxımdan ən sərfəli, ən iqtisadi səmərəliliyi yüksək olanının təşkili deməkdir.

Son zamanlar tullantı, xüsusilə məişət tullantıları (tərkibində təhlükəli tullantılar az, təkrar emala yararlı olan tullantılar isə çox olduğundan) yeni bir ehtiyat, xam maddə olaraq qiymətləndirilir və onların ayrı-ayrılıqda deyil kompleks emal ilə sözügedən ehtiyatın təkrar emalı və enerji əldə olunması mümkündür.

Məişət tullantılarının və ya ümumiyyətlə tullantıların kompleks emalı dedikdə, kompleks idarəetmə sistemi başa düşülür, o idarəetmə ki müəyyən edilmiş məqsədlərə çatmağı təmin edəcək texnoloji, iqtisadi, ekoloji idarə üsullarını seçsin və təşkil etsin. Kompleks emalın həyata keçirilməsi üçün məişət tullantılarının yaranması, yığılması, toplanması, daşınması, çeşidlənməsi, növünə uyğun emalının təşkili, təkrar emalı və lazım olanların poliqonda basdırılması kimi proseslərin bir bütün halında düşünülməsi və tətbiqi mütləqdir.

Məişət tullantılarının kompleks emalı sistemində, tullantıların insan sağlamlığı və təhlükəsizliyini riskə salacaq təsirləri aradan qaldırmaq öncəlikli hədəfdir. Digər tərəfdən kompleks emal prosesi ekoloji və iqtisadi olaraq davamlı inkişafda olmalıdır. Məişət tullantılarının ətraf təbii mühit üzərində yarada biləcəyi zərərli təsirləri, enerji istehsalını, hava və su çirklənməsini əsas götürərək, iqtisadi inkişafa da kömək olmalıdır (Şəkil 1).

Tullantıların kompleks emalı prosesinin məhsuldar bir idarəetmə sisteminin təşkili üçün bəzi özəlliklərin olması mütləqdir:

1. İnteqrasiya olunmuş sistem olmalıdır

Tullantının əmələ gəlməsindən son yox edilməsinə qədər bütün mərhələləri sistematik bir quruluş daxilində araşdıra bilməli, planlamalı və nəzarət etməlidir. İdarə sistemi, mövcud vəziyyəti, əhali, bərk və maye məişət tullantılarının miqdarı, tullantıların tərkibi və aradan qaldırılma metodu əsasında təsbit etməli, bu ünsürlərdə gələcəkdə ola biləcək dəyişikliklərə cavab verə biləcək xüsusiyyətdə olmalıdır.

Sürətli əhali artımı və davamlı iqtisadi inkişaf ilə həm məişət, həm də kommersiya/sənaye sahələrdəki tullantıların istehsalı sürətlə böyüməyə davam etməkdə və cəmiyyətin bu materialı emal və aradan qaldırma qabiliyyəti üzərində təzyiq meydana gətirməyə davam etməkdədir. Ayrıca, uyğun olmayan şəkildə idarə olunan bərk məişət tullantılar, su axınları, səhiyyə və təbii mühit üçün əhəmiyyətli bir risk meydana gətirə bilər.

Tullantıların kompleks emalı əhatəli olaraq tullantının azaldılmasına, təkrar emalına, kompostlaştırılmasına və yox edilməsinə istiqamətlənmiş emaldır. İnteqrasiya olunmuş, yəni digər metodların birləşməsindən alınan bu proses yerli ehtiyacları və şərtləri qiymətləndirməyi və daha sonra bu şərtlər üçün ən uyğun tullantıların idarə fəaliyyətlərini seçməyi və birləşdirməyi təklif edir. Bu emal metodunun üstün cəhətləri digərlərinə nisbətən daha çoxdur:

- daha təmiz və təhlükəsiz yaşayış;
- daha çox və sərvətlərə qənaət;
- təbii ehtiyatların zənginləşməsi;
- tullantıların idarə edilməsi sistemində maliyyədə xərclərə qənaət;

**Şəkil 1.** Kompleks emal metodunun prosesi




- daha yaxşı iş fürsətləri və iqtisadi artım və s.

Tullantıların kompleks emalı metodları "Tullantıların inteqrasiya olunmuş idarəetmə sistemi" (Integrated solid waste management -ISWM) əsasında həyata keçirilən prosesdir [6].

Yuxarıda qeyd olunmuş müddəalara əsaslanaraq söyləmək olar ki, Azərbaycanda əsasən sosial, iqtisadi amillərin təsiri nəticəsində əmələ gələn bərk məişət tullantılarının idarə olunması sahəsində olduqca müsbət nailiyyətlər əldə olunmuşdur. Qazanılmış təcrübə və qanunvericilik bazasının təkmilləşdirilməsi nəticəsində ölkəmizin yaxın gələcəkdə tullantıların, xüsusən də bərk məişət tullantılarının idarə olunması və tamamilə zərərsizləşdirilməsi ilə bağlı ciddi addımların atılacağına zəmanət verir.

**Ədəbiyyat:**


1. Qurbanzadə A.A - Ekologiya: sosial-iqtisadi əsasları - Bakı 2010
2. Məişət tullantılarından üzvi gübrə-kompost emalı texnologiyası, işlədilməsi və səmərəliliyinə dair təlimat - Kosmik kommersiya mərkəzi - Kosmik tədqiqatlar Elmi istehsalat birliyi - Bakı 1990
3. Məişət tullantılarının ətraf mühitə təsiri - Sağlam həyata doğru Ekoloji İctimai Birlik
4. Məmmədov Q, Məmmədova S, Hüseynli E, Həşimov A. - Sosial ekologiya (sosioekologiya). Ali məktəb üçün dərslik, Bakı 2015
5. Biddlestone, A.J., Gray, K.R. and Day, C.A. In Environmental Biotechnology, Ellis Horwood, Chichester, 1987
6. Chilton M., "WTE Worldwide", Waste Management World, Nov-Dec 2008.
7. https://azertag.az/xeber/BARK_MAISAT_TULLANTILARININ_VAHID_IDARACHILIYI_LAYIHASININ_ICRASINA_BASLANMISDIR-454192
8. http: //www.stat.gov.az/source/environment/ 29.12.2019

9. http: //www.tariffcouncil.gov.az/?/az/content/166/ 01.03.2020
10. http: //www.technolo gystudent.com/energy 1/bio3.htm/ 29.12.2019
11. https://en.wikipedia.org/wiki/Waste sorting / 25.12.2019
12. https: //www.capilanou.ca/sustainability/zero-waste/ 03.01.2020
13. www.solidwaste.ru / 01.03.2020

***Açar sözlər:*** *istehlak tullantıları, məişət tullantıları, bərk məişət tullantıları, tullantıların emalı*

**Sebuhi Mehdizade**
*PhD candidate, Department of Sustainable Development Planning and Management, Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## FACTORS INFLUENCING THE FORMATION OF SOLID WASTE AND PROCESSING TECHNOLOGIES

### SUMMARY

The article examines the factors influencing the formation of waste and the various methods and technologies used to process the different types of results from waste. The main purpose of bringing the world's most advanced methods of solid waste processing to the centre of attention is to minimize the amount of damage to the environment and create conditions for more efficient use of raw materials obtained from the recycling process.

***Keywords:*** *consumer waste, household waste, solid household waste, waste processin, world practice*

**Сабухи Мехтизаде**
*Диссертант кафедры Планирование и управление устойчивым развитием Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ФАКТОРЫ, СПОСОБСТВУЮЩИЕ ОБРАЗОВАНИЮ ТВЕРДЫХ БЫТОВЫХ ОТХОДОВ И ТЕХНОЛОГИИ ИХ ОБРАБОТКИ

### РЕЗЮМЕ

В статье рассматриваются факторы, влияющие на образование твердых бытовых отходов, а также различные методы и технологии, используемые для их переработки. Основная цель доведения до сведения самых передовых методов переработки твердых бытовых отходов, используемых в современной мировой практике, состоит в том, чтобы свести к минимуму величину ущерба, оказываемого окружающей среде, создать условия для более эффективного использования сырья, полученного при переработке.

***Ключевые слова:*** *потребительские отходы, бытовые отходы, твердые бытовые отходы, переработка отходов, мировая практика*

# G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
# Y O U N G R E S E A R C H E R S

## D A V A M L I İ N K İ Ş A F I N İ D A R Ə E D İ L M Ə S İ
## S U S T A I N A B L E D E V E L O P M E N T M A N A G E M E N T

UOT 327: 140.8; UOT 327: 930.22

**AYAZ HACIYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi kafedrasının dissertantı**
*e-mail: ayazhaciyev@yahoo.com*

# DAVAMLI İNKİŞAF KONSEPSİYASININ FORMALAŞMASI PROSESİNİN XÜSUSİYYƏTLƏRİ

Müasir dövrdə ən diqqətçəkən konsepsiyalardan biri davamlı inkişafla bağlıdır. Davamlı inkişaf bəşəriyyətin bugünkü ehtiyaclarını onun gələcəyini də nəzərə almaqla təmin etməyi qarşısına məqsəd qoyan inkişaf prosesidir. Davamlı inkişaf konsepsiyası dünya tarixində dönüş nöqtəsi hesab oluna bilər. Bu konsepsiya artıq qlobal xarakter kəsb etmişdir. Bəşəriyyətin bu günü və gələcək inkişafını özündə ehtiva edən davamlı inkişaf konsepsiyasına dünyanın demək olar ki, bütün ölkələri qoşulmuş və onun müddəalarının yerinə yetirilməsinə çalışır. Bu işin önündə ən böyük beynəlxalq təşkilat olan BMT-nin dayanması isə onun uğurlarına öz töhfəsini verir.

Davamlı inkişaf konsepsiyası əlbəttə ki, birdən-birə hazırkı kimi yetkin, dolğun bir şəkildə olmamışdır. Konsepsiya uzun illər və onilliklər ərzində yaranma və formalaşma prosesini keçmiş, müxtəlif mərhələləri adlamış və beləliklə də, indiki halına gəlib çıxmışdır. Əlbəttə ki, bu konsepsiyanın ortaya çıxmasında ayrı-ayrı fərdlərin rolu danılmazdır. Həmçinin konsepsiyanın işlənib hazırlanması, onun müəyyən istiqamətlərinin meydana çıxması, nəzəri aspektləri sözsüz ki, dünya elminin, ictimaiyyətinin sanballı nümayəndələrinin xidmətləridir. Lakin davamlı inkişaf konsepsiyasının qlobal hərəkata çevrilməsi, uğurlar qazanması onun ümumilikdə dünya ictimaiyyəti tərəfindən qəbul edilməsi və dəstəklənməsi sayəsində mümkün olmuşdur. Bu mənada, davamlı inkişaf konsepsiyasının formalaşması prosesi, ayrı-ayrı nəzəri məsələlər, həmçinin prosesdə dünya ictimaiyyətinin, xüsusilə də BMT-nin aparıcı rolunun öyrənilməsi və təhlili mühüm aktuallıq kəsb edir.

İqtisadi inkişafdan davamlı inkişafa doğru. XX əsrin əvvəllərinədək dün-yanın aparıcı regionlarında, xüsusilə də Avropada, Şimali Amerikada və Yaponiyada tərəqqi və modernləşmə əsasən iqtisadi inkişaf kimi anlaşılmış, bərabərlik və sosial ədalət anlayışlarına nisbətən az diqqət yetirilmişdir. Avropada və ABŞ-da sosial təhlükəsizlik mexanizmlərinin olmaması xüsusilə böyük böhran illərində (1929-1934) özünü qabarıq şəkildə büruzə vermişdir. Bu da onu göstərirdi ki, belə mexanizmlərsiz hətta Avropa və ABŞ-da da insanların böyük əksəriy-yətinin ehtiyaclarını ödəyən inkişaf siyasətini davam etdirmək mümkün olmur.

İkinci Dünya müharibəsinin sonunda anlayışlar və siyasətlər kəskin şəkildə dəyişikliyə uğradı. Əksəriyyət üçün iqtisadi və sosial inkişafın təmin edilməsi hökumətlərin əsas vəzifəsinə çevrildi. Müstəmləkə dövlətlərinin zəifləməsi ilə bu məqsəd dünyanın ən yoxsul ölkələrinə də yayıldı.

İqtisadi inkişaf həm sosial, həm də institusional tərkib hissələri ilə birlikdə həm elmi diskussiyaların, eyni zamanda kapitalizm və kommunizm ideoloji mübarizələrinin mərkəzi probleminə çevrilmiş oldu.

Müasir anlamda inkişaf edən iqtisadiyyat 1940-cı illərdən əvvəl mövcud deyildi. İnkişaf edən iqtisadiyyat anlayışına görə, inkişaf etməmiş və ya az inkişaf etmiş ölkələrin bölgələrinin müəyyən bir şəkildə inkişaf edəcəyinə inanılır [7].

1960-cı ildə U.U.Rostounun iqtisadi inkişafı izah edən "İqtisadi inkişaf mərhələləri" [8] adlı məqaləsinə alt başlıq olaraq "Kommunist olmayan Bəyannamə" ifadəsini seçmişdi. Məlum olduğu kimi, marksizm hesab edirdi ki, dünya üçün ən yaxşı gələcəyi o təklif edir. Rostou isə sosial və iqtisadi hədəflərin daha münasib tarazlığını axtarırdı. Bu perspektivdə vacib olan isə iqtisadi inkişafın həqiqi istiqamətidir.

Rostounun baxışlarına görə, bütün inkişaf etməkdə olan ölkələr ənənəvi cəmiyyətdən iqtisadi inkişaf yolu ilə yetkinlik və kütləvi istehlak mərhələlərinə keçməlidir. Buna görə "inkişaf etməmiş" ölkələr kommunist inqilabına ehtiyac olmadan ABŞ və Avropanın "yetkin" statusuna nail olacaqlarına ümid edirlər. Rostounun iqtisadi və sosial inkişaf perspektivini və kütləvi istehlak məqsədini geniş şəkildə ifadə etdiyi inkişaf konsepsiyası inkişaf nəzəriyyəçiləri tərəfindən tamamilə qəbul edilirdi.

Beləliklə, iqtisadi inkişaf siyasətinin ən aydın məqsədi çoxalmaqda olan əhaliyə davamlı mal və xidmətlər təqdim etməklə həyat səviyyəsini yüksəltməkdir. İkinci Dünya Müharibəsindən sonra qurulan Beynəlxalq Valyuta Fondu Dünya Bankı və Birləşmiş Millətlər Təşkilatı kimi beynəlxalq institusional quruluşlar müəyyən edilmiş bu məqsədə uyğun qurulmuşdur.

İnkişaf strategiyaları tədricən dəyişdikcə, fərqli vaxtlarda fərqli yanaşmalar üzərində durulmuşdur. Əsas məqam isə daha səmərəli kənd təsərrüfatını və sənayeləşməni təmin etmək olmuşdur. 1970-ci illərin sonlarında Pol Streeten, Mahbub UI Haq və başqaları təməl ehtiyaclara diqqətin yönəldilməsi fikrini (Streeten, Burki, Ul Haq, Hicks və Stewart, 1981) müdafiə edirdilər. Yoxsullar üçün təhsil, qidalanma, sağlamlıq, sanitariya və məşğulluq imkanları bu yanaş-manın əsas elementləridir. Bu mövqe, uğurlu inkişaf indeksini hesablamaq üçün ümumi milli məhsul (GNP) ilə birlikdə sağlamlıq və təhsil indikatorlarını istifadə edən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının İnsan İnkişafı İndeksindən təsirlənmişdir.

Qərb dünyasında 1980-ci illərdə inkişafın mərkəz nöqtəsi ticarətin liberal-laşdırılması, hökumətin yol verdiyi çatışmazlıqların aradan qaldırılması, valyuta məzənnələrinin lüzumsuz artımı, səmərəsiz ictimai xidmət təşkilatların ləğvi olmuşdur. Struktur tənzimləmələr büdcə və həddən artıq bürokratiyalara yol açan hökumət mərkəzli inkişaf siyasətindəki səhvlərin düzəldilməsi vasitəsi olaraq görüldü. Digər tərəfdən, struktur tənzimləmə siyasətinin təməl ehtiyaclardan fərqli olduğu barədə də tənqidlər səsləndirildi. İqtisadi məhsuldarlıq artdıqda, bazar yönümlü islahatlar qeyri-bərabərliyə və yoxsullara çətinlikdən başqa bir şey gətir-mədi. Buna görə inkişaf prosesində əsas ehtiyacların ödənilməsi perspektivi ilə bazar yönümlü perspektiv arasında hər zaman bir gərginlik, təzyiq olmuşdur [9].

Beləliklə də, inkişafla bağlı ənənəvi düşüncələrdəki problemlərin dərk edilməsi, yeni davamlı inkişaf konsepsiyasının ortaya çıxmasına şərait yaratdı. Ətraf mühitin qorunması və sosial haqların yaxşılaşdırılması kimi anlayışlar yeni paradiqmalar kimi izah olunmağa başladı. Bu yeni yanaşmalar cəmiyyətlərdə, siyasi və elmi dairələrdə geniş şəkildə yayılmaqla qəbul edilmişdir.

Davamlı inkişafla bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Məsələn, akademik V.A.Kaptyuqa görə, davamlı insan konsepsiyası, bəşəriyyətin idraklı şəkildə balanslaşdırılmış sosial-iqtisadi inkişafına və ətraf mühitin qorunmasına nail olmaq, həmçinin həm texnoloji proses və həm də istehlakın səmərələşdirilməsi yolu ilə inkişaf etmiş və

inkişaf etməkdə olan ölkələr arasında iqtisadi dispariteti kəskin şəkildə azaltmaqdan ibarətdir. N.N.Moiseyev isə hesab edir ki, davamlı inkişafı biosfera və cəmiyyətin tarazlıq vəziyyətinə keçmə imkanını təmin edən fəaliyyəti qəsd edən cəmiyyət strategiyasının işlənməsi və həyata keçirilməsi kimi başa düşmək lazımdır. Akademik A.D.Ursula görə, davamlı inkişaf, ətraf mühiti dağıtmayan, fasiləsiz ictimai tərəqqini təmin edən, idarə olunan, dəstəklənən və nizamlanan inkişaf strategiyasıdır.

Ətraf Mühit və İnkişaf üzrə Dünya Komissiyası üçün 1987-ci ildə Gro Harlem Brundtland tərəfindən hazırlanan "Ortaq gələcəyimiz" adlı hesabatda davamlı inkişaf anlayışı aşağıdakı kimi müəyyən edilmişdir: Gələcək nəsillərin ehtiyaclarını ödəmək imkanlarını əllərindən almadan, indiki nəslin ehtiyaclarının ödənilə bilindiyi inkişaf prosesidir [4].

Göründüyü kimi, davamlı inkişafla bağlı müxtəlif anlayışlar irəli sürülsə də, onların ortaq nöqtəsi insan və təbiətin bu günü və gələcəyi ilə bağlı qayğıları özündə əks etdirməsidir. Bu da onu göstərir ki, dünyanı bəşəriyyətin hazırkı problemlərinin həllinin və gələcək inkişafının təmin olunması ciddi şəkildə narahat edir.

Davamlı inkişafın üç aspekti vardır: (Holemberg and Sandbrook, 1992): İqtisadi: İqtisadi cəhətdən dayanıqlı olan sistem mal və xidmətləri davamlı olaraq istehsal etməli, hökumətin və xarici borcların idarə edilməsinin davamlılığı təmin etməli və kənd təsərrüfatına və sənaye istehsalına ziyan vuran sektoral disbalansdan çəkinməlidir.

Ətraf mühit: Ekoloji cəhətdən dayanıqlı bir sistem resurs bazasının sabitliyini təmin etməli, bərpa olunan resurs sistemlərinin istismarından və ya ekoloji investisiya funksiyalarının istismarından çəkinməli və lazımi şəkildə əvəzlənən bərpa olunmayan mənbələri istehlak etməlidir. Bu proses bioloji müxtəlifliyin qorunması, atmosfer tarazlığı və iqtisadi resurs kimi təsnif olunmayan digər eko-sistem funksiyalarını əhatə etməlidir.

Sosial: Sosial cəhətdən davamlı bir sistem, bərabərlik bölgüsü; səhiyyə və təhsil, gender bərabərliyi, siyasi məsuliyyət və iştirakı özündə ehtiva edən sosial xidmətlərin reallaşdırılmasını təmin etməlidir [10].

Ətraf Mühit və İnkişaf üzrə Dünya Komissiyası tərəfindən 1987-ci ildə yayımlanan "Ortaq gələcəyimiz" hesabatında yer alan davamlı inkişaf anlayışı, 1992-ci ildəki "XXI əsr Gündəliyi" və BMT-nin Rio-de-Janeyroda keçirilən Ətraf Mühit və İnkişaf Sammitində daha da inkişaf etdirilərək inkişafla bağlı istifadə olunan mühüm konsepsiyalardan birinə çevrildi [11].

Bourdeauya (1999) görə, Brundtland Hesabatı ("Ortaq gələcəyimiz") ekologizmin sadə bir anlayışından çox, səmərəli resurs istifadəsinə əsaslanan iqtisadi bir konsepsiyadır. O bildirir ki, davamlı inkişaf ekoloji cəhətdən təmiz iqtisadiyyatın əsas şərtidir. Hesabatda bütün ölkələr üçün nəzərdə tutulmuş inkişaf modeli:

- uzunmüddətli, davamlı iqtisadi artım;
- inkişaf və təbiət arasındakı tarazlığı qoruyan iqtisadiyyat;
- təbiəti tükənmədən istifadə edən və beləliklə uzunmüddətli perspektivdə tətbiq olunan təcrübələrə əsaslanan dayanıqlı iqtisadi inkişaf kimi ümumiləşdirilə bilər [12].

Ancaq Adams (2001) görə, Brundtland Hesabatı bu məqsədə necə nail olmağın izahını vermir. Torunoğluna görə (2003), "Ortaq gələcəyimiz" hesabatında "yoxsulluq və bərabərsizlik olan bir dünya həmişə ekoloji və digər böhranlara meylli olacaqdır" ifadəsi yer alsa da, bu prinsipə "inkişaf etmiş" ölkələrin "davamlı inkişaf" missiyası ətraf mühitə uyğun yeni texnologiyaların inkişafı, əhalinin artımına nəzarət və Cənub ölkələrində təbii resursların istifadəsi məsələsinə gəlincə, riayət olunmur [3].

Davamlı inkişafın təmin olunması istiqamətində dünya birliyinin ortaya qoyduğu mühüm işbirliyi 1992-ci ildə Rio konfransının keçirilməsi olmuşdur. Konfrans nəticəsində, bir çox ölkənin dövlət və hökumət başçıları tərəfindən imzalanan bəyannamədə, davamlı

və balanslı inkişafı təmin etmək və insanlar üçün keyfiyyətli mühit formalaşdırmaq üçün, dövlətlərin davamlı olmayan istehsal və istehlak üsullarını azaltması və ya ortadan qaldırmasının vacibliyi əksini tapmışdır. Bundan əlavə, inkişaf və ətraf mühitin idarə olunması ilə bağlı yerli və ənənəvi təcrübələrin əhəmiyyəti vurğulanmış və davamlı inkişafa nail olmaqda səmərəli iştirakın təmin edilməsi üçün şəxsiyyət və mədəniyyətlərin dəstəklənməsi istənilmişdir [5].

Rio Konfransının əhəmiyyətli nəticələrindən biri də hökumətlərin və əlaqəli təşkilatların ətraf mühit, iqtisadiyyat və cəmiyyətdəki fəaliyyətlərini istiqamət-ləndirən 21-ci əsr üçün "XXI əsr Gündəliyi" adlı bir fəaliyyət planının qəbul edilməsidir.

"XXI əsr Gündəliyi" Fəaliyyət Planı, davamlı inkişaf problemlərinin həlli üçün uzunmüddətli, strateji planın hazırlanması və həyata keçirilməsi yolu ilə yerli səviyyədə iştirakçı və çox sektorlu bir prosesdir [13].

Davamlı inkişafla bağlı yeni mərhələnin başlanğıcı. Yohannesburq Sammiti və sonrakı proseslərin təhlili. Yohannesburq Zirvəsi, Rio Konfransının son onilliyi və gələcək inkişaf strategiyalarını təyin etmək üçün 26 Avqust – 4 Sentyabr 2002 tarixlərində keçirildi. Bəzi mənbələrdə Rio +10 adlandırılan bu sammitin ən vacib xüsusiyyəti, sammitin həm hazırlıq, həm də iclasları zamanı cəmiyyətin bütün təbəqələrinin iştirakına verilən prioritetdir. Bu hədəfin əsas səbəbi, davamlılığın əsas tərkib hissələrindən biri olan cəmiyyətin əvvəlki sam-mitlərdən təcrid olunması və hökumətlər və dövlət səviyyəsində iştirakı istənilən nəticəni verməməsidir.

Bu baxımdan, hədəf müəyyənləşdirilməsində, strategiyanın hazırlanmasında və qərar qəbul edilməsində aktiv rol oynayan cəmiyyətin bütün təbəqələrindən olan iştirakçıların məsuliyyətlərini qəbul etmək məqsədi daşıyır. Bu məqsədlə hökumət və hökumət nümayəndələrinin, yerli hökumətlərin, qeyri-hökumət təşkilatlarının, özəl sektorların və bir çox sosial təşkilatların iştirakı ilə Yohannesburq Zirvəsi keçirildi. İştirakçı ölkələr 1992-ci il Rio konfransından sonra gördüyü işlər və gələcək üçün tövsiyələrini təqdim edən Milli Hesabat hazırlamış və sammitə aparmışlar.

Nəticədə yoxsulluğun aradan qaldırılması, enerji təminatının şaxələndirilməsi və bərpa olunan enerji mənbələrinin qlobal paylaşmasının artırılması, biomüxtəlifliyin itirilməsinin azaldılması, korporativ sosial məsuliyyət və cavab-dehliyin artırılması, hökumətlərarası müqavilələrin və ümumi meyarların effektiv icrasını təmin etmək və Milli Dayanıqlı İnkişaf strategiyalarının yaradılması 2005-ci ilə qədər tərəqqi etmək və həyata keçirməyə başlamaq üçün qərarlar qəbul edilmişdir [6].

Yohannesburq Sammitinin qəbul etdiyi "Yüksək səviyyədə qəbul olunmuş qərarların yerinə yetirilməsi Planı"nda ilk dəfə olaraq dünya birliyinin davamlı inkişafa irəliləməsinin zaman intervalları (müddətləri) müəyyən edilmişdir. Rio-da 1992-ci ildə qəbul olunmuş qərarları genişləndirərək təsdiq edən Yohannesburq Konfransı dünya birliyinin inkişafında yeni mərhələ açmışdır [2, s.28].

2002-ci ildə Yohannesburq konfransında qəbul edilmiş "Minilliyin İnkişaf Məqsədləri" (MİM) adlı sənəddə 2015-ci ilədək aşağıdakı əsas 8 məqsədə nail olunması əksini tapmışdır:

1. İfrat yoxsulluğu və aclığı aradan qaldırmaq;
2. Ümumi ibtidai təhsilə nail olmaq;
3. Gender bərabərliyini təmin etmək və qadınlara səlahiyyət vermək;
4. Uşaq ölümü hallarını azaltmaq;
5. Ana sağlamlığını yaxşılaşdırmaq;
6. HİV/AİDS, malyariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq;
7. Ətraf mühitin davamlılığını təmin etmək;
8. İnkişaf üçün qlobal tərəfdaşlığı inkişaf etdirmək.

Dünyada davamlı inkişafın təmin olunması ilə bağlı BMT-nin növbəti və mühüm əhəmiyyət kəsb edən toplantısı "Rio+20" Forumu 2012-ci il tarixində Rio-de-Janeyroda keçirilmişdir. Forumun keçirilməsini aşağıda göstərilən səbəblər zəruri edirdi: dünya əhalisi

sayı 7 milyarda çatmış, 2050-ci ilə isə 9 milyard olacağı gözlənilir, təxminən 1 milyard insan hər gün aclıq keçirir, atmosferə atılan istixana qazlarının həcmi artmaqda davam edir və, əgər iqlimin dəyişməsi prosesini dayandırmaq mümkün olmazsa, bütün növlərin üçdə birindən çoxu məhv olunma təhlükəsi altındadır [14].

"Yaşıl" iqtisadiyyata keçid, yoxsulluğun aradan qaldırılması və bu kimi bir sıra davamlı inkişafla bağlı olan qlobal məsələlərin müzakirə olunduğu Forumda davamlı inkişaf məqsədlərinə nail olunmasının ətraf mühitin qorunması ilə paralel şəkildə reallaşdırılmasının zəruriliyi vurğulanmış və bu istiqamətdə prinsiplər qəbul edilmişdir.

"Rio+20" Forumunda 2015-ci ildə qəbul edilmiş davamlı inkişaf məqsədlərinin müəyyənləşdirilməsi üzrə işlərə də start verilmişdir.

BMT-nin təşəbbüsü ilə 25-27 sentyabr 2015-ci ildə Nyu-Yorkda keçirilən Dünya Sammitində davamlı inkişafın hazırkı mərhələdə bütün bəşəriyyət üçün ən əsas problem olduğu vurğulanmışdır. Dünya Sammiti, həmçinin "Dayanıqlı İnkişaf Sammiti" də adlandırılırdı ki, bunun da mühüm simvolik əhəmiyyəti vardır. Bundan başqa, Sammitdə qəbul olunmuş yekun sənəd də "Dayanıqlı inkişaf məqsədləri" (DİM) adlandırılmışdır. Bu isə qlobal miqyasda davamlı inkişafla bağlı problemin miqyasını və aktuallığını bir daha təsdiq edirdi. Sammitdə qəbul edilən bu sənəddə 2030-cu ilə qədər davamlı inkişafın təmin olunması bəşəriyyət qarşısında duran əsas məqsəd kimi müəyyənləşdirilmişdir. Bu məqsədə nail olmaq üçün Dünya Sammiti tərəfindən 17 ən vacib hədəf də bəlirlənmişdir [15].

Davamlı inkişaf problemlərinin aktuallaşması və XX əsrin sonunda gündəmə gətirilməsinin kökündə dünyanın bir sıra ölkələrində müşahidə edilən, getdikcə kəskinləşən ziddiyyətlər və bir çox sahələri əhatə edən böhranlar durur. Bəlli olduğu kimi, dünyanın müxtəlif regionlarında həyata keçirilən qüsurlu siyasət və effektiv olmayan idarəetmə "gələcəksiz inkişaf", "qeyri-bərabər inkişaf", "texnoloji geriləmə ilə inkişaf" və digər neqativ halların meydana gəlməsi və dərinləşməsi riskini artırıb [1].

Davamlı inkişaf konsepsiyasının mərkəzi problemi bəşəriyyətin bugünkü layiqli həyatı və gələcəyi ilə bağlıdır. Əlbəttə ki, ətraf mühitin və ümumilikdə ekologiyanın qorunması da sonda bəşəriyyətin gələcəyi ilə birbaşa bağlıdır. Bu isə onu göstərir ki, davamlı inkişaf konkret olaraq insan inkişafı ilə bağlıdır. Məsələnin davamlı insan inkişafı şəklində qoyuluşu BMT tərəfindən də təsdiqini tapmışdır. Belə ki, 1990-cı illərdən başlayaraq BMT-nin İnkişaf proqramı davamlı insan inkişafı konsepsiyasının tətbiqi ilə məşğuldur.

İnsan inkişafı konsepsiyası vasitəsilə insan inkişafının qiymətləndirilməsi həyata keçirilən zaman isə təkcə iqtisadi və sosial amillər yox, eyni zamanda insanların yaşadıqları cəmiyyətlərdəki mövqeyi, vəziyyəti, onun rifah halı da nəzərə alınır ki, bu da daha mütərəqqi yanaşma hesab edilməlidir. İnsan inkişafının dəyərləndirilməsi zamanı sağlamlıq, təhsil və gəlirlər eyni əhəmiyyətə malikdir. Bütün bu məqamlar nəzərə alınmaqla 1990-cı ildən bəri davamlı inkişaf konsepsiyası reallaşdırılmamaqdır. Həmin ildən hər il davamlı inkişafla bağlı hesabatlar təqdim edilir. Hesabatlarda hər bir ölkə və regionla bağlı materiallar, dəyərləndirmələr, müqayisələr, uğurlar və problemlər öz əksini tapır.

BMT-nin İnsan İnkişafı haqqında ilk Hesabatında göstərilir ki, hər bir dövlətin həqiqi sərvəti onun insanlarıdır. İnkişafın əsas məqsədi əhalinin uzun, sağlam və yaradıcı həyat yaşaması üçün əlverişli mühitin yaradılmasıdır. Bu, özü-özlüyündə aydın olan həqiqət kimi səslənə bilər. Lakin bu həqiqət resursların və maliyyə sərvətinin toplanması kimi qısamüddətli prioritetlərin fonunda asanlıqla yaddan çıxarılır.

Yuxarıda qeyd edildiyi kimi, 2015-ci ildə keçirilmiş BMT-nin sammitində "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" qəbul edilmişdir. Burada yer almış Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər) 2016-cı ilin 1

yanvar tarixindən icra olunmağa başlamışdır. DİM-in əsas prinsipi “heç kəsi kənarda qoymamaq”dır. Növbəti 15 il ərzində bu prinsipi əsas tutaraq həm insanların sosial problemlərinin aradan qaldırılması, həmçinin də ətraf mühit və ekologiya ilə bağlı mühüm fəaliyyətlər həyata keçirilməsi nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, hazırda həm BMT, həm də Gündəliyi imzalamış dövlətlər tərəfindən DİM məqsədlərinə uyğun olaraq hesabatlar hazırlanmaqdadır.

Nəticə. Göründüyü kimi, davamlı inkişaf anlayışı elmi və rəsmi leksikonda 1987-ci ildən istifadə edilməyə başlansa da, onun ərsəyə gəlməsi və ideya olaraq ortaya çıxması bundan bir xeyli əvvələ gedib çıxır. Lakin davamlı inkişafla bağlı qlobal miqyasda fəaliyyətin aktivləşməsi və dinamiklik qazanması XX əsrin sonları – XXI əsrin əvvəllərinə aiddir. Bu dövrdə beynəlxalq ictimaiyyət BMT-nin öncüllüyündə mütəmadi olaraq davamlı inkişaf problemlərinin müzakirə edildiyi müxtəlif sammitlər, toplantılar həyata keçirmiş, burada mühüm ciddi qərarlar qəbul edilmişdir. Həmin qərarların icrası dövlətlər üçün məcburi xarakter kəsb etməsə də, mütərəqqi cəmiyyətlərə malik ölkələr onların icrasında təşəbbüskarlıq göstərməkdədirlər.

Davamlı inkişafla bağlı qlobal prosesdə və eyni zamanda davamlı inkişafla bağlı məqsədlərin həyata keçirilməsi ilə bağlı konkret zaman limiti müəyyənləşdirilməsi baxımından 2002-ci il Yohannesburq sammiti və 2015-ci ildə keçirilmiş BMT-nin sammiti mühüm əhəmiyyətə malikdirlər.

2002-ci ildə qəbul edilmiş Minilliyin İnkişaf Məqsədlərinə 2015-ci ilədək tam şəkildə riayət olunduğunu söyləmək mümkün deyildir. Çünki Minilliyin İnkişaf Məqsədləri üçün 2015-ci il son müddət göstərilsə də, dünyanın bir sıra regionlarında yoxsulluq və aclıq, təhsillə bağlı ciddi problemlər, gender bərabər-liyinin təmin edilməməsi, uşaq ölümü hallarının artması, HİV/AİDS xəstəlikləri, ətraf mühit və ekologiya ilə bağlı problemlər tam ciddiliyi ilə qalmaqda davam edirdi. Belə ki, MİM reallaşdırılmasına baxmayaraq, 2015-ci ildə dünyada 1 milyarddan artıq insan yoxsulluq həddində yaşayır.

Dayanıqlı İnkişaf məqsədlərinin qəbul edilməsi və icrası məhz Minilliyin İnkişaf Məqsədləri üzrə görülmüş işlərin davamı və daha da genişləndirilməsi kimi nəzərdə tutulur. Belə ki, əgər MİM üzrə 8 məqsəd nəzərdə tutulmuşdusa, DİM üzrə 17 məqsəd irəli sürülüb. Artıq bu Məqsədlərlə bağlı da həm BMT-nin, həm də könüllü milli hesabatların dinlədilməsinə başlanılıb.

Beləliklə də qeyd etmək olar ki, davamlı inkişaf qlobal miqyasda insanların hazırkı inkişafını təmin edərkən gələcək nəsillərin də nəzərə alınmasını özündə əks etdirməklə ən doğru inkişaf istiqaməti kimi mühüm mütərəqqi xarakterə malikdir.

**Ədəbiyyat:**

1. Ələkbərov U.K. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Bakı, “Təhsil”, 219 s.
2. Məmmədova S.İ. Müasir şəraitdə dövlətin ekoloji siyasəti: formalaşması və həyata keçirilməsi mexanizmləri: Azərbaycan Respublikası timsalında: siyasi elmlər üzrə elmlər dok. ... dis. avtoreferatı: 5904.01 / S.İ.Məmmədova; Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. - Bakı, 2018.- 57 s (s.28)
3. Torunoglu, E. (2003). Tübitak Vizyon 2023: Panel için notlar: Sürdürülebilir kalkınma paradigması üzerine ön notlar. Ankara: Tübitak.
4. World Commission on Environment and Development, 1987.
5. United Nations. (1992). Rio Declaration. Rio: UN.
6. World Summit on Sustainable Development WSSD. (2002). World Summit on Sustainable Development implementation report. Johannesburg: WSSD.
7. Backhouse, R. (1991). A History of Modern Economic Analysis. Basil Blackwell, Oxford, UK.

8. Rostow, W.W. (1960). The Stages of Economic Growth: A Non-Communist Manifesto. Cambridge University Press, Cambridge.
9. Harris J.M. (2000). Basic Principles of Sustainable Development. Global Development and Environment Institute Working Paper:00-04, Tufts University, USA.
10. Holmberg, J. ve Sandbrook, R. (1992). Sustainable Development: What Is to Be Done? Making Development Sustainable: Redefining Institutions, Policy, and Economics. (Ed. J. Holmberg). International Institute for Environment and Development, p. 19-38, Island Press, Washington, D. C.
11. Adams, W.M. (2001). Green Development: Environment and sustainability in the third world (2.Baskı). London: Routledge.
12. Bourdeau, L. (1999). National Report: Sustainable development and future of construction in France. France: Centre Scıentıfıque Et Technıque Du Bâtıment.
13. Dünyada ve Türkiye sürdürülebilir kalkınma yaklaşımları. Dr. Ecehan OZMEHMEThttp://dergipark.ulakbim.gov.tr/jyasar/article/view/5000066037/5000061543
14. Что такое Рио+20? // http://www.un.org/ru/sustainablefuture/about.shtml
15. https://sustainabledevelopment.un.org/post2015/summit, 08 oktyabr, 2015.

***Açar sözlər:*** *davamlı inkişaf, dayanıqlı inkişaf, insan inkişafi, Minilliyin İnkişaf Məqsədləri, Dayanıqlı İnkişaf Məqsədləri, ətraf mühit*

**Ayaz Hajiyev**
*PhD candidate, Department of Sustainable Development Planning and Management, Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## FEATURES OF THE SUSTAINABLE DEVELOPMENT CONSUMPTION PROCEDURE

### SUMMARY

The article first considers the process of the emergence of the concept of sustainable development. This shows that, although in general there are different definitions of sustainable development, their common point of view is that they reflect current and future problems of man and nature. This shows that the world is seriously concerned about solving the current problems of mankind and its future development.

The article emphasizes that the central problem of the concept of sustainable development is connected with modern life and the future of mankind. Of course, the protection of the environment and the environment as a whole is directly related to the future of mankind. This shows that sustainable development is specifically related to human development. The issue of sustainable human development was also approved by the UN. Since the 1990s, the United Nations Development Program has been implementing the concept of sustainable human development.

When assessing human development through the concept of human development, not only economic and social factors are taken into account, but also the position, status and well-being of people in the societies in which they live, which should be considered as a more progressive

approach. Health, education and income are equally important in assessing human development. Taking into account all these aspects, the concept of sustainable development has not been implemented since 1990. Starting this year, sustainability reports are submitted annually. The report includes materials, assessments, comparisons, successes and challenges for the country and region.

The article analyzes key summits, conferences and their decisions on sustainable development.

In conclusion, it was concluded that sustainable development is an important progressive sign as the most suitable development path, including future generations and ensuring human development on a global scale.

***Keywords:*** *sustainable development, human development, Millennium Development Goals, Sustainable Development Goals, environment*

**Аяз Гаджиев**

*Диссертант кафедры Планирование и управление устойчивым развитием Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ОСОБЕННОСТИ ПРОЦЕССА ФОРМИРОВАНИЯ КОНЦЕПЦИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ

### РЕЗЮМЕ

В статье сначала рассматривается процесс появления концепции устойчивого развития. Это показывает, что, хотя в целом существуют разные подходы к определению устойчивого развития, их общая точка зрения заключается в том, что они отражают заботы о нынешних и будущих проблемах человека и природы. Это показывает, что мир серьезно обеспокоен решением текущих проблем человечества и его будущего развития.

В статье подчеркивается, что центральная проблема концепции устойчивого развития связана с достойной современной жизнью и будущим человечества. Конечно, защита окружающей среды и сохранения экологии в целом напрямую связана с будущим человечества. А это показывает, что устойчивое развитие конкретно связано с человеческим развитием. Постановка вопроса устойчивого человеческого развития был одобрен и со стороны ООН. Так, начиная с 1990-х годов Программа развития ООН занимается реализацией концепции устойчивого человеческого развития.

При оценке человеческого развития через концепцию человеческого развития учитываются не только экономические и социальные факторы, но также положение, статус и благосостояние людей в обществах, в которых они живут, что следует рассматривать как более прогрессивный подход. При оценке человеческого развития здоровье, образование и доход имеют одинаковые значения. Принимая во внимание все эти аспекты, концепция устойчивого развития реализуется с 1990 года, с этого года ежегодно представляются отчеты об устойчивом развитии, в которых находят свое отражение материалы, оценки, сравнения, успехи и проблемы по каждой стране и региону.

В статье анализируются ключевые саммиты, конференции и их решения по устойчивому развитию, завершается она выводом о том, что устойчивое развитие, отражая в себе учет интересов будущих поколений при обеспечении развития нынешнего поколения как наиболее подходящий путь развития, имеет важнейший прогрессивный характер.

***Ключевые слова:*** *устойчивое развитие, человеческое развитие, Цели развития тысячелетия, Цели устойчивого развития, окружающая среда*

# GƏNC TƏDQİQATÇILAR
# YOUNG RESEARCHERS

## VƏTƏN TARİXİ
## NATIONAL HISTORY

UOT 94 (479.24)

**İRADƏ ƏHMƏDOVA**
**Bakı Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının doktorantı**
*e-mail: iradeehmedova33@gmail.com*

# SOVET HAKİMİYYƏTİ ORQANLARININ ANTIİSLAM SİYASƏTİ (1920-30-CU İLLƏR)

Aprel çevrilişi nəticəsində hakimiyyəti ələ keçirən bolşeviklər əsrlər boyu insanların beyninə və qəlbinə yerləşmiş islam dini dəyərlərini məhv etmək, müstəmləkə və köləlik siyasətini həyata keçirmək üçün ciddi cəhdlər etməyə başladılar. İlk günlər bolşeviklər xalqın başını qatmaq və öz planlarını həyata keçirmək üçün vəd etdilər ki, xalqın adət-ənənələrinə, dini dəyərlərinə və inanclarına qətiyyən müdaxilə etməyəcəklər. Sovet Rusiyasında olduğu kimi, Azərbaycanda da ilk vaxtlarda dinin dövlətdən ayrılması siyasətinə çalışırdılar. Qeyd etmək lazımdır ki, Lenin və onun komandası müsəlman ölkəsi kimi Azərbaycana böyük ümidlər edir və onun (Azərbaycanın) nümunəsində Şərqdə kommunist-sosialist inqilabının genişlənməsinə və öz planlarını gerçəkləşdirmək üçün müsəlman xalqlarını bolşevik vədlərinə inandırmağa çalışırdılar. Bu məqsədlə 1918-ci il yanvarın 20-də «Vicdan azadlığı, dini icmalar haqqında» dekret qəbul edildi. Sonralar bu qərar «Kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması haqqında» (24, 143) adı ilə əvəz edildi.

Əslində bu sənədlə dinin və kilsələrin hüquqları məhdudlaşdırılır, din dövlətdən ayrılırdı. Məktəblərdə və təhsil sistemində dini təhsil qadağan edilirdi. Bununla da gələcək ateist ideologiyasının təbliğinə ilkin şərait yaradılırdı. Lenin və bolşevik rəhbərliyi müsəlman xalqı öz tərəfinə çəkmək üçün populist bir qərar qəbul etdi. 1917-ci il noyabrın 20-də «Rusiya və Şərqin bütün müsəlman zəhmətkeşlərinə» müraciəti (24, 145) qəbul edildi. Bu müraciətdə müsəlmanlara qarşı edilən zorakılıqlar və repressiyalar qadağan edilirdi.

Azərbaycan İnqilab Komitəsi 1920-ci ilin mayında «Vicdan azadlığı» haqqında dekret verdi. Bu dekretə görə Xalq Maarif Komissarlığının tabeliyində olan bütün dövlət təhsil müəssisələrində dini təlimlərin və mərasimlərin keçirilməsi qadağan edilirdi (18, 166). Mayın 5-də «Vəqf və məscidlərə məxsus ərazilərin müsadirəsi haqqında» qərar qəbul edildi (7, 47). Azərbaycan Xalq Maarif Komissarlığı 1920-ci il mayın 20-də «Bütün məktəblərdə dini təlim tədrisinin, habelə dini ayinlərin keçirilməsinin ləğv olunması haqqında» dekret verdi (11, 146). Bu qərarlar yerli müsəlman əhalinin narazılığına səbəb oldu, Gəncədə, Qarabağda, Zaqatalada və başqa yerlərdə üsyanlar başladı.

Azərbaycanın XKS sədri Nəriman Nərimanov müsəlman əhalinin hüquqlarının qoruyucusu kimi yerli adət-ənənələrə daim hörmət edirdi. O, 1921-ci ilin avqustunda Təzəpir və Bibiheybət məscidlərində məhərrəm ayında əhaliyə ərzaq paylatdırmışdı.

Müəyyən vaxtlarda kommunist rəhbərlər dindarları ələ almaq üçün yeni-yeni şüarlar

irəli sürürdülər. 1923-cü ildə «qırmızı mollalar ordusu» yaradıldı (16, 129). Bu dəstə bolşevik şüarı olan «Sovet hakimiyyəti İslama zidd deyil» şüarı ilə «qırmızı mollaları»n iştirakı ilə 1923-cü il avqustun 17-də müşavirə keçirdilər (24, 115). Bütün bunlar onu göstərir ki, sovet rəhbərliyi Leninin göstərişlərini rəhbər tutaraq «dinin xalq üçün tiryək» olmasını geniş təbliğ etməyə başlayırdılar. N.Nərimanovun Azərbaycanı tərk etməsindən sonra 1923-cü ildə məhərrəmlik, «Aşura», və «şaxsey-vaxsey» əleyhinə kampaniya başladı. 1924-cü ilin avqustunda erməni-rus rəhbərliyinin Bakı partiya komitəsi Bakıda «Allahsızlar cəmiyyəti» yaradılması haqqında qərar qəbul etdi. Bu cəmiyyət hücum dəstələri də yaratdı. Cəmiyyətin şüarı: «Dinlə mübarizə –sosializm uğrunda mübarizə» idi. Bu cəmiyyətin rəhbəri qəddarlığı ilə seçilən J.Yaroslavski idi (25, 198). Ancaq bu cəmiyyətin yaradılmasını müsəlmanlar narazılıqla qarşıladı. AK(b)P MK-nın fevral (1923) plenumu din əleyhinə təbliğatı gücləndirməyi qərara aldı. 1925-ci ildə «məhərrəmlik» ərəfəsində Bakı partiya komitəsi din əleyhinə bir sıra kitabçalar buraxdı, klublarda din əleyhinə biabırçı tamaşalar göstərildi (4, 423-424).

Mətbuat səhifələrində «mollalar sosializmin qəddar düşmənidir», «keşişlər faşist agentləridir» (5) kimi başlıqlı məqalələr dərc edildi. Lakin «Allahsızlar cəmiyyəti» adamların heç bir dəstəyini qazanmadı. Əksinə, xalqın qəzəbinə səbəb oldu (7, 219). 1928-ci ildə bütün İttifaqda olduğu kimi, Azərbaycanda da məscid, kilsə, din ocaqları bağlanmağa, ruhanilər, mollalar, şeyxlər, axundlar, bütün dindarlar təqib olunmağa başlandı. Qurani-Kərim zərərli bir kitab kimi qadağan edildi. Azərbaycan qəzalarında məscidlər dağıdıldı və ya klublara, anbarlara çevrildi. 1928-ci ilin dekabr-1929-cu ilin yanvar ayı ərzində (22 gün müddətində) 18 məscid bağlandı və ya anbara, mədəni-maarif ocağına çevrildi (17, 26). 1929-cu ildə isə 120 məscid bağlandı (26, 44).

Yaramaz hərəkətlərini və antiislam siyasətlərini cəza orqanları vasitəsilə davam etdirən sovet hakimiyyəti qurumları 1928-ci ilin payızında Şamaxıda 16 məsciddən 13-nü dağıtdılar, Göyçay qəzasında 1929-cu ilin martına qədər 147 məscid bağlandı. Gəncə, Şuşa, Quba, Salyan, Zaqatala bölgələrində və başqa yerlərdə belə hərəkətlər və təbliğat kampaniyası genişləndi. 1928-29-cu illərdə Azərbaycanda 461 məscid bağlandı (22, 578-579) . 1929-cu ilin fevralında Qubanın bir kəndində yerli əhali bu haqsızlığa dözməyib ateistlər və komsomolçuların məscidi bağlayıb özləri üçün toplantı mərkəzinə çevirmək istəyinə qarşı coşqun formada bütün ateistləri və komsomolçuları qovdular, qırmızı sovet bayrağını məscidin damından endirib yandırdılar. Həmin kənddə və ətraf bölgədən gələn 500 nəfər qadın Allah və Qurani-Kərimə and içdilər ki, kommunistləri məscidə buraxmayacaqlar. Həmin qadınlar müntəzəm məscidə gələcəklərinə, Allaha və Qurana ibadət edəcəklərinə and içdilər. Bu cür hərəkətlərlə Ağdam, Salyan, Şamaxı, Bakı, Göyçay və Naxçıvanda da baş vermiş, ateistlərə «zərbələr» vurulmuşdu (22, 581-583).

Sovet hakimiyyəti orqanları milli mənəvi dəyərlərimizə zidd olan siyasətlərini davam etdirirdilər. Həm də belə antimilli siyasət sovet işğal sisteminin mahiyyəti idi. 1936-cı ilin əvvəllərində Azərbaycanın 45 rayonunda sovet hakimiyyəti dövründə 1365 məscid bağlanmış, yalnız 105-i fəaliyyət göstərirdi. Bakıda 37 məsciddən 35-i, Naxçıvanda 63 məsciddən 47-si, Masallıda 52, Astarada 21, Qutqaşəndə 81 məscidin hamısı bağlanmışdı (10, 315).

1929-cu il martın 4-də AK(b)P MK Rəyasət Heyətinin iclasında çadra örtməsini qadağan edən qərar, xalqa zidd olan avantürist bir qərar (2, i.287, v.184-185) qəbul edildi. Bu qərara əsasən Azərbaycan Xalq Maarif Komissarlığı belə bir sərəncam verdi ki, çadra örtən, papaq qoyan qadınlar kino və teatrlara buraxılmasın. Həmin sərəncamda tələb olunurdu ki, papaq Avropa nümunəsində baş örtüyü ilə əvəz edilsin. Bununla da çadraya qarşı mübarizə aparmaq kompaniyasına qərar verildi (4, 480). Mətbuatda və müxtəlif iclaslarda

Azərbaycan xalqının milli musiqi alətlərindən istifadə edilməsinə qarşı xoşa gəlməyən, hədyan sözlər işlədilməyə başlandı. Tar, kamança, zurna, balaban kimi xalq inciləri qadağan edildi. Mənasız mübahisələr qızışır, ehtiraslar coşur, xalq mədəniyyətinə və mənəviyyatına ağır zərbələr vurulurdu. Hətta ciddi qarşıdurmalar yaranırdı.

Azərbaycan partiya rəhbərliyinin səhv qərarı yerlərdə zorakılıqla həyata keçirilirdi. İslam dininin mənəvi dayaqları, xalqımızın inam və etiqadı sarsıdılırdı. İbadətgah məbədləri, məscidlər kütləvi şəkildə bağlanırdı. 1929-cu ilin fevralın 12-nə qədər respublikanın 13 qəzasında 219 məscid və 18 kilsə bağlandı və onlar mədəni-maarif idarələrinin ixtiyarına verildi (2, i.287, v.161).

XIV Ümumrusiya Sovetlər qurultayında (may, 1929) çıxış edən bolşevik «natiqlər» dini mərkəzlərin, o cümlədən kilsələrin üzərinə ağır vergilər qoyulmasını, yaxud bağlanmasını təklif etdilər (21, 199). Öyrədilmiş «natiqlərin» təklifini «nəzərə alan» qurultay kilsələrin bağlanması haqqında qərar verdi və dindarların üzərinə total hücuma keçdi. Qısa müddətdə – 1930/31-ci illərdə 1,8 milyon nəfər sürgün edildi. Kilsələrin və dini məbədlərin 80 faizi bağlandı (23, 575), imperiyanın hər yerində din xadimlərinə, mollalara qarşı amansız terror təşkil edildi. Ölüm və ya sürgün təhlükəsindən canını qurtarmağa çalışan minlərlə dindarlar qolçomaqlara qoşulub antisovet üsyanlarının iştirakçısı olurdular. Ölkədə isə üsyan dalğası getdikcə genişlənirdi. Dövlət ilk günlərdən din xadimlərini "sosial yad element" adlandırır və on minlərlə dindarları azadlıqdan məhrum edirdi. 1920-ci ilin sonu – 1930-cu illərdə 80 mindən çox dindar öldürüldü. (22a, 108). Dövlətin din siyasətinə qarşı səhv mövqeyi dindarları hərəkətə gətirdi və onlar M.İ.Kalininə şikayətlər etdilər. Dindarların qəti etirazı dövləti möhkəm silkələdi. Dövlət məcbur oldu ki, 1930-cu ildə "ateist təbliğatını" yumuşaltsın (21, 201).

20-ci illərin sonlarında islam dininə qarşı antisovet mübarizəsi daha da gücləndi. 1928-ci ildə məscidlərin, kilsələrin və sinaqoqların klublara və digər mədəni-maarif müəssisələrinə çevrilməsi haqqında Az.KP MK-nın xalqa zidd qərarı verildi. 1929-cu ildə yerli sovetlərə qarşı keçirilən seçki kampaniyasında bir çox din xadimləri və dindarlar seçki hüququndan məhrum edildi. 400 məscid bağlanaraq klublara çevrildi (18, 169). Beləliklə, islam dininə qarşı geniş mübarizə kampaniyasına başlandı. 1931-ci ilin payızında «Mübariz Allahsızlar» Cəmiyyətinin mərkəzi orqanı olan «Allahsız» adlı jurnal nəşr olunmağa başladı (11, 147). Jurnalın əsas məqsədi islam dinini, ruhaniliyi ifşa etməkdən, əslində isə Azərbaycanda dinsizlər ordusu yaratmaqdan ibarət idi. Jurnal çoxlu tirajla buraxılırdı. Lakin jurnal müsəlmanların əksinə rəğbətini qazanmadı, ona qarşı nifrəti artıraraq jurnalın bağlanmasına səbəb oldu. Müharibənin şiddətli çağında – 1942-ci ildə «Allahsız» cəmiyyəti, «Ateist» nəşriyyatı, «Allahsız» qəzeti və jurnalının fəaliyyəti dayandırıldı (24, 156).

Antiislam təbliğatı getdikcə şiddətlənirdi. 1937-ci ildə Azərbaycanın rəhbəri M.C.Bağırovun hörmət etdiyi Mir Möhsün Ağanın ailə üzvləri xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən təqiblərə məruz qaldı. Hərbi geyimli NKVD işçiləri onu aparmaq istəsələr də, onların niyyəti baş tutmadı (11, 61).

30-cu illərdə xalqımızın milli-mənəvi dəyərlərinə, ziyalılara və dindarlara ağır zərbələr vurulmuşdu. 1934-cü ildə Bakıda Bibiheybət məscidi partladıldı, Əmircanda Murtuza Muxtarov məscidi bağlandı, Suraxanı Atəşgah məbədi baxımsız vəziyyətə düşdü (18, 169). Yüzlərlə din xadimi və dindarlar təqib edilir və «sinfi düşmən» adı ilə sürgün edilirdilər. Bakı həbsxanaları din xadimləri ilə dolu idi. Qəribə burasıdır ki, həbsxanalarda istintaq altında yatan dindarların hamısının müstəntiqi erməni idi (8, 203). Azərbaycanlı ailələrində evdə «Qurani-Kərim» kitabını saxlamaq belə qadağan edilmişdi. 1937-ci ilə qədər Sovetlər Birliyində 41.868 məscid və kilsə ləğv edilmişdi. Azərbaycanda 1.600-dan artıq məscid bağlanmışdı (8, 198). Bağlanan

məscidlər anbara, kluba çevrilir, müxtəlif idarələrin ixtiyarına verilirdi.

İslama qarşı mərkəzdən rəhbərlik edilsə də Azərbaycanda güc strukturlarında vəzifə kreslolarında əyləşən erməni rəhbərlər milli adət-ənənələrimizə, dinimizə və dilimizə ağır zərbələr vururdular. 30-cu illərdə Azərbaycanda 51 rayonun 31-nin Xalq Daxili İşlər Komissarlığının şöbə müdirləri ermənilər idi (19, 39). Həmin illərdə Azərbaycanda hakimiyyətin yüksək zirvəsini zəbt edən ermənilər – Qriqoryan, Markoryan, Qolustyan, Ohenesyan, Avanesyan və b. xalqımıza düşmən idi və amansız qırğınlar edirdilər. Heydər Əliyev həmin illəri xarakterizə edərək demişdir: «20-30-cu illərin repressiyaları on minlərlə insanın həyatını məhv etmişdir… 1937-1938-ci illər repressiyaları zamanı Zaqafqaziya respublikaları içərisində daha çox Azərbaycandan sürgün edilənlər olublar…» (14, 83).

Din əleyhinə başlanan belə antimilli dövlət siyasətinə qarşı Azərbaycanın hər yerində ciddi narazılıqlar, etirazlar, hətta açıq siyasi mübarizə və müqavimət hərəkatı gündən-günə genişlənirdi. Genişlənən milli hərəkat dövləti və hökuməti qorxuya salmışdı. Hətta respublika partiya orqanları xalq hərəkatının genişlənməsini nə qədər gizli saxlasalar da, Zaqafqaziya Siyasi İdarəsinin və Azərbaycan Dövlət Siyasi İdarəsinin hazırladığı və Mərkəzə ötürdüyü gizli-«məxfi» materiallarında açıq şəkildə etiraf edilirdi ki, din əleyhinə partiya orqanlarının səhv siyasətinə qarşı genişlənən milli hərəkat Azərbaycan kəndində ictimai-siyasi vəziyyəti son dərəcə kəskinləşdirmişdi. Çünki çadra məsələsi işi mürəkkəbləşdirmiş, mədəni-maarif işi sahəsində hakimiyyət orqanlarının apardığı işə mane olurdu.

Zaqafqaziyanın və Azərbaycanın siyasi idarələrinin hazırladığı gizli materiallarda göstərilirdi ki, türk qadını və kişisi, hətta fəhlələr və kommunistlər də çadra məsələsində partiyanın siyasətinə qarşı dayanır (1, i.23, 11). Sabunçu rayonunda bir qadın çadranı atdığına görə öz əri kommunist Məmməd Zaman oğlu tərəfindən öldürülmüşdü. Fəhlə iclaslarında neftçi fəhlələr açıq şəkildə çıxış edərək demişdilər: «Biz çadranı atmağın əleyhinəyik. Rədd olsun sovet hakimiyyəti!» (1, i.23, 11).

Zaqafqaziyanın və Azərbaycanın siyasi idarələrinin hazırladıqları materiallarda deyilirdi ki, çadranın ləğv edilməsi haqqında verilən qərar düzgün deyil. Din əleyhinə aparılan mübarizə kompaniyası müsəlmanların dini ənənələrini pozmaq deməkdir. Çadranı atmaq, deməli, şəriət əleyhinə getməkdir. Bu, müsəlmanların müqavimət hərəkatını fəallaşdırmışdır. Bu birincisi. İkincisi, çadranın atılması müsəlman əhalidə belə bir psixoloji əhval-ruhiyyə yaradırdı ki, gələcək əxlaqsızlığa yol açır. Və nəhayət, üçüncüsü, bu iş ailə işidir, şəxsi işdir. Hətta belə çıxır ki, bizim qadınlar bizə yox, dövlətə məxsusdur (1, i.23, 22-23). Bu sözləri yığıncaqlarda müsəlmanlar demişlər.

Çadra kompaniyası bir daha onu göstərdi ki, hakimiyyət orqanları nə psixoloji məişət mövqeyini, nə yerli milli xüsusiyyətləri, nə də türk-Azərbaycan adət-ənənələrini düzgün başa düşmür və partiya orqanları bu məsələyə hazır deyil (1, i.23, 11). Çadra atmağın əleyhinə mübarizə Naxçıvanda, Bakı kəndlərində, Gəncə, Ağdam, Quba, Salyan və başqa bölgələrdə daha da qızışmışdı. Din əleyhinə, şəriət əleyhinə, çadranı atmaq əleyhinə müsəlmanların müqavimət hərəkatı onu göstərir ki, partiya orqanları səhv qərarları ilə kənddə ictimai-siyasi vəziyyəti kəskinləşdirmişdilər.

Çadra əleyhinə Naxçıvan bölgəsində vəziyyət daha kəskin idi. İclaslarda açıq deyilirdi ki, minilliklərdən üzü bəri yaranan ənənəyə zidd getmək olmaz, çadranı atan qadının öldürüləcəyi sözlər səslənir, müsəlman qadını çadrada olmalıdır. Lənkəranda iclasda bir qadın belə demişdi: «Lap min dəfə qərar qəbul edilsin, yenə də çadramı atmaram. Ərim muzdurdur, əvvəlcə onu işə düzəltsinlər, sonra çadranı atmağı tələb etsinlər». Xırdalan sakini AKP üzvü Ağa Bala oğlu demişdi: «əgər

partiya məni məcbur etsə ki, arvadını yığıncağa gətir, mən partiya biletimi geri qaytararam, onu yığıncağa aparmaram». Hətta partiya katibi də demişdi ki, partiyanın hüququ yoxdur ki, öz üzvündən belə şey tələb etsin (1, i.23, 25). Bibi-Heybət rayon fəhlələrinin yığıncağında bir komsomolçu belə demişdir: «MK-nın qərarını dağıtmaq lazımdır» (1, i.23, 5).

Din uğrunda mübarizə formaları müxtəlif olmaqla, leqal və qeyri-leqal formada davam etdirilirdi. Sovet hakimiyyətinə qarşı mübarizənin ən şiddətli və barışmaz mübarizə forması qolçomaqların apardığı mübarizə din uğrunda aparılan mübarizə ilə birləşirdi. Belə mübarizələr Azərbaycanın demək olar ki, bütün bölgələrində genişlənmişdi. Naxçıvanda, DQMV-da, Şirvanda, Salyanda, Laçında, Kürdüstanda, Gəncə bölgəsində və b. yerlərdə sovet hakimiyyətinə, onun siyasətinə qarşı açıq çıxışlar baş verirdi (1, i.23, 10-11). Ancaq müqavimət hərəkatlarının hamısı qan dəryasında boğulurdu. Gəncədə müqavimət hərəkatına müsavatçı Hacı Axund rəhbərlik edirdi. 1.000 nəfərə yaxın tərəfdarı olmuşdur. Sovet hakimiyyətinin silahlı qüvvələri tərəfindən bütün bu hərəkatlar yatırıldı. Təkcə Naxçıvanda 1930-cu ilin sentyabrında 51 nəfər güllələndi, 38 nəfər həbs edildi (1, i.23, 16).

Mərkəz və Azərbaycan partiya orqanları səhv etdiklərini, «Lenin milli siyasətində təhriflərə» yol verdiklərini tezliklə anladılar. Buraxdıqları səhvləri «düzəltmək» üçün AK(b) P MK-nın aprel (1929) plenumunda məişət, din və çadra məsələsi ilə əlaqədar həyəcanlarını bildirdilər. Plenum açıq etiraf etdi ki, kənddə sinfi mübarizə, dini təşkilatların mövqeyi qüvvətlənmişdir. «Zəhmətkeşlər arasında mədəni geriliyin, fanatizmin, dini xurafatın mövcudluğu, çadranın atılması… işi olduqca mürəkkəbləşmişdir» (6, 487).

Yeri düşmüşkən, onu da qeyd etməyi vacib bilirik ki, guya AK(b)P MK-nın aprel (1929) plenumu «din əleyhinə mübarizə işində buraxılan səhvlərin və əyintilərin düzəldilməsində mühüm rol oynadı» (4, 480). Ancaq, zənnimizcə, bu fikirlə heç cür razılaşa bilmərik. Çünki həmin plenumun materiallarının diqqətlə araşdırılması zamanı aydın olur ki, xalqımızın milli-mənəvi və islam dini dəyərlərinə qarşı partiya orqanlarının buraxdığı ciddi səhvləri etiraf edən, bu səhvlərin aradan qaldırılması üçün yeni vəzifələr müəyyənləşdirən plenum heç də vəziyyəti düzgün başa düşməmiş və düzgün qiymət verməmişdi. Çadra məsələsi, din məsələsi, milli məsələnin «kişi məsələsi» olduğunu düzgün anlamayan plenum kəskinləşməkdə olan kriminal vəziyyəti düzəltmək əvəzinə əksinə, «Allahsızlar ittifaqının işinin gücləndirilməsi…» haqqında (6, 491) xalqa zidd, adət-ənənələrə zidd qərar verdi. Yenidən belə səhv qərarın qəbul edilməsi közərməkdə olan ocağın üstünə benzin tökmək demək idi. Respublikada baş verən sonrakı ictimai-siyasi hadisələr, tətillər, üsyanlar, müqavimət hərəkatları dediklərimizi bir daha sübut edir. Hətta mərkəzə ötürülən rəsmi məlumatlar da nəzərə alınmırdı. İş o yerə çatmışdı ki, mərkəz Azərbaycanın rəhbəri olan Gikalonun da məlumatlarına inanmırdı. Hadisələrdən az əvvəl respublikada milli siyasətdə buraxılan ciddi siyasi səhvləri görən Gikalo açıq formada mərkəzə bildirmişdi ki, «… buraxdığımız ciddi səhvlər tezliklə düzəldilməlidir…» (3, i.24, 5-6). Ancaq yenə də mərkəz heç kimə inanmır və öz bildiyini edirdi. Sonralar baş verən geniş «qolçomaq üsyanları» bütün ölkəyə yayıldı. Genişlənən milli hərəkatların hamısını sovet hakimiyyətinin orduları amansızcasına yatırdı. Yüzlərlə, minlərlə dinc insan, din xadimləri, şeyxlər, mollalar, axundlar məhv edildi, sürgün edildilər.

Azərbaycan xalqının ziyalılarına, islam dininə, bir sözlə milli-mənəvi dəyərlərimizə qarşı həyata keçirilən repressiyalar mərkəzdən planlaşdırılsa da, respublika rəhbərliyinin erməni-rus çinovnikləri günahsız insanları daha çox məhv edirdilər. 20-30-cu illərin repressiyaları haqqında Heydər Əliyev demişdir: «1920-1921-ci illərdən başlayaraq siyasi repressiyalar heç bir əsas olmadan on minlərlə insanların Orta Asiyaya, Qazaxıstana,

Sibirə sürgün edilməsi xalqımıza dəhşətlər gətirmişdir. 30-cu illərin siyasi repressiyaları nə qədər insanların, nə qədər ailələrin həyatını pozmuşdur. Xüsusən 37-38-ci illərin repressiyaları Azərbaycan xalqına, onun intellektual potensialına çox böyük zərbələr vurmuşdur» (13, 333). Heydər Əliyev repressiyanın qurbanları haqqında danışarkən demişdir: «Repressiya illərində Azərbaycanda 50 mindən artıq adam güllələnmiş, 100 mindən çox insan Sibirə… sürgün edilmişdi…» (12, 15).

SSRİ rəhbərliyi 20-30-cu illərdə və demək olar ki, 70 illik totalitar rejim dövründə xalqımızın yaddaşından milli-mənəvi dəyərləri, islam dininin adət-ənənələrini silməyə çalışırdı. Və bu məqsədlə əhalinin ateist tərbiyəsini getdikcə gücləndirir, müxtəlif cəza tədbirlərindən və zorakılıqlardan istifadə edirdi. Ancaq dövlət rəsmiləri nə qədər buna çalışsalar da, hələ də anlaya bilmirdilər ki, islam dini dəyərləri yüz illiklərdən bəri Azərbaycan xalqının mədəni-mənəvi inkişafında mühüm rol oynamış, onun sosial və məişət həyatının bir hissəsi olmuşdur. «İslam bizim əsrlər boyu itaət etdiyimiz dindir. 70 il idi Sovetlər İttifaqında təkcə İslam deyil, bütün dinlər qadağan edilmişdi (15, 250). Dinə qarşı səhv siyasətin aparılmasında, dindarların təqib və sürgün edilməsində başlıca günahkarlar kommunist partiyası və Siyasi Büronun qərarları, Sovet hökumətinin rəhbərləri, Stalinin ətrafında olanlar: Molotov, Kaqanoviç, Xruşşov, Mikoyan, Yejov, Beriya, Malenkov və b. idi. Hətta 1930-cu illərin ikinci yarısından başlayaraq dindarların ailə üzvləri də həbs edilirdi (23, 579).

Beləliklə 1920-30-cu illərin bütün qadağalarına, təqiblərə, repressiyalar və güllələnmələrə baxmayaraq Azərbaycan xalqı özünün milli-mənəvi dəyərlər sistemini, islam dinini, adət-ənənələrini, milli mədəniyyətini qoruyub saxlamağa və çağdaş dövrümüzə qədər onu yaşatmağa müvəffəq olmuş, onu daha da zənginləşdirə bilmişdir. Çünki xalqımızın islam dininə olan dərin inam və inancları milli kökə, tarixi yaddaşa söykənməklə özünəqayıdış ictimai-siyasi sahələrdə səylərin təməlinə çevrilmiş, din ilə dövlət arasındakı münasibətlər sivil qaydada tənzimlənmişdir (9, 47).

Milli dini dəyərlərimizə yüksək qiymət verərək, 1993-cü il sentyabrın 5-də Heydər Əliyev Peyğəmbərin Mövludu münasibətilə Təzəpir məscidində çıxışında demişdir: «Biz bir dövlət kimi İslam dininin son dövrdə inkişaf etməsini alqışlayırıq və bundan sonra da Azərbaycan Respublikasında hər bir insanın öz dini adətlərinə xidmət etməsinə bütün imkanları yaradacağıq. Biz İslam dininin inkişafı üçün dövlət tərəfindən lazımi tədbirlərin hamısını görəcəyik».

Bütün ölkədə olduğu kimi, Azərbaycanda da mərkəzin hökmranlıq siyasəti və qaba hərəkətləri xalqın qəzəbinə səbəb olur və barışmazlıq psixologiyasını gücləndirdi. Fəqət rəsmi Moskvanın əmrlərinin icraçısı olan yerli məmurlar xalq hərəkatına qarşı dövlətin və ordunun qüvvətli gücündən istifadə edirdi. Bununla bərabər Azərbaycan xalqı belə ağır ictimai-siyasi zamanda öz taleyini yaşamaqda davam edirdi.

**Ədəbiyyat:**


1. ARPİİ SPİHDA, f.1, siy.231, iş 23
2. ARPİİ SPİHDA, f.1, siy.74, iş 287
3. ARPİİ SPİHDA, f.1, siy.88, iş 24
4. Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Bakı: Azərb. Dövlət nəşriyyatı, 1964, 818 s.
5. "Kommunist" qəzeti, 26 aprel, 1989-cu il.
6. Azərbaycan Kommunist Partiyasının qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. Bakı: Azərb. Dövlət nəşriyyatı, 1987, 712s.
7. Azərbaycan tarixi 7 cilddə. VI cild, B. 2008, 568 s.
8. Anar İsgəndərov, Adil Mövlayi. Şeyxülislamlığın tarixi. B., 2016, 447 s
9. Bəhrəmova S. Heydər Əliyev və Azərbaycan Respublikasında din siyasəti. Nam. diss. B., 2018, 181 s.

10. Cəfərov H. Azərbaycanda gənclər hərəkatının təşəkkülü və inkişafı (XIX əsrin sonları – 1940-cı ilədək). Bakı: Nurlan, 2007, 351s.
11. Cümhuriyyətin və sovet dövrünün şexülislamı. B.. Elm və təhsil, 2011, 184s.
12. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı, 2001, 55 s.
13. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 10-cu kitab. Bakı: Azərnəşr, 1997, 612 s.
14. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 14-cü kitab. Bakı: Azərnəşr, 2005, 520 s.
15. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 1-ci kitab. Bakı: Azərnəşr, 2005, 520 s
16. Hüseynli R. Azərbaycan ruhaniləri. B., 2002, 266 s.
17. Quliyev M.N. Azərbaycan SSR-də dövlət –din münasibətləri tarixi (1920-1991). Tar. elm. dok. diss. avtoref. Bakı, 2010, 40s.
18. Orucov H. Azərbaycanda din. Ən qədim dövrdən bu günədək. B. "İdrak", 2012, 428s.
19. Səmədov E. Azərbaycanda din və dövlət münasibətləri və dini təhsilin formalaşması. B., 2009, 169 s.
20. www.proza.ru/2010/11/10/1580. Список репрессированных бакинцев и жителей Азерб. ССР...
21. Александр Пыжиков. Корни Сталинского большевизма. М., Издат. «Аргументы», 2016, 384 с.
22. Баберовский Й. Враг есть везде. Сталинизм на Кавказе. Москва, Российская полит. энциклопедия, 2010, 855с.

22 а Баберовский Й. Красный террор. История сталинизма. М. РОССПЭН, 2007, 279с.

23 Михаил Рейман. Рождения державы. История Советского Союза с 1917 по 1945 год. М., РССПЭН, 2015, 839с.

24 Юнусов А. Ислам в Азербайджане. Б., 2004, 155с

25 Ярославский Е. О религии. М., 1957, 637 с.

26 Мусаева Т.А. Революция и народное образование в Азербайджане (1920-1940гг). Баку, Элм, 1979, 286 с.


***Açar sözlər:*** *Allahsızlar cəmiyyəti, repressiya, dekret, ateist, islam, din, adət-ənənə, hökumət qərarları, xalq hərəkatı, məscid*

**Irada Akhmedova**
*PhD candidate, Department of History of Azerbaijan, Baku State University*

## THE ANTI-ISLAMIC POLICY OF THE ORGANS OF SOVIET POWER (1920-30S)

### SUMMARY

In the 1920s and 1930s, almost in the period of 70-year totalitarian regime, the leadership of the USSR tried to remove national and moral values and Islamic traditions from the memory of the nation and for this purpose, gradually strengthened atheistic education of the population. Thus, the Baku Party Committee decided to found a "League of Atheists" in Baku in August 1924. This league also created attack gangs. The slogan of the society was " The Struggle against Religion is a Struggle for Socialism ".

The article examines the anti-Islamic policy of the bodies of Soviet power, as well as the policy, corrected against other religions. It is shown that as a result of the harshest policy, many mosques were banned from all religions, including Islam, in Azerbaijan, and they were moved to clubs,

barns and other public buildings. Against such a policy of the authorities everywhere, mass discontent, speech and insurrection began, and the resistance movement spread. However, state officials didn't understand that values of Islam religion had played an important role in the cultural and spiritual development of the Azerbaijani people for hundreds of years and had been a part of its social and domestic life.

***Keywords:*** *League of Atheists,  repression, decree, atheist, Islam, religion, traditions, government decisions, people's movement, mosque*

**Ирада Ахмедова**
*Докторант кафедры Истории Азербайджана*
*Бакинского Государственного Университета*

## АНТИИСЛАМСКАЯ ПОЛИТИКА ОРГАНОВ СОВЕТСКОЙ ВЛАСТИ (1920-30-е ГОДЫ)

### РЕЗЮМЕ

Советское руководство укрепило национальные моральные ценности, обычаи и традиции ислама из памяти нашего народа в 1920-1930-е годы и в течение почти 70-летнего тоталитарного режима. Так, в августе 1924 года Бакинский партийный комитет принял решение создать в Баку общество безбожников. Это общество было создано оскорбительными группами, девизом общество было:бороться за религию, бороться за социализм.  Так же исследуется антиисламская политика органов советской  власти и политика направленная против других религий. Показано, что в результате жесточайшей политики ко всем религиям, и в том числе к исламу в Азербайджане были запреты много мечетей, и они были превращены в клубы, амбары и другие общественные здания. Против такой политики органов власти везде начались массовые недовольства, выступления и восстания, расширилось движение сопротивления. Однака государственные чиновники не поняли, что исламские ценности были важны в культурном и духовном развитии азербайджанского народа на протяжении сто лет. Сыграл свою роль и стал частью его социальной и бытовой жизни.

***Ключевые слова:*** *Общество безбожников, репрессия, декрет, атеист, ислам, религия, традиции, правительственные решения, народное движение, мечеть*

## G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
## Y O U N G R E S E A R C H E R S

## B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R
## I N T E R N A T I O N A L R E L A T I O N S

UOT 327 (4/9); UOT 327.5

**AYGÜN QURBANOVA**
**Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının doktorantı**
*e-mail: qurbanova010@gmail.com*

# CƏNUBİ QAFQAZDA TƏHLÜKƏSİZLİYƏ YENİ TƏHDİD

Qafqaz regionu bölgənin geosiyasi, geostrateji və geoiqtisadi xüsusiyyətləri nəzərə alaraq, uzun müddətdir ki, regional və trans-regional güclərin qarşıdurmasında mühüm rola malikdir. Bu bölgədə müxtəlif etnik və mədəniyyətlərin mövcud olması bir çox münaqişələr üçün cəlbedici faktor olmuşdur. Bölgədə təhlükəsizlik haqqında həm ümumi geosiyasi mühiti həm də qarşılıqlı münasibətləri nəzərə almadan danışmaq çətindir. Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsi baş vermiş, Gürcüstan iki bölgəsi – Abxaziya və Cənubi Osetiya üzərində nəzarətini itirmişdir. Bütün bunlar bölgədə ümumi qeyri-sabitlik və inamsızlıq atmosferini yaratmışdır.

Yeni təhdidlərə insan təhlükəsizliyi və onunla əlaqəli iqtisadi, siyasi, qida, səhiyyə kimi hədələri göstərmək olar. Baş vermiş münaqişələrdən sonra Cənubi Qafqaz regionunda insan təhlükəsizliyi şəkildə pozulmuş və ciddi maliyyə-iqtisadi, sosial böhran, işsizlik, təşkilatlanmış cinayətkarlıq, münaqişə zonaları, terrorizm, narkotiklərin yayılması, miqrasiya və s. kimi hallar baş vermişdir (9, s.156).

İnsanlar hər bir dövlətin sərvətidir və buna görə də bütün sahələrdə aparılan inkişaf siyasəti məhz insanlara xidmət etməlidir. Beləliklə, zaman keçdikcə həm qlobal miqyasda baş verən davamlı geosiyasi və iqtisadi proseslər, həm də inkişafa dair düşüncənin dinamik dəyişməsi fonunda insan təhlükəsizliyi daim kiçildilən, hətta nəzərə alınmayan insanı bir daha ön plana çəkir, inkişafa doğru atılan bütün addımların məhz onun naminə edildiyini təkrar yada salır. Təhlükəsiz olmaq yalnız insanın zülm və incidilməkdən azad olmasını nəzərdə tutmur. (10, s.121) İnsan təhlükəsizliyi adi insanların xəstəliklərdən, aclıqdan, cinayətkarlıqdan, sosial münaqişələrdən, siyasi repressiyalardan, ekoloji fəlakətlərdən qorunmasını nəzərdə tutur (1, s.14). İnsan təhlükəsizliyi yoxsulluqdan, qeyri-bərabərlikdən, insan hüquqlarından kənara çıxaraq əsasən insan həyatı üçün vacib sayılan qəfil baş verən dəyişikliklər sayəsində baş verən və insanların rifahına mənfi təsir edən risklərin azaldılmasını gündəmə gətirmişdir. Cənubi Qafqazda münaqişələrin bu regiondakı insan təhlükəsizliyinə necə təsir etdiyini nəzərdən keçirək (11, s.35,42).

Ayrı-ayrı dövlətlər etnik separatizm, münaqişələr, terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlığın artması, təbii ehtiyatların tükənməsi, kütləvi miqrasiya, ətraf mühitin çirklənməsi və sair təhlükələrlə üz-üzə qalır. Bu amillər hər bir dövlətin təhlükəsizliyə qarşı hədəflərin müəyyənləşdirilməsini və onların aradan qaldırılması üzrə cavab tədbirlərin həyata keçirilməsini zəruri edir. Bu problemlər

Cənubi Qafqaz regionunda da özünü göstərməkdədir. Münaqişələr nəticəsində Cənubi Qafqaz regionunda qaçqın problemi və məcburi miqrasiya insan təhlükəsizliyinə təsir edən mühüm məsələlərə çevrilmişdir. Miqrasiya özü beynəlxalq münasibətlər sisteminin bir funksiyasıdır. Hətta daxili qaçqın və köçkünlərin dinamikası belə qlobal siyasətlə birbaşa əlaqəlidir. Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuş və bir milyona yaxın insan məcburi miqrasiyaya məruz qalmışdır. Bununla da, qaçqın və məcburi köçkün axını dövlətimizin milli təhlükəsizliyi üçün böyük təhdidlərdən birinə çevrilmişdir. Suriyada müharibə başladıqdan sonra ölkəni tərk etmiş erməni mənşəli suriyalıların təxminən üçdə biri Ermənistanda məskunlaşmışdır. Azərbaycan tərəfi işğal altında olan ərazilərdə erməni qaçqınlarının yerləşdirilməsinə etirazını bildirmiş və bunun yolverilməz olduğunu dəfələrlə bəyan etmişdir. Bu miqrant probleminin Cənubi Qafqazda təhlükəsizliyə təsiri və Azərbaycanın sərhədləri ətrafında miqrant axınlarının intensivləşməsinin siyasi və iqtisadi nəticələri diqqət mərkəzində qalmaqdadır. Cənubi Qafqaz regionundan axın ən çox Rusiyayadır. Rusiyada əmək qabiliyyətli əhaliyə böyük ehtiyac var. Lakin, immiqrantların yeni mühitə adaptasiyasındakı çətinliklər, kriminal hadisələrin artması, yerlilərlə rəqabət, silah və narkotik maddələrin daşınması üçün yeni yolların meydana çıxması kimi bir sıra problemlərin də ortaya çıxmasını qeyd etmək lazımdır. Münaqişələr zamanı insanlar həm də öz iş yerlərini tərk etmişlər və ciddi iqtisadi sosial çətinliklə üzləşmişlər ki, bu da regionda işsizlik səviyyəsinin artmasına səbəb olmuşdur. Əsas problemlərdən biri də regionda əhalinin iş yeri tapmadığına görə etdiyi miqrasiyalardır. Bu zaman çox vaxt miqrantlar yerli cəmiyyətə inteqrasiya oluna bilmirlər. Burdan belə nəticəyə gəlmək olar ki, Cənubi Qafqazın təhlükəsizliyini təmin etmək üçün regiona daxil ölkələrdə siyasi və iqtisadi islahatlar həyata keçirmək vacibdir (2, s.116-117).

Regionda insan saglamlığına mənfi təsir göstərən təhlükələrdən biri də narkotik maddələrə olan tələbin artması, onların qeyri-qanuni istehsalı və hazırlanmasıdır. Mütəxəssislərin fikrincə, əgər radikal qərarlar qəbul edilməzsə, və bu istiqamətdə müəyyən vəsaitlər ayrılmaza narkotik maddələrin dövriyyəsi artacaq. Bu problemin həlli elə də asan olmayacaq. Çünki vəziyyətin çətinləşməsi daxili və xarici amillərlə əlaqəlidir. Daxili amil kimi Cənubi Qafqaz dövlətlərinin narkotik maddələri istehsal edən mərkəzlərə yaxın olmasını və bu cür maddələrin tranzit ərazi kimi Rusiya ilə həmin mərkəzlərdən Avropaya göndərilməsini qeyd etmək olar. Daxili səbəblər və faktorlara ciddi maliyyə-iqtisadi, sosial və mənəvi böhranı, işsizliyi göstərmək olar. Bura dövlət aparatının zəifliyini, cinayətkarlıq, idarə olunmayan zonalar və münaqişə zonalarının olmasını da əlavə etmək olar. Xarici amil isə, narkobiznesin bütün dünyada geniş yayılmasından ibarətdir. Cənubi Qafqaz regionunda narkotiklərin yayılmasına müharibə və münaqişələr səbəb olub. Dövlətdaxili tədbirlərdən başqa Cənubi Qafqaz dövlətləri xarici dövlətlərlə narkotik maddələrə qarşı mübarizə sahəsində əməkdaşlıq edir (8, s.448).

İqtisadi təhlükəsizliyin əsasını hər bir ölkə üçün öz iqtisadiyyatını digər dövlətlərin müdaxiləsi olmadan qarşılıqlı əməkdaşlıq əsasında iqtisadi inkişaf strategiyasını müstəqil həyata keçirməyə imkan yaradan beynəlxalq razılaşmalar və institusional strukturlar təşkil edir. Cənubi Qafqazda bu sahədə ciddi irəliləyiş əldə olunmamışdır. Buna səbəb həm ümumi həm də daxili problemlər səbəb olmuşdur. Ümumi səbəblərə SSRİ-nin dağılması ilə ölkələr arasında korlanmış münasibətlər, münaqişələr və azad bazar münasibətinə keçiddə yaranmış çətinlikləri göstərmək olar. Belə ki, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi 1993-cu

ildə onu həm Türkiyənin iqtisadi embarqosu ilə üz-üzə qoymuş, həm də iqtisadiyyatını qonşularının bazarından məhrum etmiş və regional layihələrdən kənarda saxlamışdır. Nəticədə Ermənistanı işqabiliyyətli insanların çoxu tərk etmişdir. Bununla da Cənubi Qafqazda sosial problemlərin qabarıq olduğu cəmiyyətə təkan verilmişdir. Gürcüstan isə öz biznes mühitini liberallaşdırmaqla xarici investisiyaların axınını təşkil edib. Bunun sayəsində xidmət sahəsi sürətlə irəliləmiş və ölkə tranzit layihələrin mərkəzinə cevrilmişdir. Yeni iş yerlərinin yaranmasına və əhalinin rifahının yaxşılaşmasına səbəb olmuşdur. İqtisadi sahədə Azərbaycanın milli maraqlarını iqtisadi potensialın artırılmasına; bazar iqtisadiyyatının inkişafına, iqtisadi sabitliyin təmin olunmasına, həmçinin investisiyalar üçün əlverişli şəraitin yaradılmasına; təbii və maddi sərvətlərin səmərəli istifadə edilməsinə yönəltmişdir (3, s.102-105).

Ərzaq təhlükəsizliyi üzrə problemin həlli milli, iqtisadi, sosial, demoqrafik və ekoloji faktorların geniş sahəsini əhatə edir. Ərzağın yoxluğu aclıq və ölümə səbəb olur. Hər bir şəxs gün ərzində yüksək keyfiyyətli və müxtəlif növlü ərzaqlar qəbul etməlidir. Ərzaq təhlükəsizliyi nəinki iqtisadi təhlükəsizliyin, həmçinin ekoloji və siyasi təhlükəsizliyin əsas elementi hesab olunur. Ərzaq məhsulları ilə təminat yaxşı olmadıqda müxtəlif xəstəliklər meydana çıxır ki, bu da əhalinin iş qabiliyyətinin zəifləməsinə, bədənin müqavimətinin aşağı düşməsinə səbəb olur. Sözsüz ki, Cənubi Qafqazdakı problemlər ərzaq təhlükəsizliyinə təsirsiz ötüşməmişdir. Kənd təsərrüfatı Gürcüstan iqtisadiyyatının vacib hissəsini təmsil edir. Müəyyən müsbət inkişaflara baxmayaraq, Gürcüstanın ümumi sosial-iqtisadi vəziyyəti çətin olaraq qalır. Belə ki, itirilmiş bazarları bərpa etmək, təsərrüfatçılıq bilik və bacarıqlarını, o cümlədən maliyyə mənbələrinə çıxış imkanlarını artırmaq, həmçinin torpaq və kənd təsərrüfatı siyasətinə yenidən baxmaq üçün xüsusi müdaxilələr tələb olunur. Daxili istehlak, və ya, ixrac ticarəti üçün təhlükəsiz qidanın inkişafı dövlət orqanları tərəfindən davamlı tətbiq olunan vahid qida siyasəti və prosedurlarına əsaslanır (12, s.1, 40). Ərzaq çatışmazlığı yüksək səviyyəli işsizlik və yoxsulluq nəticəsində 2007-2013-cü illər ərzində təxminən 30.000-dən çox insanın Ermənistanı tərk etmişdir. Ölkədə ərzaq təhlükəsizliyi sabit deyil, şimal əyalətlərində özünü daha kəskin şəkildə göstərir. Azərbaycanın malik olduğu resurslar insanları sağlam və lazımı qida ilə təmin edir. İqtisadi, həmçinin aqrar sahədə islahatlar sürətlənmiş, kəndlilərə torpaqlar verilmiş, kənd təsərrüfatı məhsullarının istehsalçıları vergi verməkdən azad edilmiş, onlara subsidiyalar və hər il güzəştli kreditlər verilməklə dövlət dəstəyi təmin olunmuşdur. Bunun nəticəsində işsizlik azalmış, kənd təsərrüfatı məhsullarının keyfiyyəti artmışdır. Bu da insan təhlükəsizliyinə öz müsbət təsirini göstərmişdir (4, s. 77, 81).

İnsan təhlükəsizliyinə digər bir həddə ekoloji problemlərdir ki bu gün ekoloji poblemlər qlobal problemlər sistemində müharibə və sülh problemlərindən sonra ikinci sırada durur: Bu gün su, hava çirklənməsi, torpağın eroziyası, səhralaşma, meşələrin qırılması, ozon qatının deşilməsi, istixana effektinin yaranması, qlobal istiləşmə və s. kimi ekoloji problemlər həm İEÖ-də, həm də İEOÖ ölkələrdə müşahidə olunur. Mövcud vəziyyəti həll etmək üçün ölkələrin birgə fəaliyyət göstərməsi tələb olunur. Ətraf mühitin yaxşılaşdırılması və ekoloji problemlərin həlli Azərbaycanın dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Bu məsələnin gündəmə gətirilməsi, bu istiqamətdə tədbirlərin maliyyələşdirilməsi mövcud problemlərin kompleks həllinə şərait yaratmışdır (5, s.4). Əhalinin sağlamlığı üçün risklərin azaldılması və çirklənmiş ərazilərin iqtisadi dövriyyəyə qaytarılması baxımından onların təmizlənməsi zərurəti yaranmışdır. Azərbaycan Konstitusiyanın 39-cu maddəsi

hər bir vətəndaşın sağlam ətraf mühitdə yaşamaq hüququnu əsas tutur. Azərbayanın ən aktual problemlərindən biri suyun çirklənməsi problemidir. Aparılan tədqiqatlara görə, Kür, Araz çayları və onların əsas qolları respublikamızdan kənarda – Gürcüstan və Ermənistan ərazilərində çirklənir. 1980-ci illərin sonlarından bu dövlətlərin müəssisələrində təmizləyici qurğuların işləməməsi həmin dövlətlər ərazisindən atılan çirkab suların axdığı çaylar sanki ekoloji təcavüzə məruz qalır. Nəticədə bu çaylar sanitar normaların tələblərinə cavab verməyərək Azərbaycan ərazisinə daxil olurlar. Araz çayı Kür çayına nisbətən daha təhlükəli ekoloji vəziyyətə malikdir. Araz çayı Gümrüdən başlayaraq Naxçıvan MR ilə sərhəd əraziyə kimi axınboyu Ermənistanın 10-dan çox sənaye şəhərlərinin məişət və sənaye tullantıları ilə çirklənir. Həmçinin, Ermənistanın Araza qovuşan Vorotan, Gedərçay, Axuryan çayları da son dərəcə zəhərlənmişdir. Ermənistan AES-in fəaliyyəti bilavasitə Araz çayı ilə əlaqədardır, hər sutka ərzində Araza 12-16 min $m^3$ çirkab axıdılır, bu da o deməkdir ki, gələcəkdə Araz və onun qolları üçün böyük təhlükələr ortaya çıxardacaq (6, s.362-364). Azərbaycan ətraf mühit və təbii ehtiyatlar sahəsinin hüquqi tənzimlənməsinin beynəlxalq hüquqa və Avropa qanunvericiliyinə uyğunlaşdırmaq üçün müvafiq tədbirlər görür. Son dövrlərdə Azərbaycan Avropa İttifaqı, digər Avroatlantik strukturlara, ətraf mühitə dair məsələlərdə uğurla əməkdaşlıq edir (7, s.182-184).

Beləlilkə, insan həyatı üçün vacib olan məsələlər xalq, millət, ölkə çərçivəsindən kənara çıxaraq problem xarakteri daşımağa başlamışdır. Problem dedikdə bütün xalq üçün həyati əhəmiyyət kəsb edən, onun həlli cəmiyyətin, insanların gələcək həyatları üçün təməl rolunu oynayan məsələlərin həlli nəzərdə tutulur. Beləliklə, onun həll edilməməsi cəmiyyətin inkişafınıləngidir, insanların həyatı üçün zərər gətirir, müxtəlif ziddiyyətlər və problemlər yaradırdı.

Cənub Qafqazda regional təhlükəsizlik məsələsi öz aktuallığını saxlamaqdadır. Ortaya çıxan problemlər region dövlətlərindən daha çevik siyasət yürütmələrini tələb edir. Təhlillər göstərir ki, Cənubi Qafqazda yerləşən regional dövlətlərin hər birinin bu hədələrin həlli istiqamətində öz mövqeləri vardır. Ermənistan tamamilə destruktiv rol oynayır. İrəvanın son zamanlar atdığı addımlar göstərir ki, regionda qeyri-sabitlik daha da yüksək səviyyəyə qalxacaq. Gürcüstanın buna qarşılıq hansısa təsirli tədbir görmək imkanları məhduddur. Bununla yanaşı Azərbaycan regional təhlükəsizliyin səmərəli təşkilində mühüm rol oynayır. Buna misal olaraq, Azərbaycanın Türkiyə ilə birlikdə Tbilisiyə verdiyi dəstəyi vurğulamaq olar. Bununla da regionda sabitliyi qoruyub saxlanılmasına dəstək olur.

Son iyirmi ildən artıqdır ki, regiondakı problemlər davam etməkdədir. Beynəlxalq və regional təşkilatların, region və regiondan kənar dövlətlərin həyata keçirmək istədikləri sülh layihələrinin heç biri müvəffəqiyyətlə nəticələnməmiş, əksinə, problemlər daha da dərinləşmişdir. Region və digər dövlətlərin fərqli yanaşmaları və fərqli həll modelləri təklif etmələri, region dövlətləri arasında qarşılıqlı etibarın və güzəştlərin olmaması Cənubi Qafqazdakı problemlərin gələcəkdə də davam edəcəyini göstərir.

**Ədəbiyyat:**


1. Birləşmiş Millətlər Təşkilatinin İnkişaf Proqramı, İnsan inkişafı, Bakı, 2014, s.14.
2. Allahyarova Tahirə, Hacıyev Şahmar, Qəribova Elnarə, Qlobal miqrasiya böhranı: Beynəlxalq münasibətlər və Qərb siyasəti yeni tarixi dönüş ərəfəsində, Bakı, 2018, s.116-117.
3. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları, Bakı, 2011, s.102-105.
4. Məmmədov Rafiq, Bəhərçi Tofiq, Mehdiyeva Validə, Qlobal Problemlər və təbii mühit, Bakı, 2007, s. 77, 81.
5. Bayramov Aysəf. Ekoloji problemlərin həlli ətraf mühitin sağlamlaşdırılmasına xidmət edir, Azad Azərbaycan.-2019.-10 oktyabr.-№122, səh 4.
6. Məmmədov Q.Ş., Xəlilov M.Y. Ekologiya, ətraf mühit və insan. Bakı: Elm, 2006, s.362-364.
7. Kazımov Ə.Ə., Əhmədova E.İ., Azərbaycan Respublikasinda Ətraf Mühitin Mühafizəsi və Onun Hüquqi Bazası, ADAU-nun Elmi əsərləri. - 2019.-№2, s.182-184.
8. Дегоев В.В. Большая игра на Кавказе: история и современность. М.: Русская панорама, 2001, с. 448.
9. Tarkhan-Mouravi George, Old and new threats to security in the South Caucasus, Institute for Policy Studies, Tbilisi, Pobrane z czasopisma Wschód Europy http://journals.umcs.pl/we Data: 11/12/2019 17:17:16, s.156.
10. Jan Faber Mient and Kaldor Mary, Human Security in the South Caucasus, 27 pages, London, 2006, p.121)
11. Fukuda-Parr Sakiko, Gender, Globalization and New Threats to Human Security, Peace Review, 16:1, March, 2004, p.35,42.
12. Asatiani, Salome, Food security concept, condition and trends in Georgia, IBSU Scientific Journal 2009, 2(3), 35-54, 2009, p.1,40


***Açar sözlər:*** *Cənubi Qafqaz, qeyri-ənənəvi təhlükələr, insan təhlükəsizliyi, konfliktlər, ərzaq təhlükəsizliyi, ekoloji problemlər*

**Aygun Gurbanova**
*PhD candidate, Department of International Relations and Foreign Policy, Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## NEW THREAT TO SECURITY IN THE SOUTH CAUCASUS

## SUMMARY

In the paper, we study the existing problems and threats to the security of the South Caucasus. The current problems of the region are threats to human security include war, terrorism, economic problems, environmental pollution and public health crises. As well, the article analyzes various aspects of the political importance of the region.

It is shown that problems in the region have been continuing for more than two decades. Unresolved security issues in the South Caucasus have a direct and negative impact on the human security. Different approaches and different solutions from the region and other countries, as well

as lack of mutual trust and concessions between countries in the region, show us that the problems in the South Caucasus will continue in the future.

***Keywords:*** *South Caucasus, non-traditional threats, human security, conflicts, food security, ecological problems*

**Айгюн Гурбанова**
*Докторант кафедры Международных отношений и внешней политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

**НОВАЯ УГРОЗА БЕЗОПАСНОСТИ НА ЮЖНОМ КАВКАЗЕ**

**РЕЗЮМЕ**

В статье дается подробная информация о существующих проблемах и угрозах безопасности Южного Кавказа. К текущим проблемам региона относятся угрозы безопасности людей, а также война, терроризм, экономические проблемы, загрязнение окружающей среды и проблемы здравоохранения. Анализируются и различные аспекты политической значимости региона.

Показывается, что проблемы на Южном Кавказе продолжаются уже более двух десятилетий, нерешенные проблемы безопасности в регионе оказывают прямое и негативное влияние на безопасность человека. Различные подходы государств региона к решению имеющихся здесь проблем, а также отсутствие взаимного доверия и уступках между странами региона позволяют предположить, что проблемы на Южном Кавказе будут продолжаться и в будущем.

***Ключевые слова:*** *Южный Кавказ, нетрадиционные угрозы, безопасность человека, конфликты, продовольственная безопасность, экологические проблемы*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

## *Dövlət İdarəçilik Akademiyasının müəllimləri uğur qazanıb*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquq" kafedrasının müdiri dos. Fəxrəddin Nağıyev, dos. Abduləli Abdullayev və dos. Asif Qədirov Azərbaycan Respublikası Kütləvi İnformasiya Vasitələri Həmkarlar İttifaqı tərəfindən keçirilmiş rəy sorğusuna əsasən 2019-cu ildə olan elm və təhsil sahəsində göstərdiyi uğurlu xidmətlərinə görə "İlin müəllimi" fəxri medalı və diplomu ilə təltif edilib. Təltiflər Dövlət İdarəçilik Akademiyasının Elmi Şurasında təqdim edilib. Həmkarlarımızı təbrik edir və yeni uğurlar arzulayırıq.

## *Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq səviyyədə tanınmasının 100 illiyinə dair konfrans keçirilib*

Yanvarın 14-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq səviyyədə tanınmasının 100 illiyinə həsr olunmuş respublika elmi konfransı keçirilib. Tədbir dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Elmi konfransı giriş sözü ilə açan Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov müsəlman Şərqində ilk demokratik respublikanın məhz Azərbaycanda yaradılmasının əhəmiyyətini vurğulayıb. Bildirib ki, ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə, ölkəmizlə bağlı həqiqətlərin üzə çıxarılmasına və dünyaya çatdırılmasına hər zaman böyük diqqət yetirib. Dövlətimizin başçısı İlham Əliyev Ulu Öndərin bu siyasətini uğurla davam etdirir.

Konfransda Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Qafqazşünaslıq İnstitutunun direktoru Musa Qasımlı "Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq vəziyyəti" mövzusunda çıxış edib. O, Cümhuriyyətin varisi olan müstəqil Azərbaycan Respublikasının bu gün dayanıqlı inkişaf yolunda inamla addımladığını vurğulayıb.



Bildirilib ki, bu konfrans Cümhuriyyətin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Prezidentinin Sərəncamına əsasən reallaşdırılan tədbirlərdən biridir. Alim Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətindən, diplomatik uğurlarından danışıb. O, parlamentin sədri Əlimərdan bəy Topçubaşovun Paris Sülh Konfransında iştirakı ilə bağlı maraqlı faktları diqqətə çatdırıb.

Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin dekanı, professor Elçin Əhmədov "Müasir geosiyasi şəraitdə Azərbaycanın diplomatik uğurları" mövzusunda məruzəsində Cümhuriyyətin 100 illik yubileyinin artıq iki ildir ki, yüksək səviyyədə qeyd olunduğunu bildirib. Vurğulayıb ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev tərəfindən hər zaman yüksək qiymətləndirilib. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, müstəqil Azərbaycanın təməlini qoya bilib. Bu gün Azərbaycan müstəqil daxili və xarici siyasət yürütməklə mürəkkəb geosiyasi vəziyyətdə sabitliyini qoruyub saxlayır.

Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, dosent Firdovsiyə Əhmədova "Azərbaycan nümayəndə heyətinin Avropadakı fəaliyyəti" mövzusunda məruzə ilə çıxış edib. Bildirib ki, Paris Sülh Konfransının qərarından sonra Azərbaycan Xalq Cümhuriyyəti müstəqil dövlət kimi tanınmışdı. Dünyanın bir çox ölkələri ilə səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaradılmış, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər bağlanmışdı. F.Əhmədova Azərbaycan Xalq Cümhuriyyətinin bütün dünyada tanıdılmasında Əlimərdan bəy Topçubaşovun xidmətlərinin əvəzsiz olduğunu vurğulayıb.

Sonra Bakı Dövlət Universitetinin dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru Afət Səfərova "Azərbaycanın istiqlaliyyətinin tanınmasında Əlimərdan bəy Topçubaşovun rolu" adlı məruzə ilə çıxış edib. O, Əlimərdan bəy Topçubaşovun Cümhuriyyət Parlamentinin ilk sədri kimi diplomatiya tariximizdə müstəsna xidmətlərindən danışıb.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun yeni məqalələri nəşr edilib***

1. "Uğurlu inkişaf strategiyası"

*"Azərbaycan" qəzetinə keçid - http://www.azerbaijan-news.az/uploads/1579126778.pdf*

2. "Новые технологии государственного управления Президента Ильхама Алиева являются гарантией успешного инновативного развития Азербайджанской Республики"

*"Бакинский рабочий" qəzetinə keçid - http://www.br.az/earchive/2020/2020-01-16.pdf*

***Dövlət İdarəçilik Akademiyasında 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar elmi konfrans keçirilib***

Yanvarın 16-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar elmi konfrans keçirilib. Konfransda şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

DİA-nın rektoru akademik Urxan Ələkbərov 20 Yanvar faciəsinin tariximizin şərəf və qəhrəmanlıq səhifəsi olduğunu, keçmiş sovet imperiyasının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror aktının insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu bildirib. O, faciənin xalqımızın yaddaşına əbədi həkk olunduğunu, eyni zamanda, tariximizə qürur, qəhrəmanlıq günü kimi yazıldığını qeyd edib.

Urxan Ələkbərov faciənin ertəsi günü Ümummilli lider Heydər Əliyevin



Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək keçirdiyi mətbuat konfransında kəskin bəyanatla çıxış etdiyini, Bakıda törədilən qırğınların təşkilatçılarını cinayətkar adlandırdığını, baş verənlərə siyasi qiymət verilməsini, günahkarların cəzalandırılmasını qətiyyətlə tələb etdiyini xatırladıb. O vurğulayıb ki, Ulu Öndər siyasi hakimiyyətə qayıdışından sonra şəhidlərin xatirəsini əbədiləşdirmək üçün həmin tarixi Ümumxalq Hüzn Günü elan edib, bununla da hadisəyə siyasi və hüquqi qiymət verilib. Bu gün dövlətimizin başçısı İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin uca tutulmasına, onların ailələrinin sosial məsələlərinin həllinə xüsusi diqqət göstərir.

Konfransda çıxış edən Dövlət İdarəçilik Akademiyasının siyasi idarəetmə fakültəsinin dekanı, siyasi elmlər doktoru professor Elçin Əhmədov, tarix kafedrasının müdiri dosent Firdovsiyə Əhmədova, tarix kafedrasının professoru Musa Quliyev, Politologiya və siyasi idarəetmə kafedrasının müəllimi Zaur Məmmədov və digərləri zaman keçdikcə tariximizin həm qəhrəmanlıq səhifələrini, həm də faciəli səhifələrini yad etməyin, gələcək nəsillərə xatırlatmağın əhəmiyyətli olduğunu diqqətə çatdırıblar. Bildirilib ki, 20 Yanvar hadisələri zamanı göstərilən qəhrəmanlıq, şücaət, xalqın birliyi hamıya örnəkdir. Çıxış edənlər 20 Yanvar faciəsinin gələcək nəsillərə çatdırılmasının vacibliyini qeyd edib, bu hadisələrin unudulmadığını, günahsız insanların əziz xatirəsinin xalqımız tərəfindən hər zaman yaşadılacağını bildiriblər.

***“Könüllülük - vətənpərvərlik məktəbi, xalqa və dövlətə xidmət örnəyi” mövzusunda dəyirmi masa keçirilib***

Yanvarın 30-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 2 fevral - Gənclər Günü münasibətilə “Könüllülük - vətənpərvərlik məktəbi, xalqa və dövlətə xidmət örnəyi" mövzusunda dəyirmi masa keçirilib.

Tədbiri giriş sözü ilə açan Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov bildirib ki, müstəqilliyinin bərpasından cəmi 29 il keçməsinə baxmayaraq, Azərbaycan dövlət quruculuğunun bütün sahələrində nəzərəçarpan tərəqqiyə, davamlı və inklüziv inkişafa nail olub.

Rektor deyib ki, Azərbaycan bütün dünya üçün prioritet olan davamlı inklüziv inkişaf səviyyəsinə görə planetin lider ölkələrini qabaqlayır. “Davos Dünya İqtisadi Forumunun hesabatına görə ölkəmiz inklüziv cəmiyyətin formalaşdırılması və bu prosesin davamlılığının təmin olunması sahəsində ön sıralardadır. Azərbaycan islahatçı ölkə kimi daim yeniliyə, müasirliyə can atır. Aparılan məqsədyönlü və ardıcıl siyasət, o cümlədən ölkə vətəndaşlarının rifahının yüksəldilməsi üçün görülən tədbirlər bunu deməyə əsas verir”, - deyə U.Ələkbərov bildirib.

Rektor Azərbaycanda aparılan gənclər siyasətinə toxunub, dövlətin gənc nəslin inkişafına böyük diqqət göstərdiyini bildirib. Qeyd edib ki, gənclərimiz də həyatın müxtəlif sahələrində əzmlə çalışaraq, xalqa və dövlətə xidmət örnəyi nümayiş etdirirlər.

Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin dekanı, siyasi elmlər doktoru, professor, “Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyinin sədr müavini Elçin Əhmədov çıxış edərək gənclərin potensialından səmərəli istifadə olunmasının vacibliyini vurğulayıb. Son illər ölkəmizdə geniş vüsət alan könüllülüyü sosial fəaliyyətin bir sahəsi adlandıran E.Əhmədov deyib: “Könüllülük öz iradəsi və sərbəst seçimi əsasında heç bir maddi qazanca əsaslanmayan və cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial fəaliyyət istiqamətidir. XX əsrin ikinci yarısından etibarən könüllülük, həmrəylik, sosial məsuliyyət kimi ali dəyərlər sistemləşdirilərək dünyada kütləvi sosial





fəaliyyətə çevrilib. Azərbaycan könüllülük fəaliyyətinin təbliğində və inkişafında özünəməxsus rol oynayır. Ölkəmizin müstəqilliyin bərpasından sonra qazandığı uğurlarda şübhəsiz ki, könüllü gənclərin də rolu əvəzsizdir".

***Dövlət İdarəçilik Akademiyasında Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb***

Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Xocalı soyqırımının iyirmi səkkizinci ildönümünə həsr olunan tədbir keçirilib.

Əvvəlcə Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən DİA-nın rektoru, akademik Urxan Ələkbərov 1992-ci il fevralın 26-da Ermənistan silahlı birləşmələrinin Azərbaycan xalqına qarşı növbəti qanlı təcavüzə əl ataraq tarixdə misli görünməmiş soyqırımı törətdiyini deyib. Bildirilib ki, bu faciəyə ilk dəfə hüquqi-siyasi qiymət yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra verilib. Xocalı soyqırımı barədə dünya ictimaiyyətinin məlumatlandırılması işində dövlət strukturları ilə yanaşı, ictimai birliklər, vətəndaş cəmiyyəti institutları da mühüm rol oynayır. Rektor Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində Heydər Əliyev Fondunun, o cümlədən Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşdırılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində həyata keçirilən fəaliyyəti xüsusi vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının siyasi idarəetmə fakültəsinin dekanı, siyasi elmlər doktoru, professor Elçin Əhmədov, Gənclər və İdman Nazirliyi yanında Gənclərlə iş üzrə İctimai Şuranın sədri Nurədddin Mehdiyev və digər çıxış edənlər Xocalı soyqırımını Azərbaycan xalqına qarşı törədilmiş ən qatı cinayətlərdən biri olduğunu





diqqətə çatdırıblar. Onlar faciəyə siyasi-hüquqi qiymət verilməsi, onun bütövlükdə insanlıq əleyhinə cinayət faktının olması, analoji faciələrlə müqayisədə təhlili barədə fikir və mülahizələrini irəli sürüblər.

Çıxış edənlər vurğulayıblar ki, “Xocalıya ədalət!” beynəlxalq kampaniyasının dünya ictimaiyyətinin məlumatlandırmaqla yanaşı, dünyada oxşar hadisələrin cərəyan etməməsinə çağırış məqsədi daşıyır. Kam-

paniya çərçivəsində müxtəlif ölkələrdə həyata keçirilən tədbirlər, Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində görülən işlər artıq öz nəticələrini verir. Sonda "Qarabağ əcdadımızın mirası" adlı sənədli filmi nümayiş etdirilib.

### *DİA Tələbə Elmi Cəmiyyətinin Xocalı soyqırımı ilə bağlı Dəyirmi masası*

25 fevral 2020-ci il tarixində DİA Tələbə Elmi Cəmiyyəti tərəfindən "Xocalı soyqırımı tariximizin unudulmayan ən dəhşətli qanlı səhifəsidir" mövzusunda dəyirmi masa keçirilmişdir.

Tədbir başlamazdan əvvəl xalqımız tarixinə qanla yazılmış bu faciəni heç vaxt unutmayacaqdır. Xocalı soyqırımı qurbanlarının və torpaqlarımız uğrunda qəhrəmancasına döyüşərək canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Dəyirmi masanı Akademiyanın rektoru, akademik Urxan Ələkbərov açaraq , erməni faşistləri tərəfindən törədilmiş Xocalı qətliamının XX əsrin insanlığa qarşı ən dəhşətli soyqırım hadisəsi olduğunu, erməni qəsbkarları və onların havadarlarının böyük qəddarlıqla və vəhşicəsinə həyata keçirdikləri bu soyqırım nəticəsində azərbaycanlıların tarixən məskunlaşdığı Xocalının dinc sakinlərinin bir gecənin içində amansızlıqla qətlə yetirildiyini, şəhərin yerlə - yeksan edildiyini söyləmişdir. Ermənistan dövlətinin azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsi olan bu faciəyə hüquqi və siyasi qiymətin yalnız Ulu öndərimiz Heydər Əliyev ölkə rəhbərliyinə yenidən qayıtdıqdan sonra verildiyi, bu məsələdə beynəlxalq birlik tərəfindən ikili standartlara yol verilməsi də qeyd olunmuşdur. Rektor Xocalı faciəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması coğrafiyasının daha da genişləndirilməsi, onun soyqırımı aktı kimi tanıdılması ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında dövlətimizin gördüyü işlərdən, bu sahədə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın 2008-ci ildə irəli sürdüyü "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının əhəmiyyətli rolundan geniş söhbət açmış, Prezidentimizin torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi istiqamətində həyata keçirdiyi siyasətin xalqımız tərəfindən geniş dəstəkləndiyini vurğulamışdır. Sonda rektor Tələbə Elmi Cəmiyyətinin keçirdiyi Dəyirmi masanın böyük əhəmiyyət kəsb etdiyini vurğulamış, müzakirələrin tələbə və magistrantların fəal iştirakı ilə keçəcəyinə əminlik ifadə etmişdir.

DİA Tələbə Elmi Cəmiyyətinin sədri dosent Sevil Məmmədovanın aparıcılığı ilə keçən müzakirələrdə magistrant və tələbələrdən Fidan Həsənova, Pərvin İbrahimova, Məlahət İmamova, Könül Vəliyeva, Elnurə Əsgərova, Nərmin Məmmədova, Xəzər Abbaszadə, Nigar Eyvazzadə və b. çıxış etmiş, ətraflı fikir mübadiləsi aparılmış, tədbir iştirakçılarına təcavüzkar Ermənistan dövlətinin Azərbaycan xalqına qarşı yürütdüyü işğalçılıq və soyqırımı siyasəti haqqında əsl həqiqətlərin dünya birliyinə çatdırılmasında fəal iştirak etmək, bununla bağlı sosial şəbəkələrin imkanlarından geniş istifadə olunması tövsiyə edilmişdir.

## *DİA-da "Regional davamlı inkişafın idarə edilməsində enerji və nəqliyyat" mövzusunda beynəlxalq konfrans keçirilib*

Martın 2-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "Regional davamlı inkişafın idarə edilməsində enerji və nəqliyyat" mövzusunda konfrans keçirilib.



İki gün davam edəcək konfrans Ankara Sosial Elmlər Universiteti ilə birgə təşkil edilib.

Tədbirdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov "Dövlət idarəçiliyində innovativ texnologiyalar davamlı inklüziv inkişafın təminatçısı kimi" mövzusunda çıxış edib. Çıxışında Azərbaycanda həyata keçirilən enerji və nəqliyyat layihələri barədə danışan rektor bildirib ki, bu layihələr ulu öndər Heydər Əliyevin düşünülmüş müdrik siyasəti sayəsində reallaşdırılıb. Rektor bildirib ki, Azərbaycan enerjinin səmərəli istifadəsinə görə dünyada qabaqcıl yerlərdən birini tutur.

Ölkəmizdə həyata keçirilən sosial siyasətdən danışan U.Ələkbərov qeyd edib ki, son dövrlərdə bütün növ sosial ödənişlər artırılıb, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılıb.

Məruzəçi bildirib ki, torpaqlarımızın 20 faizinin təcavüzkar Ermənistan tərəfindən işğal altında saxlanılmasına baxmayaraq, Azərbaycan qısa müddətdə innovativ davamlı inkişaf siyasətini reallaşdırmağa müvəffəq olub. Vurğulayıb ki, bütün bu nailiyyətlər ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən dərin düşünülmüş strategiya və tətbiq olunan orijinal innovativ idarəetmə texnologiyaları əsasında qazanılıb. Bu texnologiyaların işlənilməsi və həyata keçirilməsi prosesində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu xüsusi rola malikdir.

Rektor diqqətə çatdırıb ki, 2018-ci il Davos Forumunun hesabatında inklüziv inkişaf indeksinə görə, Azərbaycan keçid iqtisadiyyatına malik ölkələr arasında 3-cü yerdə qərarlaşaraq, iqtisadi imkanları daha yüksək olan Avropa İttifaqı ölkələrinin çoxunu geridə qoyub. Akademik qeyd edib ki, bu qrupdakı ölkələrin üstün iqtisadi imkanlarının



olmasına baxmayaraq, onlar arasında Azərbaycan Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvü olan çox sayda dövlətlərdən irəlidədir. Azərbaycanın inklüziv inkişaf indeksləri ABŞ, Yaponiya, İtaliya, İsrail, İspaniya, Portuqaliya, Türkiyə, Rusiya və başqa ölkələrin göstəricilərini üstələyir. Bu nailiyyət Azərbaycan Respublikasında iqtisadi, sosial və humanitar siyasətin ümumi inkişaf strategiyasının vacib istiqaməti olmasından xəbər verir.

Akademik U.Ələkbərov qeyd edib ki, ölkəmizin inklüziv inkişaf edən cəmiyyətin qurulması istiqamətində qazandığı uğurların başlıca faktoru insan potensialının formalaşdırılması və səfərbər edilməsinə elmi yanaşmadadır. Son illərdə ölkədə adambaşına düşən gəlirlərin artması, iqtisadi dirçəlişə nail olunması dövlət səviyyəsində elm, təhsil və səhiyyənin inkişafı üçün geniş şərait yaradıb. Təhlillər göstərir ki, Azərbaycan Respublikasında qazanılan uğurların əsasında Prezident İlham Əliyev tərəfindən işlənilmiş, nəzəri əsasları və tətbiq üsulları yeni olan idarəetmə texnologiyaları kompleksi dayanır. Məruzədə idarəetmədə istifadə olunan bu yeni sinergetik, komplementar və kompensasion texnologiyalar və onların kompleks tətbiqinin nəticələri geniş təhlil edilib.

Akademik U.Ələkbərov qeyd edib ki, Türkiyənin sosial elmlər sahəsində araşdırmalar həyata keçirən ilk və yeganə dövlət ali təhsil ocağı olan Ankara Sosial Elmlər Universiteti Azərbaycanla elmi əməkdaşlığa böyük diqqət göstərir.

Sonra Ankara Sosial Elmlər Universitetinin kafedra müdiri professor Onur Ender Aslan "Regional enerji və nəqliyyat şəbəkələrinin inkişafının dövlət idarəçiliyi" mövzusunda çıxış edib.

Beynəlxalq konfrans işini panel iclaslarla davam etdirib.

***Dövlət İdarəçilik Akademiyasında yerli icra hakimiyyətlərinin əməkdaşları üçün növbəti distant təlim keçirilib***

2020-ci ilin mart ayının 4-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında növbəti distant təlim keçirilib.

Təlimin əsas məqsədi ölkənin innovativ və inklüziv inkişafı üçün hədəflərin yeni istiqamətləri ilə bağlı biliklərin dinləyicilərə çatdırılması və onlarla fikir mübadiləsinin aparılmasıdır.

Yerli icra hakimiyyətləri sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbələrinin əməkdaşları üçün təşkil edilən təlimdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov «Azərbaycanın inklüziv inkişaf sahəsində dünya liderliyini təmin edən innovativ dövlət idarəçiliyi texnologiyaları» mövzusunda açılış mühazirəsi ilə çıxış edib.

DİA-nın rektoru, akademik Urxan Ələkbərov Heydər Əliyev siyasətinin uğurlu nəticələrindən danışıb, Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini bildirib və bu gün Azərbaycanın iqtisadiyyatının sürətlə inkişaf etdiyini konkret faktlarla diqqətə çatdırıb. Qeyd olunub ki, bir sıra iqtisadi və sosial göstəricilərinə görə müasir Azərbaycan Respublikası hazırda yüzillik tarixi olan və dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq durumundadır. Dövlətimizin başçısının tətbiq etdiyi və dünya miqyasında ilk dəfə işlənilmiş sinergetik, kompensator idarəçilik texnologiyaları sayəsində Davos forumunun hesabatında Azərbaycanın inklüziv inkişaf indeksi bir çox Avropa İttifaqına üzv olan dövlətlərin göstəricilərindən yüksək olduğu qeyd edilmişdir.

Akademik U.Ələkbərov ölkənin iqtisadi və ticarət əlaqələrinin genişəndirilməsində müstəsna əhəmiyyətə malik strateji yol xəritəsinin, elektron hökümətin inkişafı ilə bağlı qərarların Azərbaycanın müasir tərəqqisində mühüm rol oynadığı vurğulanıb. U.Ələkbərov Azərbaycanın uğurlu inkişafınında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi rolu olduğunu qeyd etmişdir.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının inzibati binasında dezinfeksiya işləri aparılıb***

Nazirlər Kabinetinin "Azərbaycanda yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair fəaliyyət planı"nın icrasını təmin etmək məqsədi ilə Dövlət İdarəçilik Akademiyasında da zəruri dezinfeksiya işləri aparılıb.

Səbail Rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən akademiyanın bütün tədris və iş otaqları, yeməkxana, konfrans zalları və umumi istifadə edilən ictimai yerlər dezinfeksiya olunub.

Bununla yanaşı koronavirus infeksiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması və zəruri profilaktik tədbirlərin artırılması məqsədilə DİA-nın əməkdaşlarının məsuliyyətinin artırılması məqsədi ilə məlumatlandırıcı işlər həyata keçirilib.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Koronavirusla Mübarizəyə Dəstək Fonduna 60 min manat məbləğində vəsait köçürüb***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) ölkə Prezidenti İlham Əliyevin 2020-ci il 19 mart tarixli "Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanına əsasən yaradılan Koronavirusla Mübarizəyə Dəstək Fonduna 60 min manat məbləğində vəsait köçürüb.

Dövlət İdarəçilik Akademiyasından bildiriblər ki, qlobal pandemiya ilə mübarizə üçün sosial həmrəyliyin nümayiş etdirilməsini zəruri sayaraq vətəndaşları, o cümlədən akademiyanın müəllim, müdavim və tələbə kontingentini koronavirusla mübarizədə aktiv olmağa, özlərini və ətrafdakı insanları qorumaq məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargahın təlimatlarına ciddi riayət etməyə, yaşlı insanların qayğısına qalmağa, zərurət olmadığı təqdirdə evdən çıxmamağa və ictimai yerlərə toplaşmamağa çağırır.

## MÜNDƏRİCAT


**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**............7
.
**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**..............................13

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**..........................................35

İsveçrə Konfederasiyasına səfər ..........................................................................35
Kürdəmir rayonuna səfər ....................................................................................37
Almaniya Federativ Respublikasına səfər ..........................................................47
İtaliya Respublikasına dövlət səfəri ....................................................................58
Goranboy rayonuna səfər.....................................................................................68
Şəmkir rayonuna səfər .........................................................................................72
Qazax rayonuna səfər...........................................................................................73
Ağstafa rayonuna səfər ........................................................................................77
Tovuz rayonuna səfər...........................................................................................83

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri,**
**çıxışları və müsahibələri** ...................................................................................................91

2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə İlham Əliyevin giriş nitqi ...........................91

2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə İlham Əliyevin yekun nitqi .........................94

İlham Əliyev Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibə verib .................................96

Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı
Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda
İlham Əliyevin giriş nitqi .....................................................................................................97

Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı
Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda
İlham Əliyevin yekun nitqi ..................................................................................................102

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısında
İlham Əliyevin nitqi ............................................................................................................109

Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında İlham Əliyevin nitqi ...112

İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki ...............................119

## DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ

**Urxan Ələkbərov.** Azərbaycan Respublikası və keçmiş SSRİ ölkələrində davamlı inklüziv inkişaf: müqayisəli təhlil....................123

**Kamran İmanov.** Əqli mülkiyyət innovativ inkişaf kontekstində....................139

## VƏTƏN TARİXİ

**İsmayıl Hacıyev.** Naxçıvanın Rusiya imperiyasının müstəmləkəçilik siyasətinə qarşı mübarizəsi (XIX-XX əsrin əvvəlləri)....................165

## KONFLİKTOLOGİYA

**Elman Nəsirov.** Azərbaycanlılara qarşı soyqırım siyasəti: tarixi və siyasi-hüquqi müstəvidə..177

## VƏTƏN TARİXİ

**Firdovsiyyə Əhmədova.** Milli məsələdə bolşevik platforması və Azərbaycanın müqəddəratı.185

**Emin Məlikov.** Azərbaycan Respublikasının Cənub-Şərq bölgəsində yeyinti sənayesinin inkişafı və bu istiqamətdə uğurlu iqtisadi siyasət (2003-2018) ....................199

**Эмин Гаджинский, Али Алиев**. Азербайджано-американские отношения в первые десятилетия XXI века: направление, особенности и специфика ....................207

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Məhsəti Əliyeva.** Beynəlxalq münasibətlərin meydana gəlməsi və inkişafı....................215

## KONSTİTUSİYA HÜQUQU; İNZİBATİ HÜQUQ

**Ромелла Гюльалиева.** Некоторые вопросы освобождения от уголовной ответственности ....................225

## SOSİAL FƏLSƏFƏ

**Əntiqə Paşayeva.** Hüququn fəlsəfəsi: hüququn fəlsəfi anlayışı və mahiyyətində məntiqi qaydaların təsiri....................233

**DÖVLƏT İDARƏÇİLİYİ**

**Taryel Məmmədov.** Dünya ölkələri və Azərbaycanda dövlət xidmətlərinin elektron formada təqdim edilməsi ....................................................................................................................241

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**

**Yusif Huseynov.** Disaster risks reduction in the energy and transportation infrastructure of Azerbaijan ....................................................................................................253

**SİYASİ NƏZƏRİYYƏ**

**Günel Məlikli.** Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin siyasi aspektləri ....................................................................................................................259

**GƏNC TƏDQİQATÇILAR**
**YOUNG RESEARCHERS**

**DÖVLƏT İDARƏÇİLİYİ**

**Anar Şükürov.** İctimaiyyətlə əlaqələrin tarixi və inkişaf mərhələləri ......................................271

**Həmdulla Məmmədov.** Azərbaycan Respublikasında dövlət qulluğunun səmərəliliyinin artırılmasına yönəlmiş islahatlar ....................................................................................281

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**

**Səbuhi Mehdizadə.** Bərk məişət tullantılarının əmələ gəlməsinə təsir edən amillər və emal olunması texnologiyaları ...........................................................................................289

**Ayaz Hacıyev.** Davamlı inkişaf konsepsiyasının formalaşması prosesinin xüsusiyyətləri ........297

**VƏTƏN TARİXİ**

**İradə Əhmədova.** Sovet hakimiyyəti orqanlarının antiislam siyasəti (1920-30-cu illər) .........305

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Aygün Qurbanova.** Cənubi Qafqazda təhlükəsizliyə yeni hədələr ..........................................313

**Dövlət İdarəçilik Akademiyasında** ............................................................................319

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal «Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author's (s') academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

## Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

## 2020, №1(69)

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və müəllim *F.Şammədov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*
Korrektoru *İradə Təhməzova*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.org.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**«Aspoliqraf LTD» MMC-nin**
mətbəəsində çap olunmuşdur.
Sifariş 109. Tiraj 500.

# Journal of Public Administration: Theory and Practice

***Scientific and theoretical journal***

**2020, №1(69)**

The section covering activities the President of the Republic of Azerbaijan is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, assistant professor*
and *F.Shammedov,* lecturer, all from Academy of Public Administration.

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*
Correctors *Irada Tahmazova*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.org.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed at the printing-house of the
**«Aspoliqraf LTD»**
Order 109. Number of printed copies 500.